TÜRK DÜNYASININ
BƏXTİYARI

2002
460

1115
T 96

11319

TÜRK DÜNYASININ BƏXTİYARI

BƏXTİYAR VAHABZADƏNİN HƏYATI, YARADICILIĞI VƏ İCTİMAİ FƏALİYYƏTİ HAQQINDA MƏQALƏLƏR TOPLUSU

I HİSSƏ

BAKI–TƏFƏKKÜR–2002

M. F. Axundov adına Azərbaycan Dövlət KİTABXANASI

ARXİV

70863

Ш5 (2=Аз)

Az 2
T 98

Tərtib edəni:
Mail DƏMİRLİ

T 98 Türk Dünyasının Bəxtiyarı. (Bəxtiyar Vahabzadənin həyatı, yaradıcılığı və ictimai fəaliyyəti haqqında məqalələr toplusu) I hissə. Azərb. dilində. B.: "Təfəkkür" NPM, 2002.364 səh.

Kitabda görkəmli şair və yazıçıların, qələm dostlarının, jurnalistlərin xalq şairi, istiqlal poeziyamızın bayraqdarı, Türk dünyasının milli şairi Bəxtiyar Vahabzadənin zəngin ədəbi-bədii, publisistik və elmi yaradıcılığıdan, milli varlığımızı, dilimizi, dinimizi, istiqlalımızı, ləyaqət və mənliyimizi yaşadan bir türk şairi kimi yorulmaz, fədakar fəaliyyətindən bəhs edən müxtəlif səpkili məqalə və yazıları toplanmışdır. Kitabdakı yazıları oxuyan oxucular zamanın və vicdanın sınağından şərəflə çıxıb bu gün müdriklik, kamillik zirvəsinə yüksələn şairin yarım əsrlik parlaq sənətkar ömrünün hamımıza nümunə olduğunu bir daha yəqin edəcəklər.

T $\frac{4702060204 - 014}{099 - 2002}$

Az 2

©"Təfəkkür"NPM, 2002

ÖN SÖZ

Çoxşaxəli yaradıcılığını öyrənə-öyrənə tədqiq etdiyim və tədqiq edə-edə çox şey öyrəndiyim xalq şairi Bəxtiyar Vahabzadənin dünya şöhrətli ədib-alim olmasının sübuta heç bir ehtiyacı yoxdur. Onun zəngin yaradıcılığı, mədəni ünsiyyəti, təkcə öz xalqının deyil, başqa xalqların da həyatı ilə dərindən maraqlanıb samballı əsərlər yazması yalnız özünə yox, bütün millətimizə şan-şöhrət qazandırır. Bu mənada yeni bir informasiyanı nəzərə çatdırmağa dəyər. "Ədəbiyyat qəzeti"nin 18 yanvar 2002-ci il tarixli sayında düzgün qeyd edilir ki, ölkəmiz dövlət müstəqilliyini bərpa edəndən sonra dünya ilə birbaşa əlaqələrimiz yeniləşir, get-gedə möhkəmlənir. İkitərəfli münasibətlərin yeni mərhələsində Azərbaycanın dəyərli vətəndaşları bir çox mötəbər beynəlxalq mükafatlara, xarici ölkələrin orden və medallarına layiq görülürlər. Dünya xalqlarının indiyə qədər yaratdıqları söz sənəti nümayəndələrindən seçmələri dilimizə çevirmiş, eyni zamanda Şərq və Avropa ölkələrinin ədəbiyyatlarını respublikamızda təbliğ etmiş xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığına diqqət yetirən əcnəbi ədəbiyyatçılar da öz növbəsində görkəmli sənətkarın əsərlərini xarici dillərə çevirmiş, dünyanın bir çox ölkələrində kitablarını nəşr etmişlər.

Bu yaxınlarda Rumıniya Respublikasının prezidenti cənab İon İliesku Bəxtiyar Vahabzadənin Komandor dərəcəli "Ləyaqət" ordeni ilə təltif olunması barədə fərman imzalamışdır. Milli, ümumbəşəri mədəni dəyərlərin qorunmasındakı zəhmətinə, Rumıniya və Azərbaycan respublikaları arasındakı dostluq əlaqələrinin inkişafındakı xidmətlərinə, həmçinin rumın mədəniyyətini, xüsusən də dost ölkənin ədəbiyyatını ölkəmizdə tanıdıb təbliğində göstərdiyi xidmətlərinə görə Bəxtiyar müəllim bu medala layiq görülmüşdür.

Oxucularımızın nəzərinə onu da çatdıraq ki, "Ədəbiyyat qəzeti"nin 2000-ci ilin 10 noyabr tarixli sayında Bəxtiyar müəllimin böyük rumın şairi Mixay Emineskunun həyat və yaradıcılığı haqqında "Hər kəs öz dövrünün övladıdır" məqaləsi, həmçinin onun tərcüməsində "İllər ötdü...", "Mən gizli sevirdim" şerləri verilmişdi.

Yeri gəlmişkən deyim ki, şairin rumın dilinə çevrilmiş şerlərindən ibarət "Zaman və məkan" adlı kitabı ötən il Rumıniyada nəşr edilmişdir. Bu, görkəmli sənətkarın yeni uğurlarına yalnız bir nümunədir.

İllərdən bəri toplanılıb nəşrə hazırlanmış həmin kitabı oxuduqda da bir daha şahid olacaqsınız ki, sənətkar-alimin ictimaiyyətlə əlaqələri nə

qədər geniş əhatəli və dərin məzmunludur. Beş fəsildən ibarət olan bu toplunun girişində sənətkara dövlət və siyasət xadimlərinin göndərdikləri teleqram və məktubları, onların şair haqqındakı fikirlərini nəzərə çatdırmağı vacib bilirik.

Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyev "böyük şair", "görkəmli alim", "tanınmış pedaqoq" və "yorulmaz ictimai-siyasi xadim" kimi yüksək qiymətləndirdiyi B.Vahabzadəyə öz məktubunda yazır: "Sizin şəxsiyyətiniz və yaradıcılığınız xalqın milli təfəkküründən formalaşmasına xidmət etmiş, onu milli dirçəlişə səsləmiş, istiqlaliyyət uğrunda mübarizədə əvəzsiz rol oynamışdır. Siz hər zaman azadlıq carçısı olmuş, ən çətin anlarda belə güc və silah qarşısında baş əyməmiş, əqidəsindən dönməyən şair, mübariz millət vəkili, yorulmaz ictimai xadim kimi xalqın müdafiəsinə qalxmışsınız."

Vaxtilə şairi həbs olunmaq təhlükəsindən qurtaran cənab Heydər Əliyevin digər çıxışlarında sənətkara ünvanlanan fikirləri də burada diqqəti çəkir. Türkiyə respublikasının keçmiş prezidenti Süleyman Dəmirəlin "Azərbaycan və Türk dünyasının böyük" şairi kimi dəyərləndirdiyi Bəxtiyar müəllim xoşbəxt sənətkardır.

"Təhlil, tədqiq, tədris və mülahizələr" adı altında ümumiləşdirdiyimiz birinci fəsil şair-alimin yaradıcılığının çox geniş sahəsini əhatə edir. Burada topladığımız yazıların ən üstün cəhəti odur ki, siyasi əqidəsindən, elm və bilik səviyyəsindən asılı olmayaraq bütün müəlliflər şair-alimin milli mənəviyyatımızı uca tutmasını, onun vətən və xalq işi uğrunda mübarizəsini yüksək dəyərləndirirlər.

Akademik Bəkir Nəbiyevin "Bəxtiyarşünaslığa hədiyyə" məqaləsi xüsusilə diqqəti çəkir. Onun təşəbbüsü və şəxsi əməyi sayəsində "Sənətkar və zaman" kitabı işıq üzü görmüşdür.

B.Vahabzadənin ədəbi-tənqidi məqalələrindən olan bu toplunun çapı uğurlu bir başlanğıca çevrildi. Çünki bundan sonra "Sadəlikdə böyüklük" (1978), "Vətən ocağının istisi" (1982), "Gəlin açıq danışaq" (1991), "Yanan da mən, yaman da mən" (1995) adlı ədəbi-tənqidi məqalələr toplusu da nəşr edildi və ədəbi ictimaiyyətin dərin hörmətini qazandı. Eləcə də bu sətirlərin müəllifinin yazdığı "Şairin ədəbi görüşləri" (2000) kitabını bizim "Təfəkkür" Nəşriyyat-Poliqrafiya Mərkəzi oxuculara təqdim etdikdən sonra saysız-hesabsız razılıq məktubları almışıq. Bu toplunu da nəzərdən keçirən oxucu aydın görəcək ki, B.Vahabzadənin yaradıcılıq aləmi bir sənət xəzinəsi kimi zəngindir.

Akademik Kamal Talıbzadə, Balaş Azəroğlu, Şahmar Əkbərzadə, Hacı İmamverdi Əbilov, Yavuz Axundlu, Tərlan Novruzov, Şirməmməd Hüseynov və digər tədqiqatçı-yazıçı, tənqidçi jurnalist və oxucuların məktubları, müxtəlif səpkili qeydləri şair-alimin yaradıcılığına xalq məhəbbətini çox gözəl açıqlayır. Şerləri, pyesləri, məqalələri və başqa qeydləri təhlil süzgəcindən keçirən həmin müəlliflər B.Vahabzadəni "ümummilli vəhdət nidası" (Rahim Ulusel) kimi dəyərləndirməkdə tamamilə haqlıdırlar.

Azərbaycan prezidenti Heydər Əliyev Türkiyənin Dövlət nazirini qəbul edərkən B.Vahabzadənin "Özümüzü kəsən qılınc" pyesindən söhbət düşdükdə həmin əsəri çox yüksək dəyərləndirərək demişdir ki, "bizim çoxumuz keçmiş tariximizi bilmirik, çünki əvvəllər buna imkanımız yox idi, xalqlarımızın birliyini təbliğ edənlərə "pantürkist" damğası vururdular. Hüseyn Cavidi də buna görə cəzalandırmışdılar."

Türkiyədən ödüllə qayıdan şair-alimimiz ədəbiyyatımıza və milli mənəviyyatımıza yeni uğurlar qazandırdı. Ona görə də bu mövzuda dərc olunan yazıları da bu topluya daxil etməyi zəruri bildik. S.Məlikzadənin "Vətən sevgisi, millət dərdi, ana dili yanğısı", S.İsmayılın "Milli mədəniyyətini yaşatmayan millətlər yox olacaq", X.Məhyəddin qızının "Millətin ağrıyan canı — Bəxtiyar", "Körpü çaydan uzaq düşüb" kitabına Y.Qarayevin yazdığı "Şairin və şerin milliliyi" adlı ön söz dediklərimizə əyani və məntiqi sübutdur. Eyni zamanda Akif Salamın "O, ata evini uşaqlara bağışlayıb, qəlbini xalqa" mövzusunda ilk baxışda adi görünən, lakin böyük vətənpərvərlik hissi aşılayan xırda yazıların da topluya daxil edilməsi oxucuda təəccüb doğurmamalıdır.

Toplunun ikinci fəsli "B.Vahabzadənin pyesləri haqqında" adlandırılsa da, burada toplanan məqalələrin müəllifləri şair-dramaturqun türk xalqlarına milli münasibətini, tarixi hadisələrə müasirlik baxımından yanaşmaq istedadını ətraflı şərh etməyə, layiqincə dəyərləndirməyə nail olmuşlar. Professor Tofiq Hacıyev "Zaman" qəzetində dərc edilən yazısında "Özümüzü kəsən qılınc"ı bu günün xidmətində olan tarix kimi qiymətləndirir. Onun fikrincə B.Vahabzadə türkün tarixi xislətindəki bir keyfiyyəti dürüst tutub. Məhz bu keyfiyyət qüdrətli türkü bəzən acınacaqlı hallara salıb. Türkün bu qara keyfiyyətini qədim Çinin müdrikləri kəşf ediblər. Kəşf ediblər ki, türkü ancaq türk özü məğlub edə bilər. Və bunu gerçəkləşdirmək yolunu da tapıblar: türklə türkün arasına nifaq salmaq, iki qardaş türkü bir-birinə düşmən etmək — bundan sonra düşmənin ala bilməyəcəyi qisası türk bir-birindən alacaq. Tarixən türk ancaq bu yolla uduzub. Türkün etnik psixologiyasını tədqiq-təhlil edib öyrənən B.Vahabzadə bu tarixi həqiqəti müdrikliklə duyub.

Sələfləri "İblis", "Peyğəmbər", "Topal Teymur" dramları sayılan bu pyesə həsr edilən məqalədə qeyd olunduğu kimi, bu gün şüar demək, keçmişi ilə öyünmək vaxtı deyil, bu gün o qara səhnədən dərs almaq, əcdadının zəif cəhətlərindən uzaqlaşmaq, aləmə və tarixə səs salan qüdrətini təkrar etmək, hərəkətə gəlmək zamanıdır. Tarixi yaşanışlar da göstərir, dramın adından da göründüyü kimi: Allah türkü türkün qılıncından qorusun, yad qılıncından özü qorunacaqdır. Bu ideya dramatizmin dalğavari inkişafının leytmotividir.

Taleh Həmid "Müstəqil qəzet"də dərc olunan məqaləsinə seçdiyi adda ümumi fikrini konkret bildirir: "Nə qədər ki, biz içimizdən hakimiyyət yanğısını öldürə bilməmşik, öz qılıncımız özümüzü kəsəcək".

Bəkir Nəbiyev, Şahmar Əkbərzadə və digər müəlliflər də eyni qənaətə gəlirlər. "Xalq qəzeti" "Milli birliyi, dövlətçiliyimizi qorumağa səsləyən əsər", Kamil Vəli Nərimanoğlu "Milləti zəlil qoyub gedənlərin səhnə ağısı", Nəriman Həsənəliyev "Bir olsaq özümüzü kəsməz bu qılınc! Belə olaq həmişə" deyə əsərin məziyyətlərindən böyük qürurla danışırlar. İmran Axundlu isə "Təzadlar" qəzetindəki yazısında həmin dramı" milli teatrımızın son 25 ildəki ən böyük qələbəsi" hesab edir.

Cəmil Əlibəyov, Şahnaz Mətləbqızı və Firuz Mustafanın məqalələrində, "Femida" qəzetinin xüsusi qeydlərində "Dar ağacı" pyesinin şair-dramaturqun yaradıcılığında uğurlu addımların davamı olması təbii sayılır.

Buradakı "Tənqid və ədəbiyyatşünaslıq" yazısı öz sambalı və həcmi etibarilə seçilir. Bəxtiyar Vahabzadənin dram əsərlərinin daha ətraflı təhlilinə böyük məsuliyyətlə yanaşan Aydın Dadaşovun "Azərbaycan" jurnalında dərc olunmuş həmin məqaləsində deyilir ki, Azərbaycan istiqlaliyyətini yenidən qazandıqdan sonra, istər-istəməz klassizm cərəyanı istiqamətində müxtəlif əsərlərlə yanaşı dramaturgiya nümunələri də yaranmağa başladı. Bu əsərlərin bir çoxunda tarixi keçmişin fundamentallığı, millətin qəhrəmanlığı, ayrı-ayrı tarixi şəxsiyyətlərin böyüklüyü ön plana gətirildi. "Özümüzün kəsən qılınc" pyesində Bəxtiyar Vahabzadə tarixi keçmişə üz tutsa da, hadisələri faciəvilik məqamında araşdırmağı və təqdim etməyi vacib saymışdır. Ağır sınaq illərini yaşayan bir millətin dərdlərini-bəlalarını sənət ekvivalenti ilə onun özünə çatdırmaq həmin sənəti əbədilik çevrəsinə qoşa bilir.

Bəli, bir vətənpərvər kimi dövrün-zamanın sınağından çıxaraq, bir çox mənəvi çətinliklərə sinə gərmiş, professional dramaturq kimi onuncu pyesini təqdim edən Bəxtiyar Vahabzadə milli səhnəmizdə özünü çoxdan təsdiq etmişdir.

Milli dramaturgiyamızın uğuru kimi dəyərləndirilən bu tamaşaya baxan hər kəs böyük Aristotelin belə bir fikrinin doğruluğuna, bu gün də aktual səslənməsinə ürəkdən inanır: "Müəllifin özü tərəfindən nəql edilən eposdan fərqli olaraq, dramada fəaliyyət nəql yolu ilə deyil, canlandırma yolu ilə təqdim olunur".

Bəxtiyar Vahabzadə pyeslərinin Türkiyədə səslənməsilə bağlı Fəridə Səfiyevaya verdiyi müsahibəsində bildirir: "İkinci səs" tamaşası sensasiyaya səbəb oldu. Mətbuatda, televiziyada geniş işıqlandırıldı. Hər dəfə tamaşa salonu ağzınacan dolu olurdu. Noyabrın 9-da pyesə ictimai baxış olmalı idi. Türklər bunu "Qala tamaşa" adlandırırlar. Bu tamaşaya sənət adamları, ziyalılar və rəsmi vəzifə daşıyan şəxslər dəvət olunurlar. Bizdə buna "premyera" deyirlər. Bir fərq ondadır ki, bizdə ilk tamaşa "premyera" sayılır, türklərdə isə əsər bir neçə dəfə oynanıb cilalandıqdan sonra "Qala tamaşa" göstərilir.

Məqalə müəllifi iftixarla qeyd edir ki, "Özümüzü kəsən qılınc"a baxanlar mənə yaxınlaşıb ürək sözlərini deyirdilər. İstemihan Talay, Namiq Kamal Zeybək, prof. dr. İhsan Doğramacı pyesi yüksək qiymətləndirib, onun bütün türk dünyası ölkələrində oynanmasını lazım bildiklərini dedilər.

"Meyvəsiz ağaca daş atmazlar" məsəlini burada da təkrar etməyə dəyər. Çünki III fəsildə — "Şairə olan hücumlara cavablar"da Xeyrəddin Qoca, Süleyman Əliyarlı, Sabir Rüstəmxanlı, Vilayət Quliyev, Nizami, Qədir Nəsirov, İkram İnad və ayrı-ayrı qələm sahibləri Bəxtiyar Vahabzadəyə olan hücumlara cavab verməyi özlərinə milli borc sayır, elə tutarlı dəlillər gətirirlər ki, şairə atılmış oxlar bumeranqa çevrilir.

Deputatlığa namizədliyi irəli sürüləndə şairin şəkiyə səfəri zamanı yol yoldaşı olan Ramazan Qafarlı onun milli hisslərini, milli qeyrət yanğısını yaxından duyub, şairin kimisə vəzifəyə qoydurduğunu və ya qovdurduğunu söyləyənlərə qarşı çıxır: "Çoxlarını bir məsələ bərk düşündürür: Bəxtiyar Vahabzadə hansı əqidənin sahibidir, hansı partiyaya qulluq göstərir? "Müsavatçı"lar deyirlər ki, o, bizim mövqeyimizdən çıxış edir. AXCP onu öz nümayəndəsi sayır. YAP da şairi sıralarında görmək istəyir. Lakin, Bəxtiyar Vahabzadə partiyaların hamısından yüksəkdə durduğunu son səhnə əsəri "Atamın kitabı"nda çılpaqlığı ilə nümayiş etdirdi. Onun düşüncəsində parçalanma, qruplara, tayfalara, dəstələrə bölünmə yoxdur. Həmişə xalqının bütövlüyü uğrunda vuruşub, indi də Vətən övladlarını birliyə çağırır. Doğrudur, müxalifət cəbhəsində duranların bəziləri qəsdən onu iqtidarın, iqtidardakılar da müxalifətin adamı kimi

qələmə verməyə çalışırlar. Məgər "Kitabi-Dədə Qorqud"u, "Koroğlu"nu, yaxud Nizamini yapçılar da, müsavatçılar da eyni dərəcədə sevmirlərmi?"

"Yeni Azərbaycan" (4 sentyabr 1999-cu il) qəzetində çıxış edən Vəfa Rzayevanın qəzəbi elə məqaləsinin sərlövhəsindən məlum olur: "İqrar Əliyevin "elmi" Azərbaycan türklərinin böyük şairi Bəxtiyar Vahabzadənin bir misrasına belə dəyməz". Nə üçün? Çünki İqrar Əliyev şair-alimi Leninin və Kommunist Partiyasının məddahı kimi tənqid etməklə ədalətsizliyə yol vermişdir. Hələ sovet dövründə "Gülüstan" poemasını, milli azadlıq uğrunda mübarizə ruhlu şerlərini yazmaqdan və çap etdirməkdən çəkinməyən, işğalçı rus generalının üzünə tüpürən, cəsarətinə görə seçilən və sevilən Bəxtiyar Vahabzadəni "İmpuls" qəzetində "Epikantusun dilə, xüsusən də türk dilinə nə dəxli?" adlı məqalə ilə təhqir edən İqrar Əliyev yalnız özünə nifrət qazandırmışdır.

Bəxtiyar Vahabzadəni Türkiyənin sabiq prezidenti Süleyman Dəmirəlin "Azərbaycanın və Türk dünyasının böyük şairi" adlandırdığı bir dövrdə İqrar Əliyevi ifşa etməyə nail olan Vəfa Rzayeva böyük səmimiyyətlə etiraf edir: "Əgər bu gün hər birimiz Bəxtiyar Vahabzadənin Vətənə, torpağa, millətə qarşı duyduğu sevginin, məhəbbətin kiçik damlasını qəlbimizdə yaşatsaydıq inanıram ki, bir çox bəla və əngəllərdən uzaq olardıq. Bəxtiyar Vahabzadə kimi millət, xalq üçün "yanaraq yaşasaydıq" tezliklə xoşbəxtliyə qovuşardıq. Biz Bəxtiyar Vahabzadə sənətindən, şəxsiyyətindən çox şey öyrənmişik, öyrənirik".

IV fəsil şairə ünvanlanmış təbriklər və məktublardan ibarətdir. Heç şübhəsiz ki, bu məktublar şairin yaradıcılığını xalqımızın həyatı ilə bağlayan "milli tellər" kimi dəyərlidir.

B.Vahabzadənin rumın dilinə tərcümə olunmuş "Zaman və məkan" kitabının Rumıniyada keçirilən təntənəli təqdimat mərasimində bu ölkənin ədəbiyyat xadimlərinin böyük şair və onun kitabı haqqında çıxışlarını ayrıca başlıq altında tərtib edərək topluya daxil etmişik.

Toplunun materiallarına tarix etibarilə nəzər salan oxucu şair-alimin yaradıcılıq təkamülünü — əvvəlcə Azərbaycanın Bəxtiyarı, sonra bütün Türk dünyasının Bəxtiyarı olduğunu, V fəsildə şair haqqında türk, rus və ingilis dillərində olan yazıları oxuduqda isə Bəxtiyar Vahabzadənin dünya şöhrətini aydın hiss edəcəklər. Biz isə toplunu "Türk dünyasının Bəxtiyarı" adlandırmaqla kifayətlənirik.

Mail DƏMİRLİ,
filologiya elmləri namizədi, professor

DÖVLƏT VƏ SİYASİ XADİMLƏRİN TƏBRİKLƏRİ, SİTATLARI

AZƏRBAYCANIN XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏYƏ

Əziz Bəxtiyar müəllim!

Sizi — xalqımızın böyük şairi, görkəmli alimi, tanınmış pedaqoqu və yorulmaz ictimai-siyasi xadimini 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Xalqın düşüncə və arzuları, hiss və duyğuları, istək və amalları həmişə sizin zəngin yaradıcılığınızın, mübariz poeziyanızın cövhəri olmuşdur. Məslək və əqidənizin xidmətində sədaqətlə durmuş qələminiz sizi şöhrət zirvəsinə ucaltmış, Azərbaycanın sevimli sənətkarı etmişdir.

Çoxillik elmi-pedaqoji fəaliyyətiniz, nurlu şer-sənət dünyanız illər boyu gənclərin tərbiyəsinə böyük təsir göstərmiş, haqq-ədalətin təntənəsi uğrunda mübarizədə qalib gəlməyə xalqı səfərbər etmişdir. Bu gün Vətən torpağının keşiyində duran mərd oğul və qızlarımız məhz doğma xalqın, müqəddəs torpağın azadlığı üçün yanmaq amalı ilə yaşayır, döyüşür və yaradır.

Sizin şəxsiyyətiniz və yaradıcılığınız xalqın milli təfəkküründün formalaşmasına xidmət etmiş, onu milli dirçəlişə səsləmiş, istiqlaliyyət uğrunda mübarizədə əvəzsiz rol oynamışdır. Siz hər zaman azadlıq carçısı olmuş, ən çətin anlarda belə güc və silah qarşısında baş əyməmiş, əqidəsindən dönməyən şair, mübariz millət vəkili, yorulmaz ictimai xadim kimi xalqın müdafiəsinə qalxmışsınız.

Hörmətli şair!

Sizi — həyatın mənasını xalqa sədaqətlə xidmətdə görən fədakar insanı ömrün müdrik çağında Azərbaycanın müstəqilliyi həqiqətən bəxtiyar etmişdir. Sizə möhkəm cansağlığı, uzun ömür və müstəqil Azərbaycan dövlətinin gələcəyi naminə fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

Azərbaycan Respublikasının prezidenti
Heydər ƏLİYEV

XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏYƏ

Hörmətli Bəxtiyar Vahabzadə!

Sizi — iyirminci əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən birini 75 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Sizin yaradıcılığınız Azərbaycan ədəbiyyatının inkişafında mühüm rol oynamışdır. Dərin məzmunu, yüksək poetik məziyyətləri və ictimai-fəlsəfi siqləti ilə səciyyələnən əsərlərin müəllifi kimi adınız ədəbiyyat tariximizə əbədi həkk olunmuşdur. Əsrlərlə formalaşmış yüksək mənəvi dəyərlərimizi vəsf edən şer və poeamalarınız, səhnə əsərləriniz daim böyük rəğbət və ehtiramla qarşılanmışdır. Xalqımızın keşməkeşli taleyi, yaşadığı faciəli və əzablı günlər vətənpərvər övlad kimi daim sizi düşündürmüş, onun ağrı-acıları həssas qəlbinizi alovlandırdığı kimi, xoşbəxt günləri də sizi sevindirmişdir. Qanlı Yanvar faciəsi günlərində tutduğunuz əsl vətəndaşlıq mövqeyi öz tarixi əhəmiyyətini heç vaxt itirməyəcəkdir.

Vətənlə, xalqla, ana dilimizlə qırılmaz tellərlə bağlı olan hər bir misranızdakı hikmət ölkəmizin müstəqilliyi uğrunda vətənpərvər mübarizlərin yetişməsində böyük rol oynamış və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində bir örnək olmuşdur. Siz yüksək ideallar tərənnüm edən poeziyanızla millətin birliyinə, ləyaqətinə ehtiram hissləri aşılamış və onların təntənəsi uğrunda səbirlə, yorulmadan, ardıcıl mübarizə aparmısınız. Bəşəriliklə milliliyin vəhdətindən qaynaqlanan əsərləriniz ölkəmizdə milli şüurun yüksəlməsinə güclü təkan vermişdir. Bədii sözə böyük inam və hörmət bəsləyən xalqımızın imperiyaya, totalitarizmə qarşı nifrətini, azadlığa, istiqlaliyyətə olan sevgisini ifadə etməkdə siz bir çox siyasətçinin görə bilmədiyi işi görmüsünüz.

Azərbaycan ziyalıları sizi təkcə bir şair deyil, həm də böyük tədqiqatçı alim, mahir pedaqoq və gözəl publisist kimi tanıyırlar. İdeyalarınızla pərvazlanaraq müstəqil həyata qədəm qoyan neçə-neçə tələbə nəsli bu gün nə vaxtsa sizi dinləməkdən, sizin tələbəniz olmaqdan sonsuz qürur və şərəf hissi duymaqdadır.

Sizin ictimai-siyasi xadim kimi də fəaliyyətiniz təqdirəlayiqdir. Yaradıcılığınıza və göstərdiyiniz böyük xidmətlərə görə siz bir çox mükafatlara, fəxri adlara layiq görülmüsünüz. Lakin onların heç biri qazandığınız xalq məhəbbəti qədər qiymətli və əziz ola bilməz.

Əminəm ki, sizin qələminizdən çıxan, xalqımızın arzu və istəklərini tərənnüm edən əsərləriniz Azərbaycan Respublikasının müstəqillik yolları ilə inkişafı uğrunda bundan sonra da ən uca, ən ülvi amalların gerçəkləşməsinə xidmət edəcəkdir.

Sizə uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

Bakı şəhəri, "Azərbaycan" qəzeti,
15 avqust 2000-ci il.

* * *

... Ən böyük dissident Bəxtiyar Vahabzadə idi. Hətta mənim xatirimdədir, mən Təhlükəsizlik Nazirliyində işləyən zaman onun həbs olunması məsələsi qoyulmuşdu. Yaxud da ki, Xəlil Rza ən böyük dissidentlərdən biri idi. Çünki onun əsərləri, o cümlədən Bəxtiyar Vahabzadənin əsərləri həqiqəti deyirdi. Amma bu həqiqət o vaxtkı kommunist ideologiyasına zidd idi və buna görə də onlar dissident idilər.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

Yazıçı Rüstəm İbrahimbəyovun 60 illik yubileyindəki nitqindən
"Ədəbiyyat qəzeti", 12 fevral 1999-cu il.

* * *

... Mən hələ Dövlət Təhlükəsizlik Komitəsində işləyən zaman Bəxtiyar Vahabzadənin həbs olunması məsələsi meydana çıxmışdı. O vaxt mən onu xilas etdim. Qoymadım həbs olunsun. Nəinki qoymadım, onunla dəfələrlə söhbətlər apardım, öz məsləhətlərimi verdim. Bunlar hamısı onun xatirindədir. Belə bir insan o vaxtlar böyük fəlakət qarşısında idi. Nəyə görə? Heç bir cinayəti yox idi. Ona görə ki, millətini sevirdi, millətin qayğıları haqqında yazılar, şerlər yazırdı. "Gülüstan" poemasını yazmışdı. Ondan ötrü o zaman həbs etmək məsələsini qoymuşdular.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti
Milli Təhlükəsizlik Nazirliyinin yubileyindəki nitqindən.
"Xalq qəzeti", 6 iyul 1997-ci il.

Hörmətli Bəxtiyar Vahabzadə!

Sizi, Azərbaycan xalqının böyük istiqlal şairini anadan olmağınızın 70 illiyi münasibətilə təbrik etməkdən böyük şərəf duyuram. Sizin ədəbi yaradıcılığınız bütün türk dünyasının mənəvi birliyi və yüksəlişi ilə də yaxından əlaqədardır. Odur ki, sizi sadəcə azərbaycanlı qardaşlarımızın deyil, çağdaş türk dünyasının böyük bir qələm ustadı olaraq salamlayıram.

Əsərləriniz ölkəm Türkiyədə də böyük maraqla oxunmaqda, təqdim edilməkdə və bəyənilməkdədir. Türkiyə cümhuriyyətinə bəslədiyiniz sevgi xalqlarımız arasındakı dostluq və qardaşlıq əlaqələrinin güclənməsinə əhəmiyyətli təkan vermişdir. Bu istiqamətdə xeyirxah fəaliyyətinizi bundan sonra da davam etdirəcəyinizə əminəm.

Sizə Azərbaycanın haqq işi və inkişafı yolunda apardığınız mübarizədə uğurlar, cansağlığı və səadət diləyirəm.

Süleyman DƏMİRƏL,
Türkiyə Cümhuriyyətinin prezidenti
Ankara, 7 oktyabr 1995-ci il.

* * *

...Bu gün Azərbaycan tarix səhnəsində bir daha müstəqil olaraq haqlı yerini tutmuşdur. Azərbaycanın və bütün türk dünyasının böyük şairi, əziz dostum Bəxtiyar Vahabzadə müstəqilliyin bayrağının mənasının nə olduğunu, baxın, nə qədər gözəl anladır:

Öz məsləkim, öz eşqim,
Öz amalım, öz eşqim

Daim məndən öndədir,
Azərbaycan bayrağı
başımın üstündədir.
Əqidəmin, eşqimin,
Qanımın rəngi bayraq,
Bütün arzularımın
Qızıl çələngi bayraq.
Hər şeydən bu dünyada
Şərəf uca, şan uca,
Zamanın yollarında
Mən ki, səni tutmuşam
Daim başımdan uca.

Heydər Əliyevə Beynəlxalq Atatürk Sülh Mükafatı verilməsi mərasimində Süleyman Dəmirəlin söylədiyi nitqdən.
"Xalq qəzeti", 6 noyabr 1999-cu il.

* * *

... Azərbaycanın və türk dünyasının böyük şairi, əziz dostum, qardaşım Bəxtiyar Vahabzadə bu əziz vətənə və türk dünyasının qardaşlığına bəslədiyi məhəbbəti bu sözlərlə ifadə edir:

Əzizdir öz yurdum, torpağım mənim,
Ucal ey müqəddəs, bayrağım mənim.

Türkiyə Respublikasının keçmiş prezidenti Süleyman Dəmirəl

"Ədəbiyyat qəzeti", 22 oktyabr 1999.

* * *

...Gəlin ortaq dəyərlərimizə sahib çıxaq, onları yaşadaq. Orxan abidələrindən başlayan, "Manas" dastanında təcəssüm edən, Xoca Əhməd Yəsəvidə alovlanan, "Koroğlu"da, "Dədə Qorqud"da, Molla Nəsrəddində, Nizamidə, Fizulidə, Yunis İmrədə, Hacı Bəktaş Vəlidə, Gur Babada, Əlişir Nəvaidə, Abayda, Qaracaoğlanda, Məhdimquluda, Mövlanada, Hüseyn Caviddə, Əhməd Cavadda, Əbdülhəq Hamiddə, Yəhya Kamalda, Çingiz Aytmatovda, Bəxtiyar Vahabzadədə çiçəklənərək böyüyən bütün sərvətlər hamımızındır.

1999-cu il oktyabrın 18-də Türkiyə Respublikasının Cümhurbaşkanı S.Dəmirəlin "İstiqlal" ordeni ilə təltif olunarkən söylədiyi nitqdən: "...

"Azərbaycan" qəzeti, 11 aprel 2000.

ADINIZ MİLLƏTİN ÜRƏYİNDƏKİ ŞƏRƏF KİTABINA YAZILIB

Əziz Bəxtiyar müəllim! Anadan olmağınızın 75 illiyini ürəkdən qutlayıram. Sizə cansağlığı, uzun ömür, yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Siz bizim bilavasitə görüşdüyümüz və tanıdığımız ilk insansınız ki, bizə gerçək milliyyətçilik dərsi vermisiniz. Sovet rejiminin ən ağır illərində qələmə aldığınız "Gülüstan" poemasının əlyazması Bütöv Azərbaycan yanğısını, Təbriz həsrətini dilə gətirən nalə, fəryad kimi oxunurdu. Bu əsər özgə cür düşünən ilk çağdaş Azərbaycan aydınının öz millətinə və bütün dünyaya müraciəti idi. Bu əsərdən aşıb-daşan azadlıq eşqi Azərbaycan dərsliyinə yeni ruh, inam və iman verdi.

Milli duyğu və fikirləri sənətkarlıqla ifadə edən poeziyamız Azərbaycanda sonradan yaranacaq siyasi məktəb üçün təməl oldu. Qarabağ uğrunda gedən mübarizədə və milli-azadlıq hərəkatında səsimizə səs qatan, millətə həyan olan, dünyaya haray salan gerçək xalq şairi kimi xidmətiniz əvəzsizdir. Dilimizin adının Türk dili olması üçün apardığınız mübarizə tarixə yazılmışdır. Dilimizin saflığı, gerçək dövlət gücü qazanması uğrunda verdiyiniz mücadilə nəsillərə örnəkdir. Siz təkcə bütöv Azərbaycanın deyil, bütün Türk dünyasının milli şairisiniz. Milli şairlərin adı millətin ürəyindəki şərəf kitabına yazılır.

Sizi—öz xoşbəxtliyini millətin xoşbəxtliyindən ayırmayan əziz millətçilik müəllimimi bağrıma basıb öpür, bütün varlığımla ürəkdən təbrik edirəm.

Əbülfəz ELÇİBƏY,
Azərbaycan Respublikasının keçmiş prezidenti.
"Yeni Musavat", 16 avqust 2000

I FƏSİL

41319

TƏHLİL, TƏDQİQ, TƏQDİR VƏ MÜLAHİZƏLƏR

M. F. Axundov adına
Azərbaycan Dövlət
KİTABXANASI

Mail Dəmirli,
"Təfəkkür" Universitetinin rektoru

MİLLİ İFTİXARIMIZ — ŞAİR BƏXTİYARIMIZ

Bu sətirləri yazanda xalq şairi Rəsul Rzanın bir şeri yadıma düşdü:

Kaman çalan kimdir, o, Bəxtiyar,
Küləkmi, ya simdir o, Bəxtiyar.
Bundan sonra analar, Bəxtiyar,
Körpəsinə ad qoyar – Bəxtiyar.

Şer Böyük Vətən müharibəsinin məğrur döyüşçüsü Bəxtiyara həsr olunsa da, şair-alim Bəxtiyar Vahabzadənin şərəfinə qoşulan şerlər, körpələrə qoyulan adlar, xalqımızın milli iftixarına çevrilən istiqlal şairinin şöhrəti ürəyimi dağa döndərdi. Artıq yeddi onilliyi arxada qoyan şairin "Azərbaycan" nəşriyyatında yenicə nəşr olunmuş "Ağıl başqa, ürək başqa" toplusunu və "Bəxtiyar Vahabzadə" foto-kitabını elmi-tədqiqatımın subyekti və obyekti olan görkəmli şəxsiyyətə məhəbbətlə oxudum.

Azər Bağırovun redaktəsi ilə buraxılan kitaba şairin 1998—1999-cu və ondan əvvəlki illərdə yazdığı şerləri və məşhur "Gülüstan" poeması daxil olunmuşdur. Düşünməyi və düşündürməyi bacaran şairin hər bir şeri ayrıca söhbətin, xüsusi bir tədqiqatın mövzusu olsa da, mən burada onların yalnız bəziləri haqqında danışacağam.

Ağrılı-acılı günlərimizin problemlərindən, qan bahasına əldə etdiyimiz azadlıqdan, dövlət müstəqilliyinin uğurlarından və demokratiyaya söykənərək öz şəxsi mənafeyini Vətən və millətdən uca tutanların qeyrətsizliyindən bəhs edən şerlərin tilsiminə düşməmək olmur:

Bu gün vahid anamızı
Hərə çəkir bir tərəfə,
Kinimizi, eşqimizi
tuşlamırıq bir hədəfə.

Şair yana-yana yazır, yaza-yaza yanır. Onun şerləri aydın göstərir ki, vətəndaşlıq hissi olmadan ölkə, xalq tərəqqi edə bilməz. Vətəndaşlıq hissi vətənpərvərlik hissi ilə üzvi surətdə bağlı olub, öz həmvətənləri-

nin qayğısına qalmaq, dar şəxsi mənafe çərçivəsindən yüksəlib ümumxalq miqyasında düşünə bilmək, vətənin, xalqın taleyi ilə yaşamağı bacarmaq, vətəndə yaşayan hər bir adamın taleyi ilə öz taleyini bağlaya bilmək, başqalarının hüquqlarını öz hüququn kimi qorumağa çalışmaq, özünü xalqın bir zərrəsi duymaq, bir sözlə, başqa vətəndaşlarla qırılmaz tellərlə bağlı olduğunu dərindən dərk etmək deməkdir. Görkəmli alimlərdən biri yazmışdı ki, "əgər insanlar arasında vətəndaşlıq hissi olmasaydı, onda yəqin ki, insan cəmiyyətini heyvan sürüsündən ayırmaq çətin olardı".

Xalq şairi "Məndən ötdü qardaşıma dəydi, elə bildim saman çuvalına dəydi" məsəlini həyatda rəhbər tutanların yanıldıqlarını vurğulayır. Qeyd edir ki, bələləri bu gün özgəsinə atılan daşın sabah özlərinə dəyəcəyini unudurlar.

Qaçqın və köçkün adından istifadə edərək işğal altında qalan rayonlarımızın adına kababxana, bar, yeməkxana açanlar, hətta iki-üç yerdə villa tikdirib "Mersedes"də gəzən "dilənçilər" də şairin nəzərindən yayınmır:

Kef çəkib "Qarabağ" kafesində biz
"Qarabağ dərdini çəkirik" bu gün.

"Yazıq vətən" şeri vətən və vətəndaşlıq hissini şəxsi mənafelərinə qurban verənlərə qarşı tutarlı bir sillə kimi səslənir:

Fəryad çəkən bu ananı düşünən yox!
Öz dərdinin atəşinə
Qalanını düşünən yox!
Hər ikisi "mənəm" – deyir,
İqtidara yetişməkdən
ayrı bir şey düşünməyir –
coşan qəlblər, qızan başlar,
Hakimiyyət davasıdır bu savaşlar.

Tarixi həqiqətdir. 1918-ci ildə erməni basqınına məruz qalmış Azərbaycana köməyə gələn türk ordusunun zabiti şücaətlə döyüşmüş, Şamaxı ətrafında erməni güllələsinə tuş gəlmişdir. O, öz arzusu ilə yaralandığı yerdə dəfn olunmuşdur. Oxucunu canı və qanı bizimlə bir olan türk ordusunun zabitinə minnətdarlığa çağıran şair onun cəsarət və rəşadətinə qibtə edir:

Uzaqdan hay verib sənin səsinə,
Gəldi, qayıtmadı öz ölkəsinə.

Düşmən sədlərini o, soldan-sağa
Biçib dəstəsilə cəbhəni yardı.
Torpağın yolunda düşüb torpağa
Sənin torpağını sənə qaytardı.

"Mədəniyyət" qəzeti builki 16-cı sayında çox düzgün qeyd edir ki, B.Vahabzadə vətəndaş şairdir. Amma o, bir çoxlarının təqdir və qəbul etdiyi kimi, dar, məhdud düşüncəli, kiçik ampulalı vətəndaş deyildir. Onun poeziyası iriçaplı, geniş diapazonlu, bir sözlə, bəşəri poeziyadır. Şair bütün dünyanı hürr, dünyanın bütün məmləkətlərini azad, məmləkətlərin bütün insanlarını xoşbəxt, xoşbəxtliyi isə mütləq mənada əbədi görmək istəyir.

Buqələmun kimi tez-tez cildini dəyişən kürsü düşkünlərini B.Vahabzadə "Axtarırsan" şerində məhz belə ümumiləşdirir.

Bir üzü gəlinsən, bir üzü arvad,
Kommunist, AXC, sonra Müsavat.
Ordan da çıxmısan, ay evi bərbad,
İndi də daşnaka yol axtarırsan.

Qəzet bolluğu kimi, partiyaların bolluğu da münaqişələrə, mübahisələrə, hətta son günlərin hadisələri göstərir ki, terrorçuluğa səbəb olur. Partiyaları "bir məram, bir qayə" uğrunda mübarizədən yayınmaqda suçlandıran şair

"Xalq içinə rəxnə salar
Didişdikcə partiyalar",

— deyə üzdəniraq siyasətçilərin iç üzünü açır. Bir məxrəcə gələ bilməyənlərin hakimiyyət hərisliyinə gülür:

Üzdə gülüş, dalda söyüş,
Gözdə qəzəb, kin görünür.
Müxalifin müxalifə iddiası
Müxalifin iqtidara
Nifrətilə tən görünür.

Bu sətirlər U.Çörçilin "Siyasətçi başını itirməkdən yox, sifətini itirməkdən qorxmalıdır" kəlamı ilə necə də səsləşir. Tarix təkrar olunur. Bu gün Bəxtiyar Vahabzadənin yazdıqları ilə əsrimizin əvvəllərində Nəcəf bəy Vəzirovun, eləcə də Azərbaycan xalq maarifçilərinin yazdıqları üst-üstə düşür: "... Qəpikpərəstlik bizim evimizi yıxıb, gecə-gündüz, vaxt-bivaxt fikrimiz-zikrimiz qəpikdir. Atam, anam, bacım, qardaşım, di-

nü-imanım qaraca qəpikdir, deyib durmuşuq. Dama-dama göl olar, qəpik-qəpik yığılıb ağca manat əmələ gəlir. Manatlardan dəxi cəm olub, cənab məşədi nemətqululular əmələ gəlirlər. Sahibi-dövlət ona görə sahibi-hörmət, mərhəmət, ələlxüsus səxavət... O qaraca qəpiyə o qədər məhəbbətimiz var ki, qeyri işlər yadımıza düşməyir, millətpərəstlikdən dəm vururuq qaraca qəpikdən ötrü, qoçuluq edirik genə o qəpikdən ötrü. Qəpik müqabilində vətən nədir, millət nədir, insaniyyət nədir... Hər nə deyirik olacaq olsun, ortalıqda ancaq qaraca qəpikdən olsun".

B.Vahabzadəni kəskin təzadlar şairi kimi tanıyanlar tamamilə haqlıdırlar. O, müəyyən bir fikri öz oxucusuna daha qabarıq, canlı və təsirli şəkildə çatdırmaqdan ötrü mənaca bir-birinin əksi olan həyat lövhələrini yanaşı işlətməyi vacib bilir. "Dükandar — müəllim" şerində nisyə dəftərindəki borclarını ödəyə bilməyən müəllimin etirafı oxucunun ürəyini göynədir. Aylarla maaş almamasını dükandar şagirdinə anlatmaq istəyən müəllim "Mənə nə dəxli var?" sualını eşidəndə çıxılmaz vəziyyətdə qalır. Müqəssir müəllimə hakim şagird yol göstərməli olur:

– Bilirəm çətindir indi neynəyək,
Borcunu birtəhər təmizləyəsən?
Xətrinə dəyməsin, gəl, bir iş görək.
Bağımı belləyə bilərsənmi sən?

Dükandar axşam çağı evə qayıdanda bağını səliqə ilə bellənmiş görür, gülümsəyir və bir ağa ədası ilə dönüb müəllimə deyir: "Malades!"

Qırx il balalara dərs deyən müəllimin aqibəti şairi dərindən kədərləndirir və bu həyat təzadından çox şey öyrənir. Beləliklə, şair dövrünü, zəmanəsini bir ziyalının dili ilə qamçılayaraq şerə bu cür yekun vurur:

Bilmirdim bu sirri burda anladım,
Bircə addım varmış, yalnız bu addım.
Alimdən cahilə, qaradan ağa,
Müəllim–nökərdir, dükandar–ağa.

Yaxud "Sualın cavabı" şerində bu təzad, bu antonim daha aydın ifadə olunur:

Müxalifət bəs niyə
Çağırır bu milləti
Gecə-gündüz birliyə?
Çəp düşüncə sözləri,
Bir olammır özləri.

Dil millətin mənəvi varlığıdır. Şair bu məsələ ilə əlaqədar fikirlərini xalqa çatdırmağı özünə mənəvi borc bilir. Ona görə də dilimizə xor baxanları, dərhal "böyük" millətlərin təsiri altına düşənləri, dili də bir qazanc mənbəyinə döndərənləri milli mənliyimizdən uzaqlaşmamağa, dilimizi və dinimizi müqəddəsləşdirməyə çağırır. B.Vahabzadənin bu münasibətinə haqq qazandıran iki məqamı xatırlatmaq yerinə düşər. Məşhur türk müğənnisi İbrahim Tatlısəsin Bakıda konsertdə dediyi sözləri "Bu gün" qəzeti belə açıqlamışdır: "Konsert müddətində səhnəyə çıxan körpələri danışığa tutan Tatlısəs ona gül verən körpənin birinin "Əvət" kəlməsini eşidəndə incik tərzdə — "əvət" yox, "bəli, xeyr" demək lazımdır, — dedi. Məncə bu körpənin timsalında Tatlısəs hamımıza yaxşı bir öyüd verdi".

Hazırda Türkiyədə yaşayan aktrisa Məlahət Abbasova "Üç nöqtə" qəzetinə *(11 iyun 2000-ci il)* müsahibəsində deyir: "Türkcə yaxşı danışmaq, yaxşı rollar demək idi. Ancaq öz dilimizi unutmamışam və unutmayacağam da. Azərbaycandan Türkiyəyə gələn hər bir kəs mənə zəng vurur. Halını soruşub "necəsiniz?" deyirəm. Onlar isə "iyiyəm" söyləyirlər. Mən buna çox əsəbiləşirəm. Onlar da azərbaycanlıdır, mən də. Nə üçün mənimlə Osmanlı türkcəsində danışırlar..."

Deməli, xalq şairinin dilimizin saflığı, onun yaşaması uğrunda mübarizəsi həm də müasir həyatın tələbidir. B.Vahabzadənin müdriklərdən V.Humboltun belə bir fikrini epiqraf seçməsi də təsadüfi deyil: "Xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir". "Özgə" şerində dilini dəyişən, var-dövləti millətindən və Vətənindən üstün tutanlara ürəkdən acıyan şair çox haqlı olaraq yazır:

Qaldı öz dilimiz qapı dalında,
Çəkir bu milləti hərə bir yerə.
Millət ac, harınlar cah-cəlalında,
İlahi, qeyrət ver qeyrətsizlərə.

Məmləkətimizə əcnəbi axını iqtisadiyyatımızı sıxışdırdığı, özümüzü uzunmüddətli borca saldığı kimi dilimizə də qadağa qoyur, əcnəbi dildə kəkələməyə məcbur edir:

İstiqlal qazanıb biz elə bildik,
Qurtardıq milləti qəhr edən oddan.
Amma bilmədik ki, mərhum edildik
Dağlarda qurutdan, aranda tutdan.

İndi qəzet bolluğunda yaranan hərc-mərclik, demokratiya adından sui-istifadə edənlərin mətbuat etikasına məhəl qoymaması ciddi çaşqınlıq yaratmışdır. Odur ki, şair bu hadisəyə laqeyd qala bilmir və "Söz güləşməsi" adlı şerində deyir:

Didişmə, çəkişmə baş alıb gedir,
Doğru da, yalan da qəzetlərdədir.
O, buna şər atır, bu ona böhtan,
Çətindir əyrini düzdən ayırmaq.
Seçə bilməsək də, haqqı nahaqdan
Tapdanan millətin haqqıdır ancaq.

Mətbuatda dövlət senzurasının yoxluğunu demokratiyanın təntənəsi kimi başa düşmək demokratiyanın özünü mücərrədləşdirə bilər. Vaxtilə Mark Tven çox yaxşı demişdir: "Bizdə azad mətbuat haqqında qanun var, amma azad mətbuatdan müdafiə haqqında qanun yoxdur". Dəfələrlə məhkəmələrə düşən, faktlara cavab tapmayan qəzetlərin taleyi buna əyani sübutdur.

B.Vahabzadənin özünə müəllim saydığı böyük mütəfəkkir M.F.Axundov müftəxorluğu, dilənçiliyi özünə peşə sayanları nəzərdə tutub yazmışdır: "Dünyada heç bir əməl xalqın dilənçiliyə və öz güzəranını təmin işində iradəsizliyə adət etməsi qədər biqeyrətlik gətirə bilməz... Əgər biz doğrudan da sədəqəyə möhtac olan sahibsiz yetimləri, əlindən çox iş gəlməyən korları, şilləri, dul arvadları və qocaları nəzərə almasaq, sədəqə heç bir kəsə layiq deyildir..."

Zəngin müşahidə qabiliyyətinə malik olan şairin həyatdan gələn mövzuları onun "Sənədli şerlər"ində daha təsirlidir. "Qıfıl", "Taxıl növləri", "Tənha məzar" şerləri və bütövlükdə "Gülüstan" poeması dediklərimizə ən yaxşı nümunələrdəndir.

"Taxıl növləri" şeri belə bir elmi məlumatla başlanır: "Akademik Vavilovun rəhbərliyi altında Leninqradda (indiki Sankt-Peterburq) taxıl növlərinin mərkəzi yaradılmış, İkinci Cahan müharibəsi illərində min kisələrlə toplanmış buğda növlərinin qorunması və tədqiqi 14 nəfər alimə tapşırılmışdır. Gündə 100—125 qram çörək payı ilə dolanan bu alimlərin çoxu acından ölmüş, lakin taxıl növlərinə toxunmamışlar".

Sonra şairin lirik ricəti vicdanı olan hər kəsi dərindən düşündürür, tamaha və tamahkara bir nifrət kimi səslənir:

Taxıllar seçildi, növlər çözüldü,
Döndü zəmilərə, döndü bağlara.

Taxıl alimləri acından öldü,
Amma qıymadılar toxumluqlara.

Bəs bu gün? Ac ikən bu xalq, harınlar
Millətin qanını sorub, qan satır.
Bizim həddi aşan bu tox qarınlar
Toxumluq taxılı anbardan satır.

B.Vahabzadə 1846-cı ildə çap olunmuş "Kavkazskiy kalendar"dakı "İctimai əxlaq" bölməsindən qəribə bir misal çəkir: "Yerli camaat hətta gecələr belə qapısını bağlamaz. Mal-mülkünə gözətçi də qoymaz. Sonralar Rusiyadan Azərbaycana 17.710 ədəd qıfıl gətirildi".

Qorxusuz, ürküsüz azad yaşayan məmləkətimizdə siyasi ab-hava elə dəyişir ki, qula dönmüş pəhləvan oğullarımız canı bir quruşluq olan ölü canlara — əcnəbilərə cangüdənə çevrilirlər:

Meyvələr dəyməmiş töküldü kal-kal,
Bizə özümüzü unutdurublar.
Bir vaxt ayıldıq ki, qollara qandal,
Fikrə, düşüncəyə qıfıl vurublar.

Arazın o tayında "həyat əqidədən və əqidə uğrunda mübarizədən ibarətdir", deyən ustad Şəhriyarın səsinə səs verən Bəxtiyarımızı bizim milli iftixarımız kimi dəyərləndirənlərə haqq qazandırmamaq olmaz. "Gülüstan" poemasında tarixi həqiqətləri qələmə alan şair öz milli mənliyinin daha bir təsdiqi ilə mədəniyyət tariximizdə ədəbi heykəl qoymuşdur. 1989-cu ilin dekabrında quzeyli azərbaycanlıların tikanlı məftilləri qırıb o taya keçmələrinə işarə edən müəllif yazır:

Neçə il əvvələ qayıdaq yenə,
Dirəklər dikəldi, "mən varam" – dedi.
Bu böyük diləyin zərbələrinə
Sərhəd dirəkləri tab gətirmədi.

1981-ci il yanvarın 23-də ulu Şəhriyarla olan söhbətini xatırladan B.Vahabzadə qardaş görüşünün, Xudafərin harayının kədərli sonluğunu da açıb göstərir:

Getməz ağzımızdan o günün dadı,
Mən gördüm o günü bircə gün ancaq.
Başımın üstündə yenə oynadı
Bu tayda "dubinka", o tayda "şallaq".

Bütöv Azərbaycan uğrunda mübarizə salnaməsinin şanlı və qanlı səhifələri olan "Gülüstan" poeması ayrıca bir tədqiqatın obyekti kimi əvəzsiz sərvətdir. Onun təhlili burada imkan xaricində olduğu üçün yuxarıda adını çəkdiyim "Bəxtiyar Vahabzadə" fotokitabı haqqında da bir-iki söz deməyi özümə borc bilirəm. İstedadlı naşir Nazim İbrahimovun tərtib etdiyi bu fotokitab "Azərbaycanın tanınmış şəxsiyyətləri" seriyası ilə nəfis şəkildə buraxılmışdır. Çağdaş Azərbaycan ədəbiyyatının nümayəndəsi, şair, dramaturq, publisist, alim və ictimai xadim Bəxtiyar Vahabzadənin çoxşaxəli, zəngin ömür yoluna həsr olunmuş bu kitabda fotoşəkillər, şerlərindən örnəklər, qələm və sənət dostlarının onun şəxsiyyəti və yaradıcılığı haqqında ürək sözləri toplanmışdır.

Fotokitabda dünya şöhrətli şair-alimin həyatı çoxşaxəli fəaliyyəti respublikadaxili və xarici əlaqələri öz əksini tapmışdır. Bu məsələlər "Nəsli və ailəsi", "Ömür yollarında", "İctimai xadim, millət vəkili", "Sənət və amal dostları ilə", "Tamaşalar" və "Qardaş Türkiyədə" adlanan bölmələrdə verilmişdir. İnanıram ki, sözügedən bu yeni kitablar oxucularımızı sevindirəcəkdir.

"Azərbaycan" qəzeti, 5 sentyabr 2000-ci il.

Mail DƏMİRLİ

BƏXTİYAR VAHABZADƏNİN İSTİQLAL POEZİYASI

Bəxtiyar Vahabzadənin bir şair kimi yaradıcılığının əsas ləyaqətini təyin etmək istərkən onun haqqında müasir tənqiddə tez-tez "milli şair", "istiqlal şairi" ifadələri işlədilir. Bu isə görkəmli şairin ünvanına söylənən gəlişigözəl tərif deyildir. B.Vahabzadə poeziyasına belə yüksək qiyməti bütün yaradıcılığı ilə poeziyada keçirdiyi ömrün hesabına qazanmışdır. Onun qələmindən çıxmış əsərləri bir daha mütaliə etdikdə hiss edirsən ki, doğrudan da, B.Vahabzadə bu sözün həqiqi və dərin mənasında milli şairdir, istiqlal şairidir. Tam əsasla iqrar edə bilərik ki, millilik, istiqlal hissi və düşüncəsi onun poeziyasının əsas ideyası, əsas pafosudur və bütün bu son illərdə görkəmli şairin yaradıcılığına, sənətinə ümumxalq rəğbət və məhəbbətini də ilk növbədə bu amil ilə izah etməliyik. Özü də önəmli cəhət odur ki, B.Vahabzadə poeziyasının bu xüsusiyyəti son onilliklərin hadisələri, ölkədə baş verən demokratik və

müstəqillik proseslərinin təsirilə yaranmamışdır. Belə bir xüsusiyyət hələ sovet rejimi illərində yazıçının əsərlərində duyulur və sezilir. Doğrudur, bu duyum və sezgi əsərlərinin, poeziyasının üzdə yox, dərin, gizli qatlarında və guşələrində idi. Maraqlıdır ki, şair özü bu məqsədlə ən müxtəlif üsullardan istifadə edirdi. Lakin bununla belə şair bəzən elə əsərlər də yazırdı ki, orada xalqın milli maraqlarının, tarixininin acı həqiqətləri birbaşa ifadə olunurdu. B.Vahabzadənin şübhəsiz belə ən gözəl və diqqətəlayiq əsərlərində biri də "Gülüstan" poemasıdır. Bu poema əllinci illərin axırında yazılmışdır. O vaxt kommunist partiyasının göstərişilə Azərbaycanın Rusiyaya birləşdirilməsinin 150 illiyinin keçirilməsi qərara alınmışdı. Həmin tədbir geniş miqyasda təntənə ilə qeyd də edilirdi. B.Vahabzadənin poeması özünün bütün ideya ruhu və istiqaməti ilə bu hadisəyə qarşı çevrilmişdi. Şair bir əsr yarım bundan əvvəl iki fateh və qəsbkar ölkə tərəfindən imzalanmış müqaviləni vəsf yox, ittiham edirdi. Poemanın bədii pafosunu bu ittiham motivləri təşkil edirdi. Bu mənada B.Vahabzadə poemasının ədəbi-tarixi mənası ilə yanaşı onun müasirlik mənası da vardı. Poema o vaxt mərkəzi qəzetdə yox, "Şəki fəhləsi" qəzetində dərc olunmuşdu *("Nuxa fəhləsi", 1960, 23—26 oktyabr)* və çox çəkmədi ki, o, Azərbaycan KP Mərkəzi Komitəsinin plenumunda kəskin tənqidə məruz qaldı. Bunun da başlıca səbəbi artıq qeyd etdiyimiz kimi, poemada məlum tarixi hadisənin o vaxtkı ideologiyanın tələblərinə uyğun təntənə ilə vəsf edilməsi yox, bütün xalq iradəsi ilə ittiham edilməsi idi.

B.Vahabzadənin poeziyasında poemanın onun əsərlərinin janr sistemində çox görkəmli yerlərdən birini tutduğu məlumdur. Özü də şairin yaradıcılığı üçün poemanın müxtəlif tiplərinə müraciət səciyyəvidir. Məlumdur ki, poema poeziyanın epik janrıdır. Lakin poemanı lirikasız, lirik başlanğıcsız da təsəvvür etmək mümkün deyildir. Azərbaycan poeziyasında xüsusi bir janr — lirik poema janrı mövcuddur ki, B.Vahabzadənin yaradıcılığında biz bu janrın çoxlu uğurlu nümunələrinə rast gəlirik. Şairin tədqiqatçıları vaxtilə haqlı olaraq qeyd etmişlər ki, ... B.Vahabzadənin yaradıcılığında poema bu illərdə *(60-cı illərdə — M.D.)* xalis epik formada, ciddi təhkiyə formasında yox, daha çox poema — düşüncə, poema — konsepsiya, müfəssəl lirik təhkiyə formasında meydana çıxır... *("Qarayev Y., Salmanov Ş. — Poeziyanın kamilliyi. Bakı, 1985, s. 110 — 111".).*

"Gülüstan" poeması da B.Vahabzadənin belə əsərlərindən biridir. Şairin yaradıcılığında lirik poemanın özünəməxsus təzahürü barədə danışarkən tədqiqatçılar daha sonra qeyd edirdilər ki, "... belə müfəs-

səl, miqyaslı lirik təhkiyənin əsasında nəhəng, əzəmətli şəxsiyyətlərin obrazları, onların əzablı, məşəqqətli həqiqət axtarışları və düşüncələri dayanır" *(Qarayev Y., Salmanov Ş. — Poeziyanın kamilliyi. Bakı, 1985, s. 111.)*. B.Vahabzadənin yaradıcılığında lirik poema yeri və özünəməxsusluğu janrı haqqında bu mülahizələri doğru hesab etməklə yanaşı onu da əlavə etmək istəyirik ki, B.Vahabzadənin lirik poemalarında şəxsiyyət obrazı ilə yanaşı müstəsna tarixi hadisələrin də lirik süjetin əsasını təşkil etdiyini demək mümkündür. "Gülüstan" poeması şairin poemalar silsiləsində belə bir əsərdir. Burada müfəssəl lirik düşüncələrin əsasını 1813-cü ildə Rus ordusu və İran arasında bağlanmış müqavilə təşkil edir. Məlum olduğu kimi bu müqavilə Azərbaycanın Gülüstan adlanan bir kəndində bağlanmışdır və ona əsasən Azərbaycan Rusiya imperiyasına daxil edilmişdir. *(Дипломатический словарь, в трех томах, т. 1, М., 1985, с. 279.)*

Poemada bu hadisənin müfəssəl təsviri və təhkiyəsindən imtina edərək şair daha çox hadisənin onda doğurduğu həyəcan və düşüncələrini əks etdirmək üsuluna üstünlük verirdi. Beləliklə, poemada tarixi hadisənin və onun acı nəticələrinin, iki imperiya arasında bağlanmış müqavilənin Azərbaycan xalqının taleyindəki faciəvi rolunu biz şairin obrazı, onun lirik "Mən"i vasitəsilə qavrayır və mənimsəyirik. Poemanın lirik xarakterini təyin edən ən əsas cəhət və amil də bundan ibarətdir. Lakin spesifik xüsusiyyət odur ki, burada lirika müəyyən konkret mənzərə və lövhələrin təsvirindən də təcrid deyildir. Lirika, əgər belə demək mümkündürsə, müəyyən təsvirdən sonra başlanır, şairin mühakimə və düşüncələri formasında davam edərək tarixi miqyas kəsb edir və dərinləşir.

Poema belə bir təsvirlə — ədalətsiz müqavilənin bağlanması mərasiminin təsvirilə başlanır:

İpək yaylığıyla o, asta-asta
Silib eynəyini gözünə taxdı.
Əyilib yavaşca, masanın üstə
Bir möhürə baxdı, bir qola baxdı.

Kağıza həvəslə o da qol atdı,
Dodağı altından gülümsəyərək.
Bir qələm əsrlik hicran yaratdı,
Bir xalqı yarıya böldü qılınc tək.

(B.Vahabzadə. Fəryad. Bakı, 1945, s. 129.)

Poemadakı təsviri başlanğıc əsas etibarilə bu epizoddan ibarətdir. Sonrakı bəndlərdə bu epizod bir o qədər də genişləndirilmir. Şair yalnız onun ayrı-ayrı təfərrüatlarını xatırlamaqla kifayətlənir. Qeyd edə bilərik ki, müqavilənin bağlanması mənzərəsinə qayıdış poemanın sonrakı bəndlərində əsasən tamamlanmasına, lirik başlanğıcın davam etdirilməsinə, dəyişdirilməsinə yardım edir. Məsələn, beşinci bənddə oxucu müqaviləni imzalayanların konkret cizgiləri ilə tanış olur:

Əyləşib kənarda topsaqqal ağa,
Hərdən mütərcimə suallar verir.
Çevrilir gah sola, baxır gah sağa,
Başını yelləyib təsbeh çevirir.

(Orada)

Beləliklə, poemanın bu başlanğıc epizodunda iki diplomatın — rus və İran diplomatlarının ümumi şəkildə rəsm edilmiş obrazlarını görürük: ipək yaylıqla eynəyi silən adam — rus diplomatıdır, təsbeh çevirən topsaqqal ağa isə İran diplomatıdır. Demək olar ki, poemadakı əsas təsvir də yalnız bundan ibarətdir. Əgər belə demək olarsa, yeganə epik təfərrüat müqavilənin imzalanması mərasimidir. Lakin bu, ötəri və yığcam təsvir olsa da, poemanın lirik başlanğıcının əsas məqamıdır: əslində, poemada lirik süjet təhkiyə bu epik təfərrüatla bağlanır, öz inkişafında ona əsaslanır. Bir sözlə, o, poemada lirikanın çıxış nöqtəsidir.

Qoyulan şərtlərə razıyıq deyə,
Tərəflər qol çəkdi müqaviləyə...
Tərəflər kim idi? Hər ikisi yad!
Yadlarmı edəcək bu xalqa imdad?!

Bax, bu bənddən etibarən müəllif səsi, müəllif müdaxiləsi poemanın süjetinə daxil olur. Beləliklə, baş verən hadisə və onun tarixi nəticələri haqqında müəllif təhkiyəsi başlanır; tədricən davam edir, şaxələnir. Maddə-maddə dərinləşir. Poemanın bu xəttini onun süjetində əsas ünsür hesab edə bilərik və qeyd etməliyik ki, bu süjet poemada tarix haqqında lirik təhkiyə miqyası kəsb edir. Bu lirik təhkiyədə biz müəllifin təfəkküründə və vətəndaşlıq həyəcanlarını duyur, hiss və həyəcanlarının onun bizə təlqin etdiyi həqiqətdən təsirlənirik. İki imperiyanın diplomatları, siyasi nümayəndələri adi kağıza yox, bir xalqı ikiyə parçalayan amansız tarixi sənədə imza atıblar. Hamı bu barədə düşünür. Və bu məqamda mətn ancaq sual şəklində qurulur, çünki şairin başqa çıxış yolu yoxdur. O, sanki bu anı xalqın dar macalı kimi ya-

şayır; tarix onun içindən keçir, əcdadların obrazı xəyalında canlanır:

Qoy qalxsın ayağa ruhu Tomrisin,
Babəkin qılıncı parlasın yenə.
Onlar bu şərtlərə sözünü desin,
Zənciri kim vurdu şir biləyinə?

Hanı bu ellərin mərd oğulları?
Açın bərələri, açın yolları.
Bəs hanı bu əsrin öz Koroğlusu, –
Qılınc Koroğlusu, söz Koroğlusu?

Babaların şəni, şərəfi əlbət,
Bizə əmanətdir, böyük əmanət...
Yoxmu qanımızda xalqın qeyrəti?
Belə saxlayarlar bəs əmanəti?

Bu həyəcanlı suallar poemanın təhkiyəsində tarixi düşüncəyə geniş meydan açır. Şair baş verən o ədalətsiz tarixi fakta tarix işığında, əcdadlarımızın qəhrəmanlıq ənənələri işində mühakimə və ittiham edir. Şairin lirik "mən"i bu məqamlarda sanki fəryad edir:

Qoy əysin başını vüqarlı dağlar,
Matəmi başlandı böyük bu elin.
Mərsiyə söyləsin axar bulaqlar,
Ağılar çağırsın bu gün qız, gəlin...

(Vahabzadə B. — Fəryad, s. 130.)

Lirik poemanın janr tələbinə və poetikasına uyğun olaraq şair bu gərgin emosional məqamda yenə diplomatik mərasimi xatırlayır, oxucunu tarixdən ayıraraq nəzərlərini yenə mərasim iştirakçılarına yönəldir:

Tərəflər sakitdi, qəzəbli deyil,
Məhv olan qoy olsun, onlara nə var.
İmzalar aşiqi bir-bir, elə bil,
Sevgi məktubuna qol çəkir onlar.

Atıb imzasını hər kəs varağa,
Əyləşir sakitcə keçib yerinə.
Eynəkli cənabla təsbehli ağa
Qalxıb əl də verir biri-birinə...

(Vahabzadə B. Fəryad, s. 130.)

Diplomat ağaların bu hərəkəti də nəzərdən qaçmır. Bu təfərrüat poemada xalqın tarixi faciəsinin mənalandırılmasına xidmət edir. Diplomatlar bir-birinə əl verirlər. Onların əlləri birləşir, lakin bu birləşmə nəticəsində vahid bir xalq ikiyə ayrılır, parçalanır, bölünür. Birləşmə və ayrılma təzadı bu poetik mətndə tarixi sazişin mənasını çılpaqlaşdırır:

Onların birləşən bu əllərilə
Ayrılır ikiyə bir el, bir Vətən.
Axıdıb gözündən yaş gilə-gilə,
Bu dəhşətli hala nə deyir Vətən?

(Vahabzadə B. Fəryad, s. 130—131.)

Beləliklə, Bəxtiyar Vahabzadə lirik poemanın ən önəmli imkanlarından məharətlə istifadə edərək tərəflərin xalq taleyinə, imperiyanın xalqların mənafeyinə biganəliyini və laqeydliyinə qarşı qəzəbini də qətiyyən arxa plana çəkmir: əksinə, bu qəzəb bəzən nida, bəzən də poetik suallar vasitəsilə poemada ifadə olunur, səslənir: **"Bu dəhşətli hala nə deyir Vətən?"** — sualında olduğu kimi.

Poemadakı lirikanın ən əsas ideyasını və mövzusunu, heç şübhəsiz, bu xalqın, bir məmləkətin ikiyə bölünməsi hadisəsi təşkil edir. Şair bütün bu hadisəni ittiham edir:

Bir deyən olmadı, durun ağalar!
Axı bu ölkənin öz sahibi var.
Siz nə yazırsınız bayaqdan bəri –
Bəs hanı bu yurdun öz sahibləri?

(Vahabzadə B. Fəryad. s. 130—131.)

Bu misralar, xüsusi ilə "bəs hanı?" ifadəsi mətndəki ittiham lirikasını gerçəkləşdirməyə kömək edir. Bəs hanı? — sonrakı bəndin də belə başlanması təsadüfi deyildir və bu dil-ifadə üsulu poemaya şairin tarixə müraciətini konkretləşdirir; eyni zamanda poemanın ifadə və üslub vasitəsinə çevrilir. Şair suallar verir, tarixi ədalətsizliyin səbəblərini axtarmaq və dərk etmək istəyir.

Bəs hanı həqiqət, bəs hanı qanun?
Qocadır bu yurdun tarixi, yaşı.
Bəs hanı köksünə sərhəd qoyduğun
Bir vahid ölkənin iki qardaşı!

(Vahabzadə B. Fəryad, s. 130—131.)

Bunlar ağrılı, iztirablı suallardır və B.Vahabzadənin vətəndaşlıq mövqeyi bu suallardan, bu suallara cavab axtarmaqdan doğmuşdur, — desək, yəqin ki, həqiqəti ifadə etmiş olarıq.

O da çox səciyyəvidir ki, B.Vahabzadə poemada bu suallara qayıdarkən həm də bu suallar vasitəsilə poemanın ittiham, mühakimə başlanğıcını əhəmiyyətli dərəcədə qüvvətləndirməyə nail ola bilir.

Necə ayırdınız dırnağı ətdən, –
Ürəyi bədəndən, canı cəsəddən?
Axı kim bu haqqı vermişdir sizə,
Sizi kim çağırmış Vətənimizə?..

(Vahabzadə B. Fəryad, s. 130—131.)

Maraqlıdır ki, bu suallara cavab axtarışında şair mövzunun yeni bir mərhələsinə keçid üçün yenə müqavilənin bağlanması faktına qayıdır, bir daha onu xatırlayır.

Beləliklə, bu misralarla şair poemada mövzunun zirvə həddinə keçir: müqavilənin bağlanması isə vahid bir xalqın, bir millətin parçalanması faktının qanuniləşməsi ilə Azərbaycan faciəsinin başlanmasını lirik təhkiyənin əsas xəttinə çevirir:

Göy də guruldamış deyirlər o gün,
Çölləri, düzləri buludlar sarmış.
O göy gurultusu ulu Babəkin
Ruhuymuş, hönkürüb, fəryad qoparmış?

Poemanın sonrakı bəndlərində Azərbaycanın ikiyə parçalanmasının acı dərdləri və həqiqətlərindən söz açılır. Şair bu məqsədlə real, konkret və son dərəcə poetik obrazlar tapa bilir, bu obrazlar vasitəsilə poemanın vətəndaşlıq motivini inkişaf etdirir və dərinləşdirir:

Qarışıb gözümdə, qarışıb aləm,
Dərd dərdi dağlayır, qəm-qəmdən keçir.
Arazın üstündən keçə bilmirəm,
Araz dərdim olub, sinəmdən keçir.

Taxta dirəkləri torpağa deyil,
Qoydular Füzuli divanı üstə.
Paraya bölündü yüz, yüz əlli il,
Gəraylı, bayatı, muğam, şikəstə.

(Vahabzadə B. Fəryad)

"Gülüstan" poemasının əsas bədii ideyası da onun lirik qəhrəmanının obrazı vasitəsilə gerçəkləşir. Ümumiyyətlə, şairin lirik "Mən"i poemanın bütün ideya mündəricəsinin, vətənin taleyi üçün xalq iztirab və düşüncələrinin daşıyıcısıdır ki, B.Vahabzadənin poeziyasında lirik poemanın bir janr kimi görkəmli yerini bu amil təyin edir. "Gülüstan" şairin yaradıcılığında, poeziyasında bu mənada ən yaxşı lirik poeması hesab edilməyə layiqdir. Çünki bu poemanın poetik hüsnü və ruhu — onun vətəndaşlıq ruhundadır, vətənin taleyi qarşısında şəxsiyyətin borc və məsuliyyət hissinin ülviliyində və aliliyindədir. Onu demək lazımdır ki, poemanın kədər və fəryad motivləri ucadan səslənsə də, onun əsas motivi istiqlala bəslənən ümidin böyüklüyündədir. Məhz buna görə də "Gülüstan" poeması xalqın məruz qaldığı tarixi ədalətsizliklərin, öz əsas ideyası, milli qayəsi etibarilə istiqlal poemasıdır.

"Açıq söz" qəzeti, 21 iyul 2000-ci il.

Bəkir NƏBİYEV,
akademik

BƏXTİYARŞÜNASLIĞA HƏDİYYƏ

Elm-Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin nəşriyyatı istedadlı ədəbiyyatşünas, filologiya elmləri namizədi Mail Dəmirlinin "Şairin ədəbi görüşləri" adlı yeni monoqrafiyasını oxuculara təqdim etmişdir. "Təfəkkür" nəşriyyatının ilk məhsullarından olan bu kitab, həm məzmun, həm də poliqrafiya göstəriciləri, o cümlədən də nəfis bədii tərtibatı ilə sübut etdi ki, artıq Azərbaycanda həqiqətən də müasir səviyyəli yeni bir nəşriyyat tam gücü ilə işə başlamışdır.

Sözügedən əsər M.Dəmirlinin ədəbiyyatşünaslıq sahəsində nəşr olunmuş ikinci kitabıdır. Bundan əvvəl, 1996-cı ildə onun "Xəlil Rza Ulutürkün poeziyası" kitabını "Elm" nəşriyyatı çap etmişdi. Birinci əsərində istiqlal şairi X.R.Ulutürkün poeziyasını bütün yönlərilə monoqrafik şəkildə araşdıran müəllif ikinci əsərində zəmanəmizin dünyada tanınmış Azərbaycan sənətkarı Bəxtiyar Vahabzadənin yaradıcılığının yalnız bir cəhətini, onun ədəbi görüşlərini tədqiqat obyekti kimi seçmişdir. Hər bir görkəmli şair kimi B.Vahabzadənin də yaradıcılıq dünyası çoxcəhətli bir sənət xəzinəsidir. M.Dəmirli bu xəzinənin indiyədək ayrıca tədqiqat işinin obyekti olmayan bir sahəsini — onun ədəbi

görüşlərini almış, ilk dəfə bu problemə xüsusi kitab həsr etmişdir. Akad. Kamal Talıbzadə bu fikrində tam haqlıdır ki, "Mail Dəmirli üçün X.Rzanın poetik dünyasından, istiqlal poeziyasından zəmanəmizin digər bir istiqlalçı nümayəndəsi olan Bəxtiyar Vahabzadəyə müraciəti vahid yaradıcılığın məntiqi nəticəsi kimi səslənir". *("Azərbaycan" qəzeti, 24 may 2000-ci il)*

Klassik şairlərimizin müxtəlif münasibətlərlə yazdıqları poetik əsərlərdə şerin təbiəti, bədii sözün cövhəri, sənətkarlığın incəlikləri, mövzunun təzəliyi, deyim tərzinin orijinallığı, forma ilə məzmunun vəhdəti kimi yaradıcılıq məsələlərilə əlaqədar öz əksini tapmış fikirlər çox qiymətli bir məxəzdir. Bunlar diqqətlə toplanıb tədqiq edilsə görmək olar ki, poeziyanı yaradanların bu qəbildən olan qənaətləri tam bir estetik fikirlər sistemidir. İkinci respublika dövri ədəbiyyatımızda isə görkəmli qələm sahiblərinin elə bir nəsli fəaliyyət göstərmişdir ki, onlar həm dəyərli bədii əsərlərini yazmış, həm də ədəbiyyatın elmi-nəzəri məsələlərilə məşğul olmuşlar. M.S.Ordubadi, A.Şaiq, S.Vurğun, M.Hüseyn, R.Rza, S.Rəhimov kimi görkəmli qələm sahibləri öz qiymətli poeziya, nəsr, dram əsərlərilə yanaşı, vaxtaşırı, klassik irsin və iştirakçısı olduqları ədəbi prosesin, qarşılıqlı ədəbi əlaqələrimizin, ədəbiyyat nəzəriyyəsinin vacib problemləri barəsində dövri mətbuatda çıxışlar etmiş, çox mühüm ədəbi-elmi məsələlərə öz mötəbər qənaətləri əsasında müəyyən aydınlıq gətirmişlər.

Təbiidir ki, bu sənətkarlardan hər birinin ədəbi-tənqidi məqalələrdən ibarət xüsusi kitabları hazırlanıb buraxılmış, yaxud əsərləri külliyyatında nəzəri irsinə xüsusi cildlər ayrılmışdır. Onların ədəbiyyatşünaslıq və ədəbi tənqid sahəsində xidmətlərini minnətdarlıq duyğusu ilə qeyd etməklə yanaşı, etiraf etmək lazımdır ki, Bəxtiyar Vahabzadə bu baxımdan öz sələflərindən fərqlənir. O, yarım əsrdən xeyli çoxdur ki, öz uğurlu bədii yaradıcılığı ilə yanaşı, fasilə vermədən, az qala eyni fəallıqla, həm də estetik fikrimizin, klassik irs və cari ədəbi prosesin aktual elmi problemlərilə də məşğul olmuş, aspirantura bitirmiş, filologiya elmləri namizədi və doktoru adlarını almaq üçün dissertasiyalar müdafiə etmiş, professor elmi dərəcəsinə layiq görülmüş, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

B.Vahabzadə Azərbaycanın ikinci respublika dövründə yetişib ərsəyə gəlmiş ən görkəmli şairlərindən biri əsərlərindəki güclü fəlsəfi ümumiləşdirmələr baxımından bəlkə də birinci şairdir. Azərbaycan poeziyasında vətənpərvərlik və vətəndaşlıq ruhunun qüvvətlənməsində, şerimizin sənətkarlıq imkanlarının genişlənməsində, təzə, təravətli təsvir və ifadə

vasitələrilə zənginləşməsində, təsir dairəsinin vüsətlənməsində şairin xüsusi xidmətləri vardır. Bu görkəmli xalq şairinin fəlsəfi məzmun daşıyan ahəngdar lirikası, canlı insan talelərinin güzgüsü olan poemaları, həyati konfliktlərə əsaslanan səhnə əsərləri, ədəbiyyatımızın vacib problemlərinə həsr edilmiş monoqrafiya və məqalələri, publisist yazıları ədəbi-ictimai fikrimizin qiymətli nümunələri kimi həm Azərbaycanda, həm də xaricdə ona haqlı şöhrət qazandırmışdır.

Hələ 1970-ci illərin başlanğıcında B.Vahabzadə artıq öz şöhrətinin zirvəsinə çatmış məhsuldar Azərbaycan şairi kimi onlarla poeziya kitablarını nəşr etdirmişdi. Dövri mətbuatda tez-tez onun elmi tənqidi, nəzəri-publisist məqalələri də nəşr edilir, həmişə də maraqlı müzakirə və söhbətlərə səbəb olurdu. 1975-ci ilin yayında BDU-da Dövlət İmtahan Komissiyasının sədri idim. Professor Bəxtiyar Vahabzadə də bu komissiyanın tərkibində idi. Biz onunla yanaşı oturur, fasilələrdə, yaxud bilet çəkmiş son kurs tələbələrinin suallar üzərində fikirləşdiyi vaxt ədəbiyyatımız barədə söhbətlər edirdik. Mən ona dedim ki, "nə üçün çoxsaylı ədəbi-tənqidi məqalələrindən seçmələri kitab halında nəşr etdirmirsən?" Cavab verdi ki, "bu çətin işlə məşğul olmağa imkanım yoxdur və əgər sən bu münasibətlə mənə kömək etsən, minnətdar olaram". Bu danışıqdan sonra mən onun məqalələrini toplayıb seçdim, "Sənətkar və zaman" adı altında bir kitab tərtib etdim, ona müqəddimə yazdım və kitab 1976-cı ildə "Yazıçı" nəşriyyatında buraxıldı. "Sənətkar və zaman" bu baxımdan Bəxtiyar Vahabzadə üçün uğurlu başlanğıc oldu. Bunun ardınca müəyyən fasilələrlə şairin "Sadəlikdə böyüklük" (1978), "Vətən ocağının istisi" (1982), "Gəlin açıq danışaq" (1991), "Yanan da mən, yaman da mən" (1995) kimi ədəbi-tənqidi məqalə topluları dərc edildi və oxucuları, ədəbi ictimaiyyətin geniş marağına səbəb oldu. B.Vahabzadənin məqalələri, o zaman mətbuatda tez-tez rast gəldiyimiz sıravi yazılardan deyil. Onlarda aydın vətəndaş mövqeyi ilə qüvvətli şair duyğusunun uğurlu imtizacı var. Bütün bunların aranıb axtarılmasına, tədqiq edilib ümumiləşdirilməsinə ciddi bir ehtiyac var idi. Mən inanıram ki, "Şairin ədəbi görüşləri" miniatür monoqrafiyası B.Vahabzadənin yaradıcılığının tənqid və ədəbiyyatşünaslıq tərəfini ümumiləşdirən bir əsər kimi ictimaiyyətin diqqətini cəlb edəcəkdir.

B.Vahabzadənin ədəbi görüşlərini M.Dəmirli ictimai fikrin "yazıçı tənqidi" deyilən özünəməxsus bir təzahür forması kimi götürüb təhlil edir. Kitaba yaxşı bir "Ön söz" yazmış filologiya elmləri doktoru Şamil Salmanov bu cəhəti xüsusi vurğulayaraq göstərmişdir ki, B.Vahabzadə öz tənqidçilik işini adi, sıravi, peşəkar tənqidçi və ədəbiyyatşünas kimi

yox, hər şeydən öncə bir sənətkar kimi,yəni daxili, mənəvi bir zərurət hiss edərək görür, ədəbiyyat, bədii söz haqqında, eyni zamanda bu vasitələrdən istifadə edərək zaman və cəmiyyət haqqında duyub düşündüklərini yazır. M.Dəmirli də haqlı olaraq bu cəhəti qabartmış, B.Vahabzadənin görüşlərində hər şeydən əvvəl şairin həyəcanlarını, sənətkar fikrini, bu fikirlərdəki şəxsi-subyektiv başlanğıcı göstərməyə müvəffəq olmuşdur.

Kitabda B.Vahabzadənin klassik irsə münasibəti əsasən onun Nizami Gəncəvi və Məhəmməd Füzuli kimi dünya şöhrətli dahi sənətkarların yaradıcılığına dair qənaətləri fonunda açılır. M.Dəmirli belə yazmaqda haqlıdır ki, B.Vahabzadə üçün Nizami poeziyası heç vaxt mücərrəd fikir və duyğuların təcəssümü deyil. O, "Xəmsə" müəllifinin yaradıcılığında Nizaminin bir insan, bir şəxsiyyət olaraq mənəvi iztirablarını, düşüncələrini görür və qiymətləndirir. Füzuli də Bəxtiyar Vahabzadə üçün yalnız ədəbiyyat tariximizin hadisəsi yox, həm də milli ədəbiyyatımızın inkişaf yolunu müəyyən edən təkrarsız ədəbi simadır. Onun Füzuli sənətinə dair görüşlərinin uğuru bir də bundadır ki, kitabda yaxşıca əsaslandırıldığı kimi, B.Vahabzadə öz ruhu, mənəvi-poetik kredosu və şeriyyət təfəkkürü etibarilə Füzüliyə yaxın bir sənətkardır, Füzuli kimi o da qəlb şairidir.

Bu monoqrafiyanı oxuyarkən belə obyektiv bir təəssürat oyanır ki, B.Vahabzadə öz şer, poema və pyeslərində kimdirsə, məqalələrində də elə odur. Yəni onun ideya-bədii prinsipləri, vətəndaş mövqeyi sarsılmazdır. Lakin təbiidir ki, bu iki sahədə B.Vahabzadənin ədəbi fakt və hadisələrə yanaşmaq, onları qiymətləndirmək yolları müxtəlifdir, onlara münasibətinin spesifik üsulları başqadır. Buna görə də M.Dəmirli ədəbiyyatımızın görkəmli nümayəndələri haqqında B.Vahabzadənin həm bədii yaradıcılığından, həm də elmi-tənqidi əsərlərindən bəhrələnərək öz qənaətlərini əks etdirir. Məsələn, şairin Füzuli haqqında qənaətləri bir də ona görə inandırıcı təhlilini tapmışdır ki, monoqrafiya müəllifi bu böyük şair haqqında B.Vahabzadənin həm "Şəbi-hicran" poemasındakı, həm məqalələrindəki fikirlərini sintez halında alıb araşdırmışdır.

60—70-ci illərdə xüsusilə geniş miqyasda təzahür edən poeziya ilə fikrin, intellektin qarşılıqlı əlaqələri probleminə şairin münasibətini açıqlayan tədqiqatçının bu mülahizəsi maraqlı ümumiləşdirməyə söykənir ki, B.Vahabzadə bu məsələdən bəhs edərkən poeziya ilə fikri eyniləşdirmir. Şer elm deyil, deyən şair belə hesab edir ki, böyük, mürəkkəb fəlsəfi fikri sadə və anlaşıqlı tərzdə, sənətin orijinal ifadə vasitələrilə əks etdirmək əsl sənətkarın başlıca yaradıcılıq qayəsidir. Əlbəttə, o, sadəlik deyəndə

primitivliyi, adi oxucu səviyyəsinə enməyi tələb etmir, bu əsas məqsədi vurğulayır ki, şair ilk növbədə fikrin, intellektin sənət həllini, poetik açıqlamasını tapmalıdır; bunsuz əsl poeziya ola bilməz. Eyni analitik obyektiv elmi münasibət B.Vahabzadənin müasirlik kateqoriyası ətrafında düşüncələrinin təhlilinə həsr edilmiş səhifələrə də xasdır. M.Dəmirli B.Vahabzadənin qənaətləri əsasında açıqlayır ki, şair üçün müasir mövzuya müraciət etmək hələ müasirlik demək deyil. Bu, müasirliyin yalnız bir tərəfidir. Daha geniş, dolğun, əhatəli mündəricəyə malik olan müasirlik isə zamanın məzmununu, bədii-estetik mahiyyətini kəşf etməkdir, onu mənən yaşamaq və əks etdirməkdir.

Sözü gedən kitabda Səməd Vurğun irsini Bəxtiyar Vahabzadə yozumuna xüsusi bir fəsil ayrılması çox təbiidir. Monoqrafiyada adı çəkilən, barəsində söhbət gedən digər görkəmli sənətkarların hamısında fərqli olaraq Bəxtiyar müəllim Səməd Vurğunun irsi ilə müntəzəm məşğul olmuş, onun həyat və yaradıcılığına dair bir-birinin məntiqi davamı olan bir sıra məqalə və kitablar, sanballı monoqrafiya nəşr etdirmişdir. Bunun səbəblərini araşdıran müəllif doğru yazır ki, S.Vurğun öz poetik ruhu, düşüncə tərzi və təbiəti ilə B.Vahabzadəyə ən yaxın şairdir. B.Vahabzadə bir şair kimi məhz S.Vurğun poeziyası ilə tərbiyələnib formalaşmışdır. Belə bir incə məqama da diqqətin cəlb olunması təqdirəlayiqdir ki, B.Vahabzadə "Səməd Vurğun" monoqrafiyasını sadəcə bir tədqiqat əsəri kimi yox, şəxsən onu bir şair, bir sənətkar olaraq düşündürən problemləri izah etmək məqsədilə, poeziya qarşısında mənəvi borc hissi ilə qələmə almışdır.

Bu sətirləri yazarkən xatırladım ki, B.Vahabzadə 50-ci illərin əvvəllərində S.Vurğun haqqında dissertasiya yazmaq fikrinə düşəndə rəsmi dairələrdə buna dodaq büzənlər olmuş, belə deyənlər də tapılmışdı ki,"Həyatda olan bir şair haqqında namizədlik işi yazmaq caiz deyil." Bu proses S.Vurğunun təqib edildiyi, pyeslərinin tamaşasından xəbər verən afişaların yığışdırıldığı vaxtlara təsadüf edirdi. Lakin B.Vahabzadə qətiyyətlə bu mövzunun üzərində durdu, onu məhəbbətlə işlədi və müvəffəqiyyətlə də müdafiə etdi.

Kitabın "Nəsrə şair baxışı" fəslində başlıca olaraq Mirzə İbrahimov, Əbülhəsən, Sabit Rəhman və Mir Cəlalın əsərləri əsasında Bəxtiyar Vahabzadənin epik janrla əlaqədar özünəməxsus qənaətləri, "Zamanın fövqündə" fəslində isə şairin publisistikası şərh edilmişdir.

Bu müxtəsər qeydlərdən də göründüyü kimi tədqiqatın predmeti kitabın fəsilləri arasında düzgün bölüşdürülmüşdür və müəllifə öz fikirlərini qruplaşdırmağa uyarlı imkanlar yaratmışdır. Bununla belə, bəzi

fəsil adlarına iradımızı da bildirmək istərdim. "Nəsrə şair baxışı" nə qədər konkret və aydındırsa, "Klassik poeziya görüşləri" bir o qədər yayğındır, dəqiq deyil. Yəni aydın ifadəsini tapmamışdır ki, söhbət klassik poeziya haqqında Bəxtiyar Vahabzadənin görüşlərindən gedir, yoxsa, Bəxtiyarın mülahizə və qənaətlərinin klassik səviyyəsindən. Kitabda bir-birinin ardınca gələn üç fəslin adının poeziya ilə "süslənməsi" də onlara bir yeknəsəqlik çaları vermişdir: "Şairin poeziya görüşləri", "Klassik poeziya görüşləri", "Böyük poeziya məktəbi"....

Bu cüzi qüsurlarına baxmayaraq "Şairin ədəbi görüşləri" təkcə Mail Dəmirlinin yaradıcılığında yox, bəxtiyarşünaslıq sahəsində irəliyə doğru atılmış bir addımdır.

"ELM" qəzeti, 13 iyun 2000-ci il.

Ramazan QAFARLI

BƏXTİYAR ZİRVƏSİ

Şəki dağlar qoynunda yerləşir. Üç tərəfdən yamyaşıl sıxyarpaqlı ağaclarla örtülmüş dağlar şəhərin keçilməz hasarlarıdır. Yalnız bir yanda — Azərbaycanın ürəyi Bakıya doğru uzanan yolların keçidində dağlar yerə yatır, bir az çılpaqlaşır — bu hissə Şəkinin Şərqə açılan pəncərələridir. O yolda bir körpü də var. El keçən körpüdür ora. Və ataларımız deyir ki, el keçən yerləri ot, alaq basmaz. Həmin alçaqlıq şəhərin elmə, biliyə, özünüdərkə, dünyaya giriş-çıxışıdı. Bu giriş-çıxış olmasaydı, bəlkə də ötən yüzillikdə Mirzə Fətəli Şəkidən Tiflisə ayaq açıb qoca Şərqin müdriklik zirvəsini fəth etməzdi. On üç yaşlı Rəşidbəy Əfəndiyev şəhəri tərk edib maarif ziyasını Azərbaycana yaymazdı...

Bəxtiyar Vahabzadə poeziyasıyla hər dəfə ünsiyyətdə olanda o yollar, el keçən körpü və dağlar yadıma düşür. Bəlkə böyük şairin başı Şəki dağlarının zirvəsi kimi ağappaqdır, ona görə?..

Şəkili qadınlar "Dədə Qorqud" qəhrəmanları kimi dağları "qayınatam" adlandırırlar. Mənim üçünsə o dağlar yüksəklikdir. Elə bir yüksəklikdir ki, cənnət qədər saf, təmiz və müqəddəsdir, yer üzünün bütün şərlərindən, pisliklərindən uzaq bir nöqtədir. Zənn edirəm ki, ən ağır dərdə düçar olan o dağların zirvəsinə çıxsa, yüngülləşər. Şəkilinin söylədiyi bir el bayatısında deyildiyi kimi:

Baş qoyan məndim, dağlar,
Sənə güvəndim, dağlar,

Yadlara əyilmədin,
Sinənə çəkdi dağlar.

Bir vaxtlar Nakam şəhərdə — adamlar arasında rahatlıq tapmayıb Şəki dağlarına sığınmış, cildlərlə əsərlər yaratmışdı. Molla Cuma qayalardan süzülən "soyuq bulaq"lardan içib aşıq sənətinin elə ucalığına qalxmışdı ki, oranı da ancaq Şəkinin qarlı dağlarıyla müqayisə etmək olar.

Məhz Bəxtiyar zirvəsinə 75 ilin arxasından baxanda insan ayağı dəyməyən, yay, qış ağappaq dağ başını görürəm. Oralara heç kəsin əli çatmır. Ona görə də tərtəmizdir. Lakin nədənsə, dağlara göz dikdikcə sonsuz kədər duyuram.

Bəxtiyar Vahabzadənin də üzünün qırışlarında dərin kədər var. Bu kədərin mənasını, mənbəyini də həmin dağların tamaşasına durmaqla anlamaq mümkündür. Çünki Bəxtiyar zirvəsində türk dünyasının yaxın tarixinin tam xronikası, insanların ziqzaqlı yaşantısı, duyğuları, uğurları, uğursuzluqları, dərdi, sevinci, təzadları əks olunub. Türk poeziyasının fəlsəfi istiqamətinin, mübarizə və üsyankarlığının, psixoloji lirizminin iyirminci yüzilliyin ikinci yarısında yükünü daşımaq Şəki dağlarının qoynunda boya-başa çatan, adı Bəxtiyar olsa da, xalqının bəxtiyarlığını görmədiyi üçün özünü həmişə narahat hiss edən bir şairin öhdəsinə düşmüşdür.

Bəxtiyar Vahabzadə sözün həqiq mənasında narahat insandır. Oxucudan şikayət dolu məktublar alanda da, ünvanına yönələn qərəzli yazılar qəzetlərdə işıq üzü görəndə də, mitinqlər baş verəndə də, qonşunun — düşmənin xalqımıza qarşı iftiralarını eşidəndə də, qanlı yanvar hadisələrində sovet imperiyasının generalıyla Azərbaycan televiziyasında üz-üzə gələndə də... Nə qədər ki, dünyamızda haqsızlıq var, Bəxtiyarın da narahatlığı bitib-qurtaran deyil...

Gözümün önündə
haqqı döyürlər,
Qışqırır,
səsinə bir səs verən yox.
Zorun arxasında
elə gizlənib,
Onu nə eşidən,
nə də görən yox...

Şair hamını ayıq olmağa səsləyir, çünki "nahaq haqq olanda haqq da

haqq deyil". Sözün hikmətinə baxan yoxdur. Böyüklə kiçiyin yeri səhv düşüb. Elin ən müdrikinin belə fəryadına əhəmiyyət vermirlər. Haqqın haqqı əlindən alınan yerdə "Haqqın haqqı yoxdur" "mən haqqam" desin". Bəxtiyar Vahabzadə istəyir ki, "haqqın dəyirmanında" ancaq zülmü üyütsünlər. Lakin hər ikisindən "yenə zülüm doğulur". Ən dəhşətlisi isə odur ki:

Həm haqqın, həm də zülmün
Təzə dəyirmanında
Üyüdülən haqq olur.

Sözü gülləyə çevirən Bəxtiyar bəzən bəlanın böyüklüyündən doğan sorğularının cavabsız qaldığını görür, lakin acizləşib əyilmir, dünyanın özünə qarşı üsyan qoparır: "Mən belə dünyaya nə deyim indi?"

Şair, alim, filosof, ictimai xadim Bəxtiyardan xalq çox şey gözləyir. Və bəzən elə bilirlər ki, o hər şeyə qadirdir. İstəsə dünyanı məhvərindən oynadar. Umduqlarını yerinə yetirməyə imkanı olmayanda küsənlər, inciyənlər də tapılır. Anlamırlar ki, şair Bəxtiyarın narahatlığı tükənməzdir. O, heç nəyə biganə deyil və peyğəmbərliyi də yoxdur. Bacardığını isə xalqından əsirgəmir.

O, bütün titullarına baxmayaraq, ilk növbədə şairdir. Şair Bəxtiyarın meydanında döyüş sözlə aparılır. O, sözünü hər vaxt deyib — özü də sərrast, açıq, özünü oda-közə vuraraq deyib. Əllinci illərdə də, indi də. Üzündəki kədərin bir sirri ondadır ki, bəzən sözü kəsərdən salırlar. Nizamidən, Nəsimidən, Dədə Qorquddan miras qalan sözün qəribçiliyini, yazıqlığını görmək şair üçün böyük dərddir. Kimlərsə qəsdən Sözün meydanını daraldır. Bu halda da Bəxtiyar kəlamının dəyəri əvəzsizdi, müdrikliyi hamımıza "tütyədi". Bəxtiyardan şer istənilməlidir. O, qələmini yerə qoymur, qoymayacaq da. Çünki şair: "Dünyaya mənim sorğu-sualım da tükənməz" — deyir.

Bəxtiyar Vahabzadə poeziyası həyat dərsliyimizdir. Onun içərisində zaman, eşq, vətəndaşlıq, mübarizlik, üsyankarlıq, mərdlik, ərənlik, qeyrət, ar, namus, düzlük, saflıq və daha nələrə çağırış var. Bu poeziyada inamsızlıq, tərəddüd, məğlubluq, üzüdönüklük yoxdur. İnsan oxuduqca düşünür, düşündükcə mətinləşir, dözümlülük, əyilməzlik tapır, Bəxtiyarın "mən"ini — qəhrəmanlarını tanıdıqca özünü dərk edir, ümidsizlikdən yaxa qurtarır, vuruşmaq, qələbə çalmaq istəyir. Bəxtiyarın fəlsəfəsi kitablardan gəlmir, həyatın, yaşantıların içərisindən doğur. Onun müdrikliyi dünyamıza tapınır. Şair fikirlərini poetik strukturlarda elə qəlibləşdirir ki, sadə olduğu qədər bitkindir, insanla, cəmiyyətlə sıx

bağlantıdadır. Bəxtiyar şerlərini modelləşdirsək, dolğun sistemlərlə rastlaşarıq. Təəssüflər olsun ki, onun sənətinin struktur təhlili indiyədək aparılmayıb və türk poeziyasına gətirdiyi yeniliklər tam üzə çıxarılmayıb.

Bəxtiyarın zahiri görünüşü, davranışı, danışığı, hadisələrə baxışı da özünəməxsusdur. Və şairin sənətini bu amillərdən ayrı təsəvvürə gətirmək mümkün deyil. Bəxtiyara bəxtiyar şair kimi baxanlar yanılırlar. Çünki o bəxtiyar olmağa can atmaq üçün dünyaya gəlməyib. Narahatlığının, üsyankarlığının bir səbəbi də bundadır. Başqa sözlə, onun bəxtiyarlığı sözlərinin sərrastlığında, hədəfə dəyməsindədir. Əgər şəhidlərə həsr etdiyi əsərləriylə həmvətənlərinin qəlbində qəsbkarlara nifrət oyatdığını, xalqının bir yumruq kimi birləşdiyini görürsə, deməli, bəxtiyardır.Şair insanların duyğu və düşüncələrinə güzgü tutmaqla sənətini yaşadır və bununla öz ömrünü uzadır, daha doğrusu, əbədiləşdirir. Bəxtiyar poeziyası bir şəxsin narahatlığını deyil, başı müsibətlər çəkmiş böyük bir xalqın ümumləşmiş duyğularını ifadə edir. Məhz bu mənada onun əsərləri həyat dərsliyi rolundadır. O dərslikdən nələri öyrənirik? — sualını cavablamaq üçün böyük bir kitab azlıq edər. Bəzi məqamlarını qısaca açıqlamağa çalışacağam.

Bəxtiyar Vahabzadə poeziyası sevib sevilməyi, seçib seçilməyi, tanıyıb tanımağı, yuxudan ayılmağı öyrədir. Dostu, düşməni, mərdi, namərdi, özümüzə özümüzü tanıdır. O dərslikdə əsil insan kimi yaşamağın yolları göstərilir. Bəxtiyar Vahabzadənin poeziya dünyasına girən oradan Vətənpərvər, üsyankar bir insan kimi çıxır. Şair hələ 50—60-cı illərdə məqam əlinə düşən kimi səsini ucaldırdı. O dövrləri yaşayanlar bilir ki, milli qürurdan bəhs açan bir kəlmə söz üstə adamın dilini bağlayırdılar. Hərdən Bəxtiyarın səbir kasası elə dolurdu ki, dözməyib açıq-aşkar imperiyaya meydan oxuyurdu, "Gülüstan" fəryadını qoparırdı:

Hanı bu ellərin
mərd oğulları,
Açın bərələri, açın yolları.
Bəs hanı bu əsrin
öz Koroğlusu –
Qılınc Koroğlusu,
söz Koroğlusu?

"Söz Koroğlusu"na çevrilib "dırnağı ətdən", "ürəyi bədəndən", "canı cəsəddən" — Azərbaycanı Azərbaycandan ayıranlara heykəl qoyanla-

ra, şənlərinə təntənəli toplantılar keçirənlərə qılınc çalmaqla şair Nizaminin zahidi kimi əyninə kəfən keçirmişdi. Bu, Stalin zindanlarının qapılarının təzəcə açıldığı 1959-cu ildə deyilirdi. Çoxları tarı, kamanı, nağaranı utandırıb "Azərbaycan—Rusiya birliyi"nə nəğmələr qoşurdu, orden payı umurdu. Bəxtiyar Vahabzadə isə Arazın timsalında Vətən övladlarını bizləyib ayıltmağa, üsyan qaldırmağa səsləyirdi:

Ey Araz, səpirsən,
göz yaşı sən də,
Keçdikcə üstündən çölün,
çəmənin,
Səni arzulara sədd eyləyəndə,
Niyə qurumadı suların
sənin?

Və bizim 90-cı il xalq hərəkatı dalğasının mayasında bu poemanın durması şübhəsizdi. Azərbaycan gəncləri "Gülüstan"dan keçib "Azadlıq" meydanına toplaşmışdılar... Zaman Bəxtiyar Vahabzadənin üsyanına hələ o çağlarda təslim olmuş, onu susdurub yox etməkdə aciz qalmışdı. "Məqamı ələ keçirməsi" həmin qarşılaşmadan sonra ortaya çıxıb. Zaman Bəxtiyar sözünün kəsəri qarşısında susmağa üstünlük verdiyi kimi, şair də öz yuvasına çəkilən, quyruğu tapdalanmış "əfi ilanın" qəfil çalmasına bələd idi. Bu səbəbdən daha sözü üzə demir, "küləyə buraxır", qananın qanması da kifayət edir.

Bəxtiyar Vahabzadəyə görə "məqam tapmaq" nə idi? Başqa ölkələrə səyahətə çıxanda guya yadların, imperiyadan kənardakıların dərdindən bəhs açırdı. Ancaq yadellilərin diliylə Azərbaycan türkünün dərdlərini dilə gətirirdi. "Öz ana yurdundan özünə təkcə Torpağı qazdığın xış qaldı, qardaş!.." — deyəndə ispanı nəzərdə tutmurdu, həmin şəraitdə yaşayan həmvətənini dümsükləyib oyadırdı. Bilirdi ki, gec-tez yatmış millətin gözündən yuxunu qovsa, zamanın özünü diz çökdürəcək:

Ayağa qalxmışdır
artıq vətənin,
Qoy onun önündə
diz çöksün zaman.

Şair görürdü ki, xalqı yuxuya verənlər "öz doğma dilində danışmağı ar bilən fasonlu ədabazlardı", elələri ilə nə o çağlarda, nə də indi barışıb:

Qəlbinizi oxşamır
qoşmalar, telli sazlar.
Bunlar qoy mənim olsun,
Ancaq vətən çörəyi,
Bir də ana ürəyi
Sizlərə qənim olsun.

(1954)

Dil məsələsində heç kəsə güzəştə getmir. Çünki dil insan "ürəyinin açarıdır". O açarı başqasına verəndən nə gözləmək olar? Dilinə xor baxan torpağına kor baxar. Ana südünü əməndə eşitdiyi laylanı qulaqlarında sırğa etməyənlər üçün müqəddəs şey yoxdur. Şair yeri gələndə heç ustad Şəhriyarı da bağışlamır, acısa da günahını üzünə deyir:

Məni bağışlasın Şəhriyarım da,
Otuz il özgəyə "bəradər" dedi.
Öz doğma yurdunda, öz diyarında
Doğma anasına o, "madər" dedi.
Elə ki, yumruğu yerə dirəndi,
Dərhal yada düşdü doğmaca kəndi.

Şəhriyar gec də olsa ana qucağına — Heydər Babaya sığındı, rahatlığını tapdı. "Ermənistan dayı" deyib sərvət ələ keçirənlərin isə yeni qurulan milli dövlətdə əlacsızlıqdan Azərbaycanca danışanda dilləri topuq çalır. Şair sözü qılınca döndərir:

Gözümə dursaydı yediyin çörək,
Rəzil olduğunu özün qanardın.
Dilimi dansaydım mən də sənin tək
Sən kimə dərs deyib pul qazanardın?

Həyatın təzadlarını bədii dillə ifadə edəndə Bəxtiyar sənətinin özünəməxsusluğu daha qabarıq nəzərə çarpır.

Siyasətin aynasında
Əyrilər düz görünsə də
Aynanın ki, üzü birdir!

Şairin narahatlığına səbəb olan ümdə məsələlərdən biri də Vətənin ikiyə bölünməsidir. Azərbaycan adlı yurdun bu ağır dərdinə çoxları əsər həsr edib. Lakin Bəxtiyar Vahabzadə qədər kökündən baltalayan olma-

yıb. Bəlkə də sovet məkanında yaşadığımız çağlarda onun ən böyük arzusu Araz üstündə çoxlu "el keçən körpülərin salınması" idi. Hələ 1962-ci ildə yazırdı ki:

Arazın
Bu tayı Vətənim,
O tayı Vətənim.
Vətəni görməyə amanım yox mənim...

Və qibtə də edirdi ki, Füzuli həsrətlə qürbətdən Vətənə baxırdı, o isə "Vətəndən — Vətənə baxır".

Əlində silah əqidəsi yolunda vuruşmalarda ölməyə belə hazır olan şair ömrünün boranda, qarda ötüşməsiylə də razıdır, təki xalqının "sirdaşı olmasın nə fəryad, nə ah..."

Sonra "şəhidlər yarası" bunun üstünə gəldi.

Kimə deyim dərdimi?
Qəsbkar namərdəmi?
Yetmiş ilin dərd-qəmi
Gözdən axdı o gecə.

O dövrdə Sovetlər İttifaqında dövlətin yüksək mükafatlarını almış şairin dilindən ittihamnamə eşidəndə partiya "funksioner"ləri bəlkə də bir şeyə heyfsilənirdilər. "Gülüstan" deyən dilini o vaxt kəssəydilər, bu gün cınqırını çıxardan tapılmazdı". Eşitdiyimə görə, şair o çağlarda imperiya nökərlərinin təltiflərini "itin ağzına atılan sümüyə" bənzədirdi.

Bəxtiyar Vahabzadə bir sözü kombinasiyalara uğradaraq elə poetik strukturlar, modellər yaradır ki, orada eyni hal müxtəlif funksiyalarda çıxış edir:

Əyri əyriliyi yeridir daşa,
Keçib əyriliklə hamıdan başa.

İki misrada "əyri" sözü üç dəfə işlənir. Lakin hərəsi bir yükün daşıyıcısıdır: birinci "əyri" icraçıdır — "əyrilikləri daşa yeritmək"dən başqa əlindən heç nə gəlmir, ikinci vasitədir — əyriliyi ilə daşlara da təsir göstərir, üçüncü isə mütləq — hakimdir — əyri işlərlə keçib oturub hamıdan başda. Yalnız Bəxtiyar qüdrətiylə eyni söz kiçik poetik fiqurun (həmin şerdə iki misranın) içərisində fərqli məna tutumlarına malik ola bilir. Klassik fəlsəfi şerdə forma, struktur ikinci dərəcəlidir. Üstünlük məzmunun əlində cəmlənir. Onun əsərlərində isə hər ikisinin vəhdəti əsas götürülür:

Rəhbər cahildirsə, millət də qafil,
Demək, bu məmləkət üz üstə batmış.
Millət də, rəhbər də oyanan deyil,
Oyada bilərmi yatmışı yatmış?

1990-cı ildə xalqının başına açılan müsibətlərin səbəbkarına üzünü tutub dediyi bu misralarda nifrətinin həddi-hüdudu yoxdur. Lakin həmin nifrətin mayasında da insanları qəflət yuxusundan oyatmaq durur.

Bir il sonra isə Qərbi Azərbaycan ellərini, Qarabağı köklü insanlarından təcrid etməkdən ötrü "siyasət oyunları"nda uduzanlara deyirdi ki:

Köksümüzdə sinə dağı,
Biz yaşadıq qul sayağı.
Gələn satdı bu torpağı
Dədəsinin malı kimi.

Xalqın ürəyi geniş olduğu qədər sadəlövhdür, bağışlayandır. Bəlkə də üstünə yağan dərdlərin çoxluğundan yaddaşları tez don vurur. Şair buna görə də bərk narahatdır. Azərbaycanın taleyində çox hadisələr baş verib ki, onları heç vaxt yaddan çıxartmaq olmaz. Müsibətləri unutduqca düşmən də qüvvətlənir. Bu mənada Bəxtiyar Vahabzadə poeziyası ana laylasını əvəzləməlidir:

Dedim, silinməsin bu qan, bu qada,
Bir də güllə izi dağ-daşımızdan.
Yalnız bu günə yox, biz sabaha da
Güzgü tutmalıyıq yaddaşımızdan.

Yoxsa nə gələcək nəsillər, nə də ölənlərin ruhu günahlarımızdan keçər. Şair bir həqiqəti isə "özüm" sözünü təkrarlamaqla üzə çıxardır:

Özümün özümə xəyanətimi
Bu gün mən özümə bağışlayımmı?

Hər şeydən əl üzüləndə gözümüzü ümidə dikirik. Ümidlə yeyir, ümidlə nəfəs alırıq. Sonsuz ümidlərimiz də kəsilsə, dünya gözümüzdə qaralar. Lakin təkcə ümidlə "silahlansaq" düşməndən torpaqları almaq mümkünsüzləşər. Ümidi ancaq bir neçə anın təsəllisinə, özümüzə kəlmə vasitəsinə çevirməliyik. Bəlkə də bu mənada şair deyir ki:

Heykəl qoyun ümidə,
Tərk etməz bir an bizi.

Arzuya qanad verib,
Odur yaşadan bizi.

Bəxtiyar Vahabzadənin poeziya dünyasının mövzu dairəsində nələr yoxdur; qəm də var, sevinc də; məhəbbət də var, məkr də; sədaqət də var, xəyanət də; razılıq da var, etiraz da; keçmiş də var, bu gün də; mərdlik də var, namərdlik də; inam da var, tərəddüd də; həyat da var, ölüm də; cənnət də var, cəhənnəm də; gülüş də var, ağlamaq da; ayrılıq da var, vüsal da; xeyir də var, şər də; müdriklik də var, nadanlıq da; ucalıq da var, alçaqlıq da... Amma ikincilər həmişə təslim vəziyyətdədir, zirvəni fəth etmək cəhdləri boşa çıxır, bəzən hökm, sərvət əllərində cəmlənsə də mənən cılızdır, yoxluğa, puçluğa məhkumdur. Bəxtiyar sənətinin bir amalı və ümumiləşmiş bir baş qəhrəmanı var — o da İstiqlaldır.

Mənə elə gəlir ki, sevgidən yazanda da şair istiqlal barədə düşünmüş və ömrü boyu xalqının əsil istiqlala çatması uğrunda vuruşmuşdur. Onu zaman və tale şairi də adlandırmaq olar. Nə ağrılı, nə də şirinli, nə soyuqlu, nə də istili anını dəyişmək, başqa axara salmaq mümkündü Zamanın. Şair öz işində olan Zamanla kəllələşir, çünki:

Nöqsanını üzə deyən namərd deyil,
Kirayədə yaşadığın ev yurd deyil.
Anan sənə ögey olsa, bir dərd deyil,
Zaman sənə ögey olsa vay halına!

"Zamanın diri-diri bizi dəfn etdiyi" dünyadan türkün tarixi taleyini qaytarmağı umur, çox hallarda məsələni tələb şəklində qoyur. Həmişə mərdliyə arxalanan, haqqa tapınan, qılıncdan çox elmə, mədəniyyətə, incəsənətə, Muğama köklənən xalqının namərd dünyada yersiz, yurdsuz qalması, öz evində kirayəçi sayılması, torpağından qovulub çadırlarda ömür-gün çürütməsi, zülm, sitəm görsə də üstünə "vəhşi" damğasının vurulması onun üsyankarlığını şiddətləndirir. Şairin narahatlığının bir əsas səbəbi də odur ki, "Bərəkət tumu tək dörd ildən bəri əkirik torpağa biz şəhidləri".

Bəzən camaat arasında belə kalamları eşidirik: "Nə yaxşı ki, Bəxtiyar Vahabzadə var, yoxsa dərdimizi deyən, günümüzü, güzəranımızı başbilənlərə çatdıran olmazdı..." Bəli, nə yaxşı ki, Bəxtiyar sözü, Bəxtiyar üsyankarlığı tükənməzdir. Yoxsa dünyada hər şey bir rəngdə görünərdi. Haqqın yolunu o qədər ot, alaq basardı ki, tapılması mümkünsüzləşərdi.

Bəxtiyar Vahabzadə ilə "Dədə Qorqud" eposunun 1300 illiyi ərəfəsində bir neçə dəfə görüşmüşəm. O, söhbətlərinin birində bildirdi ki, yeni səhnə əsəri üzərində işləyir. "Ata kitabı" adlandırırdı. Şair olduqca maraqlı fikir irəli sürərək böyük ədibimiz Mirzə Cəlilin "Anamın kitabı" pyesini xatırladıb deyirdi ki, həmin əsərdə müqəddəs kitabdan bəhs açılır. Ana laylasını unudub hərəsi bir dildə danışan qardaşların qarşısında rəmzə çevrilən həmin kitab "Qurani-Kərim" deyil. Adama elə gəlir ki, C.Məmmədquluzadə məhz türkdilli ədəbiyyatın şah əsəri "Kitabi-Dədə Qorqud"u nəzərdə tutub. "Anamızın kitabı" müdrik Qorqudun diliylə qardaşları imtahana çəkir... Lakin Bəxtiyar Vahabzadə təsəvvüründə "Dədə Qorqud" türkün ata kitabıdır. Onun yeni əsərində Azərbaycanın yaralarını sağaltmaq əvəzinə, partiyalara parçalanıb kürsü davasına çıxan qardaşlardan bəhs olunur. Böyük şair siyasi əqidəsinə görə bir-birilərinə dirsək göstərən qardaşları müqəddəs ata kitabı — "Dədə Qorqud"la birliyə çağırır. Türkün vahid dövlətçilik ideyalarını özündə yaşadan eposun ruhunu müasirlərimizin vəzifədən ötrü hər şeyi qurban vermələrinə qarşı qoyur.

Bədii sözün qüdrətiylə millətin parçalanmasına etirazını bildirən şair həmin məsələlərdən ürək ağrısıyla danışırdı. Bəlkə də yaradıcılıq sirrini açmaqla səhvə yol verirəm. Lakin narahat şairin müdriklik zirvəsində durub zamanın nəbzini tutmasını, həmişə xalqının birliyini arzulamasını o söhbətlərdə açıq-aydın gördüyüm üçün məni bağışlasın.

Bəxtiyar Vahabzadə təkcə Azərbaycan türklərinin deyil, bütün türk dünyasının bütövlüyü, tamlığıdır. Onun sənətində qırğızın da, özbəyin də, türkmənin də, qaqauzun da duyğuları, düşüncələri, istəkləri əks olunub.

Bəxtiyar poeziyası türkün üz ağlığıdır, qılıncdan iti söz çələngidir. Təsadüfi deyil ki, müasir dünya nəsrinin görkəmli nümayəndəsi Çingiz Aytmatov şairin yaradıcılığını iyirminci yüzilliyin zirvəsi sayır. Çox vaxt biz öz dahilərimizi başqalarının gözüylə kəşf edirik. Lakin bu gün xalqın əksər hissəsinin Bəxtiyar Vahabzadəyə həm şair-sənətkar kimi, həm də ictimai xadim kimi inamı varsa, deməli, gələcəyə ümidini itirməyib, bir dizini yerə qoymağa məcbur edilsə də, yıxılmayıb, gücünü, əzmini toplayıb azğın düşmənə qalib gələcək, torpaqlarımızı geri alacaq, birliyimizi təmin edəcək...

Bir neçə il əvvəl ANS kanalında bir verilişə baxırdım. Jurnalist Nəsiminin heykəli önündə yoldan ötüb-keçənlərlə sorğu aparır, abidəni göstərib xəbər alırdı ki, kimindir?

Tanımayanlar çox oldu. Bir yeniyetmə heykəli xeyli süzəndən sonra

dedi ki, Bəxtiyar Vahabzadənin.

Qəribə olsa da, faktdır. Xalqın dünəni də, bu günü də şair Bəxtiyar Vahabzadənin timsalında cəmləşib, çoxlarının qəlbində əfsanələşib — Nəsimiləşib.

Əfsanələşən Bəxtiyar Vahabzadə mənim üçün Şəkinin həmişə qarlı dağlarıdı — yüksəklikdir. O zirvəyə sarların ayaq açmasına imkan verməməliyik.

Şairin mərdliyinə, cəsarətinə, haqq uğrunda, millətin bütövlüyü yolunda mübarizəsinə göz yumub mətbuatda hərdən ünvanına qara yaxanlar "el keçən körpüləri" sındıranlar, ucuz şöhrət dalınca qaçanlardır. Guya "millət"in adından vəkil tutulublar. Ancaq bir qum dənəsi qədər dərdin azalmasına çalışmadıqları halda müqəddəs ocağa, uca, qarlı zirvəyə "erməni" damğası vururlar. Və bəzən əlləri çatmayan yerlərə daş atırlar. Axı o daş dağlarda uçqun yarada bilər, anlamırlar ki, özləri də üstlərinə gələn çınqıl topasının altında qalarlar.

Bəxtiyar Vahabzadə sevilir, seviləcək də. Əvəzsiz sənəti özünün və müasirlərinin həyatına, yaşantılarına güzgü tutub. O güzgüdə hər şey olduğu kimi görünür. Heç kəs həmin gerçəkliyi əyməyə, sözə mərmərdən, qranitdən heykəl qoyan böyük sənətkara çamuru kəlməyə döndərib cızmaqaralarla ləkə yaxmağa qadir deyil. Qorxsunlar ki, özləri çamura batıb itməsinlər. Çünki artıq Bəxtiyar zirvəsi iyirminci yüzildən iyirmi birinci yüz ilə boylanır. Yeni əsrin poeziyası da onun ilhamıyla start götürəcək.

25 avqust 2000-ci il.

("Xalq" qəzeti, 27 sentyabr 2000-ci il, çərşənbə, N 220, səh. 5 və "Ədəbiyyat" qəzetinin xüsusi buraxılışı "Bəxtiyar Vahabzadə — 75", oktyabr, 2000-ci il, N 7, səh. 4—6)

AYAZ VƏFALI

BİR SAAT — BİR ÖMÜRLÜK DƏRS

Həmin dərslərdən biri də ədəbi cəsarət deyə biləcəyimiz mənəvi keyfiyyət idi. Mən xatırlatdım ki, Bəxtiyar müəllim o bir saatlıq məşğələsində Füzulidən heyrətli misallar gətirmək və hərarətli təhlillər verməklə ritorik poeziyanı şiddətlə rədd edirdi. Özü də o vaxtlar tənqid edilməsi, demək olar, mümkün olmayan adları çəkə-çəkə.

Mənə elə gəlir ki, Bəxtiyar müəllim üçün konkret əsərsiz avtoritet yoxdur. Bəzən müəllifini tanımadığı, istedadlı bir gəncin qələmindən çıxan hər hansı qüvvətli bir şer onu əsl mənada heyrətə gətirməyə qadirdir. Universitet auditoriyaları hələ tanınmamış elə istedadlardan akademik, pedaqoq Bəxtiyarın öz mühazirələrində yeri gəldikcə necə söz açdığına çox şahid olub. Belə ürək genişliyi, heç şübhəsiz, onun söz-istedad meydanının genişliyi, sənətkar əzəməti ilə bağlıdır. Bu, ədəbi mühitimizin həmişə ehtiyac duyduğu bir keyfiyyətdir.

Maraqlıdır ki, bəzən avtoritetlərlə mübahisədə ədəbi hökmü sübut üçün Bəxtiyar müəllim gənclərin poetik kəşflərinə çəkinmədən istinad etməli olub. 50-ci illərdə yenicə tanınmaqda olan mərhum Əli Kərimin məşhur "Qaytar ana borcunu!.." şerini ritorikaya, sözçülüyə qarşı güclü poetik etiraz kimi auditoriyada vəcdlə qiymətləndirən yenə Bəxtiyar Vahabzadə idi.

Bəxtiyar müəllimin mübahisələrində cürət qədər də səmimiyyət var. Ona görə də mənə həmişə belə gəlib ki, ipək diyarı Şəkidə dünyaya göz açmış Bəxtiyar müəllim ipək kimi yumşaq olsa da, ipək kimi də möhkəmdir...

Milli zəminə, kökə, xalq ruhuna və xalq mənəviyyatına sadiq qalmaq, yalnız doğma xalqın istiqlalı naminə qələm çalmaq əqidəsi Bəxtiyar Vahabzadə yaradıcılığının əsas mahiyyətini təşkil edir. Onun bir neçə sətirlik şerlərindən tutmuş poemalarına, pyeslərinə qədər bütün əsərlərində bu yüksək məqsədin ifadəsini görmək mümkündür. Bu mənada Bəxtiyar Vahabzadə sənətində monumental bir bütövlük var: böyük ustadı Füzuli "nəzmi-nazik türk ləfzilə" çox çətin olsa da doğma xalqının doğma dilində ölməz əsərlər yaratmağı "təriqi-namus" — namus yolu seçdiyini bildirir və allaha müraciətlə "mən türkzəbandan iltimas eyləmə kəm" deyə ondan kömək diləyirdi. Füzulinin bu iltiması qəbul oldu. Bəxtiyar Vahabzadə də dahi sələfindən beş əsr sonra təqribən oxşar müşkülə düşdü və vaxtilə Füzuli qələmi ilə cilalanmış dili unudulmaq təhlükəsindən qorumağa qalxdı: şerilə də, hər çıxışıyla da, necə deyərlər, — dişiylə, dırnağıyla!.. Ancaq Füzuli "inşallah ki, qalibəm mən" dediyi kimi, tale elə gətirdi ki, Bəxtiyar Vahabzadə də qalib çıxdı.

Ona görə də, dünyanın yaxın-uzaq guşəsində məskən salmış milyonlarla qan qardaşımız, soydaşımız müstəqil Azərbaycan ədəbiyyatının ən görkəmli simalarından olan Bəxtiyar Vahabzadəni layiq olduğu hörmətlə arayıb-axtarır və oxuyub-öyrənir. "Harada türk eli var — orda mən də varam" deyən böyük Nəvainin məşhur qənaətini Füzulidən

sonra Bəxtiyar Vahabzadənin də təkrar etməyə mənəvi haqqı var.

Milli istiqlal, milli dil əbədiyyəti mövzularını ömür boyu ardıcıl və yüksək poetik ilhamla ifadə etməyin bir əsaslı səbəbi də şairin dərin elmi əqidəsi ilə bağlıdır. Bəxtiyar müəllim həm klassik, həm də müasir ədəbiyyatımızın daimi və mötəbər tədqiqatçısıdır. Onun bu uzun illik və ilhamlı axtarışlarının bəhrəsini təkcə ayrı-ayrı orijinal məqalə və monoqrafiyasında deyil, hətta poeziya nümunələrində də yer-yer görmək olur. "Şəbi-hicran" poeması müəllifin Füzulinin, bir növ, bədii tədqiqidir. Füzuli şerinə xas poetik kəşflərin, mən deyərdim, poetik də şərhidir. Bəxtiyar Vahabzadənin Füzuli sənətindən çəkdiyi şirələri həmin poemanın sətirləri arasında açıq-aşkar duymaq mümkündür.

Bəxtiyar müəllimi dinləmək, oxumaq və sonra da sakit qalmaq mümkün deyil. Onun şerində elm, elmində şer hakimdir. O, bizim Füzulini ən çox xatırladan şairimizdir. Həqiqətən Füzuli nəfəslidir. Bu sətirlərin müəllifi üçün bir saatı — bir ömürlük dərsə çevirən də yəqin həmin hikmətdir.

"Ədəbiyyat qəzeti", 29 dekabr 1995.

Kamal TALIBZADƏ,
akademik

HAQQIMDA YAZILAN KİTAB HAQQINDA

"ŞAİRİN ƏDƏBİ GÖRÜŞLƏRİ"

Yenicə işıq üzü görmüş bu kitab xalq şairi Bəxtiyar Vahabzadənin sənətə baxışının təhlilinə həsr olunmuşdur. Qələmə alınan mövzu ədəbiyyatşünaslığın xüsusi bir sahəsini — "yazıçı tənqidi"nin özünəməxsusluqlarını, fərdiliyini açıqlaması ilə diqqəti cəlb edir.

Bəxtiyar Vahabzadə ədəbiyyat dünyasına seçilən, fərdi mövqeyi olan məşhur bir şair kimi daxil olmuşdur. O, dövrümüzün öncül şairlərindən biridir. Ancaq onu öz müasir qələm dostlarından bir cəhəti də, lap cavan yaşlarından elmə, ədəbiyyatşünaslığa, tənqidə həvəs göstərməsi, bu iki yaradıcılıq sahəsini məvazi, yanaşı davam etdirməsi də ayırır. Bəxtiyar Vahabzadə hazırda həm vətənin qüdrətli şairi kimi tanınır, həm də Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, filologiya elmləri doktoru kimi elmi ad və dərəcələrə malikdir, tənqid və ədəbiyyatşünaslığa dair qiymətli əsərlərin müəllifidir. Odur ki, şairimizin bədii yaradıcılığı ilə yanaşı, onun elmi fəaliyyəti haqqında ayrıca tədqiqatın yazılması çox təbiidir, gərəklidir. Bu baxımdan biz filologiya elmləri namizədi Mail Dəmirlinin "Şairin ədəbi görüşləri" kitabının nəşrini faydalı təşəbbüs kimi qiymətləndiririk.

Kitaba ön söz yazmış filologiya elmləri doktoru Şamil Salmanov sənətkarla alimin qarşılıqlı əlaqəsi problemini şərh edərək yazır: "Həqiqi sənətkarı heç vaxt bədii görüşlərsiz, sənətə və onun vəzifələrinə münasibətsiz, bir qədər də geniş desək, sənət haqqında fəlsəfəsiz təsəvvür etmək mümkün deyildir... Əsrin mürəkkəb, ciddi bəşəri problemlərinin həlli, dərki qarşısında dayanan sənətkarlar istər-istəməz öz sənətləri, yaradıcılıqları barədə də düşünməli olurlar" (səh. 3).

Yeri gəlmişkən onu da qeyd etməliyik ki, B.Vahabzadənin ədəbi görüşləri indiyə qədər xüsusi, ayrıca tədqiqat mövzusu olmamışdır. Bu elmi əhəmiyyəti olan kitabın müəllifi təsadüfi olaraq həmin mövzuya müraciət etməmişdir. Mail Dəmirli Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin məzunudur, uzun illər mətbuatda çalışmış, təhsil sahəsində fəaliyyət göstərmişdir. Bir çox maraqlı kitab və məqalələrin müəllifi olan Mail Dəmirli hazırda Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin prezidentidir. Buradakı fəaliyyəti ilə özünü bacarıqlı, hazırlıqlı təhsil təşkilatçısı kimi tanıda bilmişdir. Mail Dəmirli əgər ilk dəyərli elmi monoqrafiyasını namizədlik dissertasiyası kimi istiqlal şairi Xəlil Rzaya həsr etmişsə, ikinci monoqrafik tədqiqatı üçün zəmanəmizin mütəfəkkir şairi Bəxtiyar Vahabzadənin yaradıcılığını, onun ədəbi-tənqidi görüşlərini seçmişdir.

Mail Dəmirli üçün Xəlil Rzanın poetik dünyasından, istiqlal poeziyasından zəmanəmizin digər qüdrətli istiqlalçı nümayəndəsi olan Bəxtiyar Vahabzadəyə müraciəti vahid yaradıcılığın məntiqi nəticəsi kimi səslənir. Bu cəhəti də nəzərə almaq lazımdır ki, cavan alim Bəxtiyar irsi ilə xeyli vaxtdır ki, məşğul olur. O, şairin publisistik əsərlərini də toplayıb "Zaman və mən" (1999) adı altında nəşr etdirmişdir.

* * *

B.Vahabzadə haqqında irili-xırdalı çox əsər yazılmışdır. Ancaq buradaca mənimlə bağlı, kimsəyə məlum olmayan bir xatirəni qeyd etməyə bilmirəm.

1944—1945-ci illərdə B.Vahabzadə ilə Bakı Dövlət Universitetinin filologiya fakültəsinin son kurslarında oxuyurduq. Mən fakültənin "Filoloq" qəzetinin redaktoru idim. Arabir divar qəzetində Bəxtiyarın ilk şerlərini də buraxırdım. Nömrələrdən birində bu şerlər haqqında bir

məqalə də vermişdim. Həmin nömrə çoxlarının xoşuna gəlmişdi. Divardan asılmış qəzetin önündə yığılan topa-topa oxucular hamının diqqətini cəlb edirdi. Bu, o günlər idi ki, Respublika Təhlükəsizlik Komitəsində filologiya fakültəsinin tələbələrinin "əks inqilabi əməlləri"nə görə məhkəməsi gedirdi. Qəzet çıxan günün səhəri fakültəyə gələndə qəzeti divarda görmədik. Qəzet universitetin "təhlükəsizlik" orqanlarının qəzəbinə gəlmişdi. Bəxtiyar lap hələ cavanlığından milli-azadlıq mövzularında yazırdı. Yeri gəlmişkən onu da da xatırlatmağı lazım bilirəm ki, həmin illərdə şairin ilk kitabçalarından olan "Bahar" haqqında ayrıca məqalə də nəşr etdirmişdim. Bəxtiyar hələ lap ilk yaradıcılıq illərindən poetik düşüncələri, etirazları, tənqidləri ilə oxucuların diqqətini cəlb etmişdi. Bu gün bu poeziya zamanın poeziyasına çevrilmiş, böyük-böyük kitabların təhlil və tədqiq hədəfinə çevrilmişdir.

* * *

Mail Dəmirli kitabın ilk fəslini "Şairin poeziya görüşləri" adlandırmışdır. Bu fəsildə belə bir fikir vurğulanır ki, B.Vahabzadənin ədəbi görüşləri ədəbiyyat nəzəriyyəsi kitablarından gəlmir, şairin öz bədii təcrübəsindən gəlir, ədəbi yaradıcılığından qazandığı ümumi estetik qənaətlərdən gəlir.

Müəllif Bəxtiyar Vahabzadə şerinin təcrübi-nəzəri problemlərini, demək olar ki, bütünlüklə əhatə etməyə çalışmışdır. Bunu kitabın ayrı-ayrı problemlərə həsr olunmuş fəsilləri də təsdiq edir: Şairin poeziya görüşləri; Klassik poeziya görüşləri; Böyük poeziya məktəbi; Nəsrə şair baxışı; Zamanın fövqündə. Şairin yaradıcılığı ilə bağlı bütün bu məsələlərin təhlili imkan vermişdir ki, qələmə alınan mövzu geniş miqyasda əhatə edilsin.

Bu fəsillərdə belə bir fikir vurğulanır ki, "B.Vahabzadənin tənqidi professional elmi tənqidin xüsusiyyətlərini özündə əks etdirmək, cəmləşdirməklə bərabər daha çox yazıçı tənqidi hadisəsidir" (səh. 15).

Belə bir qənaət Mail Dəmirliyə imkan verir ki, B.Vahabzadə tənqidinin spesifikliyini, onu professional tənqiddən ayıran məxsusi keyfiyyətləri üzə çıxarsın. Fikrini təsdiq üçün müəllif şairin "Sənətkar və zaman", "Sadəlikdə böyüklük", "Gəlin açıq danışaq", "Yanan da mən, yaman da mən" kitablarını nəzərdən keçirir.

Müəllif belə bir nəticəyə gəlir ki, şairin tənqidi əsərləri öz ruhu, yazı tərzi, sənətkarlığı cəhətdən də professional tənqiddən seçilir, onun publisistik tonu, müsahibə şəklinə müraciət bu əsərlərə subyektiv istiqamət verir, onları "Bəxtiyarlaşdırır".

Bu fəslin əsas mövzularından biri də elmin ədəbiyyatla əlaqəsidir.

Azərbaycan şerinin ən qədim dövrlərindən gələn bu daimi ideya-estetik keyfiyyət XX əsrin şairi Bəxtiyar Vahabzadə üçün də səciyyəvidir. Monoqrafiya müəllifi bu mürəkkəb problemi təhlil etmək üçün şairin 60—70-ci illər poeziyasına həsr etdiyi məqalələrinə müraciət edir, novatorluq, ənənə, müasirlik, xəlqilik kimi problemlərin şairin ədəbi görüşlərində necə qiymətləndirildiyini açıqlayır. Şairin hünəri ondadır ki, bir nəzəriyyəçinin, ədəbiyyat aliminin deyə biləcəyini poeziyanın vasitəsilə, şerin dili ilə demişdir.

Kitabın müəllifi bu fikirdədir ki, düşüncə, ideya B.Vahabzadə poeziyasının əsas ayrılmaz estetik komponentlərindəndir. Şair özü yazır: "Yazıçı, hər şeydən əvvəl düşünməyi və düşündürməyi bacarmalıdır. Dərin biliksiz düşünmək mümkün olmadığı kimi, düşündürmək də mümkün deyil" (səh. 20). B.Vahabzadə daha sonralar "düşüncə poeziyası" adı ilə nəzəri ədəbiyyatda yayılan ifadəni belə şərh edirdi: "Əlbəttə, nəzmə çəkilmiş fikir hələ poeziya deyil, quru didaktikadır. Poeziya isə fikrin hisslə həyəcanlı ifadəsi deməkdir. "Fikir poeziyası" dediyimiz zaman bizi həyəcanlandırıb düşündürən, düşündürüb həyəcanlandıran əsərləri nəzərdə tuturuq" (səh. 21).

Ancaq nəzərə almaq lazımdır ki, B.Vahabzadə poeziyada fikri müdafiə edərkən poeziya ilə elmi eyniləşdirmirdi. Bu görüşlərini şair məqalələrində, "Sənətkar və zaman" kitabında geniş izah etmişdir.

Yeri gəlmişkən deməliyik ki, Mail müəllim B.Vahabzadənin poeziya görüşlərindən danışarkən imkan daxilində şairin məqalələrinə müraciət edir, fikirlərini bu mənbələr əsasında da təsdiqləyir. "Şairin poeziya görüşləri" fəslində müəllif şerimizin 60—70-ci illər nəsillərinə həsr olunmuş məqalələri nəzərdən keçirir. X.Rza, Ə.Kərim, N.Həsənzadə, M.Araz, N.Kəsəmənli, F.Qoca kimi şairlərə B.Vahabzadənin münasibətlərini açıqlayır.

Sonrakı fəsillərdə B.Vahabzadənin monoqrafiyalarında, məqalələrində, bəzi irihəcmli poemalarında cəmləşən ədəbi-estetik fikirlərdən, şairin ayrı-ayrı sənətkarlara münasibətindən söhbət açılır.

"Klassik poeziya görüşləri" və "Böyük poeziya məktəbi" fəsillərində Mail Dəmirli oxucusunun diqqətini ədəbiyyat tariximizin böyük şəxsiyyətlərinin — Nizaminin, Nəsiminin, Füzulinin, Vaqifin yaradıcılıq problemlərinə, xalq ədəbiyyatının müxtəlif məsələlərinə yönəldir.

Şairin ədəbi görüşlərində özünütənqid və təhlil çox güclüdür. Bir neçə məqaləsində B.Vahabzadə özünü romantik şair kimi, yaxud romantizmə daha yaxın sənətkar kimi təqdim edir. B.Vahabzadənin ədəbi və bədii irsi klassiklərimiz haqqında cazibəli, cəsarətli fikirlərlə dolu-

dur. Məsələn, Nizami haqqındakı fikrə nəzər yetirək: "Nizami sənətinin dərinliklərinə baş vurduqca adamı heyrət bürüyür. Bu sənətdə — musiqi, memarlıq, rəssamlıq sözün qüdrətilə dil açıb danışır... İnsan qüdrətini bilmək üçün Nizamini oxumaq, onun sənətini dərk etmək, bu sənətin hansı ucalığa qalxdığını, hansı dərinliyə baş vurduğunu bilmək kifayətdir. Bu böyük sənətin çərçivəsi yox, ölçüsü yox, sərhədi yoxdur. Onun qalxdığı zirvə, endiyi dərinlik hüdudsuzdur" (səh. 33).

Monoqrafiyanın Füzuli ilə Səməd Vurğun bəhsləri diqqət və ilhamla işlənmişdir. Müəllif B.Vahabzadə yaradıcılığına Füzuli poeziyasının təsirini miqyaslı göstərmək üçün şairin həm şerinə, həm də məqalələrinə müraciət edir. Bəxtiyar Vahabzadənin "qəlb şairi"nə həsr olunmuş "Şəbi-hicran" poemasını ayrıca nəzərdən keçirir. Böyük şairin lirikasındakı məhəbbətin möhtəşəmliyini nümayiş etdirməyə çalışır. Bu fikri monoqrafiya müəllifi şairin öz dili ilə belə ifadə edir: "... unutmaq lazım deyildir ki, Füzulinin özü böyükdür, özü böyük olanın eşqi də, bu eşqdən yaranan dərdi də, dərdin özünə sevgisi də böyükdür, ülvidir. Füzuli dərdi ona görə sevir ki, dərd onu kamala çatdırır, onu yüksəldir, onu ucaldır" (səh. 41—42).

Müəllif monoqrafiyada B.Vahabzadənin bəhs etdiyi Nəsimi, Sabir, Hadi, Yunis İmrə kimi sənətkarların adlarını çəkir, alimin sənət konsepsiyasının formalaşmasında onların xidmətini təsdiq edir.

Monoqrafiyanın "Böyük poeziya məktəbi" fəsli isə ayrıca klassik şairimiz Səməd Vurğunun sənət görüşlərinin təhlilinə həsr olunmuşdur. Maraqlıdır ki, hər iki tədqiqatçının, həm B.Vahabzadənin, həm də Mail Dəmirlinin təhlil etdiyimiz əsərində Səməd Vurğun irsinin təhlilinə geniş yer verilir. Monoqrafiya müəllifi B.Vahabzadənin 1965-ci ildə yazdığı "Səməd Vurğunun həyatı və yaradıcılığı" kitabı üzərində xüsusi dayanır, şairin özünü də S.Vurğun məktəbinin nümayəndəsi kimi təqdim edir. Mail Dəmirli yazır ki, "S.Vurğun mövzusu B.Vahabzadənin tədqiqatçılıq fəaliyyətində daimi və davamlı bir mövzudur. Çünki S.Vurğun poeziyası və sənəti şair üçün yüksək bədii dəyərlər məktəbidir...

Mən hər dəfə bu ustad şairi oxuyanda elə bil tilsimə düşürəm... Öz qaynağını xalq yaradıcılığı çeşməsindən götürmüş bu sənət xalqın dühası kimi zəngin və zənginliyi qədər də sadədir. Bizi çaşdıran da bu sehrli sadəlikdir" (səh. 48).

Mail Dəmirli həmin fəsildə B.Vahabzadənin elmi yaradıcılığında S.Vurğun irsinin necə hərtərəfli öyrənildiyini zəngin ədəbi-tənqidi dəlillərlə nümayiş etdirir. Biz monoqrafiyada S.Vurğun poeziyası ətrafında

gedən mübahisələrin, haqlı-haqsız mübahisələrin geniş mənzərəsi ilə qarşılaşırıq.

Monoqrafiyanın "Nəsrə şair baxışı" fəsli B.Vahabzadənin az tədqiq olunmuş mövzusuna həsr olunmuşdur. "Nəsrə şair baxışı" fəslində "Nəsrə alim baxışı"nın da izləri aydın görünür. Müəllif B.Vahabzadənin Azərbaycan nəsri haqqında nəşr etdirdiyi məqalələri diqqətlə nəzərdən keçirir, bu janrın milli-ədəbi zəmində böyük nailiyyətlər əldə etdiyini şair alimin vasitəsilə təsdiqləyir. Bu məqalələrdə Süleyman Rəhimov, Mirzə İbrahimov, Mehdi Hüseyn, Əbülhəsən, Mir Cəlal yaradıcılıqları milli zəmində təhlil olunur. Müəllif Süleyman Rəhimovun romanlarında, xüsusən çoxcildli "Saçlı" əsərində, Mirzə İbrahimovun "Böyük dayaq" romanında Azərbaycan həyatının milli problemlərinə toxunulduğu barədə B.Vahabzadənin gəldiyi qənaətlərlə bəraət qazandırır. Bu fəsildə B.Vahabzadənin fikirləri ilə müəllif mülahizələri qovuşur, bir ahəng təşkil edir. Mail Dəmirli bu fəslə belə yekun vurur: "Beləliklə, deyilənlərdən bu nəticəyə gələ bilərik ki, müasir nəsr də B.Vahabzadənin tənqidinin əsas və daimi predmetidir (səh. 96).

Kitabın son fəsli "Zamanın fövqündə" adlanır. Müəllif bu başlıq altında əsasən şairin publisistikasını, onun milli, ictimai-siyasi, dini görüşlərini aşkarlamağa çalışmışdır. Bu fəsil kitabın ümumi ədəbi-estetik konsepsiyası ilə çətin əlaqələnsə də, Bəxtiyar Vahabzadə publisistikasının bir çox ümumi, ancaq şairə məxsus konkret görüşlərinin aşkarlanmasına kömək göstərir. Müəllif şairin "Zaman və mən" toplusunu təhlil edərək Bəxtiyar Vahabzadəni dövrün fikir dünyasında qabaqcıl mövqedə dayandığını sübut etməyə çalışır. Bəxtiyar Vahabzadə sovet ideologiyasını, müstəmləkəçi rus imperializminin rəzil işğalçı siyasətini ifşa edir, öz milli simasını itirmiş, ana dilini bilməyən, bununla da iftixar edən "ruspərəst" azərbaycanlıları tənqid atəşinə tutur. Şair bir yandan boynuna xaç asıb islam dininə xain çıxan öz vətəndaşlarını, məscidlərin biganəliyini ifşa edirsə, bir yandan da dünyada mövcud olan üç səmavi dinin səciyyəsinin verərək yazır ki, "İndi biz dinləri bir-birindən ayıran sərhədləri deyil, orta dəyərləri birləşdirməklə əbədi sülh, əmin-amanlığa qovuşa bilərik" (səh. 102).

Şairin bütün dünya türkləri üçün anlaşılan "ortaq türk dili"nin yaradılması fikrini də müəllif müsbət qiymətləndirir. Yusif Vəzir Çəmənzəminlidən gətirilən bu iqtibas da yerinə düşür: "Birlik kağız üzərində deyil, məclislərdə söylənilən nitqlərdə deyil, həqiqi bir məfhum olaraq geniş kütlələrin şüurunda yerləşdirilməlidir" (səh. 100).

Mail Dəmirli Bəxtiyar Vahabzadənin milli, ictimai-siyasi, dini ba-

xışlarını yekunlaşdıraraq bu nəticəyə gəlir ki, şairin ədəbi-tənqidi görüşləri belə bir məfkurə zəminində yüksəlmişdir.

Bu təhlil və təqdimatdan sonra, nəhayət onu deməliyəm ki, biz, müasir ədəbiyyat elmimiz Bəxtiyar Vahabzadə kimi zəmanəmizin qüdrətli sənətkarını öyrənmək və tanıtmaq sahəsində hələ az iş görmüşük. Oxucuların istifadəsinə verilən "Şairin ədəbi görüşləri" kitabı bu sahədə görülən uğurlu addımlardandır.

"Azərbaycan" qəzeti, 24 may 2000-ci il.

SƏMƏD MƏLİKZADƏ

VƏTƏN SEVGİSİ, MİLLƏT DƏRDİ, ANA DİLİ YANĞISI

Xalq şairi Bəxtiyar Vahabzadənin bu yaxınlarda Türkiyədə nəşr edilmiş iki yeni kitabını birləşdirən əsas qayə bunlardır.

"Ötükən" nəşriyyatında çapdan buraxılmış "Ömürdən səhifələr" kitabında şairin keçdiyi şərəfli ömür və sənət yolu barədə türk oxucularına ətraflı söhbət açılır. Bununla yanaşı, onun ədəbiyyat, sənət, tarix, din və dil məsələləri barədə yazdığı çoxsaylı dəyərli məqalələri təqdim olunur. Qeyd edək ki, Vətən, torpaq və xalq təəssübkeşliyi Bəxtiyar Vahabzadə yaradıcılığının həmişə aparıcı xətti olmuşdur. Şairin amalı xalqının hər fərdini bir-birinə bağlamaq, sevgi bağları ilə birləşdirməkdir. Onsuz da kənarda dişini qıcayıb məqam gözləyənlər az deyil:

Nə çox imiş bu torpağa göz dikən,
Baxa-baxa gözümüzə mil çəkən.
Düşmənimiz dostumuzdan çox ikən
Türkün türklə ədavətə haqqı yox.

Sinəsini yarmalıyıq zülmətin,
Bu amaca getdiyimiz yol çətin.
Hər gün neçə şəhid verən millətin
Bir-biriylə ədavətə haqqı yox.

Bu şer parçası təkcə bu iki kitabın deyil, ümumiyyətlə, Bəxtiyar Vahabzadə həyatının, düşüncələrinin ana xəttini, leytmotivini təşkil edir.

Elə buna görə də şairin istər hər yeni şeri, istərsə də elmi-publisistik məqalələri və müsahibələri oxucular tərəfindən həmişə məhəbbətlə qarşılanır. Heç şübhəsiz ki, Bəxtiyar Vahabzadə sənətinə və şəxsiyyətinə xalq sevgisinin heç vaxt azalmamasının əsas səbəbi bunlarla bağlıdır.

"Ömürdən səhifələr"dəki yazıları oxuduqca hər fikrin arxasında böyük amallarla yaşayan, millətin azadlığı və xoşbəxtliyi üçün daim narahat bir insanın bəzən ağlayan, bəzən sevinən anlarını görmək olur. Bu yazıların çoxu Azərbaycan oxucusuna yaxşı tanışdır. Çünki həmin məqalələrin bəzisini Bəxtiyar müəllim Azərbaycanın ən ağır, sıxıntılı günlərində qələmə almış, vətən övladlarını mübarizəyə səsləmişdir.

On fəsildən ibarət olan kitabı Anadolu türkcəsinə doktor Yusif Gədikli çevirmiş və ön söz yazmışdır.

Nəfis üzqabığı və tərtibatı olan "Vətən, Millət, Ana dili" kitabı şairin fəxri üzvü olduğu Atatürk Kültür Mərkəzi tərəfindən buraxılıb. Əlavə edək ki, Bəxtiyar müəllim bu kitabını Qafqaz Universitetinin ədəbiyyat fakültəsinə ithaf edib. Görkəmli türk alimi Sadıq Tural kitaba "Bəxtiyarlığa salam" sərlövhəli ön söz yazıb. Sadıq bəy onsuz da "Türk dünyasının ən böyük şairi" (S.Dəmirəl) B.Vahabzadənin türk oxucusunun könlündə çoxdan bir taxt qurduğunu qeyd etməklə, onun Azərbaycan ədəbiyyatında, ümumilikdə türkdilli xalqların mədəniyyətindəki xidmətlərini qeyd etmişdir.

Bu kitabda da şairin ömür yolu özünün qələmə aldığı yazı ilə təqdim olunur. Belə demək mümkünsə, həmin yazılar təkcə Bəxtiyar Vahabzadənin tale payına yazılanların təsviri ilə bitmir. O məqalələr həm də şairin ədəbiyyat, sənət haqqında, ayrı-ayrı şəxsiyyətlər, xalqın həyatında baş verən mühüm hadisələr barədə fikirlərinin toplusu kimi qiymətləndirilməlidir.

Kitabda həmçinin şairin "Xalq qəzeti"nə, "Milli Kültür Dərgisi"nə, "ZAMAN" qəzetinə verdiyi müsahibələr; "Türkiyəyə ilk səyahət", "Bizim kimimiz var?", "Əcnəbi dildə təhsilin ziyanları", "Yanan da mən, yaman da mən" və digər məqalələri verilib.

"Şəxsiyyətlər, kitablar" bölməsində türk dünyasının görkəmli qələm sahiblərinin yaradıcılığı barədə qiymətli yazılar vardır.

İnanırıq ki, xalq şairi Bəxtiyar Vahabzadənin hər iki kitabı türk oxucusuna, sənətsevərlərə layiqli hədiyyə olacaq.

"Zaman" qəzeti, 27—28 aprel 2000-ci il.

Hikmət ƏBDÜLHƏLİMOV
Telman MEHDİXANLI

ÖMRÜN PAYIZ FƏSLİ ƏLİNİ SIXSA, KÜSMƏ, ŞAİR, ÇÜNKİ FƏSİLLƏRDƏ PAYIZ—BƏRƏKƏT, ÖMRÜN PAYIZI — HİKMƏTDİR!

Şairi dünyada baş verən olayları — sevinc-fərəhi, qüssə-kədəri özünə çəkən maqnitə bənzədiblər. Bu baxımdan bütün türk dünyasında yaxşı tanınan, sevilən, yaradıcılığı həvəslə, maraqla oxunan Bəxtiyar müəllimin taleyi, ictimai-siyasi fəaliyyəti xarakterikdir. Və burası da bizlərə agahdır ki, hörmətli şairimizin hansısa gəlişi gözəl olan sözlərə ehtiyacı yoxdur. O, öz qiymətini Ulu Tanrıdan, hörmətini xalqından alıb. Ömrü boyu cəfalar çəksə də, ünvanına müxtəlif şayiələr uydurulsa da, bütün bunlara dözüb, tablaşıb, öz əqidəsindən, məsləkindən, getdiyi haqq yolundan geri dönməyib. Təkcə ona görə ki, bilib irəlidə onu işıqlı sabahlar — uğurlar, mükafatlar, ən əsası oxucu məhəbbəti, oxucu sevgisi gözləyir. Həm də ona görə ki, o, daim mənsub olduğu xalqın taleyini düşünüb, təsvir və tərənnüm edib. Sevib və sevilib. Yanıb-yaxılıb. Lakin öyünüb, qürrələnib, hünərlənib ki, "şamın yaşamağı yanmağındadır". Hörmətli şairimizi məhz bu keyfiyyətinə görə Nəsimiyə, M.Ə.Sabirə, Mirzə Cəlilə, Şəhriyara... tay tutmağımız yerinə düşərdi.

Şair, ictimai xadim, xalqın önündə gedən şəxsiyyət, müəllim, yol göstərən azərbaycanlı... Sadalamaq, demək çətin deyil. Çətin odur ki, bütün bu keyfiyyətləri özündə birləşdirən şəxsiyyət — ağsaqqal, dahi, müdrik, geniş qəlbli, həssas ürəkli insan haqqında necə yazaq ki, onun gərgin əməyinə, müqəddəs yaradıcılığına işıq sala bilək? Bax ən əsas şərt budur!

Elə bu ərəfədə yadımıza hörmətli şairimizin təxminən yarım əsr öncə yazdığı "Gülüstan" poemasının personajları, danışılan tarixi əhvalatlar düşdü: "Heç nə olmamış kimi o ipək dəsmalla eynəyini silib, imza atdı. Bir süfrəni iki bölüb, üstünə sərhəd direkləri basdırdılar. Qardaşı qardaşdan ical-ayrı saldılar". Bilirsinizmi "Gülüstan" poeması hansı ərəfədə yazılmışdı? Sovet dövründə, "qırmızı imperiyanın" ən hegemon, sinəsinə döyüb "mənəm-mənəm" deyə, bağırdığı çağlarda. İstiqlal şairimiz də "Gülüstan"ı məhz o dövrdə yazmışdı. Həmin əsər aşkar-gizli əl-əl gəzirdi. Biz bunu həmişə olduğu kimi, yenə də hörmətli

söz ustasının sənət qələbəsi kimi qiymətləndiririk!

Hörmətli şairimiz "Vətəndən-vətənə" şerini təxminən 40 il öncə yazıb. Fikirləşirik: bəlkə həmin şeri obyektiv və subyektiv səbəbdən unudanlar var, (həm də bu müddət ərzində dünyaya göz açan gənclərimiz də var) bunun üçün də həmin əsəri bir daha xatırlamağı özümüzə borc bildik:

Arazın
bu tayı Vətənim,
o tayı Vətənim.
Vətəni görməyə amanım yox mənim.
bu necə vətəndir?
Görmədim üzünü
çatsam da bu yaşa,
Ömründə bir dəfə
bəs salam verməzmi
qardaş da qardaşa?
Bu qəmim, bu dərdim dağlardan
ağırdı,
Arazın suyuna qarışıb axıram
Füzuli həsrətlə qürbətdən Vətənə
baxırdı,
Mən isə...
Vətəndən-vətənə baxıram...

Soruşduq: kim deyə bilər ki, bir az öncə nümunə göstərdiyimiz şerdən ötəri sevimli şairimiz incidilməyib, küsdürülməyib, təzyiqlərə, təqiblərə məruz qalmayıb? Heç kəs bu missiyanı öhdəsinə götürə bilməz. Axı, onu cismani məngənədə sıxıblar, mənəvi əzablar veriblər. Elə verməliydilər də. Kimin nə ixtiyarı vardı (o ki qala əyalətlərdə) cınqırını çıxartsın? Hegemon quruluş basıb adamın bəbəklərini çıxardar, qulaqlarını kar edər, dilini çəkib boynunun ardından çıxardardı... Lakin bütün olacaqları — hətta çəkəcəyi işgəncələri — öncədən duyan, anlayan B.Vahabzadə bütün maneələrə sinə gərərək inamla irəliyə baxır, yazıb-yaradırdı. Onun üçün bu dünyada tək bircə müqəddəs amal olub, elə indi də var: imperiya hiyləsindən, siyasətindən zaman-zaman ayrı düşmüş qardaşlar (Təbrizlə Azərbaycan) yenidən özü də əzəli və əbədi qovuşsunlar, qovuşsunlar, vəssalam!

Əziz şairimizin vətənpərvərlik, xalq, yurdsevərlik mövzusunda yazdıqlarından daha bir nümunə:

Yad dildə məktub yazıb
qardaş, öz qardaşına,
Bu məktubu oxyan
nə kül töksün başına.
Hökmünə bax həsrətin,
Hökmünə bax zillətin.
Bəs anası yox imiş
bu zavallı millətin –
Bir əmcəkdən süd əmən
əkiz övladlarına
öz dilini öyrədə?
Bir yuvadan uçurub bu
uçuşu seyr edə?

Doğrudur, ilk anda şair qardaşın qardaşdan ayrı düşməsinin, birinin doğma, digərinin əcnəbi dildə danışmasının günahını, qəbahətini anada görür. Lakin sonradan özü də etiraf etmək zorunda qalır: "Buna zavallı ana neyləsin, günah zamanın qanunundadır!"

Bəxtiyar müəllim yaradıcılığından İran Azərbaycanı, Təbriz mövzusu qırmızı xətt kimi keçir. Onun o arzu dolu, istəyə qovuşmaq niyyəti ilə yazılan çoxsaylı şerləri var. Bu gün onun "Şəhriyara" poetik misralarından bir nümunəni diqqətə çəkirik:

El deyib ki, bostan əkmə bəy ilən,
Yalan olmur el adından deyilən.
Heydərbaba qarşısında əyilən –
O başının önündə baş əyirəm,
Yalnız indi sənə qardaş deyirəm!

B.Vahabzadənin vətənpərvərlik, torpaqsevərlik, yurd qədri bilmək mövzusuna aid yaradıcılığı deyərdik ki, onu daha müdrikləşdirir, el-oba gözündə ucaldırdı. Bu ucalıq 1980-ci illərin sonunda daha da qabarıq planda görünməyə başladı. O vaxtlar Ermənistan — Azərbaycan arasında qondarma problem təzə-təzə qızışmağa başlayırdı. Nankor qonşularımız dəfələrlə arxalandıqları imperiya ağalarına sığınıb üstümüzə göz ağardır, diş qıcayırdılar. Həmin gərgin günlərdə o indiki "Azadlıq" meydanına cəm olub öz haqlarının, hüquqlarının bərpasını tələb edən soydaşlarımızın əsl liderinə, öncülünə çevrilmişdir. Xalq onu sevir, hər gəlişini, hər çıxışını böyük maraqla, diqqətlə, həsrətlə dinləyir, qəbul edirdi. Çünki bu sevgini, bu hörməti o çoxdan qazanmışdı. Yaxşı xatırlayırıq: 1990-cı il

20 Yanvar qırğınından sonra Bəxtiyar müəllim az qala iflic vəziyyətinə düşmüşdü. Tökülən günahsız qanlar onun bütün varlığına qənim kəsilmişdi. Həmin günlərdə şahidi olduğumuz bir mənzərəni də bu yazımıza əlavə etmək istədik.

Yanvar ayının 22-si idi. Sovet hərbi hissələri tərəfindən çoxsaylı soydaşlarımız amansızcasına qətlə yetirilmişdi. Ölkəmizin paytaxtı büsbütün blokada şəraitində idi. Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin həyətində dayanmışdıq. Bizdən aralı Sovet Ordusunun bir generalı və onun iki silahlı keşikçisi özlərindən razı halda var-gəl edirdilər. Bu zaman Bəxtiyar müəllim gəlib çıxdı. Bizimlə hal-əhval tutub, yönünü general səmtə çevirib: "Tfu sizin üzünüzə. Sizin əliniz günahsız insanların qanına batıb", — dedi. Dişi dodağını gəmirirdi. Handan-hana da qəzəblə sözünə əlavə etdi: — "Siz cəlladsınız. Siz illər boyudur bizləri əsarətdə saxlamısınız. Daha yetər. Xalqımın yarısı qırılsa da, qalanlar sizlərin əsarətindən can qurtaracaqlar."

Təbii ki, biz bu sözləri sevimli şairimizdən eşidəndə həm qürrələndik, həm də qorxu hissi keçirdik. Bir göstərişlə yüzlərlə həmyerlimizi qanına qəltan edənlər, Bəxtiyar müəllimin də sinəsinə silah tuşlaya bilərdilər. Amma bunu etmədilər. Çünki haqq sözün, ədalətin qarşısında onlar təslim oldular.

Bəxtiyar müəllim görkəmli alim, bənzəri az olan pedaqoqdur. Uzun illərdir ki, ADU-da təkcə ədəbiyyatımızın qaynaqlarını yox, həm də həyat fəlsəfəsini, həyat poeziyasını tədris edir. İnamla demək mümkündür ki, bu gün milli dirçəlişimiz, azadlığımız, müstəqilliyimiz uğrunda min bir cəfa çəkənlərin əksəriyyəti onun tələbələridir.

Hörmətli şairimiz sözlə bədii mənzərələr yaratmağın ən mahir ustası kimi də tanınıb. Görkəmli fırça ustası Mikayıl Abdullayev deyir ki, Bəxtiyarın şerini oxuyandan sonra naturaya qətiyyən ehtiyac qalmır. Çünki o təsvir etdiyi məkanı, obrazı elə incəliklə verir ki, onlar canlı kimi göz önündə canlanır. Onun "Qocalar" şeri bu baxımdan olduqca xarakterikdir:

... Yaşıdlar köç edib, cavanlar işdə
Tək-tənha oturmaq son əlacları.
Həyatın amansız yalqızlığında
Tutur əllərindən əl ağacları.
Yumub gözlərini düşünür onlar,
Durur göz önündə ötən zamanlar.

Sevimli şairimizdə həyat müşahidələri son dərəcə yüksəkdir. Bəlkə də elə bu səbəbdən onun bədii müşahidələri obrazlaşır, uzun müddət

oxucu yaddaşından pozulmur. Bax, belə:

Yatmaq istəyirəm... sənsizliyimi
Yuxu dənizində batıram deyə.
Yuxumsa kölgəni öz kölgəm kimi
İzləyir, qısqanır səni hər şeyə.
Yuxum qaçaq düşüb məndən yan gəzər,
Yuxum küçələrdə sərgərdan kimi...

Bəxtiyar müəllim lirik şairdir. Elə bu səbəbdəndir ki, onun şerləri zaman-zaman gənclərimizin əzbəri olub:

Sən getdin, elə bil dünya boş qaldı,
Yaz da köçüb getdi yeri boş qaldı,
Bahar ürəyimi sənsiz qış aldı,
Mən yaza vurğunam, qışı neylərəm...

Görkəmli qazax şairi Oljas Süleymenov yazır: "Bəxtiyar kimi şairi, ziyalısı, şəxsiyyəti olan xalq xoşbəxtdir." Bəli, biz doğrudan da xoşbəxt millətik ki, canlı klassiklə bir dövrdə, eyni əsrdə yaşayırıq. Onun yaradıcılığını, publisist yazılarını oxuyuruq. İctimai-siyasi fəaliyyəti barədə tam, dolğun bilgimiz var. Ən dar məqamlarımızda onun millət vəkili kimi haqq səsini necə ucaltmağının şahidiyik.

Bu günlərdə sevimli şairimizin anadan olmasının 75 illiyi tamam olmuşdur. Təntənəli, şanlı yubiley münasibətilə onun adına saysız-hesabsız təbriklər, teleqramlar gəlmişdir. Biz də həmin şadyanalığa böyük məmnuniyyətlə qatıldıq. Adına ərməğan etdiyimiz yazının isə onun dillər əzbəri olan bu misraları ilə bitiririk:

Saralır get-gedə çöl, çəmən, çayır,
Könül hər saatı ömürdən sayır.
Bir səs qulağıma hey pıçıldayır:
– Bəxtiyar, göylərdən en yavaş-yavaş.

Yaradanımızdan sevimli şairimizə daha uzun ömür, möhlət diləyib deyirik: "Bəxtiyar, günbəgün daha da ucal!". Bir də ki, hörmətli müəllimimiz, ömrün payızı əlinizi sıxmasından gileylənməyin. Çünki fəsillərdə payız — bərəkət, ömrün payızı hikmətdir!

"Naxçıvan" qəzeti, 15 sentyabr 2000-ci il.

Şahmar ƏKBƏRZADƏ

İSTİQLAL POEZİYAMIZIN BAYRAQDARI

İlk şeri işıq üzü görəndən bu günəcən ömrünün 57 ilini həyəcanlar içində, əsəb məngənəsində, qovğalar qoynunda, cərrahların bıçağı altında keçirən, "Hər gün bir təzə dərd çıxdı qarşıma, bir gecə yatmadım köhnə dərdlə mən" — deyən, sözün cəng-cidalında şam kimi əriyən istiqlal şairimiz Bəxtiyar Vahabzadə o taylı-bu taylı Azərbaycanımızın sevgisi, xeyir-duası olmasaydı, yüz il yüz ilə qala 75-ə çata bilməzdi. Hələ mən dünyanın müxtəlif nöqtələrindən şairin üsyankar duyğularına çıraq tutan saysız-hesabsız pərəstişkarlarını, fanatlarını demirəm. Ustad sənətkarımız gənclik illərindən "Şair mən deyiləm, xalqımdır, onun kamala dolmamış katibiyəm mən" demiş, şeri mübarizə vasitəsi hesab etmiş, bütün yaradıcılığı boyu xalqın arzu və istəklərilə nəfəs aldığını, bu yolda heç nədən çəkinmədiyini qan-qan deyən misraları ilə sübuta yetirmişdir. Məhz buna görə də Azərbaycanın hər yerində onun şerləri ürəklərə yol tapır, məclislərdə əzbərdən deyilir, xalq şairlə, şair də xalqla nəfəs alır. Sərraflar başa düşürdü ki, B.Vahabzadə

"Min əzab çəksə də əkinçi qarda,
Taxılına yorğan yenə qar olur.
Əliylə tikdiyi evi axırda
Barama qurduna bir məzar olur" –

misraları ilə müstəmləkəçilərin Vətənimizi məzara çevirmək istədiklərinə işarə vurur. Bəli, şerimizə səməndər kimi daxil olan Vahabzadə Hüseyn Cavidin, Mikayıl Müşfiqin, Əhməd Cavadın aqibətini bilə-bilə özünü od-alovun içinə atır, ölümün gözünə dik baxa-baxa ədalətsizliyə qarşı açıq-aşkar meydan oxuyurdu:

Hansı qanunda var ki,
bir xalqın ana dili
dilim-dilim kəsilə!
Ona yasaq edələr
"Yandım" deməyi belə!

Mən ömrümdə Vahabzadə qədər mübarizədən doymayan, dilimizin, vətənimizin, millətimizin təəssübünü bütün amallardan yüksəkdə tutan

və buna görə də xalq tərəfindən onun qədər qızğın məhəbbətlə qarşılanan qələm mücahidi görməmişəm. Şair bir zamanlar oxucularını birbaşa mübarizəyə səsləyir, çox vaxt sətiraltı mənalarda yox, dilimizin əldən getmək təhlükəsini yana-yana dilə gətirir, onları açıq, kəskin metaforalarla ayağa qaldırmaq istəyirdi:

Yadın fitvasıyla, öz gülləmizlə
Özgənin dilinə ov olan dilim.
Möhürlü, hüquqlu idarələrdən
Daxmalar küncünə qovulan dilim!

Ali təbəqələr səni dandılar,
Sən bir ümman ikən dayaz sandılar.
Özgənin dilində xoruzlandılar,
Sən ey öz sacında qovrulan dilim!

Bu gün daldada şairin kölgəsində xoruzlananlardan, özünü istiqlal "mücahidi" hesab edənlərdən soruşmaq istərdik: B.Vahabzadə odla qurşaq tutanda, taleyini qasırğalara tapşıranda hardaydınız? Hamı gözəl bilir ki, o vaxt siz balalarınızı yad dilində oxuda-oxuda, dilimizə lağ edə-edə hansı mərdiməzarlıqla məşğul idiniz? Cəsarətlə demək olar ki, böyük şairimizin müxtəlif illərdə qovrula-qovrula yazdığı "Ana dili", "Latın dili", "Riyakar" və digər şerləri anamızın südü qədər halal olan müqəddəs türkcəmizin sənət aləmində əbədi keşikçilərinə çevrildilər. Bu da unudulmamalıdır ki, vəzifə uğrunda mübarizə aparan bu günün cılız vətəndaşçığazları o zaman şairi ifrat millətçilikdə günahlandırır, ondan hər yerə donos yazır, mövcud rejimə yaltaqlana-yaltaqlana dəridən-qabıqdan çıxırdılar. Vaxtilə B.Vahabzadəni millətçi adlandıran buqələmunlar "Leninlə söhbət" poemasına görə istiqlal şairini indi də "sovet şairi" adlandırır, onun haqq yolunu, ömürlük mücadiləsini kölgələmək istəyirlər. Halbuki, "Leninlə söhbət" əsəri Azərbaycanın haqqını tələb edən, vətəndaşlıq mövqeyindən qələmə alınan, sətiraltı qırmanclarla dolu bir poemadır, təkrar çapa və təhlilə layiqdir. İyirminci yüzilliyin ikinci yarısında vətəndaşlıq poeziyamızı novatorcasına inkişaf etdirən və onu zirvələndirən B.Vahabzadə zaman-zaman keşməkeşli yollar yolçusu olmuşdur. Qiymət verməkdə sözün yaxşı mənasında son dərəcə xəsis və obyektiv olan, dediyini yüz dəfə ölçüb-biçən ustad R.Rza gənc qələm dostu barədə neçə-neçə illər bundan öncə yazırdı: "Şair Bəxtiyarın bəxtiyarlığı onun qibtə ediləcək dərəcədə böyük olan poetik istedadındadır. Bu istedad ona dərin xalq məhəbbəti qazandırmışdır. Belə bir insan həqiqətən bəxtiyardır". Ustad haqlı idi. B.Vahabzadə doğrudan da böyük istedad sahibi olduğunu lap gənc yaşlarında sübuta yetirdi. "Şəbi-hicran"la Azərbaycan poeziyasına yenilik gətirdi. Ədəbiyyatı kolxoz-sovxoz inhisarından qurtarmağın poetik nümunəsini yaratdı və poema janrını zənginləşdirdi. Füzuliyə həsr olunan bu monumental ruhlu əsər əslində türk dünyasının birliyinə qılınc çəkən müharibələrimizi, Şah İsmayılla Sultan Səlimin mənasız mənəm-mənəmliklərini, ağılsızlıqlarını güzgüləndirirdi. Şair bu əsərlə qardaşın qardaşa qarşı apardığı müharibənin rəzilliyini poeziyanın sirli-sehrli boyalarının qüdrətilə tarixdən xəbəri olmayan oxuculara — bu günkü nəslə çatdırmaq məqsədini güdürdü. "Şəbi-hicran"dan sonra "Gülüstan" poemasını qələmə alan B.Vahabzadə belə demək mümkünsə, Azərbaycanda ilk dissident ədəbiyyatın banisi oldu. Biz bu poema ilə Türk dünyasının, o cümlədən Azərbaycanın parçalandığını, onun taleyinin işğalçılar tərəfindən necə həll edildiyini görə bildik. Gülüstan müqaviləsi vətənimizi Külüstana çevirdi. Müqaviləyə qol çəkən tərəflərin ikisi də yad idi. Şair həmin müqaviləyə — kağız parçasına üz tutub deyir:

Ey kağız parçası, əvvəl heç ikən
Yazılıb, qollanıb yoxdan var oldun.
Böyük bir millətin başını kəsən,
Qolunu bağlayan hökmdar oldun!
Hökmü gör nə qədər böyükmüş anın,
Möhür də basdılar varağa təkrar.
Yox, varağın deyil, Azərbaycanın
Köksünə dağ boyda dağ
Basdı onlar!

Şair demişkən məhz bundan sonra

Beyin bizim oldu, əsər özgənin!
Günəş bizim oldu, səhər özgənin!
Hünər bizim oldu, nəmər özgənin!
Əmək bizim oldu, bəhər özgənin!
Əsgər bizim oldu, zəfər özgənin!
Qızıl bizim oldu, kəmər özgənin!

Beləliklə XX yüzilliyin ortalarında vətəndaşlıq poeziyamızın bayraqdarına çevrilən böyük istiqlal şairimiz B.Vahabzadə bizi — oxucularını "Şəbi-hicran"dan, "Gülüstan"dan, "Yollar—oğullar"dan, "Ağlar—güləyən"dən, "Mərziyyə"dən, "Şəhidlər"dən, "Özümüzü kəsən

qılınc"a qədər ağır, çətin, lakin şərəfli yollardan keçirdi və özü isə təkcə Odlar yurdunun deyil, bütün Türk dünyasının sevimli sənətkarına çevrildi. Peter Hans Şmide, Yavuz Bülənd Bakilər, Cavad Heyət, Çingiz Aytmatov, Oljas Süleymenov, Yevgeni Yevtuşenko və başqaları Vahabzadə poeziyasını ümumdünya poeziyası kontekstində yüksək dəyərləndirdilər. Başqa cür də ola bilməzdi. Vahabzadə poeziyası artıq vətəndaşlıq duyğularının sönməz ocağına çevrilməklə yanaşı rəzilliyin, imperiya hərisliyinin iç üzünü açmaqda misilsiz kəsərə malik idi:

Ünvanı dəyişib rəzalətin də,
Qaymaq da satılır şor qiymətində.
İndi sədaqətin səltənətində
Əyləşib hökm edir xəyanət, Allah.

Haqqa çatmaq yolunu göstərən şair sözün, fəlsəfi poeziyanın imkanını heyrətamiz zirvəyə qaldırırdı:

Sən yaranışdan hələ təksən,
Gec-tez özün öz qüdrətini dərk edəcəksən!
Zülmün üzünə haqq deyilən silləni çəksən!
Silləndə möhürlənmiş o qeyrətdədir, Allah!

İndi bu misraları oxu və heyrətlənmə görüm, necə heyrətlənmirsən? Azərbaycan poeziyasının göylərində istiqlal ulduzuna çevrilən Bəxtiyarımızın yaradıcılığını müasir dünya ədəbiyyatının canlı klassiki Ç.Aytmatov belə dəyərləndirir: "...Vahabzadənin poetik təfəkkürü, mədəniyyəti çox üstün mahiyyət kəsb edir və millilikdən ümumbəşəri fövqə qalxır. Milli və beynəlmiləl münasibətlər problemi günümüzün canlı mübahisələrinə çevrilən məsələlərdən biridir və bu problem öz mütərəqqiliyini, nadir əhatəliliyini və məhsuldarlığını bir daha Vahabzadə yaradıcılığında tapıb. İndiki halda sən Azərbaycan şairini oxuyanda dünyanı oxuyursan". Haqq sözə nə deyəsən?! Cəsarətlə demək olar ki, B.Vahabzadə bu gün müasir dünya ədəbiyyatında təmsilçilərimizdən biri olmaqla yanaşı istiqlal və vətəndaşlıq poeziyamızın öncülü və bayraqdarıdır!

"Ədalət" qəzeti, 19 avqust 2000-ci il.

Sultan LAÇIN

QEYRƏT VƏ HİKMƏT

I yazı

Zülmün üzünə haqq deyilən şilləni çəksən,
Şilləndə möhürlənmiş o qeyrətdədir Allah!

Bəxtiyar Vahabzadə

Cəmiyyətdə, dünyada tanınan və millətini, ölkəsini tanıdan bir insanın adını eşitmək kifayətdir ki, onun kimliyi bəlli olsun. Bu cür adlara ən yüksək mükafat, ən yüksək təltif və titullar belə, qoşulduqda artıq-bayağı səslənir. Həmin insanın öz əməlləri, fəaliyyəti, həyatı ilə yaratdığı ictimai obraz onun haqqında hər şeyi deyir.

Belə insanlardan biri də Bəxtiyar Vahabzadədir...

Dünyada mütləq ideal insanın mövcudluğu mümkünsüzdür. Kim deyə bilər ki, Tanrının hökmü ilə yaranıb Yer üzündə yaşayıb-gəzən hər hansı bir bəndə, hətta Peyğəmbər belə, ömründə təsadüfən bir qarışqanı və ya ondan da xırda həşəratı tapdalamayıb?..

Ömrünün 75-ci ilini doğulduğu Şəki torpağında tamamlayan Bəxtiyar müəllim də şair, ictimai xadim olmazdan əvvəl insandır — ailə sahibidir, atadır, babadır... Şairin bir şerini də dərindən oxumadan, onun şəxsi həyatını, maraqlarını qarışbaqarış izləyib, onda nöqsan axtarıb onun ictimai qınaq hədəfinə çevirmək istəyənlərin kimliyi, kökü və məqsədi barədə gələn yazıda danışacağam. Bu gün isə belələrinə, eləcə də şairin yaradıcılığı ilə yaxından tanış olmayan bir sıra əziz oxuculara Bəxtiyar Vahabzadənin əsasən son illər qələmindən çıxmış, ədəbi bəhrələri olduğu kimi tərifsiz, filansız göstərmək istəyirəm.

Tədqiqatçılar adətən şairlərdən yazarkən onların şerlərini ya bütöv və ya ən azı bir bəndini verirlər. Ancaq şair odur ki, onlarla cümlə ilə ifadə olunması böyük bir fikri və ya fikirləri az sözlə, bir misra ilə, bir beytlə ifadə edə bilsin. Yubileyi ərəfəsində kitablarını yenidən vərəqləyərkən Bəxtiyar poeziyasındakı məhz bu cəhət məni bir daha cəlb etdi və oxuculara onun şerlərindəki bu cür şah beyt və misraları təqdim etmək qərarına gəldim. Düşüncələrimi gələn yazıda söyləyəcəyəm. Diqqətlə oxuyub içinizdəki mövcud Bəxtiyar Vahabzadə obrazı ilə bu oxunuşdan törəyəcək obrazı və həmin kəlamlardakı ictimai-siyasi-psi-

xoloji təsvirləri məmləkətimizin bu günkü reallığıyla müqayisə edin. Və Tanrının hüzurunda vicdanınızla təkbətək nəticə çıxarın:

Qandal açılsa da qollarımızdan,
Kölәlik hələ də beynimizdədir.

* * *

Biri-birimizə atdığımız daş
Vətənə, millətə dəyir, a qardaş!

* * *

Çəkmə bu bazara köhnə neməti,
Satdıq nəfsimizə, satdıq qeyrəti!

* * *

Tarixlər içində tarix yaradan
Qədim bir millətə **ad** axtarırlar.

* * *

Altdan paxır çıxır, mis qazanlara
Yalanlar nə qədər qalay çəksə də.

* * *

Səngərdə əyilib **"təslimәm"** – deyən,
Masa başında da əyiləcəkdir.

* * *

Bezdim bulanmaqdan... Durulmaq üçün.

* * *

Əgər yol əyrisə, düz olmaq üçün
Bu əyri yollardan necə düz keçim?

* * *

Məqsədin, qərəzin dəyirmanında
Gör necə üyünür **saxta söz** dəni.

* * *

Bu **bayraq** altında böyüyənlərin
Ruhu da özü tək azad olmalı!

* * *

Savaşa bilməyib geri çəkildik,
Sülhə qovuşmağı qələbə bildik.

* * *

Ən zülmkar bir alçaq da
Yeniləndə fağır olur.

* * *

Qisas böyütsün səni,
Layla balam, a layla.

* * *

İndi **keçəl Həmzə** iş başındadı,
Koroğlu Həmzəyə cangüdən olmuş.

* * *

Dünən bu Vətənə düşmən olanlar
"Vətən aşiqi"nə çevrilmiş bu gün.

* * *

Yalanlar sındırdı mənliyimizi,
Təpiklə **çəpiklər** arasındayıq.

* * *

İndi **"bəy"** desək də, **"cənab"** desək də,
Həmən **"tovariş"**ik, həmən **yoldaşıq**.

* * *

Sülhə can atırıq düşmənimizlə,
Düşmən axtarırıq **öz içimizdən**.

* * *

Bir yerdəki əməllər sözün yedəyindədir
O ölkədə bilinməz **yaxşı** nədir, **pis** nədir.

* * *

Zülmət əriyərsə, görünər yəqin
Kimin **arxasında** kimin durduğu.

* * *

Nəfsini öldür ki, ruhun dirilsin...

* * *

Yoğrulub **İblisin** mayası kindən,
İblis ləzzət alır öz pisliyindən.

* * *

O qədər dolaşıq yollar aşmışıq,
İndi hamar yoldan keçə bilmirik.

* * *

Elə bir gündəyik, qollarımızda
Qandala çevrilib **azadlığımız**.

* * *

Bəlkə dəfn olunan heç meyit deyil,
Zaman diri-diri dəfn edir bizi.

* * *

Çox gördük xalqını **qul** edənləri,
Eləsi gəlsin ki, **xalqa qul** olsun.

* * *

Mən ziyan çəkmədim **cəsarətimdən**,
Qorxudan qorxuram, qorxudan ancaq!

* * *

Hər sözdən özünü qoruyan **ilham**
Ayaqda sürünür, başda tac olmur.

* * *

Ehtiyat güdəndə, sözün gülləsi
Həmişə hədəfdən didərgin düşür.

* * *

İndi düzü budur ki,
qorxuram, qorxuram mən,
Yalan desəm – Tanrıdan,
doğru desəm–bəndədən.

* * *

Sən kimsən, sən nəsən – özün bilərsən,
Mən ilk qaynağımdan **türk oğlu türkəm!**

* * *

Yalan hakim olub, **böhtan** gözətçi,
Çürüyür zindanda **həqiqət**, Allah!

* * *

Çadırlarda el qırılar,
Toylardasa pul cırılar.

* * *

İnsanın insana **biganəliyi**
Hələ məcəllədə günah sayılmır.

* * *

Düzlük istəyənin ən əvvəl özü
Əgər düz olmasa; vay o düzlüyə!

* * *

Doğrular tutulur, doğru olmağın
Gərək cəriməsini verə doğrular.

* * *

Bu millət verilən **quru vədəyə**,
Yaddan gələn paya şükran edilmiş.

* * *

Cırıq **çadırlarda**, şaxtada, qarda
Donan **körpələrə** qıyma, Allahım!

* * *

Köhnə bayatıyla köhnə səs-küyə
Təzə ad verdilər, ünvan verdilər.

* * *

Külfətdə **tirəlik** – didişmədirsə,
Millətdə tirəlik – fəlakətimiz.

* * *

Bu xalqın öz övladı
Öz-özünü ovladı.

* * *

İndi adamları öldürmür **ölüm**,
İndi adamları **həyat** öldürür.

* * *

Millətin yarısı **yad** ölkələrdə,
Yarısı doğmaca vətənində **qul**.

* * *

Əcnəbi ağadır sanki bu yurdda,
Sinəm ayaqlara yol olmuş bu gün.

* * *

Rüşvətin qolları elə güclüdür,
Poladdan olsa da əyər **qanunu**.

* * *

Gözə **kül üfürüb** uca kürsüyə
Əqidə paltarı geyindirdilər.

* * *

Nə **hiylə** tanıdı, nə **tələ** millət!
Sənin anan ölsün, a belə millət!

* * *

Deyirəm dünyada bir qəhrəmanlıq
Kölə ehtiyatdan doğula bilməz.

* * *

Cürətdən qorxmayaq, qorxaq qorxudan,
Qorxu – itaətin **dayaq** nöqtəsi!

* * *

Bəlkə bu milləti **qul** eləməkçün
Biz qan bahasına **müstəqil** olduq?

* * *

Bu xalqı talayan **baxtı yeyinlər**
Bu xalqın adından **nitq deyirlər**.

* * *

Heç demə, ən böyük **haqsızlıq** imiş
Haqqını istəyən millətin haqqı.

* * *

Millətin **qarnı ac**, sinəsi dağlı,
Qalmayıb **kəndlərdə** başıpapaqlı.

* * *

Qanun kürsüsündə **ağ yalan** – hakim,
Dövlət rüşvət ilə qafiyələnmiş.

* * *

Bir günlük, bir aylıq sevinc olmadı
Yetmiş il çəkilən zillətin haqqı.

* * *

Qapılardan qovulan boynu bükük bəndələrin
Ahı dəhşətli olur, **ah** ilə laxlar qapılar.

* * *

Özümə düşmən olub
Aşıb-daşan sərvətim.

* * *

İlahi, o qədər unutduq səni
Bəsirət gözümüz tutulmuş bizim.

* * *

Dünən səni danıb **rütbə** alanlar
Səni təbliğ edən **molladır** bu gün.

* * *

Hərraca qoymuşuq bu məmləkəti,
İndi də satırıq **namus, qeyrəti**.

* * *

Əyri əyriliyin yeridir daşa,
Keçib əyriliklə hamıdan **başa**.

* * *

İndi **sədaqətin** səltənətində
Əyləşib hökm edir **xəyanət**, Allah!

* * *

Düşmənim **özüməm**, özümdən özgə
İndi **qorxmalıyam** de kimdən daha?

* * *

Satsan, üzünə də baxan tapılmaz,
Necə ucuzlaşıb **ləyaqət**, Allah!

* * *

Tutduğun **kürsünü** qazancmı bildin?
Kürsün böyüdükcə özün **kiçildin**.

* * *

Həqiqətə əsir olmaq –
Əsarətin ən **gözəli**.

* * *

Gözləri görməyən **kor** deyil hələ,
Görmək istəməyən kordur, deyərdim.

* * *

Xeyirlə **şər** bir-birinə qarışmış,
Xəyanət var, dəyanətdən yuxarı.

* * *

Oğrular, əyrilər zəmanəsində
Əyrilik sayılar fərasət, Allah!

* * *

Özün **düz** olmasan, tapmazsan düzü
Əyrilər içindən düzü seçəndə.

* * *

Enişdə yoxuş var, **yoxuşda** eniş,
Ən böyük atəş də buz içindədir.

* * *

Doğulduğun, böyüdüyün Vətənində
Haqq tapdanır, **şər** udulsa, vay halına!

* * *

Köləlik damğası kürəyimizdə,
Cəsarət qüdrəti qalmadı bizdə.

* * *

Anlamırıq, **tora salır** kim kimi,
Üyünürük **dəyirmanda** dən kimi.

* * *

Vətənsevərliyin daş səngərindən
Vətən düşmənləri top atır bizə.

* * *

İlahi, hökmünlə qaldır göylərə
İslam bayrağını, **türk** bayrağını!

* * *

Nəfsinin quluna çevrilən yazıq
Dönər dəllalına ana torpağın.

* * *

Vicdanın dilini kəsdiyimizdən
Qaçır **haqq** da bizdən,

Allah da bizdən.

"Təzadlar" qəzeti, 15—22. 08.2000

II yazı

Ötən 12 il, xüsusən son 7 il **Quzey Azərbaycan** üçün faciə və dəhşətlərlə dolu ağır bir sınaq dövrüdür. **Tanrının** bu gözlənilməz imtahanı bu gün də davam edir. Söhbət qətiyyən fiziki cəhətdən sağ qalıb-qalmamaqdan getmir. Bu illər ərzində şərəflə ölənlər Tanrıya yaxınlaşmaqda, şərəfsizliyi ölümdən uca tutub "yaşayanlar" isə **Tanrıdan** uzaqlaşıb **İblisə** yaxınlaşmaqdadırlar. Və Ulu Yaradan bu millətə yalnız o vaxt müvəffəq qiymət yazacaq ki, Ona yaxınlaşanların sayı Ondan uzaqlaşanların sayını üstələsin. Məhz o vaxta qədər İblisin hökmranlığı davam edəcək. Boş hay-küylər, gurultular, lənətlər kömək etməyəcək və İblis ölməyəcək — bir fiziki formadan başqasına keçə-keçə, **azərtürk millətinin genefonduna** sonsuz zərbələr vura-vura hakimiyyətini yaşadacaq...

Bu gün Tanrıdan uzaqlaşıb İblisə yaxınlaşanların Tanrıdan, onun yaratdığı digər bəndələrdən və ya İblisin özündən gileylənməyə haqqı varmı? Məncə, yox...

İblis rejimində əksəriyyət biri-birini aldadır, biri-birinə badalaq gəlir, biri-birini ləkələyir, biri-birinin paxırını açır, biri-birindən oğurlayır və sonra başlayır rejimdən, iqtidardan, müxalifətdən digər insanlardan, hətta Tanrıdan şikayətlənməyə, özündən qat-qat şərəfli, Tanrıya yaxın insanları təftiş-ittiham etməyə, ədalətdən, düzlükdən, vicdan, namus və qeyrətdən dəm vurmağa...

Düzlük istəyənin ən əvvəl özü
Əgər düz olmasa; vay o düzlüyə!

Bayaqdan bəri neçə cümlə ilə ifadə etməyə çalışdığım bir fikrin aydın oxunduğu bu beyt Bəxtiyar Vahabzadə qələminin bəhrəsidir. Oxşar

fikrin eyni qələmlə başqa formada ifadəsi:

Özün düz olmasan, tapmazsan düzü
Əyrilər içində düzü seçəndə...

Şair indi çox vaxt Tanrıdan uzaqlaşıb İblisə yaxınlaşanların İblisdən uzaqlaşıb Tanrıya yaxınlaşanları ittiham etdiyini gördüyündən deyir bu misraları...

Tanrı və ya İblisə məsafələr fiziki ölçülərlə ölçülmür. Bu məsafələrin insanın maddi yoxsulluğu və varlılığı ilə uyğunlaşdırılması da düzgün deyil. Ola bilər ki, **mələk insan cildində** yerə enmiş İblisin lap yanında olan varlı bir bəndə İblis sarayından çox-çox uzaq ucqar kənddə cadügərlik edən bir yazıq görkəmli fırıldaqçı-dilənçidən Tanrıya qat-qat yaxın olsun. Həmin insan Tanrıya yaxın olmaqla İblisdən olduqca uzaqdır. Yəni bu məsafələr yalnız Tanrının aydın gördüyü ruhi-mənəvi ölçülərlə ölçülür. Əgər **varlılar** ucdantutma **Şərə**, **yoxsullar** isə hamısı **Xeyrə** xidmət etmiş olsaydılar — Yer üzündə hakimiyyət yalnız yoxsulların əlində olardı, çünki onlar varlılardan sayca çoxdur. **Kommunizmin**, cəmiyyəti yoxsul və varlı siniflərə bölmüş **sovet fəhlə-kəndli hökumətinin** süqutu da bu baxışları alt-üst etdi...

İnsan var-yoxuyla deyil, söz və düşüncələri, əməlləri və fəaliyyəti ilə Tanrıya, ya da İblisə yaxınlaşır. İblis isə hər hansı bir məqamda **cəmiyyətin gözünə girib hömkranlıq etmək** üçün insanların müqəddəs hesab etdiyi, **uca**, Tanrıya yaxın şəxsiyyətlərin yanında varid olur. İblis özü yaxınlaşır belə insanlara... Bu yaxınlıq fiziki ölçülərlə bəzən bir neçə santimetr olsa da, ruhi-mənəvi aləmdə milyardlarla işıq ilinə bərabərdir. İblis öz **genetik proqramına** uyğun olaraq **ucalara yaxınlaşmalı**, onları ələ almalıdır. O bu insanlara olan kəskin nifrətini məharətlə gizlədib onların üzünə irişməyə, onları tərifləməyə məcburdur. Çünki bilir ki, bu cür Tanrıya yaxın bəndələrin ondan tam uzaqlaşması — **onun məhvi** deməkdir. Amma bəzən İblis paklıqlarından, təvazökarlıqlarından **sui-istifadə** edərək ucalarla yaxınlıqdan kifayət qədər yararlanıb xalqı zəlil günə qoyandan sonra onları dolayı yollarla məhv etməyə çalışır. Özünə yaxınlaşan bəndələri onlara qarşı **psixoloji hücumlara** təhrik edir. Lakin İblis ucaların ucalığını uçurda bilmədiyindən onların **ucalıq tilsiminə** düşür...

"**Gülüstan**"dan ta üzü bəri oxuduğum əsərlərinin, şer-hikmətlərinin, baxdığım dramlarının məndə yaratdığı obrazlar-düşüncələr prizmasından **Bəxtiyar Vahabzadə** məhz belə UCALIQDA görsənir. O, bu gün öz HİKMƏT QALASINA sığınmaqla İblisi məyus edir. On illərdir ki, bu şair-insan hikmətini qeyrəti ilə, qeyrətini hikməti ilə cilalayaraq milyonlarla ürəklərdə məskunlaşıb.

Şər zəmanəsində hikmət qalasına sığınıb həmişə də zülmün üzünə sözünü deyən şairi susmaqda qınamağa haqqımız varmı? Axı Bəxtiyar müəllim dünən "**KQB**"nin tuthatut vaxtında ("Gülüstan", 1959)

"Arazın üstündən keçə bilmirəm,
Araz dərdim olub üstümdən keçir" –

deyən, ermənipərəstlərin at oynatdığı bu gün ("Güman qalıb Allaha", 1998) isə

"Bu günün qıfılına
düşə bilməz dünənin
Pas bağlamış açarı"

Və yaxud:

"... "Xoşbəxtəm" deyənlərə
dilənçi qaçqınımız
Çadırından hay verir.
Ona bu xoşbəxtliyi
bəxş eyləyən kəslərə
Öz ömründən pay verir".

yazan hikmət sahibidir.

İstənilən ictimai obraza olduğu kimi Bəxtiyar Vahabzadə obrazına da cəmiyyətdə müxtəlif baxışlar təbiidir. Bəxtiyar müəllimə ictimai məhəbbət əsasən iki qismə bölünür:

— *Səmimi, təmənnasız, milli məhəbbət;*

— *Saxta təmənnalı "məhəbbət".*

Məhz səmimi, əsl milli sevgilərin hesabına indi də yaşayıb-yaradır şair. Saxta məhəbbətə gəldikdə, onun ifaçıları özünə **karyera**, **vəzifə** güdən gədalar, kiminsə hesabına şair, yazıçı cərgəsinə qoşulmaq istəyən **reklam xəstələridir**.

Şairə kin bəsləyənlər də bir neçə qrupa bölünür:

— *Onu üzdə "sevib", onunla "dostluqları" hesabına hakimiyyət kreslolarını bərkidənlər və qazanc əldə edənlər;*

— Onun ucalığından qəzəblənən paxıl "həmkarları" və "dostları";

— Öz kreslolarını itirməkdə onu günahkar sayanlar;

— Onun bir şerini belə dərindən oxuyub bilməyən nadanlar;

— Müstəqil düşüncəyə malik olmayan, şairə baxışları yalnız söz-söhbətlər, "KQB" şaiyələri ilə formalaşan sadə, təmiz, savadsız sıravi vətəndaşlar və s.

Beşinciləri deməyirəm, bəlkə də təmiz vicdanlı, amma dərin düşüncəyə, savada maliki olmayan **sadə Azərbaycan vətəndaşının** bir **xalq şairi, millət vəkili** kimi Bəxtiyar Vahabzadədən nəsə ummağa, onu müəyyən məqamlarda nədəsə qınamağa haqqı var. Ancaq ilk dörd sırada duranların şairi təftiş-ittiham etməyə qətiyyən haqqı yoxdur. Çünki bələləri **özləri əyri olub İblisə xidmət** edə-edə düzlükdən dəm vuranlardır.

Təsəvvür edin ki, bir **bazar alverçisi** və ya **dövlət məmuru** axşam təsadüfən Bəxtiyar Vahabzadənin bir çıxışına baxıb, ertəsi gün işdə: alıcıları çəkidə, qiymətdə aldada-aldada, yaxud birindən rüşvət alıb, o birinə zülm edə-edə başlayır şairi həmkarları ilə bərabər ittiham etməyə: *"O özünə təzə ev-eşik almaqdan ötrü, övladlarını vəzifəyə qoymaq üçün çalışır, hər hakimiyyətə gələnin yanında olur..."* və s.

Beləsinə bəndələr cavab verməsə də, Tanrı ona sual verməmiş deyil ki, ey bəni insan, bəs sən özün niyə çirkin əməllərlə məşğulsan? Şair öz şerlərində səni düzlüyə, paklığa, ədalətə, Tanrıya sığınmağa çağırırsa, sən onu eşitməyib və üstəlik şairin məişət "nöqsanlarıyla" özünə bəraət qazandıraraq, əməllərinlə İblisə sığınırsansa — bunda şairin günahı varmı? O, **şər xidmətçilərinə** bəzən cismən yaxın olsa da, sən öz imkansızlığınla **şər ruhuna** yaxınsan! Sənin kimilərinin məhz varlığından yerlərdə hökm edir İblisin hökmü!

Xainlik, nadanlıq məngənəsində şair nə etməli, nə etməlidir?! Həm altdan vururlar, həm üstdən onu! Hamısı, hamısı İblis oyunu!

Bəxtiyar Vahabzadənin **düşüncə dərinliyinə** baş vura bilməyənlər öz dayazlıqlarından şairin yalnız fiziki-maddi hərəkətlərini görmək və gördüklərini **"öz arşınlarıyla" ölçmək** gücündədirlər. Şəxsi mənafe, karyera üçün çalışan bələləri yalnız şairin natiq kimi birbaşa söylədiyi sözləri anlaya bilirlər. Və sözünü hikmətlə deyən şairi guya susmaqda qınayırlar. Onların durumu Bəxtiyar hikmətində öz ifadəsini bu cür tapır:

Səsin fəryadını eşitmək asan, —
Qələmin fəryadı yetişmir sizə.

Dünən Bəxtiyar qeyrətindən "Gülüstan" doğulanda qorxularından qınlarına çəkilib, üstəlik şairi suçlayıb Sovet imperiyasını alqışlayanlar bu gün də onu susmaqda qınayırlar:

Dünən fəryadımı günah sayanlar
Bu gün susmağımı günahlandırır.

Gəncliyində hər şeyi birbaşa, açıq deməklə imperiyanın, "KQB"-nin təqib və təzyiqlərinə məruz qalan Bəxtiyar Vahabzadə yaşa dolduqca **milli-ədəbi mübarizəsini** davam etdirmək üçün qeyrətini hikməti ilə cilalamağın zəruriliyini dərk edir. 1999-cu ildə nəşr olunmuş **"İstiqlal"** adlı kitabına giriş sözündə "Gülüstan"dan sonra başına gələnləri təsvir edən şair yazır: *"Bu ifşalardan sonra mən ayılmağa başladım. Sözümü demək üçün başqa bir yol seçməyin vacib olduğunu anladım..."* Və sonrakı bütün dövrlərdə Bəxtiyar müəllim HƏQİQƏTİ bu və ya digər formada deməklə mücadiləsini davam etdirir. **Mirzə Fətəli Axundzadənin "Zamanı və məkanı dəyişməklə sözünü demək üsulu"**ndan istifadə edərək guya Əlcəzairdən, Misirdən, İspaniyadan və s. yazan şair əslində sovet əsarətindən çapalayan azərtürk millətinin ağrılarını ifadə edir.

Hələ 1981-ci ilin dekabrında, çox gümanki, Polşa xalqının Sovet imperiyasına qarşı üsyanının təsiri altında yazdığı **"Başqasının yasında"** şerindəki bir bənd çox cəlbedicidir:

İçimi göstərmədim
cahil tutan güzgüyə,
Üzdə gülüb, içimdə
müşkülümə ağladım.
Millətimin dərdini
ünvanlayıb özgəyə,
Başqasının yasında
öz ölümə ağladım.

Birinci beyt Bəxtiyar Vahabzadənin demək olar ki, həm də müasir ədəbi-psixoloji durumunu xarakterizə edir. Cahillərin əhatəsində olduğunu anlayan şair **"öz içini cahil tutan güzgüyə"** göstərmək istəmir. Məhz bu ruhi-ictimai məqamı dərk etməyənlər şairin bu gün də hikmət qalasına sığınmış qeyrətini görə bilmirlər.

"Bir ondan razıyam ki,
Özümdən narazıyam" –

deyən filosof-şairin həyatı boyu cəmiyyətlə bərabər özünü də tənqid, ittiham etməyə qadir bir təvazökar cəsarət sahibi olduğu şairin üzünə gülən **milli yağılara** çatsa da, xalqın bir sıra nümayəndələrinə hələ ki, çatmır.

Cəmiyyətin bütövlükdə QORXUya əyilmək ucbatından bu günə qaldığını

"Qorxu—kişiliyin əyləc basanı,
Biz öz qorxumuzdan dəfn olunmuşuq"

beyti ilə ifadə edən şair öz təbii hisslərini də gizlətmir:

İndi düzü budur ki, qorxuram,
qorxuram mən,
Yalan desəm – Tanrıdan,
doğru desəm – bəndədən

(noyabr 1993)

Məmləkəti ağzına almış **yalanın** obrazını Bəxtiyar Vahabzadə bircə beytlə yaradır:

Ayların, illərin bütün günləri
Aprelin biriymiş, aprelin biri...

(1996)

Şairin aşağıdakı şah beytlərində də müasir Quzey Azərbaycan gerçəkliyinin aydın əksini görürəm:

Gördüm bu dünyanın işi oyunmuş,
Köhnə libasını üzdə soyunmuş.

(1997)

* * *

Yuxarılar əl çəkmədi nəfindən,
Beş-on yerdə saray tikdi kefindən.

(1998)

* * *

Qurtarıb, özgənin əsarətindən
Düşdük özümüzün əsarətinə.

(1996)

* * *

Mənim azadlığım mənə qənimdir,
Bu gizlin oyundan baş açmır fələk.

(1996)

* * *

Məni kor quyudan çıxaran kəndir
İndi boğazıma keçib halqa tək.

(1996)

* * *

İp həmən o ipdir, halqa o halqa,
Köhnə yolunuzla getdiniz yenə.

(1996)

* * *

Hələ ki, dinməzcə o, ümid yeyir,
Siz də bala-bala yeyin milləti.

(1996)

* * *

Gecələr çadırda ac yatanların
Payını uduzun kazinolarda.

(1996)

* * *

Göydən Allah baxır, gələcək bir gün
Yediyiniz qədər qusacaqsınız.

(1996)

Əslində, bütün bu **ifşaedici hikmətlər** şairi "sevən" **ermənipərəstlərə** də çatır. Ancaq üzdə onu tərifləyib bir söz deyə bilməyənlər daldada Bəxtiyar Vahabzadəyə qarşı illərcə səngiməyən psixoloji hücumlar təşkil etsələr də, heç nəyə nail ola bilməyəcəklər. Bəxtiyar Vahabzadə müəllim cahillərin düşündüyü kimi "öz qanına" yox. Yaradanın ona bəxş etdiyi HİKMƏT VƏ QEYRƏT qalasına sığınıb. Şairi dərk edə-edə oxuyub sevən milyonlarla insanlar, milli ruh və düşüncə sahibləri isə bu qalanın cəfakeş keşikçiləridir.

"Təzadlar" 22—29.08.2000

Hacı İmamverdi Əbilov

MİLLƏTİN, VƏTƏNİN POEZİYASININ SƏMƏNDƏR QUŞU

MÜQTƏDİR SƏNƏTKAR BARƏSİNDƏ SİYASƏTÇİ RƏYİNƏ MÜNASİBƏT

Azərbaycan Respublikasının millət vəkili
Həsən Həsənov cənablarına

Möhtərəm Həsən müəllim!

Böyük şair, böyük dost, böyük insan Bəxtiyar Vahabzadənin bu günlərdə mənə hədiyyə verdiyi "İstiqlal" kitabını zövq və məhəbbətlə oxudum, dərdim də, sevincim də, ümidim də təzələndi, dünya bütün gözəlliyi və təzadları ilə mənə daha cilvəli göründü. Bəxtiyar elə qüdrətli şairdir ki, adi məlum həqiqətləri söyləyəndə də heyrətlənirsən, sözün sehrinə düşürsən. Təbii ki, "İstiqlal"ı oxuyanda da eyni vəziyyəti yaşadım və kitaba yazdığınız dəyərli ön söz elmi-bədii səviyyəsi ilə mənə xüsusi zövq verdi. Görkəmli ictimai-siyasi xadimin müqtədir sənətkar barəsində mükəmməl elmi fikir söyləməsi, məxsus elmi məqalə yazması dünya praktikasında adi hal olsa da, milli ədəbiyyatımız üçün səciyyəvi hadisə deyil. Gi de Mopassanın "Gözəl dost" əsərinə A.V.Lunaçarskinin... Mehmet Akifin "Safahat" kitabına Məsud Yılmazın zəngin mündəricəli müqəddimələri ədəbi-ictimai mühitin xoş hadisəsi kimi yaddaşlarda yaşayır. Belə gərəkli ənənəyə milli zəmində ehya verdiyiniz üçün sağ olun! Görkəmli ictimai-siyasi xadim kimi məşhur olan Həsən Həsənov Azərbaycan poeziyasının fəxri və zirvəsi olan Bəxtiyar Vahabzadə sənəti haqqında kamil elmi məqalə ilə oxucuları ram edirsə, deməli, vətəndaş-ziyalının həmişə ehtiyatlandığı "zəkanın aclıq dövrü" heç vaxt qismətimizə düşməyəcək, inşallah. Məlumat üçün yazıram: Bəxtiyar müəllimi bu yaxınlaradək yaşadığı keçmiş mənzildə də, ondan əvvəllər M.F.Axundov küçəsindəki evdə kirayənişin olanda da Milləti, Vətəni üçün yanan Səməndər quşu tək görmüşəm. Zaman ondan yalnız gəncliyini ala bilib. Əqidəsinə, məsləkinə, sənətkar idealına zərrə qədər xələl yetirə bilməyib. Nəzərə alın ki, "Gülüstan" poeması mənim gözlərim önündə yaranıb. Dost, qardaş, müəllim kimi əlli ildən ziyada ünsiyyətdə olduğum Bəxtiyar Vahabzadə qətiyyəti, cəsarəti, xeyirxahlığı, fədakarlığı ilə özünəxaslıq və dönməzlik timsalı kimi dəyişkən və yayğın zəmanəmizdə yeganə şəxsiyyət-sənətkardır. Düçar olduğumuz total siyasi stres, əzab və məhrumiyyətlər, xaos və stixiyalar dalğası onun məhəbbət və nifrət, təqdir və üsyan, təsdiq və inkar ünvanını dəyişdirməkdə çarəsiz qalıb. Bu mənada, onun poetik dünyamıza möcüzə təsiri bağışlayan yaradıcılığı əsrin və müəllifin xasiyyətnaməsidir, tərcümeyi-halıdır. İnanıram ki, xeyirxahlıq, vətənpərvərlik, millətsevərlik, nəciblik əxlaqi status almayınca Bəxtiyar Vahabzadə poeziyası xalqımıza hava və su kimi gərək olacaq, şairin kitabları həssas insanların stolu üstündən əskik olmayacaqdır.

Lap nağılvarı arzularımız çin olsa da B.Vahabzadə poeziyasına tələbat heç vaxt biganə olmayıb, çünki, gözəllik və nəciblik ədəbi ruhani ehtiyacdır.

Uzuq illərin birində Bəxtiyar müəllim Neftçaladakı təmtəraqsız evimdə olarkən, xatirə dəftərimə bu sətirləri yazmışdı:

Qan udub, dövran əlindən, ey Füzuli, söylədin:
Dövrü-çövründən şikayət etməmək mümkün deyil.
Mənsə bir dövranə düşdüm bu viranxanədə ki,
Dövrü-çövründən şikayət eyləmək mümkün deyil...

Şairin əzizləyə-əzizləyə qoruduğum—müxtəlif illərin yadigarı olan 108 məktubunda zamanın və ruhun əks-sədası olan belə həsb-hallar hifz olunur. Yuxarıda xatırladığım xatirə dəftərimə istisnasız olaraq, əsrimizin bütün ədəbiyyat, elm, sənət korifeylərinin qeydləri var və indi — ömrümün qürub çağında bu vərəqləri çevirdikcə S.Vurğundan... Yusif Səmədoğlunadək, Y.Məmmədəliyevdən... Xudu Məmmədovadək, R.Rzadan, N.Rəfəbəyliyədək... Əli Kərimdən, S.Rəhimovdan, Ə.Vəliyevdən, Əbülhəsəndən, İ.Şıxlıdan... F.Kərimzadəyədək, Ənvər Məmmədxanlıdan, İ.Əfəndiyevdən... S.Vəliyevədək, S.Rüstəmdən, M.Rahimdən, M.İbrahimovdan... Xəlil Rzayadək... yaxın-uzaq dünənimlə yaşayır, bu kədərli düşüncələr, yaşantılar zəminində ədəbi, universal etik normaları qoruyanlara Tanrıdan rəhmət diləyirəm...

Allah-təaladan millətimə, məmləkətimə, müqəddəs müstəqillik haqqımıza əbədi toxunulmazlıq arzuları ilə: Sizə dərin ehtiramla

"Yeni Azərbaycan", 7 oktyabr 1999-cu il.

Sultan İSMAYIL

MİLLİ MƏDƏNİYYƏTİNİ YAŞATMAYAN MİLLƏTLƏR YOX OLACAQ

BU FİKRİ TÜRK DÜNYASININ DAHA BİR YÜKSƏK MÜKAFATINA LAYİQ GÖRÜLƏN BƏXTİYAR VAHABZADƏ SÖYLƏYİB

Bu günlərdə Ankarada Atatürk Kültür Mərkəzində Türkiyə mədəniyyət naziri İstemihan Talayın himayəsiylə Türk Kültürünə Hizmət Vəqfi tərəfindən təsis olunmuş Türk Dünyası — Türk Dili Şərəf Ödüllərinin təqdimat mərasimi keçirilmişdir. Dünya çapında Türkiyə türkcəsi ilə əsərlər yazan və Türk dilini dünyaya sevdirdiklərinə görə bu yüksək mükafata layiq görülən yazar və şairlər sırasında böyük Azərbaycan şairi, professor Bəxtiyar Vahabzadə də vardır.

Krımlı yazar Çingiz Dağçı, Makedoniyadan Fəxri Qaya, Bolqarıstandan Kamal Pinarçı, Kıprıslı şair Osman Türkayın da mükafatlandırıldığı bu mötəbər mərasimdəki qısa çıxışında Bəxtiyar Vahabzadə milləti millət edən amillərin başında tarixi şüurun, musiqi, folklor, dil və ədəbiyyatın durduğunu söyləmiş, milli mədəniyyətini yaşatmayan, tarixinə sahib çıxmayan, dinini, dilini və adət-ənənələrini pozan millətlərin yox olacağını, mədəniyyətlərini qorumayan dövlətlərin yıxılacağını vurğulamışdır.

Türkiyədə olduğu zaman Bəxtiyar Vahabzadə bir sıra kültür mərkəzlərində görüşlərə dəvət alıb. Təəssüf ki, xəstəliyi səbəbindən həmin tədbirlərə gedə bilməyib.

Türkiyədə böyük hörmətlə qarşılanıb yola salınan qocaman şair Azərbaycana millətini, Vətənini daha da ucaltmaq həvəsli cavan duyğularla dönmüşdür.

Bu günlərdə ədib yenicə yazdığı "Qızıl alma" adlı pyesini teatra təqdim edib. Hazırda isə yeni şerlər üzərində işləyir.

Cəfakeş ustada böyük millətiylə bahəm daha şərəfli uğurlar diləyirik.

"Təzadlar", 11—18.05.1999

Elbəyi HƏSƏNLİ

BƏXTİYAR VAHABZADƏ ANKARADAN ÖDÜLLƏ QAYITDI

Şairin şerlərini əzbər deyən Süleyman Dəmirəl onu öz yubileyinə də dəvət edib

Oktyabrın 19-da Ankarada Atatürk Kültür Mərkəzi türk dünyasının ünlü şairlərini bu qurumun fəxri üzvlüyünə qəbul etmişdi. Qurumun üzvləri sırasında özünə yer alan xalq şairi Bəxtiyar Vahabzadə ilə görüşüb, söhbət etdik. O, Ankara səfəri ilə bağlı dedi:

— Atatürk Kültür Mərkəzinin üzvlük diplomunu və ödülünü cümhurbaşqanı Süleyman Dəmirəl mənə təqdim etdi. O, "Kök şerimdən aşağıdakı parçaları əzbər dedi:

Ağaclar
kök üstə ucalır.
Ağaclar
kökündən boy atır,
Güc alır.
Kökü var torpağın,
daşın da
İnsansa kökünü
gəzdirir başında.

Daha sonra Sleyman bəy dedi ki,bütün türk xalqları eyni kökdən olduğu üçün eyni kökdən də boy atıb uzanmalı, eyni ideala xidmət etməlidir.

Təntənəli mərasimdə Azərbaycan türkü, Türkiyənin qüdrətli şairi Yavuz Bülənt Bakilər, qazax şairi Muxtar Şahanov, qırğız şairi Esengül İbrayev, türkmən şairi Berdiknazar Hudaynazarov da bu qurumun şərəf üzvlüyünə qəbul olundular. Həmin gün qurumun üzvlərinə ziyafət verildi. S.Dəmirəl, Atatürk Kültür Mərkəzinin başqanları, professorlar Rəşad Gəncə və Sadiq Tural ziyafətdə iştirak etdilər..."

— Bu günlərdə S.Dəmirəlin yubileyi keçiriləcək. Səfərə hazırsınızmı?

— Yubileyə dəvət almışam. Süleyman bəy bu günlərdə Bakıda olarkən də, elə Ankarada da şerlərimi əzbər dedi. Türkiyədə orta və ali məktəblərdə mənim yaradıcılığım tədris olunur. Azərbaycanda isə mənim adımı dərsliklərdən çıxarıblar. Uzaq səfərlərə səhhətim imkan verməsə də, yubileyə qatılacam.

"Müsavat" qəzeti, 29 oktyabr 1999-cu il.

Atababa İSMAYILOĞLU

AZƏRBAYCANIN BƏXTİYARI

Son illərdə kitab nəşrinin qəlizləşdiyi, nəşriyyatların müflisləşdiyi bir dövrdə "Azərbaycan" nəşriyyatı Bəxtiyar Vahabzadənin yaradıcılığına böyük ehtiramla yanaşmış, onun zəngin irsini dəyərləndirə bilmiş, görkəmli sənətkarın əsərlərini və haqqında ondan çox kitab nəşr etmişdir. Bəxtiyar müəllimə göstərilən bu diqqət və qayğı bütün Azərbaycan ədəbiyyatına, poeziyasına ehtiramdır.

Qəzetimizin əməkdaşı Atababa İsmayıloğlunun nəşriyyatın direktoru Nazim İBRAHİMOVLA söhbəti də bu haqdadır.

Nazim İbrahimovun dediklərindən:

— Mən 1995-ci ildə Bəxtiyar Vahabzadə haqqında bir kitab hazırlamışdım: "Azərbaycanın Bəxtiyarı". Bu addan Bəxtiyar müəllimin xoşu gəlmişdi. Bu ad iki məna daşıyır: doğrudan da Bəxtiyar Vahabzadə bəxtiyar sənətkardır. Digər tərəfdən, Azərbaycan da bəxtiyardır ki, onun Bəxtiyar kimi sənətkarı var.

Bilirsiniz, bu sənətkarın qiymətini bəzən düzgün verməyiblər. Xüsusən də son dövrlərdə. Bəzi mətbuat nümayəndələri məclislərdə, toyda, yasda eşitdikləri sözlərlə ziyalılara qiymət verməyə çalışırlar. Bəxtiyar müəllim də bu haqsız tənələrə tuş gəlmişdir. Birdən görürsən heç bilmədən yazırlar ki, guya Bəxtiyar müəllim kiməsə xidmət edir. Xüsusən də 1991—92-ci illərdən çıxan bir çox qəzetlərdə belə yazılara rast gəlmək olar. Biz gərək bu səpkili "jurnalistikanı" da tərbiyə edək, onlara da çatdıraq ki, kim kimdir. Bizim — yaşlı nəslin borcudur ki, Bəxtiyar müəllimin şəxsiyyətini, böyüklüyünü onlara çatdırsın. Onun haqqında hazırladığım kitabların birinin ön sözündə belə bir fikir yazmışam: "Onu bəyənənlər çox olduğu kimi, bəyənməyənlər də var. Bu, olduqca təbii haldır. Bir şey unudulmamalıdır ki, o da hər şeydən öncə insandır və insana xas olan heç bir şey ona da yad deyil. Təbiidir ki, bütün insanlar kimi, onda da xoşagəlməyən cəhətlər axtarmaq olar. Lakin bir həqiqət gün kimi danılmaz və aydındır ki, o, bütün varlığı, hiss və duyğuları, məhəbbət və nifrətilə bölünməz şəxsiyyətdir". Eyni zamanda, Bəxtiyar böyük şairdir. Onun böyüklüyünü, özü dediyi kimi, yaxından görmək olmaz. Onun ucalığı uzaqdan daha aydın görünür. Belə sənətkara sağlığında qiymət verməmək ən azı günahdır. Cabir Novruz demişkən: Sağlığında qiymət verin insanlara. Biz gərək belə şəxsiyyətlərə sağlığında qiymət verməyi öyrənək. Bəxtiyar müəllimin həyatı, gənclik illəri ilə gəncləri tanış edək. Görünür, onların Bəxtiyarın ağır, çətin illəri haqqında məlumatları yoxdur. Götürək Bəxtiyarın cavanlığını, 50-ci illər yaradıcılığını, yaxud onun "Gülüstan" poemasını yazdığı illəri. Bu illər o nə qədər izlənib, əziyyət çəkib. Onun "Gülüstan"dan sonra başı nə qədər ağrıdı. Bu dövrlərdə "pres" altında olduğuna baxmayaraq, Bəxtiyar nə qədər şerlər, poemalar yazıb. Dramaturgiya sahəsində nə qədər xidmət göstərib. Bəziləri bu çətinliklər qarşısında sınardı, yıxılardı, həvəsdən düşərdi. Amma Bəxtiyar daha da möhkəmlənirdi, daha da gərgin işləyirdi. Mən xoşbəxtəm ki, Bəxtiyar bizim müasirimizdir, Bəxtiyar bizim aramızdadır. Əlbəttə, sonra onun həyatı başqa səmtdə getdi. Deputat oldu. Onun həyatının ən ağır illəri isə mənim xatirimdədir. O dövrdə həm maddi, həm mənəvi, həm də dost münasibətlərindən nə qədər əzab çəkmişdir. Bütün bunlara baxmayaraq Bəxtiyar Bəxtiyar olaraq qaldı. Onun özü də, yaradıcılığı da həmişə gəncdir. Bu günlər onun "Ağıl başqa, ürək başqa" adlı şerlər kitabını çapdan buraxmışıq. Əgər oxucu onu tanımasaydı, deyərdi ki, bu şerləri gənc bir oğlan yazmışdır.

Mən bir məsələyə də diqqəti yönəltmək istəyirəm. İndi çoxu özünü ziyalı sayır. İnsanın özünü ziyalı sanmağı ilə o, ziyalı ola bilməz. Əsas odur ki, gərək səni ziyalı kimi qəbul eləsinlər. Bir də ziyalını bir ilə, iki ilə, nə bilim partiya yaratmaqla yetişdirmək olmaz. Ziyalı dəmirçinin zindanında döyülüb yetişən bir sənət əsəri kimidir. Ziyalı anadan olandan formalaşmağa başlayır. Bu proses üçün 30, 40, bəlkə də daha çox illər lazımdır. O gərək oxusun, yaratsın, dostları ilə, həmfikirləri ilə ünsiyyətdə olsun, öz xasiyyətini, bir çox xüsusiyyətlərini rəndələsin, yavaş-yavaş da, ağac bar verdiyi kimi, başını aşağı əysin. İndi bəziləri belə fikir formalaşdırırlar ki, sən müxalifsənsə, demək ziyalısan. Xeyr. Ziyalı həmişə müxalif ola bilməz. Ziyalı bütün şəraitlərdə öz mənliyini qoruyub saxlaya bilməlidir. Bax, Bəxtiyar müəllim bizim belə ziyalılarımızdandır. Əsl ziyalı mənliyi ilə camaat arasında olmalıdır. Ətrafındakılar, xüsusən də gənclər ona oxşamağa çalışmalıdırlar. Yoxsa ki, kiminsə ağ dediyinə qa-

ra deməklə ziyalı ola bilməzsən. Ümumiyyətlə, cilddən-cildə girməklə ziyalılıq bir araya sığmaz. Əsl ziyalı ilə ziyalı cildinə girənləri xalq o dəqiqə seçir. Ona görə xalqın bir ziyalı kimi Bəxtiyar Vahabzadə haqda fikri dəyişməzdir. Çünki Bəxtiyar Vahabzadə özü dəyişməzdir.

Bəxtiyar müəllimlə otuz ildir ki, dostam. Mən rəhbər işdə olanda onun müəyyən çətinlikləri olub. Bu anlarda çalışmışam ki, mümkün qədər ona yaxın olum, dostluğumu itirməyim. Amma mənim də həyatımda ağır illər, çətin dövr olub. Təsəvvür edin ki, sən ziyalısan,professionalsan, müəyyən sahəni bilib xalqına xidmət etmək istəyirsən, amma səndən qəsdən istifadə etmirlərsə, bu, insana böyük, ağır zərbədir. O dövrdə mən maddi cəhətdən əziyyət çəkmirdim. Mənə əziyyət verən o idi ki, niyə mənim səriştəmdən, bacarığımdan istifadə etmirlər. O illərdə Bəxtiyar həmişə mənimlə olub. Bəxtiyar o adamdır ki, həmin vaxt mənə həm səhər, həm axşam zəng edib. Birgə şəhərə gəzməyə çıxmışıq. Onunla bu gəzintilərimizin də xeyri o olub ki, həyatda baş verən hadisələrə öz münasibətimizi müəyyənləşdirmişik. Özü də dünənki əhvalatlarla sabah baş verəcək hadisələr arasında böyük bir fərq olduğu dövrdə.

90-cı illərin əvvəllərində baş verən proseslərə nəzər salsaq, belə söhbətlərin nə qədər xeyirli olduğu aydınlaşar. Bu söhbətlərdə biz müəyyən hadisələrə münasibətimizi müəyyənləşdirirdik. Bəzən deyirlər ki, niyə Bəxtiyar bu işə qarışdı, niyə o işə qarışdı. Amma 90-cı il Yanvar faciəsində fövqəladə sessiyanı kimin çağırdığını unudurlar. Rəsmi dairələrin etirazına baxmayaraq, Bəxtiyar Vahabzadə o sessiyanı çağıra bildi. O mənə zəng edərək dedi: Nazim, nə edirsən et, bir neçə deputatı götürüb saat beşə kimi öz maşınınla gətir. Onda mən də deputat idim. Bu işdən ötrü ona qarşı hər şey ola bilərdi. Məgər bu, Bəxtiyara lazım idimi?! O da başqaları kimi evdə otura bilərdi. Amma o, xalqının taleyi üçün içəridən yanırdı. Mən açıq deyirəm. Bu gün də ağrılı, taleyüklü məsələlərə Bəxtiyar göz yummur. Onun son zamanlar yazdığı şerlərini götürün. Əgər yaxşı mənada bizdə söz azadlığı olmasaydı, siz də gözəl bilirsiniz ki, o şerlərə görə şairə nə edərdilər! Elə sovetlər dövrünü yada salmanız kifayətdir. Amma Bəxtiyar özündə cəsarət tapıb o şerləri yazıb. Unutmaq olmaz ki, tarix boyu çox zaman şair sözü, sənəti hökmdarları da düşünməyə vadar edib. Əgər belə şerlərdən hökmdarlar on faiz də götürsələr, bu, xalqın xeyrinədir. Bəxtiyar da o şairlərdəndir ki, bütün dövrlərdə, o cümlədən bu gün də öz sözünü deyib.

Açığını deyim ki, bu gün bütün türk aləmində Bəxtiyar Vahabzadə ən böyük şair sayılır. Mən bu münasibəti həm Türkiyədə, həm İranda, həm

də bütün türkdilli dövlətlərdə görmüşəm. Sovet dövründə ilk vaxtlar SSRİ xalqları Bəxtiyar Vahabzadəni yaxşı tanımırdılar. Çünki o dövrdə rus dilinə yaxşı tərcümə olunan sənətkarlar daha çox oxunurdu. Bəxtiyarın isə şerləri rus dilinə o qədər də çox, həm də keyfiyyətli tərcümə olunmamışdı. Səhv etmirəmsə, 84-cü il idi. Mən Mətbuat Komitəsinin sədri olanda məsləhətləşib Rimma Kazakovanı Azərbaycana dəvət etdik. O, bir müddət burada yaşadı. Rimma Azərbaycanı, o cümlədən Bəxtiyarın doğma ocağı Şəkini gəzdi, Azərbaycanın adət-ənənələri ilə tanış oldu. Abşeronun, Novruz bayramının, şəkərburanın nə olduğunu öyrəndi. Onda şairə Bəxtiyar Vahabzadəni yaxşı başa düşdü və onun tərcümələri əsasında çıxan "Мы все на одном корабле" kitabına görə Bəxtiyar Vahabzadəyə Dövlət mükafatı verdilər. Sonra isə Vladimir Qafarov, Səyavuş Məmmədzadə Bəxtiyarı rusdilli oxuculara daha geniş tanıtdılar. Təsadüfi deyil ki, Vladimir Qafarovun vəfatı xəbəri Bəxtiyar müəllimi bərk sarsıtdı. Onun Şəkidən göndərdiyi ürək sözləri sizin qəzetdə çap olundu. Bəxtiyar müəllimin böyüklüyü ondadır ki, o, Qafarov kimi nəhəng bir tərcüməçinin qiymətini verə bildi. Belə ayaqda sənətkarı qiymətləndirmək üçün əsl insanlıq lazımdır.

Bəxtiyar xoşbəxtliyi ondadır ki, şeri də işıqlıdır, dostları da sədaqətlidir. Böyük bir ailənin başçısıdır. Bütün bunlarla yanaşı, Bəxtiyar müəllim sadə bir insandır. Yadıma bir əhvalat düşdü. 1971-ci ildə onu Dövlət Universitetində çox incidirdilər. Sadəlövhlüyündən istifadə edib ayağına çox şeylər yazmışdılar. Onda mən indiki Yasamal rayonuna başçılıq edirdim. Bəxtiyar müəllimə xeyli təsəlli verdim. Universitetin rektorunu və partkomunu çağırıb dedim: Vaxt gələcək onun əlini sıxmağa həsrət çəkəcəksiniz. Siz irəli baxın. Bu gün bir "naruşitel" kimi onun məsələsini həll edib adi müəllimlikdən məhrum etmək, universitetdən çıxarmaq istəyirsiniz. Vaxt gələcək ona heykəl qoyacaqlar. Siz isə ora əklil aparacaqsınız. Amma Bəxtiyar müəllim sağlığında özü-özünə heykəl qoydu.

Vaxtilə İranda da, bizdə də Şəhriyarın ətrafında müəyyən dedi-qodu, söz-söhbət gəzdirirdilər. Amma unudurdular ki, Şəhriyar elə Şəhriyardır. Bəxtiyar Bəxtiyar olan kimi.

Belə sənətkarları olduğu kimi tanıtmaq, təbliğ etmək isə bizim borcumuzdur.

Mən əziz dostumu yubileyi münasibətilə təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, yaradıcılıq uğurları arzulayıram. Bu yaşında məhsuldar işləyən sənətkarımızın yeni əsərlərini nəşr etmək üçün gözləyirəm.

SÖZARDI: Mənim xahişimlə Nazim İbrahimov "Azərbaycan" nəşriyyatında 1994—2000-ci illərdə Bəxtiyar Vahabzadənin və onun haqqında çıxan kitabların siyahısını hazırlatdırdı. Həmin kitablar bunlardır: "Fəryad" (1994), "Azərbaycanın Bəxtiyarı" (1995), "Bəxtiyar Vahabzadə" (foto-kitab, 1994), Nizami Cəfərov — "Bəxtiyar Vahabzadə" (1995), "Ləyaqət" (1998), "Bəxtiyar Vahabzadə" (ingilis dilində, 1999), "Xəlil Rza Ulutürk — Ustadı Bəxtiyar Vahabzadə haqqında" (1999), "Ağıl başqa, ürək başqa" (2000-ci il), foto-kitab (2000-ci il), "Səməd Vurğun" (2000-ci il).

Oxucuların nəzərinə çatdırırıq ki, həmin kitabların bir çoxunu "Azərbaycan" nəşriyyatının birinci mərtəbəsindəki kitab mağazasından almaq olar.

"Ədəbiyyat qəzeti", 11 avqust 2000-ci il.

İŞ ADAMLARI BƏXTİYAR MÜƏLLİMƏ DƏSTƏK VERƏCƏKMİ?

Azərbaycanın görkəmli şairi Bəxtiyar Vahabzadə başqaları üçün gözlənilməz olsa da şəxsən bizim üçün gözlənilən olan bir addım atdı. Şair Şəkidəki ikimərtəbəli ata-baba mülkünü uşaqlara bağışladı. Artıq həmin mülkdə uşaq bağçasının açılışı olub və şair özü də bu açılışda iştirak edib. Bəxtiyar müəllimi ürəkdən alqışlayırıq. Bəxtiyar müəllimin ürəyi həmişə böyük olub.

Bəli, Bəxtiyar müəllim öz mülkünü (özü də halal mülkünü) ömrü boyu əziyyətini çəkdiyi millətinin gül balalarına bağışladı. Çox arzuladıq ki, bir oğul da çıxsın həmin bağçanın maddi bazasını öz öhdəsinə götürsün. Buyurun, hörmətli iş adamları, Bəxtiyar müəllimdən nümunə götürün.

"Ədalət" qəzeti, 18—24 avqust 2001-ci il.

AZƏRBAYCANLILAR BƏXTİYAR VAHABZADƏNİN ÇAĞIRIŞINA QOŞULURLAR

12 YAŞLI UŞAQ TÜRKİYƏYƏ YARDIM ETDİ

Azərbaycan dar gündə bir daha sınandı. Bu məmləkətin insanlarının iman yerinə ürəklərində gəzdirdikləri Türkiyə və türklük sevgisinin nə dərəcədə böyük və möhtəşəm olduğu göz önündədir. Azərbaycan təbii fəlakətdən zərər çəkmiş qardaş Türkiyənin dərdinin şəriki, yaralarının məlhəmi olmağa hər an hazırdır. Türkiyədə baş verən zəlzələdən dərhal sonra cəmiyyətin səfərbərliyə aldığı münasibət və reaksiya millətimizin bədxahlarının antitürk təbliğatının boşuna getdiyinin göstəricisidir.

Hamı fəlakətə düşmüş qardaşlarına bacardığı qədər yardıma can atır. Belə məqamda cəmiyyətin ünlü isimlərinin sözü və davranışı son dərəcə böyük rol oynayır. Bu baxımdan ziyalılarımızın, siyasi xadimlərimizin və sənət adamlarımızın bu məsələdə tutduqları mövqedən narazı qalmağa heç kimin əsası yoxdur.

Bu kontekstdə xalq şairi Bəxtiyar Vahabzadənin qəzetimiz vasitəsilə xalqın imkanlı adamlarına müraciət edərək, onları Türkiyədə baş vermiş zəlzələdən zərərçəkənlərə yardıma çağırması xüsusi qeyd olunmalıdır. Bu müraciətdən sonra onlarla vətəndaşımız ünlü şairə telefon açaraq, onun çağırışına qoşulduqlarını və Türkiyəyə yardım üçün açılmış fondlara pul köçürdüklərini bildiriblər. Bəxtiyar Vahabzadənin redaksiyamıza verdiyi məlumatda onlardan bir neçəsinin adı çəkilir. PEPSI COLA-nın Azərbaycandakı fəaliyyətinə rəhbərliyi həyata keçirən sabiq nazir Sirus Abasbəylinin yardım fonduna 4 milyon manat, "Xəzər" şirkətinin 5.000 dollar həcmində vəsait keçirdikləri məlum olub. Dünən "Azərtürkbank"da açılmış yardım fonduna vəsait köçürmək üçün banka gedən Bəxtiyar Vahabzadə burada böyük bir növbənin şahidi olub. İnsanlarımız şairi həyəcanla qarşılayıblar. Onlardan bir çoxu məhz Bəxtiyar Vahabzadənin çağırışından sonra yardım kampaniyasına qoşulduğunu söyləyib. Bəxtiyar müəllim təəssüratlarını "Yeni Müsavat"ın müxbiri ilə bölüşdü: "Bir nəfər dəllək 70 dollar pul keçirdi... Moskvada işləyən, ailəsini görmək üçün Bakıya gəlmiş bir professor 200 dollar həcmində yardım etdi. 11—12 yaşlarında bir cocuqsa "pişik" daxılını qucağına basıb gəlmişdi. Valideynlərinin onun məktəb xərcləri

üçün yığdığı pulları son qəpiyinəcən banka keçirdi. Doğrusu, gördüyüm səhnə məni xeyli mütəəssir etdi. Hər dəfə bu cür situasiyalarda mən öz millətimi bir daha yaxından tanıyır və onu daha çox sevirəm. Bu millətə güvənmək olar".

Qardaş Türkiyəyə — özcə millətimizə yardım kampaniyası davam edir.

"Yeni Müsavat" qəzeti, 26 avqust 1999-cu il.

YAVUZ AXUNDLU

BƏXTİYAR VAHABZADƏ

Xalq şairi Bəxtiyar Vahabzadə bu gün Azərbaycanda ən çox oxunan, sevilən şairlədəndir. Bu sevgi isə səbəbsiz deyil. Şair öz məqalələrinin birində yazır: «Şer, sənət hər şeydən əvvəl ictimai fikirdir. O yalnız bir nəfərin intim hisslərini, şəxsi duyğularını deyil, bütün bir xalqın fikrini, arzularını, mübarizə proqramını ifadə etməlidir. Bu böyük ideala xidmət etməyən, şəxsi hissləri tərənnüm edən şerin, sənətin əsl ədəbiyyatla heç bir əlaqəsi yoxdur. Bizi, xalqımızın ən böyük sənət bahadırları bu cür tərbiyə etmişdir, onların varisləri olan bu günün şairləri də yalnız və yalnız bu yolla getməlidir» (B.Vahabzadə. Sənətkar və zaman. «Gənclik», Bakı, 1976, səh.101).

...B.Vahabzadə xalqın ürəyində çoxdan yaşayan, öz heykəlini ucaldan bir sənətkardır.

"Yaradıcılığı milli poetik fikrin ən böyük nailiyyətlərindən" hesab olunan B.Vahabzadə şairliyə, söz sənətinə öz ürəyinin səsi ilə gəlmiş, bu yolun çətinliyi onu heç vaxt qorxutmamışdır. O, şairliyə həmişə müqəddəs bir sənət kimi səcdə etmiş, şairi yüksək qiymətləndirmişdir:

Şair - fikirlərin çırpınan səsi,
Şair - həqiqətin müğənnisidir.
Şair - təbiətin danışan dili,
Şair - cəmiyyətin üsyan səsidir.
Şair- zəmanənin, əsrin vicdanı,
Şair - tarixlərin şərəfi, şanı,
Şair - bu dünyada zamanın sözü,
Şair - həqiqətin, haqqın güzgüsü.

Aşağıdakı misraları isə B.Vahabzadə yaradıcılığının epiqrafı hesab etmək olar:

Şairin bədəni bu ana torpaq,
Nəfəsi Xəzərdir, qanı Kür, Araz.
Çox şey vətənsiz də yaşayar, ancaq
Şairsə vətənsiz, elsiz yaşamaz.

B.Vahabzadə şairliyi vətənsevərlikdən ayrı təsəvvür etmir və elə buna görə yazır:

Mən sabaha üz tutmuşam,
Yolum aydın, eşqim dərin.
Vətən,
Sənin qayaların qılıncımsa,
Qalxanımdır təpələrin.
Sinəm üstdən yollar çəkim.
Həyatımın mənasısan,
Ey əqidəm, ey məsləkim!
Bir əlində qılınc olub,
Bir əlində saz tutmusan.
Nifrətini qurşun edib,
Düşməninin sinəsində soyutmusan.
Azərbaycan - adın atəş,
Özün işıq, sözün işıq.
Alovlardan yaranmısan,
Biz adına tapınmışıq.
Sən dosta dost,
Düşməninə göz dağısan.
Alnın açıq, üzün ağdır,
Yenilməzlik bayrağısan!

Başqa bir şerində isə şair vətənə məhəbbətini belə ifadə edir:

Məni anamdan alıb,
Vətənimə, xalqıma
Oğul edən sən oldun.

B.Vahabzadə digər şerlərində də bütün varlığı ilə Vətənə bağlı olduğunu dönə-dönə etiraf etmişdir:

Azərbaycan oğluyam,
Min ildir öz adımın
Keşiyində durmuşam.
Silahım olmayanda
Nifrətimi barıttək
Qəlbimə doldurmuşam...

Mən bir qədim mahnıyam,
Xallarım əlvan-əlvan.
Musiqim Qarabağdır,
Sözlərim də Naxçıvan.
Bu torpaqda yaranmış
Koroğlunun cəngisi,
Qıratın üzəngisi!

Bunları təsadüfi hesab etmək olmaz. Çünki hələ yaradıcılığının ilk illərində (1949-cu ildə) qələmə aldığı "Sabahınız xeyir olsun", "Təzə şəhər", "Könül baharı" və digər şerlərində vətənpərvərlik hissi olduqca qabarıq şəkildə təzahür edirdi:

Vətən torpağından yaranmışam mən...
Şerimdir - vətənin gül-çiçəkləri.
Məsləkim - rəngini dəyişdirməyən
Vətən torpağıdır əzəldən bəri.

Şairin şerlərindən Azərbaycan torpağının ətri gəlir, doğma yurdunun rayihəsi duyulur. "Azərbaycan", "Bakı", "Göy-göl", "Vətən torpağı" şerlərindəki səmimi hisslər oxucunun qəlbini ehtizaza gətirir:

Qəlbimdə min sözüm, min söhbətim var,
Mən deyim, siz deyin, dil yorulmasın.
Yığılın, yığılın başıma, dostlar.
Mənim bir günüm də sissiz olmasın.

B.Vahabzadə filosof şairdir. Onun şerləri oxucuları düşündürən, onlara dərin məna aşılayan misilsiz sənət inciləridir.

İstəmirəm yüz illik
İzsiz keçən ömrü mən,

Mənə həyəcan dolu
Yalnız bircə gün verin.
Yüz ulduz sizin olsun,
Mənə bircə gün verin,
Hər şeyi bütün verin.

Zirvələrin başında
Zirvə kimi tək olum,
Ağlayanda mən bulud,
Güləndə şimşək olum!

Şair, sənətkar üçün ilk növbədə qəlbə, hissə təsir etməyi, ürəklərə yol açmağı bacarmağı vacib şərt hesab edir. Çünki belə şer heç bir sərhəd tanımır:

Ölkələr başqa-başqa,
Adları başqa-başqa.
Hər yerin öz sərvəti,
Öz varı başqa-başqa,
Qanunları cürbəcür,
Qaydaları cürbəcür.
Hər yerdə bir cür vurur
Ancaq bütün ürəklər.
Sərhədlərdə dikilən
Cansız, taxta direklər
Sədd çəksə də torpağa,
Göyə, havaya, suya.
Sədd çəkə bilmir ancaq
Qəlbə, hissə duyğuya.

Ona görə də şair təkcə öz Vətəninin, xalqının deyil, bütün bəşəriyyətin dərdinə-qəminə şərik olmağa çalışır, milliliklə bəşəriliyin qovuşması onun yaradıcılığının əsas keyfiyyətlərindən biri kimi diqqəti cəlb edir. Yanmağı ən böyük səadət hesab edən şairin hisslərini başa düşmək çətin deyil.

Batan bir günəşin, solan yarpağın,
Quruyan çeşmənin, sönən ocağın
Dərdini, qəmini qəlbə salmadan,
Birinin dərdinə ortaq olmadan
Yaşamaq, ay ana, yaşamaqmıdır?
Həyat məgər ancaq kef-damaqmıdır?

B.Vahabzadə poeziyasının ən gözəl məziyyətlərindən biri də insanları mübarizəyə səsləməsi, həyatı qaynar axında, hisslər və fikirlər axarında təsvir etməsindədir:

Bir kor tanıyıram,
Gözü korsa da,
Özü kor deyil.
Bəzən qəm odunda qovrulursa da,
Ağlına, hissinə o, nankor deyil.
Gecəli-gündüzlü yazır, oxuyur,
Ağlının gözüylə o görür, duyur.
Ancaq... biri də var... kor deyilsə də,
Gözü görməyir.
Dostu göz önündə öldürülsə də,
"Görmədim" deyir...

Şair bu cür müqəvvaları, gözlü korları poetik sözün qüdrətilə ifşa edir.

B.Vahabzadə lirik şerlərində də əqidəsinə sadiqdir. O, incə lirik şerləri ilə gəncliyin ülvi və pak hisslərini, saf və təmiz məhəbbətini səmimi misralarla tərənnüm edir. Şair şerlərinin birində deyir:

Bir yaman gündə də, yaxşı gündə də,
İstərəm qovuşam, mən yetəm sənə.
Gözüm gözlərinə dikiləndə də
Həsrətəm, həsrətəm, həsrətəm sənə!

Şair sevgi və məhəbbəti insan mənəviyyatını zənginləşdirən, onu həyata bağlayan bir hiss kimi mənalandırır:

Sevə bilirəmsə əgər ürəkdən,
Dünyanın ən xoşbəxt adamıyam mən.
Səni sevirəmsə, sevirəm demək,
Həyatda, dünyada
Yoxdur düşmənim.
Əgər sevirəmsə qəlbim ayna tək
Həssasdır, şəffafdır, kövrəkdir mənim.

Onun "Sahilə çıxmaq istəyirəm", "Sevsəydim", "On dəqiqə sonra", "Könlüm", "Ürək yanğısı", "Ay işığında", "Səndə qəlb olaydı" kimi yüzlərlə şeri məhəbbət lirikasının gözəl nümunələridir. Təsadüfi deyil ki, şairin yüzdən çox şerinə musiqi yazılmışdır.

Əllinci illərin ortalarından başlayaraq B.Vahabzadə lirikasında özünütəsdiq meylləri daha da qüvvətlənir. O, zamanın, gerçəkliyin poeziya qarşısında qoyduğu vəzifələri çox düzgün dərk edirdi. Yeri gəlmişkən qeyd edək ki, bu illərdə cəmiyyətdə, xalqın həyatında, ictimai fikirdə ilıq bir ictimai-siyasi ab-hava hiss edilirdi. Bəxtiyar Vahabzadə artıq zamanın böyük, əhatəli, miqyaslı hadisələrinə, problemlərinə meyl edir, şer və poemalarda fəlsəfi düşüncə tərzi ilə diqqəti cəlb edirdi. Bu mənada altmışıncı illəri Bəxtiyar Vahabzadə poeziyasının yüksəliş illəri kimi səciyyələndirmək olar. Şairin yaradıcılığından söz açan qələm dostları, tənqidçi və ədəbiyyatşünaslar da bu dönüşü hiss etmişdilər.

Görkəmli ədib Mehdi Hüseyn "Narahat şair" adlı məqaləsində yazmışdı: "O (Bəxtiyar Vahabzadə – Y.A.), həmişə qızğın axtarışlarla məşğuldur, öz şerlərini yeni-yeni üslub xüsusiyyətlərilə zənginləşdirir, hər bir əsərində əzəmi dərəcədə müasir və dolğun fikir ifadə etməyə meyl göstərir, ən çox da müasir həyatımızdan doğan vacib və çətin suallara cavab verməyə çalışır. Vahabzadə, bu sözün ən yaxşı mənasında, narahat şairdir." (B.Vahabzadə. "İnsan və zaman" (Azərnəşr, 1964) kitabına ön söz).

B.Vahabzadənin altmışıncı illərdə poetik irəliləyişini, bir şair kimi inkişafını onun "İnsan və zaman" şerlər-poemalar kitabında daha aydın hiss etmək olar. Bu kitabda B.Vahabzadə artıq fəlsəfi ruhlu bir şair kimi diqqəti cəlb edirdi. O, müraciət etdiyi hər hansı bir mövzunu adilikdən çıxarmağı bacarır, ona yeni mənalar verirdi. Məsələn, "Barmaqlar" şerini götürək. Burada insan barmaqlarından söz gedir, amma necə? Şair az qala hər misrada yeni, düşündürücü bir fikir söyləməyə çalışırdı. Bəli, barmaqlar kitab yazır, ot çalır, məsum bir körpəni güldürür, pul sayır, çiçək dərir, kamana, tara can verir, ən ağır yükü qaldırır. Amma bizim əsrimizdə barmaqlar üçün təzə bir vəzifə yaranıb və şair buna görə öz həyəcanını gizlədə bilmir:

Bir kiçik düyməni basmaq! Bu nədir?
Basdısa, bu dünya bir viranədir.
Məhv etmək bəşəri, ərzi, hər şeyi,
Bir anda dünyanı alt-üst eyləmək!
İşə bax! Bu boyda ərzin taleyi,-
Bir kiçik barmağa bənd imiş demək!

B.Vahabzadə yaradıcılığında məhz altmışıncı illərdən başlaya-

raq müasirlik duyğusu yeni bir məzmun kəsb etməyə başlayır. O, müasirliyi müasir həyat hadisələrindən yazmaq, "Aktuallıq" kimi dərk etmirdi, müasirlik onun üçün həyata, cəmiyyətə, dünyaya yeni bir baxış idi. Bunu B.Vahabzadə yaradıcılığından söz açan müəlliflər də düzgün sezmişdilər. Mirzə İbrahimov yazırdı: "Bəxtiyarın əsərlərində müasir insanın hissləri, mənəvi-əxlaqi keyfiyyətləri, ideal və arzuları müxtəlif bədii boyalarla əks olunmuşdur. Onun əsərlərində biz ən çox lirik qəhrəmanla görüşürük. Bu qəhrəmanın səmimi hissləri ... dəruni fikirləri ilə tanış oluruq. Bir qayda kimi, çox ehtiraslı və qızğın olan bu qəhrəmana qarşı laqeyd qalmaq mümkün deyil. Çox zaman o, bizi də öz hisslərilə alovlandırır. Bəzən də onunla mübahisəyə girişməli oluruq.

Bəxtiyar Vahabzadənin əsərlərində müasirlik hissi çox güclüdür. O, qələmə aldığı bütün ictimai tarixi məsələlərə də insanın maddi ehtiyacları və tələbləri baxımından yanaşır. Elə fikirləri və hissləri diqqət mərkəzinə çəkir ki, onlar bu gün insanı düşündürən, həyəcanlandıran fikir və hisslərdir." (M.İbrahimov. "Alovlu sözlər", "Kommunist" qəzeti, 1975, 23 avqust).

Mərhum tənqidçi Aydın Məmmədovun da fikri bu mənada maraqlıdır: "B.Vahabzadə poeziyası əzabkeş fikrin, dünya, insan, sevgi və azadlıq haqqında çırpıntıların poeziyasıdır. Bu poeziya tarixin şah damarını axtarır, bir sözün, bir obrazın maqnit sahəsində keçmişi, bu günü və gələcəyi qovuşdurur. Hər dəfə dünyanın taleyinə bir nöqtədən – bütün mənəvi qüdrətini insanların yolunda sərf etməyə hazır olan fədakar humanizm zirvəsindən yanaşır" (A.Məmmədov. "Vətən torpağından göyərmiş poeziya", B.Vahabzadə. "Seçilmiş əsərləri" (iki cilddə, "Yazıçı", 1984-1985) kitabına ön söz). Bəxtiyar Vahabzadənin şerlərində müasirlik onun poeziyasının başlıca xüsusiyyətidir desək, yanılmarıq. Bu poeziyada müasir insanın mənəvi-əxlaqi dünyası, fikir və düşüncə aləmi rəngarəng bədii boyalarla əks olunur. Onun lirik qəhrəmanı dövrün, zəmanənin müasir düşüncə tərzi ilə silahlanıb, həyata, dünyaya, cəmiyyətə ayıq nəzərlərlə baxır, xalqını, vətənini dərin bir məhəbbətlə sevir.

B.Vahabzadə poeziyasında insan taleyi zamanla, dövrlə müvazi götürülür. Bu insan hansı bir dövrdə, hansı zamanda yaşamasından asılı olmayaraq xalq üçün yaşayır, onun yolunda ölümdən belə çəkinmir.

Elə bir ürək ki, o
Yansın, külə dönməsin.

Hər misranın başında
Alovlansın, sönməsin!

Şairin lirik qəhrəmanı məhz belə bir ürək sahibidir. Bu insan üçün ömür yaşamaq, nəfəs almaq, evlənmək, oğul-uşaq sahibi olmaq kimi dar mənalara sığmır. Ömrün mənası daha ali məqsədlərlə səciyyələndirilir:

Ömür bizə verilmir
Ancaq yaşamaq üçün.
Ömür bizə verilir
Dünyanın da dərdini,
Qəmini
Çiynimizdə
Çəkmək, daşımaq üçün.

Ömür – qəlbin, zəkanın
Min eşqi, min əməli.
Ömür – ömürdən sonra
Yaşamağın təməli.

Məhz belə ömür, mənalı həyat insanı ruhən ucaldır. Əlbəttə, B.Vahabzadənin lirik qəhrəmanının həyat və mübarizəsini yalnız müasir dövrlə, bu günümüzlə məhdudlaşdırmaq olmaz, bu lirik qəhrəman çox sıx tellərlə öz canlı tarixi keçmişinə bağlıdır. Onun üçün Azərbaycan bütövdür, vahiddir, ayrılmazdır. Xüsusilə, Arazdan o taydakı Azərbaycanı Arazdan bu taydakı Azərbaycandan ayrı təsəvvür etmir. Ancaq tarixin ədalətsizliyi də onu sarsıdır, düşündürür:

Yarım bu tayda qaldı,
Yarım o tayda qaldı.
Toyum burda çalındı,
Yarım o tayda qaldı.

Bütün tədqiqatçılar B.Vahabzadə lirikasının ən səciyyəvi xüsusiyyətlərindən biri kimi onun ictimai-vətəndaşlıq poeziyası istiqamətində inkişafından söz açmışlar. Hətta qeyd etmişlər ki, vətəndaşlıq poeziyası onun yaradıcılığında əsas, aparıcı mövqedədir...

Vətəndaşlıq poeziyası dedikdə ümumxalq miqyaslı problemlər,

xalqın taleyüklü məsələləri, vətənin tarixi keçmişi və bu günü ilə bağlı bir sıra həqiqətlər, şairin yaşadığı dövrə, zəmanəyə etirazçı münasibəti, həmçinin həqiqi mənəvi dəyərlərin qiymətləndirilməsi nəzərdə tutulur.

B.Vahabzadənin yaradıcılığında beynəlxalq aləmdə baş verən hadisələrə maraq və bu hadisələri sənətkar qələmilə əks etdirmək meyli də çox güclüdür. Şair dünyanın müxtəlif ölkələrində olmuş, həmin ölkə xalqlarının həyatı, tarixi, taleyi ilə tanış olmuş və bu təəssüratlar sonralar qəlbindən süzülərək misralara çevrilmişdir. Misir, İran, Türkiyə və b. ölkələrə səyahəti ilə əlaqədar yazdığı şerlər onun mövzu dairəsinin genişliyini təsdiq edir. Bu ölkələrdə zəhmətkeş xalqın ağır həyat şəraiti, ictimai bərabərsizliklə bərabər, imperializmə və müstəmləkəçiliyə nifrət hissi də həmin şerində ifadə olunmuşdur. "Bir izdə iki dünya", "Fəryad", "Atılan toplar", "İstiqlal", "Ələddinin sehirli çırağı" və s. bu baxımdan maraq doğurur.

B.Vahabzadənin bu şerlərində bir məziyyəti xüsusi olaraq qeyd etmək lazımdır. Şair dinindən, irqindən asılı olmayaraq insan şəxsiyyətini hər yerdə uca tutur, onun ləyaqətinin hər hansı şəkildə tapdanmasına etirazını bildirir.

Şair şerin, poeziyanın insan qəlbinin dərinliklərindən süzülərək yarandığını, onun taleyi ilə bağlı olduğunu bu gün və sabahla nəfəs aldığını həmişə əsas götürmüşdür:

Əbədi od kimi od içindən közərib
Hey yanır şerim mənim.
Bu günümdən sabaha
Boylanır şerim mənim.
Gəzir dildə, dodaqda,
Uçur-uçur həmişə özümdən də qabaqda,
İdrakımın gözləri
Əqidəmin ən təmiz, ən mənalı sözləri,
Duyan ürəyi şerim.
Bütün diləklərimin ən saf diləyi şerim.

Bu misralar bir daha təsdiq edir ki, vətən və xalq üçün yazmaq şair – sənətkar üçün əsas məziyyətdir və belə şerlər həmişəyaşardır. Ona görə də şair həyatdan öyrənməyi, zamanla ayaqlaşmağı vacib hesab edir:

Zaman bizə deyir, həyata düz bax.
Fikrin bu sürətdən geri qalmasın.
Böyük bir dərd deyil yaşca qocalmaq,
Fikir qocalmasın, baş qocalmasın.

Bəli, fikrin qocalması sənətdə faciədir. Zamandan geri qalan, dövrlə ayaqlaşa bilməyən sənət də, sənətkar da diri ikən ölmüşdür.

Belə bir amalla ədəbiyyata gələn şairin xalqın və Vətənin taleyüklü məsələlərilə ciddi maraqlanması olduqca təbii idi. Ona görə də B.Vahabzadənin yaradıcılığında siyasi lirika mühüm yer tutur.

Yeri gəlmişkən qeyd edək ki, Sovet ədəbiyyatında siyasi lirika bir əsas məqsəd daşıyırdı: Kommunist Partiyasının ideologiyasına xidmət etmək. Müxtəlif xalqların ədəbiyyatından buna dair onlarla nümunə göstərmək olar.

B.Vahabzadə gənclik illərindən bu yolu tutmamışdır. O, siyasi lirik şerlərində də özünün poetik əqidəsinə xilaf çıxmamışdır.

Yəni şair bu səpkili şerlərində cəmiyyətin eybəcərliklərinə, doğma dilimizin sıxışdırılmasına, tariximizin açıq-aşkar təhrif edilməsinə öz cəsarətli münasibətini bildirmişdir.

Onun ictimai məzmunlu əsərləri içərisində "Gülüstan" poeması xüsusilə diqqəti cəlb edir. 1958-ci ildə yazılsa da bir müddət heç yerdə çap olunmamışdı. B.Vahabzadə özü yazır ki, "O zaman bu əsəri çap etmək cəsarətini boynuna götürən "Şəki fəhləsi" qəzetinin (25-26 oktyabr 1960-cı il) mərhum redaktoru Məhyəddin Abbasovun xatirəsi önündə baş əyirəm. Çox aşağı səviyyəli redaktorlardan biri kitabımın redaktoru idi. O, kitabdan poemanı çıxartdı. Elə zənn etmişdim ki, iş bununla qurtarıb. Sən demə, həmin yazıçı poemanın üzünü çıxardıb Mərkəzi Komitəyə göndərib. O zaman MK-nın ideoloji iş üzrə katibi Akademiyada keçirilən ziyalılar yığıncağında poemanı amansızcasına tənqid edib "Şəki fəhləsi" qəzetinin redaktoruna töhmət elan etdi.

... O gündən mənim ağır günlərim başlandı. Yazılarımı mətbuata və radio-televiziyaya buraxmadılar. Haqqımda böhtan dolu məqalələr çap olundu. «Gülüstan» və ana dili haqqında yazdığım «Ana dili», «Oğluma», «Latın dili», «Riyakar» adlı şerlərim tənqid hədəfinə çevrildi. Bu hadisədən bir qədər əvvəl çap olunan «Köklər, budaqlar» kitabım rəsmi surətdə qadağan edildi, kitabxanalardan yığışdırıldı" ("Gənclik" jurnalı, 1988, N 9, səh.11).

Səttar xan, Şeyx Məhəmməd Xiyabani və Pişəvərinin əziz

xatirəsinə həsr olunmuş "Gülüstan" poeması 1813-cü il oktyabrın 12-də Rusiya imperiyası və İran dövləti arasında bağlanmış Gülüstan müqaviləsinin bir xalqın taleyində oynadığı müdhiş fəlakətdən söz açır. Burada həm rus imperiyası, həm də İran şahlığı amansız tənqid hədəfinə çevrilir:

Tərəflər sakitdir, qəzəbli deyil,
Məhv olan qoy olsun, onlara nə var.
İmzalar atılır bir-bir, elə bil,
Sevgi məktubuna qol çəkir onlar.

Atıb imzasını hər kəs varağa,
Əyləşir sakitcə keçib yerinə.
Eynəkli cənabla təsbehli ağa,
Qalxıb əl də verir biri-birinə.

Onların birləşən bu əllərilə
Ayrılır ikiyə bir el, bir Vətən.
Axıdıb gözündən yaş gilə-gilə,
Bu dəhşətli hala nə deyir Vətən?

Poema öz janrına görə publisistik səpkidədir. Onun hər sətrində qəzəb, nifrət çalarları hiss olunur, həmçinin ayrılıqdan doğan dərin bir kədər də öz əksini tapır. Şair Vətən yarı bölünəndən sonra başımıza gələn fəlakətləri də unutmur, üzünü bu günkü nəslə tutub deyir:

Ey zaman, sorğuma cavab ver, nədən
Səsim yetən yerə əlim yetməyir?..
Qarışıb gözümdə, qarışıb aləm,
Dərd, dərdi doğrayır, qəm, qəmdən keçir.
Arazın üstündən keçə bilmirəm,
Araz dərdim olub sinəmdən keçir.

Taxta dirəkləri torpağa deyil,
Qoydular Füzuli divanı üstə.
Yarıya bölündü yüz, yüz əlli il
Gəraylı, bayatı, muğam, şikəstə.

Ürəkdən ürəyə nə körpü! Dayan!
Dərdimiz dinərsə bir sazın üstə.
Şəhriyar yaralı misralarından,
Körpü salmadımı Arazın üstə?

Bu taydan o taya axışdı sel tək
Gözə görünməyən könül telləri.
Bu selin önünü nə çay, nə dirək
Kəsə bilməmişdir yüz ildən bəri.

Bəxtiyar Vahabzadə sonrakı yaradıcılığında da belə dissident ruhlu şerlər yazmaqda davam etmişdir. 1963-cü ildə Qırğızıstanın Rusiya tərkibinə daxil olması təntənə ilə qeyd edilərkən şair bu "bayrama" istehza edərək yazmışdı:

"Ağ günə çıxıbdır..."
Buna bax, buna!
Sevinir, fəxr edir qul olmağına.
Bayrammı?
Kül olsun gözünə, millət!
Zar-zar ağlayasan gərək sən bu gün,
Yüz il bundan əvvəl başın kəsildi,
Öldüyün günündür bu gün, öldüyün!..
Ölür,
Qatilinə "pənahım" deyir,
Öldüyü gününü bayram eyləyir.

Bir il sonra Azərbaycanın Rusiya tərkibinə qatılmasının 150 illik "bayramı" keçirildi. Şair bu münasibətlə yazırdı:

Tapdamaq olarmı haqqı bu qədər?
Yüz əlli ildir ki, soyurlar bizi.
Bu heç,
Bizə bayram elətdirirlər
Tarixdə ən böyük faciəmizi.

B.Vahabzadə elə şairlərdəndir ki, vətənin, xalqın ən dar günündə, ən faciəli məqamlarında birinci olaraq etiraz səsini ucaldır, bəzən haqq səsilə xalqı ayağa qaldıra bilir. Bu, hər şairə qismət olan səadət deyil. Ermənilərin Azərbaycandan ərazi iddiaları elə keçmiş SSRİ dövründə də baş qaldırırdı və o zaman da B.Vahabzadə öz kəskin ruhlu şerləri ilə buna dərhal reaksiya verirdi. 1966-cı ildə yazılmış "Torpaqdan pay olmaz" şerinə diqqət edin:

Hardan sənin oldu bizim Qarabağ?
Adı, sahibini demirmi aşkar?

Xoşluqla verməzlər torpağı ancaq
Qanla möhürləyib, zorla alarlar.

İsa bulağının zümzüməsini,
Cabbarın, Seyidin, Xanın səsini,
Dalğalı Qarabağ şikəstəsini,
Babək türbəsini necə pay verim?

Çox təəssüf ki, o zamanlar şairin bu harayı bizim yatmış rəhbərlərin vicdanını oyada, silkələyə bilmədi.

Əlbəttə, adını çəkdiyimiz, misal gətirdiyimiz şerlərin bir çoxunu B.Vahabzadə yazıldığı vaxtda çap etdirə bilməmişdir. "Gülüstan" poemasının aqibəti buna misal ola bilər. Şairin müxtəlif illərdə onlarla çap olunmamış şerləri sonralar "Sandıq şerləri" adı altında dərc edildi. Elə bu şerlər göstərir ki, B.Vahabzadə sosializm dövründə quruluşun, sistemin törətdiyi fəlakətləri bir şair gözü ilə dərindən müşahidə etmiş, onlardan yan keçməmişdir. Məsələn, 1956-cı ildə Universitet tələbələrinin aylarla rayonlarda pambıq yığımında iştirakı ilə əlaqədar yazdığı şeri bu qəbildəndir:

Sən mənim xalqıma kəsildin qənim,
Çox da ki, bahadır qiymətin sənin.
Millət lüt-üryandır, amma özgənin
Əynində dönürsən paltara, pambıq.

"XX əsrin adamı" şerindən isə şair yalan, riya üzərində qurulan sistemin eybəcərliklərini ifşa edirdi:

Yalanlara əl çalıram,
Alçaldıqca ucalıram
Sözüm iki,
Üzüm iki.
Mən əyriyə düz deyirəm,
Gecəyə gündüz deyirəm.
İndi bizə ağıl gərək
Yoxsa ürək
Kimə gərək?

B.Vahabzadənin vətəndaşlıq poeziyasında ana dili məsələsi də mühüm yer tutur. O, bu mövzuda saysız şerlər yazmış, bir çox poemalarında bu mövzuya dönə-dönə qayıtmışdır. Ana dili haqqında fikirlərini bu misralar daha parlaq şəkildə ifadə edir:

Bu dil - bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil - tanıtmış bizə bu dünyada hər şeyi.
Bu dil - əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli misrasıdır, onu gözlərimiztək
Qoruyub nəsillərə biz də hədiyyə verək.

Filologiya elmləri doktoru, professor Yusif Seyidov B.Vahabzadənin ana dili ilə bağlı şer və poemalarından, publisistik və elmi məqalələrindən çıxış edərək onları aşağıdakı şəkildə qruplaşdırır: a) Ana dili və müəllim. Bu mövzuya həsr edilən şerlərdə B.Vahabzadə müəllimin əməyini, rolunu yüksək qiymətləndirir; b) Ana dili və "Əlifba" Vətən və ana dili məfhumları ilə bağlanır. Çünki ədibin dediyi kimi "Əlifba" bütün elmlərin əvvəli, bütün sirlərin açarıdır; v) Ana dili və xalq. Bu məfhumları bir-birindən ayırmaq çətindir. Dilsiz xalq olmadığı kimi, xalqsız da dil yoxdur. Xalq öz dilini zaman-zaman həm yadellilərdən, həm də öz içindəki nankorlardan qoruyaraq əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə vermişdir. (Bu haqda Y.Seyidov. Sözün qüdrəti. "Yazıçı", Bakı, 1983, səh.11-19).

1988-ci ildə Azərbaycan xalqının milli-azadlıq hərəkatının alovlanması, müstəqillik uğrunda aparılan mübarizə B.Vahabzadənin də yaradıcılığında yeni bir mərhələnin başlanğıcı oldu. İstiqlal mövzusu onun poeziyasında ən əsas mövzuya çevrildi. Bunu isə təsadüfi saymaq olmaz. Çünki B.Vahabzadə ömrü boyu xalqının, millətinin istiqlalını arzulamış, bu amal yolunda təqiblərdən, hətta təhqirlərdən belə çəkinməmişdir. Nəhayət, elə bir vaxt gəlib çatır ki, o, ürəyindən keçənləri açıq şəkildə xalqa çatdırır və şerləri ilə milli müstəqillik uğrunda mübarizənin önündə addımlayır.

Azadlıq, azadlıq, ömrüm boyunca
Sənin acın oldum, möhtacın oldum.
Zaman dilimizi qıfıllayınca
Mən sənin daha çox leylacın oldum.

Şair həmin illərdə Azadlıq meydanında yüz minlərlə həmvətəni qarşısında oxuduğu alovlu şerləri ilə xalqı mübarizəyə səsləyir, meydandakılara vətəni sevmək, düşmənə nifrət hissləri aşılayırdı. Belə bir faktı nəzərə çarpdırmaq lazımdır ki, o illərdə Türkiyə ilə qarşılıqlı əlaqələri pozmaq üçün təxribatlar törədilirdi. şair buna cavab olaraq "Haqqın yox" şerini yazdı:

Yad əlində tapdanarkən şərəf, şan,
Türkün türkə ədavətə haqqı yox.

O illərdə xalqın özünü ifadəsi və mübarizə forması kimi Azərbaycandan SSRİ parlamentinə seçilmiş deputatların fəaliyyətsizliyi geniş xalq kütlələri arasında böyük narazılıq doğururdu. B.Vahabzadə də deputatlarımızın bu passiv mövqeyinə qarşı "Deputata məktub" adlı bir şer həsr etmişdi:

Sənə səs verdim ki, yoldaş deputat,
O yüksək kürsüdə səsin gur olsun.
Sənə öz səsimi vermədim ki, mən
Qulağın kar olsun, gözün kor olsun.

Sənə səs verdim ki, hər qarış yerin
Əzəli sahibi "mənəm" deyəsən.
Sənin torpağına göz dikənlərin
Dərsini verməkdən çəkinməyəsən.

Lal gedib, lal gəldin, sən kimsən bu gün?
Xalqın vəkilikən xalqa yad oldun.
Yoxsa dinməməyi bacardığınçün
Bu xalqın adından deputat oldun?

Şair Azərbaycan xalqının istiqlaliyyət əldə etməsini, milli dövlətçiliyin bərpasını böyük sevinclə qarşılayır. "İkibaşlı qartal" şerində oxuyuruq:

Ey ikibaşlı qartal,
Üç yüz ildir dad çəkir dünya sənin əlindən.
Düşən qurtara bilmir o qanlı cəngəlindən.
Sən ağ oldun Allaha.
Bizim nağıllardakı yeddi başlı əjdaha
İkibaşlı qartalın doğmaca ədadıymış.
Zülmün başqa adıymış.
Sən dostluq deyə-deyə xalqlara düşmən oldun,
Azadlıq deyə-deyə azadlıq göylərində
Duman oldun, çən oldun.

Ancaq müstəqillik əldə edəndən sonra da xalqın, vətənin başı üstündən qara dumanlar çəkilmədi. Birincisi xarici qəsbkarlar min cür təzyiqlə Azərbaycanı müstəqillik yolundan sapdırmağa çalışdılar. İkincisi, daxildə müəyyən daxili səkişmələr, parçalanmalar, didişmələr gücləndi. Bu hadisələr şübhəsiz ki, təbiəti etibarilə çox həssas olan B.Vahabzadəni sarsıdır. O, üzünü Allaha tutub deyir:

Ən böyük arzumuz - yol göstər bizə.
Fövqünə ucalaq, bu yetər bizə.
Səni dərk etməyə ağıl ver bizə,
Duasız qalmasın dillər, ilahi!

Qaldır pərdələri sən gözümüzdən,
Millət seçə bilmir əməli sözdən,
Çox ayrı düşmüşük öz-özümüzdən,
Bizi özümüzə qaytar, ilahi!

Bir sıra şerlərində isə şair tənqid hədəfini özümüzə—yəni içimizdəki "sapı özümüzdən olan baltalara" çevirir, vətən torpağını satan xainləri, doğma yurdunu döyüşsüz tərk edib Bakıda daldalanan dil pəhləvanlarnı, millətdən dəm vuran yalançı "millətçiləri" ifşa edir. "Yurd yad əlində" şerində yazır:

Verib Qarabağı Bakıya qaçdıq,
Bakıda "Qarabağ" kafesi açdıq.
Verib Qarabağı oxuduruq biz
Toylarda Qarabağ şikəstəsini.
Heç demə, bizim də kişiliyimiz
Toyda cırmaq imiş minlik dəstini.

Düşmənə yönəlmir qəzəb də, kin də
Dərs ala bilmədik əcdadımızdan
Özümüz bu kökdə, yurd yad əlində:
Haray Çələbi xan, haray Pənah xan!

Məlumdur ki, B.Vahabzadə xalq hərəkatında yaxından iştirak etmiş, milli dövlətçiliyimizin bərpasına ürəkdən sevinmişdi. Lakin bir sıra vəzifə hərisləri bu hakimiyyətdən başqa məqsədlər üçün istifadə etdilər.

Şair xalq hərəkatının belə şərəfsiz satqınlar tərəfindən nüfuzdan salınmasını təəssüflə xatırlayır, buna görə xəcalət çəkdiyini bildirirdi ("Utanıram" şeri).

Vəzifə eşqinə, mənsəb eşqinə
Qardaş qardaşına güllə atırsa,

Mənsəbli mənsəbin kölgəliyində
Düşməni unudub rahat yatırsa,
Vətən övladları biri-birinə
Efirdə, qəzetdə böhtan atırsa,
Düşmən əsgərinə, yad əsgərinə
Halal torpağını əgər satırsa,
Belə azadlığı istəmirəm mən,
Belə azadlığı istəməz Vətən!

Bəxtiyar Vahabzadə yaradıjılığında epik canra meyl də qüvvətlidir. Şair yaradıcılığının elə ilk illərindən poeziyada epik formaya da mürajiət etmiş, sonralar bu sahədə daha ciddi addımlar atmışdır. Elə bu faktı göstərmək kifayətdir ki, B.Vahabzadə irili-xırdalı otuzdan çox poemanın müəllifidir.

Etiraf etmək lazımdır ki, şairin ilk poemaları (1944-1958-ci illərdə yazdığı poemalar) bədii sənətkarlıq cəhətdən o qədər də diqqəti cəlb etmirdi. Məsələn, hələ 40-cı illərdə yazdığı "Toxucu qız" poeması həm şeriyyət baxımından, həm də süjetin inkişafı nöqteyi-nəzərindən zəif təsir bağışlayırdı. Bundan başqa həmin poema o illərin məlum ədəbi təsirləri ilə qələmə alınmışdı. "Toxucu qız"dan sonra qələmə alınan "Dostluq", "Aylı gecələr", "Əbədi heykəl", "Sadə adamlar" poemaları nisbətən dolğun idi. Xüsusilə, ədəbi tənqiddə "Sadə adamlar" müəllifin poetik uğuru kimi qiymətləndirilirdi. Bu poemalarda şair əsas diqqətini təsvir etdiyi qəhrəmanların mənəvi-əxlaqi dünyasına yönəldirdi.

B.Vahabzadəyə şöhrət qazandıran poemalardan biri də dahi şairimiz Məhəmməd Füzuliyə həsr etdiyi "Şəbi-hicran" poemasıdır. Bu poemada Füzulinin dövrü, ona böyük xalq məhəbbəti, şairin sevgisi və həyatının son illəri sənətkarlıqla qələmə alınmışdır. Poema bu misralarla bitir:

Ağladın, yayıldı səsin hər yana,
Bülbül bağçalarda ötdü,–dedilər.
Gələndə Məhəmməd gəldi cahana,
Gedəndə: Füzuli getdi,–dedilər.

B.Vahabzadənin poemalarında mənəvi-əxlaqi problemlər mühüm yer tutur. O, həyatda baş verən hadisələrə mənəviyyat güzgüsü prizmasından diqqət yetirir, sevgi, ailə-məişət məsələlərini poemalarında süjetin əsas komponentinə çevirir. Burada bir mühüm

cəhəti də qeyd etməyi vacib bilirik. "Onun bir insan və bir sənətkar kimi daxili aləmi, ruhi sarsıntıları və həyəcanları poemalarında "ikinci səs" planında çox dolğun, realist inandırıcılıqla ifadəsini tapmışdır. Ümumiyyətlə, B.Vahabzadənin ilk dəfə "İztirabın sonu" poemasında təqib etdiyi "ikinci səs" planı sonrakı poemalarında, xüsusilə, "Etiraf", "Həyat—ölüm", "Şəbi-hicran", "Qiymət", "Qəm içində sevinc" və s. poemalarında müxtəlif şəkillərdə və geniş surətdə istifadə olunan bədii ifadə vasitələrindən biri olur." (Y.Qarayev, Ş.Salmanov. Poeziyanın kamilliyi. səh.105-106).

Onun poemaları içərisində «Gülüstan», «İki qorxu» və «Şəhidlər»i ayrıca qeyd etmək olar. «Gülüstan» haqqında öncə söz açdıq. «İki qorxu» poeması da dövrün ictimai mənzərəsi haqqında müəyyən təsəvvür yaratmaq baxımından maraqlı təsir bağışlayır. Poemada totalitar rejimin yaratdığı qorxu və vahimənin insanlarda yaratdığı gərgin psixoloji ovqat ön plana çəkilir.

... Mərhum bəstəkar Qənbər Hüseynli ilə şair yaxın dost imişlər. Q.Hüseynlini vaxtilə həbs etmişdilər. Onu azad etdikdən sonra da bu iki sənətkar arasında dostluq davam edir. Bir gün görüşərkən şair onun nə səbəbə tutulduğunu soruşur:

Bilmirsən? Dünyanı lənətləmişdim,
"Ellər atası"na düşmən demişdim.

Lakin bu sözü deyən kimi bəstəkar dərin həyəcan keçirir. Şair hiss edir ki, dostu ondan şübhələnir:

O zaman evlərdə, idarələrdə
Qara kabus kimi gəzirdi şübhə.
Yaman yeyin idi şübhənin atı,
Hamımız qul idik, o əydi ancaq.
Birinin birinə münasibəti
Şübhəydi,
Şübhəydi,
Şübhəydi ancaq!

Bu şübhə ilə yaşayan gənclər bir-birinə inanmamaqda haqlı idilər. Lakin şair öz dostunu şübhədən xilas etmək üçün deyir:

–O, qənim kəsilib - deyim,–ölkəyə,
Cavidlər sürülüb öz vətənindən.

Onlar ayrılıb evlərinə gedirlər. İndi də şair bu sözlərinə görə həyəcan keçirir, fikirləşir ki, bəlkə dostum məni satdı? Səhərə qədər gözləyir ki, kimsə gəlib onu aparacaqdır. Buna görə şerlərinin bəzisini gizlətməyi qərara alır, onların bir qismini anasına verir, bir qismini də yandırır. Hətta fikirləşir ki, səhər açılan kimi dostunun yanına gedib dediklərinin yalan olduğunu anladacaq. Səhər açılan kimi dərhal geyinir. Bu zaman qapı döyülür. Şair qorxa-qorxa, həyəcanla qapını açır. Kim olsa yaxşıdır? Qənbər!

Əsə-əsə əllərim mən qapını açınca
O, üstümə atılıb boynumu qucaqladı,
Hönkür-hönkür ağladı.
Boylandı məlul-məlul
O bir sola, bir sağa.
Dünənki söhbətini başladı tez-tələsik
Ayrı səmtə yozmağa:
Zarafatla demişdim dünən mən o sözləri,
Əslində çox sevirəm, mən o dahi rəhbəri.
O, bizim bu dünyada tək güman yerimizdir,
Düşünən beynimizdir, görən gözlərimizdir.
Başa düşdüm mən onu
Susdum... Bu yozumların ağ yalan olduğunu
Anlayırkən, qanırkən.
Bir gün sonra o və mən sözümüzü danırkən
Riyakara döndərdi vaxt həm onu, həm məni.
O da yata bilməyib, demə bütün gecəni.

İnsan mənəviyyatını alçaldan, insan ləyaqətini təhqir edən belə cəmiyyət ancaq bu cür qorxu və vahimə yaratmağa qadir idi.

Xalqımızın istiqlal mübarizəsi tarixinə "qanlı şənbə" kimi daxil olmuş 1990-cı il 20 yanvar qırğını şairin yaradıcılığında öz dolğun poetik ifadəsini tapmışdır. Bu baxımdan on yeddi şerdən ibarət olan və vahid süjet ətrafında birləşən "Şəhidlər" poeması ayrıca qeyd edilməlidir.

Özüm qaldım çıraqsız,
min çırağa yağ ikən,
Təpələrə əl açdım,
özüm uca dağ ikən.

Əlacım öz-özümdən köməyi
ummaq ikən.
Neçin bir özgəsi
pənah oldu, ay Allah?

Xalqın, böyük bir məmləkətin faciəsini, 170 ilə yaxın müstəmləkə zülmünün "bəhrəsini" təsirli bir dillə ümumiləşdirən bu misralar şairin qəlbindən süzülən o dərin kədərin ifadəsidir:

Ona ümid, mənə zor, amma demir kimə haqq?
Əl-ayaq zəncirdədir, baş qapazlı, sinə dağ.
Yüz yetmiş il bu saziş, bu birlik, bu ittifaq
Birtərəfli, talaqsız nigah olmuş, ay Allah!

"Birtərəfli, talaqsız nikah" sözləri necə də sərrast deyilib. Xalqın günahı nədir? Nə üçün onu məhv edirlər? Caniləri niyə cəzasız buraxırlar? Bakı qırğınından sonra Yazov və Bakatin kimi əlləri qana batmış generalların rütbəsini yüksəltdilər ki, bizə göz dağı olsun.

Ədalət də, gerçək də
Vallah yoxdu o gecə.
Zülm, zalım əlilə
Haqqı boğdu o gecə.

Tunc zirehli ilanlar
Haqqımızı nə anlar.
Həqiqəti yalanlar
Küncə sıxdı o gecə.

Kimə deyim dərdimi?
Qəsbkar namərdəmi?
Yetmiş ilin dərd-qəmi
Gözdən axdı o gecə.

Analar amanından
Sinələr oldu şan-şan.
Şəhidlərin qanından
Şimşək çaxdı o gecə.
Nə deyək bu vəhşətə,
Bu zülmə, bu dəhşətə.
Allah bu müsibətə
Necə baxdı o gecə?

Poemada şairin müraciətləri, xitabları, sualları emosionallığı, təsirliliyi artırır, oxucuya da bu qəzəb və emosiya sirayət edir. Poema publisistik səpgidə yazılsa da, hiss-həyəcan, emosional ovqat daha güclüdür. Xüsusilə şairin daxili konflikti daha da dərinləşdirmək üçün tez-tez müqayisələrə, bədii təzadlara müraciəti yerinə düşür. "Mənim günahlarım" fəslində bunu aydınca hiss edirik.

Şair Rusiya siyasətində türklərə olan nifrəti də kəskin boyalarla açıqlayır. Əlbəttə, müstəqillik, suverenlik qurbansız başa gəlmir. Ona görə də, şair nə qədər kədərlənsə də, qəlbi sızlasa da, o, ruhdan düşmür, gələcəyə inamla yaşayır:

Qatil gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi şəhidlər.
Üç rəngli bayrağı öz qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər.

Bilirmi bu bəla nə ilkdi, nə son
Ölürkən uğrunda bu ana yurdun.
Quzu cildindəki o qoca qurdun
Doğru, düz şəklini çəkdi şəhidlər.

İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyri, şəriylə.
Torpağın bağrına cəsədləriylə,
Azadlıq tumunu əkdi şəhidlər.

Bəli, şair ruhdan düşmür və bu nikbinlik bizə də inam aşılayır. Çünki azadlıq qanla qazanılır! Belə cinayətlərlə xalqı susdurmaq mümkün deyil! Aşağıdakı misralar bu ümidi, bu inamı daha da şöləndirir:

Güllə səslərini çağa səsləri
Batırdı o gecə, şükür Allaha,
Doldu şəhidlərin boşalan yeri,
Naşükür olmayaq, vallah bir daha.

Gedən oğulların, axan qanların
Əvəzi su səpdi yanan qəlbimə.
O şənbə gecəsi doğulanların
Onundan doqquzu oğlanmış, demə!

Ümumiyyətlə, "Şəhidlər" poeması təkcə B.Vahabzadənin deyil, çağdaş poeziyamızın ən mühüm uğurlarından biri kimi yadda qaldı.

Bəxtiyar Vahabzadənin dramaturgiyası da onun yaradıcılığında mühüm yer tutur və tədqiqatçıların doğru qeyd etdiyi kimi onun poeziyasının tərkib hissəsini təşkil edir. "Vicdan", "İkinci səs", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad" pyesləri uzun illər səhnədə müvəffəqiyyətlə göstərilmiş, öz müəllifinə bir dramaturq kimi də şöhrət qazandırmışdır.

Ümumiyyətlə, B.Vahabzadə bir dramaturq kimi də tədqiq olunmağa, öyrənilməyə layiq sənətkardı.

Bəxtiyar Vahabzadə haqqında yazılan dostluq şarjlarından birində deyilir:

Qatlayıb dizinin altına qoyar,
Alim Bəxtiyarı Şair Bəxtiyar.

Bu zarafatı öz yerində, doğrudan biz Bəxtiyar Vahabzadə deyəndə ilk növbədə, onu gözəl, bənzərsiz bir şair kimi düşünürük. Onun dramaturqluğu da mahiyyətcə poetik yaradıcılığının davamıdır. Hələ biz B.Vahabzadənin mahir tərcüməçiliyindən də söz açа bilərik. 1982-ci ildə şairin "Hər çiçəkdən bir ləçək" tərcümə toplusu çap edilmişdir ki, burada onun müxtəlif illərdə tərcümə etdiyi poetik nümunələr toplanmışdır. B.Vahabzadə həmçinin bir ədəbiyyatşünas və kəskin publisistik məqalələrin müəllifi kimi də tanınır. Onun həm namizədlik, həm də doktorluq dissertasiyası S.Vurğunun yaradıcılığına həsr olunmuşdur. Bu mövzu ilə bağlı uzunillik axtarışlar "Səməd Vurğun" monoqrafik tədqiqatında öz əksini tapmışdır. Onun klassik və müasir ədəbiyyatın müxtəlif problemlərini əks etdirən onlarla məqaləsi, həmçinin Nizamidən üzü bəri bir sıra görkəmli sənətkarlara həsr olunan yazıları da maraqla oxunur.

B.Vahabzadə yaradıcılığında publisistika xətti ayrıca bir qol təşkil edir. Bunu iki mənada açıqlamaq olar. Birincisi, onun şer, dram və elmi yaradıcılığında publisistik pafos üstünlük təşkil edir. O, hər hansı bədii və elmi yazısında həm də vətəndaş mövqeyində dayanan bir sənətkardır. Şerində də, pyeslərində də, elmi tədqiqatlarında da hadisələrə münasibətini gizlətmir, ehtiraslı bir şəkildə mövqeyini açıqlayır. İkincisi, onun sırf publisistik yaradıcılığından söz açmaq olar.

B.Vahabzadənin publisistik yazıları yazıldığı dövrün ab-havasını

əks etdirir, dövrün, zamanın ən mühüm ictimai-siyasi, mənəvi-əxlaqi problemlərinə toxunur. «Vicdan, namus və ləyaqət», «Qəbul imtahanları barədə», «Kəlbəcər», «Astarada gördüklərim», «Ləyaqət», «Gəlin açıq danışaq» və s. məqalələrdə təbiətə qayğısızlıq, yolların bərbad vəziyyətdə olması, rəqəmləri şişirtmək, xalq malını talan etmək, bir-birinə böhtan atmaq, qəbul imtahanlarında saxtakarlığa yol vermək və s. nöqsanlardan böyük narahatçılıqla, həm də qəzəblə danışılır. Bütün cəmiyyəti düşündürən taleyüklü məsələlərə də belə ciddi münasibət duyulur. Bu baxımdan xalqımızın soykökü, tarixi, dili ilə bağlı problemlər də onu daim düşündürür. «Tarix, dil, ənənə", "Ana dili" məqalələri dediklərimizə sübutdur.

Son illərdə Qarabağ hadisələri ilə bağlı xeyli publisistik yazılar dərc olunmuşdur. Bunların içərisində B.Vahabzadənin "Şənbə gecəsinə gedən yol" adlı iri həcmli məqaləsi öz aydınlığı, mövqeyinin prinsipiallığı ilə daha çox diqqəti cəlb edir.

Onun publisistik yazıları içərisində "Ömür, səhifələr və tərcümeyi-halım" avtobioqrafiyasını da ayrıca qeyd etmək olar. Bu, sadəcə tərcümeyi-hal deyil, yaşanılmış bir ömrün narahat, qayğılı, əzablı-sevincli günlərinin təsviridir. Şairin publisistik əsərlərinin böyük qismi "Dərin qatlara işıq" (1986), "Şənbə gecəsinə gedən yol" (1991) kitablarında toplanmışdır.

B.Vahabzadə Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elmi qarşısında böyük xidmətlərinə görə ən yüksək mükafatlara və fəxri adlara layiq görülmüşdür. 1985-ci ildə, noyabr ayında B.Vahabzadənin 60, 1995-ci ildə isə 70 illiyi böyük təntənə ilə qyed edildi. Bu münasibətlə dünyanın bir çox ölkələrindən görkəmli sənətkarlar Bakıya gəlmiş, yubiley gecəsində öz ürək sözlərini söyləmişlər.

B.Vahabzadə elə sənətkardır ki, onun çoxcəhətli yaradıcılığı həmişə tədqiqatçıları, onun qələm dostlarını, dünyanın bir sıra görkəmli sənətkarlarını söz deməyə vadar etmişdir. Məsələn, zəmanəmizin görkəmli yazıçısı Ç.Aytmatov yazır: "Vahabzadənin poetik təfəkkürü təbiətcə millidir. Bu, müstəsna dərəcədə zəruri haldır ki, sən övladı olduğun xalqın nitq hissəsində fel olmağı bacarasan, xalqının canlı dil memarlığına öz töhfəni verə biləsən. Bununla yanaşı, Vahabzadənin poetik təfəkkür mədəniyyəti daha üstün mahiyyət kəsb edir və millilikdən ümumbəşəri fövqə qalxır. İndiki halda sən azərbaycanlı şairi oxuyanda – dünyanı oxuyursan." *(B.Vahabzadənin "Axı, dünay fırlanır" şerlər kitabına yazılmış ön söz, səh.8).*

Görkəmli rus şairi Y.Yevtuşenko yazmışdır: «Rus dinləyicisi

üçün Azərbaycan dili, hətta kin-küdurətin ifadə anlarında belə, çox yumşaq səslənir. Dilin fonetikasının özülündə bir qılıq, istilik, həzinlik, nəğməlilik gizlənmişdir. Bəxtiyarı dinləyəndə, dili bilməsən də, onun şerləri adama şirin-soy gəlir. Hətta, sətri tərcüməni oxuyanda dilin gözəlliyi arxasında gizlənmiş dərin qəm və kədəri hiss edirsən. Elə bil ki, Azərbaycan narıdır: şirəsini içirsən şirindir, qabıqlı yesən acıdır" *(Y.Yevtuşenko. Şair haqqında bir neçə söz. "Рука в руке" (Gənclik, 1981) kitabına ön söz).*

Türk alimi Əli Yavuz Akpınarın fikirlərindən: "Onun şerlərində özünə xas dərin fikir və düşüncə ilə qarşılaşırıq. Şair, həyati müşahidələrini, duyğularını və fikirlərini şerin əsrarəngiz dilinə çevirməyi bacarır. Başqaları üçün bəlkə də, şer mövzusu olmayan mövzular, görüşlər və fikirlər onun şair nəfəsi ilə şerə çevrilə bilir. Bir sözlə o, şerlə düşünən sənətkardır. ... Bu qüdrətli Azərbaycan şairi türk oxucuları üçün də əzizdir. O, Türkiyədə də sevilir və oxunur" (B.Vahabzadənin "Şerlər" kitabına *(Türkiyə, "Ötükən" nəşriyyatı, 1979) yazılmış ön sözdən).*

Bu sırada biz tanınmış alman alimi Əhməd Şmidenin, rus şairlərindən Yeqor İsayevin, Rimma Kazakovanın, Türkiyə müəlliflərindən Dursun Yıldırımın, Yavuz Büləndi Bakilərin, Fatih Bağçıoğlunun da B.Vahabzadə yaradıcılığı haqqında maraqlı məqalə və çıxışlarını qeyd edə bilərik.

1995-ci ilin oktyabr ayında şairin 70 illiyi ərəfəsində o, Azərbaycan Respublikasının ən yüksək "İstiqlal" ordeni ilə təltif olundu. Qardaş Türkiyənin cümhur başqanı S.Dəmirəl cənabları görkəmli şairi səmimi-qəlbdən təbrik etdi.

Bir rəngi yox, göylərin
min rəngini sevirəm.
Bir gülü yox, güllərin çələngini
sevirəm.
Mən çıxmağa təpə yox, uca dağ
istəyirəm,
Həyatı həyat kimi yaşamaq istəyirəm.

Mənə belə gəlir ki, O, arzuladığı belə sənət zirvələrəni fəth etmişdir. Qüdrətli nəğməkarın gur səsi indi Vətənimizin sərhədlərindən çox-çox uzaqlardan eşidilir. Müxtəlif qitələrdə, ayrı-ayrı ölkələrdə B.Vahabzadənin şer və poemaları kütləvi tirajla çap edilərək,

müxtəlif millətlərə mənsub oxucuların rəğbətini qazanmışdır. Çünki, əsl sənət əsəri üçün coğrafi hüdudlar yoxdur. Şairin özü demişkən, "qəlbə, hissə təsir edən, ürəklərə yol açan şer və musiqinin təsir gücü daha böyükdür". Onun sözlərinə yazılmış onlarla mahnının dinləyicilərin qəlbini fəth etməsi də bunu göstərir.

Ömrümü şer oduna
Əritdim gilə-gilə.
Bu yolda qara saçı
Dəyişdim ağ saç ilə.

Şairin bu misraları onun mübarizələrlə dolu həyatının ən böyük mükafatıdır.

Müdrik şair vaxtilə təvazökarlıqla "bizim sənət dünyasının qırıq telli sazıyam. Bircə bundan razıyam ki, özümdən narazıyam",—desə də, minlərlə oxucusu, yaradıcılığının pərəstişkarları ondan razıdır. Çünki B.Vahabzadə fitrətən şairdir. Özünün dediyi kimi:

Min dəfə, milyon dəfə
Doğulsaydım yenidən
Şer, sənət yolunu
Götürərdim yenə mən.
Nədir yolumun adı?
Düz məsləkim, düz eşqim,
Bələdçidir bu yolda
Öz məsləkim, öz eşqim.
Məsləkim - öz şərəfim,
Namusum, qeyrətimdir.
Vətənimə, xalqıma
Sonsuz məhəbbətimdir!

Bu şərəfli yolda biz ona möhkəm can sağlığı, daha böyük nailiyyətlər, uğurlu yaradıcılıq qələbələri arzulayırıq.

1995-1996-cı illər.
"İstiqlal şairləri", Bakı, "Elm", 1998.

Asəf QULİYEV

MİLLƏTİN VƏKİLİ

Azərbaycan poeziyasının ağsaçlı qartalı da, yetmişində susan şairi də, saxta hesab oluna biləcək müraciətin müəllifi də, millət üçün şam kimi əriyən millət vəkili də odur.

«Bu zülmün, bu zillətin
Sonunu görmək çətin!
Vəkil etdi millətin
Çəkdiyi sitəm məni.»

Bəlkə də bu sətirlərdən daha bəlağətlisini də yazmaq olar. Amma bu sətirlərə müəllif olmaq hüququnu kimsənin qazana bilməsi çox çətindir. 1968-ci ildə bu sətirlərlə sanki keçdiyi və keçəcəyi ömür yolunu yazıb Bəxtiyar Vahabzadə.

O, sovet dövrünün dissidentidir. Çoxlarının partiyaya ləbbey dediyi vaxt o quruluşu qamçılayırdı. Şairlərin millətlərin qardaşlığına şer qoşduğu vaxt o, «Gülüstan» yazırdı. Onun şerləri Vətəndən uzaqda hərbi xidmətdə olan həmvətənlərinin çantasında tapılırdı. Ondan donoslar yazılırdı.. Həmin dövrdə Bəxtiyar Vahabzadəyə tələbələr qarşısına çıxmaq üçün maneələr yaratmağa çalışırdılar. Bir qrup ziyalı isə şairin auditoriyadan kənarlaşdırılmasına qarşı çıxırdı. Sanki Bəxtiyar Vahabzadənin taleyi, milli mənliyimizin meyarına çevrilmişdi. Bu bir həqiqət idi. Sovet dövrünün həqiqəti. 40-cı illərin dissidenti İsmixan Rəhimovun «Sibirdən qayıdanda bizi mehribanlıqla iki adam qarşıladı—Bəxtiyar Vahabzadə və İsmayıl Şıxlı» söyləməsi indi çoxlarına qəribə görünə bilər...

Belə idi sovet dövrünün Bəxtiyar Vahabzadəsi.

Sonra keçid dövrü başladı. Yenə də çoxlarının məqam gözlədiyi vaxtda şair öz sözünü dedi. Onun sözləri çox vaxt kütlənin xoşuna gəlmirdi. Niyəsini hərə bir cür yozurdu. Bu yozumlar onu düşündürsə də cavabsız buraxırdı bu fikirləri. Onun dediklərini müxtəlif cür yozmaq olar, amma rus generallarının üzünə tüpürməsinin ikinci yozumu yoxdur. Bax bu məhz Bəxtiyar Vahabzadənin missiyası idi. O an rus generalının üzünə tüpürən sadəcə Bəxtiyar Vahabzadə deyildi. Bu millətin düşməninə münasibətinin təzahür forması idi. Və bunu

ancaq millətin özünə vəkil seçdiyi şəxs edə bilərdi.

Belə idi tələtümlü zamanların Bəxtiyar Vahabzadəsi.

Azərbaycan müstəqilliyinə qovuşdu. Bu, şairin də arzusu idi. Bəlkə elə o arzusuna çatdığındandır ki, səsi bir az zəif eşidilir. Bəlkə də.

Nədənsə onun səsinin daha az gəlməsi daha çox 70 illik yubileyinin qeyd olunduğu vaxta təsadüf edirdi. Bəlkə doğrudan da bu təsadüf idi.

O susdu, susdu... Və «Göytürklər» adlı bir sillə vurdu. Bu sillənin kimə dəydiyini bilmək üçün bu tamaşaya baxmaq gərəkdi.

Bəli, həm «Göytürklər» pyesi, həm də onun yazdığı digər şerlər Azərbaycan cəmiyyətinin bu gününə vurulan sillələrdi. Ancaq bu sillələrin səsini çox az adam eşidir.

Şair yazır və... Amma onun vurduğu sillələrin ünvanını anlamaq üçün sətirlərin arasını oxumaq lazımdır. Sovet dövründə olduğu kimi, sətirarasını. Dünən də sətirlərin arası, bu gün də. Bəs onda nə dəyişib? Bəlkə heç nə dəyişməyib? Bax bu sualın cavabını ondan ala bilməyənlər onun susduğu iddiasına düşür. Bu fikirdə olanların həm haqlı, həm də haqsız olduğunu söyləmək çox çətindi.

Bəxtiyar Vahabzadə bir xeyli görünmədi. Və o bir neçə ziyalı ilə birlikdə Qarabağın taleyindən narahat olduğunu ifadə edən müraciət imzaladı. Amma hər bir iş nəticəsi ilə ölçülər. Nəticə isə, ən azı onun özünə də bəlli deyil.

Ona mandat vermiş insanların sosial-iqtisadi tələblərinin əvəzində Şəkiyə Daxili Qoşunlar göndərilərkən şair görünmədi. Bir xeyli sonra Şəkiyə gələn şair altı adamı zaminə götürdü və ... Vəssalam. Bəli, ölkədə yaranmış sosial-iqtisadi gərginlik onu danışmağa vadar etdi. Amma onun səsi çox zəif, çoxlarının eşitməyəcəyi tərzdə gəldi. Bəlkə də bu kifayət idi...

Qarabağ qazilərinin ölüm aclığı onu sakit dayanmağa qoymadı. Şair vasitəçi olmaq istədi. Amma onun səsi eşidilmədi və bu missiya özünün dediyi kimi, sükutla qarşılandı. Və yaxud da o aldadıldığından özü də bilmədən aldatdı. O isə buna qiymət vermədi. Və yaxud buna sükutla cavab verdi.

Belədir müstəqil Azərbaycanın Bəxtiyar Vahabzadəsi.

İndi o öz sözünü deməli, mövqeyini bildirməlidir. Sətirlərin arasında olsa belə. Axı o MİLLƏT VƏKİLİDİR. Millətin çəkdiyi sitəmlər isə sona yetməyib.

«Deputat», «Maraqlı qəzet»in xüsusi buraxılışı. Bakı—27.02.2001.

Tərlan Novruzov,

professor

«ZAMAN VƏ MƏN» PUBLİSİSTİKA MÖVQEYİNDƏN

Keçdiyimiz tarixi mərhələ—milli istiqlalın, milli müstəqilliyin qazanılması, bu istiqlalı və müstəqilliyi qorumaq və daha da inkişaf etdirmək, möhkəmləndirmək uğrunda mübarizə dövrüdür. Belə dövrlərdə isə, hər bir xalqın həyatında ciddi, miqyaslı siyasi problemlər baş verir, cərəyan edir, mənəvi və fikri həyatı öz axarı qoynuna alır. Azərbaycan gerçəkliyi də indi, əsrin sonunda belə bir prosesi keçirir və bu təbii olaraq cəmiyyətimizin həyatında bir sıra mühüm, ciddi problemlərin, vəzifələrin aktuallaşdırılmasına səbəb olmuşdur. Adətən belə dövrlərdə ictimai fikrin bütün sahələri kimi, ədəbiyyat da, bədii yaradıcılıq da sürətlə cərəyan edən proseslərdən qətiyyən ayrılmır, əksinə bu proseslərə daha fəal müdaxilə edir. Son illərdə yazıçılarımızın ictimai-siyasi hadisələrə fəal müdaxilə etmələri, bu hadisələrə dərhal reaksiya verələri də məhz bu amal ilə izah edilə bilər və edilməlidir. Onların əksəriyyətinin öz yaradıcılıqlarında və fəaliyyətlərində publisistikaya xüsusi əhəmiyyət verələri də məhz bununla əlaqədardır. Xalq şairi, müasir poeziyamızın ağsaqqalı Bəxtiyar Vahabzadənin son illərdəki fəaliyyəti bu baxımdan xüsusi ilə fərqlənir və müstəsna əhəmiyyət kəsb edir. Bəxtiyar Vahabzadə poeziyada, bədii yaradıcılığın bir çox janrlarında olduğu kimi publisistika janrında da ehtiras və şövq ilə çalışır, çağdaş cəmiyyətin həyatında, düşüncəsində, mənəvi və psixoloji aləmində baş verən hadisə və meyllərə dərhal öz münasibətini bildirir. Biz bu cəhəti onun ədəbi fəaliyyətinin nə isə yeni bir keyfiyyəti kimi yox, əksinə görkəmli şairimizin bütövlükdə yaradıcılığının, sənətinin dərin daxili keyfiyyətlərindən biri kimi başa düşür və qiymətləndiririk. Görkəmli şairin «Zaman və mən» kitabı da (1999) bu baxımdan onun son illərdə nəşr olunmuş publisist kitabları silsiləsindən yeni bir topludur. Buraya daxil edilən məqalələri, çıxışları, ədəbi-publisist materialları, «Təfəkkür» Universitetinin prezidenti, professor Mail Dəmirli ayrı-ayrı mətbuat orqanlarından toplamış və tərtib etmişdir.

Poeziyasında, səhnə əsərlərində, digər bədii əsərlərində olduğu

kimi, publisistik yaradıcılığında da Bəxtiyar Vahabzadəni böyük və ciddi həyat, cəmiyyət problemləri, xalqımızın çağdaş qayğıları və vəzifələri düşündürür. Bu həqiqətən belədir və buna inanmaqdan ötrü kitabın «Problemlər», «Şəxsiyyətlər», Rəylər», «Müsahibələr», «Məktublar», «Çıxışlar» bölmələrində verilən publisist yazıları oxumaqla oxucu dərhal narahat fikirlər və düşüncələr, həyəcanlı problemlər və suallar aləminə düşəcəkdir, yalnız şairi yox, şəxsən onu düşündürən həyat məsələləri ilə üzləşəcəkdir. Başlıcası isə odur ki, oxucu yalnız şairi düşündürən, həyəcanlandıran məsələlər, vəzifələrlə tanış olmayacaqdır, həm də bu məsələlərin həllində şəxsi vətəndaşlıq mövqeyini görəcəkdir, həyatın, zamanın kəskinləşdiyi problemlərə şairin cavabını axtarıb tapacaqdır. Biz də bu fikirdəyik ki, belə bir xüsusiyyət Bəxtiyar Vahabzadə publisistikasının vuran nəbzidir.

Poeziyası kimi B.Vahabzadənin publisistikasının mövzu və problem dairəsi geniş və çoxcəhətlidir. Ana dili, din, onun cəmiyyətdə rolu, milli birlik, müasir ədəbiyyat və ədəbi şəxsiyyətlər, ziyalılıq, siyasət; əgər qısaca təyin etsək, B.Vahabzadənin publisist çıxışlarının əsas mövzusunu, ideyasını bunlar təşkil etdiyini deyə bilərik.

B.Vahabzadə öz publisist çıxışlarında da sənətinin, poeziyasının əsas qayələri və prinsipləri mövqeyində dayanır, hətta bir qədər də irəli gedərək bu prinsipləri müdafiə edir. Məlumdur ki, indi arabir bir çox nəzəriyyələrə, məsələn, deyək ki, «sənət sənət üçündür» nəzəriyyəsinə bəraət qazandırmaq təşəbbüsləri vardır. Bəxtiyar Vahabzadə belə mövqe ilə barışmır, bu prinsipi qəbul etmədiyini belə bəyan edir və yazır: «Xalqa, Vətənə xidmət göstərməyən sənət kimə və nəyə lazımdır?—deyə düşünürəm»

Şairin belə düşünməsi tamamilə təbiidir; bu onun poeziyasının mahiyyəti və fəlsəfəsidir.

Çoxlu problemlər silsiləsində B.Vahabzadəni daim düşündürən bir problem də vardır: bu ana dili məsələsidir, milli dilin qorunması, yad təsirlərdən müdafiə edilməsi problemidir. B.Vahabzadənin məktəbdə ana dilinin öyrədilməsinə ciddi əhəmiyyət verməsi də onun bu istiqamətdəki mübarizəsi ilə əlaqədardır.

Kitabdakı bir sıra publisist yazılarda isə tarixi şəxsiyyətlər barədə söhbət gedir. Belə yazılardan biri böyük istiqlal mücahidi Məmməd Əmin Rəsulzadəyə həsr olunmuşdur. Türk şairləri Yəhya Kamal, Mehmet Akif haqqında məqalələr də çox məzmunlu və düşündürücüdür. B.Vahabzadənin bu məqalələrində müasir türk şerinin vətəndaşlıq motivlərindən xüsusi bir coşqunluqla danışır, bu motivləri

türk poeziyasının böyük ənənələri səviyyəsində dəyərləndirir. Eyni zamanda şair publisistikasında klassik irsə yeni baxış məsələlərinə toxunur, bəzi müəlliflərin mətbu çıxışlarındakı M.F.Axundov, Mirzə Cəlil, Sabir və Hadi irsinə birtərəfli, inkarçı münasibətlə polemikaya girir. Polemik məqamlarda o, sənətin həqiqi ictimai rolunu ön plana çəkir. Publisistikasında böyük şair və publisist B.Vahabzadə siyasətə də laqeyd deyildir və bu onun bir sənətkar kimi müsbət məziyyətidir. Çünki çağdaş zamanda şairin, özü də B.Vahabzadə kimi şairin siyasətdən kənar qalması, siyasətə biganəliyi sadəcə qeyri-mümkündür. Bununla belə B.Vahabzadə səmimiyyətlə siyasətdə bəzən yanıldığını etiraf edir. Məsələn bir müsahibəsində deyir ki, «siyasətdə səhv edə bilərəm, amma sənətdə yox». Buna görə şair təkidlə bəyan edir ki, «məni siyasətdə deyil, şerlərimdə axtarın». Biz şairin bu etirafını səmimi və təbii hesab etməklə yanaşı, onu da düşünürük ki, ən mühüm siyasi məsələlərdə də, siyasi düşüncə və fikirlərində də B.Vahabzadə sənətin prinsiplərinə, qayələrinə sədaqətlidir. Şairin yeni kitabı bu həqiqəti təsdiq edir.

«Xalq qəzeti», 8 iyul 1999-cu il.

Hacı AZƏR ƏBİLOV

QAN UDUB DÖVRAN ƏLİNDƏN...

(Esse)

Yoxdan yaratmısan məni sən özün,
Ya məni yox elə, ya da dərdimi.

Bəxtiyar Vahabzadə

Zaman elə Ponti Pilatın özü kimidir. Nə vaxtsa bir peyğəmbərin çarmıxa çəkilməsinə hökm veribsə, bu gün onu bəxş etdiyi hər adi sıxıntıya görə qınamağa dəyməz.

Şairlər qeybə çəkilə bilmirlər.

Yaradılışdan elə sadəcə olaraq noyi-bəşər doğulan «əsrinin öksüzləri» cəmiyyətin dərdini, təəssübünü, bəşəriyyətin kədərini elə öz evlərinin dərdi, təəssübü, kədəri kimi çəkməkdədirlər.

Və əgər BƏXTİYAR VAHABZADƏ Azadlıq meydanının kürsüsündədirsə, demək, Azadlıq meydanının kürsüsündə GÜLÜSTAN

YARALARININ MÜALİCİ dayanmışdır.

Otuz yaşında ənənəyə, sistemə müxalif çıxan bir sənətkarın yetmiş yaşındaykən İSTİQLAL ORDENİNƏ sahib durması da istiqbalımız üçün söylənmiş dualarımızın müstəcəb olmasının rəmzidir.

Və lakin nə acı ki, cəmiyyət elə Ponti Pilatın dövründəki kimidir. Ponti Pilatı zamanında və bütün sonrakı zamanlarda məşhurlaşdıran elə cəmiyyətin özü olmadımı?

Vətəni canından çox sevdiyindən,
Vətənin düşməni dedilər ona.
Əzəldən ən böyük zindandır Vətən
Vətənin ən yaxşı oğullarına...

— belə dedi Bəxtiyar Vahabzadə!

Və hələ çox-çox əqdəm düz deyirdi romantik şairimiz ki: «əsrinin öksüzüdür dahilər».

...Prokurator bəlkə də heç Məryəm oğlunun qətlinə hökm verməzdi, əgər cəmiyyət özü onu məcbur etməsəydi. Zaman da, cəmiyyət də, məhkum da iki min yaşa qədəm qoymaqdadır.

Otuzuncu illərin mətbuatını vərəqləyənlər bir acı həqiqətə şahid olacaqlar: Cavidin və cavidlərin qətlinə fərman verən ZAMANDAN daha çox CƏMİYYƏTİN özü olmuşdur. Hakimdən çox, bu suçda rəiyyət günahkar idi.

Valinin sarayını natəmiz sayan kütlə bu saraya ayaq basmırdı.

Fəqət, həmin sarayı murdar edən ən əvvəl, rəiyyətin özü oldu.

Və artıq iki min ildir ki, cəmiyyətdə Rəbb-in müjdəsini gətirən insan ərşə çəkilmişdir. Cəmiyyət isə zamana qoşulub onun üçün göz yaşları axıdır.

Ponti Pilat onu azad edəcəkdi.

Bu azadlıq haqqını ona qıymayan, elə onun özünün xilas etmək istədiyi qövmü-cəmiyyət oldu...

Əbədini dünyada mən əbədi sanmadım,
Bir atəşə tutuşdum, min atəşə yanmadım.
Bütlər gəldi və getdi, birinə inanmadım,
Niyə inanmalıyam, axı dünya fırlanır.

Saraydan və Rəiyyətdən ucada dayanan bu ilahi gerçəyin önündəki tövbələri hər minilliyin sonunda biz dönə-dönə eşitməkdəyik. Lakin yenə də haqqın fərqinə varmırıq.

...İndi Saray da, Rəiyyət də peşimandır.
İndi Zaman da, Cəmiyyət də pərişandır.

İndi—iki min ildən sonra, Zaman da, Cəmiyyət də elə iki min il əvvəllərdə olduğu kimi qəddar, zalım və amansızdır.

Böyük sirr isə qorxunc röyalar kimi yalnız gecələr baş verməkdədir.

Külək əsdi,
gah imandan, gah gümandan,
gah o yandan, gah bu yandan.
Otlar əydi başlarını
öz içindən yana-yana
gah o yana, gah bu yana.
Külək əsdi...
Ot əyildi...
Külək əsdi,
elə bildi
Qüdrətinə bir səcdədir bu əyilmə.
Zalım külək,
Zülmə olan əyilməni səcdə bilmə.

Əgər sağdan əsirsənsə,
sağa deyil,
sol tərəfə əyilir ot.
Bu tərəfə əyilmənin sirri nədir?
Bu hörmətə əyilmə yox,
Bu yalana dal çevirmə
Həqiqətə əyilmədir.

...Ağ vərəqlər bəm-bəyaz bir sürrealizmə hamilədir.

Yanvar genosidinin səhəri imperiya generalının üzünə tüpürən zərif vücudlu bir xalq şairinin obrazını rəsm etmək istəyirəm.

...Beləcə cəmiyyəti də zamanla birgə arxada qoyub gəlib böyük sirrin astanasına çatdıq.

Edam gününə açılan səhərdə mən İLHAM PƏRİSİNƏ təsəlli vermək üçün sözlər arayıram.

Hər şey ON YEDDİ DEKABRDA başlandı.

Qorbaçov Dinmühəmməd Kunayevi devirdi və qazax xalqı üsyan elədi. Dostlarından birinin təvəllüd tarixinə təsadüf edən bu gündə onun yazdığı şer «ON YEDDİ DEKABR» adlanır. Əgər bu şer «Ad günü» adlansaydı, əlbəttə, bu ədalətsiz gerçəklər elə ittiham olunmamış

qalacaqdı. Və Bəxtiyar Vahabzadənin həmin şeri məhz bu günə, bir türk qövmünün milli baxımsızlıq naminə başladığı mübarizə məqamına ithaf kimi əlamətdar və tarixi idi:

On yeddi dekabr sənin ad günün,
Hərənin bəxtinə bir ulduz düşür.
Həm də tapmacadır yolu hər ömrün,
Sönmüş bir ocağa birdən köz düşür.
...Lal axan çayların altında yerdən
Qaynayan suları görmürük, fəqət.
Qırır qolundakı zənciri birdən
Yatmış bildiyimiz bir kölə millət.
Vaxtın axarında sular durulur.
Gerçək gül açanda solur riyalar.
Bir anın içində uçub məhv olur
Yüz illik, min illik imperiyalar.

Şübhəsiz, Qorbaçov olduğu kimi görünməyi bacarmışdı. O,—«biz beləyik»—deyirdi və türk qövmünə olan nifrətini, həm də patoloji, imperiyaçı nifrətini büruzə verirdi.

17 dekabr siyasi büroda Heydər Əliyevin təkləndiyi, türk siyasi fenomenlərinə etimadsızlıq göstərildiyi və nəhayət, qazax millətinin sındırıldığı bir gün idi.

Və Bəxtiyar Vahabzadə bu günə «On yeddi dekabr» şerini ithaf edirdi. Bu gün, həm türk millətinin özünə döndüyü;—Sən özünə dönəndə böyük olursan!—haqqına yiyələndiyi bir gün kimi müqəddəs deyildimi?

Ədəbi mövcudiyyəti, var olma tarixi boyunca Bəxtiyar Vahabzadə əriyən vaxtın, böhran keçirən yaddaşın şairidir. VAXTIN və YADDAŞIN ən pünhan qəmlərini yazmaqda o, Füzuli babaya könüldən və candan varislik etməkdədir.

O, Əli bəy Hüseynzadənin başladığı milli savaşın tarixə yazılan böyük bir səhifəsidir.

«Qəmim pünhan tutardım mən, dedilər yarə qıl rövşən. Desək ol bivəfa bilməm, inanarmı, inanmazmı?»—beş yüz ildən sonra bu QƏMƏ inanan və onu ALƏMƏ CAR ÇƏKƏN VARİSİN qəlbi məhz o qəmlə rövşən olub işıqlandı.

Bu nə idi belə?

Bəlkə ruhlar qovuşurdu?

Lakin:

Dünya bir işvəkar gəlinə bənzər,
Gözəllik təxtindən heç enməmişdir.
Milyon il keçsə də hələ bir nəfər
Bu gözəl afətlə evlənməmişdir.

Bəxtiyar Vahabzadə daha çox tənhalıqlar şairidir. Bütün böyük şairlərin—Füzulidən Mandelştamacan—hər birinin, həm də Bəxtiyarın taleyindən tənhalığın yandırıcı və realist küləkləri əsmiş, əsir və əsəcəkdir.

«Qəmim pünhan tutardım mən...»—belə demişdi Füzuli.

«Mən ayrılıqlar fənnini öyrəndim»—bu da Osip Mandelştamdandır.

Böyük şairin «Atılmışlar» evinə qədər uzanıb gedən yaradıcılıq yolları «Gülüstan» faciəsindən və hətta «kolların dibində tək bitdiyindən boynu bükük olan bənövşənin» kövrək və acıdan-acı çiçək taleyindən keçib getməkdədir.

O ömrü boyu haqsızlığın, ədalətsiz cəmiyyət və saray sistemlərinin həmlələrinə sinə gərməyə məhkum olunmuş taleyi kür şairimizdir.

Biz onun analoqunu əbəs yerə axtarırıq:

Qan udub dövran əlindən, ey Füzuli, sən dedin:
Dövrü-cövründən şikayət etməmək mümkün deyil.
Mənsə bir dövrana düşdüm ki, bu viranxanədə
Dövrü-cövründən şikayət etməmək mümkün deyil.

Gəlin razılaşaq ki, o bu bəyanında haqlı idi. Lakin məmləkətimizdə istiqlal günəşi doğandan sonra «şanlı» pioner qalstukunu boynundan açıb meydangirlik eləməyə başlayandan fərqli olaraq o, eyni zamanda öz dərdli dolabını—sandıq ədəbiyyatını da ortaya qoydu.

Və əslində indi mən düşünürəm ki, Bəxtiyar Vahabzadənin milli və sənətkar vicdanına şahidlik edəsi hər hansı bir «qara qutu»ya ehtiyac belə yoxdur.

O, dramatik bir ömür yaşamışdır.

Demoklın qılıncının daim təqib elədiyi fəci bir ömür. Mücahid ömrü. Gerçək müsəlman şairinin yaşamağa mükəlləf olunduğu bir ömür.

Yaradıcılığı, şəxsiyyəti və taleyi böyük bir sirr olan Nazim Hikmətin 1928-ci ildə yazdığı «Xəzər dənizi» şerini düşünürəm. İnanıram ki, bu şerin müəllifi bir türk şairidir. Həm də ona inanmaq istəyirəm ki, bu misraları kommunist məfkurəli bir şair qələmə almışdır:

Xəzər ruzgarların dilini konuşuyor, balam,
konuşub coşuyordu!
Kim demiş «çort vazmi»!
Xəzər ölü bir gölə bənzər
Ucsuz-bucaqsız başı boş duzlu bir sudur Xəzər!
Xəzərdə dost gəzər, e...y!...
düşmən gəzər!
...–Aldırma, anam, nə çıxar?
nə çıxar
qudursun
qarayel suları.
Xəzərdə doğanın
Xəzərdir məzarı!

Və bu gün Türkiyə bir türk şairi olaraq Bəxtiyar Vahabzadəyə ağuş açmaqdadır.

Lakin, Rusiya kommunist şair Nazim Hikməti elə də tez-tələsik unutdu ki...

İlhamı heç zaman inzivaya çəkilməyən, sözü qırx il sərasər millətin könül yaddaşında ÜÇ RƏNGLİ BAYRAĞI, yaxud, həmin bayrağın ifadə elədiyi müqəddəs milli ideologiyanı əvəz edən Bəxtiyar Vahabzadə haqqında yazıram və onun yaradıcılıq metodunun, üslubunun qəhrəmanlığına həsəd aparmaya bilmirəm. O, əzablardan, işgəncələrdən qorxub çəkinsəydi, yəni bir az başqa cür düşünsəydi, heç şübhəsiz, onun simasında dünya ədəbiyyatı daha fenomenal bir sənət varına sahib ola bilərdi. (Lakin, bu hələ tarixin və gələcəyin sərəncamında olan bir məsələdir. Onun sənət məbədinin ehtişamına bəzən dostluqlarına belə qıyılan və şərik çıxılan Çingiz Aytmatov adlı bir XX yüz il nəhəngi şəhadət gətirmişdir).

Ədəbi taleyini milli mücadilə ideallarına qurban verməyi bacaran bu Tənha və Tək şairimiz çağdaş fəlsəfi anlayışlarla cəmiyyət və zaman problemlərinə müdaxilə etsəydi, indi qarşımızda heç şübhəsiz əsrarlı bir dünya klassiki təzahür edərdi. Onun möhtəşəm əzablardan doğulan qəhrəmanı Salvador Dalinin obrazları ilə oxşar bir taleyin daşıyıcısıdır.

İnqmar Berqmanı xatırlayın. Hər şeyin və hətta sözün belə azad doğulduğu qərbdə Berqman sükutun əlifbasını yaratdı. Onun filmlərində AĞ SÜKUTA DALDI və KÖLGƏLƏR danışdı. Ağın kölgəsi qaranın üstünə çökdü. Hər halda mən belə düşünürəm ki, bu məqamlarda kölgə vaxtın izi kimidir: daşdakı, ağacdakı və... insan qəlbinin qumsallıqlarındakı izi kimi:

Vaxtın dəyirmanında daş əridi, qum oldu,
Tarixə atdığımız qayıtdı lüzum oldu,
Dünənin həqiqəti bu gün tərs yozum oldu,
Niyə də yozulmasın, axı dünya fırlanır.

...Çahargahın bir şöbəsi də manənd-müxalif adlanır. Manənd-müxalif, yəni müxalifə bənzəyən. Görəsən nə üçün müxalifdən qabaq manənd-müxalif? Milli kədərimizin səbəbləri az imiş kimi MƏNSURİYYƏ ilə şərəflənən ÇAHARGAHA özü deyil, özə bənzəyənim kim sakin elədi?

Mən bu manənd müxafalifin, yəni yadellinin deyil, içəridəki nuzulun böyük bir insana və böyük bir şairə beş yüz ildir ki, sitəm verdiyinin şahidiyəm.

Sizə qəribə gəlsə də deyim, sona çatmaqda olan əsrimizi də mən XVI əsrin YEKUNU hesab edirəm, Bəxtiyarı Füzulinin SONUNCU SÖZÜ olaraq qəbul etdiyim kimi...

Və nəhayət:

— Gözəlliyi özünə dərd olan qolu kəsik milos qızı Veneranın bu fani dünyada ölməyi gəlmirmi görəsən?

(Qleb Uspenskinin «Dirçəliş»ini mütaliə etmək istədim. Yenidən).

— Babasının qərib tabutuna çiçək qoyan məhzun Turan Cavidin fotosuna baxıb, nə üçünsə düşündüm ki, görəsən o Laçın yuvasındakı ƏMİRASLAN AĞANIN ruhu şaddırmı?

Təzə Vətənində qərib, çəkingən,
Köhnə Vətənindən qaçaq didərgin.

Və nəhayət:

— Deməsəm olmur: «Bəxtiyar nə zamandan islam şairi oldu?»—deyə təşvişə düşənlərə bu yazının epiqrafındakı misralara bir daha nəzər yetirmələrini və hələ 1969-cu ildə şairimizin qələmindən çıxmış «Ay Allah» şerinin digər sətirlərini xatırlatmaq istərdim:

Sənə şəkk edənin can gözü bağlı,
O, qalmaz fövqünə bu qüdsiyyətin.
Onu anlatmaqmı?
Duyğusu, ağlı,
Gözə dönməyənə göz olmaq çətin.
Görünən aləmə o, Allah deyir.
Görünməz aləmi görə bilməyir.

Qudsal qələminin, ecazkar ilhamının fırtınasından doğulmuş «Fəryad» faciəsi ilə İslam fəlsəfəsinin əxlaqi dəyərlərini, hələ o zaman möhtac olduğumuz iman duyğusunu ictimai şüurumuzun mahiyyətinə əta edən və:

Dünyaya şəfəqlər kimi tanrım səpələnmiş,
Qəlbin gözü yanmazsa, görünməz gözə Allah!

— deyən bir şairin ziyarətinə gələrkən Ərbakan tamamilə haqlıydı.

Axı: «Vətəni sevmək imandandır»—deyən Həzrəti Peyğəmbərimiz, eyni zamanda: «haqsızlıq önündə susan və haqqı söyləməyən dilsiz şeytandır»—buyurmuşdu...

1996-cı ildə Azərbaycan öz böyük şairinin təvəllüd gününü bayram etdi.

1997-ci ildə isə dünyadan qubar bağlayıb gedən XUDU MƏMMƏDOVUN yetmiş yaşı tamam olur.

Milli mücadilə dövrümüzün İSTİQLAL MARŞI—ÜVERTÜRA illər ötüb keçsə də qalacaq və çalınacaq. Və allah göstərməsin, bir gün o müqəddəs istiqlal bayrağına qara əllər uzansa Üzeyir bəyin ruhu yenidən bizə qayıdacaq və o zaman Xudu Məmmədovun ruhu yenidən millətin ilk şəhidi olmaq üçün Üzeyir bəyin ocağının başına tələsib gələcək. Bax o zaman kimsə: «Aman ovçu vurma məni, mən bu dağın maralıyam»—deyə günahsız-günahsız şivən qoparacaq və «nəğmələrin istisinə qızındıqca heyrəti heykəlləşən» Bəxtiyarımız millətin ilk şəhidi olmaq üçün tələsib gələn o RUHUN əlini sıxacaqdır.

Allah o günü bizə qismət eləməsin!

Bayrağımız və BƏXTİYARIMIZ yaşasın!

«Xalq qəzeti», 9 fevral 1997-ci il.

BƏXTİYAR VAHABZADƏ ENSİKLOPEDİYASI

XX əsr Azərbaycan ədəbiyyatının qızıl dövrüdür. Sabir, Mirzə Cəlil yaradıcılığı ilə başlanan bu dövr dünya ədəbiyyatı xəzinəsini zənginləşdirməkdə böyük rol oynamışdır. Ötən yüzillikdə Azərbaycan ədəbiyyatı korifeylərini sadalamalı olsaq böyük bir siyahı yarana bilər. Biz isə onlardan biri—çağdaş Azərbaycan ədəbiyyatının qüdrətli nümayəndəsi, şair, dramaturq, alim, ictimai xadim,xalq şairi Bəxtiyar Vahabzadədən,daha doğrusu onun yeni çapdan çıxmış kitabı haqqında söz açmaq istəyirik.

Bəxtiyar müəllimin indiyədək dünyanın çox ölkəsində çox kitabı çıxıb. Bu kitabı digərlərindən fərqləndirən onun məqsədi, maraqlı tərtibatıdır.

«Azərbaycanın tanınmış şəxsiyyətləri» silsiləsindən şairin 75 illiyinə həsr olunmuş, Nazim İbrahimovun tərtib etdiyi bu kitabı Bəxtiyar Vahabzadə ensiklopediyası da adlandırmaq olar. Topluya şairin gözəl şerləri, onun yaradıcılığının müxtəlif sahələrini əhatə edən nümunələr, ictimai-siyasi fəaliyyətini əks etdirən qeydlər,müasirlərinin onun haqqında fikirləri və fotoşəkillər daxil edilmişdir.

B.Vahabzadənin yaradıcılığı haqqında deyilən ürək sözlərinin müəllifləri arasında kimlərə desən rast gəlmək olar; Azərbaycan prezidenti Heydər Əliyev, türk dünyasının böyük sənətkarları Oljas Süleymenov və Çingiz Aytmatov, Yaşar Qarayev, Anar,Cavad Heyət, Yevgeni Yevtuşenko, Yeqor İsayev, Əli Yavuz Akpinar və s.

Buradakı şəkillər az qala bir əsri əhatə edir.Azərbaycan ədəbiyyatını sevən,ona hörmət edən,yaxın olan yüzlərlə söz-sənət adamının əksi var bu kitabda.

«Cümə axşamı» qəzeti, 22 fevral 2001-ci il.

Mürşüd MƏMMƏDLİ

BƏXTİYAR VAHABZADƏ HAQQINDA SÖZ

ONUN APARDIĞI MÜBARİZƏ SƏNGİMƏYƏCƏK

Bəxtiyar ötən illər ərzində məhəbbət lirikasının da, təbiət lirikasının da seçmə, təkrarsız, yalnız ona məxsus nümunələrini yaradıb. Təkcə bu qəbildən olan şerləri ilə o, poeziya tarixində əbədi yaşaya bilərdi. Lakin şair üçün xalq, millət və torpaq, onun azadlığı, özünüdərki və bütövlüyü kimi müqəddəs, məmur-obıvatel qafasına sığmayan əlçatmaz dəyərlər var idi ki, bunlarsız sənətkar taleyi yarımçıq görünərdi. Bu tale yalnız vətən və millət taleyinə qovuşanda bütövləşə bilərdi və bütövləşdi də.

B.Vahabzadə poeziyada bədii düşüncənin hüdud və sərhədlərinin genişlənməsində və dərinləşməsində müstəsna xidmətlər göstərib. Onun poeziyası millətin ağrıyan ürəyi, vətənin qışqıran fəryadları üzərində köklənib. Şairin mövzu rəngarəngliyinə fikir verin: ikiyə bölünmüş vətənin taleyi («Gülüstan»), müstəmləkəçilik dərdi («Yol-

lar-oğullar», «Neo», «Latın dili»), ləyaqət hissi («Ləyaqət»), insana və dünyaya fəlsəfi baxış («Təzadlar»), istiqlalçılıq(«Mərziyə»). O, uzaq 50-ci illərdən başlamış imperiya əsarətinin və habelə bugünkü tayfa zülmünün müxtəlif təzahürlərinə və çeşidlərinə ifşaçı münasibət bildirib.

B.Vahabzadə poeziyamızda siyasi-fəlsəfi lirikanın vətəndaş yanğısından törənmiş əvəzsiz, təkrarı olmayan nümunələrini yaradıb.

Bu şerləri heç kəsin yazıları ilə dəyişik salmaq mümkün deyil. Onun şerlərinin hər misrasında məhz Bəxtiyar ürəyinin sızıltısı duyulmaqda, Bəxtiyar vicdanının qışqırtısı eşidilməkdədir.

O, hazırkı rəsmilərin üfürülərək müqəddəslər mərtəbəsinə qaldırılmış qondarma «allahların» gecə-gündüz xalqa təlqin etdikləri «dözümlülük» səfsətəsinə qarşı çıxır:

Özün söylə, ulu tanrım,
Səbr nədir, dözüm nədir?
Ölüm-zülüm yaşamaqçın
Səbr də bir bəhanədir,
Dözüm də bir bəhanədir.

Haqqın-hüququn alındığı, siyasi-mənəvi zorakılığın meydan suladığı məqamda dözüm göstərmək, səbir nümayiş etdirmək kölelik əlamətidir. Şairə görə:

Qandal açılsa da qollarımızdan,
Kölelik hələ də beynimizdədir.

Deməli, ləyaqətli ömür sürmək istəyən millət öz beynini siyasi-mənəvi işğaldan, ürəyini isə xofun, qorxunun əsarətindən azad etməlidir. Bəxtiyar şeri həmişə kəskin müasirliyi və poetik ruhun təzəliyi ilə seçilib.

Yaşadığımız yüzilliyin bro-bro dövrlərində də, qürub çağlarında da biz onun poeziyasında müasirliyin təzadlarını, Qordi düyününü, poetik ruhun üsyankar ovqatını müşahidə etmişik. Məsələn, «Vaydır əkdiyimiz» şerində millətə çörək əvəzinə ümid, dözüm yedirdən müasir taleyranlara qarşı şairin üsyankar ruhu aşkar oxunmaqdadır:

Ümid yeyə-yeyə hələ gözləyir,
Bu millət götürür hər cür zilləti.
Hələ ki, dinməzcə o, ümid yeyir,
Siz də bala-bala yeyin milləti.

Millətin qanıdır sərvətin, varın,
Siz öz kefinizdə, məmləkət darda.
Gecələr çadırda ac yatanların
Payını uduzun kazinolarda.

Şair rəzalətləri, sadəcə, sadalamaqla kifayətlənmir, onların ünvanını göstərir, ictimai rəyi bu naqisliklərin ifşasına yönəldir və haqlı olaraq hesab edir ki:

Göydən Allah baxır, gələcək bir gün
Yediyiniz qədər qusacaqsınız.

Müstəqillik uğrunda çarpışan millət bu gün zillət, müsibət içərisində çarpışmaqdadır. O, istiqlal uğrunda apardığı mücadilədən ümduğu ali siyasi-mənəvi və maddi dəyərlərdən məhrum edildi. İmperiya zülmündən qurtulan xalq bir soyğunçu zümrənin—adı özümüzdən olan talançı tayfanın mənəvi işğalına məruz qaldı. Qazancımız nə oldu? Dilənçilik, didərginlik, göz yaşları, baş daşları və istiqlal naminə qovğalara qatılan bütöv bir nəslin mənzil başına çatmayan yarımçıq ömrü. Yeraltı və yerüstü sərvətləri göz qamaşdıran bir məmləkətin qismətsiz, talesiz sakinlərinə çevrildik.

Şair də bədbin notlar üzərində köklənmiş aşağıdakı misralarla millətin indiki halına yas saxlayır:

Nə günə qalmışıq, neft ölkəsində
Neftimiz, qazımız, işığımız yox.
Məmləkət böhranlar məngənəsində,
İndi özgələrə möhtac olmuşuq.
Yaşıl meşələrin dərdi bizimçün
Dəmir sobalarda istiyə döndü.
Çətin aldığımız istiqlal bu gün
Gözləri kor edən tüstüyə döndü.

Haqlısan, ustad! Millətin kimi Sən də müstəqilliyin istisinə qızınmadın, amma tüstüsünə kor oldun. Hələ mənəviyyatda nələr baş verir? Canlı meyitlərə süni nəfəs verənlər onları ölümsüzlüyün məskən saldığı ulu Tanrının dərgahına qaldırır, dünyasını dəyişmiş daimi dirilərimizi isə o tanrısal məkandan aşağı salırlar.Bu hərəkət «müdriklik» donu geyinənlərin, yenilərin, müasir «qurucuların» —qırıcıların tarixə və taleyə qarşı qəsdi, təxribatı deyilmi? Azərbaycan səhnəsində tarixin fəlsəfəsindən çox, istehzasına, ironiyasına hesablanmış bir məzhəkə oynayır. Ancaq bu məzhəkənin həqiqət anları da var:

Ölülər diridir, dirilər ölü,
İstidir dünyanın odundan külü.
Doğru danışanın kəsilir dili,
Öldürən haqlıdır, amma ölən yox!

Yalanın, riyanın, saxtalığın, gözə kül üfürməyin, mumiyaları, müasir fironları pərəstişin mənəviyyatı yağmalayıb ayaqlar altına saldığı bir mühitdə şairin bütövlüyü, həqiqəti, milli əxlaqı hər cür qəsddən, deformasiyadan qorumağa çağıran səsi ucadan və ucalıqlardan eşidilir.

Bəxtiyar Vahabzadə torpağı da taleyi kimi şikəst qalmış bir xalqın hələlik sonuncu milli şairidir. O da bizim hər birimiz kimi ürəyimizdə dış ağrısına çevrilmiş Qarabağın verilməsi ərəfəsini yaşayır. Bu itkiyə dözə biləcəksinizmi, Bəxtiyar müəllim? Milli şair üçün belə bir faciəli olay əvvəlin sonu, axırın əvvəli, axirət, qiyamət gününün başlanğıcı deməkdir. Bizimlə bərabər yaxınlaşmaqda olan milli fəlakətin qarşısını almağa hazırsınızmı, Ustad?

İnanıram ki, şerimizin canlı klassiki mənəvi-cismani ölümünün neçə-neçə fəslini yaşayacaq, ikinci nəfəslə yazıb-yaradacaq, hürr və azad, demokratik Azərbaycan uğrunda onun apardığı mübarizə səngiməyəcəkdir. Bu yolda Sizə cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram, Bəxtiyar müəllim!

«Yeni Müsavat» qəzeti,
24 avqust 1999-cu il.

Hacı İmamverdi ƏBİLOV
Filologiya elmləri doktoru, professor

HÜRRİYYƏT VƏKİLİ BƏXTİYAR VAHABZADƏ

Öz yaradıcılıq üslubu və dünyadərkinə görə Bəxtiyar Vahabzadəni yalnız özü ilə—şair Bəxtiyarla müqayisə etmək olar. Əsl milli şair milli məhdudiyyət duyğusundan uzaq olur. Füzuli dünyaya, Şekspir bizə olduğu kimi. Klassik poeziyanın əbədi-əzəli dəyişməz mövzuları var: sevgi-hicran, həyat-ölüm, sevinc-kədər, bir də təbiət və insan gözəllikləri... Romantikadan və fantaziyadan qidalanan poeziya siyasət məftilləri ilə hasara alınanda, şair iki yol ayrıcında qalır: ya mənəviyyatına qəsd edib hakim təbəqənin tələblərinə uyğunlaşır, ya

da heç bir qadağaya, təhdidə, təqibə məhəl qoymayıb inamının, əhdinin, idealının mücahidinə dönür. Birinci halda şairin qismətinə az ömürlü təntənə, ikinci halda isə millətin tarixi yaddaşı ilə əbədi müsafir olmaq səadəti düşür. Bəxtiyar Vahabzadə elə zəngin ədəbi irs sahibidir ki, bilavasitə təmasda olmadan da ondan ürək dolusu söz demək mümkündür. Zira, sənətkar haqqında söz demək üçün onunla şəxsi tanışlıq heç vaxt vacib şərt olmayıb, olmayacaq da. Şairin ötən il mənə verdiyi kitabın avtoqrafı bu sözlərlə başlayır: «Ey mənim əlli beş illik əziz dostum, sirdaşım, məsləkdaşım, qardaşım...»

Deməli, əlli ildən ziyadə dost olduğum bir sənətkar haqqında geniş və cəsarətlə danışmağa daha çox haqqım var. Çünki bir çox mövzuların yazılma tarixi müəllifə, bir də mənə bütün təfərrüatı ilə məlumdur. Xüsusilə, addımbaşı müqavimətlə qarşılanan çağlar ilhamlı, özünə inamlı şair gördüyü haqsızlıqlar və keçirdiyi ağrılar barədə kimsəyə bir söz deməyəndə və milli dərdləri məhdud sayda olan könül dostları ilə xısın-xısın bölüşəndə mən onun həmdəmi olmuşam. İndi dissident ədəbiyyatı haqqında bol-bol danışırlar. Lakin «dissident» sözünün fərqinə varmayan B.Vahabzadə bu ədəbiyyatın ən qiymətli incilərini yaratmışdır. O vaxt anadan olan körpələr indi əlli yaşlı siyasətçidir, şairdir, ədibdir. Bu adamlar nə ilə, kimlə hesablaşmasalar da, tarixlə hesablaşmalıdırlar. Çünki gələcək haqqında ən dürüst həqiqəti keçmişdən öyrənirik. Key, küt, mürgülü xəyallar aləminə, stereotip düşüncələr axarına alışmış mühiti silkələmək, qamçılamaq lazım idi. Bu, bəlkə də çoxlarının həsrət nəfəsli arzusu olub, fəqət, bu arzu fidanlarını 37 tufanı didim-didim parçalamışdı. Yuxarıların çıxardığı qərarlara yalnız məmurlar deyil, sənətkarlar da «ləbbeyk» deməli idi. Belə olmasaydı, B.Pasternak kimi qüdrətli şair «Doktor Jivaqo» əsəri üçün özünü nahaqdan məzəmmət etməz, Nobel mükafatından üz çevirməzdi; unudulmaz filosofumuz Heydər Hüseynovu təqdir etdikləri üçün neçə-neçə alimlərimiz, yazıçılarımız tövbə etməzdi. Lakin tufanın qorxutmadığı ziyalılarımız da yox deyildi. B.Vahabzadəni mən onların birincisi kimi tanımışam. Bakıda milli məktəblərin sayının sürətlə ixtisar olunduğunu, respublikada silah alıb paylamağa səlahiyyəti olan yeganə təşkilatın—Ovçular təşkilatının rayon rəhbərliyinə istisnasız olaraq, ermənilərin təyin edildiyi haqqında 42 il əvvəl Azərbaycan hakimiyyətində həyəcan təbili çalan Baxtiyar Vahabzadə idi. Gürcüstan rəhbərinə isə azərbaycanlılar yaşayan kənd və qəsəbə adlarının gürcüləşdirildiyi haqda məktub yazıb hiddətlə etiraz edən,

Konstitusiyamızda Azərbaycan dilinin dövlət dili kimi əks olunması üçün qeyri-adi əzab çəkən də B.Vahabzadə idi. Mən bu ağrılı həyəcanların təkcə şahidi olmamışam, həm də mənəvi sarsıntıların misra-misra şerə döndüyünü şəxsən görmüş, yaşamışam.

Əllinci illərin ikinci yarısında rəhmətlik anam Bakıda xəstə yatarkən mənimlə bərabər ona oğul qayğısı göstərən Bəxtiyarın o vaxt təzə aldığı mənzildə günlərlə qalmalı oldum. Gündüzlər xəstəxana ab-havası məni nə qədər sıxırdısa, axşamlar hürriyyət həsrəti və milli müstəqilliyimiz haqqında romantik söhbətlərin cazibəsi bir o qədər ruhumu oxşayır, xəyalımı qanadlandırırdı... Və beləcə, mənim gözlərim önündə «Gülüstan» yaranırdı. Millət və Vətən eşqini şerə çevirən Bəxtiyarın qəlbində əzizlədiyi ümid və kədər zaman-zaman qeyzə, nifrətə çevrilirdi. Milli müstəqilliyimizin yana-yana həsrətini çəkən şairin nisgili, qeyzi-nifrəti 1990-cı ilin qanlı yanvarında millətin acı tüpürcəyinə dönüb, imperiya generalının sifətinə çırpılanda, matəmə bürünmüş el-oba ani olsa da ümidlə nəfəs aldı. Çünki inandı ki, milli mentalitetin qüdrəti tükənməyib. Beləliklə, tükənməz mənəvi qüdrətin qanadlarında «Şəhidlər» yarandı və bu səfərbəredici kədərli notlar oymaq-oymaq, küçəbəküçə, evbəev, mənzilbəmənzil dolaşıb könülləri ram elədi... Məlum qüvvənin ağılasığmaz vəhşətinə məruz qalan xalq tarixi məhrumiyyətlərində öz «günahı»nı da gördü. O, düşmənin tankına çırtma vurmuşdu. Böyük bir ölkəni doğram-doğram edən düşmənin kor, doyulmaz nəfəsinin qanlı işğalları önündə «tanka çırtma vurmaq» adi «günah» olmadı. Qoluzorlu imperiyanın təfsirində bu, cinayət idi! Və bu «cinayəti» qanla yumaq onun dövlət siyasətinin əsası oldu. Düşmənin bu «əxlaq» və «ədəb» normalarına qarşı ilk əməli üsyan edən də Bəxtiyar Vahabzadə oldu. İlk etiraz bəyanatı qəbul edən Ali Sovetin ilk seçilməmiş sədri, qan içində susan xalqı yasdan çıxmağa ilk haraylayan Bəxtiyar Vahabzadə! Şairin nifrət və lənət obyekti daima dəyişməz və bəlli olub. Bu dəyişməz xisləti hesabına 33 yaşında ağlaya-ağlaya «Gülüstan»ı yazan kövrək müəllif 65 yaşında işğalçı rus generalının üzünə tüpürdü , ona əl qaldırdı. Yekəpər, qansız generala qarşı qalxan çəlimsiz qollara qüvvət verən xalqa məhəbbət və xalq məhəbbəti idi.

Həyatın gözəl məzmunu təkcə onu sevmək deyil, həm də böyük ideallar uğrunda onun əzablarına, iztirablarına dözmək, zülmə qarşı üsyan etməkdir. A.Blok sərrast deyib: «Gözəlliyin demə lap yanımızda olduğunu başa düşənə kimi çox gec olur».

Səadətin lap yaxında olduğundan isə Bəxtiyar heç zaman bixəbər olmayıb. Eyni zamanda, məruz qaldığı hədələr, hücumlar ona diktə edib ki,

ali məqsədin lap yaxında olan zirvəsinə qovuşmaq asan deyil, çətindir, çox çətin. Cəmiyyəti bürüyən qorxu, vahimə havasında istiqlal mücahidi kimi yaşamaq və yazmaq əlahiddə hünər tələb edirdi. Bu hünər kiminsə şairə ənamı, hədiyyəsi deyildi, Allah vergisi idi. Mən günlərini yox, saatlarını təqiblər mühitində keçirən Bəxtiyarın yaşadığı həyəcanların şahidi və şəriki olduğumdan bu sözləri tam inam və səmimiyyətlə yazıram və rica edirəm, möhtərəm oxucu nəzərə alsın ki, bu sətirlərin müəllifi mərhum bəstəkarımız Qənbər Hüseynliyə həsr olunmuş «İki qorxu» poemasının hasilə gəlməsinin və əsərdə cərəyan edən hadisələrin, əsəbi əzintilərin soyuq müşahidəçisi yox, mütəəssir iştirakçısı olmuşdur. Mərhum aktyorumuz Həsənağa Salayevlə, milli müstəqillik təşnəsi, böyük dostumuz Xudu Məmmədovla həsrət və üsyan ruhlu söhbətlərin səsi-sorağı «dəniz qırağına» çatsaydı, biz indi B.Vahabzadədən keçmiş zaman kimi danışardıq. Xoşbəxtlikdən ya çuğullar tənbəl oldu, ya danosları qəbul edən kişi arif, qeyrətli vətəndaş oldu. Hər iki hal möcüzəyə bənzər əlamət olsa da, ikinci amil şairi çox bəlalardan sovuşdurdu. Bəs, «37» havasının ötüb keçmədiyi, çuğulların at oynatdığı və «arif kişilərin» də tam əl-qol açа bilmədiyi əllinci illərdə şairə milli cürət hissini aşılayan hansı qüvvə idi? Bu suala müxtəlif cavablar ola bilər və hamısı da inandırıcı görünər. Bizim fikrimizcə, bu məqamda Bəxtiyarın vətəndaş-şair mövqeyi ona görə dəyişməz və sözü ona görə kəsərli oldu ki, o, qorxaqlığın hər şeyi üstələyən gücünü əla bilirdi, mütiliyin istedad üçün amansız mərəz olduğunu tam yəqin etmişdi. Poeziyasına hakim olan üsyankar ruhun kökü də bu həqiqətdən güc alırdı. B.Vahabzadə kommunizmin sönməkdə olan ulduzunu onun işıqlı vaxtında görmüş və «yenilməz» Sovetlər İttifaqının dağılacağına inanmışdı. Bu mənada, şairin poetik pafosla, üsyankar ruhla dopdolu şerləri də, melodik elegiyaları da azadlığa çağırış, gələcəyə inam bəstəsi kimi könüllərə yol tapırdı. Xatirə dəftərimdə B.Vahabzadənin uzaq illərin yadigarı olan dəst-xəttində oxuyuram:

Qan udub dövran əlindən, ey Füzuli, söylədin:
«Dövrü-cövründən şikayət etməmək mümkün deyil».

Mənsə bir dövrana düşdüm bu viranxanədə ki,
Dövrü-cövrüdən şikayət eyləmək mümkün deyil.

Şair yaxşı bilirdi ki, soyuqqanlılıq ehtiraslardan daha uzun ömürlü olur. Bu həqiqəti bilsə də, o, heç zaman birinci yolu qəbul etməyib. Və inanırıq ki, şairə bu qədər etimad qazandırmış xidmətləri də məhz bu

cur gərəkli ehtiyatsızlığın nəticəsində mümkün olmuşdur. Arxivimdə saralmış bir vərəq var. Bir qərinədən dərin əldən-ələ gəzib əzik-üzük olan bu kağız parçası kobud laqeydliyə və milli nihilizmə qarşı heç vaxt biganə olmayan çılğın bir ruhun harayını əks etdirdiyi üçün qiymətlidir. Həm də nəzərə alaq ki, mətbuatda senzura hökmranlığının ləğvinədək bu kağız parçası evbəev gəzib hürriyyət haqqından məhrum edilən insanlarla həmsöhbət olmuş, fərəhsiz kökə düşən əzgin robot insanlara güzgü tutmuşdur. XX-ci əsrin adamının etirafını eşidək:

Gözüm şüşə, dişim qoyma,
qıçım taxta.
Arzuları vurdu şaxta,
Qanım qara, laxta-laxta!
Kişilikdən bir əsər yox,
Özüm axta, sözüm saxta.
Yalanlara əl çalıram,
Alçaldıqca ucalıram.
Sözüm iki,
Üzüm iki.
Mən əyriyə düz deyirəm,
Gecəyə gündüz deyirəm.
İndi bizə ağıl gərək,
Yuxa ürək kimə gərək?!
Mən atmışam!
Yerində daş bağlatmışam.
Mən ağlımın hökmü ilə
yol gedirəm,
Yoldaş deyib,
Yoldaşımın yoluna
daş gilladirəm.
Əməlsiz də keçib gedər,
Gərək bollu sözün olsun.
Ağ yalanı qıp-qırmızı
Demək üçün üzün olsun.
Əməl deyil, söz oğluyam,
Mən əsrimin öz oğluyam.

Hər sənətkar haqqında deyilməyən «poetik igidlik» kalamı Bəxtiyar Vahabzadənin qazandığı imtiyazdır. Bu imtiyazın sahibi olan şairin poeziyasında dumanlı rəvayət, rəyasət önündə keçilmək məddahlıq

əlamətləri aramaq əbəsdir, günahdır. Bu poeziyada dərd də, ələm də həsrət də, giley də var və insan ürəyindən keçib istehlak bazarına gedən halların hamısı, bir küll halında—hürriyyət və həqiqət uğrunda mübarizəyə səsləyir. Təsadüfi deyil ki, Bəxtiyar poeziyasının işığına meyl edənlər bu çeşməyə yaxınlaşanlar mənən saflaşır, mərdliyin, mübarizliyin, halallığın təntənəsinə daha çox inanırlar. Bu mənada onun poeziyasının həsrət və cəsarət poeziyası da adlandıra bilərik. Sərlövhəsi ilə poetik ruhu arasında aşkar əkslik olan «Leninlə söhbət» poemasının misralarında «Ulu məslək» adlandırdığı Leninə, onun qurduğu diktaturaya qarşı amansız ittihamı görüb duymamaq sadəlövhlük olardı. Diqqət edəndə əsərin Leninlə söhbətdən çox, Leninin ittiham sənədi olduğuna şübhə qalmır. Əsərin çapından sonra birmənalı qarşılanmadığı çoxlarının yadındadır. Poema barəsində ilk məqalə dərc etdirən bu sətirlərin müəllifi öz yazısının o vaxtkı Sovetlər İttifaqına yad radio dalğasından eşidəndə, təbii ki, təşviş dolu həyəcan keçirdi. Çünki efirdən səslənən mülahizəyə görə yazı müəllifi mətnaltı eyhamlarla Leninin qurduğu dövlətin rəzalətlərini ifşa edən şairə məharətlə haqq qazandırmışdı... Sonra isə... Sonrasını başı bəla çəkənlər bilər.

Cənub həsrətindən, məftilli Arazdan yazmayan Azərbaycan şairini təsəvvürə gətirmək çətindir. Bəxtiyarın bu mövzuda yazdığı poema və şerlərdən yalnız birinə diqqət yetirək:

Arazın
bu tayı Vətənim,
o tayı Vətənim.
Vətəni görməyə
amanım yox mənim.
Bu necə Vətəndir?
görmədim üzünü
çatsam da bu yaşa.
Ömründə bir dəfə
bəs salam verməzmi
qardaş da qardaşa?
Bu qəmim, bu dərdim
dağlardan ağırdı,
Arazın suyuna qarışıb
axıram.
Füzuli həsrətlə qürbətdən

Vətənə baxırdı,
Mən isə...
Vətəndən-Vətənə baxıram.

İstək, imkan dustağının bundan həzin, bundan qəhərli gileyini təsəvvürə gətirmək o qədər də asan deyil.

Dil yalnız ünsiyyət vasitəsi yox, millətin varlığını şərtləndirən həlledici amildir. Dil yoxdursa, millətin varlığından danışmaq əbəsdir.

Ana dilinə şer həsr etməyən müasir şair tanımıram. Və tanıdıqlarım içərisində B. Vahabzadə qədər ardıcıl, cəsarətlə, qəzəb və məhəbbətlə danışan ikinci şair də tanımıram. Və tanıdıqlarım içərisində B.Vahabzadə qədər ardıcıl, cəsarətlə, qəzəb və məhəbbətlə danışan ikinci şair də tanımıram. Ədəbi aləmə ayaq açan gündən o, Vətəninin və doğma dilin mübariz şair övladı olmuşdur. 32 il əvvəl oxucular şairin belə bir sorğusuna cavab axtarmalı oldular:

«Mən azadam», «müstəqiləm» sözlərini
Öz dilində deməyə də
İxtiyarın yoxsa əgər,
De kim sənə azad deyər...

Dili və ana yurduna müstəqil yaşamaq haqqı yasaq edilən Millətin faciəsini heç vaxt müşahidədən kənarda qoymayan şair imperiyanın ikibaşlı, riyakar siyasətinə qarşı mübarizəni yaradıcılığının ali məqsədi hesab eləmiş və dilimizdə «millət vəkili» ifadəsi formalaşmazdan əvvəl o, millət vəkili kimi tanınmışdır. 1968-ci illərdə şair yazmışdı:

«Bilmirəm bu millətə
Vəkil etdi kim məni?»

«Körpü çaydan uzaq düşüb» kitabına (Bakı, 1996) girişdə görkəmli ədəbiyyatşünas alim Yaşar Qarayev məhz həmin misralara istinad edərək yazır: «Bu sözlər altmışıncı illərdə yazılmışdı və şairin rəsmən millət vəkili olmasına onda hələ çox qalırdı». Bu, həqiqətən belədir. Fəqət bir günün təfsilatı bütün təfərrüatı ilə yadımdadır. «Vəkil»in yazılmasından düz on il əvvəl—əllinci illərin sonunda milli-mənəvi əlamətlərin tədriclə erroziyaya uğradılması haqqında respublikanın ali rəhbərinə qəzəbli iradlarını söyləyəndə B.Vahabzadə sərt bir sorğu etmişdi. «Bu sözləri Mərkəzi Komitənin birinci katibinə söyləməyə

səni kim vəkil edib? Cavab qısa və kəskin olmuşdu: Vicdanım! Birinci katibin otağından çıxıb ifrat əsəbi vəziyyətdə evinə qayıdanda mən onlarda idim, məsələnin də bütün gedişatını mənə həmin saat söyləmişdi. Və... «Baş ştabı» tərk edəndən sonra mədhnamə, yaxud tövbənamə yox, «Mərsiyə» yazmışdı, çarmıxa çəkilmiş dilimizin sarsıdıcı rəsmini çəkmişdi:

...Ey bu günü
dilim-dilim
Parçalanan ana dilim,
Sinəsində od qalanan
ana dilim.
Qapıların arasında
Boynu bükük qalan dilim.
Var ikən yox olan dilim.
Ayaqlarda kilim, dilim.
Vuruşlarda bir qəhrəman,
Barışlarda həlim dilim.
Yadın fitvasıyla,
öz gülləmizlə
Özgənin dilinə
ov olan dilim.
Möhürlü, hüquqlu
idarələrdən
Daxmalar küncünə
qovulan dilim.
Ali təbəqələr səni
dandılar,
Sən bir ümman ikən
dayaz sandılar.
Özgənin dilində xoruzlandılar,
Sən ey öz sacında
qovrulan dilim.
Xətai taxtında
sən fərman oldun.
Dillərə hökm edən
qəhrəman oldun.
Bəs niyə sən bu gün
pərişan oldun,

Babək qılıncından od alan dilim?!
Tarixin yolunu
keçdin uğurlu,
Sənə batammadı
bir qolu zorlu.
Dünəni möhtəşəm,
sabahı nurlu,
İndisi tapdanıb
ovulan dilim,
Analı-atalı a yetim dilim!
Şərəfim, şöhrətim,
qeyrətim, dilim.

«Köklər-budaqlar» kitabının köşklərdən, kitabxanalardan yığışdırıldığı günləri xatırlamaq kifayətdir. Bu acı mənzərəni seyr edənlərin pərişan əhvalı önündə müəllifin məruz qaldığı ağrıları, əzabları təsəvvür edirsinizmi? Nə yaxşı ki, şair iradəsi sınmadı, sifarişli hücumlar onu yenidən yeni-yeni poetik möcüzələrin kəşfinə ruhlandırdı. «Tufan palıd ağacını məcbur elədi ki, daha dərinlərə kök atsın»...

Təbii ki, biz B.Vahabzadə yaradıcılığını, şəxsiyyətini müdafiə etmək niyyətindən çox-çox uzağıq. Buna yerli-dibli ehtiyac da yoxdur. Xalq şairinin yaxın-uzaq ellərdə geniş miqyaslı şöhrəti hamıya hər şeyi deyir. Lakin ara-sıra şairin ünvanına söylənən əsassız, bir qədər də qeyzli mülahizələri eşidəndə təəssüflənir, kinli münasibətin səbəbini araşdırır və inanırsan ki, belə yazı müəllifləri ya küll halında şairin yaradıcılığına tam bələd deyillər, ya da qərəz həqiqəti üstələyib. Belə isə təəssüf. Və şükür ki, hürriyyət vəkilinin söz-sənət dünyasında yaranıb-yaşayan «Gülüstan», «Yollar-oğullar», «Etiraf», «Ağlar-güləyən», «Təzadlar», «Muğam», «Mərziyə», «Atılmışlar», «Faciə», «Həyat-ölüm», «Şəhidlər»... poemalarını, ədəbiyyatımızın qızıl çələngi olan şerlərini təkrar-təkrar oxumağa ömür möhləti var. Ömür möhləti isə təkcə yaşamaq üçün deyil, həm də yaratmaq, bədii-əxlaqi sərvətləri qorumaq, yaşatmaq, zənginləşdirmək üçün verilən allah payıdır.

«Yeni Azərbaycan», 22 may 1999.

BƏXTİYAR VAHABZADƏ

YENİ ŞERLƏR

Çağdaş söz sənətimizin ağsaqqalı, poeziya xəzinəmizin xiridarı Bəxtiyar Vahabzadə ilə hər ekran, efir görüşü minlərlə tamaşaçı, dinləyici qəlbinə uzanan yoldur, məlhəmdir. Yaşayıb-yaratdığımız, sevib-sevildiyimiz, umub-küsdüyümüz bu dünyanın elə dərdi-səri yoxdur ki, ustad şairimizin hikmət dolu misralarından boy qaldırmasın. Bəxtiyar müəllimi öz pərəstişkarlarına, xalqına sevdirən, "Qitələr şairi" mərtəbəsinə qaldıran əsas cəhət də elə budur: ürəkləri oxuya bilmək, zamanını yaşantılarını necə varsa eləcə—bəzəksiz-düzəksiz yaddaşlara hopdurmaq məharəti!

Məkandır tərəzi, zamandar çəki,
Çirkin gözəl olur gendən baxanda.
Bizimçün heç nədir əlimizdəki,
Qiyməti bilinir əldən çıxanda–
Biz niyə bu qədər qədirbilməzik?

Şərhə ehtiyac varmı? Bütöv bir millətin ən yaralı yerinə toxunan şair, gör necə böyük ustalıq, ürək ağrısı ilə əbədi portretimizi yaradıbdır. Qarabağ dərdimizə, ulu yurd yerlərimizin acı taleyinə, qeyrət ovxarımızın korşalmasına için-için hönkürən xalq şairinin fəryad səsi, həyəcan təbilidir bu misralar. Nə qədər ki, köhnə mərəzimizdən—soyuqqanlılıq xərçəngindən qurtulmamışıq, Bəxtiyar Vahabzadə nisgili Vətənin, didərgin millətin "bəxtəvər şairi" olmaq istəmir:

Öz-özümü mənəm çəkən çarmıxa,
Nə biləydim hökmü verən qədərmiş.
Öz içimdə hakim ilə vəkilin
Gecə-gündüz çəkişməsi hədərmiş.

Bəxtiyar müəllim öz içindəki "hakim-vəkilin çəkişməsinə", ürəyinin odsuz-alovsuz alışıb-yanmasına dözərdi bəlkə. Onu yandırıb-yaxan bir ucu İran, o bir ucu Turanda olan millətinin birlik, həmrəylik şərqisi oxuya bilməməsi, doğma Azərbaycan dərdlərinə

çarə axtarmaq istəyinin zəif olmasıdır. Halbuki Ulu Tanrı türk oğlu türkə öz böyüklüyünü göstərmək üçün çox şey veribdir: ucsuz-bucaqsız ərazilər, bitib-tükənməyən sərvətlər, heç vaxt öləziməyəcək günəş hərarəti...

Bütün bu taleyüklü məsələlərin ortalığa qoyduğu narahatçılıq ovqatı Bəxtiyar Vahabzadə poeziyasında yeni çalarlar olmasa da, bu günümüzün gənc oxucusu, dinləyicisi, tamaşaçısı üçün yeni bir aləmdir. Elə şairi ən çox düşündürən də gələcəyimiz olan cavanlar, onların həyat eşqidir. Əgər belə olmasaydı, ömrünün müdrik çağını yaşayan ustad sənətkar bu narahat dünyamızda heç olmazsa yeni nəslə Allah-Təaladan sevinc qisməti diləməzdi:

Sevinc qisməti var, axı hər kəsin,
İlahi, sən qıyma yaratdığına.
Qız yenə sevinsin, o dəyişməsin,
Dünyamız dəyişib yaraşsın ona.

Bəxtiyar Vahabzadə poeziyasının fəlsəfi mənasını dərk etmək o qədər də asan iş deyil. Bunun üçün yaxşı yoldan biri şairin şerlərini istedadlı aktyorlarımızın, qiraət ustalarımızın dilindən eşitməkdir.

«Ekran-Efir» qəzeti, 1998 N 26 (2183)

Kamil Vəli NƏRİMANOĞLU

YORULSAQ DA, YOLUMUZDAN DÖNMƏMİŞİK

Salam, Bəxtiyar müəllim!

Bu gün Sizin ad gününüzdür—75 yaşınız tamam olur. Mübarək olsun! Tanrı Sizi xalqımıza çox görməsin! Bu ağır və kədərli günlərdə millətin göy üzündə olan işıqlarını görməmək haqsızlıqdır. Haqsızlıqdan doğan ümidsizlik, çarəsizlik fəlsəfəsinin özü də mübhəm bir quyu kimidir. Bölünmüş, parçalanmış böhran dolu cəmiyyətdə əsəbləri çıxarılmış cansız diş kimi sakitləşmişik. Və ən dəhşətlisi budur ki, hər şeylə razılaşmışıq. Dostla, düşmənlə, Allahla və şeytanla razılaşmışıq. Vətəni, Torpağı (nə fərqi var, az, ya çox...) düşməndə, qaçqın-köçkün çöldə, düzdə şəhərlə bir dilənçi, avara, tumsatan gözümüzün önündə. Bir-birimizə key-key baxırıq. Könülsüz-könülsüz

qəzet oxuyuruq, kimi isə heysiz-heysiz söyürük, kimi isə heysiz-heysiz sevirik. Könülsüz söyüş, könülsüz sevgi bulanıq su kimi içimizə axır. Mafiya öz arasında vuruşur, Cəbhə öz arasında vuruşur, demokratik qüvvələr öz arasında vuruşur, qardaş-qardaşla üz-üzə gəlməyə utanır, oğul atadan, ata oğuldan, ana övladdan, övlad anadan xəcalətli. Çörəklə imtahana çəkilən millət öz tarixinin faciəli günlərini yaşayır...

Bəxtiyar müəllim, bizim və sizin üçün əziz olan bu doğum gününüzdə vəziyyətimizi xatırlamamaq mümkün deyil. Biz hamımız hər şeyimizlə bu çıxılmazlıq içindəyik. Və onu görməmək, duymamaq imkansızdır.

Bəxtiyar müəllim, bu məşəqqətli günlərin içindən geriyə baxıram və uzaqlaşmış zamanın içindən Sizin əzabkeş sifətiniz mənə Sizin dediklərinizdən daha çox şey deyir.

Uşaq idim. Xəstələnmişdim. Atam məni Bakıya, həkimə gətirirdi. Mahmudlu stansiyasına qara nər kimi yaxınlaşan paravozun tüstüsü-dumanı içində hər şeydən aydın gördüyüm soldatlar idi. Əli silahlı rus soldatları. Soldat sopoqlarının altından gələn nal səsi çaqqaçaq çaqqıldadıqca alışmadığım rusca buyruqları, əmrləri eşitdikcə yadlıq hissi içimə dolur, məndə qorxu, çaşqınlıq yaradırdı. Atam onlara rusca salam verdi. Heç kəs onun salamını almadı. Pasportunu göstərdi, mənə işarə edib nəsə anlatmağa çalışdı. Və çənə-boğazdan sonra nəhayət, biz ümumi vaqona minə bildik. Alışmadığım cənub ləhcəsində bir kişi "sarıqulaq köpəkuşağı, sizdən canımız nə vaxt qurtaracaq!" deyib yumruğunu sıxdı. Bir qadın qorxa-qorxa onu sakitləşdirdi. Sarıqulaq deyilən rus soldatları qapını-bacanı kəsmişdi. Yerevan-Bakı qatarı ağır-ağır gedirdi. Zamanın durğunluğunu pozan təkcə ağır gediş idi.

Çox sonralar—universitetin 1-ci kursunda Siz bizim dərs otağımıza girib tanış olduqdan sonra söylədiyiniz ilk cümlə mənim (və bizim) həyat-yaşam pasportum oldu. "Kül olsun o millətin başına ki, rus əsarətinin 150 illliyini bayram edir". Siz 1963-cü ildə dəbdəbə ilə keçirilən Gülüstan sülh müqaviləsini—parçalanmış, bölünmüş Azərbaycanın 150 illik faciəsini nəzərdə tuturdunuz. Əzab içində söylədiyiniz bu ağrı millətin yox, millətə zülm edənlərin bayramı idi—anlatdığınız bu acı gerçək, faciə idi.

Bəxtiyar müəllim, Yerevan-Bakı qatarında ağalıq edən rus əsgərini, sarıqulaq deyib qovrulan kişini, qorxudan rəngi ağaran qadını, salamı alınmayan atanı Sizin o cümlənizdən sonra anladım. Siz çağdaş Azərbaycan ədəbiyyatından dərs deyirsiniz. Çox sevdiyimiz bu dərsin

ən böyük gözəlliyi və özəlliyi dərsarası, mövzuarası söylənən gerçəklər, gizli mətləblər idi.

Yuxarı kursda "Gülüstan"ın əlyazmasını oxudum. Şerlərinizi, məqalələrinizi acgözlüklə ürəyimə, bağrıma yığdım. Mənimlə oxuyan yüzlərlə, minlərcə cavan kimi, Millətin, Müstəqilliyin, Azadlığın, Ana dili haqqının nə olduğunu Sizdən öyrəndim. Atamdan, anamdan, çevrəmdən aldığım hissləri, duyğuları fikrə qənaətə çevirən Siz oldunuz. Rəsul Rza, Ənvər Məmmədxanlı, Xudu Məmmədov və o zaman cavan müəllim olan Əbülfəz Elçibəy qaranlıq yolda işıq yandırdılar. Hər yanan işıq təzə ümid, təzə inam idi. Ancaq mən o birinci işığı heç vaxt unuda bilmərəm. Və indiki ağır günlərimizdə bizə bu umu-küsüləri, şikayətləri də yazdıran o birinci işığın unudulmaz istisi, parlaqlığıdır, ümiddir.

Bəxtiyar müəllim, uman yerdən küsərlər. Sizdən də küsməyib, bəs kimdən küsək, Bəxtiyar müəllim? "Şəbi-hicran"ı oxuyub yenidən Füzuliyə döndük. Mirzə Cəlil, Sabir həsrətini, yanğısını Sizdən duyduq. Azadlıq təşnəsi kimi ilkin Sizi tanıdıq və Sizi sevdik. "Ayağını yorğanına görə uzat" məntiqinə qarşı "bəsdir, indi də yorğanı ayağımıza görə uzadaq" deyən Sizdiniz. Ölü latın dilinə baxıb ana türk dilinə, taleyinə ağlayan da Siz idiniz. "Hop-hopnamə" bizim Quranımızdır deyən də sizdiniz. Yeraltı çaylar kimi 50-60-cı illərdə üzə çıxan yeni milli çağdaş Azərbaycan ədəbiyyatına, poeziyaya boy verən örnəklərinə Rəsul Rza və Siz yaratmısınız. Qəribədir, milli ədəbiyyat milli dil olmadan milli səviyyəsini qazana bilmədiyi kimi, bəşəri səviyyəni də qazana bilmir. Siz dərslərinizdə Səməd Vurğun şerinin gözəlliyindən danışdığınız kimi, Rəsul Rza şerinin ağıl gücündən, idrak dəyərindən də ürəkdən danışırdınız. Sizin söhbətlərinizdə xronoloji yox idi. Dərslərinizdə ədəbiyyat tariximizin problemləri milli kimliyin tarixinə çevrilirdi. Və bu tarixdə Zaman şərti idi. "Dədə Qorqud"dan sonra Vaqif Səmədoğlu, Əli Kərimdən sonra Nəsimi, Nəsimidən sonra isə İsa Hüseynov, Sabir Əhmədov gələrdi. Pikassonun "dünya necədir, bunu hamı bilir. Mən öz dünyamı çəkirəm" kəlamını sevərdiniz. Və yenicə ədəbi mücadilə meydanına girən Anarı, Yusif Səmədoğlunu, Əkrəm Əylislini, Elçini, İsa İsmayılzadəni, Ələkbər Salahzadəni müdafiə edirdiniz. "Yel qayadan nə apara?" məqaləniz bütün türk dünyasını lərzəyə saldı. Dilin təbii axarına, ədəbiyyatın qan yaddaşına sataşanlara bir dərs verdiniz ki, hamıya görk oldu.

Dissident ədəbiyyatın ilk şəxslərindən biri Siz oldunuz. Milli-azadlıq hərəkatının söz bayrağını ucaldan insanlar içində Sizin

adınız yazılıb. R.Rza, Ə.Kərim şeri kimi Bəxtiyar Vahabzadə şeri də azadlığın özü kimi müqəddəsdir. Sizin millətimizə, tariximizə, Ana dilimizə saf və səmimi vurğunluğunuz böyük bir idealın—milli ideologiyanın təməl daşlarından biri oldu. Milli haqqına qovuşmayan insan haqqına qovuşa bilməz. Milli dəyərlərini müdafiə etməyən xalq liberal-demokratik dəyərlərini müdafiə edə bilməz. Sizin şerlərinizin ana xətti bu idi. Və indi də budur. Yadımdadır, bizimlə eyni kursda oxuyan macar tələbə qız Keneşeyi Mariya Bakıdan ayrılarkən ağlaya-ağlaya dedi: "Siz xoşbəxtsiniz, Sizin Bəxtiyar Vahabzadəniz var". O macar qız Sizin şerlərinizin, dərslərinizin Leylisi idi. Üstündən 30 il keçsə də, mən o macar qızının göz yaşlarını və titrək səsini unuda bilmirəm.

Türkiyədə qardaş Azərbaycanın necə sevildiyini sübut etməyə ehtiyac yoxdur. Ancaq mən Türkiyədə Bəxtiyar Vahabzadə və Əbülfəz Elçibəy kimi sevilən bir şəxs tanımıram. Türkiyədə və türk dünyasında Siz də, Əbülfəz bəy də milli hayqırışın, milli mücadilənin özü kimi dərk olunur və sevilirsiniz. Dinçisi də , dünyəvisi də, solçusu da, sağçısı da türk dilinin, türk mənşəyinin böyük mücahid və mücadiləçisi kimi Sizi sevir, qəbul edir.

Bu artıq tarixdir. Tarixi heç kəs dəyişə bilməz.

Dilimizin adı ilə bağlı mübahisələrdə qəti və sərt sözünüzə görə, latın əlifbasını bərpa etmək problemindəki aydın mövqeyinizə görə, Azərbaycan türk tarixini təhrif edən xainlərlə mübarizənizə görə, Məmməd Əmin Rəsulzadə irsini, şəxsiyyətini, ümumən müsavatçılığı kommunistlərdən və nankorlardan qoruduğunuza görə sağ olun. Bütün Azərbaycan demokratları və millətsevərləri adından sizə ürəkdən gələn təşəkkürümü bildirirəm!

Milli-azadlıq hərəkatında—Azadlıq meydanının yaddaşında Bəxtiyar Vahabzadə sözü, Bəxtiyar Vahabzadə varlığı, Bəxtiyar Vahabzadə taleyi də var. Və sizin həyatınız yaşadığınız həyatdan daha çox yazdığınız həyatdır. Yazdığınız şerlər sizin vicdan səsinizdir.

Zamanın gərdişinə sıxılan, əzab çəkən insanların sizə üz tutmasından da təbii nə ola bilər?

Amma mən də daxil olmaqla o insanlar bir həqiqəti unudurlar: Bəxtiyar Vahabzadə azadlıq şairidir. Milli dövlətçiliyin ağır, ziddiyyətli tarixi yollarının şairi kimsə başqa adamdır. Adamların, xüsusilə müəllimlərin yerini səhv salmaq olmaz. Bu gün çəkişmədə olan Cəbhəçi dostlarım Əbülfəz bəyə münasibətdə eyni həqiqəti qəbul etmək zorundadır. Mücadilə müstəviləri də mücadiləçi insanlar

kimidir. Onların yeri səhv düşməməlidir. Onların yaratdıqları məktəb, Azərbaycan tarixindəki missiyaya obyektiv yanaşmasaq, gələcək qarşısında suçlu biz olacağıq. Mənim şer zövqüm nöqsanlı, subyektiv ola bilər. Amma milli duyğum, milli fikrim və milli əqidəm nöqsanlı, subyektiv ola bilməz. Bu cümlədəki "mən" sözü şərtidir. Və hamıya aiddir. Bəxtiyar müəllim, günlər keçdikcə, illər bir-birini əvəz etdikcə bir həqiqəti daha çox anlayıram: biz bir millət, bir xalq olaraq bir-birimizi sevməyə məhkumuq. Biz bir tarixi dövrü yaşamağa və yaratmağa da məhkumuq. Və bütün ağırlığına, faciəsinə baxmayaraq, Azərbaycan yalnız zamanca deyil, həm də keyfiyyətcə, tarixi dəyərcə irəli getmişdir. Nə qədər paradoksal olsa da, bu belədir. 70 illik durğunluqdan sonra Azərbaycan bu son 13-14 ildə çox böyük məsafə keçib.Siyasi dustağı, bağlanan qəzeti, ac-yalavac insanı, arayış və axtarışı ilə Azərbaycanın dünya kontekstindəki yeri dəyişir. İnanmayanlar indiki gəncliyə, indiki demokratik siyasi məktəbə, indiki qələm əhlinə, xüsusilə qəzetçilik məktəbinə diqqətlə baxsın. Yolumuz dəyişməyib. Yorulmuşuq, amma fikrimizdən dönməmişik. Əzab çəkirik, amma ölmək istəmirik və ölməyəcəyik. Lap elə sabah təzə adam kimi doğulmağımıza inanırıq, Bəxtiyar müəllim!

... Üç şəxsiyyətin siması bir-birinə çox bənzəyir:—Şəhriyarın, maestro Niyazinin və Sizin. Əzabkeş, dərdli baxışlı bu üç kişi uzaqlara baxan ümidli adamlardır.

Bu gün siz dünyaya gəlmisiz. Şir bürcünün bitməsinə bir həftə qalmış Şəkidə dünyaya gələn bu insan XXI yüzillik Azərbaycan mənəviyyatının ağsaqqalıdır. Ağsaqqalların doğum günü millətin doğum günü kimi əzizdir.

Sizi bağrımıza basıb öpürük. Yanlışlarımızı bağışlamağı rica edirik. Bütün tələbələriniz kimi mən də inanıram ki, Şuşanı geri alan günü Siz yenidən doğulacaqsınız...

O gününüz qutlu olsun!

«Yeni Müsavat», 16 avqust 2000-ci il.

Mürşüd MƏMMƏDLİ

KİMDİR MÜQƏSSİR?

BƏXTİYAR VAHABZADƏNİN TƏZƏ ŞERLƏRİ HAQQINDA

Dənizin ləngəri tufandan, mənəvi ağrılar vicdandan, nifrətin sonu üsyandan keçir.

Bəxtiyar Vahabzadənin bütün poeziyasında, dramaturgiya və publisistikasında biz qəzəbdən yoğrulmuş tufana, ağrılardan haray qoparan vicdana və dözümsüzlükdən, çıxılmazlıqdan şiddət edən üsyana rast gəlirik. Bunların hamısı nəticə etibarilə narahat, qiyamçı bir ruha çevrilir və bizi zaman-zaman həyatın nizamsızlığına (disqarmoniyasına) qarşı fəal vətəndaşlıq mövqelərindən qovğalara səsləyir. Bu cəhətdən şairin təzə şerləri də həmin etirazçı, üsyankar ruhun ehtirasından, yanğısından qopan qığılcımlardır.

Şər tüğyan edən məmləkətdə şair üsyan qaldırır. H.Heyne, Ş.Petefi və Ə.Sabir kimi. Əsl milli şairlərin tale yolu Şərlə qovğadan keçir.

Ali mənsəb sahiblərinin xeyir-duasını qazanan, onlardan imtiyazlar qopardan və üstəlik şər müəlliflərinə mədhiyyələr oxuyan şairlərin, millət, xalq adından danışmağa mənəvi haqqı yoxdur. Beləliləri yüksək ad-san, rütbə-mənsəb qazansalar da, yerüstü dünyalarını dəyişəndən sonra millətin qan yaddaşına keçə bilmirlər. Olsa-olsa tarixin yaddaşında arxiv poeziyasının müəllifləri kimi qalırlar.

Bəxtiyar Vahabzadə ölkədə gedən proseslərə heç vaxt biganə qalmayıb. Bəzən olaylara və şəxsiyyətlərə münasibətdə ziddiyyətli mövqe də, hətta mən deyərdim ki, konyuktura da nümayiş etdirib və belə məqamlarda onun sənətinin çoxsaylı pərəstişkarlarının haqlı qınağına düçar olub, ancaq bütövlükdə o, özünün poetik amalına heç vaxt üzüdönüklük göstərməyib.

Şairin "Azərbaycan" jurnalında (1999 N1) dərc edilmiş şerləri bu həqiqəti bir daha təsdiq edir. "Haqqı", "Güman qalıb Allaha", "Mənim fərqim varmı heç!", "Dükandar müəllim", "Qul bazarı" kimi şerlərdə Azərbaycan gerçəkliyinin düyünlü ziddiyyətlərinə şairin fəal vətəndaşlıq münasibəti əks olunmuşdur. "Haqqı" şerində şairin 60-cı illərdəki yaradıcılığına xas olan ifşaçılıq, üsyankarlıq ruhu sezilməkdədir. O

zaman Bəxtiyar Vahabzadə müstəmləkə rejiminin xalqa sarsıdıcı təslimçilik ruhuna və əxlaqına qarşı çıxırdı. Bəs müstəqillik qazanılandan sonra xalq nə üçün "yağışdan çıxıb yağmura düşdü?" Müstəqillik illərində də bu xalq sürünməyə məhkum ediləcəkdisə, bu ali qismət naminə qan tökməyə, yetmiş ilin əzablı yolunu keçməyə dəyərdimi?

İstiqlal qazandıq, üzlər gülmədi,
Qaynaqdan bulanan su durulmadı,
Bir günlük, bir aylıq sevinc olmadı
Yetmiş il çəkilən zillətin haqqı.

Bu bəndin hər misrasında istiqlal savaşına qalxan millətin çağdaş durumundan doğan peşmançılıq, məyusluq və ümidsizlik motivləri ifadə olunur. Azadlığı və istiqlalı uğrunda taleyin "ildırımlı yolları"ndan keçən xalq indi öz istiqlalının girovuna çevrilib. Qan bahasına əldə edilən müstəqil dövlət azadlığa qənim kəsilmiş bir qrup talançının inhisarına keçib. Hakimiyyətdə xalqı talançı tayfa təmsil edir. İnqilabın nəticələrindən dələduzlar bəhrələnir. Bu azmış kimi, üstəlik qara əməllər xalqın adından həyata keçirilir. Həmin əməllərə demokratiyadan mavi rəngli don da geyindirilir.

Bu xalqı talayan bəxti yeyinlər
Bu xalqın adından nitq deyirlər.
Onlar tulanı da əzizləyirlər,
İnsana verilmir bir itin haqqı.

Müstəqil dövlətin vətəndaşına bir itin haqqı verilmir. Ölkə sakinləri sahibsiz itlərin vəziyyətinə salınmışdır. Bu tragik məzhəkənin müəlliflərı kimlərdir? Şair onların ünvanını göstərmir. Lakin ərsəyə çatmış qəmdən yoğrulmuş misralarda həmin müəlliflərə qarşı bir üsyan ruhu duyulmaqdadır. Müstəqil dövləti orta əsrlərin barbarlıq üsulları ilə idarə edənlər mənəviyyat işığı söndürülmüş, ruhsuz, qansız və vicdansız adamlardır. Xalq yenidən cəngəllik qanunları ilə idarə olunur, sancaqlıqlara, bəylərbəyliklərə, feodallıqlara bölünür, onun günü qara əskiyə bükülür, xoşbəxt tale ilə bağlı arzuları dəmir əllərin istehsal etdiyi kirkirədən keçirilir.

Deyəsən, zamanın çarxı tərsinə fırlanır, işlər tərs-avand olur, orta əsr feodal əxlaqının və zehniyyətinin daşıyıcıları demokratiya və müstəqillik uğrunda mübarizlərin sırasına qatılır, tayfa-qəbilə maraqlarının

təmsilçiləri dövlətçiliyin qarantı elan edilir. Bu azmış kimi, bəxti hər kəsdən yeyin olanların adı parkların lövhələrində, özü postament üzərində əbədiləşdirilir. Qan yaddaşında da əbədiləşəcək, milləti qanla suvaran cuvar kimi. "Millətə bir itin də haqqını verməyənlər" ancaq bu surətdə, bu şəkildə qalır. "Heç demə, ən böyük haqsızlıq imiş, haqqını istəyən millətin haqqı" misralarında çağdaş Azərbaycanın minkirlənib boğulan həqiqətinin qışqırtısı eşidilir. Bu şerlərin yazılma tarixi altında haqsızlığın tüğyan etdiyi 37-ci ili də qoymaq olar. Bəs onda nə dəyişib? Qəzetlərin sayı artıb, söz boğanağı yaranıb, əxlaq liberallaşıb, mənəviyyat yoxsullaşıb, yalan Azərbaycan adlı bir səhnənin baş rejissoruna çevrilib, siyasətçilər söz qovğasında at bağrı çatladır, digər tərəfdən iqtisadiyyat dağılıb, didərginliyin coğrafi məkanı genişlənmiş, ölkə qul bazarına çevrilmiş, hakimiyyətin başdan ayağa korrupsiya və rüşvətxorluğa qurşanması milləti bütün dünyada rüsvay etmiş, onun insan kimi yaşamaq haqqı maneəsiz, müstəqil əmək haqqı ilə əvəzlənmiş, mübarizə ruhu söndürülmüşdür. Budur, müstəqilliyin və demokratiyanın Azərbaycansayağı özəllikləri.

Şair milləti qarabəxt edənləri, sərvətini xaral-xaral daşıyıb onu quru yerdə qoyanları "alçaq" adlandırır və haqlı olaraq bu qənaətə gəlir ki, onlar gec-tez haqq divanı qarşısında cavab verəcəklər:

Millətin qanını ey soran alçaq,
Bu günə öyünmə, dön sabaha bax.
Qorxudur, hürküdür, şübhədir, ancaq,
Rüşvətlə yığdığın sərvətin haqqı.

"Qürbət-vətən" şerində "bir loxma əppək" üçün vətəni tərk edənlər şairin qınaq hədəfinə çevrilir. Vətəndə yaşamaq haqqı alınanların qürbətdə göz yaşları tökərək ruzi qazanmalarına irad tutmağa şair bəlkə də haqlıdır. Lakin öz haqqını tələb edənlər vətəndə addımbaşı polis dəyənəyi ilə üzləşirlərsə, zindanlara atılırlarsa, onda neyləmək? Təbii ki, zora qarşı xalqın konstitusiya və insan haqları çərçivəsində müqavimət hissi formalaşmalı, ölkədə qayda-qanun yaratmaq səlahiyyətlərini o öz üzərinə götürməlidir. Çünki hakimiyyətin taleyini həll etmək hüququ yalnız və yalnız xalqa məxsusdur. Əgər ölkənin məzlumları nicat yolunu köçkünlükdə, didərginlikdə tapsa, vətən taleyin və bir də tayfa gəmiricilərinin ümidinə qalar, o adi coğrafi məkana çevrilər. Millət xeyirdə də, şərdə də yumruq kimi birləşməli, onu vətəndən perikdirənlərə barmaq silkələməyi bacarmalıdır.

Hələ 1991-92-ci illərdə şair "Atatürk" şerində belə bir sualla oxucusuna müraciət edirdi:

Nədir arzum, diləyim tanrıdan imanla bu gün?
Talanan, bağrına dağlar çəkilən xalqım üçün:

Yeni fikrin küləyindən qoca
millət darana,
Bizi birləşdirəcək bir Atatürküm yarana!

Təəssüflər olsun ki, "bizi birləşdirən Atatürk" yaranmadı. Zəngin siyasi təcrübəyə və potensial təşkilatçılıq enerjisinə malik şəxs də hakimiyyət piramidasına yiyələndikdən sonra özəl maraqlara xidmət etdi, milli əhəmiyyətli problemlərin heç biri öz həllini tapmadı. Xalq sahibsiz bir yetimin taleyini yaşamağa məhkum edildi. Bütün millət kimi, milli şairimizin də arzusu gözlərində qaldı. Eyvah, "bu qaranlıq gecənin hələ sonu görünmür, səhər dönür axşama, gecə səhərə dönmür" ("Güman qalıb Allaha").

Şair də bizim hər birimiz kimi haqlı olaraq düşünür ki, "Ümidə də güman yox, ümid gümandan baha, üzlər göyə dikilmiş, güman qalıb Allaha".

Ehtiyacın və aclığın sümük əli milli mənəviyyatda əxlaqın,—adamı insana çevirən son işartılarını da söndürür. Milli şüurda patoloji dəyişikliklər baş verir, o kölə zehniyyəti ilə əvəz olunur. Belə olmasaydı, müqəddəs məzarlardan və ocaq yerlərindən keyləşmiş dilənçi qaçqınımıza aşağıdakı misralar ünvanlanmazdı.

"Xoşbəxtəm" deyənlərə dilənçi qaçqınımız
Çadırından hay verir.
Ona bu "xoşbəxtliyi" bəxş eləyən kəslərə
Öz ömründən pay verir.

Ləyaqətsizliyin vərdişə, sürünərək yaşamağın əxlaq normasına çevrilməsi bizim hamımız kimi ünlü sənətkarı da yeni, həlli müşkül olan problemlərlə üzləşdirir. İçində olduğumuz makromühitin pozğunlaşması, aşınması nəticəsində:

Alçalmağı heç kəsin toxunmur vüqarına,
Qol götürüb oynayır bu millət acqarına.
Bir-birinə uyuşmur sözümüzlə işimiz,
Toyda ağı söyləyib, yasda küsüşürük biz.

Çarəsizlik və ümidsizlikdən törəyən xofun nəticəsidir ki, qaçqın soydaşımız Allahın şəriksiz mülkiyyəti olan ömrü Allahın özünə yox, onun bəndəsinə bəxş edir. Belə bir addım tanrıya qarşı asilikdir, mürtədlikdir, qaçqın qardaş! Bundansa, ömrünüzə balta çalanların əlindən ovxarlı silahını alın və onu düşmənlərimizin başı üzərinə qaldırın. Öz faciəsinə gülən və bu faciədən qaynaqlanan musiqiyə əl qaldırıb oynayan canlıya insan, məxluqa millət demək olarmı? Çətin!

"Neçin" şeri də öz ideya pafosu ilə "Haqqı" şeri ilə səsləşir. Burada da istiqlal savaşının nəticələrindən doğan bir bədbinlik notu duyulmaqdadır:

İstiqlala qovuşduq ümidlər doğrulmadı,
Köhnə hamam, köhnə tas, mən dediyim olmadı.
Saplarımız çürükmüş, vurduğumuz yamaqda,
Ümidləri, inamı zaman puç etdi neçin?

Ümidləri, inamları zamanmı puç etdi, Bəxtiyar müəllim?

Qətiyyən yox! Xalqı müstəqilliklə bağlı xoş günlərin şirin əzabından azad edən və onu tayfa hakimiyyətinin girovuna çevirən "xilaskarı" Siz də tanıyırsınız, ustad! Yaradıcı ömrünün qırx ilini milli istiqlala namusla sərf etmiş vətəndaş şair ümidlərin, inamların puç olmasına dözə bilməz. Dözsə, köhnə hamam içində millətin başında dəlləklik edənlərə göz ağartmasa, o, milli şair ola bilməz.

"Çadır körpələrinin soyuqdan əsdiyini görən" şair "isti yatağında yata bilmir".

Hakimiyyətdəkilər də yatmasaydı, onların da gözlərinə qor dolsaydı, Qarabağ çoxdan qaytarılar, körpə balalarımız körpəliklərinə layiq məsud bir ömür sürərdilər. İndi isə, düşmənin təcavüzü nəticəsində "damsız qalan körpələr", "ucalmalıykən" alçalmaqdadırlar ("Mənim fərqim varmı heç"). Neftimizin hərarətində isə didərginlərimiz yox, əcnəbilər qızınır. Göründüyü kimi, hədəfdə yenə də hakimiyyətdəkilərdir. Millətin əyilmiş qaməti üzərində ucalanlar millət öz qamətini dikəldəndə alçalacaqlar. Rollar dəyişəcək. Buna heç kəsin şübhəsi olmamalıdır. Balalarımızın mənəviyyatında sübh işığı yandıran müəllim aylarla maaş ala bilmədiyindən (maaşın nədir ki!) borc içində boğulur, ailəsini dolandırmaq xatirinə dükandarın bağını belləməyə razı olur ("Dükandar müəllim"). Günümüzün acınacaqlı təzadına fikir verin: müəllim dükandar ağanın qapısında rəncbərlik edir. Zamanın təkəri tərsinəmi fırlanır,—yox, bu mümkün deyil. "Bunun da baisi gərdişi-dövran"dırmı? Qətiyyən yox! Baiskar hazırkı antimilli

rejimdir. Söz sahiblərini, o cümlədən yaradıcı elitanı da pulla, mükafatla, ad və titullarla "şərəfləndirən" və bu üsulla onları susduran rejim! Şərin ünvanı dəqiq nişan verilməlidir. Bəxtiyar müəllim! Siz hələ 60-70-ci illərdə kommunist rejiminin oğlan çağında bəzən müdrik Ezopun dililə, bəzən də birbaşa, açıq şəkildə millətin haqqını müdafiə edirsiniz. Sizin yazı ədanızda, hadisələrə o zamankı münasibətinizlə indiki münasibətiniz arasında heç bir fərq görünmür. Səməd Mənsur demiş, əldə həmin qırmanclar, toxlar yenə o toxlar, aclar yenə o aclardır. Fərq yalnız ondadır ki, qırmanclar yenisilə əvəz olundu, adlar, ünvanlar dəyişdi, mahiyyət dəyişmədi. Hələ dörd il bundan öncə yazdığınız kimi:

Yenə rəzalətə aparır bizi
Dalğalar qoynunda çırpınan qayıq.
Yalanlar sındırdı mənliyimizi,
Çəpiklə təpiklər arasındayıq.

600 il bundan əvvəl qaragüruhçular Nəsimini məskunlaşdığı əqidə zirvəsindən endirmək üçün dərisini soydular. İndi də eynən vətəndaşlarımız soyulur, söyülür və döyülür—itaətdə, ibadətdə saxlanmaq üçün. Üstəlik əzəmətli, həşəmətli iqtidarımızın kəramətində cəmiyətin özündə və əxlaqında quldarlıq əyyamının vərdişləri bərpa olunur. Şair vicdan ağrısı ilə:

Gəldi başımıza min qan, min qada,
Bunlar tarixdən də bizə tanışdı.
Bəşərin quldarlıq zamanında da
Bu millət qul alıb, qul satmamışdır.

("Qul bazarı")

Müstəqillik hara, qul bazarı hara? Bu əcaib paradoksu, bir-birinə yovuşmaz təzadları üç rəngli bayrağının altında kimlərdir yaradan? Ünvan bəllidir.

Vətən özü boyda hərrac bazarına çevrilib: burada hər şey hərraca qoyulur—torpaq da, neft də, pambıq da, kürü də, bir neçə nəslin ömrü bahasına tikilmiş otellər də, zavodlar da.

Satdıq Qarabağı, uf demədən biz,
Satdıq otelləri, zavodları da.
Min cür sərvətimiz, var-dövlətimiz
Satıldı, el qaldı quruca yurdda.

Boz, kürən, qara və qırmızı başçılarımız indi satışa milli mənliyi çıxarırlar. Şairin vicdanı bu məqamda haray və üsyan qaldırır, milli ləyaqətsizliyə doğru atılan addımın qarşısını almağa çağırır.

Ünvan ləkələndi, ad ləkələndi,
Tapdandı minillik şərəf də, şan da.
Amandır, qoymayın, satılır indi
Millətin mənliyi qul bazarında.

Millət millətdirsə, ən çətin məqamlarda da öz mənliyini qoruyub saxlayacaq, yox kölədirsə, bundan rəncidə olmağa dəyməz, çünki kölənin mənliyi olmur.

Ustad sənətkarın yeni şerləri içərisində əvvəlki onilliklərin gənclik ehtirası ilə yazılmış əsl poeziya nümunələri diqqəti cəlb edir. Lirik-minor notlar üzərində köklənmiş "Sən tökülən kalıma bax", unudulmaz Xudu Məmmədlinin xatirəsinə həsr olunmuş "Çox imiş", "Məndən xəbərsiz" kimi şerlərdə ömrün müxtəlif fəsillərinə, varlığın həyat-ölüm və zaman adlı ədəbi problemlərinə poetik fəlsəfi baxış ifadə olunur. Bəxtiyar Vahabzadənin təzə şerləri onun yaradıcı mənəvi enerjisinin tükənməzliyindən və həmin enerji qaynağının gəncliyindən xəbər verir. Bu, böyük istedadlara xas olan bir keyfiyyətdir. Şair şər mənbəyi olan rejimlə müxalifətdədir. Məqalənin başlığına çıxardığımız "Kimdir müqəssir?" sualına şairin təzə şerləri aydın cavab verir: özünün siyasi-hüquqi qurumları ilə xalqın müsibətinin mənbəyinə çevrilmiş indiki rejim!

Bəxtiyar müəllim öz yaradıcılıq qayəsinə sadiq qalaraq mənəvi intibahımız və milli ruhun dirçəlişi, pərvazlanması uğrunda ikinci nəfəslə mübarizə aparır və həmişəki kimi yenə də söz sahiblərinin önündə gedir. O, öz Yoluna qayıdır,—şərlə, mənəvi işğal və təslimçiliklə güzəştsiz mübarizə yoluna. Yeni qiyafədə çıxış allahsızlığa, iblisə, mefistofelçiliyə və ibtidai mağara sakinlərinin zehniyyətinə qarşı mübarizə zərurəti bu yolu seçməyi ondan tələb edir. Bu yolda böyük şairimizə, poeziyamızın canlı klassikinə uğurlar diləyirik. Amin!

«525-ci qəzet», 4 iyun 1999-cu il.

Samir MEHDİZADƏ

"BİR ÖMÜR YUXU"

(redaksiyaya və şairə oxucu məktubu)

Hörmətli redaksiya! Çox xahiş edirəm mənim bu kiçik, lakin ürəkdən gələn yazımı çap edəsiniz.

Müsahibələrinin birində Ə.Elçibəy demişdi ki, "Milli şüurun oyanmasında Bəxtiyar Vahabzadənin xidmətləri əvəzsizdir". Biz 70-ci illərin tələbələri bunun şahidiyik. Həqiqətən də o zaman biz Bəxtiyar Vahabzadənin şerilə qanadlanır və gələcəyə inamla baxırdıq.

O, çox böyük ustalıqla fikirlərini xarici ölkələrə şamil edərək o zamankı DTK-nı azdırır, amma o zaman biz gənclər bu dərdlərin bizə aid olduğunu başa düşürdük. Şair özü demişkən: "Başqasının yasında öz ölüsünə ağlayırdı".

Bu yaxın günlərdə təsadüfən şairin 1998-ci ildə çap olunan "Bir ömür yuxu" kitabı əlimə keçdi. Kitab vur-tut min nüsxə ilə çap olunduğundan çoxları bundan xəbərsizdir (Kimdən soruşdumsa, bilmədi). Oxuyub heyrətə gəldim. Heyrətimin səbəbi o idi ki, mən elə zənn edirdim ki, şair artıq qocalmış, xəstələnmiş, əvvəlki ehtirasla həyatımızdakı eybəcərlikləri və xalqımızın düşdüyü bugünkü ağır dərdləri qələmə ala bilmir. Kitabdakı şerlər əsasən 1996-1998-ci illərin məhsuludur. Amma daha çılpaqlıqla həmin ehtiras, həmin çılğınlıq və həmin üsyanın şahidi oldum:

Adımı dəyişin bilinsin yolum,
Məgər bəxtiyaram, Bəxtiyar olum?
Sinəmə dağ çəkən bir belə dağla
Mən ağlar bəxtimə necə yar olum?
Millətim bədbəxtsə, mən hansı haqla,
Mən hansı ürəklə Bəxtiyar olum?

Təəccübləndim. Bəs niyə mən onun, bir şair kimi doğrudan da bədbəxt olduğundan və bu acı həqiqətdən xəbərsizəm. Sizin qəzetinizdə çap olunan tək-tək şerlərdən xəbərim vardı. Amma onun nələr çəkdiyindən xəbərsiz idim.

Əlimdəki kitabdan isə onun göz yaşları damcılayır.

Qorxu kölgəsinə sığınıb vallah,
Sədaqət, dəyanət, məhəbbət indi.
Yalan hakim olub, böhtan gözətçi,
Çürüyür zindanda həqiqət indi.

...Həftələr dəyişdi, günlər dəyişdi,
Tərəflər dəyişdi, yönlər dəyişdi.
Qiblələr dəyişdi, dinlər dəyişdi
İtə ot verilir, ata ət indi.

... Yalanlar həqiqət qiyafəsində,
Yeklər cövlan edir şeş xanəsində.
Oğrular, əyrilər zəmanəsində
Əyrilik sayılır fərasət indi.

Zəmanəmizi bundan dəqiq, bundan tutarlı necə xarakterizə etmək olar?

Elə bu günlərdə qüdrətli qələm sahibi Mürşüd Məmmədlinin "Yeni Musavat"da şair haqqında yazdığı gözəl məqaləsi ilə tanış oldum: və özümə gəldim. Demək şairmizin əvvəlki qüdrət və ehtirasla yazıb-yaratdığını məndən başqa da görənlər varmış.

"Əsarət—azadlıq" şerində ömrü boyu istiqlal arzusu ilə yaşayan şair ona qovuşandan sonra istiqlaldan umduqlarını görə bilmir və nalə çəkir:

İndi biz azadıq bizi bir zaman
Şeytandan qoruyan abır-həyadan.
Azadıq düşmənə qəzəbdən, kindən
Millət hədəf olub öz nifrətinə.
Qurtarıb özgənin əsarətindən
Düşdük özümüzün əsarətinə.

Şair düz hədəfə vurur. Sovet dövründə Sovet imperiyasının—yəni özgənin əsarətində idiksə, indi özümüzün əsarətinə düşmüşük; indi özümüz-özümüzə zülm edirik:

Yoxdur əvəzimiz yalançılıqda,
Bu ona şər atır, o buna böhtan.
Yurdu dağıtmaqda, talançılıqda
Azadıq qorxudan, Allah xofundan.

İndi Allahdan qorxmadan özümüz öz yurdumuzu dağıdır, talan edirik. Ən dəhşətlisi də budur ki, bizi əsarət quyusundan çıxardan

kəndir indi halqa olub, öz boğazımıza keçib:

Məni kor quyudan çıxaran kəndir
İndi boğazıma keçib halqa tək.

Şair həmin fikrini başqa şerində davam etdirərək yazır:

Elə bilirdim ki, azadlıq–işıq
Yalnız o qovacaq yurddan zülməti.
Aldıq azadlığı! Bəs bu azadlıq
Niyə gətirmədi o səadəti?

Həyat da, zülmət də həməndir bu gün,
Verilən vədlər tez unuduldu.
Azadlığın özü, vallah, bizimçün
İndi başqa cürə məhkumluq oldu.

Bu gün heç!...–Sabaha ümid də yoxsa
Olarmı bir qırıq könül şadlığı?
Əgər deməyə də söz qalmayıbsa,
Axı, kimə gərək söz azadlığı?

Sovet dövründə söz azadlığını həqiqətən böyük xoşbəxtlik hesab edirdik. Buyur, indi söz azaddır. Kimi istəyirsən söy, kimi istəyirsən təhqir et. Nə olsun? Bununla dərdlərimiz düzəlirmi? Biz söz azadlığı arzuladığımız Sovet dövründə nə qədər sadəlövh olmuşuqmuş! İndi o sadəlövhlüyünü görən şair bunun milləti üçün faciə hesab edib, nalə çəkir:

Belə azadlığı istəmirəm mən,
Belə azadlığı istəməz Vətən.

Ağızdolusu erməni ilə alçaldıcı kompromisdən danışaraq bizi masa dalında oturdub danışıqlara başlamağa təhrik edənlərə qarşı şairin cavabı oxucunu ayıq salır. Bu "kompromisin" bizi hara aparacağını böyük sənətkarlıqla izah edir:

Silahla sözünü deyə bilməyən
Masa arxasında nə deyəcəkdir?
Düşməni önündə əyə bilməyən
Düşməndən mərhəmət diləyəcəkdir.
Səngərdə əyilib "təsliməm"–deyən
Masa başında da əyiləcəkdir.

Qəzetlərin verdiyi məlumata görə güzəranımızın ağırlığından istifadə edən missionerlər bəzi əqidəsizlərimizi 100-200 dollar pula xristianlaşdırırlar. 200 il rus yumruğu altında olan bu xalqdan bir nəfər də xristian dinini qəbul etmədi. Amma indi 10 ildir müstəqil ölkə olmağımıza baxmayaraq 20 minə yaxın xristian dinini qəbul edənimiz var. Bu nə dəhşətdir! Bu rəzalətə dözə bilməyən şair yazır:

Tanınmaq istərəm mən öz səsimlə,
Bəsdir yaşadığım bir məhkum kimi.
Dünyanın gözünə yaxşı, pisimlə
Görünmək istərəm olduğum kimi.

Nəyəmsə mən oyam–qarayam, ya ağ,
Niyə özgəsinə bənzəməliyəm?
Özüm olmalıyam mən, özüm ancaq,
Özüm deyiləmsə, demək heç nəyəm.

Müstəqillik qazanandan sonra rus təsiri azalmaq əvəzinə gün-gündən artır. Deyilənə görə rus və ingilis məktəblərinin sayı artır. Şair bunu da görür və hirsindən xalqa hücum çəkir:

Bir vaxt rusca idi bütün reklamlar,
İndi ingiliscə dürtülür gözə.
İtin də dilinə hörmətimiz var,
Təkcə öz dilimiz yaramır bizə.

Əlbəttə, mən yalnız bir neçə nümunə ilə kifayətləndim. Amma kitab başdan ayağa qədər millətinin dərdinə odsuz-alovsuz alışıb-yanan şairin könül fəryadıdır.

Çox arzu edərdim ki, şairin adı da rəmzi "Bir ömür yuxu" kitabını ədəbiyyatçılarımız təhlil etsin, oxucularımıza çatdırıb onları düşündürsün.

Şairin şəxsi arxivindən.

Akif SALAM

O, ATA EVİNİ UŞAQLARA BAĞIŞLAYIB, QƏLBİNİ XALQA

Sevimli şairimiz Bəxtiyar Vahabzadənin şerləri, mahnıları daim dillər əzbəri olduğu kimi, onun adı-sanı, söz-söhbətləri də dildə, ağızdadır. Alimlər, şairlər, tədqiqatçılar haqlı olaraq onu əsrimizin ən böyük, ən ulu alimlərindən, müəllimlərindən, söz-sənət adamlarından biri—filosof şairi hesab edirlər. Və haqlı olaraq deyirlər ki, Bəxtiyar Vahabzadə təkcə Azərbaycana deyil, bütün türk dünyasına, bəşəriyyətə məxsusdur.

Əlbəttə, həmvətənlərinə belə bir yüksək qiymət verilməsi şəkililəri ürəkdən sevindirir. Onların qəlbində daxili bir qürur hissi doğurur. Çünki Bəxtiyar Vahabzadə bu yurdun oğludur, Şəkidə doğulub, boya-başa çatıb, burada pərvazlanıb. Doğrudur, şair yerliliyi yaxşı hal hesab etmədiyi üçün belə deyir:

"Bala anasına sevirəm deməz,
Mən də deməmişəm, Şəkim mənim!"

Lakin Bəxtiyar özü şəkili olduğunu deməsə də onun bütün canı-qanı, qəlbi-ruhu ilə Şəkiyə bağlı olduğu bilinir. Şəki və şəkililərlə sevimli şairimiz arasında əsl ana-bala, ata-oğul, qardaş-bacı məhəbbəti, xoş bir ülfət, gözəl bir ünsiyyət var. Xüsusən şəhərdəki kasıblar, binəsinlər, arxasızlar daim ona güvənir, onu özlərinə arxa, həyan hesab edirlər.

Təsadüfi deyil ki, böyük ustad hər il yay istirahətini ana yurdu, ata ocağı Şəkidə keçirir. Şəkiyə gələn kimi isə birinci olaraq ata-anasının, ulularının uyuduğu məzarları ziyarət edir, ata evinə baş çəkir. Şairin ata evi əslində qədim Şəkinin yerləşdiyi, indi isə mərkəzdən nisbətən uzaq, şəhərin Yuxarıbaş deyilən hissəsindədir.

Bəxtiyar müəllim indi orada yaşamır. O, hələ 70-ci illərdə ata mülkünü bizim balalarımıza bağışlayıb. Bəxtiyar müəllim hələ o vaxt hiss edirdi ki, yerli hökumətin həmin ərazidə bağça tikmək imkanı yoxdur. İmkansız ailələr isə bundan əziyyət çəkir. Ata-anası işə gedən uşaqlar yolda-irizdə qalır. Buna görə də şair öz qəlbinin hökmü ilə ata evini təmənnasız olaraq hökumətə bağışlayır.

Hal-hazırda Bəxtiyar Vahabzadənin doğulub boya-başa çatdığı evdə Şəki şəhər 3 saylı uşaq bağçası yerləşir. Orada əlliyə qədər uşaq tərbiyə alır.

Bağçanın yeni sakinləri, qonşular deyirlər ki, Bəxtiyar müəllimin bu evdə yaşayıb-yaşamadığı hiss olunmur. Çünki o daim bağça kollektivi ilə sıx əlaqə saxlayır. Orada yaşayanlara lazımi köməklik göstərir. Məhz onun qayğısı və diqqəti sayəsində binanın üst örtüyü təzələnmiş, otaqların döşəməsi təmir olunmuşdur, binanın daimi suyu, işığı və telefonu var.

Uşaq bağçasının müəllim və tərbiyəçiləri, valideynləri haqlı olaraq deyirlər ki, sevimli şairimiz ata evini balalarımıza verib, ürəyini, qəlbini, ruhunu isə xalqına bağışlayıb.

İndi bağçanın müəllim və tərbiyəçiləri ona nail olmağa səy göstərirlər ki, balalarımız daim şairin arzu etdiyi kimi Vətənə məhəbbət, istiqlalımıza hörmət ruhunda tərbiyə olunsunlar. İndi müəssisənin kollektivi təşəbbüs qaldırmışdır ki, həmin uşaq tərbiyə müəssisəsinə Bəxtiyar Vahabzadənin adı verilsin.

Bu, şairin qəlbinin böyüklüyünü, humanizmini göstərən çoxsaylı epizodlardan biridir. Belə ibrətamiz hadisələr isə onlarla, yüzlərlə, minlərlədir. Hamıya məlumdur ki, Şəki Böyük Qafqaz sıra dağlarının qoynunda yerləşir. Bu yerlərin sakinləri həmişə sel sularının törətdiyi təbii fəlakətdən, daşqınlardan olmazın əzab-əziyyət çəkirlər. Hər il yaz-yay ayları gələndə Şəkinin, şəkililərin canını qara qayğı alırdı. Sel təhlükəsi "Domokl qılıncı" kimi bu yurdun sakinlərinin başının üstünü kəsdirir, körpüləri dağıdır, evləri yuyub aparır, yol-irizi keçilməz hala salırdı. Keçən onilliklərdə baş vermiş təbii fəlakət isə insan tələfatı ilə nəticələnmişdi. Bu məsələni həll etməyə yerli hakimiyyət orqanlarının gücü çatmadığı üçün onlar öz böyük eloğullarına—Bəxtiyar müəllimə müraciət etdilər. Bəxtiyar müəllim bu məsələni Nazirlər Kabinetinə, Prezident Aparatına qədər qaldırdı. Və Şəkini sel təhlükəsindən xilas edəcək hidrotexniki qurğunun inşa olunmasına nail oldu.

İndi qədirbilən şəkililər deyirlər ki, Şəkini sel təhlükəsindən Bəxtiyar müəllim xilas etmiş, ona yeni əbədi həyat bəxş etmişdir. Uzunluğu 5 kilometr, layihə-smeta dəyəri 17 milyard manat olan seldən mühafizə bəndi məhz xalq şairi Bəxtiyar Vahabzadənin öz elinə, obasına qayğısı, diqqəti sayəsində araya-ərsəyə gəlmişdir.

Xalqımız, el-obamız qədirbiləndir. Nə xeyirxahlıq unudulur, nə də xeyirxah insanlar. Buna görə də şəkililər yenidən xalq şairi Bəxtiyar

Vahabzadənin Milli Məclisə namizədliyini irəli sürmüşlər. Bəxtiyar Vahabzadə Şəkini, şəkililəri ürəkdən sevdiyi kimi, şəkililər də Bəxtiyarı çox sevirlər. Söhbətimizə şairin öz sözü ilə nöqtə qoyuruq:

Nə qədər məsafə arada olsa,
Ürəkdən-ürəyə yenə də yol var.
Tapar bir-birini harada olsa,
Zövqü, xasiyyəti eyni adamlar.

«İki sahil», 16 sentyabr 2000-ci il.

Şirməmməd HÜSEYNOV

ŞAİRİN FƏHMİ, ZAMANIN HÖKMÜ

"Bakinski raboçi" qəzetinin bu ilin 22 noyabr tarixli sayında yarım əsrlik məslək və əqidə dostum, xalq şairi Bəxtiyar Vahabzadənin "On yeddi dekabr" adlı şeri dərc olunmuşdur. 11 il bundan əvvəl həyəcanlı dekabr günlərində qələmə alınmış şerin rus dilinə tərcümə edilərək dərc olunması əlamətdar hadisədir. Müəllifin şerin yaranması və ithafı ilə əlaqədar belə bir qısa qeydi də verilmişdir: "Şerin dekabrın 17-də anadan olmuş professor Ş.Hüsyenova həsr olunması bir dəstəvuz (ulovka) idi. Sovet təhlükəsizlik orqanları və senzuranın diqqətdən yayınmaq üçün belə bir üsula əl atmışdım. Həqiqətdə şer 1986-cı il dekabrın 17-də Mərkəzin imperiya siyasətinə qarşı ayağa qalxmış qazax qardaşlarıma təbrikim idi".

Mən hörmətli dostumun bu qeydi ilə tamamilə şərikəm. Ancaq bircə qeydim var. Məncə "təbrikim" əvəzinə "təbrikimiz" deyilsəydi daha dəqiq və dürüst olardı. İndi isə bu şer necə yaranmışdı?

1985-ci ilin martında Sov.İKP-nin baş katibi seçilmiş M.S.Qorbaçovun elan etdiyi yenidənqurma və aşkarlıq siyasəti bizim də ürəyimizcə idi. "Biz yaşadığımız cəmiyyəti yaxşı tanıyırıqmı?", "Totalitar inzibati-amirlik sistemindən demokratik inkişaf yoluna keçmək vaxtı çatmamışmı?", bu və buna bənzər suallar, haqsızlıqlar barədə mərkəzi mətbuatda dərc olunan yazılar, çıxışlar, hərənin qəlbində min-min arzu oyatmışdı. Sovet imperiyası təkcə aşağıdan deyil, lap yuxarıdan, lap dibdən yavaş-yavaş çalxalanırdı. Belə bir vaxtda Alma-Ata hadisələri baş verdi. Rəsmi informasiya və məlumatlardan uzun müddət Qazaxıstan partiya təşkilatına rəhbərlik

edən D.Kunayevin bu vəzifədən azad edilib, yerinə milliyətcə rus olan Kolbinin təyin edildiyini bilirdik. Bəs Alma-Atada həqiqətdə nələr olmuşdu? Göstərim ki, rəsmi dairələrin bu tarixi hərəkəta, onun iştirakçılarına qarşı uydurduqları bizə indi də tanış olan böhtan və uydurmaları əsl həqiqətin üstünü örtə bilmədi.

Yenidənqurma və aşkarlıq dövrünün ilk açıq milli oyanış və dirçəliş hərəkatı "qaranlıq üfüqdə bir şimşək kimi çaxdı". Qazax tələbə-gənclərinin cəsarətli, qəhrəmancasına çıxışları bizdə də inam və ümid hisslərini gücləndirdi. "17 dekabr" şeri də bu günlərdə yarandı. Bəxtiyarla demək olar ki, hər gün Dağüstü parka gedir, həm gəzişir, həm də sərbəst fikir mübadiləsi edirdik. Alma-Ata hadisələri dekabr günlərinin əsas mövzusu idi. Axı sönmüş kimi görünən ocaqlara köz düşmüşdü, lal axan çayların altından qaynayan sular görünürdü". Şairlə öz ürəyimizi boşaltmaq, mövqeyimizi, həmrəyliyimizi bildirmək yollarını və formasını axtarırdıq. Alma-Atadakı tarixi hadisə təsadüfi olaraq mənim anadan olduğum günə, 17 dekabra düşmüşdü. Bu faktı Bəxtiyara dedim, hətta pasportumu göstərdim. Deməli, senzuradan və ola biləcək söz-söhbətdən yayınmaq yolu tapıldı. Şer mənə həsr olundu, əsl ünvan "Şər imperiyasına" qarşı açıq vuruşa çıxıb şəhid olan, həbsxana künclərinə atılan, ali məktəblərdən qovulan və təqib olunan qazax gəncləri, milli mücahidləri idi. Həmçinin düşüncələrimizi, ümidlərimizi, şair ona xas olan fəhmlə, uzaqgörənliklə poetik dillə ifadə etdi.

1987-ci ilin noyabrında rəsmi dairələr tərəfindən Alma-Ata hadisələrində ittiham edilən və təqib olunan məşhur qazax şairi, yazıçı və alim-publisisti Oljas Süleymenov gəlmişdi. Bəxtiyarın qonağı idi. Çox maraqlı, yadda qalan görüşlərimiz oldu. Bəxtiyarın ətrafında cəmləşmiş ziyalılarla, dostlarla Oljas arasında mənəvi bir yaxınlıq vardı. Bəxtiyarın "17 dekabr. Dostum Ş.Hüseynova" şerilə Oljası tanış etdik. Bu həmrəylik və qardaşlıq hisslərini yüksək qiymətləndirən Oljas Bəxtiyarın elə 1986-cı ildə Moskvada rus dilində çapdan çıxmış "Bir gəminin yolçularıyıq" kitabını götürüb üstünə öz dəst-xəttiylə aşağıdakı sözləri yazıb mənə verdi: "Nəcabətli müəllifin adından və onun icazəsi ilə dəqiqələr ərzində adama mərhəm olan yeni dostum—Şirməmməd müəllimə. Oljas Süleymenov, 23 noyabr 1987".

Müstəqil Qazaxıstan hər il dekabrın 17-sini tarixin əlamətdar hadisəsi kimi qeyd edir. Biz də qardaş xalqın anma gününə, müstəqillik yolunda göstərdiyi şücaət və qətiyyətə hörmət və məhəbətimizi bildirməyi borc sayırıq.

«525-ci qəzet», 17 dekabr 1997-ci il.

Mürşüd MƏMMƏDLİ

USTAD

(Bəxtiyar Vahabzadənin ad gününə bir yarpaq ərmağan)

Bəxtiyar Vahabzadənin şerimizdə ucaltdığı zirvə bu gün türk dünyasının hər yerindən görünür. O, 76 illik ömrünün əlli ildən artığını girov qoymaqla bu zirvəni fəth edib. Şairin poeziyası dərinliklərdən ucalığa, keşməkeşli və uzun bir yol keçib.

O, yaradıcılığı ilə bir həqiqəti sübut etdi ki, kökü dərinlərə—torpağın alt qatlarına işləməyən ucalıq zirvəsinə çevrilə bilməz.

Bəxtiyarın ucalığının səbəbi də ana torpağa—şəhid və ərən qanı ilə suvarılan bu tanrısal nemətə səcdəsində, onun diz çöküb əyilməyindədir. Ustadlar ustadı Füzuli deyib:

Sərvərlik istər isən, üftadəlik şüar et,
Kim, düşməndən əyağa, çıxmadı başə badə.

B.Vahabzadə xalq şairindən daha geniş və daha əhatəli məzmun ehtiva edən milli şairdir. XX yüzilliyin əvvəllərində yeni fikirlərə, siyasi-mənəvi təlatümlərə hamilə olan Azərbaycan cəmiyyəti Sabiri, əsrin müdriklik çağlarında isə Bəxtiyarı dünyaya gətirdi. Bu baxımdan Sabir Bəxtiyarın qanuni, mənəvi atasıdır. O da təsadüfi deyildir ki, Bəxtiyarın siyasi-ictimai məzmunlu şerlərində istiqlalçı şairlərin *(Mehmet Akif Ərsoy, Tofiq Fikrət, Əhməd Cavad, Almaz İldırım və b.)* hamısından daha çox Sabirin hayqırtıları ilə fəryadları duyulmaqdadır. Amma bədii-fəlsəfi və siyasi fikrin nəhənglərinin insanı gözəllik uğrunda qovğalara ruhlandıran səsləri içərisində Bəxtiyarın təmkinli, bəzən isə faciəvi avazı aydınca seçilir:

Asılmışam dözümdən,
Dərddir axan gözümdən.
Mən qaçmışam özümdən,
Hardan tapdı qəm məni.
Bu zülmün, bu zillətin
Sonunu görmək çətin.

Vəkil etdi millətin
Çəkdiyi sitəm məni.

Nümunəsini verdiyimiz şer 1968-ci ildə—33 il bundan qabaq yazılıb. Ancaq şairin millətə vəkilliyi 1954-cü ildən başlayıb. O zaman əldən-ələ, dildən-dilə gəzən "Ana dili" şerinin təzəcə çapdan çıxdığı vaxtlardan... Bayatılı, ağılı, holavarlı, laylalı dilimizin rəsmi məscidlərdən qovulduğu, müstəmləkə taleyini yaşamağa məhkum edilən xalqın ruhunun çarmıxa çəkildiyi o dövrdə şair heç kəsin bilməyəcəyi bir addımı atdı:

Siz ey doğma dilində danışmağı ar bilən
fasonlu ədabazlar,
Ruhunuzu oxşamır qoşmalar, telli sazlar,
Bunlar qoy mənim olsun,
Ancaq vətən çörəyi
sizlərə qənim olsun.

Sonralar şairin doğma dilimizin taleyi ilə bağlı qopartdığı haraylar "Latın dili" şerində, "Mərziyyə" poemasının səhifələrində dalğa ləngərini xatırladan fəryada və üsyana çevrildi:

Yadın fitvasıyla, öz gülləmizlə
Özgənin dilinə ov olan dilim.
Möhürlü, hüquqlu idarələrdən,
Daxmalar küncünə qovulan dilim.

Ali təbəqələr səni dandılar,
Sən bir ümman ikən dayaz sandılar,
Özgənin dilində xoruzlandılar,
Sən ey öz sacında qovrulan dilim.

B.Vahabzadənin Azərbaycan türkcəsinə bəslədiyi bunca həssas milli vətəndaşlıq münasibətlərinin dərin həyati-fəlsəfi ilə idraki kökləri var. Şair haqlı olaraq hesab edir ki, dil millətin mənəvi varlığı, əcdad və yaddaş tarixidir.

B.Vahabzadənin bizə verdiyi ibrət dərslərindən biri və ən əsası da odur ki, millətin mahiyyəti özünün dərki ilə özünümüdafiəsi dildə təzahür edir. Odur ki, dilimiz torpağımız və bayrağımız kimi qorunmalıdır. Ulu sənətkarımız dil uğrunda savaşını bu gün də xüsusi bir əzmkarlıqla davam etdirir.

Böyük ustadın müasirlərinə verdiyi dərslərdən biri də mənəviyyat və əxlaqla bağlıdır. Mənəviyyatsız cəmiyyət zülmətə qərq olan məmləkətə bənzər. Mənəviyyat nurundan xali fərdlər zooloji aləmin sakinləridir. Növbənöv, çeşid-çeşid cinayətlərin təməlində mənəviyyatsızlıq dayanır.

Ölkə başçısı bu gün xalqa rəhbərlik etdiyi dövrdə çökdürülən mənəviyyatın müdafiəsinə qalxır... həm də buna yetərincə mənəvi haqqı olmadan. Məgər korrupsiya, rüşvətxorluq, kazino qalmaqalları, yalançılıq, yaltaqlıq, məddahlıq, satqınlıq, milli-mənəvi dəyərlərin sürətlə aşınması, qondarma məhkəmə hökmləri və onlarca digər bəlalar H.Əliyev rejiminin millətin mənəviyyatına səpdiyi zəhərli toxumlar deyilmi? Mütəfəkkir şairin bu tipli bəlalara qarşı qaldırdığı etiraz səsi bəzən üsyana, qışqırığa, hətta fəryada, iniltiyə çevrilir, oxucunu da sosial naqisliklərə qarşı fəal vətəndaşlıq mövqelərindən mübarizəyə səsləyir.

Millətin qanıdır sərvətin, varın,
Siz öz kefinizdə, məmləkət darda.
Gecələr çadırda ac yatanların
Payını uduzun kazinolarda.

Tamahın dili yox... Dağıdın, sökün
Hələ yerinizdə cağbacağsınız.
Göydən Allah baxır, gələcək bir gün
Yediyiniz qədər qusacaqsınız.

Biz də şairlə birgə o günün addım səslərini eşidir və millətin başında turp əkənlərə qurulacaq haqq divanının çıxaracağı hökmü səbirsizliklə gözləyirik. Bəxtiyar Vahabzadə 1920-ci ildən sonra istiqlalçı nəsillər arasında qırılan əlaqələri qırx ildən sonra bərpa etməklə, həm də poeziyada, həmin nəslin hüquqi varisi olduğunu sübuta yetirdi. İkiyə bölünən millətin tarixi faciəsini də bütün çılpaqlığı və açıqlığı ilə "Gülüstan" poemasının misralarına hopdurdu. Mənəvi sıxıntılara və təzyiqlərə baxmayaraq o, sonralar da bu mövzuya dön-dönə qayıtdı. Müxtəlif çeşidli basqılara və repressiyalara rəğmən istiqlal amalından bir qarış da geri çəkilmədi.

B.Vahabzadə bütöv bir istiqlalçı nəslin ideoloqu, tərbiyəçisi və ustadı olub. Onun imzası olmadan millətin istiqlal hərəkatı yarımçıq və solğun görünər.

Bu gün o, övladı olduğu millətin özü kimi istiqlaldan və müttəfiqlərdən umduğunu ala bilmədi. Buna görə şair utandığını etiraf edir:

Biz hələ də çalxanırıq,
Əsr keçdi durulmadıq.
Kütləyik, bu çək-çevirdə
Ələnib millət olmadıq, utanıram.

Bütün ömrü boyu beynimizdə millət məfhumunun formalaşmasına, milli şüurun pərvazlanmasına çalışan və bu yolda min bir əzaba qatlaşan şair kütlənin millətə çevrilməsi üçün bir akademiyanın, güclü siyasi mərkəzin görə bilmədiyi işi gördü. Ancaq tarixin çarxı tərsinə döndü. Kommunist qafalılar Azərbaycanda yenidən at oynatmağa başladılar. Xalqımız ikinci dəfə siyasi-mənəvi işğala məruz qaldı. O, bədbəxtliyini alın yazısı kimi qəbul etdi. Bədbəxt xalqın xoşbəxt şairi ola bilməz. Bu cəhətdən Bəxtiyar millətin ən bədbəxt şairlərindən biridir. O, bu gün vicdan ağrıları ilə yanaşı, Böyük sözün də ağrısını çəkir. İçi həqiqət, iman, vicdan, aldanış və əzab dolu o söz deyiləcək və inanıram ki, o Böyük sözün də XXI yüzilliyin başlanğıcında müəllifi milli şairimizin özü olacaqdır.

«Yeni Müsavat», 23 avqust 2001-ci il.

Adil ŞİRİN

MƏNƏVİ NURUN İŞIĞINDA

Ustad şairimiz Bəxtiyar Vahabzadənin nə vaxtdan bəri dillər əzbəri olan, indi az qala atalar sözünə çevrilmiş müdrik bir poetik kəlamı var: "Yaşamaq yanmaqdır, yanasan gərək!..." Müasir Azərbaycan şerində Nəsimi, Yunis İmrə, Füzuli, Vaqif, Sabir, Hadi, Cavid kimi ulu sələflərin yaradıcılıqlarındakı ruh, ürək və can yanğısından, duyğu və düşüncə alovundan od götürüb mayalanan **MƏNƏVİ NUR** öz yığcam, dəqiq və sərrast səciyyəsini Bəxtiyar Vahabzadə qələmində tapır, onun lirik yozumunda həyatın mənasına adekvat ola biləcək bir dəyər qazanır:

Yaşamaq yanmaqdır, yanasan gərək,
Həyatın mənası yalnız ondadır...

Burada şəxsən mənim üçün bir oxucu, bir qələm adamı və nəhayət, bir vətəndaş kimi əziz və qiymətli cəhət budur ki, yuxarıdakı fəlsəfi-poetik çağırışı mənəvi baxımdan doğruldan, onun insan ləyaqətinin başlıca göstəricisinə çevirən, yalnız və sadəcə, böyük sənətkarlarımızın qüdrətli şair sözü deyildir, həm də onun zəngin və şərəfli ömür-gün yoludur.

Tariximizlə, taleyimizlə, milli intibahımızla çox sıx bağlı olan Bəxtiyar müəllimin ibrətamiz həyat təcrübəsi bir küll halında yaşayaraq yanmağın—yanaraq yaşamağın bariz nümunəsidir. Mən sənət təcrübəsi deyil, həyat təcrübəsi ifadəsini bilərəkdən işlədirəm. Çünki həmin təcrübə öz milli məzmununa, ictimai-tarixi missiyasına görə daha vüsətli, daha miqyaslıdır. Bəxtiyar Vahabzadə "möhtacı..." və "leylacı..." olduğu ideallara ancaq və ancaq poetik sözü ilə can atmayıb, həm də bir insan kimi qismətinə düşən taleylə yüyürüb. Bunu sübut etmək üçün uzağa getmək lazım deyildir, milli azadlığımız və istiqlalımız uğrunda verdiyimiz mücadilənin son illərini göz önünə gətirmək kifayətdir: Azadlıq meydanında milyonların iradə və qəzəbinə tərcümanlıq edən də, 20 yanvar faciəsinin əliqanlı cəlladının boz sifətinə şapalaq çalan da, yaxın illərin ali sovetində cilovsuz ehtiraslı ağsaqqal ərkilə ram edən və məhz bir başqası yox, Bəxtiyar Vahabzadə idi. Bu gün evinin qapısını yüzlərlə binəsibin, pənahsızın, qaçqının, köçkünün üzünə aman və güman qapısı kimi açan da yenə odur. Qarabağ probleminin həlli ilə bağlı ümumxalq təlaşına son qoymaq üçün lap bu yaxınlarda ölkə prezidentinə ünvanlanmış məktub-müraciətə atılan imzaların önündə də yenə ustad sənətkarımızın imzası dururdu.

Bizi haradasa mövzudan uzaq salan bu məqama bəlkə də toxunmağa ehtiyac olmazdı. Amma nə edəsən ki, son zamanlar meydan sulayan məkrin və cahilliyin "bəhrələrindən" böyük sənətkarımızın qismətinə də az pay düşmür. Sovet KQB-sinin və senzurasının daimi və əlacsız "baş ağrısı olan" "Gülüstan" müəllifinə dodaq büzənlər də, ittiham vermək istəyənlər də tapılır.

Şair belələri barədə hələ o uzaq illərdə yazırdı:

Nadan öz sözünü yeritmək istər,
Özünü dərk etməz, hamını danlar.
Aləmi çirkaba qərq etmək istər
Çirkabın içində şıllaq atanlar.

(adsız şer)

Şairin yaradıcılığında sovet rejiminin ictimai-mənəvi eybəcərliklərinə qarşı dözülməzliyi, rus şovinizminə, hakim millət diktatına müxalifliyi hiss və dərk etmək üçün vəfalı oxucuya tədqiqatçı olmaq lazım deyildir. Sadəcə olaraq bu yaradıcılığın baş mövzularını, onun aparıcı ana xətlərini, leytmotivini və ideya mənbələrini göz önünə gətirmək kifayət edər. Mən bu sətirləri yazır və ilk gənclik illərində "Gülüstan" poemasının üzü əllə köçürülmüş nüsxələrindən birini arxadan qapısı bağlanmış kiçik yataqxana odasında həyəcandan boğula-boğula birnəfəsə oxuduğum o şirin anları xatırlayıram. Həmin poemanın mənim və mənim kimi minlərlə gəncin milli heysiyyatının, qürur və iftixar duyğusunun oyanışında, özünüdərkində və özünütəsdiqində oynadığı rolu, varlığımıza hakim kəsilən o vətəndaşlıq ehtiraslarını sözlə təsvir etmək çətindir. Ana dili, ikiyə parçalanmış Vətən dərdi, kökə bağlılıq, mənəvi-tarixi yaddaşa sədaqət, min illərin əxlaqi dəyərlərinə hörmət və ehtiram, zamanda və cahanda öz halal mövqeyinə yiyələnmək bacarığı—Bəxtiyar müəllim bizi bu ali gerçəkliyin, bu ulu irsin gələcək imtahanlarına hazırlayırdı. Və hər an xatırladırdı ki,

Xalqa arxasını çevirənlərin
Arxası həmişə yerdə sürünür.

("Layiqəmmi mən?")

İndi geriyə dönüb bir oxucu kimi özünün mənəvi aləminə Bəxtiyar Vahabzadə şerinin aynasından baxanda, bir daha inanırsan ki, "Şəbi-hicran" yalnız böyük Füzuliyə həsr olunmuş qəmli elegiya-dastan deyilmiş. "Muğam" sadəcə mədəni-mənəvi sərvətimizin ən mübarək incilərindən birini öymürmüş, başlıcası və ən əsası, saxta həqiqətlərin, ölgün ideyaların, sərt, amansız və qəlp siyasi şüarların qızdırmalı boğanağında bizə əsl gerçəkliyi, əsl ünvanı nişan vermək amalının ifadəsi imiş. Özünün ədəbi qeydlərindən birində yazdığı kimi "əsas məsələ kökdən ayrılmamaq, kökə qayıtmaq, özünü tanımaq, özünü dərk etmək məsələsi" imiş.

Yuxarıda qeyd etdiyimiz kimi, Bəxtiyar müəllimin həyat təcrübəsi, hər şeydən əvvəl, özünün heyrətamiz, məzmun zənginliyi ilə seçilir və fərqlənir. O—şairdir; ömrümüzün, ruhumuzun bir parçasına çevrilmiş gözəl şerlərin və poemaların yaradıcısıdır. Dramaturqdur—kəskin əxlaqi və milli-tarixi problemlər qaldıran baxımlı pyeslər müəllifidir. Publisistdir—gerçəkliyimizin bu və ya digər vacib məsələlərinə yerində və anında münasibət bildirən fəal ictimai fikir sahibidir. Alimdir—Səməd Vurğunun yaradıcılıq yolunun mükəmməl tədqiqatçısı, Cəlil Məmmədquluzadə, Hadi, Sabir kimi klassiklərimiz

və habelə öz çağdaş həmkarları haqda mötəbər elmi-söz adamıdır. Müəllimdir—uzun illər Azərbaycan Dövlət Universitetində ədəbiyyat kursunu tədris edən işıqlı pedaqoqdur. Millət vəkilidir—ümumxalq haqqının bilavasitə təmsilçisidir. Nəhayət, elin xeyrində-şərində özü və adı həmişə uca tutulan, ən əziz adam kimi sayılan-seçilən ağ saçlı, müdrik el ağsaqqalıdır.

Bu təcrübənin mənəvi ləyaqətini tam təsəvvür etmək üçün mən yuxarıdakı sadalamaya bir məqamı da əlavə etmək istərdim. Bəxtiyar müəllim özünün böyük ədəbi-ictimai nüfuzuna baxmayaraq, ömrü boyu həmişə vəzifə kürsülərindən uzaq duran, öz daxili azadlığını, mənəvi hürrünü, qərar, rəy və fikir sərbəstliyini buxovlayacaq hər cür rəsmi nüfuzu inkar və rədd edən gözü-könlü tox şəxsiyyətdir. Mənim cızdığım bu eskiz BƏXTİYAR VAHABZADƏ VƏTƏNDAŞLIĞININ, təbii ki, tam mənzərəsini vermir, əslində heç bu kiçik həcmli yazı həmin mənzərəni vermək iqtidarında da deyil. Niyyət, sadəcə olaraq, diqqəti bu həyat təcrübəsinin zənginliyinə yönəltmək, həmin zənginliyi qavramadan Bəxtiyar Vahabzadə fenomenini açmaq və izah etməyin qeyri-mümkünlüyünü xatırlatmaqdır. Bu zənginliyin ağırlıq mərkəzi, ən tutumlu qatı, heç şübhəsiz, ustadın bədii yaradıcılığı, xüsusilə onun möhtəşəm poeziyasıdır. Bəxtiyar müəllim—şairdir. "Dünyada ad çıxaran çox şair var, qəzet və jurnalları vərəqlədikcə görürsən ki, əsl şair azdır. Tək-tənha qalanda, bir neçə kəlmə ilə "həyat nədir?"—sualına cavab axtaranda yalnız sözü fikirdən, obrazdan, ruh və nəfəsdən yoğrulmuş həqiqi şairlər sənin yaşamaq eşqinə, düşüncələrinə qol-qanad verir. Müasirimiz Bəxtiyar Vahabzadə belə şairlərdəndir"—bu sözlər çağımızın sayca çox az olan bədii fikir nəhənglərindən birinə—Çingiz Aytmatova məxsusdur. Olduqca dəqiq və sərrast müşahidədir. Şairin poeziyasının mənəvi-psixoloji mayasını və gövhərini əgər bir cümlə ilə ifadə etmək lazım gəlirsə, onu elə "fikirdən, obrazdan, ruh və nəfəsdən yoğrulmuş" poeziya adlandırmaq olar. Burası heç təəccüblü deyil ki, 60-cı illərdən başlayaraq poeziyamızda fəlsəfi lirikanın, "fikir şerinin" təşəkkül tapmasında və axın kimi formalaşmasında Bəxtiyar Vahabzadənin özünəməxsus müstəsna yeri və mövqeyi olmuşdur. Sürəkli elmi kəşflərin, texniki inqilabların doğurduğu bəşəri çaşqınlıq, planetar xaos fonunda mənəvi dəyərlər uğrunda, insan naminə dünya ədəbi fikrinin açdığı sənət döyüşünə bizim milli şerdə ilk öncə məhz onun lirik qəhrəmanı qoşulurdu. Təbiətcə, xarakter və temperamentcə bu qəhrəman hər cəhətdən orijinal və təkrarsız bir qəhrəmandır. Onu şairin öz sözləri ilə desək, "öyrənən və öyrənilən", yalnız maddi aləmi, kosmosu deyil, mə-

nəvi kosmosu, daxili aləmi də eyni zamanda poetik tədqiqat obyektinə çevirən qəhrəman tipi də adlandırmaq olardı. Ədəbiyyatımızda hadisə olan "Etiraf" poeması əslində elə belə bir poetik tədqiqatın insan qəlbinin dərinliklərində, onun toxunulmamış qatlarında bədii-psixoloji kəşfiyyatın bəhrəsi kimi hasilə gəlmişdi.

Bu prosesdə, təbii ki, poetik leksikon da təzələnir, şerə "vaxt", "zaman", "üfüq", "saat", "sürət" kimi deyimlər daxil olur, lirik düşüncə dünya orbitinə start alırdı. Güman edirik ki, sözün bu mənasında Çingiz Aytmatov qələm dostunun yaradıcılığını nəzərdə tutraq "həmin şerlərdə zaman yaşayır—bizim qayğı "yükümüzə" tab gətirən, dərd-sərimizə şərik olan, qoynunda yaşadığımız zaman!...", "azərbaycanlı şairi oxuyanda elə bil dünyanı oxuyursan"—deyirsə, bu nöqtədə də tamamilə haqlı və əsaslı görünür.

Lakin burası da var ki, belə bir qloballıq, belə bir miqyaslı "vaxt" və "zaman" ölçüləri şairin qəhrəmanına məxsus fərdliyi, yozum təkrarsızlığını, subyektiv baxışın fəallığını heç vaxt kölgədə buraxmamışdır. Bəxtiyar Vahabzadə poeziyasının milli və bəşəri xassələri, onun ümumiləşdirmə və tipikləşdirmə vüsəti həmişə və hər məqamda məhz fərdi şair "mən"ini təmsil edir, bu "mən"in hiss, həyəcan, fikir və düşüncə süzgəcindən keçərək oxucuya təqdim olunur.

Bəxtiyar Vahabzadə qələmində dünya həmişə mütəhərrikdir, onun hərəkətində, nizamında bir çərxi-fələk gərdişi vardır. O—fırlanan dünyadır:

Çox əyilən görmüşəm əyilməyən başları,
Sular duruldu, gördük dibindəki daşları.
Ünvanını dəyişdi dünənin alqışları,
Dəyişməsin nyləsin, axı, dünya fırlanır.

("Axı dünya fırlanır").

Bu dünyanı mütəfəkkir olmadan, daxili bəsirətsiz qavramaq, onun "məlumdan məchula" uzanan orbitini izləmək mümkün deyildir. Bütün əsrlərin böyük düha sahibləri kimi onun da son rəyi, son qənaəti budur ki,

Sualı, sorğusu imtahan kimi,
Sığalı, tumarı ötür an kimi,
Gülər üzümüzə gülüstan kimi,
Əslində nüvəsi xaraba dünya.

("Həm nəvə, həm baba dünya")

Maraqlıdır, şairin insan ruhunun bilməcələri üzərində köklənmiş son səhnə əsərlərindən biri elə belə də adlanır: "Hara gedir bu dünya?"

Bəxtiyar müəllimin əlinə qələm aldığı gündən Dünya ilə davam edən bədii-fəlsəfi mükaliməsi, lirik həsb-halı son illərin yaradıcılıq axtarışları prosesində daha davamlı, daha intensiv bir şəkil almışdır.

"Dünya fırlanır". Və bu fırlanma prosesində sanki həmin o mükalimənin, həmin o həsb-halın fikir oxu, sorğu-informasiya əqrəbi də fırlanır. Hələ dünənə qədər Dünyanın suallarına, bilməcələrinə cavab axtaran, onu fəlsəfi bir vüsətlə yozumlandıran şair, bu gün özü Dünyanı sual və dilemmalar qarşısında qoyur. Sual vermək, sınağa və imtahana çəkmək növbəsi indi ona çatmışdır. Yaşadığı dolğun və ibrətamiz ömür yolu ilə, əzablı, üzüntülü, lakin həmişə bəhrəli olan sənət axtarışlarıyla, həmişə çevik olan lirik qəhrəmanının comərdliyi və ərdəmliliyilə, güman edirəm ki, Bəxtiyar müəllim hər cəhətdən bu haqqa və səlahiyyətə layiqdir. Doğrudan da "Hara gedir bu dünya?", "Hara gedir sabahımız?", "Kimin əli ilə?", "Hansı bir ürəklə?", "Mən gedirəm, yoxsa ay?", "Hanı o duyğu, hanı o istək?"—narahat bir qəlbin və vicdanın üzüntülü iztirabları ilə süslənmiş bu suallar şairin son illərdə yazdığı şerlərin, yalnız və sadəcə, başlıqlarıdır.

Mən kiməm?
Mən nəçiyəm?
Eşqim, diləklərim nə?
Niyə gəldim dünyaya?
Bu dünyada yerim nə?

Bu suallar isə sənətkarın lap yenicə yazdığı "Mən—özümün düşməni" şerinin fraqmentləridir.

Bu suallar oxucuların bir qismində ritorik təsir bağışlaya və ya şairin özünə qarşı amansız həssaslığı kimi də yozumlana bilər. Lakin mənə elə gəlir ki, vaxtilə Nəsimini, Füzulini, lap bizim əsrimizdə Hadimizi, Cavidimizi ömrü boyu girinc edən həmin suallara bu gün ustad şairimizin də öz taleyi, qədəri və qisməti timsalında cavab axtarması təbiidir, qanunidir və yerindədir. Tanrısı, vicdanı və oxucusu qarşısında o, bu haqqa hər cəhətdən layiqdir.

Bəxtiyar müəllimin son illərdə yazdığı şerlərin əksəriyyəti qəribə bir həzinliklə, xiffətlə, qüssə və pərişanlıqla aşılanıb. Yaralarından qan sızan Vətən dərdi, mənəvi tənəzzülün sosial faciələri, xislətdəki Şər başlanğıcının fəallığı, "vaxtın dönüklüyü", "qədərin qisməti"... daha nələr, nələr... lirik ovqatı istər-istəməz kədər notlarına kökləndirir:

... Çox düşündüm nədir qəsdim, niyyətim?
Hara çəkir görən məni fitrətim?
Bu dünyadan mənim payım, qismətim
Sevincimdən oğurlanan kədərmiş...

("Nöqsandan da betərmiş")

Vaxtı ilə "vaxt çatışmır"—deyən, "vaxdan vaxtı borc istəyən" şair "Qürub düşüncələri"ndə "Vaxtı kəsib doğrayan o qayçı əqrəblərin, Ağzı yaman küt olmuş"—deyir. Bir zamanlar "ömür—ölümdən sonra yaşamağın təməli" elan olunurdu. İndi isə artıq "ömür—cəza" müddəti kimi mənalandırılır.

Ömür, tale, sənət yolu fonunda, şair belə bir tarixi-fəlsəfi korrektəsində, bədii-poetik düzəlişində haqlıdırmı? Bu suala birbaşa və birmənalı cavab vermək çətindir. Çünki indi qütbləşən, təzadlaşan, biri digərini inkar edən bu qənaətlərin hamısı Bəxtiyar müəllimin öz tapıntılarıdır. Bizim üçün əsas və ümdə cəhət budur ki, həmin qənaətlər hər iki halda "dünya həqiqətindən" xəbər verir.

Müdriklərdən biri "kədərdə insanı nəcibləşdirən ilahi bir iksir var"—deyib. İllah da ki, bu kədər şair kədəri ola, dəruni duyğuların, kövrək ehtizazın gözündən süzülərək şerə çevrilə.

Sadiq və vəfalı oxucu həmişə olduğu kimi bu anlarda da, əlbəttə ki, şairin yanındadır və onunladır.

Çox istərdik ki, bu kiçik yazı elə həmin bu həqiqətin özünəməxsus fərdi bir ifadəsi və təsdiqi kimi qəbul olunaydı.

«525-ci qəzet», 9 dekabr 1999-cu il.

Adil ƏSƏDOV

FƏLSƏFİ POEZİYA—BƏXTİYAR VAHABZADƏ AZƏRBAYCANIN XX ƏSR FİKİR TARİXİNDƏ HADİSƏ KİMİ

60-70-ci illər Azərbaycanın tələbə gəncləri üçün fəlsəfə təkcə tədris fənni deyildi, həm də canlı fikir axını idi, ona bu axını duymaq və onun gözəlliyindən həzz almaq xoşbəxtliyi nəsib olmuşdu. Həmin fəlsəfi fikir axınının ən azı üç yatağı vardı: Asif Əfəndiyevin timsalında fəlsəfi fəhm; Ziyəddin Göyüşovun timsalında fəlsəfi bilik və Bəxtiyar Vahabzadənin

timsalında, fəlsəfi poeziya. Asif Əfəndiyev özünü əhatə edən aləmdə hökmran olan dünyagörüşdən narazı idi, onun xalqın dünyaduyumuna və əxlaqi sərvətlərinə zidd hesab edirdi. O, xalqın həqiqi dünyaduyumunu və həqiqi əxlaqi dəyərlərini ifadə edə bilən dünyagörüşün yaradılması zərurəti ilə qayğılanırdı. Ömrünün sonuna kimi bu qayğı ilə yaşadı. Ziyəddin Göyüşov gəncliyin fəlsəfi ehtiyaclarını fəlsəfi klassika zəminində ödəməyə çalışırdı. Ziyəddin Göyüşovun əsərlərində Platon, Aristotel, Kant və Hegel "materialist" və ya "idealist" və yaxud "materializmlə idealizm arasında tərəddüd edən" təsvirlərlə məhdudlaşdırılmayıb, gözəl və hikmətli fikir mənbəyi kimi təqdim edilirdi. Burada "səadət", "ləyaqət", "insaniyyət", "şərəf", "vicdan" və s. əxlaqi sərvətlər bəşərin fəlsəfi təkamülü zəminində mənalandırılır, gözəlləşdirilir. Ziyəddin Göyüşov sözün həqiqi mənasında maarifçi idi və onun maarifçiliyi özünün sevimli tədqiqat obyektinə çevirməsi heç də təsadüfi deyildi.

Bəxtiyar Vahabzadənin poeziyası fəlsəfi olduğu qədər də poetikdir. Bu fəlsəfi poeziya təkcə təxəyyülün deyil, həm də təfəkkürün məhsuludur. Bunlardan hansının üstünlük təşkil etdiyini söyləmək çətindir. Bu, eyni zamanda poetik fəlsəfədir. Burada şair fəlsəfi fikir yaradıcısına çevrilir, filosoflaşır. O, özünün həyati təsdiqinə həyata məna axtarır. Həyatın mənası ilə bağlı məsələni daimi olaraq yaşadığından, filosof olaraq qalır.

Hər cür həqiqi fəlsəfi fikir dövrün aparıcı dəyər yönümlərinə, başlıca dünyagörüş qurumlarına mənəvi müxalifətdir. Bəxtiyar Vahabzadə düşüncəsi də eləcə. Bəxtiyar Vahabzadə əvvəlki kommunist dəyər yönümlərinə də müxalifətdə idi, indiki bazar dəyər yönümlərinə də. Kommunist dünyagörüşü praqmatizmin və icma şüurunun özünəməxsus sintezindən ibarət olduğundan Bəxtiyar Vahabzadə müxalifəti ikitərəfli xarakter daşımışdır. Bəxtiyar Vahabzadə fikri öz mahiyyəti etibarilə aristokratizmin ifadəçisidir, aristokratizm isə, icma süuruna da, praqmatizmə də ziddir. Bəxtiyar Vahabzadə aristokratizmi fərdiyyəçiliklə praqmatizmi özündə birləşdirən burjua dünyagörüşünə və ya "bazar iqtisadiyyatı" zorakılığına da müxalifətdir. Aristokratizm ancaq haqqın gücünü tanıyır və təqdir edir, haqsızlığa, zorakılığa isə düşməndir.

Bəxtiyar şerinin poetik qəhrəmanı ona kənardan təlqin edilən düşüncə və davranış normalarına deyil, öz hisslərinə, daxilindən gələn həyati tələtümlərə, öz zəkasının tələblərinə inanır:

Ey könül, möhkəm ol keşməkeşlərdə,
Çox da öyünmə ki, mən ağıllıyam.

Ağılsız işimi bildiyim yerdə,
Mən ən ağıllıyam, ən ağıllıyam.

Bəxtiyar Vahabzadə düşüncəsi təlqinə yatmır. Ruhunun suallarına cavab verməyən cavablara inanmır, hamı inansa da. Bəxtiyar fikrinin aristokratizmi demokratizmə meydan oxuyur.

Bəxtiyar Vahabzadənin poetik fəlsəfəsində dünyaya gözəllik verən onun məntiqliyidir. Dünya, öz mahiyyəti etibarilə məntiqidir, zəkalıdır. İnsan zəkası isə, dünya zəkasının təzahür formasıdır. Özü də, dünya zəkası təkcə insan zəkasında əks olunmur.

Kal alma kimi bir üzü torpağa düşüncə
Gördüm ki, yatır hər otun altında düşüncə.
Göylərdə fələklər düşünür,
Yerdə çiçəklər.
Axşam çağı dağlarda quşlar da fikirli,
Torpaq da,
Ağaclar da,
və daşlar da fikirli.

Hər şey yaranıb
Varlığa çevrilmədən öncə,
Başdan-başa mənalı, müəmmalı düşüncə...

Bəxtiyar Vahabzadənin poetik fəlsəfəsində dünya canlanır. Şair dünya ilə ünsiyyətə girir. Səməd Vurğunun "Ayın əfsanəsi"ndə olduğu kimi, Emersonun, və ya Hötenin "Təbiət"ində olduğu kimi.

Yuxuma şəkər qatır,
Gecənin pıçıltısı–
şırıl-şırıl axan su.
O–torpağın arzusu.
Ax suyum,
axar suyum,
Torpağın od bağrını sərinlədər,
səsiylə
Könlümü yaxar suyum...
Ax suyum
axar suyum
Mənim sehrkar suyum.

Ax ki, gülsün,
boy atsın
Arzu gülüm, gülşənim.
Padişahın bağından
Mənə alma gətirən
selim, suyumsan mənim.
Nağıl yuxumsan mənim.

Hər bir dövr Azərbaycan poeziyası bu və ya digər şəxsiyyətin aparıcı xarakteri ilə səciyyələnmişdir. XX əsr Azərbaycan poeziyası üç şəxsiyyətin adı ilə dövrləşdirilə bilər: Əhməd Cavad dövrü, Səməd Vurğun dövrü və Bəxtiyar Vahabzadə dövrü. Bəxtiyar Vahabzadə poeziyası da XX əsr Azərbaycan mədəniyyətinin qoparıla bilməyən tərkib hissəsidir. Özü də, Bəxtiyar Vahabzadə təkcə Azərbaycan mədəniyyətinin deyil, həm də Azərbaycan gerçəkliyinin tərkib hissəsidir. Çoxları öz həqiqi idealını Bəxtiyar Vahabzadə poeziyasında tapıb, bununla da özlərinin real dünyada gerçəkləşdirilməsinə nail olublar.

Bu poeziya ürəklərə təpər, tərəddüd keçirən qəlblərə qətiyyət və inam bəxş etmişdir.

Biz dağları
qoysaq əgər özbaşına,
dağlar bizi
dolandırar öz başına.
Gücümüzü dağlara da biz qandıraq.
Dolanmayaq,
Dağları biz başımıza dolandıraq.

«Futuroloq», yanvar 1998-ci il.

Əhməd İSAYEV

DƏYƏRLİ ÖMRÜN DÖRD GÜNÜ

(FÖVQƏLADƏ VƏZİYYƏTDƏ ŞAİR NÜFUZUNUN MÖCÜZƏSİ)

Tələtümlü, fırtınalı günlər idi o günlər. Xalq yeni-yeni oyanır, erməni-rus paxırı açıldıqca öz qəti sözünü deməyə can atır, milli

qurtuluş üçün fürsət gəzirdi. Hələ də əmin-arxayın Moskvaya bel bağlayan hökumət məmurları isə ciddi-cəhdlə bu nəcib hərəkatın qarşısını almağa çalışırdılar.

Bıçaq sümüyə dirənmişdi. Yuxarılar ölkəni idarə edə bilmir, aşağılar isə tabe olmaq istəmirdilər. Beləcə coşğun dağ selinin qabağı açılır, şimşək gurlayırdı. Bu qeydlər bax, həmin günlərdə, 1988-ci ilin sonunda, gözəl Şəkinin ən qaynar çağlarında yazılıb. Sadəcə gündəlik kimi, izahsız, bəzək-düzəksiz. İndi də o, nizamı pozmaq, o duyğulara əl qatmaq istəmirəm.

Aradan on il keçəndən sonra o illərin ovqatı necə olubsa, bu günün oxucusuna qoy elə də yetsin...

24 noyabr. Gəncə qan ağlayır. İki gün əvvəl mərkəzi meydanda dinc nümayişçilərin üstünə qəfildən əsgər və tank buraxıldığı üçün ciddi toqquşma olub. Üç nəfər ölüb, xeyli adam yaralanıb. Neçə-neçə qadın və uşaq zədə alıb. Qeyzlənmiş camaat partiya komitəsinə hücum çəkərək, qapı və pəncərələri sındırıb, iclas salonuna od vurulub, xidməti maşınlardan biri yandırılıb. Şəhr partiya komitəsinin birinci katibi gecəykən qaçdığı üçün vəziyyət daha da gərginləşib.

Gəncədə xüsusi qadağan saatı elan edilib. Hər yana ordu, tank yeridilib. Hökumət orqanları iflic olublar.

Axşamüstü söz yayıldı ki, Şəkidə də fövqəladə vəziyyət yaranıb. Əhali ilə milis arasında silahlı toqquşma baş verib. Hadisələrin nizama salınması üçün hərbi təyyarə ilə Bəxtiyar Vahabzadə gəlir. Onu Gəncədə qarşılayıb Şəkiyə aparmaq lazımdır.

Bu iş mənə həvalə olundu. Axşam saat 10-a işləmiş şairlə görüşdük. Maşın ayrıldı. Buraxılış vərəqələri yazıldı. Şəhərdən tez çıxmağa çalışırıq. Hər yan tələtüm içindədir. Camaat xəbər tutsa, əsla buraxmaz şairi.

Saat 11-in yarısında biz dörd nəfər Gəncədən yola düşdük. Bəxtiyar Vahabzadə, sürücü, mən və bir şairin sadiq qohumu Şükür.

Yol boyu tanklar, əsgərlər düzülüb. Neçə yerdə sənədləri göstərməli oluruq. Maşın hər dayandıqca, hər ləngidikcə şair narahat olur, əsəbiləşir, tez-tez əlini qaldıraraq, ağappaq saçında, rəngi bozarmış üzündə gəzdirir, damarları çıxmış əli isə sözə baxmır, açıq-aydın titrəyir...

—Zülmə bax,—deyir,—öz torpağında addım ata bilmirsən.

... Çoxdan tanıyıram şairi. Universitetdə dərs deyib mənə. Dəfələrlə görüşmüşük, məktublaşmışıq, bir kitabıma ön söz də yazıb. Müxtəlif yönümdə çox olub söhbətlərimiz. Amma indi açılışa bilmirik. Şairə

hansı tərəfdən yanaşasan, hansı sözlə, hansı söhbətlə ürəyini alasan. Başqa pərtlik də var aralıqda. Elə dünən bütün respublikaya küy yayılmışdı ki, Bəxtiyar Vahabzadə, Allah eləməsin, guya yoxdu aramızda, ürəyi dözməyib, tələf olub.

Bakıya zəng çalmışdım. Bir azdan televiziya və radio ilə onun çıxışı olmuş, həqiqət bilinmişdi. İndi budur, şairin özü də yanımdadır.Amma yenə də bədniyyət xəbərin qara kölgəsi sıxır adamı. Yol boyu yerlərdəki vəziyyətdən danışırıq. Gah Bakıdan söz düşür, gah Ermənistandan, gah da sərhəd rayonlarından. Qırıq-qırıq, kəsik-kəsik, adda-budda. Söhbət bir sapa düzülmür.

—İraykom katibi Qasımov Cəlal...

Şair dedi bu sözləri. Xoş əhvalla, zarafatla. Anlamadım bu ovqatı. Çevrilib üzümə baxdı.

—Day, bu qaçdı-qovduya özgə nə deyəsən? Bununku oldu "iraykom katibi Qasımov Cəlal"...

Sən demə, bu bir məzəli söhbət imiş. Şair danışır.

—1946-cı ilin sözüdür,—deyir.—"Kommunist qəzetində Eyyub Abbasovun bir şe ri çıxıbmış: səhərisi Səməd Vurğun redaktora zəng çalır:

—Əli Qara oğlu,—deyir,—bu nədir çap eləmisiz, şer qəhətdi bəyəm?

Əli Vəliyev cavab verir ki, bəs kasıb adamdı, istədim bir az kömək olsun.

—Elə ki, canın yanır, Əli Qara oğlu, əlini sal cibinə, xərclik ver. Yoxsa bu nədi... Şeri məzəkarlıqla oxuyur:

İraykom katibi Qasımov Cəlal
Həm qəzet oxuyur, həm də dalbadal
Papiros çəkirdi.
İcrakom sədri
Əlində bir qəzet girdi içəri.
Dedi, yoldaş katib, rayonumuzun
Şanlı müəllimi Əliyev Hüseyn
Bu gün səhər tezdən alıbdır orden.

Tələsik əzbərləməyə çalışıram. Nəsə rabitəsiz, qafiyəsiz sözlər dilimə yatmır. Bəxtiyar müəllim həvəslə, şövqlə təkrar edir. Misra-misra, sözbəsöz...

—Bizim evdə hamı əzbər bilir bunu. Elə ki, görürlər qanım qaradır, dilxoram, tez oxuyurlar:

"İraykom katibi Qasımov Cəlal".

... Gecə saat birdə Şəki yol ayrıcına çatdıq. Çoxlu maşın, milis işçisi yığılıb. Şəki şəhər prokuroru Firudin Məmmədov və Daxili İşlər İdarəsinin rəisi Xaliq Abdullayev da buradadır.

Vəziyyəti xəbər aldıq.

—Ağırdır,—dedilər.—Silahlı quldurlar at oynadırlar. Camaat ovçular mağazasını yarıb, milislə, əsgərlə üz-üzə dayanıb.

Qəfildən Şükür xəbər aldı:

—Bə, yoldakı qadın heykəli hanı?

—Dağıtdılar.

—Niyə?

Qırıq-kəsik söhbətdən bəlli oldu ki, Şəkidə Karo adlı bir işbaz ermənі yaşayırmış. Peşəsi ixtiyar sahiblərinə ara düzəltmək, pul yığmaq imiş. Yol ayrıcında "Ana" abidəsini ucaltmaq istəyəndə yenə də Karonu qabağa veriblər. O da eləmə tənbəllik gedib öz anasının şəklini qoyub sənətkarın qabağına: "Bu cür düzəlt!". O cür də düzəldilib. Pul oldu Şəkininki, abidə Karonun anasının. On il dözüb camaat...

—Bəs indi Karo özü haradadır?

—Qaçıb şəhərdən.

Bəxtiyar müəllim dərindən ah çəkdi. Titrəyən əlini güc-bəla saçına çəkdi:

—Vaxtında çox demişəm, götürün onu, təhqirdi el üçün. Baxmadılar sözümə. Sonu da bu.

... Aylı gecədir. Uzaqda qarlı zirvələr görünür, dağların ətəyində işıqlar sayrışır. Ora qədim Şəkidir. Şəhərin düz ortasında qoşa tonqal ucalır.

Bəxtiyar müəllim xəbər aldı:

—O nədi elə?

—Biri milis idarəsidi, biri də prokurorluq. Yanır...

—Bəs niyə burada durmuşuq? Getdik!

Bəxtiyar müəllim maşına sarı yönəldi.

—Olmaz,—dedilər.—Buraxa bilmərik şəhərə. İndi əsgərlər də doluşub. Atışma gedir, olmaz!

Şair əlini boz paltosunun cibinə atdı. Tezcə də çıxarıb yellətdi.

—Yarım aydı papirosu tərgitmişəm. Həkimlər qadağan ediblər. Yazıq həkimlər nə bilsinlər ki...

Əlini güc-bəla saçına çəkdi. Üzündə xəfif bir titrəyiş gəzdi.

—İndi durub burada tamaşa edək?

Arxadan bir ağır, ötkəm səs eşidildi.

—Özgə çarəmiz nədi?!

Şair üzümə, baxdı: yəni "neynək?". Elə özü də qərarını söylədi.

—Sən zaqatalalı, mən şəkili, nə olacaq? Getdik...

Bu sözdə deyəsən, mənə bir ürək-dirək vermək ovqatı var idi. Maşın yola düşəndə asayişi "qoruyanlar" tələsik isti budkaya doluşdular. Payızın sazağındanmı, yoxsa bu nigaran əhvalın zəhmindənmi bədənimdən bir üşənti keçdi.

Elə bu an qəfil duyğu qəlbimi ovçaladı: gecənin yarısında xəstə şairi od-alov içinə aparmaqda haqqım varmı mənim? Bir belə risk lazım idimi? Birdən, Allah eləməsin, şairin bir barmağı qanıya, aləm nə deyər mənə.

Maşın şəhərə yaxınlaşdıqca atəş səsləri daha aydın eşidilir. Dağların fonunda qoşa məşəl qəlbi sarsıdır, gözü qamaşdırırdı.

Gecə saat ikidir...

Arxa küçələrdən biri ilə Bəxtiyar müəllimin evinə doğru qalxırıq. Hələ çox var. Ev şəhərin lap başında yerləşir. Yol-izdə ins-cins görünmür. Küçələrdən birində səki ilə iki oğlan gedir. İkisinin də sol əlində tüfəng. Yanlarından etinasız ötdük. Onlar da bu qəfil maşına heç əhəmiyyət vermədilər. Daha heç kəslə rastlaşmadıq.

Evə çatanda gördük ki, işıqlar yanır, qapı isə bağlıdır. Bəs necə olsun? Şair bir qohumun adını çəkdi. Maşını geri döndərdik. Yol Şəki İpək Kombinatının önündən keçir. Qapının ağzında bir neçə adam dayanıb. Görüşüb yuxarı qalxdıq.

Direktor İbrahim Mustafayevin otağı adamla doludur. Çay gəldi, söhbət başlandı. Xəbər aldıq "nə olub şəhərdə?" Dedilər, neçə gündü Qarabağ hadisələri ilə əlaqədar stadionda dinc mitinq keçirilirdi. Adamlar tələb edirdilər ki, hökumət əsassız torpaq iddiasına düşən ermənilərı yerində oturtsun. Moskva ikibaşlı oyundan əl çəksin. Respublika rəhbərliyi xalqa yiyə dursun, qəti hərəkət etsin.

Başbilənlərin laqeyidliyini gördükcə mitinqə gələnlərin sayı artır, çıxışlar çoxalır, tələblər kəskinləşirdi. Şəhər rəhbərliyi camaatın qarşısını kəsməyi lazım bilib. Əhalini hətta ordu ilə hədələyib. Bir azdan həqiqətən də nümayişçilərin üstünə kursantlar cumublar. Camaat onların geri qaytarılmasını tələb edəndə milislə ciddi toqquşma baş verib. Dinc əhaliyə bir neçə yerdən dalbadal atəş açılıb. Odlu fişənglər buraxıb. Bir cavan oğlan elə orada ölüb. Çoxlu adam yaralanıb. Hiddətlənmiş gənclər yaxındakı "Ovçular" mağazasını qarət edirlər. Xeyli silah götürülür. Hökumətin ədalətindən əlləri üzülən binəsiblər sapı özümüzdən olan baltaların üzərinə cumurlar: "Hanı qatillər? Müqəssirlər meydana çıxsın!".

Kim idi onların sözünə baxan?! Əksinə yenə də təhqir, hədə, qorxu, atəş... Daha susa bilmədilər. Qarşılıqlı atışma başlanır. Milis şöbəsi, prokurorluq ələ keçirilir. Hər iki binaya od vurulur, ictimai obyektlər, evlər qarət olunur. Özümüzünkülərə sığınıb at oynadan bir neçə erməni, o cümlədən Karo şəhərdən qovulur.

Atışma getdikcə güclənir. Bir tərəfdə sahibsiz qalan milis şöbəsinin silahını götürmüş kursantlar, bir yanda əhali ilə atışan milis zabitləri, bir yanda mağazadan odlu silah əldə etmiş hiddətli gənclər, bir tərəfdə də şəhərə yenicə daxil olmuş ordu hissələri—tanklar, avtomatçılar, desantlar. Aləm qarışıb bir-birinə. Kim atır, hara atır, nəyə atır? Bilinmir.

Şəhər tələtümə gəlib. Bəxtiyar Vahabzadə Şəkiyə çatanda vəziyyət belə idi.

Bəs partiya komitəsinin birinci katibi Hadı Rəcəbovu necə tapmaq olar? Bütün cəhdlər bir fayda vermədi.

Birdən Bəxtiyar müəllim xəbər aldı:

—Bəlkə əsgərlərin böyüyü ilə danışaq.

Bir neçə yerə zəng vuruldu. Haçandan-haçana şəhər komendantı tapıldı. Dəstəyi Bəxtiyar müəllimə verdilər. Səhərə qədər möhlət istədi, xahiş etdi ki, özü camaatla görüşənə qədər atəş, axtarış dayandırılsın.

Baxdım, şairin üzü gülür:

—İnsan adama oxşayır,—dedi.—Özü də Kazan tatarıdır. Deyəsən, yaxşı olacaq işimiz...

Gecəykən səs yayıldı ki, qorxmayın, Bəxtiyar Vahabzadə gəlib. Kombinatın işçiləri xoş xəbərlə küçələrə, evlərə axışdılar. Simli-simsiz teleqraflar işə düşdü.

—Əl saxlayın, Bəxtiyar müəllim hər işi nizama salacaq!

Atışma səsi tədricən kəsildi.

25 noyabr. Şəhər partiya komitəsinin binası hərbi qüvvələrlə mühafizə olunur. İynə atsan yerə düşməz. Adam sel kimi axışıb gəlir.

—Qatillər qovulsun!

—Canilərə cəza verilsin!

Camaat rəhbər orqanlarının buraxılmasını tələb edir.

Birinci katibin otağına yığışdıq. Qələm dostum Salis Məmmədov gözümə dəymir. Çətin gündə kənarda qalan deyil. Hanı bəs? Sən demə, dinc əhaliyə atəş açılanda qocaman jurnalist hamıdan tez özünü polis şöbəsinə yetirib. Gözündən zədə alıb.

Bir azdan Hadı Rəcəbov gəlib çıxdı. Məşvərət başlandı. Qeyzlənmiş camaatın sakitləşməsi üçün təcili olraq nə etmək lazımdır? Çox ölçüb-biçildi. Yeganə çıxış yolu bu oldu ki, hisslərin cilovlanması üçün hələlik Bəxtiyar Vahabzadə camaatla görüşsün. Özü də təkcə, heç bir qıcıq yaradan hərəkət etmək olmaz.

Tribunasız, təntənəsiz ilk görüş. Üz-üzə, göz-gözə, nəfəs-nəfəsə ilk söhbət.

Ağlayan kim, şairin boynuna sarılan kim, əllərini açıb imdad diləyən kim. Tarıma çəkilmiş əsəblər bir qədər yumşaldı deyəsən.

Təvəqqe edirəm,—dedi.—Uşaqlara çatdırın silahı töksünlər yerə. Mən zamin. Eşidirsiniz, inanın, heç kəsi tutmazlar. Tüfəngi qoyub hamı getsin işinə-gücünə.

Şəhər arı pətəyi kimi uğuldayır, izdiham gurlayır.

Biz otağa qalxanda camaat içindən ilk xəbər gəldi: "Məscidin yanında bir tüfəng atılıb".

Sonra haradasa biri də tapılıb, biri də...

Şairin ilk xahişi yerinə yetsə də, gərginlik əsla azalmır. Camaatın tələbi qətidir. Birinci katibi, prokuroru, milis rəisini və xalq hakimini işdə saxlamaq olmaz. Müvafiq dairələrə zənglər çalınır, məsləhət-məşvərət başlanır, yuxarılarda çoxu etiraz edir. Xüsusən, respublika prokuroru İ.İsmayılovla söhbət heç də şirin alınmadı. Mərkəzi Komitənin partiya işi şöbəsinin müdiri Vaqif Hüseynovun mövqeyi isə şairi lap haldan çıxartdı. Bəxtiyar müəllim dəstəyi hiddətlə atdı.

—Belə olur ki, millət ayağa qalxır də. Qoy onda gəlib özləri nizama salsınlar.

Mən onun ağarmış rənginə baxdım. Aramsız titrəyən əlini tutdum. Yan otağa keçirib bir stəkan çay tapdım. Könlünü almağa çalışdım.

—İraykom katibi Qasımov Cəlal...

Dalısını özü gətirdi.

—Həm qəzet oxuyur, həm də dalbadal papiros çəkirdi...

Əhvalı yavaş-yavaş duruldu. Katibin otağına qayıdırıq. Mübahisə, münaqişə, mübarizə gedir. Müxtəlif ehtimallar irəli sürülür. Fərziyyələr, şayiələr çaşbaşlıq yaradır. Biri deyir nə ölən var, nə yaralanan. Başqa birisi xəbər gətirib, deyəsən, onlarca adam qırılıb. Bir söz də yayılıb ki, guya camaat silahlı basqın edibmiş, ona görə milis atəş açıb.

Telefonlar ara vermir. Şəkidən Bakıya, Bakıdan Şəkiyə. Bəxtiyar Vahabzadə təcili istintaq qrupu tələb edir. Sonra nə düşündüsə, zəndlə

üzümə baxdı.

—Bəlkə bir xəstəxanaya baş çəkəsən. Adamlarla görüş. Bax gör, nə var, nə yox. De ki, mən də gələcəyəm, bir az sonra, işlər nizama düşəndə...

Bir anda ölçüb-biçdim. Kiminlə gedim? Katib Xalidə Xəlilovanı göstərdilər. Haradansa ağlıma bir fikir gəldi. Bəlkə şəhərin axundunu da tapım. Bəxtiyar müəllim sevindi. Sən demə, Səlim əfəndi elə qapının ağzında imiş.

Üçlükdə xəstəxanaya getdik. Əvvəlcə vəziyyəti ağır olanlara baş çəkdik. Qarasaçlı, sağlam bədən, yaraşıqlı bir gənci göstərdilər.

—Bu, Əyyub Məmmədovdur,—dedilər, məktəb direktorudur. Uşaqların səsini eşidib, qaça-qaça gəlib: "Nə olub? Kimdi atan?" Elə bu ara güllə yerə yıxıb onu.

Xəstənin özü ilə söhbət edirəm. Gülləni çıxara bilməyiblər, ürəyinin yanında ilişib. Əhvalı babat görünür. Aydın, səlis danışır.

O biri yaralı isə Fərrux Əzimovdur. On səkkiz yaşı ancaq olar. Solğun, arıq oğlandır. Bəlkə də çox qan itirdiyinə görə indi belədir. Güllə onun da döş qəfəsini dağıdıb. Həkim astaca soruşdu:

—Necəsən?

Gözünü azacıq açıb yumdu, başını sağa çevirdi.

Qapı ağzında izdiham yığılıb. Əyyam Məmmədovun atası ilə görüşürük. Niyazi müəllim təmkinli, dözümlü adama oxşayır. Qızarmış gözləri yaşarsa da, özünü tox tutur. Az danışır. Sakit baxışları adamdan ümid, imdad umur.

Yavaş-yavaş söhbətə başlayırıq. Gah Səlim əfəndi danışır, gah mən. Təskinlik veririk. Nə deyəsən? Söz də qəhətə çıxıb.

Deyirəm, səbirli olun. Bəxtiyar müəllim də buradandır, gələcək. İnanın, nahaq qan yerdə qalmaz. Zərərin yarısından qayıtmaq yenə xeyirdi. Çalışın cavanlar qoy evlərə yığışsınlar. Hər kəs cəzasına çatacaq.

Hərəmiz bir yandan xoş sözlərlə Niyazi müəllimi camaat qarşısında çıxış etməyə razı salırıq, Bəxtiyar müəllimin adından, Bəxtiyar müəllimin məsləhəti ilə.

Başqa yaralılara da baş çəkirik. Cəmi 12 nəfər yatır. Əslində nə baxmaq olur, nə danışdırmaq, nə də valideynlərə cavab vermək. Hamı narahatdır, hamı çaşqındır, hamı həyəcan içindədir.

Şəhər də ki, uğuldayır.

Yaralıların xəstəlik tarixçələrini bir-bir vərəqləyirəm. Baş həkimi ayıq salmaq pis olmaz. Birdən sənədlərə qara əl uzana bilər. Rəsmi

məlumat, dəqiq arayış, ətraflı qeydlər götürürəm. Kimdi yaralı? Nə olub? Haçan gəlib? Bəs mağaza nə vaxt dağılıb?

Baxıram ilk yaralı saat dörddə gəlib, ikincisi də, üçüncüsü də... Ovçular mağazası isə təqribən saat yeddidə yarılıb. Deməli, milis atəş açanda adamlar tam silahsız olublar.

Hadisədən düz 19 saat keçir. Həkimlərdən savayı yaralıları dindirib-danışdıran olmayıb. İlk qonaqlar, ilk şahidlər deyəsən, bizik: Səlim əfəndi, mən və bir də Xalidə xanım.

Bir saatdan sonra rayon partiya komitəsinə qayıtdıq. Bəxtiyar Vahabzadə mərkəzi komitə ilə danışır. Təcili büro yığışır. Qərar qəbul olunur: yaranmış qeyri-adi vəziyyətlə əlaqədar olaraq şəhər prokuroru, milis rəisi və xalq hakimi işdən uzaqlaşdırılsın!

Qərarı camaata bəs kim elan etsin? Əlbəttə, Bəxtiyar Vahabzadə!

Özü də birbaşa stadionda, mitinqçilərin qarşısında? Bəxtiyar müəllim görünən kimi aramsız alqışlar gurladı. Şair qərarı oxudu, hər kəsin öz cəzasına çatacağını bildirdi.

Yerdən kimsə çığırdı.

—Bəs katib? Eşitmədim, hanı onun adı?

Şair əsl Şəki ləhcəsi ilə çox sadə, səmimi dildə:

—Bir dayan görüm,—dedi,—ay bala, bu sənə dım-dım halvası deyil. Qoy görək, düzələcək hər şey. Əsası odur ki, camaat silahını töksün. Yazıqdı, qırğına verməyin balaları.

Sonra hamıya səbirli, təmkinli olmağı məsləhət gördü.

—Di dağılışın,—dedi,—Mənim əzizlərim. Gedin, amandı, Şəkinin adını batırmayın!

Mən onda əsl mənada möcüzə gördüm. Çoxu gözünə inanmırdı. Neçə gün heç kəsin aralaya bilmədiyi izdiham şairin bir kəlmə sözü ilə stadionu tərk eləməyə başladı. Ən coşqun pərəstişkarlar isə gəlib onu dövrəyə aldılar. Xoş-beş, hal-əhval, təşəkkür, sorğu-sual, söz-söhbət...

Camaata qoşulub xəstəxanaya getdik. Bəxtiyar müəllim hər yaralı ilə, hər bir valideynlə, həkimlə maraqlanır, hal-əhval tutur. Mübariz adlı bir gəncdən xəbər aldı:

—Necəsən? Yaran ağrımır ki?

—Mənəvi yara ağrıdır məni,—dedi—dözəmmirəm. Belə də dərd olar? Bu ağır günlərdə elə özümüzünkülər bizi bu kökə saldı...

Şair bığ yeri yenicə tərləyən bir gəncə yaxınlaşdı. Sən demə adı Bəxtiyar imiş. Yarasına baxdı. Qəhərləndi. Firəngiz ana ilə söhbəti göz yaşı içində yarımçıq qırıldı...

Oğlu Akifi itirən Şura ata ilə söhbəti isə ömrüm boyu unuda

bilmərəm. Sadə söhbət deyildi bu. Dil-dodaq susur, baxışlar, ürəklər danışır, duyğular dilə gəlirdi. Qəm, kədər əlindən yumağa dönmüşdü kişi. Şair hiss elədi ki, günü-güzəranı xoş keçənə oxşamır heç. Tez bir kağız götürdü. Əlini cibinə saldı. Allah bərəkət versin. Bir göz qırpımında ağ vərəq əldən-ələ gəzdi, qaraldı. Bu da bir qayğıdır, təsəllidir. Özgə nə gəlir adamın əlindən.

Yorğun -arğın evə qayıdanda şairin halı özündə deyildi. Təkcə qaç-qov yox, fikir-xəyal əldən salmışdı onu. Bir stəkan çay içib yan otağa keçdi. Qoy bir az dincəlsin, özünə gəlsin. Yatammadı. Təzə qəzetləri vərəqləyib qurtarınca qayıtdı.

Bakıya zəng çaldı. Ə.Vəzirovu axtarırdı. "Bürodadır",—dedilər. Çox keçmədi ki, o, özü şairi telefona çağırdı. Yaranmış vəziyyət barədə ətraflı danışdılar: "Sizcə bu vəziyyətdə şəhərə kim rəhbərlik edə bilər?"

Bəxtiyar müəllim dörd nəfərin adını çəkdi.

Bakı deyəsən, razılaşmadı. İncə, lakin ötkəm mübahisə başlandı. Ə.Vəzirov kiminsə üstündə təkid edir, şair də öz qəti sözünü deyirdi. "Olmadı!"—dilxor halda dəstəyi yerinə qoydu.

—Özləri bəri başdan işləri korlayırlar. Sonra da deyirlər, niyə belə oldu?

... Zaqataladan zəng çaldılar. Əsgərlərlə toqquşma zamanı orada iki nəfər tələf olmuşdu. Hiddətlənmiş əhalini sakitləşdirmək üçün Bəxtiyar Vahabzadəni dəvət edirdilər.

—Baxarıq,—dedi şair.—Çalışaram, mütləq gələrəm.

Elə bu ara küçə qapısı döyüldü. Bir dəstə adam içəri girdi. Mingəçevirdən gəliblər.

—Sizin barənizdə bəd xəbər çıxandan gözümüzə yuxu getmirdi, — dedilər, — on minlərlə adam yığışıb. Camaat sizi görmək istəyir. Lap beşcə dəqiqəliyə də olsa...

Şair mənə baxdı, mən də şairə. Vaxt haradadı?

Heç olmasa bir parça məktub yazın,—dedilər,—mitinqdə oxuyaq, qoy camaat toxtasın.

Bir şagird dəftəri tapdılar. Bəxtiyar müəllim yazdı, "Hayıf ki, Şəkidən çıxa bilmirəm. Bu gərgin günlərdə məni də yanınızda hesab edin. Sizə səbirli, təmkinli, mübariz olmağı arzulayıram".

Qonaqlar getdilər.

Yenidən zənglər başlandı. Yevlaxdan, Şəmkirdən, Gəncədən, Göyçaydan... Bakı da ki, heç ara vermir. Hamı bu ağır gündə şairi görmək, onun səsini eşitmək istəyir.

Yatağa uzananda saata baxdı?. Saat üçə az qalırdı.

26 noyabr. Səhər tezdən bizi yuxudan Mərkəzi Komitənin zəngi oyatdı. Ə.Vəzirov idi danışan:

—Plenuma hazırlaşın,—dedi.—Çalışın sakit keçsin. Mərkəzi Komitənin katibi Həsən Həsənov gəlir təyyarə ilə Yevlaxa...

Tələsik şəhərə çıxdıq. Küçə və meydanlar yenə də adamla doludur. Gediş-gəliş çətindir. Bəxtiyar Vahabzadə görünəndə izdiham aralanır, yol açılır, alqışlar gurlayır. Şair camaatla xeyli söhbət etdi. Hamıya təskinlik verdi.

Şəhərdə nisbi əmin-amanlıqdır. Göz dəyməsin, şair gələndən bəri nə bir yaralanan var, nə də döyülən, söyülən. Adamlar hərdənbir inzibati orqan işçilərinin evlərinə cumurlar. Bir də ki, Karonun qohumu Ema adlı bir aptekçinin mənzili dağıdılıb. Söz yayılıbmış ki, guya Karo orada gizlənir.

Şəhər partiya komitəsinin binası hərbçilərlə doludur. İki gündür qadağan saatı elan olunub. Bakıdan istintaq qrupu gəlib. Təqsiri dinc nümayişçilərin üstünə yıxmaq istəyən inzibati orqan işçilərinin fitnəsi alt-üst olur. Ədaləti gördükcə, camaat yavaş-yavaş sakitləşir.

... Əvvəl şəhər partiya komitəsinin bürosu və sonra da plenumu keçirildi. Azər Mustafazadə şəhər partiya komitəsinin birinci katibi seçildi.

Gecə saat 11-dir. Yığışıb Bəxtiyar müəllimgilə gəldik. Şəki aşı dəmlənib. Bu tərəfdən də manqal közərir, kabab şişə çəkilib. Deyəsən, kababı gözləməyə heç kəsdə hal qalmayıb. Bəxtiyar müəllim mətbəxə keçdi.

—Nə olar, siftə aşı gətirin,—dedi—eşqin tərsi-avandı olmaz.

Aramsız telefon zənglərini nəzərə almasaq, şam yeməyi ümumən sakit keçdi.

Elə ki, süfrəyə dovğa gəldi, qapı zərblə döyüldü. Gələn respublika Daxili İşlər nazirinin birinci müavini Viktor Barannikovdur.

—Rəsmi siqnal var,—dedi—Karo silahlı dəstə ilə Şəkiyə gəlir. Sonra da astadan əlavə elədi:

—Özü də Bəxtiyar müəllimin adını çəkir.

Hamı ayağa qalxdı. Yarı-yarımçıq şəhər partiya komitəsinə qayıtmalı oldular.

Evdə üçümüz qaldıq. Bəxtiyar Vahabzadə, mən və bir də Şükür.

—Bəs, biz hara gedək?

Bəxtiyar müəllim bir neçə ad çəkdi. Axırda bu qərara gəldik ki, Şükürün atasının evi daha məsləhətdi.

Gecə saat birdə səssiz-səmirsiz evdən çıxdıq. Mühafizə dəstəsi isə orada qaldı, yad gözü yayındırmaq üçün.

27 noyabr. İstirahət günüdür. Bir xeyli şəhəri gəzdik, xəstəxanaya baş çəkdik. İş demək olar, yoluna düşür. Həyəcan yatır, orada-burada yığışan dəstələr yavaş-yavaş əriyir. Deyəsən, vaxtdı. Ayrılıq çağı gəlib.

Zaqataladan yenə zəng çalıblar, mingəçevirlilər də maşınla hazır dayanıblar.

Əvvəlcə qonaqları yola saldıq. Biz maşına yaxınlaşanda bir zabit qabağa keçdi. Sən demə, Bəxtiyar müəllimə görə ayırıblar: yolda bir hadisə baş verməsin.

Şair qəti etiraz etdi: "Mən heç zaman xalqımın içinə toplu-tüfəngli gedə bilmərəm".

Azər Mustafazadə arxamızca nigaran-nigaran baxır.

Ayrılanda fikir-xəyal içində bir siqaret yandırdı.

Bəxtiyar müəllim gülümsündü, məşhur misralar yada düşür.

İraykom katibi Qasımov Cəlal.

Həm qəzet oxuyur, həm də dalbadal.

Papiros çəkirdi...

Biz maşına oturduq: qabaqda Bəxtiyar Vahabzadə, arxada isə Şükürlə mən.

Yolumuz Zaqatalaya, sonra Mingəçevirədir...

«Azərbaycan», 7 dekabr 1999-cu il.

Cavanşir MUSAOĞLU,

iqtisad elmləri namizədi

VƏTƏN QUŞA BƏNZƏR... QANADLARININ BİRİ BU TAYDIRSA, BİRİ O TAYDIR

Özüm iqtisadçıyam. Ancaq poeziyanı ürəkdən sevirəm. Əlbəttə, həqiqi ilhamla yaranmış poeziyanı... Bu bağlılıq ta uşaqlıqdan yol yoldaşım olub...

1963-cü il idi. Şəkili tələbə dostum bir gün mənə o çağa qədər eşitmədiyim poetik parçalar söylədi. Bir bəndi o saatca məni tutdu:

Arazın suları dalğalı, daşqın,
Arazın suları ahdır, haraydır.
Vətən quşa bənzər, qanadlarının
Biri bu taydırsa, biri o taydır!

Xahişimlə dostum həmin əsərin makinada yazılmış nüsxəsini gətirdi. Məlum oldu ki, onun əzbər söylədiyi parçalar indi 70 yaşını təntənə ilə qeyd elədiyimiz, xalqımızın sevimli şairi Bəxtiyar Vahabzadənin «Gülüstan» poemasındandır. Dostum danışdı ki, bu əsər «Nuxa fəhləsi» qəzetində dərc olunmuş, lakin xəbər tutan kimi, yığışdırmışlar. (Sonradan öyrəndim ki, şair həmin poemanı hələ 1958-ci ildə qələmə alıbmış.)

Dövrün qəribə təzadı meydana çıxmışdı: bir yandan dövrü mətbuat səhifələrində və poeziyada «Azərbaycanın Rusiya tərkibinə daxil olması» nın(?) 150 illiyi təbliğ edilir, o biri yandan bu işğalçılıq siyasətini damğalayan «Gülüstan» kimi poetik əsər meydana çıxırdı. Bu təzadı, bəlkə də Bəxtiyar Vahabzadə çoxlarından əvvəl görmüşdü. Ümumiyyətlə, şair öz poetik fikirlərini təzadlar üzərində ifadə etməyi sevir və buna ustalıqla nail olur. Mənə elə gəlir ki, onun bir neçə il sonra «Təzadlar» adlı poema yazması və dünyanın nəhəng təzadları fonunda öz dərdlərimizi, öz ağrılarımızı poetikləşdirməsi elə həmin duyumun nəticəsi idi. Bir görün, müasir dövrümüzün təzadlarını 30 il qabaq şair necə də ustalıqla görmüşdür:

Neçə «mən» yaşayır tək bircə «mən»də,
Öldürən də mənəm, axı ölən də.
Su da özümdədir,od da özümdə,
Dost da özümdədir, yad da özümdə.
Rəhm də məndədir, zülm də məndə,
Həyat da məndədir, ölüm də məndə...

1988-ci ildən sonra geniş vüsət alan milli azadlıq hərəkatına Bəxtiyar Vahabzadə də qoşuldu. Əslində, o mübarizəyə hazır idi, öz qələmi ilə,poetik misraları ilə illər uzunu «döyüş»müşdü. O da xalq qarşısına çıxdı, poetik şəkildə söylədiklərini açıq tərzdə bəyan etdi. Xalq ona inanırdı, xalq onu sevirdi. Millət vəkili seçilməsinə mane olmaq istədilər, bacarmadılar. Çünki o, öz əməli, öz amalı ilə xalqın rəğbətini qazanmışdı. Tribunalara çıxıb, xalqın adından gur-gur guruldayanlar vardı. Kütlə onların ardınca getmədi. Gedənlər isə min bir məhrumiyyətlərə düçar oldular...

Mən Bəxtiyar Vahabzadə poeziyasının, həqiqi mənada pərəstişkarıyam. Öz-özümə bunun səbəbini arayıram. Bircə cavab ürəyimcədir: şairin yaradıcılığında, xüsusən poeziyasında 3 obraz – Ana Millət, Ana Dili və Ana Vətən daha qabarıq şəkildə, öz ifadəsini tapır! Bunlar haqqında deyilən hər bir poetik misra da məni özünə cəlb edir.

Bu millət «Gülüstan və Türkmənçay» müqavilələri ilə çoxa, aza bölünmüş bu dil fars, ərəb və rus kəlmələri ilə «Bulanmış» bu vətənin qədim torpaqları arasında «Araz boyda şırım» açılmışdır. Reallıqları ört-basdır etməyə, tarixin təkərini geri fırlamağa, millətin dilini, adını, ulu torpaqlarını danmağa «can atanlar» var. «Qarabağ müharibəsi» quru yerdən düşünülməyib; Onun hiylə və fitnə kökləri daha dərindədir.

Bəxtiyar Vahabzadəni də bir şair-vətəndaş kimi düşündürən, dincliyini əlindən alan bu düyünlərdir.

Deyirlər, bir dəfə şair rəhbər işçilərdən birinin qəbuluna yazılır, lakin həmin «rəhbər» onu uzun müddət gözlətməyə məcbur edir. Qəbulda isə şairlə rus dilində danışır. Buna dözməyən Bəxtiyar Vahabzadə qapını çırpıb çıxır.

Bəlkə də «Ana Dili» şerindən misal çəkdiyim qəzəbli misralar bu hadisədən sonra yaranmışdır:

Ey öz doğma dilində danışmağı ar bilən
Fasonlu ədabazlar,
Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.
Bunlar qoy mənim olsun.
Ancaq Vətən çörəyi
Sizlərə qənim olsun!

Yaxud şair «Latın dili» şerində millətimizin çox hissəsinin öz dilindən məhrum olmasını dolayı yolla oxucuya çatdırmırmı?

«Mən azadam, müstəqiləm» sözlərini
Öz dilində deməyə də
İxtiyarın yoxsa əgər,
De, kim sənə azad deyər?...
Söylə, söylə necə azadsan ki,
Komalarda dustaq olub ana dilin?
Böyük-böyük məclislərdən
İtirilib ilim-ilim?!.

Bəxtiyar Vahabzadə «Vətən quşa bənzər» – deyir. Hərdən mənə elə gəlir ki, şairin poeziyası da bir qartaldır. Onun ürəyində, amalında

yuvarlanıb qoşa qanadla Vətən torpağımızdan, musiqimizdən, xalqın arzu və istəklərindən pərvazlanıb. Bu poeziya vətənin hüdudlarını çoxdan adlayıb keçmişdir. Lakin günəş kimi hələ də Arazın o tayına boylanır:

Arazın bu tayı Vətənim,
o tayı Vətənim.
Vətəni görməyə amanım
yox mənim...
...Bu qəmim, bu dərdim
dağlardan ağırdır,
Arazın suyuna qarışıb axıram,
Füzuli həsrətlə qürbətdən
Vətənə baxırdı,
Mən isə...
Vətəndən-Vətənə baxıram...

Hələ 1962-ci ildə deyilən bu fikirlər bu gün də aktual səslənir. Lakin azca fərqi var; İndi Vətənə getmək imkanı nisbətən asanlaşıb. Poeziyası ilə sirdaş olduğum kimi, özü ilə də dostluq edirəm. Hər dəfə onunla görüşəndə mənən zənginləşir, yaradıcılığına və şəxsiyyətinə hörmətim qat-qat artır. Görüşlərimizdən bir neçə epizodu yada salmaq istəyirəm.

Bir dəfə Moskvaya getmişdim. Moskva mehmanxanasının foyesində şairə rast gəldim. Hara isə tələsirdi. Sözləşdik ki, sabah görüşək. Onu səhər yeməyinə dəvət etdim. Mehmanxananın restoranında dörd nəfər – şair Şəkər Aslan, jurnalist Cığatay Şeyxzamanov, Bəxtiyar Vahabzadə və mən əyləşdik. Bu zaman restorana 18-20 yaşlarında səkkiz nəfər gənc daxil oldu. Hamısı bir boyda, bir biçimdə, bir geyimdə. Onlar yaxınlıqdakı stollardan birində oturdular. Bir azdan xidmətçi qazanda yemək gətirdi. Məlum oldu ki, onlar kəlləpaça sifariş veriblər. Bizim aramızda «pıçhapıç» başlandı. Birimiz onları gürcüyə, birimiz ermənıyə, birimiz çeçenə, mən isə öz millətimizə bənzətdim. Bəxtiyar müəllim sakitcə dedi:—«Hər hansı millətdən olurlarsa olsunlar mən onların birliyinə həsəd aparıram. Kaş mənim millətimin oğullarında da belə bir birlik olaydı!»

Az keçməmiş həmin gənclərdən biri ayağa qalxıb, Bəxtiyar müəllimə yaxınlaşdı:

—Bəxtiyar müəllim, xahiş edirik bizim süfrəyə buyurasınız!...

Kaş, həmin anda şairin üzünə baxaydınız! Gözləri sevincdən

yanırdı. Dodaqlarında qəribə təbəssüm cilvələnirdi...

O heç bir söz demədən, ayağa qalxdı, bir-bir onlara yaxınlaşıb ata-bala kimi öpüşdü. Sonra ürəklərini sındırmamaq üçün qədəhi götürdü, hər birinin qədəhinə vurdu. Lakin içmədi. Təşəkkür edib, yenidən yanımıza qayıtdı. Biz də heyranlıqla ona baxırdıq. Gənclərin səmimiliyi və birliyi ona xoş gəlmişdi...

Atamın səksən yaşı tamam olmuşdu. Qızım Tibb Universitetinə qəbul edilmiş, oğlum Orxanın isə ad günü idi. Bu münasibətlə bağda kiçik məclis düzəltmişdim. Qərara aldım ki, məclisə Bəxtiyar müəllimi də dəvət edim. O, xahişimi yerə salmadı. Onun məclisdə iştirakı ailə üzvlərimizin sevincini ikiqat artırmışdı. Bəxtiyar müəllim atamı, sonra qızımı təbrik etdi. Əlbəttə, hamımız onun çıxışını gözləyirdik. Yadımdan heç çıxmaz. O, oğlum Orxan haqqında arzularını belə söylədi:

—Uşağa doğru ad seçmisiniz. Onun iki mənası var: həm tayfa xanı, həm də torpaq xanı deməkdir. Mən arzu edirəm ki, balaca Orxan torpaqlarımızın xanı kimi böyüsün, səadətini xalqa xidmətdə tapsın!

Sonra şair bizim xahişimizlə «Səadət nədir?» şerini oxudu. Aşağıdakı misralar həmişə xəyalımdadır:

Tapdım səadəti dara düşəndə,
Alıb öz gücümü xəyallarımdan.
Kiməsə... nəyəsə... hardasa... mən də,
Gərək olduğumu bildiyim zaman.

Çıraq ol! Nurunu artır günbəgün,
Hər yerdə həyatın boğ zülmətini.
Məncə, çıraq olub başqalarıyçün
Yananlar tapıblar səadətini!

Bir şərtlə ki, bu səadəti «quşa bənzər» Vətəndə tapasan! Kaş ki, bu Vətən qoşa qanadla pərvazlanaydı! Şairin ən böyük arzusu budur! Onun qoşaqanad poeziyası kimi!..

Həmin gün xatirə üçün şəkil çəkdirdik. İndi həmin fotoşəkli oxuculara təqdim edirəm...

"İki sahil", 12 oktyabr 1995-ci il.

TALEYİN QİSMƏTİNDƏN ZAMANIN HÖKMÜNƏ DOĞRU

Əlahəzrət Zamanı daim hər şeydən qüvvətli, hər şeyə qadir hesab etmiş, onu bütün dərdələrin dərmanı, müşküllərimizin çözümü saymışıq. Və onun çıxardığı hökmlərin, verdiyi qiymətlərin dəqiqliyinə, ədalətliliyinə heç vaxt şəkk-şübhəmiz olmayıb. Bu yazımızı da Zamanın buyurduğu bir hökmlə başlamaq istərdik: Bəxtiyar Vahabzadə Azərbaycan xalqının XX əsrdə yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Bəli, bu məhz Azərbaycan xalqının tələbi ilə Zamanın çıxardığı hökmdür. Və bu hökmü heç vaxt heç kim pozmağa qadir deyil. Çünki Zamanın hökmü ilə Tarix artıq razılaşaraq onu öz ağuşuna almışdır.

Sual yarana bilər: Zaman öz qərarında tələskənliyə yol verməyib ki? Tez deyilmi? Əsla yox! Elə əsl vaxtıdır! Bəs deyilmi gecikmiş hökm və qiymətlər? Nə üçün kimlərinsə, kiçik bir azlığın çox zaman da bilə-bilə bu fikirlə razılaşmayacağından ehtiyat edib haqqı gizlətməliyik? Nə üçün bütün həyatını xalqının dərd-sərinə həsr etmiş, çoxları susduğu vaxt hamının əvəzinə danışmış, hamının sözünü demiş, bir sözlə, millətin iradəsini ifadə etmiş şairimizin haqqını qorumayaq, onun müdafiəsinə qalxmayaq (əslində sevimli şairimizin müdafiəyə bir o qədər də ehtiyacı yoxdur)!?!

B.Vahabzadəni müdafiə etmək üçün çox fikirləşmək, baş sındırmaq lazım deyil. Sevimli şairimizin keçdiyi həyat yoluna, idraki emosiyadan fikrə, fikirdən isə həyata ünvanlanan sənətinə bir daha yenidən nəzər salmaq kifayətdir. B.Vahabzadə ədəbiyyata 40-50-ci illərdə gəlmişdir. Bu illərin isə nə qədər mürəkkəb, təzadlı, ziddiyyətli olduğu hamımıza bəllidir. Arxada insan şüurlarından hələ də silinməmiş 30-cu illərin repressiya qorxusu, irəlidə yalan və saxta şüarlardan ibarət cəmiyyət və bu şüarların arxasında isə üzdə onlarla həmrəy olduğunu bildirən şairin ürək ağrıları dururdu. Lakin bu dövrdə belə B.Vahabzadə ipə-sapa yatmadığını, lazım gəlsə, sözü ilə qılınc kimi kəsə biləcəyini gizlətmirdi.

Mən çılğınam, mən dəliyəm,
Əvvəlcədən biləmmədim–
Hansı dağdan enməliyəm,
Hansı düzdən keçməliyəm.

B.Vahabzadənin 50 illik yaradıcılığı haqda yazmaq bu 50 ildə Azərbaycan xalqının taleyindən keçmiş irili-xırdalı bütün problemlərdən danışmaq, millətin yaxın-uzaq keçmişinə nəzər salmaqla bu günü üçün ibrət dərsi almaq, qonşu dövlətlərdə baş verənləri müşahidə etməklə hadisələrin bizə bir qədər də yad olmadığını, yadelli qəhrəmanların yaşadıqlarının eynilə bizim də aqibətimizdən xəbər verdiyini hiss etmək deməkdir.

Bəli, B.Vahabzadə yaradıcılığında bütöv Azərbaycan taleyi yaşayır. Şair təkcə bu taleyi qələmə almaqla kifayətlənmir, tarixin bütün mərhələlərində millətin ruhunu duyur, arzu və istəyini, sözün əsl mənasında anlayır, özü də bu arzu və istəyin carçısına çevrilir. Millətin də, onun şairinin də ümdə arzusu isə Azadlıqdır. Şəxsiyyətin və millətin azadlığı...

B.Vahabzadə ürək təşnəsinə çevrilmiş bu arzusunu heç zaman gizlətməmiş, müxtəlif donlarda təqdim edilən azadlığı isə qəbul etməmişdir.

Vuruşmadıq, barışdıq
Biz azadlıq adlanan
Bir uydurma nağılla.
Ölən düşüncələrə
qəlbimiz yas saxladı.
Həqiqəti deməkdən elə qorxduq,
Ağılla
Həqiqət arasında
Hörümçək tor bağladı.

Nəinki ağılla həqiqət, hətta düşüncə ilə dilimiz arasında belə hörümçək tor bağladığı vaxtda—1960-cı illərdə yazılıb bu sətirlər. Və aradan uzun zaman fasiləsi keçdikdən sonra da şair azadlıq ideallarına sadiq qalır.

Azadlıq! Azadlıq! Ömrüm boyunca
Sənin acın oldum, möhtacın oldum.
Zaman dilimizi qıfıllayınca
Mən sənin daha çox leylacın oldum.

Azərbaycan ədəbiyyatı tarixində B.Vahabzadə kimi öz-özünü tənqid edən ikinci şair tapmaq çətindir. "Bircə ondan razıyam ki, özümdən narazıyam" misraları sanki şairin sənət amalına çevrilmişdir. Hansı şair onun kimi "səhvlər üstdə boy atdığını", "yanıla-yanıla haqqa qovuşduğunu", "inkarın köməyi ilə təsdiq olunduğunu" etiraf etmişdir?

Səhvlərim alnımdakı qırışlarım,
Qəlbimdəki vuruşlarım.
Əzablar da mən özüməm,
Mən könlümün öz səsiyəm,
Rahatlıqda özgəsiyəm...
Səhvlərim–ürəyimin dilimdəki
Həm sevgisi,
Həm nifrəti.
Səhvlərim dost danlağı,
yad töhməti.
Səhvlərim! Səhvlərim siz mənsiniz!
Mən də sizəm!
Mən səhvimdə səhvsizəm!

Bunu yalnız B.Vahabzadə şəxsiyyəti, təfəkkürü bacarardı. Çünki öz daxilinə müharibə elan etmək, öz "mən"i ilə döyüşmək hər şairin, hər kişinin işi deyil. Bunun üçün ilk növbədə zahirinin daxilinə hesabat verməsi, bu zaman zahirin səmimi, düz olması, daxilin haqlı tələblərinə cavab verməsi və daxilin isə zahirdən razı qaldıqda belə bunu hiss elətdirməməsi lazımdır. Bunun üçün müdrik fəlsəfə və bu fəlsəfənin ziddiyyətli, dolanbac yollarından, mürəkkəbliklərindən keçib zərrə-zərrə durulaşan, aydınlaşan ömür yolu gərəkdir. Və nəhayət, bunun üçün əsl Vətəndaş, İnsan olmaq gərəkdir.

Bu gün hər birimiz B.Vahabzadənin Vətənə, torpağa, millətə qarşı duyduğu sevgisinin, məhəbbətin kiçik damlasını qəlbimizdə yaşatsaydıq, inanıram ki, bir çox bəla və əngəllərdən uzaq olardıq. B.Vahabzadə kimi millət, xalq üçün "yanaraq yaşasaydıq" tezliklə xoşbəxtliyə qovuşardıq. Biz B.Vahabzadə şəxsiyyətindən, sənətindən çox şey öyrənmişik, öyrənirik. Deyirəm, sevimli şairimizdən Vətəni sevməyi də öyrənərdik kaş!

Vətən torpağından yaranmışam mən,
Şərimdir–Vətənin gül-çiçəkləri.

Məsləkim rəngini dəyişdirməyən
Vətən torpağıdır əzəldən bəri.

B.Vahabzadə, eyni zamanda, müdrik filosofdur. Onun bütün misraları özünəməxsus fəlsəfi yük daşıyır, mükəmməl fəlsəfi təfəkkürün təzahürü kimi meydana çıxır. "Ələ keçməmək üçün fırlanan dünyanın ətəyindən tutmaq istəyən" şair fəlsəfəsində də vüqarlıdır, əyilməzdir. Yalnız öz azadlığına Tanrı, haqq deyən şair heç bir hökmə, fərmana baş əyməsə də "dünən qanmadığını bu gün ona qandıran" zamanın quluna çevrildiyini də etiraf etməkdən çəkinmir. Şairin fəlsəfəsi də özü kimi təzadlar üzərində qurulmuşdur. Xeyir və Şər, Ölüm və Həyat, Yalan və Həqiqət onun şerlərinin daim mübarizə aparan, bəzən isə yerləri səhv düşən, bir-birilə qaynayıb-qarışaraq ayırmaq sərhədlərini müəyyən etməkdə belə çətinlik çəkdiyimiz qəhrəmanlarına çevrilmişlər.

Yaxşı da, yaman da bizdədir deyin,
Nə bunun, nə onun öz odu yoxmuş.
Xeyir, Şər qol-qola! Nə yüksəkliyin,
Nə də alçaqlığın hüdudu yoxmuş.

Dünya sirlərini axtaranlara isə şairin məsləhəti nə qədər ədalətli və təbiidir.

Dünyanın sirrini gəzmə dünyada,
İçində axtarıb qəlbinə saplan!
Acizsən, oldunsa, qulu dünyanın,
İçindən başlanır yolu dünyanın...

Bəli, B.Vahabzadə dünyası da şairin öz içində, onun içəri dünyasının sızıntıları olan şerlərində yaşayır. Başqa parametrlərə görə ona qiymət vermək istəyənlər ciddi yanlışlığa yol verirlər.

Düzdür, B.Vahabzadə dünyası o qədər mürəkkəb, ehtiraslı, narahatdır ki, bü dünyanın içinə doğru irəlilədikcə heyrətlənməyə təəccüblənməyə bilmirsən və heyrətlənərək, təəccüblənib düşünürsən. Çünki bu poeziya düşüncə, mühakimə və nəhayət, idrak poeziyasıdır. Bu dünyanın sahibi isə sakit olduğu qədər narahat, həyəcanlıdır. Prof. Nizami Cəfərov yazır:

Bəxtiyar Vahabzadə həmişə "aşağılar"ın adamı olub və başa çıxanda da "aşağılar"ın adamı kimi çıxıb; "ortalar"dan fərqli olaraq "aşağılar" Bəxtiyarı "yuxarı"da görməkdən həmişə bir ictimai rahatlıq duymuşlar və bu gün də duymaqdadırlar.

İçimdə fırtına var,
Fırtına var, fırtına.
Toxunma gəl, toxunma
Hirsimin barıtına!
Dayanmışam önündə
Sakit, səssiz dağ kimi.
Hissim, həyəcanımsa
Alov tutub içimdə
Alışır ocaq kimi.

Hələ şair 1972-ci illərdə belə sakit, səssiz dağın bir zaman barıt kimi partlaya biləcəyini bəyan etməklə kimlərəsə meydan oxumurdumu?

B.Vahabzadə narahat şair, narahat filosof və nəhayət, narahat insandır. Qəlbindəki çarpışmalardan narahatdır, dünya üçün narahatdır, Azərbaycan üçün narahatdır. B.Vahabzadə dünən də, bu gün də haqsızlığa, zülmə, köləliyə, riyakarlığa meydan oxuyurdu. Dünən də millətin önündə gedirdi, bu gün də... Və bizim hər zaman olduğu kimi bu gün də şairin sözünə, məsləhətinə, əməlinə ehtiyacımız var. Bu ehtiyac içimizdən, duyğularımızdan gələrək ətrafda baş verənlərlə çuğlaşıb real tələbata çevrilir.

Şairin yaradıcılığı haqda danışıb onun lirikasından söz açmasaq, günaha batarıq:

"Dənizəm, bezmişəm tələtümümdən"

Dəniz qasırğaları qədər tələtümlü, bahar nəsimi kimi həzin poeziya... Sevən ürəklərin həmdəmi... Çırpınan qəlblərin sirdaşı...Bəxtiyar Vahabzadə lirikası...

Daim vurğunu olduğum, dönə-dönə oxuduğum, etiraf edim ki, doymadığım, pərəstiş etdiyim sənət.

Əsrlər boyu söz sənətkarlarına şöhrəti onların məhəbbət mövzusunda yazdıqları əsərlər gətirmişdir. İllər ötür, nəsillər dəyişir. Yaddaşlarda isə Leyli-Məcnunlar, Xosrov-Şirinlər, Əsli-Kərəmlər qalır. Çünki həyatda hər şey bir-birini əvəz edir, köhnələr təzələnir. Dəyişməyən, qocalmayan təkcə məhəbbətdir. Və bu məhəbbəti sözün qüdrəti ilə yazılara köçürən sənətkarlardır ölməz. Bu mənada Bəxtiyar Vahabzadə bəxtəvər şairdir. Onun sevgi nəğmələri dünya durduqca yaşayacaq, qəlblərə, ürəklərə hərarət gətirəcək, məhəbbət adlı sirli aləmə səsləyəcək oxucularını.

Bəxtiyar Vahabzadə lirikası adlı dəryaya baş vurduqca, bu sənədlə baş-başa qaldıqca onun əhatəliyinə, hərtərəfliliyinə heyran olmaya bilmirsən. Bu poeziyada bütün sevən ürəklərin payı var: Vüsal məstliyindən başı dumanlananlar da, həsrət yükünün ağırlığını çiyinlərində daşıyanlar da, ayrılıq oduna yananlar da bu sənətdə ürəklərinə məlhəm tapa bilərlər. Şairin hər misrası çılğın eşqdən xəbər verən şerlərini oxuduqca "ürəkdə hicran çöplərindən qaladan möhkəm yuva qurmuş həsrət" də, "nəğmələri yarımçıq qoyan ayrılıq" da insana doğmalaşır, həmdəm olur. Və qəlbində məskən salan sevginin, bu sevginin böyüklüyündən doğan sonsuz həsrətin, şirin vüsalı haraylayan hicranın əzabları da məst edir səni. Çünki bu şerlər yüngül, ötəri hisslərdən yox, "ancaq məhəbbət üçün yaranan, bütün varlığı ilə sevməyi xoşbəxtlik sayan" şairin könül çırpıntılarından xəbər verir. Çünki bu şerlərin hər misrası böyük bir fəlsəfədir. Düşünməyə vadar edən fəlsəfə. Mənə elə gəlir ki, hələ heç kəs həsrətdən, vüsaldan, ayrılıqdan Bəxtiyar Vahabzadə kimi söz açmayıb.

"Sənə həsrətimdə tapmışam səni"

Bəxtiyar həsrətini cəsarətlə Bəxtiyar sanmaq olar. Bir çoxlarının vüsalından şirindir Bəxtiyar Həsrəti. Çünki şair heç vaxt Həsrətin quluna çevrilmir, əksinə onu ram etməyi bacarır. Bu sonsuz həsrətdən mütləq nə isə götürür, onu özününküləşdirir, ona qalib gəlir. Bir sözlə, həsrətə meydan oxuyur.

Eşq həsrətin anası,
Həsrət aşiqə ustad...

* * *

Həsrətinin zülməti
Gözlərimə nur verir,
İdrakıma göz olur.

Bəli, aşiq Bəxtiyarın ustadı həsrətdir. Və bu ustaddan dərs alan şair həsrət zülmətini göz nuruna çevirməyi bacarır.

Şairin lirikasında, poeziyasında hicran əzablarından doyan ah-naləyə rast gəlmək qeyri-mümkündür. Şair həsrətə fəlsəfi don geyindirib, onu elə bir zirvəyə qaldırır ki, özün başlayırsan həsrətin həsrətini çəkməyə.

Eşqində itmişəm mən ilim-ilim,
Elə zənn edirəm, gənclik çağımdır.
Həsrətlə baxmağım sənə, sevgilim,
Həsrətə həsrətlə boylanmağımdır.

"Vüsal dəmlərində sən nur, mən çıraq"

Belə sonsuz həsrətdən sonrakı vüsalın şirinliyini təsəvvür etmək bir o qədər də çətin deyil. Məhz belə vüsal anlarında "zamanın dayanmağını" arzulayır şair.

Görüş vaxtımızda bir daş asılsın
Bütün saatların əqrəblərindən.

Vüsal dəqiqələrində şair üçün vaxt, müddət anlayışı itir. Aşiq bir dəqiqəlik vüsal üçün bütün fədakarlıqlara hazırdır.

Sənlə olduğum bir dəqiqəni
Sənsiz keçirdiyim ilə verərdim.

Və Bəxtiyar Vahabzadə böyük eşqi ilə, bu eşqin yolundan çəkdiyi əzab-əziyyətlərlə özünü bəxtiyar sanır.

Özün bir aləmsən, eşqin bir aləm,
Sən olan könüldə nə kədər, nə qəm.
Sənsiz bu dünyanın ən bədbəxtiyəm,
Sənlə dünyada bəxtiyaram mən.

...Söhbətimizə Zamanın hökmü ilə başlayıb onun mütləq qəbul edilməsi istiqamətində davam etdirdik. Sonda yenə Əlahəzrət Zamana müraciət edib onun mühakiməsinə digər müddəa təqdim edirik. Azərbaycan tarixində XX əsr ədiblərindən 5-i qalacaqsa, bunların biri şübhəsiz, Bəxtiyar Vahabzadə olacaq, yox əgər 3-ü qalacaqsa, yenə də bu yerlərdən biri Bəxtiyar Vahabzadəyə məxsusdur, 2-i qalarsa, onlardan biri mütləq Bəxtiyar Vahabzadə olmalıdır...

«Yeni Azərbaycan», 17 noyabr 1998-ci il.

Akif SALAM

BƏXTİYAR UCALIĞI

Sevimli xalq şairimiz, dramaturq, publisist, millət vəkili, akademik, SSRİ və Azərbaycan Dövlət mükafatı laureatı, əməkdar incəsənət xadimi Bəxtiyar Vahabzadənin yaradıcılıq yolu və ayrı-ayrı əsərləri haqqında monoqrafiyalar, kitablar və dünyanın müxtəlif ölkələrində onlarla, yüzlərlə məqalələr yazılmış, əsərləri təhlil edilmişdir. Mən bu yazımda onun bir yaradıcı kimi deyil, bir şəxsiyyət, bir vətəndaş kimi insani keyfiyyətlərindən bəhs etmək istəyirəm. Bu məsələyə keçməmişdən əvvəl onun böyük yaradıcılığı haqqında dünyanın bir sıra tanınmış görkəmli Dövlət xadimlərinin, yazıçılarının, alimlərinin fikirlərinə toxunmağı vacib bildim:

"Əziz Bəxtiyar müəllim, Sizin şəxsiyyətiniz və yaradıcılığınız xalqın milli təfəkküründün formalaşmasına xidmət etmiş, onu milli dirçəlişə səsləmiş, istiqlaliyyət uğrunda mübarizədə əvəzsiz rol oynamışdır. Siz hər zaman azadlıq carçısı olmuş, ən çətin anlarda belə güc və silah qarşısında baş əyməmiş, əqidəsindən dönməyən şair, mübariz millət vəkili, yorulmaz ictimai xadim kimi xalqın müdafiəsinə qalxmısınız".

HEYDƏR ƏLİYEV

"Hörmətli B.Vahabzadə, Sizin ədəbi yaradıcılığınız bütün Türk dünyasının mənəvi birliyi və yüksəlişi ilə də yaxından əlaqəlidir. Odur ki, Sizi sadəcə azərbaycanlı qardaşlarımızın deyil, çağdaş Türk dünyasının böyük bir qələm ustadı olaraq salamlayıram".

Türkiyənin sabiq prezidenti
SÜLEYMAN DƏMİRƏL

"Bəxtiyar ona görə Bəxtiyardır ki, onu xalq sevir. Xalqı da ona görə bəxtiyardır ki, onun Bəxtiyar kimi övladı var."

Bəstəkar NİYAZİ

"Keçən il Bakıda Bəxtiyarın yeni şerlərinin sətri tərcümələri ilə tanış olandan sonra mən bir həqiqəti—poeziyanın, şeriyyətin onun qanında və canında olduğunu anladım. O, üzdə üzmür, insan

hissiyatının dərin qatlarına baş vurur... O, müstəsna istedada malik qeyri-adi şairdir".

YEVGENİ YEVTUŞENKO

"Bəxtiyar Vahabzadənin yeni "Şerlər" kitabını oxudum. Həmin şerlərdə zaman yaşayır. Bizim "qayğı yükümüz"ə tab gətirən, dərd-sərimizə şərik olan qoynunda yaşadığımız zaman! Şerlərinin qüdrəti də məhz bundadır. Eyni sistemə daxil olan türk mənşəli dillərimiz bir-birlərinə yaxın olduğuna görə, azərbaycanlılar məni çox asanlıqla inandırırlar ki, indiki dövrdə Bəxtiyar Vahabzadənin yaradıcılığı orijinal milli poetik fikrin ən böyük nailiyyətlərindən biridir. Zəngin Azərbaycan ədəbi ənənələri müqabilində bu cür nüfuz və şöhrət qazanmağın çox-çox çətin olduğunu asanca təsəvvürümə gətirirəm".

ÇİNGİZ AYTMATOV

"Bəxtiyar Vahabzadənin düşüncəsi dərin, ürəyi nazik, dili kəskin və qələmi itidir. O, həm düşüncə, həm də duyğu şairidir. O, fəlsəfi fikirlərini incə şer dili ilə ifadə etməyi bacaran nadir şairlərdəndir."

CAVAD HEYYƏT

"Bakıda olduğum müddətdə öyrəndim ki, xalq Bəxtiyar Vahabzadəni çox sevir. O, sovet hakimiyyəti illərində müxtəlif bədii üsullardan-alleqoriya və bənzətmələrdən istifadə edərək mövcud quruluşa qarşı etiraz səsini ucaldan əyilməz bir sənətkardır.

STEPHEN KİNZER
Amerika ədəbiyyatşünası

Dünyanın bu nadir adamlarının şairimizin yaradıcılığı və şəxsiyyəti haqqında dediyi bu tutarlı sözlərindən sonra mən onun bizə daha çox məlum olan insani keyfiyyətlərindən söz açmaq istəyirəm. Çünki yaradıcılığın böyüklüyü şəxsiyyətin böyüklüyündən irəli gəlir.

Mən əyalətdə yaşayan qələm əhli kimi Bəxtiyar Vahabzadəni harada, necə görmüşəmsə, onu yaza bilərəm. Tale isə belə gətirib ki, biz böyük ustadın üzünü ildə bir dəfə, o da yay aylarında Şəkiyə gələndə görürük.

Bəxtiyar müəllimi yaxından tanıyanlar yaxşı bilirlər ki, gündüzlər bir yana, gecələr də onun gözünə yuxu getmir. Ümumiyyətlə, xalqımız bu bəlalara düçar olandan bəri Bəxtiyar müəllimin

lüğətində istirahət kəlməsi yoxdur. Söz düşəndə, o deyir ki, Vətəni, yurdu düşmən tapdağı, qız-gəlinləri əsir-yesir olan bir ölkənin vətəndaşlarının gözlərinə şirin yuxu getməməlidir. El-obaya, yurda qırılmaz tellərlə bağlı olan böyük ustad hər il yay aylarını ata yurdu Şəkidə keçirir. Ata yurdu! Bunu dedim Bəxtiyar müəllimin doğulub boya-başa çatdığı ev yadıma düşdü. Bəxtiyar müəllim çoxdandır ki, orada yaşamır. O, hələ 60-cı illərdən ata mülkünə "əlvida" deyib və ata mülkünü bağça uşaqlarının ixtiyarına vermişdir. Bu il Şəki İcra Hakimiyyətinin köməyi ilə indi bağça olan bina təmir olundu.

O zaman bizim "Şəki" qəzeti həmin vətənpərvərlik təşəbbüsünü yüksək qiymətləndirərək yazmışdır ki, şair ata evini uşaqlara bağışlayıb, qəlbini xalqa.

Bəxtiyar müəllim bundan xəbər tutan kimi, Bakıdan redaktora zəng vurub, materialı səhifədən çıxartdırmışdır. Müxbirə isə demişdi ki, qardaş diqqətinizə görə sağ olun, amma sağ əlin gördüyünü sol əl bilməməlidir. Mən bu işi özünütəbliğ üçün eləməmişəm. Onsuz da hər şeyi Allah görür.

Qərəz ki, hal-hazırda Bəxtiyar Vahabzadənin doğulub boya-başa çatdığı, Şəkinin qədim və ucqar məhəllələrindən birində yerləşən ata evində Şəki şəhər 3 saylı uşaq bağçası fəaliyyət göstərir.

Hər il Bəxtiyar müəllim doğma yurda gələndə istirahət etmək əvəzinə, onun işi, gücü, qayğıları birə on qat artır. Təəssübkeş vətən övladı ilk növbədə ata-anasının, doğmalarının, ulularının, Şəki şəhidlərinin uyuduqları məzarları, o cümlədən, ata evini ziyarət edir. Bəxtiyar müəllimin ata evinə gedən yolun üstündə valideyn himayəsindən məhrum olmuş iki tərbiyə müəssisəsi—bir internat məktəb, bir uşaq evi də fəaliyyət göstərir. Bəxtiyar müəllim hər dəfə Şəkiyə gələndə həmin uşaqlara baş çəkməyi, həmin müəssisələrdə çalışanların vəziyyəti ilə tanış olmağı, onlara ərzaq məhsulları—ət, yağ, şəkər, pay-prüş, sovqat göndərməyi də özünə borc bilir. Yetim uşaqlar Bəxtiyar müəllimi sözün həqiqi mənasında doğmaları, əzizləri kimi sevir, onun şerlərini, poemalarını əzbər söyləməkdən yorulmurlar. Şübhəsiz ki, bu görüşlərdən sonra Bəxtiyar müəllim xeyli vaxt özünə gələ bilmir, təsirlənir, duyğulanır, yenidən qələmə sarılır.

Bəxtiyar Vahabzadə indi şəhərin başqa bir ucqarında, dəbdəbədən uzaq, olduqca adi, sadə, şəkililərin dili ilə desək, kürsülü bir ev tikdirmişdir. Hər il Bəxtiyar müəllimin Şəkiyə gəlişi ilə bu evdə həyat yenidən canlanır. Şair həmvətənlərini nə qədər çox istəyirsə, həmvətənləri də onu bir o qədər çox istəyirlər. "Ürəkdən ürəyə yollar gö-

rünür". Bəxtiyar müəllim Şəkiyə gələn kimi qonum-qonşu, eşidən-bilən onun görüşünə gəlir. Biri onu ata, biri babası, biri isə qardaş kimi bağrına basır. Rayonun rəhbərləri ağsaqqallar, ağbirçəklər, ziyalılar isə demək olar ki, hər gecə şairin başına yığışırlar. Bəxtiyar müəllimin ömür-gün yoldaşı Dilarə xanımın hazırladığı çay süfrəsi arxasında gözəl bir söhbət, şirin bir ixtilat başlayır. Bəzən bu söhbətlər gecə yarıya qədər davam edir. Heç yadımdan çıxmaz. Bir dəfə şairin başına toplaşanlar Şəkidə sel-suların törətdiyi fəlakətdən danışırdılar. Axı, Şəki Böyük Qafqaz sıra dağlarının qoynunda yerləşir. Hər il yaz-yay ayları gələndə şəhərin, eləcə də onun ətraf kəndlərinin sakinlərinin canını qara qayğı alır. Sel təhlükəsi "Domokl qılıncı" kimi şəhərin başının üstünü kəsdirir. Bu məsələni isə həll etməyə nə adamların, nə də yerli hakimiyyət orqanlarının gücü çatır. Bunu görən Bəxtiyar müəllim dərhal özünün nüfuzundan ölkə rəhbərliyinin ona olan hörmətindən istifadə edərək aidiyyəti respublika təşkilatları qarşısında məsələ qaldırdı. Nazirlər Kabinetindən tutmuş Prezident Aparatına qədər gedib çıxdı. Ən nəhayət, möhtərəm prezidentimizlə görüşərək Şəkini sel təhlükəsindən xilas edəcək uzunluğu 5 km, layihə-smeta dəyəri 17 mlrd. manat olan nəhəng hidrotexniki qurğunun inşasına nail oldu. Beləliklə, Şəki öz övladının qayğısı ilə sel təhlükəsindən biryolluq xilas edildi.

Bu da xatirimdədir ki, gənc yazarlar yığılıb şairin görüşünə gəlmişdilər. Onlar Şəkidə Azərbaycan Yazıçılar Birliyinin bölgə filialının açılmasına kömək göstərilməsini xahiş edirdilər. Bəxtiyar müəllim elə onların yanındaca Azərbaycan Yazıçılar Birliyinin sədri Anar Rzayevlə danışaraq bu məsələni yerli yazarların xeyrinə həll etdi.

Xalqımız, el-obamız qədir biləndir. Xeyirxah, savab işlər heç zaman unudulmur. Elə buna görə keçən il Şəki əhli Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər zamanı Bəxtiyar Vahabzadənin namizədliyini irəli sürdü. Şəki müəllimlərinin ənənəvi avqust konfransında gözəl ziyalımız, pedaqoji elmlər namizədi Firədun İbrahimov bu təklifi irəli sürdü.

Bəli, Şəki ziyalıları, eləcə də bütün şəhər əhli 44-cü Şəki seçki dairəsindən ona yekdilliklə səs verdilər.

Budur, Bəxtiyar müəllim yenə də öz doğmaları arasındadır. O, bu dəfə həmvətənləri ilə millət vəkili kimi görüşür. Giriş qapısı bir yana, şair məhəllənin darvazalarını da həmyerlilərinin üzünə geniş açdırıb. Yerli radionun əməkdaşları fürsəti fövtə verməyərək belə

bir elan veriblər ki, Bəxtiyar müəllim bir müddət Şəkidə olacaq və millət vəkili kimi həmvətənləri ilə görüşəcək. Kimin nə sözü, nə dərdi, nə təklifi varsa buyurub onun evinə gələ bilər.

Millət vəkili ona pənah gətirən şikəstləri, xəstələri, qadınları, qocaları ilk növbədə qəbul edir. Əsl şəkililərə məxsus qonaqpərvərliklə gələnlərə çay təklif edir, öz sözünü demək üçün hamıya şərait yaradır, dərdlilərə ürək-dirək verir.

Görüşə gələnlərlə millət vəkili arasında rəsmiyyətdən uzaq, olduqca səmimi və işgüzar bir söhbət başlanır. Bu görüşlər həqiqətən doğmaların, əzizlərin görüşləridir. Bu söhbətlərdə sözün həqiqi mənasında ata-oğul, bacı-qardaş, baba-nənə münasibəti yaranır. Görürsən ki, gələnlərdən birinin əlində ərizə, o birinin əlində müraciət, birinin əlində yazılı nəsə var. Bəxtiyar müəllim zarafatla deyir ki, siz Allah bu ərizələri, müraciətləri bir yana qoyun. Məgər siz atanızın, babanızın, böyük qardaşınızın görüşünə gedəndə, ondan bir təvəqqe edəndə ərizə, müraciətnamə yazıb aparırsınız?

Mən bu yurdun oğluyam. Siz də məni "karvanqıran" hesab edib üstümə gəlirsiniz.

Həmin qəbulların birində biz də—jurnalist kimi mən, icra aparatının işçisi kimi İbrahim Firədun da...iştirak edirik. Bəxtiyar müəllim yenə də adəti üzrə belə şeylər qələmə almağı, necə deyərlər səs salmağı artıq hesab etdiyini bildirir. Amma jurnalist inadkarlığı bu dəfə qalib gəlir.

...Şəki Korlar Cəmiyyətinin sədri, dünya işığından ömürlük məhrum olan İradə Külfir danışmağa ürək eləmir. Şair son dərəcə qayğı və nəvazişlə onu söhbətə çəkir. İradə xanım korlar cəmiyyətinin üzvlərinə taxıl, ərzaq sarıdan kömək olunmasını istəyir.

Bəxtiyar müəllim söz verir ki, icra başçısı ilə danışar. İradə xanımın ikinci bir xahişi də var. Amma deməyə ürək eləmir. O, şairdən xahiş edir ki, onun yeganə qızına Şəki Pedaqoji Texnikumunda təhsilini davam etdirmək üçün kömək olsun.

Bəxtiyar müəllimin qaşları düyünlənir. Bir siqaret yandırıb dərin qullab vurur. Deyir ki, qızım, elmdə, təhsildə güzəşt olmur. Amma sənin vəziyyətini nəzərə alaraq müstəsna hal kimi bu məsələni komissiya üzvləri qarşısında qaldıraram. Bununla əlaqədar Şəki Pedaqoji Texnikumunun direktoru ilə telefon əlaqəsi yaradılır. Texnikumun direktoru Rafiq Şükürov əlindən gələni əsirgəməyəcəyini bildirir.

Millət vəkilindən kömək istəyən Şəki sakinləri Cavanşir

Musayevlə onun həyat yoldaşı Elmira hiss və həyəcanlarını gizlədə bilmirlər. Elmiranın gözlərində yaş gilələnib. Bəxtiyar müəllim onları sakitləşdirir.

Söhbət əsnasında məlum olur ki, gənc ailənin maddi və mənəvi köməyə ehtiyacı var. Cavanşir Bakıya müalicəyə getməli, Elmira isə daimi işlə təmin olunmalıdır. Bəxtiyar müəllim Cavanşirə söz verir ki, onu Bakıda 5 saylı klinikada müalicə etdirəcək. Həyat yoldaşı isə işlə təmin olunacaq.

Qəbula gələnlərdən biri—Ağababa Süleymanov Bakı İqtisadiyyat Universitetini əla və yaxşı qiymətlərlə bitirib. İndi Bakıda yaşayır, işləmək arzusundadır. Bəxtiyar müəllim deyir ki, indi Bakıda iş tapmaq çox çətindir. Sənə söz vermirəm. Amma çalışacağam. Bəxtiyar müəllim Ağababadan ev ünvanını, telefon nömrələrini xəbər alır ki, iş tapan kimi ona xəbər versin.

Görüşə gələnlərdən biri—Mülayim xala yaman tələsir. Dərdli deyingən olar deyiblər. Buna görə də dil boğaza qoymur. Deyir ki, ay Bəxtiyar müəllim, uşaqlara dərman almağa pulum yoxdur. Soğan olsun, nağd olsun. Şair (deyəsən Mülayim xalanı yaxşı tanıyır) əlini cibinə atır və bir göy əlli minlik çıxarıb sakitcə qadının ovcuna qoyur...

Başqa bir həmyerlimiz Fərrux kişinin isə evindən pulu oğurlanıb. Şair Şəki şəhər polis şöbəsinin rəisi ilə telefon əlaqəsi saxlayır. Məlum olur ki, axtarış işləri davam edir. Şair bu işi sürətləndirməyi rəisdən xahiş edir. Onu da xahiş edir ki, bu məsələni həll etdikdən sonra ona məlumat versinlər.

Təhminə Həsənova adlı bir qadın deyir ki, onun oğlu Tofiqi kiminləsə dalaşdığına görə Bakı Dövlət Universitetindən qovublar. Oğlunun yenidən ali məktəbə bərpa olunmasına kömək lazımdır. Şair övladının tərbiyəsi ilə lazımınca məşğul olmadığına görə valideynləri ərklə danlayır və elə həmin andaca universitetin rəhbərliyi ilə telefon əlaqəsi saxlayır. Onlar vəziyyətlə tanış olandan sonra şairin xahişinə əməl edəcəklərinə söz verirlər.

Şəkinin dördyol ayrıcındakı Çələbi xan qəsəbəsində onlarla köçkün ailəsi yaşayır. Onlar içməli su sarıdan əziyyət çəkirlər. Qəsəbənin Bələdiyyə sədri ilə icra nümayəndəsi bu məsələni özləri həll edə bilmədikləri üçün istəyirlər ki, Bəxtiyar müəllim Qaçqınkomun sədri Əli Həsənovla danışıb qəsəbə üçün bir artezian quyusu qazdırsın. Bəxtiyar müəllim bu məsələni Bakıda həll edəcəyinə söz verir.

Qəbulların ən maraqlısı isə Cinayət Məcəlləsinin 179-cu maddəsinin ikinci hissəsi ilə təqsirkar bilinən İsmayılov Rəhimin şairə təşəkkürə gəlməsi idi. Söhbətdən məlum oldu ki, İ.Rəhim dövlət

əmlakını (14 milyon manat) mənimsəmiş, 7-8 gün bundan əvvəl bu işdə kömək üçün şairin yanına gəlmiş, şair rayon prokuroru ilə danışmış, bir çətən külfəti olan bu adamı qanunun verdiyi imkanlardan istifadə edərək necə xilas etməyin yolunu öyrənmişdir. Prokuror da şairə demiş ki, dövlətə vurduğu ziyanı ödəsə qanun onun cəzasını əfv edə bilər. Müqəssir qohum-qardaşdan, tanış-bilişdən pul toplayaraq ziyanı ödəmiş və bu gün məsuliyyətdən xilas olmuşdur.

Bunlala yanaşı elə çətin xahişlər olur ki, bunu şair heç cür həll edə bilmir. Məsələn, təhsilin ödənişsizliyə keçirilməsi. Şair deyir ki, "bu məsələ ilə əlaqədar Bakıda da mənə tez-tez müraciət olunur. Bacarmıram. Avqustun 15-16-dan sonra ödənişli təhsilə qəbul olunan 2 nəfər magistratura haqqının, 4 nəfər isə universitet haqqının ödənişsizliyə keçirilməsini məndən xahiş edib.

Tutaq ki, mən bir rektorla dostluq münasibətindən və yaxud öz nüfuzumdan istifadə edərək bunun birini həll edə bildim. Bəs yerdə qalan 6-sı necə olsun? Birinin ödənişsizliyə keçirildiyini eşidən 5 nəfər mənə necə baxar? Buna görə də qanunu adlaya bilmir və bu xahişlərin əksəriyyətini həll etməkdə aciz qalıram.

Çox qəribədir, indi biz iki sistem arasında qalmışıq. On ildir müstəqil dövlətik. Bu müstəqil dövlətin qanunları sosializm sisteminin qanunları ilə daban-dabana ziddir. Lakin bunu xalq başa düşmək istəmir, yeni sistemə uyğunlaşa bilmir. Köhnə sistemin qanunları ilə bu sistemdən haqqını tələb edir.

Şəxsən məndən soruşsalar, mən təhsilin və səhiyyənin ödənişli olmasının əleyhinəyəm. Amma mənim əlimdən nə gələr?

Təsəvvür edin, öz qabiliyyətləri ilə müxtəlif ali məktəblərə və magistraturalara qəbul olunan bu gənclər lazım olan məbləği ödəyə bilmədiklərindən təhsildən imtina etməyə məcbur olurlar.

Bu bizim gələcəyimiz üçün böyük faciədir. Hələ mən orasını demirəm ki, bu istedadlı gənclərə kömək edə bilmədiyimdən bir vətəndaş, bir insan kimi necə xəcalət çəkirəm.

Camaatda belə bir fikir formalaşıb ki, millət vəkili hər şeyə qadirdir. Amma millət vəkilinin hansı sərhəddə qədər səlahiyyəti olduğunu hələ dərk etməmişik".

Bəli, xalq şairi Bəxtiyar Vahabzadənin şairliyi, alimliyi, ədibliyi nə qədər bənzərsiz, nə qədər əlçatmaz, nə qədər ucadırsa, o, bir xalq elçisi, vətəndaş insan kimi də son dərəcə parlaq, təvazökar, işıqlı, qeyri-adi bir şəxsiyyətdir.

«Yeni Azərbaycan», 25.08.2001

Zülfiyyə ƏHMƏDLİ

«DAHA 5-6 NƏFƏRİ XİLAS ETMƏK OLAR»

Xalq şairi Bəxtiyar Vahabzadə Şəkidə həbs olunanların məsələsini yenidən qaldıracaq

Xalq şairi Bəxtiyar Vahabzadənin 18 noyabr Şəki hadisələrindən sonra həmin rayona birinci səfəri yanvarın 9-na təsadüf edir. Düzdür, hadisələr vaxtı Şəkiyə getmədiyi üçün çoxları onu qınadı, elə şəkililərin özləri də. Ancaq millət vəkilinin rayona gəlişi Şəki hadisələriylə bağlı həbs edilən 7 nəfərin azadlığa buraxılmasıyla nəticələndi.Sən demə, şairin Şəkiyə səfərinin bu qədər uzanması ölkə başçısının ona verəcəyi xüsusi səlahiyyətlərlə bağlı imiş: «Şəki çamaatı birini bilir, beşini bilmir. Bilirsiniz, Şəkiyə niyə gec getdim? Oranın taleyini Şəki yox, Bakı həll edir. Qaldım, prezidentlə görüşdüm, ondan müəyyən səlahiyyətlər alıb sonra getdim».

Bəxtiyar Vahabzadə Şəkiyə yola düşməzdən əvvəl Daxili İşlər naziri Ramil Usubov və Baş prokuror Zakir Qaralovla görüşüb. Ona verilən səlahiyyətlər çərçivəsində müəyyən məsələlər müzakirə olunub. Sonda həbs olunanlardan 6 nəfərin adı yazılmış siyahı millət vəkilinə təqdim edilib. Bildirilib ki, xalq şairi bu adamları zamina götürə bilər. Bəxtiyar müəllim heç onların nədə ittiham olunduqları ilə dərindən maraqlanmayıb. Şəkiyə gedərək həmin adamları zamina götürüb. Prezident Heydər Əliyev isə ona deyibmiş ki, həbsdə olanların özləri ilə danışa, ailələri ilə görüşüb ərizələrini qəbul edə bilər. Şəkidə olduğu bir gün müddətində millət vəkili həbsdə olanlardan bəzilərinin ailələri ilə görüşüb: «Onların ərizələrini aldım. Ərizələrdə yazılanlara görə, həbs olunanlar arasında iki ruhi xəstə də var. İndi xahiş etmişəm ki, həmin iki nəfərin xəstəliyi ilə bağlı mənə arayış versinlər. Mənə elə gəlir ki, daha 5-6 nəfəri xilas etmək olar».

Hazırda 18 noyabr hadisəsinə görə həbsdə olanların dəqiq sayı barədə məlumatsızdır: «Onların sayı təxminən 15 nəfər olar». B.Vahabzadə təqdim edilən ərizə və şikayətlərlə tanış olandan sonra bu şəxslərin azadlığa buraxılması məsələsini qaldıracaq. Yəqin ki, bunun üçün yenidən müvafiq orqanların rəhbərləri ilə görüşüb problemi müzakirə etməli olacaq. Ona görə də bizimlə söhbətində Şəkiyə növbəti səfərinin nə vaxt reallaşacağının hələlik məlum olmadığını dedi.

«Azadlıq», 12 yanvar 2001-ci il

Teymur XƏLİLOV

DİQQƏT VƏ MARAQLA İZLƏYİRƏM

Mən bir oxucu kimi xalq şairi Bəxtiyar Vahabzadənin ədəbi-bədii, elmi-publisistik yaradıcılığını, ictimai fəaliyyətini böyük diqqət və maraqla, poeziyamızın müdrik ağsaqqalına xüsusi hörmətlə izləyirəm. Onun son illər qəzet, jurnal səhifələrində dərc edilən əsərlərini dönə-dönə oxumuşam, mavi ekranda səslənən şerlərini dinləmişəm, «Göytürklər» («Özümüzü kəsən qılınc») pyesinin tamaşasına baxmışam. Əziz xalq şairimizin yaradıcılıq bəhrələri ilə hər bir tanışlıq mənim üçün yeni bir zövq mənbəyinə çevrilir. Hər əsər məndə yeni bir təəssürat oyadır, yaxud da əvvəllər oyanmış təəssüratımı cilalayıb dərinləşdirir. Bəxtiyar müəllimin son vaxtlardakı yeni əsərlərinin də mənim qəlbimdəki əks-sədası belədir.

Bu heyranlığın səbəbləri nədir? Əvvələn, deyim ki, Bəxtiyar müəllimin ilhamı qətiyyən soyumur. Əksinə, öz içindən daim alışıb şölələnir. H.Cavid «Azər» poemasında yazır ki, sənət bir gözəl qızdır. O, asanlıqla ram olmur. Əzmində səbrü-səbat olsa, illərlə onun nazını çəksən, o qız da sənin üzünə gülümsər.

Oxucuların və bütün xalqımızın xoşbəxtliyidir ki, B.Vahabzadənin əzmində böyük səbrü səbat var. O, sənət adlanan gözəlin nazını bütün ömrü boyu çəkmişdir. Həmin gözəl – ilham pərisi də şairin üzünə daim gülür. Məhz buna görə də onun qələmi məhsuldardır.

Belə məhsuldarlıq təkcə ilham pərisinin xidməti deyil. Bəxtiyar müəllimin böyük iş qabiliyyətinin də rolu əvəzedilməzdir.

B.Vahabzadənin intensiv yaradıcılıq uğurlarını təmin edən başqa güclü bir amil də var. O, ölkəmizdə, dünyada baş verən ictimai-siyasi hadisələri, ədəbi-bədii prosesi ardıcıl izləyir, ən mühüm hadisələrə milli mənafe baxımından münasibət bildirir.

Burada bir xüsusiyyət də diqqəti cəlb edir. Bəxtiyar müəllim ədəbi-bədii keyfiyyəti heç vaxt ədəbi-bədii məhsuldarlığa qurban vermir. Əksinə onun əsərlərinin sənət baxımından dəyəri illər keçdikcə əsaslı surətdə kamilləşir. Ədəbi-bədii geriləmə, öz-özünü təkrar kimi hallar onun yaradıcılığından çox uzaqdır. O, heç vaxt imzasının mətbuat səhifələrində görünməsi, səsinin efirdə eşidilməsi üçün yazmır. Yalnız oxuculara və bütün xalqa deməli yeni sözü olduqda ya-

zır. Yeni söz isə, əlbəttə, yeni də ifadə tərzi tələb edir. Onun dilimizin incəliklərindən, xalq deyimlərindən bəhrələnmək ustalığı əvəzsizdir. B.Vahabzadənin demək istədikləri oxuculara çox tez çatır. Çünki o, şerimizin klassik ənənələrindən uzaqlaşmır. Öz fikrini dəqiq, səlis, aydın ifadə edir. «Məndən xəbərsiz» şerində müəlif yazır:

Amal olan yerə baş qoyan illər,
Toran gözlərimə yaş qoyan illər;
Ey yaşım üstünə yaş qoyan illər,
Hara qaçırsınız məndən xəbərsiz?

«Sən tökülən kalıma bax» şerində deyilir:

Tabım yoxdu bu dərdlərə,–
Falçı, mənim falıma bax.
Bu günümdən xəbərdaram,
Sən sabahkı halıma bax.

Fikirlər aydın, poetik məntiq cilalıdır. Belə təmiz, büllur dil yalnız xalq həyatına bağlı ustad işairin püxtələşmiş qələmiylə yarana bilər.

Xalq həyatı ilə bağlılıq barədə fikirləşəndə bir əhvalat yadıma düşür. Milli məclisdə axırıncı seçkilər ərəfəsində Bəxtiyar müəllim deputatlığa namizəd kimi tez-tez seçicilərlə görüşürdü. Bu görüşlərə mən də gedirdim. Arabir çıxış eləyirdim. Bir dəfə şairin yaradıcılığından danışanda dedim ki, xalq həyatı ilə bağlılığına görə B.Vahabzadə Azərbaycan poeziyası nümayəndələrinin çoxundan yüksəkdə durur. Bu sözləri eşitcək Bəxtiyar müəllim incik halda gülümsəyib:

—Bu lap ağ oldu,—dedi,

Mən mübahisə açmadım. Amma ürəyimdə öz fikrimdən də dönmədim. Axı, dönmək də mümkün deyildi.

B. Vahabzadənin əsərlərində millət dərdilə alışıb-yanan bir şair ürəyinin odu-alovu misralar arasında şölələnir. Hər misrada millətin məşəqqət və iztirabları görünür, fəryadları eşidilir. Bəxtiyar müəllim bu baxımdan M.F.Axundov, C.Məmmədquluzadə və M.Ə.Sabiri xatırladır. Onların mənsub olduqları ədəbi məktəbin güclü nümayəndəsi səviyyəsinə yüksəlib.

B.Vahabzadənin xalq həyatı ilə bağlılığı ən doğma qaynaqlardan baş alıb gəlir. O, sadə bir ailədə dünyaya gəlib. Gözünü açıb xalqın aşağı təbəqələrini görüb, onların həyat şəraiti, düşüncə tərzi ilə çox yaxından tanış olub. Odur ki, Bəxtiyar müəllimin ömrünün uşaqlıq,

yeniyetməlik və gənclik dövrünü yalnız təhsil illəri adlandırmaq olmaz. Bu dövr həm də xalq həyatı ilə tanışlığın başlandığı illərdir. Çox bəhrəli mərhələdir. O, ömrünün sonrakı dövrlərinə zəngin müşahidə materialları ilə adladı. Beləliklə, hələ təhsil illərindən ədəbi-bədii yaradıcılıq yoluna gəlib çıxdı. Tezliklə oxucuların sevimlisi oldu.

Lakin uğurlu yüksəliş onu özündən müştəbeh etmədi.Xalqla canlı əlaqələr yaradan minlərlə telin heç biri qırılmadı. Yüksəldikcə yeni dairələrə çıxdı, yeni dostlar tapdı. köhnə dairələrdən, dostlardan isə üz döndərmədi. Sadəliklə yeni mövqelər, səmimiliklə şan-şöhrət qütbləşmədi. Əksinə, bunlar bir-birini tamamladı.

Bir sözlə, bu günü şairi dünənindən ayırmadı. Əksinə, uca zirvələrdən xalq həyatının bütün guşələrini, döngələrini gördü, bu həyatın dərin qatlarına baş vurdu. Xalqın bu gününü, keçmişini, tarixini, ədəbiyyatını, mədəniyyətini, ənənələrini, sosial psixologiyasını, həyata, dünyaya baxışını mükəmməl öyrəndi. Öyrəndikcə də kamilləşdi. Hələ gənclik illərindən ürəyində kök salıb cücərən vətən, torpaq sevgisi, xalq məhəbbəti şaxələnib bütün qəlbini, ruhunu bürüdü. Xalq həyatına bağlılıq məhz bu yollarda dönməz xarakter aldı. Əbədi və sarsılmaz oldu. Bütün ölkə üçün çox dəyərli mənəvi-əxlaqi sərvətə çevrildi.

Bəs bu sərvətin B.Vahabzadə əsərlərindəki bədii təzahürü necədir?

Əvvələn, o, xalq həyatından götürülmüş mövzularda yazır. «Mənim fərqim varmı heç?», «Dükandar-müəllim», «Qul bazarı», «Söz güləşməsi», «Bazarda» və başqa şerləri buna misaldır.

İkincisi, şair xalqın arzu və istəklərini, müasirlərimizin həyat və cəmiyyət hadisələrinə münasibətini əks elətdirən şerlər yazır. Bu baxımdan «Bayraq», «Dua», «Qürbət-Vətən», «Güman qalıb Allaha» şerləri səciyyəvidir.

Üçüncüsü, xalqın keçmişi, bu günü, sabahı, taleyi, əxlaqı, qayəsi, məqsədləri ilə əlaqədar olan mövzulara toxunur. Məsələn, «Göytürklər» («Özümüzü kəsən qılınc») pyesində uzaq keçmişimizə aid əhvalatlar göstərilir. Bu fonda müəllif dövlətçilik məsələlərinin indiki vəziyyəti barədə öz bədii sözünü söyləyir. «Səbir də bir bəhanədir», «Dedilər, demədilər...» şerlərində cəmiyyətin taleyi ilə əlaqədar məsələlərin həlli zamanı ictimai səbrin dərəcəsi məsələsinə toxunulur. Həddən ziyadə dözüm mütiliyə gətirib çıxarır.

Şairin hər şeri millətə müraciətdir, xoşbəxt həyata bədii çağırışdır. Ağır döyüşlərdən çıxan, uzun yollar yolçusu olan ağsaçlı, müd-

rik şairin öz xalqına tövsiyələri nədir?

Birincisi, o, xalqını milli oyanışa, öz-özünü dərindən dərk etməyə, öz gücünü, qüdrətini, istedadını, intellektual potensialını, ümumiyyətlə, bütün yaxşı xüsusiyyətlərini görməyə, özünün bütün üstünlüklərini hərəkətə gətirməyə, beləliklə, yeni həyat quruculuğu yollarında inamla addımlamağa səsləyir. Köləlik psixologiyasına son qoymağa, əcnəbilərə yarınmamağa, onların qoltuğunda sürünməməyə, milli qüruru yüksək tutmağa çağırır.

Özünü dərk eylə, özünü ağla;
Gah ona, gah buna baş əydin, yetər,
Özgəyə bu qədər yalmanmağınla
Özünə düşmənsən özgədən betər.

Nəyəmsə, mən oyam, qarayam, ya ağ,
Niyə özgəsinə küsənməliyəm?
Özüm olmalıyam, mən özüm ancaq,–
Özüm deyiləmsə, demək heç nəyəm.

İkincisi, şair oxucuları öz millətini, vətənini, bu vətənin övladlarını sevməyə, doğulduğu torpağın, mənsub olduğu xalqın dərd-sərinə qalmağa haylayır. «Şəfa umur bizdən bu xəstə Vətən» – deyir. Ümumi ictimai dərdlərə biganəçilik göstərən kefi kök adamları qəzəblə, yana-yana ifşa eləyir.

Ömür boyu haram yeyib,
Başqasının halalına cumuruqsa;
Bir tikəyə möhtaj olan əlacsızdan
Əgər rüşvət umuruqsa;
Gözümüzlə gördüyümüz dəhşətlərə
Gözümüzü yumuruqsa,
Özümüzdən ağır gələr günahımız,
Özümüzü yandıracaq öz ahımız,
Demək bizdən üz döndərib Allahımız,
Hara gedir sabahımız?

O, toxluğundan darıxan ağalara, kefi kök nadanlara, vicdanından qorxmayanlara, özünü div sayanlara, özündə qürur görməyən müştəbehlərə öz yandırıcı nifrətini yağdırır.

Şairin başqa çağırışları da güclü, təsirli və təpərlidir.

Söz düşəndə Bəxtiyar müəllim tez-tez deyir: «Mən siyasətçi deyiləm, siyasətdən başım çıxmır». Formal məntiqlə yanaşdıqda onun fikrilə razılaşmaq olar. Çünki o, indi heç bir partiyanın üzvü deyil, heç bir partiyanın mövqeyində dayanmır, heç bir partiyaya qarşı durmur, siyasi müzakirələrdə iştirak eləmir. Lakin məsələyə dialektik məntiqlə yanaşdıqda başqa mənzərə görürük. Bəxtiyar müəllim siyasətçilər üçün son dərəcə zəruri olan nəhəng bir iş görür. Xalqımızın dünəni, bu günü, sabahı, onun həyat və cəmiyyət hadisələrinə münasibəti, dünyaya baxışı, ictimai psixologiyası, potensial gücü, zəif xüsusiyyətləri və xisləti barədə dəyərli bədii fikir söyləyir. O öz xalqını həssas övlad anasını tanıyan kimi dərindən tanıyır. Odur ki, ədəbi-bədii tövsiyələri milli gerçəkliklə tam səsləşir. Beləliklə də həyatla ayaqlaşa bilən qüdrətli partiya yaratmaq üçün möhkəm mənəvi-əxlaqi bünövrə inşa edir. Bu bünövrə üzərində dayanmayan hər hansı bir siyasətçi və partiya yalnız boş-boşuna əlləşib-vuruşmağa məhkumdur. Bu mənada B.Vahabzadə əsl siyasətçidir – öz sözünü sənət dili ilə deyən bir siyasətçi.

Sovet hakimiyyəti illərində sosialist realizmi deyilən bədii yaradıcılıq üslubunun bərqərar olması ədəbiyyatımızda yeni duruş yaratdı. Yaradıcı ziyalılar öz əsərlərində həyat gerçəkliklərini olduğu kimi yox, kommunist partiyasının arzuladığı kimi əks etdirməyə məcbur idilər. Onların bir qismi M.F. Axundov, Mirzə Cəlil, Sabir ənənələrindən üz döndərib xalq həyatından uzaq düşdü. Bu uzaqlığı qısaldanlardan biri B.Vahabzadə oldu. O, dissident ədəbiyyatının yaradıcılarından biri oldu.

İndi bizim gözlərimiz qarşısında keçid dövrünün özünəməxsus ədəbiyyatı yaranır. Bu böyük prosesin aparıcılarından biri və ən görkəmli nümayəndəsi də Bəxtiyar müəllimdir. Bu günlər o, ömrün 74-cü pilləsinə qədəm qoyur. Bəxtiyar müəllimə möhkəm cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

Əziz şairimizin qələminin bəhrələrini, onun Azərbaycan ədəbiyyatı üfüqlərində tutduğu mövqeyi aydın görüb düzgün qiymətləndirmək üçün Bəxtiyar müəllimin əsərlərinə elə-belə yox, bəsirət gözüylə baxmaq lazımdır.

«Ədəbiyyat» qəzeti, 6 avqust 1999-cu il.

Xanım Məhyəddin qızı

Böyük ustada sevgili ehtiramla:

MİLLƏTİN AĞRIYAN CANI – BƏXTİYAR!

Azəri torpağı, ululardan ulu, qədimlərdən qədim məkan. Dünyadakı insan məskənləri, ölkələrin hamısı mənim torpağımdan kök alıb. İnsanlığın başlanğıcı türk soyundan köklənib mənim qəti inancımda. Əgər insanlığın soy kökü biz olmasaydıq, sinəmizi, qollarımızı bu qədər geniş açmazdıq gələmlərə. Məlumdur ki, yaradılan nə qədər naxələf olsa da, Yaradan bir o qədər böyük olur, bağışlayan olur. Bağışlayan Ulu Tanrım tariximizi yazmamağımızı tarix yaradan olduğumuza bağışlasın. Amin!

Azəri yurdu – qədimlərdən qədim məkan, sinəsində yadlara sığınacaq verib. Qonağa qucaq açıb, amma aldığı əvəz zəlalət, xəyanət olub.

Yarasında Qarabağ boyda şıram açılan Ana Vətənim! Sərvətləri bitib tükənməz candan əziz Vətənim! Maddi sərvətlərimiz nə qədər bol olsa da, ondan özümüz gərəyincə bəhrələnə bilmirik. Qoruya bilmirik onları. Düşmənlər, yadlar bəhrələnir, üstümüzə ayaq açır. Həm də biz xoşbəxt millətik. Ona görə ki, canlı aləmin əşrəfi olan insanlardan da sərvətliyik. Bizdə olan elmi sərvət, zəka heç bir millətdə yoxdu. Mənim üçün belə xəzinələrdən biri mənəvi aləmimizi min bir mənalı şeriyyətilə qanadlandıran əziz şairimiz **Bəxtiyar Vahabzadəmizdir**. İnsanlarımdan sərvətli Vətən. Nə yaxşı ki, sinəndə Bəxtiyar kimi şah budaqlı çinar insan bitib. Adam bəzən çaş-baş olduğu anlarda daxili aləmdəki boşluqları gah şerlə, gah nəğmə ilə doldurmaq istəyir. Doya bilmədiyimiz Bəxtiyar şeriyyəti. Bu sehrli aləm bizi qanadlandırır, uçurur, öz ucalığına çəkib aparır. O ucalıqdakı sehrli gözəllik şairin Tanrı vergisi olduğuna dəlalətlərdəndir. Bəxtiyar əsrarı-yaşantımızın köməyi, yaşamağı—ömrümüzün gərəyidir. Sevib seviləndə də Bəxtiyar kəlamları köməyimizə gəlir. Bizə şerlərində neçə incə məna bəxş edən, aləmdəki rənglərin, musiqilərin ən gözəllərinin şer dili ilə rəsmini çəkən, kövrək qəlblərə Allah sevgisi şeri ilə məlhəm qoyan şairimizi sinəmə sıxıb ömrünə dualar diləyirəm! Canın hər zaman sağlam olsun, ustadımız! Könlümüzdə, köksümüzdə yeri olan şair!

Şerləriniz mübarizəyə, azad yaşamağa çağırır. Qeyrətlidir. Tanrı da azad ruhluları sevir. Allah vergisi şerləri ilə sinəmizdə, bağrımızda özünə yer edən, sağlığında özünə heykəl qoyan həssas, təəssübkeş, narahat, Vətənkeş, ağsaqqal şairimizi hərdən anlamayanlara, hiss etməyənlərə acıyıram, ağrıyıram. Onun heç olmasa bir-iki şeri qədər mənəvi çəkiləri olaydı barı. Sinəmiz, bağrımız nə iç yandan nə çöl yandan Bəxtiyarsız olmasın.

İndiki məlum dərdli-ələmli Qarabağsızlığımızın bütün ağırlığını çiynində çəkən cəsarətli qələmdaşlara malik, hər nömərəsini intizarla gözlədiyim, «Təzadlar» dərgisinin yazarı Nizami Nicat Bəxtiyar müəllimi bir məqaləsində **«Milli sərvətimiz»** adlandırır. Təşəkkür edirəm «Təzadlar»a, onun şəxsiyyəti bütöv yazarlarına...

Dayağı Tanrıdan alaq inşallah. Ucadan uca şairimizə böyük Allahdan uzun ömür, can sağlığı arzulayıram. Yadımdadır ki, məlum Vətən savaşının başlanğıcında Bəxtiyarımız qədər çıxış edib savaşın nə demək olduğunu bizə anladan olmadı. Türk olduğumuzun nə qədər böyük şərəf olduğunu o Azərbaycana ömür boyu car çəkib. Onu da unutmamışam ki, tarixi düşmənlərimiz ona ölüm diləyirdi. Əlbəttə, özlərinə qayıtsın. Bəxtiyarımız bağrındakı güllü-gülüstandan **«Gülüstan»** yaratdı. Hamıya məlumdur ki, bədənin harası ağrıyırsa, ordadı can. Millətin ağrılarından candı Bəxtiyarımız. Ağrıyan nəğmələrdə həmişə onu birinci görürük. İçimdən gələnləri sözə çevirmək istəsəm belə alınar: Azərdi, Bəydi, Candı Bəxtiyarımız... Bəxtiyarımız elə Azərbaycandı.

«Təzadlar», 3—10.04.2001

Kərimov AĞAMİRZƏ

ŞAİRİN ETİRAZ ÜSULLARI[1]

Hörmətli redaksiya!

Sovet hakimiyyəti illərində xalqının düşdüyü acınacaqlı vəziyyəti, rus imperiyasının apardığı assimilasiya siyasətini, milli zülmü əsərlərində əks etdirməyə çalışan yazıçılar və şairlər arasında Bəxtiyar Vahabzadənin müstəsna rolu vardır. Böyük şair, dramaturq H.Caviddən sonra B.Vahabzadə Azərbaycan ədəbiyyatında Sovet zülmünə qarşı etiraz səsini ucaldan ilk şairdir. O, hələ 1959-cu ildə yazdığı "Gülüstan" poe-

1 Məqaləni çap etməyən "Müxalifət" qəzeti onu şairin özünə göndərib. (redaktor)

masında Azərbaycanın iki yerə parçalanmasına qarşı etiraz səsini ucaltdı. Həmin əsəri o, mərkəzi mətbuatda çap etdirə bilmədiyindən doğulduğu əyalət şəhəri olan Şəkidə "Şəki fəhləsi" qəzetində nəşr etdirdi. Bu əsərin əlyazması bütün Azərbaycanı dolaşmağa başladı. 1962-ci ildə bu əsərdən KQB xəbər tutdu. Və Nəhayət, 1962-ci ildə o zaman universitetdə dərs deyən Vahabzadəni oradan xaric etdilər və başqa işə də onu götürmədilər. O, yalnız 1964-cü ildə yenidən universitetə bərpa olundu. "Gülüstan" əsəri ilə əlaqədar çəkdiyi cəzadan dərs götürən şair, bundan sonra yazdığı əsərlərdə ehtiyatlı tərpənməyə, sözünü açıq şəkildə deyil, qapalı şəkildə, bəzən simvollardan istifadə edərək, bəzi hallarda isə hadisələri tarixə, yaxud da başqa ölkələrə keçirərək deməyə başladı. Məsələn, 1963-cü ildə yazdığı "Yollar və oğullar" poemasında o, ölkəsinin müstəmləkə halında yaşadığını, milli tarixinin və soykökünün inkar edilməsini, dilinin əridilməsini Əlcəzairə keçirərək sözünü dedi. Əlbəttə, o zaman bu əsəri oxuyan oxucu poemada təsvir olunan əhvalatların tamamilə Azərbaycancana aid olduğunu dərhal başa düşürdü.

Əsərdə belə bir əhvalat var: Əlcəzairdə Ben-Osman yüksəlmək, cəmiyyətdə bir mövqe qazanmaq üçün ərəb qızı Zeynəbi boşayıb, Fransanın nazirlərindən birinin bacısı ilə evlənir. Zaman keçir, fransız qızından olan oğlu Etyenlə ərəb qızından olan oğlu Mustafa qarşı-qarşıya gəlir. Bir atadan olan 2 oğul, hərəsi bir mövqe tutur. Əlcəzair xalqı milli-azadlıq hərəkatına başlayanda qardaşlar bir-birinə qarşı duran cəbhədə vuruşmalı olur. Ata 2 oğlun arasında qalır. Ben-Osman qəlbən ərəb qızından olan böyük oğlu Mustafaya haqq versə də, düşdüyü vəziyyətə görə Etyenə haqq verir. Bu dramatik vəziyyətdə ata Mustafanı yanına çağırır və onu milli azadlıq mübarizəsindən daşındırmağa çalışır, lakin bacarmır. Bu səhnədə Mustafanın monoloqu əsarətdə olan Azərbaycanın da vəziyyətini ifadə edir:

Dəmir zindanlara saldılar bizi,
Parisə daşıyıb sərvətimizi
Bizə qucaq-qucaq söz gətirdilər,
Koka-kol, ronk-rol, caz gətirdilər.
Getdi əlimizdən namus, ar, ismət
Bunamı deyirsən sən mədəniyyət?

Gəlib evimizdə bizi soydular,
Ancaq adımızı vəhşi qoydular.
Bir soruşan yoxdur bu gəlmələrdən
Bu vəhşi dediyin sənsən, yoxsa mən?

Adət, ənənə də məhv olmuş artıq,
Biz talan olmuşuq öz evimizdə.
Bu mahir oğruluq, bu talançılıq
Bəlkə mədəniyyət sayılır sizdə?

Dağ olub üstümə qat-qat qılınca
Məndən uca dağlar kölgə salınca
Daş olub dağlardan uzaq olaydım.
Ay olub nurumu gündən alınca
Bir evi nurladan çıraq olaydım.

Bu misraları oxuyan hər kəs Parisin yerinə Moskvanı qoymaqla daşın hara attıdığını çox gözəl anlayırdı. Buna görə də o zaman KQB-nin agenti olan şairlərdən biri bu əsərin nə məqsədlə yazıldığını, nəyə işarə edildiyini açıb KQB-yə bildirdi. Əsər uzun müddət Azərbaycan Mərkəzi Komitəsində və Yazıçılar Birliyində müzakirə edildi. Çoxları bu əsərdəki hadisələrin və vəziyyətin Azərbaycana da aid olduğunu bilsə də, lakin bunun üstünü vurmadılar. Şairin özünün yazdığına görə, o zaman Azərbaycan Yazıçılar Birliyinin sədri olan Mehdi Hüseyn öz nüfuzundan istifadə edərək bu əsərin məhz Əlcəzairə aid olduğunu, bunun Azərbaycanla heç bir əlaqəsi olmadığını deyib şairi ikinci cəzadan xilas etdi.

B.Vahabzadənin belə əsərlərindən biri də "Latın dili" şeridir. Bu şerdə də şair yenə həmən üsuldan istifadə edərək, hadisəni bu dəfə Mərakeşə keçirir. Şair o zaman həqiqətən Mərakeşdə olmuş, bu ölkədə dövlət işlərinin fransız dilində aparıldığını, ərəb dilinin rəsmi dairələrindən qovulduğunu görür və "Latın dili" şerini yazır.

Şerin məzmunu belədir: Hazırda latın xalqı yoxdur, lakin latın xalqının dili elmlərdə yaşayır. Çünki bütün dünyada elmi istilahlar latın dilindədir. Demək, latın xalqı yoxdur, lakin dili yaşayır. Mərakeşdə isə xalq yaşayır, lakin xalqın dilini öldürmüşlər. Şair yazır:

Atlantika sahilində
Coşa-coşa,
Daşa-daşa
– Mən azadam, mən xoşbəxtəm
Deyir natiq yad dilində.
Söylə, natiq,
İndi nəyə inanaq biz:
Qulağamı,
Ya gözəmi?

Əmələmi,
Ya sözəmi?
"Mən azadam, müstəqiləm" sözlərini
Öz dilində deməyə də
İxtiyarın yoxsa əgər,
De, kim sənə azad deyər?

Şer bu sözlərlə tamamlanır:

"İndi söylə,
Hansı dilə ölü deyək?
Vətən varkən, millət varkən
Kiçik, yoxsul komalarda
Dustaq olan bir diləmi,
Yoxsa uzun əsrlərdən keçib-gələn,
Xalqı ölən,
Özü qalan bir diləmi?

Əlbəttə, bu vəziyyət eynilə Azərbaycanda da belə olduğuna görə oxucu dərhal bu şerin Azərbaycan dilinə də aid olduğunu başa düşür.

1970-ci illərdə yazdığı "Ağlar güləyən" poemasında isə şair bu günün dərdlərini XX əsrin əvvəllərində yaşamış satirik şair M.Ə.Sabirin dili ilə ifadə etmişdir:

Hansı qanunda var ki,
Öz sərvətin, öz varın
Özünə qənim olsun?
Dünənin yetim olsun,
Bu günün yetim olsun.
Hansı qanunda var ki,
Öz elindən olasan,
Öz dilindən olasan,
Hədəf də sən olasan,
Güllə də sən olasan.

Şair Moskvada nəşr olunan "Literaturnaya qazeta"nın 1975-ci il, 8 yanvar tarixli nömrəsində Amerika jurnalisti Devid Rorvikin "Dünən dəyənək, bu gün qara qutu" məqaləsini oxuyur. Bu məqalədə jurnalist yazır ki, Amerikada Mərkəzi Kəşfiyyat İdarəsi adamların danışığını yazmaq üçün qara qutulardan istifadə edir. Bu xəbər bütün Sovetlər İttifaqında adamların danışığını yazmaq üçün idarələrə gizli şəkildə səs

yazan apparatların qoyulduğunu yazmaq üçün şairə imkan verir. Və o, "Qara qutu" şerini yazır:

"Basdı bütün məmləkəti
Qutuların vahiməsi,
Ürəklərdə doğulmamış
Tez boğuldu fikrin səsi.
Fikirləri güllələyib,
Xəyalları öldürdülər.
Tökülmədi ancaq qanı.
Düşünənin yanan qəlbi –
Fikirlərin qəbristan!
... Baxın bizə, görün bizi
Nə gündəyik,
Biz hamımız
Kibrit boyda qutuların içindəyik."

Şair 1980-ci ildə qəzetlərdən oxuyur ki, Çin Elmlər Akademiyasının Çan-çun Elmi Tədqiqat Dəqiq Optik Cihazlar İnstitutunun 160-dan çox elmi işçisini "düşmənçilik fəaliyyətində" təqsirləndirmiş və məhkəməyə vermişlər. Şair bu xəbəri "Göz ya qulaq" şerinə epiqraf gətirib yazır ki, bu ölkədə rahat yaşamaq istəyirsənsə, gözlərinə deyil, qulaqlarına inanmalısan.

1970-ci illərdə akademik Saxarov sovet zülmünə etiraz səsini qaldıranda şair onun haqq səsini müdafiə etmək üçün vasitə axtarır. Nəhayət, Sovet qəzetlərində oxuyur ki, guya Amerikada "başqa cür düşünən"lərin adı "qara siyahıya" düşür. Bu siyahıya düşənlərdən biri də məşhur fizik "xalqlar arasında sülhü möhkəmlətmək üçün" Beynəlxalq, Lenin və Nobel mükafatları laureatı Laynus Popinqdir. Şair dərhal bu xəbərdən istifadə edir, Laynus Popinqin simasında Saxarovu müdafiəyə qalxır. Və "Dan yeri" şerində üzünü sovet hökumətinə tutaraq yazır:

"Qüdrətini, qüvvətini
Ağır-ağır silahlara sən vermisən.
Bəs eləysə niyə qorxdun?
Qorxun nədir, bilmirsən?
Sənin qorxun haqsızlığın!
Atomunla, raketinlə
Sən elə zənn eləmə ki,
Hakimisən Yerin, Göyün.

Boş havadır səsin, küyün
Silahlara arxalanan sənin gücün –
Zəifliyin, gücsüzlüyün.
Belə qanlı silahları olan ölkə
Qorxarmı heç?
Sən qorxursan, dünən, bu gün
Min hidrogen bombasından
Qorxuludur sənin üçün
Qanan bir baş, yanan ürək!
Sən atomdan qorxmamısan
Bir fikirdən, düşüncədən qorxduğun tək."

Başqa bir misal. 1968-ci ildə Daşkənd şəhərində Asiya və Afrika yazıçılarının Daşkənd müşavirəsi çağrılır. Şair də həmin müşavirədə iştirak edir və orada "Neo" adlı şerini yazaraq öz düşüncələrini Afrika yazıçısının dilindən belə ifadə edir:

"Deyir, bəsdir bu aldanış,
Artıq bütün bu Neolar bizə tanış.
Bu Neolar – üstümüzdə qılınc kimi əsir bizim,
Saçımızı sığallaya-sığallaya
Başımızı kəsir, bizim.
Sizin kimi bir insanıq,
Biz nə daşıq, nə dəmirik,
Yetər artıq, biz heç kəsə
Yamaq olmaq istəmirik.
Yaman dərddir özgəsinə yamaq olmaq.
Yaman dərddir
Azadlığın həsrətinə damaq olmaq.
Yaman dərddir,
Gözün ola, amma görə bilməyəsən.
Yaman dərddir,
Əlin ola, evindəki zir-zibili
Sən süpürə bilməyəsən.
Yaman dərddir,
Dilin ola, nə danışıb, nə dinəsən.
Yaman dərddir,
Ağlın ola,
Özgəsinin ağlı ilə düşünəsən."

Afrika yazıçısının dililə verilən bu sözlər, eynilə Azərbaycana da aid idi. Buna görə də bu şeri oxuyan hər kəs bu dərdlərin Azərbaycan şairinin dilindən deyildiyini və bu deyilənlərin Azərbaycana aid olduğunu dərhal anlayırdı. Demək olar ki, B.Vahabzadənin bütün yaradıcılığı — şerləri, poemaları, dramları bu üsuldan istifadə edilərək yazılmışdır.

Böyük nağıl ustası Andersonun xatirəsinə həsr etdiyi "Şübhə" hekayəsi də bu mənada çox maraqlıdır. Hekayə Azərbaycan nağıllarına xas olan "Biri varmış, biri yoxmuş" ifadəsi ilə başlayır. Guya Əndahar ölkəsində bir şah varmış. Bu şahın səltənəti yalan üstündə bərqərar imiş. Şah ən böyük yalan danışanı mükafatlandırdığından ölkədə hamı yalan ustası olur.

"Hamı bir-birini aldatdığından yalan adiləşdi. Heç kəs yalan deməkdən utanmadı. Əksinə, yalanı gerçək kimi utanmadan deməsi ilə öyündü. Oğru oğrudan, əyri əyridən, yalançı yalançıdan niyə utansın ki... Ölkədə yalan yarışı başladı... Get-gedə adamlar bir-birini çətin anladı. Ona görə ki, sözlər öz hərfi mənasını itirib əks mənalar qazandı. Məsələn, əsarət-azadlıq, qara-ağ, uzun-gödək mənasında anlaşıldı. Köhnə padşahın zəmanəsində dünyaya gələnlərlə yeni padşahın zəmanəsində dünyaya gələnlər bir-birini anlamadı". Hekayənin davamı belədir: Şah elan edir ki, ən böyük yalan danışanı qızıl əsa ilə mükafatlandıracaq...

Bir kəndli gəlib şaha deyir:

— Mənim yalanım bundan ibarətdir ki, sənin arvadın vəzirin oğlu ilə sevişir.

Əslində kəndli düzünü deyirdi. Amma o, bu həqiqəti yalan kimi təqdim edir.

Şah nə edəcəyini bilmir. Desə ki, mənim arvadım belə iş tutmaz, sən ağ yalan deyirsən, onda kəndli qazanır. Çünki şah ondan ağ yalan istəmişdi... Desə ki, yalan deyə bilmədin, onda demək, həqiqətən şahın arvadı vəzirin oğlu ilə sevişirmiş. Beləliklə, kəndli qızıl əsanı qazanır...

Bu hekayə yalan üzərində qurulmuş sovet cəmiyyətinin modeli idi. Amma hekayə, Nağıl adlandırıldığından bunu müəllifə irad tutmaq mümkün deyildi.

B.Vahabzadənin "Miss Amerika", "Bağışlayın, səhv olub", "Mərziyə", "Ləyaqət" və s. kimi iri həcmli poemaları da zamanı ittiham etmək üçün bu üsuldan istifadə edilərək yazılmış, antisovet əsərlərdəndir.

1993, Bakı.
Müəllifin şəxsi arxivindən

Rahid ULUSEL

BƏXTİYAR VAHABZADƏ — ÜMUMMİLLİ VƏHDƏT NİDASI

Üçüncü minilliyin siftəsindən milli mədəniyyətimizin tarixi inkişafına şığımla baxdıqda bu yolun sonunca onun başlanğıcındakı Dədə Qorqudun mifik obrazına bənzər gerçək bir ustad dayanır — Bəxtiyar Vahabzadə! Bütün fəaliyyəti və yaradıcılığı boyu Ümummilli Vəhdət nidası ilə hayqıran Bəxtiyar Vahabzadənin sənət və müdrikliyinin Dədə Qorqud çağında — xalq məhəbbəti və ümumtürk sevgisi ilə əhatə olunduğu, əsrinin ən möhtəşəm sənətkarları və siyasi xadimləri tərəfindən təqdir edildiyi bir zamanda, gecəsini gündüzünə qatıban millətin diriliyi naminə çarpışırkən... acılar yeməsi, tənə və qınaqlara urcah olması ağrılı bir olaydır. Xatırladım ki, hələ 4 il öncə Sabir Rüstəmxanlı "evi—istiqlal qərargahı", "mənəviyyatı-müstəqilliyimizə çıraq olan Bəxtiyar Vahabzadənin" belə qınaq hədəfinə çevrilməsinə, fəaliyyətinin məkrli bir siyasətlə yanlış yozulmasına qarşı çıxmışdı *(bax: "525-ci qəzet", 1997, 15 iyul)*. Belə məkrli münasibətin məqsədyönlü olduğu həm də ona görə düşünülür ki, həmin münasibət çağdaş Azərbaycan mədəniyyətinin simasını təyin edən yaradıcılarımız — Bəxtiyar Vahabzadə, Anar... xüsusunda ardıcıldır. Elə bil qəsdən ağacı kökündən çıxarmaq istəyirlər. Bəlkə bu yeni, inqilabi ruhlu bir mədəniyyətin yaradılması ehtirasından doğur?! Əsla! şahidi olduğumuz yaxın tarixi dövrün vicdanlı araşdırmasında belə həqiqi qənaətə varılır ki, bugünkü Milli Düşüncə Mədəniyyətimizin mənbəyi — iki böyük təkanla — XIX—XX əsrin qovşağındakı Maarifçilik və Dövlətçilik Hərəkatı və XX əsrin 60—80-ci illərinin Milli İdeya Hərəkatı ilə əmələ gəlib. Sonuncu mərhələnin Xalq Azadlıq Hərəkatına, onun da Azərbaycanın müstəqilliyinə gətirib çıxarması — tarixin öz məntiqidir ki, Bəxtiyar Vahabzadə bu məntiqi gəncliyindən duyurdu və bütün yaradıcılığını da onun üzərində kökləmişdi. Sovet rejiminin ən qadağalı, sərt zamanlarında belə Bəxtiyar Vahabzadə həyatını təhlükə altına ataraq milli ruhumuzun yenilməzliyini sübut edən əsərlər yazırdı. O vaxtların Azərbaycan Gəncliyi (onların çoxusu xalq hərəkatımızın öndərləri oldular) Bəxtiyar Vahabzadənin gizli-gizli,əl-əl, tutiya-təbərrik kimi gəzən "Gülüstan" və "Ağlar güləyən" poemalarının qəlbləri necə qığılcımlandırmasını unuda bilərlərmi?!

Bəxtiyar Vahabzadəni "Ən böyük dissident sayan" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Milli Təhlükəsizlik Nazirliyinin yubileyindəki nitqində söyləmişdi: "Mən hələ Dövlət Təhlükəsizliyi

Komitəsində işləyən zaman Bəxtiyar Vahabzadənin həbs olunması məsələsi meydana çıxmışdı. O vaxt mən onu xilas etdim, qoymadım həbs olunsun..." *("Xalq qəzeti" 6 iyul, 1997-ci il)*.

Bu çağacan Rus İmperiyası generalının üzünə iki şəxs tüpürüb: XIX əsrdə Qafqaz mücahidi Şeyx Şamil, XX əsrin 90-cı ilində xalqına divan tutulduğu 20 Yanvarın ertəsi günü Azərbaycan şairi Bəxtiyar Vahabzadə, — Fövqəladə vəziyyətdə Bakı şəhər komendantı general Ovçinnikovun üzünə. Bəxtiyar bu hərəkəti — onun təkcə milli ləyaqətimizin qorxmaz müdafiəçisi olduğunun deyil, həm də sənətində ədalətsizliyə üsyankar münasibətinin rəmzi, əsilzadə jestidir.

Bəxtiyar Vahabzanin yarım əsrdən çox dövrü əhatə edən zəngin ədəbi və ictimai fəaliyyətinin bəzən sayılmaması, danılması, hətta mövqe sabitsizliyində nahaqdan suçlandırılması isə Sabirdən, Mirzə Cəlildən üzü bəri dəyərli mütəfəkkirlərimizin zaman-zaman tənə oxlarına tuş gətirilməsi faktını yada salır. Milli faciəmizin səbəblərindən biri bu deyilmi?!

Fəqət bir sənətkar ömrünün hər üzünü yaşamış Bəxtiyar Vahabzadənin iqtidarlıq və müxalifətçilik hədəqəsinə heç cür sığdırılmayan sənət dünyasına münasibətdə **iqtidarın da, müxalifətin də eyni yüksək fikirdə olması** Azərbaycanın ictimai-siyasi həyatında demokratik mübarizənin fərəh, ümid və nikbinlik doğuran nəticəsidir:

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Bəxtiyar Vahabzadə barəsində ürək sözləri: "Sizin şəxsiyyətiniz və yaradıcılığınız xalqın milli təfəkkürünün formalaşmasına xidmət etmiş, onu milli dirçəlişə səsləmiş, istiqlaliyyət uğrunda mübarizədə əvəzsiz rol oynamışdır. Siz hər zaman azadlıq carçısı olmuş, ən çətin anlarda belə güc və silah qarşısında baş əyməmiş, əqidəsindən dönməyən şair, mübariz millət vəkili, yorulmaz ictimai xadim kimi xalqın müdafiəsinə qalxmışsınız".

Alpərən Əbülfəz Elçibəy ölümündən bir neçə gün öncə Bəxtiyar Vahabzadəyə müraciətlə deyirdi: "Siz bizim bilavasitə görüşdüyümüz və tanıdığımız ilk insansınız ki, bizə gerçək millətçilik dərsi vermişsiniz... Sizin "Gülüstan"ınız özgə cür düşünən ilk çağdaş Azərbaycan aydınının öz millətinə və bütün dünyaya müraciəti idi. Bu əsərdən aşıb-daşan azadlıq eşqi, Azərbaycan dərsliyinə yeni ruh, inam və iman verdi. Milli duyğu və fikirləri ifadə edən poeziyanız Azərbaycanda sonradan yaranacaq siyasi məktəb üçün təməl oldu" *("Yeni Müsavat" qəzeti, 16 avqust, 2000)*.

Müsavat partiyasının başqanı İsa Qəmbər də Bəxtiyar Vahabza-

dəni "Çoxəsrlik Azərbaycan ədəbiyyatında xüsusi yeri olan ən görkəmli şairlərdən" sayır: "Azərbaycan Xalq Hərəkatının başladığı vaxtlarda Siz onun iştirakçısı olmuş, xalqın haqq işi uğrunda mübarizəsinin önündə getmisiniz. Siz bu gün də cəmiyyətdə baş verən ictimai-siyasi proseslərin önündə gedir, bir ağsaqqal ziyalı və vətəndaş ziyalı kimi öz mövqeyinizi bildirirsiniz" *("Həqiqətlər və faktlar", 13—19 oktyabr, 2000).*

AXCP sədri Əli Kərimli Vətənimizin müstəqilliyi uğrunda totalitar rejimə qarşı vuruşan Bəxtiyar Vahabzadənin müasir tariximizdəki xidmətlərini belə dəyərləndirir: "Sizin şam kimi yanan misralarınız beyinlərdə işıqlı ideyalara, meydanlarda məşəllərə, Azərbaycanda sönməz, əbədi alova çevrildi. İndi Siz bir deyilsiniz, on deyilsiniz, milyonlarsınız. Dünyada bütün Bəxtiyarsevərlərin sayı qədərsiniz *(Şairə MEA-nın akademiki seçilməsi münasibətilə göndərdiyi məktubdan).*

AXCP-nin sədri Mirmahmud Mirəlioğlu da Bəxtiyar yaradıcılığının "Milli şüur və azadlıq hərəkatının formalaşmasında əvəzsiz yer tutduğu"nu söyləyərək yazır: "80-ci illərin sonunda başlanan milli azadlıq hərəkatındakı xidmətləriniz, millətinizlə bir sırada olmağınız, dəyərli ağsaqqallıq missiyanızı şərəflə yerinə yetirməyiniz xalqımızın yaddaşında həmişə yaşayır" *("Yeni Müsavat" qəzeti, 17 avqust, 2001).*

Müxtəlif, hətta bir-birinə zidd siyasi qüvvələrin Bəxtiyar Vahabzadənin vətənpərvər poeziyasına münasibətdə vahid bir mövqedən çıxış etməsi bəlkə də Azərbaycanın gələcək taleyinin müəyyənləşməsində həlledici simvolik məqamdır. **Deməli, bütün Azərbaycan Bəxtiyar nöqtəsində** birləşə bilər! Buna görə də ümummilli vəhdət yaradan düşmənəsipər zəncirin **Bəxtiyar həlqəsi qırılmamalı, sındırılmamalı, əksinə möhkəmləndirilməli, gücləndirilməlidir!**

Azman türk dünyasının siyasət və sənət korifeyləri də Bəxtiyar Vahabzadə yaradıcılığının birləşdirici türkçülük qayəsinə, vəhdətyaradıcı Azərbaycançılıq missiyasına, dərin fəlsəfi-poetik mahiyyətinə, bəşəriyyətçiliyinə görə bu Böyük İstiqlal Şairinə zamanın klassiki səviyyəsində qiymət vermişlər:

"... Sizin ədəbi yaradıcılığınız **bütün türk dünyasının mənəvi birliyi və yüksəlişi ilə** yaxından əlaqədardır. Odur ki, Sizi sadəcə Azərbaycanlı qardaşlarımızın deyil, çağdaş türk dünyasının qələm ustadı olaraq salamlayıram".

Süleyman Dəmirəl

"... İndiki dövrdə Bəxtiyar Vahabzadənin yaradıcılığı milli-poetik fikrin ən böyük nailiyyətlərindən biridir.... Vahabzadənin poetik təfəkkür mədəniyyəti təbiətcə millidir. Bu müstəsna dərəcədə zəruri haldır ki, sən **övladı olduğun xalqın nitq hissəsində fel olmağı bacarasan**, xalqının canlı dil memarlığına öz töhfəni verə bilərsən".

Çingiz Aytmatov

"B.Vahabzadə bütün ölkədə tanınan və sevilən şairdir... Onun poeziyasında şərqə məxsus bütün gözəl keyfiyyətlər əksini tapıb..."

Oljas Süleymenov

"Bəxtiyar Vahabzadə fəlsəfi fikirlərini şer dili ilə ifadə edən nadir şairlərdəndir. Onun fikirləri bəşəri, lakin duyğuları millidir. Mən onu "Gülüstan" poeması ilə tanımağa başlamışam. "Gülüstan" poeması... **ayrılmışları birləşməyə çağıran bir manifest kimidir...,** bölünən və kökündən ayrılan bir xalqın etiraz qışqırtılarıdır. Bəxtiyar Sovet hakimiyyətinin və istibdadının lap kəskin dövründə... xalqında milli şüur oyatmağa çalışmışdır".

Cavad Heyət

"Bəxtiyar Vahabzadə **bütün türk dünyasının ortaq səsi**, aydınlıq üzü və gözəllik cizgisi, rəmzidir!.. Azərbaycan istiqlalının qazanılmasında Bəxtiyar Vahabzadə kimi mütəfəkkir şairlərin, yazıçıların müstəsna bir yeri var".

Yavuz Bülənd Bakilər

"... Bu gün biz Vahabzadə şerinin qanadları ilə uçuruq"

Əhməd Bican Erçilasun

"B.Vahabzadə bədii-fəlsəfi mühakimə uğrunda döyüşən fikir şairdir. Şərq şerinin, klassik Azərbaycan poeziyasının ən dərin qatlarından süzülüb gələn bu keyfiyyət Bəxtiyar yaradıcılığında yeni bir parlaqlıqda üzə çıxır... O, özünü həmişə zaman axarının ön cərgəsində hiss edir".

Xəlil Rza Ulutürk

Zaman və sənət öndəri Bəxtiyar Vahabzadənin ümumxalq marağını mükəmməl formada, ardıcıl şəkildə və israrla ifadə etməsi son vaxtlar Azərbaycan mədəniyyətinin öyrənilməsinə daha çox diqqət göstərən Amerika Birləşmiş Ştatlarında (bu ölkədə və Azərbaycanda şairin ingiliscə iki kitabı nəşr olunub) duyulur və təqdir olunur *(bax: Stephen*

Kinzer. In Azerbaiyan, Poets Tear the Fences Down. "New York Times", "International Herald Tribune", 14 oktober, 1997).

Milli azadlıq hərəkatının öncüllərindən olan professor Kamil Vəli də bir sıra məqalələrində vaxtilə müəllimi olmuş B.Vahabzadənin onlara milli şüur dərsi keçdiyini qeyd edir və onun bu sahədəki xidmətlərini yüksək qiymətləndirir. Amma onun Ə.Elçibəydən bəhs edən kitabında *("Türkiyə canı")* B.Vahabzadənin adının belə çəkilməməsini heç anlaya bilmədim. Halbuki, yuxarıda göstərdiyimiz kimi Ə.Elçibəyin özü B.Vahabzadənin ədəbi və istimai fəaliyyətini "Sonradan yaranacaq siyasi məktəb üçün təməl" adlandırır.

Vətən müstəqilliyi ideyasını bir palıd ağacı əkirmiş kimi cücərdib yetişdirən Bəxtiyar Vahabzadənin ictimai-siyasi fəaliyyəti və ədəbi yaradıcılığı son on ildə — Azərbaycanın suverenliyi dövründə öz əvvəlki yanar vətəndaşlıq mövqeyindən və bədii-fəlsəfi məntiqindən monumentallıq və dərin müdriklik qatı kəsb edib. Şairin poeziyasında ümummilli vəhdət nidası ilə sanki ana vətən özü dilə gəlib söyləyir:

Yad əlində tapdanırkən şərəf-şan,
Türkün türklə ədavətə haqqı yox.
Hər işimiz başlanırkən sıfırdan,
Türkün türklə ədavətə haqqı yox.

Dayaq olsun bu gün gərək sol sağa,
Bu vəhbətdən yurdumuza gün doğa.
Bütün millət dönməliykən yumruğa,
Türkün türklə ədavətə haqqı yox.

Tarix bizi imtahana çəkirkən,
İmdad umur hamımızdan bu vətən.
Dünya da haqq səsimizə kar ikən,
Türkün türklə ədavətə haqqı yox.

Sındırıldı dəyirmanda pərimiz,
Əsir oldu divə bizim Pərimiz..
Dağılırkən ocağımız, pirimiz,
Türkün türklə ədavətə haqqı yox.

Bəxtiyar Vahabzadənin son on ildəki zəngin, məhsuldar yaradıcılığında müstəqillik dövrünün Azərbaycan həyatına özünəməxsus sənətkar baxışı dəqiq, aydın vətəndaş münasibətilə həmahəngcə meydana çıxır: müstəqilliyin gətirdiyi bütün uğurlara fərəhlənən şair əsarətdən

azadlığa gedən yolda millətimizin yenidən özünüəsarətə düçar olmasının faciəsini dolğun metafora və poetik təzadlarla belə göstərir:

Əsarət odunda bişdi nəslimiz,
Azadlıq eşqinə yandıq, yaxıldıq.
Çatıb azadlığa bu məbəddə biz,
Şükür namazını qibləsiz qıldıq.

İndi biz azadıq, bizi bir zaman
Şeytandan qoruyan abır-həyadan,
Azadıq düşmənə qəzəbdən, kindən
Millət hədəf olub öz nifrətinə.
Qurtarıb özgənin əsarətindən
Düşdük özümüzün əsarətinə.

İndi azadlığım mənə qənimdir,
Bu gizlin oyundan baş açmır fələk.
Məni kor quyudan çıxaran kəndir
İndi boğazıma keçib halqa tək...

Bəxtiyar Vahabzadə xalq şairliyinin, millət vəkilliyinin, akademikliyin nüfuzu, kefi, dəmi ilə yaşamır, sanki bu imtiyazları özünə qalxan edərək, Azərbaycan gerçəkliyindəki bütün yavalıqları mübariz bir vətəndaş barışmazlığı, bir ata, oğul, qardaş ağrısı ilə açıb tökür və sənətkar sözünün neştərinə sancır. Şair, onu susqunluqda, mövqeyini bildirməməkdə ittiham edənlərin dediklərini əksinə olaraq, ən radikal müxalifətçidən də tutarlı məntiqlə, sərt, amansız tənqidi münasibətlə, tünd, qatı poetik boyalarla Azərbaycan comiyyətinin düşdüyü bəlaları—hakimiyyətin və milli sərvətlərimizin özünküləşdirilməsini, doyulmaz korrupsiyaçılığı, postkommunist qınından çıxmazlığı, monarxiya iddialarını, milli əxlaq və dəyərlərin "yenilik" adına batırılmasını, ümumiyyətlə, köhnəliyin, naşılığın bütün qırmızı, bihəya sifətlərini özünün poeziya, dramaturgiya və publisistikasında ifşa hədəfinə çevirir. **Azərbaycan Cahiliyyəsi** bu gün Bəxtiyar yaradıcılığında bütün uçurumları, dərələri, bataqlıqları ilə görünür.

"Xilasına yol axtaran Vətənin" dərdinə çarə etmək, onun Qarabağ yarasını sağaltmaq əvəzinə, sərvətlərini sümürmək hərisliyi ustad qələminin oxuna taxılır:

... Sən də insan, mən də insan,
Doğulmuşuq bir anadan,

Qanda birik, canda birik
Anamızın xatirinə.
Bəs niyə biz bir məxrəcə gələmmirik?
... İş-gücümüz didişməkmi?
Leş üstündə didişərlər... Vətən leşmi?

Bu hərisliyin ən dəhşətlisi, dövləti çökdürən adı isə — "hakimiyyət davasıdır":

... İqtidara yetişməkdən
Ayrı bir şey düşünməyir
Coşan qəlblər, qızan başlar.
Hakimiyyət davasıdır bu savaşlar.
Vətənçü, gün ağlamayır
Nə o tərəf, nə bu tərəf.
Bu Vətəni
Dədəsindən ona qalan əmlak sayır.
Həm o tərəf, həm bu tərəf
Hər biri öz peşəsində.
Namus ilə çalışanlar,
Bu Vətənin dərdi ilə alışanlar
İkisinin arasında
qalıb ancaq yana-yana
Müxalifətdir həm o yana, həm bu yana.

Dartışmalar məmləkətində onun namuslu vətəndaşları ya lal edilib, ya qul bazarının yolçusudur, ya da yurdundan, evindən didərgin düşüb, çörək qazanmaq üçün qürbətə üz tutub:

Dəyanət, ləyaqət qalmadı bizdə,
Hər gün gəlmələrlə dolur məmləkət.
Öz doğma, öz halal vətənimizdə
Gəlmə sahibkara əl açır millət.

Şair hətta qoşmalarında bu milli faciələrimizi ozan harayı ilə zilə çəkir:

... Yuxarılar əl çəkmədi nəfindən,
Beş-on yerdə saray tikdi kefindən.
Bircə loxma çörək üçün evindən
Perik düşən el, vətəndən küsübdür.

Ustad bu faciələrimizin komizmini, Qarabağ dərdini "Qarabağ" kafesində kef çəkənlərin ovqatında da görür və qəm üstündə oynamağın

indiki durumumuza bab halını açır:

Bizim kefimiz də kef-damaq deyil,
"Yoğrulduq düşmənə qəzəbdən, kindən"
Toylarda oynamaq, oynamaq deyil,
Atılıb-düşürük "dərdin" əlindən.

Bəxtiyar Vahabzadənin, ürəyində Zaman döyünən, Tarix yaşanan, Millətin ağrıları qövr edən nəcib, insani, kövrək və üsyankar poeziyasında Azərbaycan ruhu gəzişir. Milli əxlaqımızın ucalıq, Vətən duyğularımızın ölməzlik, Azərbaycanımızın ilahilik rişələri, şah damarları Bəxtiyar şerinin qəlbində birləşir. Buradan doğma yurdun canına uludan ulu, durudan duru, təzədən təzə ideya, söz, hikmət qanı axır...

Bu xalqı sökənlər müdam "xalq" dedi,
Nə özü ucaldı, nə endi xalqa.
Ömründə bir dəfə xalq deməyənlər
Kürsü məramı ilə söykəndi xalqa.

Özgənin fikrini bəyənməyənlər,
Özünü öyməkçün xalqı öyənlər,
Gah onu, gah bunu "düşmən" deyənlər
Əslində özləri düşməndi xalqa.

Yüz yollu yüz nəfər kütlədi ancaq
Bir yollu beş nəfər qüvvədi ancaq.
Yüz yollu məmləkət ölkədi ancaq
Bir sözlü məmləkət Vətəndi xalqa.

Möhtəşəm poeziyası dar mənafe, klan, partiya... qəliblərinə sığmayan Bəxtiyar Vahabzadə — Söz Sərkərdəsidir. Şairlikdən başqa ondan bir şey ummaq yersizdir. Nəyi varsa Bəxtiyar Vahabzadənin yalnız Şairliyinə sığdırıb... Nəyi varsa — verib, verir... Bircə Ruh şəklində görünən uçunmuş cüssəsi qalıb — Qüvvətli, Yenilməz!

Ağ dalğalı saçlarını heç zaman Hakimiyyət deyil, Vətən küləkləri sığallayan, Vətən çırpıntıları, iztirabları qəlbində tufan qoparan "İstiqlal" ordenli Bəxtiyar Vahabzadə... elə indi də dissidentdir. — Çünki Böyük Sənət həmişə öz zamanı ilə dissonansdır...

Şerindən axan ulu qanlar soyumasın, laxtalanmasın. Kükrədikcə kükrəsin, aşıb-daşsın, Ustad!

"525-ci qəzet", 20 oktyabr 2001.

Novruz İSAZADƏ

İSTİQLAL ŞAİRİNİN XƏYAL QIRIQLIĞI[1]

Bu günlərdə Həsən Həsənovun iri həcmli ön sözü ilə B.Vahabzadənin 1999-cu ildə çap olunmuş 495 səhifəlik "İstiqlal"adlı kitabı əlimə keçdi. Kitabı oxuyub gördüm ki, şairin hələ 50-ci illərdə toxunduğu istiqlal mövzusu onun yaradıcılığının ana xəttini təşkil edir. Çünki o, Sovet totalitar rejiminin kəsakəs zamanlarında da susmamış, Vətənin istiqlalı naminə yazıb-yaratmış və heç zaman öz əqidəsindən dönməmişdir. Sonralar yazdığı "Azadlıq" adlı məşhur şerində dediyi kimi amalını və arzusunu açıq demək mümkün olmadığı zamanlarda fikrini "Sətirlər arasından sızdırmışdır". Çox qəribədir ki, istiqlalımızı qazanandan sonra da bu mövzu onun yaradıcılığının, yenə baş mövzusu olaraq qalmaqdadır. İnsan uzun illər bəslədiyi arzusuna qovuşarkən dayanıb nəfəsini dərməli və ürəkdən bir "oxqay" deməlidir. Lakin maraqlısı budur ki, istiqlalımızın on illik bayramında da biz bu "oxqay"ı şairin dilindən eşitmədik.

H.Həsənov qüdrətli ictimai xadim və peşəkar ədəbiyyatşünas kimi şairin hələ 50-ci illərdə böyük ürək ağrısı ilə qələmə aldığı bu mövzunu etap-etap açıqlayır, bu mövzunun müxtəlif çalarlarını — hətta sovet rejimində hansı üsullardan istifadə edərək istiqlal arzusunu dilə gətirdiyini çox tutarlı faktlarla oxucunun gözləri qarşısında canlandırır.

Budur, 1968-ci ildə şair Asiya və Afrika yazıçılarının Daşkənd müşavirəsində iştirak edir. Və burada məmləkətinin istiqlalını tələb edən Afrika və Asiya yazıçılarının nitqini dinləyir. Sovet hakimiyyəti əzilən xalqların əzən imperialist dövlətlərinə qarşı üsyanını bütün dünyaya bildirmək üçün yüz min manatlarla xərc çəkib bu konfransı təşkil etmişdir. Amma o unudurdu ki, ən böyük və ən usta imperialist dövlət onun özüdür. O bilmir ki, salonda əzilən Afrika xalqları ilə yanaşı oturan azərbaycan şairi içində yaşadığı bu quruluşun ən eybəcər, ən hiyləgər imperialist sifətini çox gözəl görür və elə oradaca onun əleyhinə "Neo" şerinin sətirlərini fikrində yaradır. "Neo" — yəni Sovet quruluşunun yaratdığı yeni və hələ bunu dərk etməyən zəncinin gözlərinə bu konfransla kül üfürən ən böyük neoimperialist dövlət bu konfransı təşkil edən Sovet dövlətinin özüdür.

1 Müəllif məqaləsini müxtəlif mətbuat orqanlarına vermiş, çap olunmadığına görə şairin özünə göndərmişdir. (redaktor)

Bu neolar, bu tələlər, bu hiylələr
Min-min olur.
Təzə-təzə hiylələrdən
Baş açmaq da çətin olur.
Gəl baş çıxart,
Neoların üstü bəzək, altı təzək.
Min cür fitnə-fəsadından
Haqq boğulur haqq adından.

Şair bu salona öz haqqını tələb etmək üçün toplaşanların dili ilə öz dərdinə ağlayır və sanki onlara demək istəyir ki, "a bədbəxtlər, kimə inanırsız? Bu gün sizi burada öz ağalarınızın əleyhinə danışdıranın özü ən böyük imperialistdir. Mənə isə azad ölkənin yazıçısı kimi baxmayın. Mən də sizin tayınızam".

Axı biz də onlar kimi bir insanıq,
Biz nə daşıq, nə dəmirik,
Yetər artıq, biz heç kəsə
Yamaq olmaq istəmirik.
Yaman dərddir
Özgəsinə yamaq olmaq.
Yaman dərddir
Azadlığın həsrətinə damaq olmaq.
Yaman dərddir, gözün ola,
Amma görə bilməyəsən.
Yaman dərddir, əlin ola,
Evindəki zir-zibili
Sən süpürə bilməyəsən.
Yaman dərddir,
Dilin ola,
Nə danışıb, nə dinəsən.
Yaman dərddir, ağlın ola,
Özgəsinin ağlı ilə düşünəsən.

Bu parçanı o zaman oxuyan hər kəs bunların afrikalı məhkumun dilindən deyil, məhz gözü olub görməyi yasaq edilən, ağlı olub özgəsinin (yəni Kremlin) ağlı ilə düşünməyə məcbur edilən şair Bəxtiyarın dili ilə deyildiyini anlayırdı.

Buna görə də hələ o zamanlar gənc Bəxtiyar xalqın sevimlisinə çevrilmişdi. Artıq hamı onun həqiqəti demək üsulunu anlamışdı. Ömrü boyu istiqlal arzusu ilə yaşayan şair üçün, elə bil həyat devizi, həyat proqramı bu iki misradan ibarət idi:

Təməldən uçula evi zalımın,
Qurula binası istiqlalımın.

Əlcəzair xalqının fransız işğalçılarına qarşı 50-ci illərin sonunda başlayıb 8 il davam edən istiqlaliyyət mübarizəsi şairin ürəyində qövr edən istiqlal yarasına duz səpdi. O, girəvəni əldən vermədi və dərhal bu mövzuda "Yollar—oğullar" poemasını yazdı. Poema böyük hay-küyə səbəb oldu. Şair "İstiqlal" kitabının ön sözündə bu barədə yazır: "Poemanı çap üçün "Azərbaycan" dərgisinə verdim. O zaman dərgidə çalışan qələm yoldaşım (artıq rəhmətə getmiş bir şair) açıq imza ilə Yazıçılar İttifaqının sədri Mehdi Hüseynə, KQB-yə və MK-ya məktubla müraciət edərək, bu əsərdə Əlcəzair-fransız münasibətindən deyil, rus-Azərbaycan münasibətindən bəhs olunduğunu və bu əsərin antisovet cəbhəsindən yarandığını iddia etdi... Bu gün mən xatirəsi önündə böyük hörmət, minnətdarlıq və şükranlıq hissi ilə deməliyəm ki, həmkarımın yazdığı donos nə qədər həqiqət olsa da məni o bəladan Mehdi Hüseyn xilas etdi". ("İstiqlal", 1999, səh. 61—62)

Belə ki, bu poema başdan-başa müstəmləkə xalqlarının imperializmə qarşı istiqlal arzularının ifadəsi idi. Əsərin qəhrəmanı ərəb oğlu Mustafanın müstəmləkəçiliyə qarşı dediyi aşağıdakı sözlər həm də rus istibdadının yumruğu altında əzilən Azərbaycan türklərinin fəryadı idi:

Dağ olub üstümə qat-qat qalınca,
Məndən uca dağlar kölgə salınca,
Daş olub dağlardan uzaq olaydım.
Günəşdən nur alan bir ay olunca,
Bir evi nurladan çıraq olaydım.

İstiqlal mövzusuna şair onlarla şer və poemalar həsr etmişdir. Mən deyərdim ki, şairin yaradıcılığında istiqlal mövzusu ayrıca bir tədqiqat obyekti olmalıdır. Bu məsələni "Gülüstan", "Ağlar güləyən", "Yollar-Oğullar", "Təzadlar", "416", "Mərziyə", "İki qorxu", "Şəhidlər" poemalarının və yüzlərlə şerin toplandığı "İstiqlal" kitabına Ön söz yazan H.Həsənov tədqiqatçıların qarşısına hələ həllini tapmayan bir vəzifə kimi qoyur. Həsənov tamamilə haqlıdır.

Şair o zaman yazdığı "Ağlar güləyən" poemasında M.Ə.Sabirin dili ilə öz azadlıq arzusunu belə ifadə edirdi:

İstəyirəm azadlıq
Məni yerdən götürən
Güclü bir qanad olsun.

İstəmirəm azadlıq
Quruca bir ad olsun.
Ələmlər bəstəsiyəm,
Mən arzumun səsiyəm.
Mənə dərman neyləsin,
Azadlıq xəstəsiyəm.
Yox, mən çığırmalıyam,
Yox, mən bağırmalıyam,
Köməyimə, dadıma
Yeri çağırmalıyam,
Göyü çağırmalıyam.
Hansı qanunda var ki,
Öz elindən olasan,
Öz dilindən olasan,
Hədəf də sən olasan,
Güllə də sən olasan?
Hansı qanunda var ki,
Bir xalqın ana dili
Dilim-dilim kəsilə,
Sənə yasaq edələr
"Yandım" – deməyi belə.

O zaman bu sətirləri oxuyan hər bir vətəndaş Sabirin dili ilə verilən bu alovlu misraların arxasında rəsmi dairələrdən qovulan öz ana dilinin vəziyyətini və taleyini düşünüb, özünün müstəmləkə olduğunu dərk etməli idi.

Müstəqilliyimizi qazanana qədər milləti üçün istiqlal arzusu ilə alışıb yanan, fəryad çəkən şairimizin 1991-ci ildən sonra — yəni istiqlalımızı qazanandan sonra fəryadı dayandımı? Daha doğrusu, arzusuna çatıbsa, bu son on ildə o nə yazdı? İndi nəyin arzusu ilə alışıb yanır?

Təəssüf ki, şair qazandığımız azadlığın bəhrəsini görə bilmədi. Bunun birinci səbəbi o idi ki, istiqlal müharibə ilə birlikdə gəldi. Torpaqlar əldən getdi, yurd-yuvasız qaçqınlar dilənçi kökündə kənd və şəhərlərə səpələndi. İtirilən torpaqlardan didərgin düşmüş Ermənistan və Qarabağ camaatının acınacaqlı vəziyyəti illər boyu cövrünü çəkdiyi istiqlalın zövqünü çəkməyə şairə imkan vermədi. Şair müstəqillikdən umduğunu müstəqillik zamanı görə bilmədi. Bir vaxt ayıldı ki, kommunist rejimində Lenin bayrağı altında at çapanlar indi müstəqillik zamanında M.Ə.Rəsulzadənin üç rəngli bayrağı altında yenə at çapır, xalqı soyub talayır. Yenə də millət üçün yananlar qapı arxasında qalıb, çapan-

lar isə məmur kürsüsündədir.

Şair anladı ki, ömrü boyu həsrətini çəkdiyi, ömrü boyu "leylacı" olduğu azadlıq, istiqlal ona aid deyilmiş, qazanılmış bu istiqlaldan onun kimi yananlar deyil, vaxtilə istiqlala düşmən olanlar bəhrələnir. Yenə "yananlar" deyil, yananlara yamanlıq edənlər dövran sürür. Bu yerdə şair 1966-cı ildə yazdığı "Təzadlar" poemasındakı misraları xatırlayır:

Bir zaman demişdim: "Azadlıq – səhər,
Bu səhər arzusu ölə bilərmi?
Məhkum xalqlar üçün azadlıq qədər
Böyük bir səadət ola bilərmi?

İdrak da boğulur, söz də, sənət də,
Ağıl kilidlənir dildə, dodaqda,
Azadlıq olmayan bir məmləkətdə
Nadan başda gəzir, ağıl ayaqda".

... Elə bilirdim ki, azadlıq – işıq,
Yalnız o qovacaq yurddan zülməti.
Aldıq azadlığı! Bəs bu azadlıq
Niyə gətirmədi o səadəti?

Bu, çox dəhşətli sualdır. Şair davam edir:

... Həyat da, zillət də həməndir bu gün,
Verilən vədlər tez unuduldu.
Azadlığın özü vallah bizimçün
İndi başqa cürə məhkumluq oldu.

... Bu gün heç... Sabaha ümid də yoxsa,
Olarmı bir qırıq könül şadlığı?
Daha deməyə də söz qalmayıbsa,
Axı kimə gərək söz azadlığı?
Belə azadlığı istəmirəm mən,
Belə azadlığı istəməz Vətən.

Beləliklə, şair xəyal qırıqlığına uğrayır. Qarabağın 10 ildir azad olunа bilməməsi, xalqın günü-gündən dilənçi kökünə düşməsi, sovet dövründə gurhagurla işləyən fabrik və zavodların dayanması, əhalinin 70–80 faizinin işsizliyi, beynəlxalq təşkilatlarda sözümüzün keçməməsi, ixtiyar şairimizi ümidsizləşdirir, ictimai fəaliyyətdən soyudur. Yalnız yazmaqla ürəyini boşaldır. Şair görür ki, onu kor quyudan azadlığa çıxaran kəndir indi halqa olub öz boğazına keçib. Şair görür ki, o, indi özgənin əsarətindən qurtarıb öz əsarətinə düşüb.

"Əsarət — azadlıq" şerinə diqqət yetirək:

Əsarət odunda bişdi nəslimiz,
Azadlıq eşqinə yandıq, yaxıldıq.
Çatıb azadlığa, bu məbəddə biz,
Şükür namazını qibləsiz qıldıq.
İndi azadlığım mənə qənimdir,
Bu gizlin oyundan baş açmır fələk.
Məni kor quyudan çıxaran kəndir
İndi boğazıma keçib halqa tək.

Beləliklə, yaradıcılığının 40 ilini "istiqlal", "azadlıq" — deyə bar-bar bağıran, onun yollarına göz yaşlarından su səpən şair ömrünün son 10 ilində azadlıq məbədində məlul-müşkül oturub ümidlərinin puç olduğuna yas saxlayır. Çünki o, iki sistemin vətəndaşı olmuş, birinci sistemdə ümidlərinin doğrulacağını gözləyə-gözləyə məhkumluğunun günahını ölkəsinin müstəmləkə vəziyyətində olmasında görmüş və var gücü ilə istiqlal arzusu ilə yaşayıb-yaratmışdır. Lakin bu arzusunu mütəqillik dövründə də görməyəndə, bu, onun əsil faciəsinə çevrilir. Ona görə də o, indi millətinin faciəsini yazır.

Xalqımızın sosial dərdləri, hüquqsuzluğu, çəkdiyi əzab və məhrumiyyətləri XX əsrin əvvəllərində iki dahi şair və bir dahi nasir — Sabir, Hadi, Mirzə Cəlil böyük bir ustalıqla ədəbiyyata gətirmişlər. Buna görə xalq bu 3 dahiyə minnətdardır. Etiraf edək ki, bu üç dahidən sonra biz xalq dərdini, xalq faciəsini heç bir şairimizin sənətində onlarda olduğu qədər görə bilmədik. Sovet hakimiyyəti illərində isə məlum səbəbdən bu məsələlərə toxunmaq yasaq idi. Xalq da bunu çox gözəl başa düşür və istər-istəməz belə də qəbul edirdi. Buna görə də uzun illər qələm sahiblərimiz millətin çəkdiyi ağrı-acılarına, sosial dərdlərinə toxuna bilmədilər.

Burda etiraf edək ki, bu missiyanı hələ 1959-cu ildə "Gülüstan" poeması ilə B.Vahabzadə öz boynuna götürdü və kürəyinə yamanan millətçi damğası ilə bəlasını da çəkdi. Bu gün cəsarətlə deyə bilərik ki, B.Vahabzadə poeziyası Sabir — Hadi poeziyasının həqiqi davamına çevrildi. Şair özü də bir neçə məqaləsində Sabir və Hadini özünün ən böyük müəllimləri olduğunu yazmışdır.

Adımı dəyişin, bilinsin yolum,
Məgər bəxtiyaram Bəxtiyar olum?

Gözümə mil çəkən bir belə dağla
Mən ağlar bəxtimə necə yar olum?
Millətim bədbəxtsə mən hansı haqla,
Mən hansı ürəklə Bəxtiyar olum?

Yaxud:

Bəy, xan qürurumuz yolçu payı tək
Paylandı didərgin çadırlarında.
Gedən torpaqları qaytarmaq üçün
Savaşa bilmədik, sülhə öyündük.
Babamız qurd idi... Ancaq biz bu gün
Əllərdən ot yeyən quzuya döndük.

Şair qaçqın çadırlarında öz halal haqqını dilənçi payı kimi alan və buna qane olan, babası qurd olduğu halda özü quzuya dönən didərginləri əllərdən ot yeyən quzuya bənzədir və buna qarşı etiraz səsini ucaldır.

Bəxtiyar millətini dünyanın ən xoşbəxt, ən ağıllı, ən seçgin millətləri ilə bir sırada görmək istəyir. Lakin bunu görmədikdə, o yalnız qələmə güc verir, gördüklərini yazır. Bəs millət nə istəyir? Adi insan haqqını. Yəni işləmək və balalarının minimum ehtiyaclarını ödəmək! Vəssalam!

Kim ki, öz haqqını zordan istəmiş,
Qapıdan qovulub şapalaq yemiş.
Heç demə ən böyük haqsızlıq imiş
Haqqını istəyən millətin haqqı.

Sən dərdə bax! Ali insani haqqını istəyən millətin haqqı ən böyük haqsızlıq imiş.

... İstiqlal qazandıq, üzlər gülmədi,
Qaynaqdan bulanan su durulmadı,
Bir günlük, bir dəmlik sevinc olmadı
Yetmiş il çəkilən zillətin haqqı.

Bax, budur şairi dəhşətə gətirən, onun ümidlərini tarimar edən! Axı, o, istiqlaldan başqa şey gözləyirdi.

Sovet sistemində adi insani haqqları tapdansa da heç olmasa, xalqın qarnı tox idi. Uşaqların oxumaq haqqı var idi. İndi isə qaçqın balaları məktəbə getmək əvəzinə küçələrdə maşınların şüşələrini silməklə bir parça çörək qazanır. Bu körpələrin məktəbi küçələr, dəftəri maşın şüşələri, qələmləri isə şüşə silən əski parçasıdır. Bu dəhşətli mənzərəni qələmə alan şair şerini belə bitirir:

İnsanıq, insanlığı bizim gördüklərimiz
Bəs danmırmı görəsən?
Mindiyimiz maşının təkərləri altında
Vicdan adlı o mələk tapdanmırmı görəsən?

"Dilənçidən beş betər yoxsullaşan millətinə" ağı deyən şair gördüyü bu qədər əzab içində bu yaşa çatmasına təəccüb edir. Və Allahdan ölüm arzulayır:

İlahi, şahidsən sən özün, gündə
Neçə yol gah öldüm, gah da dirildim.
Boğula-boğula dərdin içində
Mən necə bu qədər yaşaya bildim?

Bu, artıq dözümün, səbrin son həddidir. Buna görə də "Səbir versin Allah bizə" deyənlərə qarşı "Qul eylədi səbir bizi" "Allah alsın əlimizdən səbrimizi" — deyə üsyan edir.

Şair qışın çovğununda isti otağında yatır. Əslində yatmır. O, yanında yatan nəvələrinə baxıb çadırlarda donan qaçqın balalarını düşünür. Və özünə sual verir: "Döşəyimin istisi bəs niyə sancmır məni?" Sualın cavabını özü verir:

Bilmirəm kim utansın indi mənim yerimə,
Qıyardımmı o zülmü mən öz nəvələrimə?
Nəvələrim deyilmi bəs bu qış gecəsində
Damsız qalan körpələr,
Hələ ucalmalıykən o alçalan körpələr?
Bunu bilən vətəndaş öz isti yatağında
Rahatca yatarmı heç?
Yurdumun atəşinə qızınan əcnəbidən
Mənim fərqim varmı heç?

Beləliklə, vicdan əzabı ilə qıvrılan şairin faciəsi tək onun deyil, xalqın faciəsinə çevrilir.

Şairin 40 illik istiqlal arzusu son 10 ildə ümidsizliklə və pərişanlıqla nöqtələnir. Bu isə ömrü boyu milləti üçün alışıb-yanan, millətinin xoşbəxtlik arzusu ilə yazıb-yaradan böyük bir şairin öz böyüklüyündən qat-qat böyük olan faciəsidir. Bu faciə isə ayrı-ayrı cizgiləri və görüntüləri ilə deyil, tamlığı ilə hərtərəfli, daha dərindən tədqiq olunmalı, şairin yanar ürəyi millətin gözlərinə olduğu kimi görünməlidir.

Şairin şəxsi arxivindən.

Yaşar QARAYEV

ŞAİRİN VƏ ŞERİN MİLLİLİYİ

Vətənin və şairin taleyi həmişə qovuşur və kəsişir. Millət pərən-pərən düşüb, torpaq şəhid olanda, torpağın şer qatı, poeziya örtüyü də əsir düşür və şəhid olur. Necə ki, neçə ildir Şuşada durna qatarının səfi dağılıb və Füzulidə Füzuli qəzəlinin sətrinin sapı, nizamı, sahmanı pozulub, Qarabağda atılan mərmilər səmadan, torpaqdan əvvəl poeziyaya dəyib. Kim isə deyib ki, Osvensimdən sonra daha lirika yazmaq olmaz. Baqanis-Ayrımdan, Ağdabandan, Göyçədən, Xocalıdan, Şuşadan... sonra poeziya yaratmaq — ondan da qat-qat çətin işə, çətin sınağa, çətin müşkülə çevrildi. "Zamanın bağları" yenə gərildi və qaytan bu dəfə Qarabağda qırıldı. Dünya bizim üçün Şuşada məhvərdən çıxdı. "Ümumbəşəri əxlaqda xəyanət" Danimarkada, Hamletin sarayında yox..., Qafqazda, Pənah xanın Qalasında baş verdi! Nəinki Vaqifin, Nəvvabın, Üzeyirin, hətta Vurğunun da qələmi ilk dəfə Şuşada sındı: **"Könül candan" — Şuşa Azərbaycandan** ayrı düşdü! Tanrı bizdən üz döndərdi, qələm dildən, dil könüldən, könül eldən ayrı düşdü. Xarıbülbül Əlyetməzdən, Qırat Çənlibeldən, Babək Bəzzdən, qartal düzdən, şair sözdən uzaq düşdü. Bütün bunlar hamısı isə ona görə baş verdi ki, "körpü çaydan uzaq düşdü"!.. Və şair taleyin bu alın yazısını öz kitabının titul yazısına köçürdü. **"Körpü çaydan uzaq düşüb"** — millətin faciəsi kimi, zamanın və dövranın ibrəti və dərsləri kimi, şerinin ünvanı və imzası kimi bu düsturu bu topluya simvol və başlıq seçən Bəxtiyar Vahabzadə böyük poeziyanı bir daha xalqın yadına saldı. Və inandırdı ki, sən demə, ürəkdə, ruhda, içimizdə lap dərində, hansısa ucqar bir hücrədə hələ də mənəvi işığa — poeziyaya yer qalıbmış!.. Torpaq dərdindən, qaçqın müsibətindən, güzəran və bazar qayğısından, qeyrət və şərəflə al-verdən, rəyasət davasından, xəyanətdən, haramdan, rüşvətdən başqa da, əlavə daha nəyə isə boş məkan qalıbmış!.. Bu "boş məkan"ı yalnız həqiqi şerlə, əsl poeziya ilə doldurmaq olar. "Bəxtiyar Vahabzadə ünvanlı məhvərdə dövrün, zamanın məhz böyük hərfli, böyük ənənəli Poeziyası fırlanır. Əgər o, yenə də ürəyi, yenə də efiri, yenə də Meydanı aşana-daşana qədər doldurursa və bu qədər pərəstişkarı öz işığına toplayırsa, deməli, Azərbaycanda şer hələ də yaşayır, döyüşür, səfərbər edir və Vətən, xalq qarşısında öz böyük tarixi, milli vəzifəsini yerinə yetirir...

Bəxtiyar çağdaş şerin tarixinə müharibədən sonrakı nəslin nümayəndəsi kimi daxil olub. Aprel çevrilişinin, "37" deyilən dövrün, dünya müharibəsinin imtahanından çıxan milli şeri daha sonrakı "dinc illər"in, əxlaqi axtarışlar, texniki inqilab, "yenidənqurma", azadlıq hərəkatı və suverenlik deyilən dövrlərin sınağında qoruyub-saxlamaq bu nəslin öhdəsinə düşüb. Nəslinin uğurlarını daha qabarıq ifadə etmək isə bir şair kimi Bəxtiyara nəsib oldu. Məhz nəslinə, xalqına, kökünə bağlılıq, təkrarsız, fərdi, milli çalar Bəxtiyar şerini çağdaş Azərbaycan poeziyasının tarixi bədii-faktına və hadisəsinə çevirib, ondan müasir Şərq və dünya şer prosesinin məcrasında danışmağa əsas və haqq verib.

Bu şeri dərindən açan iki-üç ən səciyyəvi xüsusiyyət haqqında düşünərkən, mənim yadıma, hər şeydən əvvəl, **"millilik"** sözü düşür. Niyə **"milli şer"**? Kimdir **"milli şair"**? Məncə, yalnız millətin adından danışmaq haqqını qazanan şair "milli şair" olur. Xalqın dərd-sərini xalqla bölməyən, Vətən parçalananda ürəyi parçalanmayan şairə necə "milli şair" demək olar?! Bəxtiyar Vahabzadə bu haqqı hələ əllinci illərdən — "Gülüstan" poemasını yazdığı vaxtdan qazanıb. Vətənin iki yerə bölünməsini tarixi "Gülüstan" müqaviləsi ilə başladığı kimi, onun — ürəyi parçalanan şairin də ağrısı və hayqırtısı "Gülüstan" poeması ilə başlayıb:

Min ləkə vurdular şərəfimizə,
Verdik, sahibimiz yenə "ver!" dedi.
Lap yaxşı eləyib, doğrudan bizə
Biri "baran" dedi, biri "xər" dedi.

Bütövlükdə, o illərin poeziyasında "Gülüstan" təzə bir hadisə idi və tamamilə yeni səpkili bir şairin sənət meydanına qədəm qoyduğunu xəbər verirdi: sadəcə olaraq mövcud poetik adlar siyahısına növbəti bir ad, imzalar içinə təzə imza əlavə olunmurdu, yox, poeziyaya milli narahatlığın tərcümanı, xalqın "dərdinin dəlisi", azadlıq, istiqlal uğrunda mübarizənin əsgəri, "vəkil"i daxil olurdu:

Bilmirəm bu millətə
Vəkil etdi kim məni?!.

Bu sözlər altmışıncı illərdə yazılmışdı və şairin rəsmən millət vəkili olmasına onda hələ çox qalırdı. Lakin o zamandan Bəxtiyar Vahabzadə özünü sənət mehrabında eşq, gözəllik əsgəri hesab edir. Və poeziya da ona yalnız **"İstiqlal"** adlı ünvana, mənzil başına aparan cığır, yol kimi lazım olur. Daha doğrusu, millətin azadlığını milli poeziyanın böyük idealına o illərdə hamıdan çox Bəxtiyar Vahabzadə çevirir.

Bu şeri ən dərindən səciyyələndirən ikinci bənzətmə, obraz, ifadə axtaranda yadıma **"ağrı"** sözü düşür. Bu şer lap ilk gündən Bəxtiyara ən doğma və məhrəm obrazdan — əriyən, şəhid olan şamdakı əzabdan və ağrıdan başlayır. Məhz Bəxtiyar müasir şerin də şamını Füzuli ahının odundan yandırır:

Şam əgər yanmırsa, yaşamır demək,
Onun da həyatı yanmağındadır.

Əlbəttə, "ağrı poeziyası"nın tarixi qədimdir, hətta Füzulidən, Bayrondan, Dostoyevskidən də qədimdir. Lakin şer də, lirika da Xirosima və Naqasakinin külü altında qalandan sonra, Buhenvalddakı və Sibirdəki ölüm düşərgəsindən, Osvensimdən, Xatından, Xocalıdan sonra poeziyada ağrının mənası və ona həssaslığın miqyası dəyişmişdir. Ağrıya həssaslığın — Xatın fəryadının heç kəsə bənzəməyən böyük lirikasında Azərbaycanı Bəxtiyar Vahabzadənin şeri ləyaqətlə təmsil edir. Adətən, həkim ağrını korşaldır, əsəbi öldürür və ağrıyan dişi ağrısız daşa çevrir. Əsl şer isə, əksinə, hər cür eroziyanı, pas örtüyünü, piy qatını əxlaqa, vicdana həssaslığın əsəbi üzərindən götürür, hətta küt dişi də əsəbi açılan, yandırıb-qovuran dişə çevirir. Məhz elə buna görədir ki, müasir şairlərdən biri Bəxtiyar Vahabzadə haqqında yazır ki, o öz sinəsində hər zərbəyə açıq, "dərisi soyulmuş ürək" gəzdirir. Və yenə də bəlkə elə buna görədir ki, məhz dərisi soyulmuş şairi — Nəsimini Bəxtiyar Vahabzadənin lirikasının da, dramaturgiyasının da əsas qəhrəmanı kimi görürük.

"Pələng dərisi geymiş pəhləvan"ı gürcü poeziyasının simvolu hesab edirlər. "Dərisi soyulmuş Nəsimi"ni həm Bəxtiyarın, həm də bütövlükdə Azərbaycan şerinin rəmzi saymaq olar.

Bu isə çox mənalı və ibrətlidir. Alimlər hətta sivilizasiyanın və ekologiyanın səviyyəsini ağrıya həssaslığın səviyyəsi ilə ölçürlər və hesablayırlar. Qədimdə ağrıya küt nəhənglər — dinozavrlar yaşayıb: başqalarını gəlib, onu sinəsinə qədər yeyib, amma yenə vücudunun yarıya qədər yeyilməsindən xəbəri olmayıb. Elə ona görə də nəsli kəsilib. Həmin dinozavrlara bənzəyən, ağrıya həssaslıqda skleroz olan xalqlar, millətlər də var: yarısına qədər yeyirlər, xəbəri olmur. Böyük poeziya, milli poeziya milləti məhz belə sklerozdan qoruyur!..

Nəhayət, bu poeziyanı vəhdətdə səciyyələndirən üçüncü xüsusiyyəti də qeyd etməyə bilmirəm.

Bəxtiyar şeri oxunanda yox, dinlənəndə daha sehrlidir. Burada səsin təsiri sözün cazibəsindən güclüdür.

Maraqlıdır ki, hayqırtı, səs, haray, fəryad... özü Bəxtiyar şerində ayrıca obrazdır, hətta addır, sərlövhədir. Onun pyeslərində bir sıra obrazların ancaq səsi eşidilir, özü görünmür ("İkinci səs", "Dar ağacı", "Yağışdan sonra", "Fəryad"). Ümumiyyətlə, bu poeziya Şəkidə, ucqar kənd məhəllələrindən birində çalınan məktəb zəngi ilə başlayır, sonuncu kitabının üzərinə yazılan **"Fəryad"** sözündəki harayla öz zirvə və yekun məqamına gəlib çatır. Artıq bir kənddə çalınan məktəb zəngi kimi yox... planetə səs salan həyəcan zəngi kimi, Nəsiminin və Babəkin, Cordano Bruno və Qalileyin, Buhenvald harayının, Xatının, Xocalının, Şuşanın fəryadının ağrısı, əcdadın, keçmişin yaddaş zəngi kimi səslənməyə başlayır. Və onda artıq təkcə məktəb və uşaqlar üçün yox, dünya və bəşər üçün qayğıların miqyası və vüsəti görünür.

Canlını cansızdan ayıran ilk əlamət — məhz Səsdir. Birini çoxdan görməyəndə "səsin-sorağın gəlmir" — deyirik, hətta qeybdən də yalnız "səs gəlir", görüntü enmir. Şam yalnız yananda işıq verdiyi kimi, su da yalnız axanda, külək də yalnız əsəndə (yəni yaşayanda) səs verir. Musiqini və musiqi alətini ilk dəfə kəşf edən Qorqud düz iyirmi səkkiz il fasiləsiz qopuz çalır və bu müddətdə məhz qopuzun səsi ölümü ona yaxın gəlməyə qoymur: iyirmi səkkiz ildən sonra birinci dəfə qopuzu yerə qoyub (susub!) bir anlığa mürgü vuranda isə ölüm ilan cildinə girib onu çalır. Məgər Şəhrzad ölümü, zərbəni, zədəni özündən uzaqlaşdırmaq, ömrü uzatmaq üçün düz min gün, min gecə nağıl danışmırmı?! Məhz öz milli şairinin, rəssamının, bəstəkarının... səsi, sözü, harayı həmişə fasiləsiz, həmişə ucadan eşidilən millətə, xalqa da zaval yoxdur. Bəxtiyar bir də məhz bu mənada səsin hikmətini vaxtında və dərindən duyan, müqəddəs, uca tutan şair və sənətkardır.

Özü də səsi biz bu şerdə yalnız haray və gurultu şəklində görmürük, həm də daxili səs və xəfif pıçıltı şəklində görürük. Ömrü boyu ətrafla, hamı ilə cəngi-cidalda, özü ilə isə əmniyyət və sülh şəraitində yaşayanlar var. Və, əksinə, ömrü boyu ətrafda, dünya ilə mehriban sülh, təkcə öz daxili ilə amansız cəng və savaş içində yaşayanlar var. Bəxtiyar ikincilərdəndir və xoşbəxtlərdəndir. Çünki məlumdur ki, ətrafla cəng-cidaldan demaqoqluq doğulur, daxillə, "mən"lə savaşdan isə lirika! Şair ömrü boyu həmişə özü ilə savaşda olub:

Bir yandan özümün ittihamçısı,
Bir yandan özümə vəkil olmuşam...

Və bunun da nəticəsi həmişə o olub ki, "Bircə ondan razıyam ki, özümdən narazıyam".

"Narazılıq", milli mənafe və qeyrətlə təzad təşkil edən hər şeyə mü-

xaliflik bu poeziyada diriliyin, kamilliyə doğru daimi, fasiləsiz hərəkətin əsas təkanvericisidir.

Əlbəttə, "narazılıq" yalnız şairlə öz "daxili" arasında deyil, şairlə rəsmi ictimai gerçəklik arasında da olub. Xüsusilə "Gülüstan", "Latın dili", "Yollar — oğullar", "Dan yeri", "Qara qutu", "Amerika gözəli", "Mərziyə" əsərləri dəfələrlə şairlə müvafiq rəsmi dairələr arasında təhlükəli "görüşlər"ə gətirib-çıxarıb. Qorxu kabusu şairin həmişə başı üstündə fırlanıb və elə vaxt olub ki, şübhəli şerlərini o, hətta Gülzar ananın ayaq protezində gizlətməli olub.

Nə yaxşı ki, Ruha, Mənəviyyata protez qoymaq mümkün deyil. Poeziyada yalnız axıra qədər yanmaq, sona qədər əriyib yox olmaq olar. Bu yolda şairin üzləşdiyi bir məqamı da xatırlatmaq istəyirəm.

Hətta "Leninlə söhbət" kimi fəal siyasi mövqe ifadə edən bir sərlövhə də şairi növbəti qəsddən xilas edə bilmədi. Rəhbər ədiblərdən biri "yuxarı"ya raport yazdı.

Şairi yenə də görüşə çağırdılar. Burada ən ali səviyyədə görüş vaxtı o, vətəndaş şairi daxilən, qəlbən duyan, dərindən anlayan, üstəlik, tanış, məlum həyəcan və qayğıları onunla bölüşən rəhbərlə görüşdü. Şairlə rəhbər arasında həmrəylik bu vaxtdan başladı. Qoşa, qarşılıqlı qəmxarlıq və həmdərdliyin tarixi sonralar da qorundu. Uzun-uzun illər boyu, hətta hər ikisi üçün ən dramatik məqamlarda da etibarlı, salamat, zədəsiz qaldı və indi də davam edir. Altmış-yetmişinci illərin bütün İttifaqda seçilən ədəbiyyatı — böyük "axtarışlar nəsri", böyük "intibah poeziyası", milli özünüdərk və fəlsəfi həqiqətlər teatrı bəlkə də məhz sənətkarla siyasi lider, milli öndər arasında belə anlaşmadan doğdu, dözüm və hamilik şəraitində meydana çıxa bildi. Axı o illər hətta Moskvada, "Drujba narodov" məcmuəsində çıxa bilməyən əsərlər Azərbaycanda çapdan çıxırdı. Bizdə altmış-yetmişinci illərin indi "sandıqdan çıxan" yasaq şedevrlərinin olmaması məgər təsadüfdürmü?

Daha sonrakı on illərin suverenlik ideologiyasını da məhz altmış-yetmişinci illər, bu dövrün böyük nəsri və şeri hazırlamadımı?! Xüsusilə milli renessansı məhz hərarətli, romantik şairlərin istiqlal çağırışı hazırlamadımı?! Ümumiyyətlə, dünyanın ən romantik və tragik istiqlalı Azərbaycan istiqlalı olub və dünyada istiqlalın ən romantik şerini də həmişə türk şairləri yaradıblar: Mehmet Akif Ərsoy, Məhəmməd Hadi, Hüseyn Cavid, Əhməd Cavad, Nazim Hikmət, Səməd Vurğun, Rəsul Rza... İstiqlal rəmzini həm şerində, həm də sinəsində gəzdirən çağdaş şairlər — Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza da bu ənənənin davamıdır.

Mən son müşahidəmlə və müqayisəmlə sözlərimi bitirmək istəyirəm.

Adətən, poeziyanı çörəklə müqayisə edirlər. "Çörək olsa, mahnı da olar, şer də olar", — deyirlər. Mən bu qanadlı kəlamı bizim ağır və böhranlı günlərin real gerçəkliyində sınamaq istədim və bu il Şəkidə Bəxtiyar Vahabzadənin yetmiş illiyi günlərində yubiley mərasimindən əvvəl çörək dükanına getdim. Burada mənə balaca bir şagird dəftəri göstərdilər. Yan-yana düzülmüş sahmanlı, nizamlı sətirlərin sırası mənə şer misralarını xatırlatdı və mən elə bildim ki, o, şer dəftəridir. Sən demə, bu dəftər neçə gündən bəri Şəkidə həmin dükandan nisyə çörək alanların adlarının siyahısı imiş! Bəli, bəli, bəlkə də Şəki yeganə şəhərdir ki, hələ də orada siyahıya, etibara, nisyəyə çörək verirlər. Doğrudur, səhəri gün mən kitab dükanına getdim və burada... nisyəyə kitab alanların siyahısına (dəftərinə) rast gəlmədim. Amma əvəzində başımı qaldırıb kitab rəfinə baxdım və həmin rəfin artıq seyrələn kitabları arasında Bəxtiyar Vahabzadənin təzəcə çapdan çıxan və Şəkiyə gətirilən son şer toplularından heç birini görmədim. Ürək ağrısı və ürək dolusu fərəh hissi ilə inandım ki, yarı ac, yarı tox şəkili ziyalı (bəlkə də "nisyə çörək" siyahısında adları olanlardan biri!) son tikəsini boğazından kəsmiş və son manatını Bəxtiyar Vahabzadənin "Fəryad" (!!!) kitabına vermişdir. Daha fəryadlı sözlər, bizim ən böyük milli şairin — Sabirin tarixi sözləri yadıma düşdü: "Sabir çörəksiz yaşar, Nizamisiz yox!". Eşq olsun, bu xalq yenə elə həmin xalqdır — çörəksiz yaşayır, Bəxtiyarsız yox!..

"Körpü çaydan uzaq düşüb" (1996) kitabına ön söz.

Nahid HACIZADƏ

BƏXTİYAR SEHRİ, BƏXTİYAR HEYRƏTİ...

SƏNƏTKAR HAQQINDA DÜŞÜNCƏLƏR

"... Qəlbi bir dünyadı — doğan Günəşi, batan Ayı, sayrışan ulduzları, qışı yaza, yazı yaya, yayı payıza qovuşan fəsilləri var.

Qəlbi "mən sahili olmayan dənizlər istəyirəm" deyə çırpınan bir ümmandı — üfüqləri görünməyən, bağları, fırtınalı, gecə-gündüz coşub-çağlayan bir ümman...

Qəlbi bir çəmənzardı — möcüzələr yaradan hisslər, duyğular çəmənzarı...

Ordan — o çəmənzardan ucalan fəxarət dolu səsə bax!

Azərbaycan oğluyam,
Odu Allah sanmışam.
Anam torpaq, atam od,
Mən oddan yaranmışam.

Başqa bir səs də qovuşur bu səsə:

Əbədi bir od kimi
öz içimdən közərib
Hey yanır şerim mənim!

Bu, Bəxtiyar dünyasıdır — qədimdən-qədim, uludan-ulu Azərbaycan şerinin gücündən güc, qüdrətindən qüdrət, şöhrətindən şöhrət alıb, XX əsrdən XXI əsrə pərvazlanan, adı ellərdən-ellərə, dillərdən-dillərə düşən, ecazkar sözünün, sənətinin nuru milyon-milyon ürəyi işıqlandıran mütəfəkkir şairimiz Bəxtiyar Vahabzadənin dünyası!".

"Günay" qəzeti üçün yazmaq istədiyim məqalədən fraqmentdi bu sətirlər. O zaman şairin 75 illiyinə hazırlıq görülürdü. İş elə gətirdi ki, Bəxtiyar müəlllim "xalqımın bu ağlar-sızlar vaxtında nə yubileyi, nə təntənə?" — deyibən bu tədbirin üstündən xətt çəkdi.

Düzü, mənim də əlim soyuyan kimi oldu.

Həmin ərəfədə Bəxtiyar müəllimin dəvətilə dalbadal üç əsərinin — "Özümüzü kəsən qılınc", "Dar ağacı" və "Atamın kitabı" pyeslərinin tamaşasına baxdım.

Düşündüm ki, Bəxtiyar Vahabzadə dramaturgiyasının bu triumfundan söz açım.

Bunu hardasa özümə mənəvi borc bilirdim. Mənim "Qisas qiyamətə qalmaz" pyesimin ilk tamaşası zamanı ürəkdən gələn ən səmimi sözləri Bəxtiyar müəllimdən eşitmişdim. Sonra da o, "Azərbaycan" qəzetində geniş resenziya ilə məni sevindirdi.

Bəxtiyar Vahabzadə, poeziyasında olduğu kimi, dramaturgiyasında da xalq ruhunun tərcümanıdır, dünyanın dərdləri ilə baş-başa qalan filosofdur, sənət eşqilə Simurq quşu kimi hər gün yanıb kül olan, yenidən və yenidən qanad çırpıb qalxan söz fədaisidir.

Xalq artisti Ağakişi Kazımovun quruluş verdiyi "Özümüzü kəsən qılınc" pyesi Bəxtiyar Vahabzadə dramaturgiyasının ən uğurlu səhifələrindən biri olmaqla, bütünlüklə Azərbaycan teatr sənətində hadisədir. Müəllif tamaşaçıları çox suallarla baş-başa qoyur, bizim hər birimizi dialoqa, polemikaya çağırır və ruhumuzu belə bir fikir üstündə kökləyir: öz xalqına arxa çevirənləri, onun taleyilə oynayanları, yad qoltuğuna sığınıb, xəyanət yolunu tutanları nə xalq bağışlayır, nə də tarix!

Dediyim kimi, böyük sənətkarın üç əsərinin, xüsusilə də bütün varlığımı silkələyən "Özümüzü kəsən qılınc" pyesinin səhnə təcəssümü haqqında geniş yazmaq istəyirdim.

Sənətə, sənətkara xüsusi sevgisi olan tanınmış iş adamı, Azərbaycan Demokrat Sahibkarlar Partiyasının və bizim sevimli "Günay" qəzetinin yaradıcısı Mahmud Məmmədov məni qabaqladı. O, Bəxtiyar Vahabzadənin yeni sənət qələbəsindən, pyesdəki hadisələrin bizim üçün bir ibrət dərsi olmasından, tamaşanın yüksək vətəndaşlıq ruhundan, təsir və təlqin gücündən bəhs edən sanballı bir məqalə ilə çıxış etdi.

Beləcə, mən də fikrimdən daşındım. Düşündüm ki, uzun illərdən bəri tanıdığım, ömür yolunu, yaradıcılığını dost məhəbbətilə izlədiyim böyük şairimizlə bağlı müşahidələrimi, təəssüratlarımı dilə gətirim. Bu istəklə də qəlbimin yelkənini açdım...

"YANIR ÜRƏYİMİN HIÇQIRIQLARI..."

Yağışlı-yağmurlu bir gündür. Ustadın görüşünə gedirəm. Xəyalımda axıb gedən illər, qəlbimdə yaxın-uzaq xatirələr...

... Mən universitetin birinci kursunda oxuyanda bizə dərs deyirdi. O zaman gənc idi, otuz yaşını hələ təzəcə adlamışdı. Yaşıdları arasında seçilirdi. Onu sevir, alqışlayırdılar, gur-gur salonlarda səslənirdi şerləri...

Sənət aləminə Səməd Vurğunun xeyir-duası ilə pərvazlanmış, onun zəmanətilə də Yazıçılar İttifaqına üzv qəbul olunmuşdu. O da vurğunu olduğu böyük Vurğunun yaradıcılığına həsr olunmuş doktorluq dissertasiyası üzərində işləyirdi. Nəsrimizin nəhəngi Süleyman Rəhimov onun poeziyasının pərəstişkarlarından biri idi. Deyirdi: **"Sən şerdə ecazsan, öz ustadın Səməd Vurğun nəfəsisən, sən bizim Səmədin ən ləyaqətli şagirdisən.**

Qoy, Bəxtiyar Vahabzadənin şahin şahpərli, qartal qanadlı şeri Yer kürəsinin hər tərəfinə yayılsın".

... O, elə bil ayrıca bir universitet idi. Bizi sehrləmişdi, biz Bəxtiyar sözünün sehrinə düşmüşdük...

Dediklərinin cövhəri bu idi: "Sənət heyrətdən yaranır".

Nizamidən, Nəsimidən başlayır, Füzulini incələyə-incələyə Sabir, Məhəmməd Hadi, Səməd Vurğun poeziyasına baş vurur, çox vaxt Puşkində, Bayronda dayanırdı.

O, bizə təkcə sənət dərsi deyil, həm də məslək, əqidə dərsi keçir, qəlbimizi, ruhumuzu Vətən sevgisi üstündə kökləyirdi.

"Yarım bu tayda qaldı, yarım o tayda qaldı" — deyə Araz dərdindən, ikiyə bölünmüş Azərbaycanımızın ərşə dayanan fəryadından, dilimizin qollarına qandal vurulmasından yana-yana danışır, bizi kökümüzə, ilki-

liyimizə, şərəfli tariximizə hər gün baş vurmağa, dilimizi, mənəviyyatımızı uca tutmağa, ana yurdumuzun, zərrəsi olduğumuz bu xalqın Məcnunu olmağa çağırırdı.

Biz onda bilmirdik ki, iki əsr tarixi olan ayrılıq faciəsinin hıçqırtıları ürəyinin başında od saçan, atəşə çevrilən misralara çevrilir və ədəbiyyatımızın qeyrət qılıncı, qeyrət rəmzi olan "Gülüstan" poeması yol gəlir.

Bu əsərlə onun taleyinə nöqtə də qoyula bilərdi. Ancaq "Gülüstan" öz müəllifinin adını o taylı-bu taylı Azərbaycanımızın ürəyinə əbədi olaraq həkk etdi. Böyük Şəhriyar qələm qardaşı Süleyman Rüstəmə göndərdiyi poetik məktubda yazırdı:

Bəxtiyarın üzündən öp,
Səmədin də sözündən öp.

... Onun bütün varlığı millətçiliklə, türkçülüklə yoğrulmuşdur. Onu Türkiyədə də çox sevir, doğma şairləri bilirlər. Şair də buna sevgi dolu nəğmələr qoşur:

Bir ananın iki oğlu,
Bir ağacın iki qolu,
O da ulu, bu da ulu,
Azərbaycan—Türkiyə!

Məşhur türk şairi Yavuz Bülənd Bakılər Bosfor sahillərindən Xəzər sahillərinə üz tutaraq deyir: **"Bəxtiyar Vahabzadə bütün türk dünyasının ortaq səsi, sevən ürəyi, aydınlıq üzü, gözəllik cizgisi və rəmzidir".**

... Biz — neçə nəsil qələm sahibləri, söz-sənət adamları, ziyalılar fəxr edir, öyünürük ki, Bəxtiyar məktəbini keçmiş, ondan vətəndaşlıq dərsi almışıq.

İstiqlal ordenli xalq şairi, dövlət mükafatları laureatı, millət vəkili, Milli Elmlər Akademiyasının həqiqi üzvü... Bu şərəfli titulların hər birinin arxasında şair, alim, ictimai xadim Bəxtiyar Vahabzadənin ağır, zəhmət dolu, çox gərgin, dramatik illəri, bəzən ölümlə belə üz-üzə, göz-gözə qalan günləri dayanır.

... Bu da tanış ev. Beşinci mərtəbəyə qalxıb zəngi basıram. Qapını özü açır. Hal-əhval tuturuq. Araya çay gəlir. Söhbətə körpü salmaq istəyirəm. Bilmirəm nədən başlayım. Bəxtiyar müəllim də dinib-danışmır. Aramızdan ağır-ağır sükut çayı axıb gedir.

Baxıram... Saçlar dümağ, dalğalı... Rus şairi Yeqor İsayev təbirincə desək, "dodaqlarında qəmli bir təbəssüm"...

Bu anlarda mənə elə gəlir ki, müdrik səsi uca göylərə, Tanrının özünə belə çatan poeziya heykəli ilə üzbəüzəm.

Ustadın görkəmi, baxışlarındakı işıq məni sevindirir.

— ... Maşallah, yaxşısınız, — deyirəm, — əhvalınız xoşuma gəldi.

— Səbəbi var, deyir. — Qabağınca bir qadın getdi. Bax, o qadının sevincini yaşayıram. Qaçqındı, ərini itirib. İki balası ilə qalıb Allah ümidinə. Özümü ora-bura vurub işə düzəltdim. İndi minnətdarlıq eləməyə gəlmişdi. Elə bil dünyaları verdilər mənə...

Gözləri yol çəkir—ancaq həmişə belə olmur... Gündə ən azı on adam qapımı döyür, hələ zəng eləyənləri demirəm...

Dərd bir deyil, iki deyil... Bu dərdin də başında Qarabağ dərdi durur. İndi bizim məclislər qurub, orda "Qarabağ şikəstəsi" oxutduran, qol götürüb "Yanıq Kərəm"i üstündə oynayan vaxtımız deyil. Nə deyim...

Gecəm-gündüzüm dolaşıq düşüb. Yanıram, alovlanıram, tüstüm başımdan çıxır. Mən əzəldən dərd şairiyəm. Belə bir beytim var:

Əgər olmasaydı dəryaca dərdim,
Dərdin yoxluğunu mən dərd edərdim.

Fikir harasa uçub gedir... Mənim isə yaddaşımda "yaşamaq yanmaqdır" — deyə şairin bütün yaradıcılığından şah damar kimi keçən bu yanar misraları çırpınır:

Yanır bu dünyada ayaq izlərim,
Yanır arzuların qışqırıqları.
Yanır o həqiqi doğru sözlərim,
Yanır ürəyimin hıçqırıqları.

... Telefon zəng çalır. Zəng eləyən tanımadığı adamdır. Nəsə bir xahişi var. Bəxtiyar müəllim ümid verir ona. Dəstəyi qoyanda "günümün çoxu belə keçir" — deyə siqaret yandırıb, pəncərəyə sarı gedir...

"ÜRƏKLƏ YAŞADIM, ÜRƏKLƏ ANCAQ..."

1989-cu ilin payızı... Qazaxda dövlət teatrının açılışı idi. Teatr öz bioqrafiyasını Bəxtiyar Vahabzadənin "Hara gedir bu dünya" pyesinin tamaşası ilə başlayırdı. Müəllifin bu təntənədə iştirakı yaradıcı kollektivin sevincinin üstünə bir sevinc də gətirmişdi. Ayrılmaz dostu professor Şirməmməd Hüseynov və əslən Qazaxdan olan şair Həmid Abbas da onunla idi.

Bəxtiyar müəllimi hər addımda geniş ürəklə, sonsuz bir fərəhlə qarşılayır, deyirdilər: "Böyük şairimiz Səməd Vurğun yurduna xoş gəlib, səfa gətirib".

Dildə-ağızda bu sözlər gəzirdi: "Bəxtiyar müəllim, Səmədin qoxu-

sunu sizdən alırıq".

O axşam Səməd Vurğun adına şəhər Mədəniyyət Sarayındakı aşıb-daşan sevinc, müəllifə göstərilən hörmət, ehtiram nə sözə sığışandı, nə də təsvirə...

Açılış münasibətilə Mədəniyyət naziri Polad Bülbüloğlunun dediyi təbrik sözündən sonra tamaşaçılar Bəxtiyar sənətinin sehrinə düşdülər.

İlk tamaşanın uğuru bir yana, müəllifin səhnədə görünməsi, Qazax camaatına səmimi müraciəti ürəkləri riqqətə gətirmişdi. Salon yaz selləri kimi coşub-daşır, alqış səsləri divarları titrədirdi...

Şairi gül-çiçək yağışına tutmuşdular. Bəxtiyar müəllimin sevinc dolu gözləri sanki deyirdi:

Vətənimi vəsf eləyən şerlərim,
Çiçək olub dəstələnir qucağımda.

Sonrakı gün qonaqların şərəfinə ziyafət verildi. Bəxtiyar müəllimin istəyilə məclisi aşıq Ədalət şənləndirirdi. Bu o vaxtlar idi ki, aşığın könlünə dəyib, onu pisikdirmişdilər.

... "Yanıq Kərəmi" yol salmışdı ürəyinin başından. Alıb aparmışdı, yanar qanadlarında göylərə qaldırmışdı. Şair özünü də unutmuşdu, məclisdəkiləri də...

Gözləri bir cüt qəm dəniziydi... Yadıma Habil kamanına həsr etdiyi məşhur şerinin misraları düşdü:

Kamanın bağrında ağaran tozlar,
Yanmış arzuların külüdü bəlkə...

Sazın tellərindən qopan alov dillərinin son titrəyişi öləziyib sükuta qovuşanda diksinən kimi oldu. Bu diksintidə dərdli bir təəssürat var idi.

Qalxıb aşığın dövran elədiyi yerə sarı getdi və çox sevdiyi bu el sənətkarını köksünə sıxaraq: — Ədalət, ay qardaş, — dedi, — sən bizi yandırıb kül elədin ki?! Sənin bu qara sazın bir simfonik orkestirdir. Sən Kərəmin dərdini yox, millətin dərdini çalırsan bu qara sazda!

Həyəcanlıydı. Özünəməxsus çılğınlıqla:

— Əlini mənə ver, — deyə dönüb onu bir də qucaqladı: — o beş-altı simin səsini bir-birinə qoşub, möcüzə yaradan barmaqları öpmək istəyirəm. O barmaqlar qızıla tutulmalıdı, heykəl qoyulmalıdı o barmaqlara!

Aşıq o qədər təsirlənmişdi ki, bilmirdi ki, neyləsin... Bəxtiyar müəllim qayıtdı ki: — Mən bilən sənin hələ fəxri adın yoxdu, heç bir xarici ölkədə də olmamısan, eləmi?

Aşıq dinmədi. Bəxtiyar müəllim üzünü nazirə tutdu: — Polad müəllim, bu niyə belə olur, axı? Gərək biz indiyəcən Ədalətin sənətini dünyaya göstərəydik.

Nazir cavabında: — Bunun bir günahı bizdədirsə, bir günahı da özündədir, — dedi və sonra gülümsəyib əlavə etdi: — tezliklə səhvimizi düzəldərik.

... Çox keçmədi ki, aşığın sazı İraqda — Beynəlxalq Folklor Festivalında dindi. Sonra Bakıda yaradıcılıq gecəsi keçirildi. O, əməkdar incəsənət xadimi fəxri adına layiq görüldü.

Daha sonra yubiley təntənəsi, prezident təqaüdü...

Aşıq Ədalət bu hadisəni xoş, qanadlı duyğularla xatırlayır. Deyir: "Nə yaxşı ki, tale məni xalqımızın uca şairi Bəxtiyar Vahabzadə ilə görüşdürdü. Bu görüş qol-qanad verdi, qaldırdı, yaşatdı məni. Ömrüm boyu ona duaçı olacağam. Bəxtiyar o taylı, bu taylı məmləkətin güvənci, fəxridir".

... Adı, şöhrəti Azərbaycana sığışmayan xanəndə Qədir Rüstəmova həsr olunmuş "Sona bülbüllər" adlı televiziya verilişi hazırlayırdım. Ürəyimdən keçdi ki, Bəxtiyar müəllim söz desə, Qədirin bir sevinci min olar. Götürüb zəng elədim.

— Mənə iki-üç gün vaxt ver, — dedi, — bir yaxşı fikirləşim.

— Vaxtımız dardı, — dedim, — sabah çəkiliş olmalıdı.

— Bəs onda neyləyək?

Hiss elədim ki, Qədirdən də, məndən də keçə bilmir.

— Ürəyimi tərpədən bir fikir tapsam şer yazaram, — dedi— Qədirin heyranıyam, onun "Sona bülbüllər"indən yoxdu dünyada.

— Doğrudan da elədir, — deyə onun sözünə qüvvət verdim. — Qədir "Sona bülbüllər"ə heykəl qoyub.

— Nahid, şer yazıldı! — dedi və tezcə də dəstəyi asdı.

Gecənin gec vaxtı telefonumuz səsləndi. Ürəyimə damdı ki, Bəxtiyar müəllimdir. Zənnim məni aldatmamışdı. Dəstəyi götürən kimi "qulaq as" — dedi və başladı şeri oxumağa:

"Sona bülbüllər"də Qədirin səsi –
Dağların dupduru büllur çeşməsi...

Qədir öz nadir, yandırıb-yaxan səsilə "Sona bülbüllər"ə, şair də sözü ilə Qədirə heykəl ucaltmışdı. Şer bu yanıqlı misralarla bitirdi:

Bu səs döyüm-döyüm bizi göynədir,
Oddur, gözümüzdə dönür qanyaşa.
Yetim bir uşaqdır Şuşasız Qədir,
Adicə torpaqdır Qədirsiz Şuşa.

Qədir naləsinə səs verib, uyub
Qayalar, dərələr, dağlar mələşdi.
"Sona bülbüllər"lə o, heykəl qoyub,
Onunla özü də abidələşdi.

"Qədirin səsi" ekranda səsləndi, səs saldı. Verilişdən sonra Bəxtiyar müəllimin arzusu ilə Teleradio rəhbərliyi Prezidentə təqdimat yazdı. Çox keçmədi ki, ona xalq artisti adı verildi.

Buna Qədirin özündən daha çox Bəxtiyar müəllim sevinirdi.

... Görüşümüz zamanı bu hadisəni xoş bir xatirə kimi yada saldıq.

— O şer "Körpü çaydan uzaq düşüb" kitabımda gedib, — dedi, — özü də sənə ithaf etmişəm.

Kitabdan bir nüsxə mənə bağışladı. Avtoqrafında yazmışdı: "Köhnə dostum, əziz qardaşım və qələm yoldaşım Nahid Hacızadəyə".

Əziz müəllimimin bu sözləri qəlbimdə sevinc selinə döndü...

... O, ürək adamıdır, həyata, insana, dünyaya da ürəyinin gözü ilə baxır. Bu misraları onun ömür nəğməsinin nəqarəti saymaq olar:

Mənə qüvvət verən ey ana torpaq,
Nə səndən dönərəm, nə məskənimdən.
Ürəklə yaşadım, ürəklə ancaq
Yalnız ürəklə də öləcəyəm mən!

"ŞAİR OD QAYNAĞI — ŞER GÜLLƏDİR..."

O, xalqın taleyi ilə bağlı hadisələrdə, ən çətin mübarizə anlarında həmişə ön atəş xəttində olub.

Elə buna görə də zaman-zaman zərbələr alıb. Onu insafsızcasına, bəzən qəddarcasına vurublar, əqidəsindən, məsləkindən döndərmək istəyiblər. Lakin bacarmayıblar!

Nə qədər döyüşsə də, yenə söz qılıncını qına qoymayıb, haray çəkib, üsyan qoparıb, ucalarda dayanıb!

Hamımızın yadındadır: "Azadlıq" meydanı çoşub-dalğalananda yüz minlərlə insanın "Bəxtiyar, Bəxtiyar!" çağırışı bütün Azərbaycanın ürəyində əks-səda verirdi.

Bəxtiyar poeziyasının, şəxsiyyətinin vurğunları onu əlləri üstünə aldılar və sonra da başları üzərinə qaldırdılar. Şairin bircə sözü, işarəsilə meydanda kükrəyən insan dənizi susdu, aram oldu. Bu, öz sənətkar oğluna xalq inamının, sevgisinin ehtiramı, ehtişamı idi!

Qürur duyuram ki, insan qəlbini riqqətə gətirən, həm də Bəxtiyar ömrünün ən parlaq, şərəfli səhifəsi sayılan o unudulmaz anlar mənim ssenarim əsasında çəkilmiş "İstiqlal şairi" televiziya filminin kadrlarında əbədiləşib.

Bəxtiyar Vahabzadə xalq ürəyinin tərcümanı kimi Vətənin, torpağın ağısını öz ağısı bilən sənətkardır.

... Dərdin göylərə dirəndiyi, ümidin yaralı göyərçinə döndüyü o ağır vaxtda qara bir xəbər qapılara açar saldı: "Bəxtiyarın ürəyi dözmədi" — Şəhər kəndə, kənd şəhərə dəydi. Azərbaycanın qəlbi qan ağlayırdı...

Səhər tezdən özümü iş yerinə yetirəndə televiziyanın darvazası qarşısında bir maşın dayandı — içində də Bəxtiyar müəllim! Sevincdən donub yerimdə qaldım. Bir göz qırpımında izdiham onu dövrəyə aldı. Allah, Allah, insanlar bu xəbərin qara yalan-şayiə olduğuna necə də sevinirdilər!

Dəhşətli şokdan qurtarmaq üçün televiziyaya üz tutmuşdu. Bərk həyəcanlıydı, "Əziz xalqım" — deyə sözə başladı. Qəhər ekranda boğdu onu... Birtəhər özünü ələ alıb, ürək kimi çırpınan kəlmələri bir-birinə qoşdu: "Mənə görə keçirdiyiniz nigarançılığa görə, bu sevgiyə görə sizə təşəkürümü yetirmək üçün söz tapa bilmirəm. "Sağ olun!" deyirəm hamınıza, "sağ ol" deyirəm sənə xalqım!"

O dərdli-ələmli günlərdə şair ürəyinin qanı ilə "Şəhidlər" poemasını yazır, eyni zamanda "Şənbə gecəsinə gedən yol" adlı publisistik kitabı üzərində işləyirdi. Poemanın ilk misraları unudulmaz sənətkarımız Emin Sabitoğlunun bəstəsində və Zeynəb Xanlarovanın yanıqlı səsində xalq fəryadına, harayına çevrildi, şəhidlərin ölməz ruhuna qovuşub, Vətən göylərinə ucaldı...

"Şəhidlər" poeması ədəbiyyatımızın azadlıq və qəhrəmanlıq mövzusunda yazılmış əsərləri sırasında bir abidəyə döndü və öz müəllifinin şöhrəti üstünə şöhrət gətirdi.

Bəxtiyar müəllim poemanın ilk fəsillərini televiziyaya təqdim etmişdi, istəyirdi ki, sözü isti-isti çatsın tamaşaçılara.

Veriliş efirə gedən gün Teleşirkətin o zamankı sədri Qeysər Xəlilov daxili telefonla zəng edib: — Poemanı gətir, mən də oxumaq istəyirəm, — dedi.

Apardım. Qovluğu alıb vərəqlədi. Səhifələri çevirdikcə rəngi avazıyırdı. Səbri çatmadı axıra qədər oxumağa, əsəbi halda üstümə qışqırdı:

— Bu nədir, bombamı qoymusan stolumun üstünə? Görmürsən qan-qan deyir Bəxtiyar?!

O, odla su arasında qalmışdı: bir yandan qorxur, bir yandan da Bəxtiyar müəllimdən keçə bilmirdi.

Zəng elədim. Bəxtiyar müəllim gəldi. Ayrı-ayrı bəndləri daradıq. Ancaq bu, heç nə demək idi. Hər söz, misra od püskürürdü. Onu ekranda görənlər deyirdilər: **"Bəxtiyar kəfən geyinib çıxıb ora"**.

O axşam milyon-milyon ürəyin dərinliyindən qopub gələn nidalar

birləşib xalq istəyinin səsinə çevrilirdi: **"Ananın südü, bu torpağın çörəyi halal olsun sənə, şair!"**

Bəli, xalq öz mərd oğlunu, dönməz şairini qəlbinin var səsilə alqışladı. Yuxarı dairələr isə bir-birinə dəymişdi. Bərk qorxurdular ki, bu "bomba"nın səsi gedib Moskvaya çata bilər. Qeysər Xəlilova da möhkəmcə təpinmişdilər. O da fürsəti fövtə vermədi. Məni işdən — baş redaktor vəzifəsindən kənarlaşdırdı.

Bu, Bəxtiyar müəllimi bərk mütəəssir eləmişdi. O, özünə yer tapa bilmirdi...

... Bəxtiyar Vahabzadə əqidə, məslək, amal şairidir, daim mübarizədə, döyüşdədir.

Azərbaycan adının ucalığı, xalqımızın azadlıq eşqi, milli varlığımız, tariximiz, taleyimiz, dilimizin saflığı, mənəviyyatımız — bütün bu müqəddəs, əzəli, əbədi mövzular **"Vətən əbədidir, gedəriyik biz"** — deyən mütəfəkkir söz ustasının sənət palitrasında yeni bir ahənglə nəqşə-nəqşə gül açır, çiçək açır, Günəş rənginə boyanıb bərq vurur.

Şair və xalq! Şair xalq ilə, xalq da şairi ilə böyükdür, əzəmətlidir, qüdrətlidir. Görün nə deyir Bəxtiyar misraları:

Şair – od qaynağı, şer – güllədir,
Barıtsız şerə şer deyilməz.
Şairi olmayan bir xalq kütlədir,
Amalsız bir kütlə xalq ola bilməz!

Bəli, "od qaynağı"dır Bəxtiyar, hər şeri də bir güllə!

"HAMIYA BORCLUYAM, HAMIYA BORCLU!..."

Sinəsi söz çeşməsidir. Doymaq olmur söhbətlərindən. Hərdən misralar çiçəkləyir dodaqlarında, hərdən də özünü unudur.

— Çətin günlərim çox olub, — deyir, — ağrı-acılarım ondan da çox. Həmişə şerlərimi ora-bura yozublar. "Gülüstan" poemasına görə başım nə qədər bəlalar çəkib? Bunu bir Allah bilir, bir də mən.

Yaman düşmüşdülər üstümə, gözümü açmağa qoymurdular. Həm maddi, həm də mənəvi sıxıntılar içində boğulurdum.

Belə günlərin birində evdən çıxanda gördüm ki, qapımızın ağzında bir zənbil var — özü də ərzaqla dolu. Ət-yağından, kartof-soğanından tutmuş göyərtisinəcən nə desən var idi içində. İstədim çıxıb gedəm işimin dalınca, uşaqlar gəldi gözümün qabağına. Elə bil kimsə qulağıma dedi: **"Sizin üçün gətiriblər bu zənbili".** Həftə tamamında bu bir də təkrar olundu. Sonra yenə, yenə... Maraq məni boğurdu: **"Görəsən kimdir bu xeyirxah adam?"**

Axır ki, zənbili gətirən uşağı yaxaladım. Əziz dostum, unudulmaz aktyorumuz Həsənağa Salayevin oğlu idi. Sən demə, Həsənağa məni utandırmamaq üçün belə eləyirmiş...

Zəng elədim: — Bu nə xəcalətdir verirsən mənə? — dedim.

— Nə xəcalət, — dedi, — bəs dost dosta nə gündə gərəkdir?

O hadisəni yada salanda həmişə kövrəlirəm.

Araya sükut çökür. Handan-hana:

— Dostların sırası yaman seyrəlir, — deyə köks ötürür. — Qəmbər Hüseynli ilə gecə-gündüz bir yerdəydik, mahnılar yazırdıq. Bir dəfə də necə oldusa, Stalindən söz düşdü. Ürəyimi boşaltdım, nə boşaltdım! Hisslər, emosiyalar soyuyanda varlığıma bir qara qorxu çökdü ki!... Sübhəcən gözümü yuma bilmədim. Səksəkə içində düşünürdüm: **"Bu dəqiqə gəlib aparacaqlar".** Sən demə, yazıq Qəmbər də gözünü yummayıb o gecə. Mən ondan ehtiyat edirdim. Sən demə, o da məndən ehtiyat edirmiş... Beləcə ikimiz də o dünyanı görüb qayıtdıq. Bu dəhşətli sarsıntılardan yarandı **"İki qorxu"** poeması.

Soruşuram: — Gündəlik yazırsınızmı?

— Yazıram, — deyə fikirli-fikirli başını tərpədir. — 1953-cü ilin martından, Stalin ölən gündən.

— Niyə məhz o gündən?

— O cəlladın dövründə başıma o qədər bəlalar gəlib ki... Neçə dəfə taleyim tükdən asılı olub. Ancaq bir xoşbəxtliyim olub ki, nə ürəyimdən, nə qələmimdən, nə də dostlardan xəyanət görməmişəm.

— Bəs gündəliyi çap elətdirmək fikriniz yoxdur?

— Niyə yoxdur, var, — deyir. — Artıq 700 səhifəsi kompüterdən çıxıb. Bu, seçmələrdir. Orada elə intim məqamlar var ki, indi onu çap elətdirsəm söz-söhbət yaradar.

— Qələm sözünüzə baxırmı?

— Ağzı nədir baxmasın, — deyə gülümsəyir. — Ömrümüz bir yerdə keçib. Yaşın bu çağında bir-birimizin xətrinə dəyə bilmərik ki?! .. Mən ilhamın da, qələmin də fəhləsiyəm. Onlar da mənim qoşa qanadımdı. İkisindən də gileyim yoxdur.

İndi əlimin altında bir pyesim var. Müasir mövzudadır. Çox mətləblərə toxunur. Yazıram, pozuram... Çətin gedir. Sözlər yaralı quş kimi çırpınır...

— Köksünü dərir: — Gərək qələm susmasın. Bu millət qarşısında yerdən göyəcən borcumuz var.

Bu, onun yaralı yeridir. O, özünü atanın, ananın, müəllimin, dostların, doğmaların, bir sözlə hamının, hamının qarşısında borclu sayır.

"Yadıma gəlmir ki, deyəm: kimsə borcludur mənə". Dilindən

düşmür bu söz.

Söhbətimiz axıb gedir. O, sualı-suala calayır: **"Allah bizi niyə yaradır?" "Biz bu dünyaya nə üçün gəlirik?" "Bu gəlişin məramı, məqsədi nədir?"**

Başlayır yavaş-yavaş fikirlərini çözməyə:

— Bütün bu sualların cavabında borc hissi dayanır: **"Bu hiss öləndə ömrün, yaşamağın mənası da ölür. Borc hissi müqəddəs hissdir."**

Söhbətin bu yerində "Hamıya borcluyam" şerindən bu parçanı yada salıram:

Bu elin xeyrini, şərini görcək
Həm yasa borcluyam, həm toya borclu.
Vətənin ən adi vətəndaşı tək
Hamıya borcluyam, hamıya borclu!

Doğma misralar ürəyini tərpədir. O da şerin son bəndini dilə gətirir:

Harda gizlənmisən, ay Vətən oğlu?
Vətənin başından duman, çən keçir.
Millətə borcunu ödəmək yolu
Vətənə, millətə sevgidən keçir.

— Bu, ürəyimin həm nidası, həm çağırışı, həm də harayıdır, — deyə dalğın baxışlarla üzümə baxır.

— Bəxtiyar ürəyinə də, onun nidasına da eşq olsun! — deyirəm.

"YAXŞI Kİ, BU YERİN BƏXTİYARI VAR..."

Şairin həmyerlisi Molla Cumanın belə bir misrası var: "Dost, mehriban ya bir olar, ya iki".

Bəxtiyar Vahabzadə isə deyir:

Yığılın, yığılın başıma, dostlar,
Mənim bir günüm də sizsiz olmasın!

Onun "dostluq xəritəsi" çox geniş, dostları isə saya gəlməzdir: uşaqlıq və gənclik dostları, ürək və çörək dostları, söz-sənət dostları... Biz hələ Bəxtiyar şeriyyətinin, şəxsiyyətinin, mərdanəliyinin və dönməzliyinin pərəstişkarlarını, vurğunlarını demirik.

Yaxından-uzaqdan onun qədər məktub alan, bu məktubların birini də cavabsız qoymayan, Azərbaycana hər gün yeni dostlar qazandıran başqa bir sənət adamının adını çəkmək bəlkə də çətindir. **"Şair — vətənin, xalqın danışan dilidir"** — deyir Bəxtiyar.

O, hər yerdə bu missiyanı ləyaqətlə yerinə yetirir, Azərbaycanımıza başucalığı və şərəf-şan gətirir.

Bax, buna görə də Bəxtiyarın dostları, istəyənləri, adını ürəyinin başında gəzdirənləri bu qədər çoxdur!

... Yadıma 1980-ci ilin qışı gəlir — "Bəxtiyar Vahabzadə" adlı sənədli televiziya filmini çəkdiyimiz günlər. Bir axşam işimizi başa vurub, xudahafizləşərkən: — qadanızı alım, — dedi, — elə eləyin ki, dostlarım məndən incik düşməsinlər.

Mən onun sözünü necə deyərlər, havada tutdum. Ancaq özümü bilməməzliyə vurub soruşdum: — Hansı dostları deyirsiniz?

— Gülümsündü: — Guya bilmirsən...

Başladım sadalamağa: — Şirməmməd Hüseynov, Nurəddin Rzayev, Xudu Məmmədov, Şahmar Əkbərzadə...

— Burada dayanaq—dedi. — Bütün aləm bilir ki, adını çəkdiyin bu özü bütöv, sözü bütöv ziyalılarımızla bir nəfəs alıram. Onlar mənim qolum-qanadımdı, bircə gün görməyəndə elə bil havam çatmır. Dünya ölüm-itim dünyasıdır, qoy yadigar qalsın...

Bu canbir dostlar qarlı bir gündə sənətkarın doğma yurdu Şəkidə — onun ata ocağında məclis qurublar. Dedilər, danışdılar, güldülər... Ən maraqlı epizodlar kinokadrlara köçdü, tarixə döndü.

Bakıya qayıdanda şair bir arzusunu da dilə gətirdi: — könül istərdi ki, — dedi, — Azərbaycandan kənara da çıxasınız, Çingiz Aytmatovla, Rimma Kazakova ilə, Oljas Süleymenovla, Pavlo Movçanla görüşəsiniz, yolunuzu Türkiyədən salasınız. Orda nə qədər dostlarım var — Əhməd Bican Ercilasun, Əli Yavuz Akpinar, Mehmet Kaplan, Yavuz Bülənd Bakilər, daha kimlər, kimlər... Mən hələ İraq şairi Əbdüllətif Bəndəroğlunu, alman dilinə tərcüməçim Əhməd Şmideni demirəm.

— Bəxtiyar müəllim, — dedim,—özünüz yaxşı bilirsiniz xarici ölkələrə əlimiz çatan deyil. Ancaq Moskvaya, qonşu respublikalara getmək imkanımız var. Çalışırıq ki...

Buna da şükür, — deyə gülümsədi. Beləcə, Ç.Aytmatov, R.Kazakova və O.Süleymenov dost istəyilə, məhəbbətlə Bəxtiyar poeziyasının vüsətindən, qüdrətindən söz açdılar.

... Qanlı Yanvar səhəriydi. Teleradio işçilərinin dərdinə şərik olmağa gəlmişdi. O həm də Azərbaycan Ali Sovetinin fövqəladə sessiyasını çağırmaq üçün radio ilə deputatlara müraciət etmək istəyirdi. Necə də tanınmaz olmuşdu. Elə bil don vurmuşdu onu, qocalmışdı...

Sübh tezdən rus generalı Ovçinnikov sədr müavininin kabinetini

zəbt edib, özünə qərargah qurmuşdu. Özünü ağa kimi aparırdı. Bunu eşidəndə Bəxtiyar müəllimi od götürdü. Əsəbləri tarımda idi. Bir neçə dəqiqə sonra televiziyanın həyətindəki hovuzun yanında generalla üzbəüz gələndə özünü saxlaya bilmədi, həyatını təhlükə qarşısına qoyaraq: — Sən mənim millətimi qıran faşistsən! — deyə qəzəblə qışqırıb, onun üzünə tüpürdü. Generalın cangüdənləri silaha əl atdılar.

Bir göz qırpımında şairin ətrafında canlı çəpər yaradıb, onu birtəhər maşına mindirdik.

O, bizim təkidimizə baxmayaraq getmədi, maşından düşdü və oradan birbaşa radionun binasına qalxdı. Məqsədi efirdən deputatlara müraciət edib, onları Ali Sovetin fövqəladə sessiyasına çağırmaq idi. Bəxtiyar müəllim öz təşəbbüsü ilə — qəlbinin səsilə bu ağır, məsuliyyətli işin altına çiyin vermişdi...

Elə oradanca "Azadlıq" radiostansiyasına — Mirzə Xəzərə zəng elədi. Çox keçmədi ki, şairin harayı dünyanın bu başından o başına çatdı. Bu çıxış "Azadlıq"ın efirində 10—15 dəfə səsləndi.

Sabahı gün — yanvarın 21-i, saat 6-da fövqəladə sessiya öz işinə başladı və səhər saat 9-a qədər davam elədi. İclasın sədri deputat Bəxtiyar Vahabzadə idi.

O, iclası bir neçə saat apardı, sonra isə öz yerini qələm dostu İsmayıl Şıxlıya verdi.

İclas qurtaranda gözləri tor görürdü. Neçə gündən bəri gözünü qırpmadan ayaq üstə olan şair yorulub-üzülmüş bir halda "Azadlıq" meydanından baş alıb gələn ağlar-sızlar insan axınına qoşuldu.

O gün yaddaşımıza qanla, göz yaşları ilə yazılan bir gün idi. Azərbaycan azadlıq yolunda canlarından keçmiş balalarını dəfn edirdi.

Xalqın böyük şairi qanadı qırılmış quşa bənzəyirdi. İçində isə qəzəb və nifrət dolu misralar hayqırırdı...

... O ağır matəm günlərində Bəxtiyar Vahabzadənin çağırışına hay verib Bakıya gələnlər arasında məşhur Qazax şairi Oljas Süleymenov da var idi. O, televiziya ilə çıxış edərək öz qələm dostuna və xalqımıza başsağlığı verdi. Çox keçmədi ki, o, SSRİ Ali Sovetinin tribunasından da səsini ucaltdı, Qanlı Yanvar qırğınını törədənləri ən kəskin sözlərlə ittiham etdi. Bu çıxış ilk növbədə Bəxtiyar müəllimin adı, nüfuzu və təşkilatçılığı ilə bağlı idi. Xalqımız bir daha öz şair oğluna ürəkdən **"sağ ol!"** dedi.

... Tələbəlik dostum Azər Bağırovun redaktorluğu ilə iri həcmli, sanballı-siqlətli bir kitab çıxıb — "Azərbaycanın Bəxtiyarı". Buradakı yüzə yaxın müəllif sırasında bütün dünyada tanınan neçə-neçə ünlü söz ustaları var. Xalqımızın istəkli şairi Bəxtiyar Vahabzadə haqqında onların fikirlərilə tanış olduqca qəlbimi qürur hissi bürüyür.

Planetimizin ən çox oxunan üç yazıçısından biri olan məşhur qırğız ədibi Çingiz Aytmatov öz azərbaycanlı qələm dostunun — Bəxtiyar Vahabzadənin poetik dünyasını belə səciyyələndirir: **"Bizi əhatə edən aləmdə hər nə varsa, şairi dərindən düşündürür: xeyir və şəri, gözəlliklə eybəcərliyi, böyüklüklə kiçikliyi, bir sözlə, insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldırmaq Bəxtiyarın fitrətindədir. Mütəfəkkir sənətkarın, ustad şairin başlıca qayəsi və uğuru bundadır. O, vətənpərvərdir, o, aqildir, sözün yaxşı mənasında nəsihətverən, yolgöstərən sənətkardır".**

"... Bəxtiyar son dərəcə pak, təmiz ürəkli, dərin bilikli, heyrətamiz duyğular və fikirlər aləmi olan bir insandır, bir sözlə, əsl sənətkardır.

Hələbdə Nəsiminin türbəsini ziyarət edib, xatirəsi önündə baş əydiyim zaman yadıma düşən ilk adam o böyük fikir adamı ilə canı bir, qanı bir, ona yaxın, doğma olan Bəxtiyar Vahabzadə oldu. Əgər bu gün biz qələm sahibləri arasında ürəyinin dərisi soyulan bir adam varsa, o, məhz Bəxtiyar Vahabzadədir."

... Bu sətirlər isə Bəxtiyar poeziyasının vurğunlarından və ən mahir tərcüməçilərin birinə — görkəmli rus şairi Rimma Kazakovaya məxsusdur.

... Bu günlərdə şair Rumıniyadan xoş xəbər alıb — Buxarestdə "Zaman və məkan" kitabı nəşr olunub, eyni zamanda ona Rumıniyanın mədəniyyət sahəsində ən yüksək mükafatı — "Ləyaqət" ordeni verilib.

O, belə müjdələrin sevincini çox yaşayıb. Bunu demək xoşdur ki, indiyəcən təkcə rus dilində 17, türk dilində isə 15 kitabı buraxılıb.

O, nə qədər millidirsə, xalqına, torpağına nə qədər bağlıdırsa, bir o qədər də bəşəridir. Onun poetik dünyasının paralelləri və meridianları planetimizi belədən-belə keçib gedir, **"əzəldən həqiqət aşiqiyəm mən"** — deyən şairin səsini uzaq-uzaq sahillərə aparır.

Xəzərin o tayından qardaş özbək şairi Pulat Fazil səsini ucaldıb könül rübabını dilə gətirir:

Nurlu Azərbaycan – dost diyarı var,
Yaxşı ki, bu yerin Bəxtiyarı var.

"MƏNİM NƏĞMƏLƏRİM ÖZ HEYRƏTİMDİR..."

Bəxtiyar heyrəti! ... Bu heyrət onun canında-qanında, bütün varlığında, Vətəninə, Torpağına, Xalqına dəruni vurğunluğundadır. Bu heyrətin, dünyaya, insanlığa məhəbbətin rişələri yerin dərinliklərində, budaqları, yarpaqları göylərin ənginliklərindədir.

"Heyrət qurtaran yerdə sənət də, sənətkar da qurtarır". Bu, Bəxtiyar ömrünün səsi, mənasıdır. Bu kök üstündə köklənib, bu kök üstündə çalınır şer rübabı:

"Heyrət, ey büt! dedi, dünyaya qələm,
Aləmi bir seyrim, yüz heyrətimdir.
Mən heyran olmasam, yaza bilmərəm,
Mənim nəğmələrim — öz heyrətimdir.

Bəxtiyar təpədən-dırnağacan sehrdi, heyrətdi, şeriyyətdir — insan kimi də, sənətkar kimi də. O, poeziyamızın sarı simi, ədəbiyyatımızın vicdanı və qeyrət qılıncıdır. Beləcə də şerlərilə birgə xalq ürəyinə axıb, xalq ürəyində qərar tutub, heykəlləşib, abidələşib və əsrləri yorub gələn, gələcək illərə üz tutan qüdrətli Azərbaycan poeziyasının klassikləri cərgəsinə qoşulub.

Ellər sevimlisi olmaq böyük səadətdir. Ölməz Niyazi necə də gözəl deyib: **"Bəxtiyar ona görə bəxtiyardır ki, onu xalq sevir; xalq da ona görə bəxtiyardır ki, onun Bəxtiyarı var".**

Biz — onun müasirləri, pərəstişkarları içdən gələn bir fəxarət duyğusu ilə deyirik: **böyük türk dünyasının söz-sənət kəhkəşanında bir ulduz parlayır — Bəxtiyar ulduzu. Bu ulduzun işığı yaxından da, uzaqdan da görünür. O, sərhədlər aşır, iqlimlər keçir...**

İllər ötdükcə Bəxtiyar heyrəti, Bəxtiyar məhəbbəti axıb gedən zamanla ürək-ürəyə verib, dünya ilə daha da doğmalaşır...

"Günay" qəzeti, 16 mart 2002-ci il.

II FƏSİL

BƏXTİYAR VAHABZADƏNİN PYESLƏRİ HAQQINDA

MİLLİ BİRLİYİ, DÖVLƏTÇİLİYİMİZİ QORUMAĞA SƏSLƏYƏN ƏSƏR

Azərbaycan Prezidenti Heydər Əliyev Akademik Milli Dram Teatrında "Özümüzü kəsən qılınc" ("Göytürklər") tamaşasına baxmışdır

Müvəffəqiyyətlə keçən tamaşadan sonra respublika Prezidenti Heydər Əliyev yaradıcı kollektivin üzvləri ilə səhnə arxasında görüşdü və belə bir tamaşa hazırlayıb xalqa çatdırdıqlarına görə onlara təşəkkürünü bildirərək dedi:

— Sizi təbrik edirəm. Birinci növbədə, şübhəsiz, biz gərək Bəxtiyar Vahabzadəni təbrik edək. Çünki onun böyük zəhməti nəticəsində ədəbiyyatımız, incəsənətimiz, dramaturgiyamız yeni, çox dəyərli əsərə malik olubdur. Mən bu əsər haqqında eşitmişdim. Ancaq səhnədən, bugünkü tamaşadan aldığım təəssüratlar indiyə qədər əsər haqqında verilən məlumatları həddindən artıq genişləndirdi. Bizim böyük şairimiz, yazıçımız, dramaturqumuz Bəxtiyar Vahabzadə indiyə qədər fədakarlıqla çalışıb və öz istedadı, yaradıcılığı ilə, hesab edirəm ki, bu əsəri yaratmaqla ədəbiyyatımızı, mədəniyyətimizi zənginləşdiribdir.

Biz yeni bir əsər almışıq. Ədəbiyyatımızın tarixinə yeni, dəyərli əsər daxil olubdur. Bu, böyük hadisədir. Mən bunu birinci növbədə, xüsusi qiymətləndirmək istəyirəm.

...Ona görə də belə bir əsər qədim tariximizin, o cümlədən millətimizin qədim köklərinin tarixinin böyük bir səhifəsini açıb ictimaiyyətə göstərir. Bunun özü böyük bir işdir və hesab edirəm ki, böyük yaradıcılıq qələbəsidir. Bunu Bəxtiyar Vahabzadə çox böyük məharətlə edibdir. Birincisi, o bu əsəri tarix və tarixi dəqiqlik əsasında yaradıbdır. İkincisi də, onun bugünkü nəslə, Azərbaycan ictimaiyyətinə ən böyük xidməti ondan ibarətdir ki, bu əsər həmişə yaşayacaq və uzunömürlü olacaqdır. Bu əsər gələcək üçün də çox böyük əhəmiyyət kəsb edir.

Bəxtiyar Vahabzadənin əsəri bu baxımdan da çox əhəmiyyətlidir. Tarixi həqiqətləri bizə çatdıran bu əsərdə müəllif tarixdən ibrət dərsi götürmək məsələsini də ortaya qoyubdur. Görürsünüz, bu əsəri siz ifa etdiniz, biz də baxdıq. Mən görürdüm ki, siz aktyorlar da həyəcan keçirirdiniz, salondakılar da əsərə böyük həyəcanla baxırdılar. Onlar sizin gözəl sənətinizi və ifanızı, xüsusən də Bəxtiyar Vahabzadənin əsərdə söylədiyi fikirləri bir neçə dəfə alqışladılar. Biz tarixi nəzərdən keçirdik, bilmədiklərimizi əyani öyrəndik.

"Xalq qəzeti", 14 aprel 1998-ci il.

Tofiq HACIYEV,
professor

V.BƏXTİYAR: "ÖZÜMÜZÜ KƏSƏN QILINC" VƏ YA: TARİX BU GÜNÜN XİDMƏTİNDƏ

Nə dəxli var kim deyib, nə olsun ki, bizim babamızın sözü deyil? Bu ki, müdrik sözdür, tarixi və gündəlik həqiqətdir: Həmişə xalq ağır günündə, qəsbkarlıqla üz-üzə duranda öz qəhrəmanlıq keçmişini yadına salıb, özündə əcdadının güc və qüdrətini bərpa edib, düşmənləri ilə ölüm-dirim döyüşünə qalxır." Bu, N.Dobrolyubovun sözüdür. B.Vahabzadə "Özümüzü kəsən qılınc" dramını bu uca niyyətlə yazıb. Bəxtiyar yenə xalqının dərdini vaxtında duydu, yenə öz sözünü kəsərlə dedi. Xalqımızın bu gün torpaq bütövlüyü, Vətən sərhədləri uğrunda Hamlet sualı qarşısında dayandığı zaman bədii sözünü demək üçün tarixi motivi dürüst tapdı: ulu türk əcdadını xalqının yadına saldı. Türk gah udmağa, gah uduzmağa vərdiş etməyib: türkün adəti udmaq olub. Həmişə türkün atının alnına gün doğub. Halbuki həmişə gündoğandan günbatana gedib. Başının üstündə həmişə aydın səma olub, ona görə göylərin açıq maviliyini özünə rəmz seçib. Hətta dövlətlərindən birinin adını Göytürk qoyub. Və maraqlıdır ki, Bəxtiyar bundan, türkün dünyaya səs salan Metelərindən, Attilalarından, Əmir Teymurlarından danışmadı; dünyanın tarix qayalarında türkün həkk olunmuş cahanşümul qələbələrindən mövzu götürmədi. Asiyanı, Avropanı lərzəyə salan, Altaydan Dünyaya qədər çapan atlarının buludlarda əks olunan kişnərtisindən və nal səslərindən, min illərlə əsr-əsr təkrarlanan müzəffər yürüşlərindən söz açmadı. Onda Bəxtiyar dastan yazmalıydı. Ancaq onu düşündürən günün dramını qələmə almaq idi. Və böyük sənətkar bu dramı yazdı. Bəxtiyar xalqın gündəlik dramını bədii drama çevirmək, bu bədii dramı daha ibrətli etmək üçün münasib süjet variantını tapa bildi. Dramaturq haylı-küylü, adlı-sanlı türkün miskin hala düşməsindən danışır; zəfərləri ilə öyünməli türkün acınacaqlı məğlubiyyətindən söz açır. Türkün bu hala düşməsinə acıyır, ağı deyir. Bununla bugünkü türkü düşündürmək istəyir. Bu miskin vəziyyət bugünkü türkün vəziyyətini andırır.

İndi türk öz əcdadını o hala salan səbəbi düşünməli, sirrini açmalı, öz başına çarə qılmalıdır. Türk niyə o hala qalıb? Türk niyə qüdrətdən düşüb? B.Vahabzadə türkün tarixi xislətindəki bir keyfiyyəti dürüst tutub.

Məhz bu keyfiyyət qüdrətli türkü bəzən acınacaqlı hallara salıb. Türkün bu qara keyfiyyətini qədim Çinin müdrikləri kəşf ediblər. Kəşf ediblər ki, türkü ancaq türk özü məğlub edə bilər. Və bunu gerçəkləşdirmək yolunu da tapıblar: türklə türkün arasına nifaq salmaq, iki qardaş türkü bir-birinə düşmən etmək — bundan sonra düşmənin ala bilməyəcəyi qisası türk bir-birindən alacaq. Tarixən türk ancaq bu yolla uduzub. Türkün etnik psixologiyasını tədqiq-təhlil edib öyrənən B.Vahabzadə bu tarixi həqiqəti müdrikliklə duyub. "Özümüzü kəsən qılınc" adı türkün həmin etnik-tarixi xarakterini dolğunluqla ifadə edir. Dramaturqun sənətkar vicdanı türkü bu zəif yerindən qələmə almağı bu günün zərurəti sayıb. Bu gün ölkəmizdə və ondan da geniş olan türk dünyamızda gedən didişmələri və bu didişmələrlə özünü gücdən salan, düşmənlərinə təntənə və iblis qımışması bəxş edən türkü Bəxtiyar silkələyir, düşmən sehrindən (hipnozundan) ayıltmaq istəyir. Əcdadlarının, ulu babalarının tarixi avtobioqrafiyasından bir qara səhnəni işıqlandırır, öz tamaşaçısına göstərir, öz həmsoylarını ibrətləndirməyə çalışır. Şair-dramaturq bilir ki, bu gün şüar demək, keçmişi ilə öyünmək vaxtı deyil, bu gün o qara səhnədən dərs almaq, əcdadının zəif cəhətlərindən uzaqlaşmaq, aləmə və tarixə səs salan qüdrətini təkrar etmək, hərəkətə gəlmək zamanıdır. Tarixi yaşanışlar da göstərir, dramın adından da göründüyü kimi: Allah türkü türkün qılıncından qorusun, yad qılıncından özü qorunacaqdır. Bu ideya dramatizmin dalğavari inkişafının leytmotividir.

Bəxtiyar dramatizmi yayların gərilməsindən, qılınçların toqquşmasından, atların kişnərtisindən qurmur, insanların münasibətindən, hətta ailə-məişət davranışlarından yaradır. Bu da drama psixologizm aşılayır. Dramaturq bədii qayəsini türkün zəif xasiyyətindən ibrət üzərində təqdim etsə də, pyesdə türkün türklüyünü göstərən anlar da var—bunlar səhnə arxasındakı tək-tək şücaət səsləri və ara-sıra baş verən uğurlu döyüşlərdən gələn xəbərlərdir. Ailə ixtilafları, dövlət səviyyəli xəyanətlər içində boğulsa da, hər halda türk türkdür; dəvə dəvədir — öləndə də dərisi bir ulağın yükü olur.

Səhnə "türk" sözünün pafosu altındadır. "Türk" sözü dramda çox əzəmətli səslənir, ağır anlarda da, hətta psixoloji böhran zamanında da vüsətini itirmir. "Türk" sözü tarixin dərinliyindən, Metenin, Attilanın, Əmir Teymurun nəfəsindən qopub gələn bir nida kimi təlatümlüdür. Dramaturq üzərində dayanmadığı, səhnələrini canlandırmadığı qəhrəmanlıqları məhz bu sözün qürurlu tələffüzü ilə tamaşaçılara yaşatdırdı.

Quruluşçu rejissorun tarixi üsluba bələdliyi, quruluşçu rəssamın dil açan rəngləri, səhnələrin musiqi müşayiəti, mövcud aktyor ansamblı

dramaturqun uca məqsədinin tamaşaçıya yaxınlaşmasında çox iş görürlər, dramaturqun ideyasını dürüst qiymətləndirirlər. Hər kəs dramaturqun böyük sözünə öz səsini uğurla qoşur, dramaturji simfonikliyin reallaşmasında hərənin öz payı var. Xalq artisti Əliabbas Qədirovun yeriş-duruşu da, səsi də əsl qədim türk cizgilərilə zəngindir. Gur Şadın oyununda lirizm və etik əda manerası sərkərdə-döyüşçü əzəmətini və sərtliyini üstələyir, məcnunluq nofəlliyə güc gəlir. Çinlilər (qız da, qardaşı da) çox məharətlə özlərinə nifrət və ikrah qazandırırlar — onların burnu görünən kimi tamaşaçıların qəzəb və söyüş pıçıltıları aşkarca duyulurdu, onlar çox incəliklə bu günün iblislərinin qiyafəsinə girirlər və qazandıqları "tamaşaçı nifrəti", onlara halaldır.

Dram müasirliyin gözəl nümunəsidir. Bu gün gözümüzlə gördüyümüz bir hadisədən kiminsə, hətta Bəxtiyarın özünün də bu qədər müasirliklə dramatizm yarada biləcəyinə inanmırsan. Bəxtiyarın pyesində tarix bu günə xidmət edir və öz tarixiliyini yerinə yetirir, tarix özünü yada salır. Tarix obraza çevrilir. Bu obraz — tarix əzəmətli qalib heykəli kimi arxa planda durub, türkün ön planda cərəyan edən miskin münaqişə taleyini seyr edir. Ara-sıra Bəxtiyar ön səhnədəki türk övladını geri qanırıb, babasının arxadakı obraz-tarix heykəlini ona göstərir. Həmin obraz — tarix yaşı ilə də heyrətləndirir, həm də bu tarix Atilla qədər güclü, Dədə Qorqud qədər müdrikdir. B.Vahabzadə bu ulu səhnəni canlandıra bilir (tarixin obraza çevrilməsi baxımından bu dramın sələfləri "İblis", "Peyğəmbər", "Topal Teymur"dur).

Bu əsərində B.Vahabzadə döyüşçü sözü deyir, onun döyüşçülüyü şairliyindən çox önə çıxıb.

"Zaman" qəzeti, 26 may 1998.

Ramazan QAFARLI

ÖZLƏRİNİ DOĞMALAR ARASINDA YADLAŞDIRANLAR

(B.Vahabzadənin"Atamın kitabı" pyesi haqqında düşüncələr)

ƏSRİN ƏVVƏLLƏRİNDƏ inqilab dalğalarının təsirindən fikir oyanışı baş verir.Bir çox əraziləri tətillər, üsyanlar bürüyür. Dünya demokratiyanın yollarını arayır və Yer kürrəsinin Azərbaycan adlı diyarı üç böyük monarxiyanın (çarizm, sultanlıq və şahlıq) arasında qalıb bo-

gülduğundan ikisinin—Rusiya ilə İranın caynaqlarından qurtulmaq uğrunda mübarizə aparır. Bakı üsyanların, üsyançıların beşiyinə çevrilir. Burada çarizmin qəbirqazanlarının xeyir-duası verilir. Təbrizdə isə Sətərxanın başladığı milli-azadlıq hərəkatı İran şahlığının süqutlarını möhkəm laxladır. Şərqin türklə bünövrəsi qoyulub tarix səhnəsinə çıxarılan, türkün qılıncıyla ölkələr fəth edib gündoğandan günbatanadək uzanan son şahlığı ötən yüzilliklərdəki kimi davranır. Çoxmillətli monarxiyada təkcə türk müsəlman adının içində əridilir. Dövlətdən ancaq İslamın bölünmüş bayrağının bir qanadına sığınmış fars bəhrələnir. Şahlıq bölünmüş bayrağın digər qanadının təmsilçisi Osmanlı sultanlığının taxt-tacının alt-üst olunduğuna baxıb "yumşalır" və hiyləylə ömrünü uzatmağı bacarır. Birinci Dünya müharibəsinin zəiflədib xarabalığa çevirdiyi Rus çarizmi də devrilir. Müstəməkə zəncirləri qırılır. Qarmaqarışıqlıqdan sonra az da olsa, azadlığın havasını dadan Azərbaycan 18-ci ildə Şimalda demokratik cümhuriyyət qurur. Cənubda isə şah rejimi üsyançıları ələ almaq yollarını tapır, başçılara sərdar rütbəsi verir. Millətin bir övladının gözləri şimalda, birininki şərqdə, başqa birininki cənubda, nəhayət, axırıncınınkı qərbdə qalır. Milləti içindən də, çölündən də parçalayırlar. Qərbi Azərbaycan torpaqlarını ermənləşdirən Rusiya, ümumiyyətlə, "daşnaq" quldurlarına havadarlıq edən xristian dünyası qulağı kəsik andronikləri Qarabağa, Şamaxıya, Bakıya "cihad"a göndərir. Azərbaycan türkünün düşməni bir (rus çarizmi) idi, olur yüz (türkün bütün düşmənləri). Yenicə doğulan cümhuriyyət bələkdəcə boğulur. Belə bir vaxtda Mirzə Cəlil xalqının öz içindən yeyilməsinin səbəblərini göstərən "Anamın kitabı"(1920) pyesini qələmə alır..

ƏSRİN SONLARINA YAXIN Sovetlər birliyinin çürüyüb can verdiyini görürlər və yenidən erməni kartını ortaya atırlar. Bakıda Azadlıq meydanı xalqın əlinə keçir. Bir zamanlar Türkmənçay və Gülüstan "sülh" müqavilələri ilə Azərbaycanı ikiyə bölənlərə meydan oxuyan şairi gənclər tribunaya çiyinlərində aparırlar. Öz yurdunda insanların kiçik də olsa, azad torpağı olur. 70 il Sovet imperiyasının yerli nökərlərinin qabağında xalqın köləlikdə qaldığını nümayiş etdirən meydanı ələ keçirmək baha başa gəlir. Topxanada millətin ruhunu incidirlər. Zəngəzuru, Qafanı, Göyçəni türksüzləşdirirlər. Şuşanı şüşəyə döndərib çilik-çilik eləyirlər. Qarabağı Azərbaycandan ayırırlar. Xocalıda südəmər körpələri, qadınları qışın soyuğunda düzlərə salıb güllələyirlər, tankların altında əzirlər. Fəryadımızı dünyada eşitmirlər. Müstəqil respublika yaradıb imperiya buxovlarından ikinci dəfə tam qurtarmaq üçün neçə-neçə şəhidlər verilir. Anaların cəbhələrə dikilən gözlərində

yaş qurumur. Azərbaycan adlı dövləti nə qonşuların, nə yaxınların, nə uzaqların gözü götürür. Çölündən beş yerə bölünən ulu torpağı içindən də doğramağa çalışırlar. Klanlara, tayfalara, bölgələrə ayrıla-ayrıla xırdalanırıq. Birliyini pozmaqla hələ ilk addımını atmamış, uzun müddətli keçid çağlarını başa çatdırmamış, yerində sayan dövlətini millətin əlindən almaq istəyirlər. Və belə günlərdə əsrin əvvəllərini yada salıb "Allah sənə rəhmət eləsin, Mirzə Cəlil!" deyən xalq şairi Bəxtiyar Vahabzadə "Atamın kitabı" (1999) pyesini yazır. Minilliyin son ilində Gənclər Teatrında tamaşaya qoyulur..

Mirzə Cəlil də, Bəxtiyar Vahabzadə də bir ailənin timsalında cəmiyyətin bəlalarını göstərir. Biri əsrin əvvəllərində Azərböaycanda baş alıb gedən "yad dilli" yerli siyasətbazlardan, söz pəhləvanlarından, digəri yaşadığımız çağlarda Bakıda "partiya" xəstəliyinə tutulub kürsüdən—yağlı vəzifədən ötrü anasını belə qurban verənlərdən bəhs açır. Mövzu və məqsəd eynidir. Obraz adlarında da ciddi fərq nəzərə çarpır. Lakin zaman və məqsədə doğru gedən yollar başqadır.

Doğmalar arasında yadlaşma, özgələşmə, bir ansamblda iştirak edib ayrı havalar çalma motivi müasir fəlsəfi şerimizin pioneri, dramaturgiyamızın lirik-psixoloji qanadının öncüllərindən biri Bəxtiyar Vahabzadəni çoxdan düşündürürdü. O, publisistik və elmi məqalələrində dəfələrlə həmin mövzuya toxunmuşdu. Hətta "Anamın kitabı"na həsr etdiyi yazılarında müzakirə obyektinə çevrilməli məsələlər də qaldırmışdı. Və Mirzə Cəlilin əsərindəki "bəyaz kitab"ın açılışı haqqında qənaəti, gətirdiyi dəlillər göstərir ki, şair doğmaları yadlaşdıran amilləri arayıb tapmışdır.

İnsan doğmalar arasında özünü yadlaşdıranda ən müqəddəs şeyləri—anamı, milləti, Vətəni belə unudur. Bunlar onun üçün əsiri olduğu əqidənin prinsiplərini həyata keçirmək vasitəsinə çevrilir. Əslində hər bir siyasi əqidə müxtəlif yollarla addımlasa da, bir amala qulluq etməlidir. Və xalqın birliyini, bütövlüyünü rəmzləşdirən məsələlərdə—dövlətin, torpağın və dilin qorunmasında fikir ayrılıqları, haçalaşma olmamalıdır. İqtidar-müxalifət münasibətlərində də qarşıdurmalar ancaq bu üçlüyün işığında baş verməli, işığın sönməsinə deyil, daha da gurlaşmasına xidmət etməlidir. Vətən yad kəlamlarla çalınan laylalara elə mışıl-mışıl yatar ki, oyananda hər ətəyini bir özgənin əlində görərsən. Bəxtiyar Vahabzadənin həyəcan siqnalının arxasında məhz bu qorxulu təhlükənin baş verməsi durur. "Anamın kitabı"nın "Atamın kitabı"na çevrilməsinin əsas səbəbi budur ki, bütövlüyünə çatan millət Əqidə birliyinə nail olmalı və eyni istinad, dayaq nöqtəsi tapmalıdır. "Qurani-Kərim" bir xalqın deyil, bəşəriyyətin haqqa dönmək yoluna çıraq tutan müqəddəs kitabdır. "Qurani-Kərim"i bir elin ümid, pənah yeri kimi göstərib kiçiltmək günahdır. Və onu "Anamın kitabı"nda olduğu tək ayaqlar altına atmaq da mümkün deyil. Hər xalqın birliyinin təminatçısı kimi götürdüyü başqa, ancaq həmin xalqın ruhundan yoğrulan özünəməxsus kitabı var. Şair əmindir ki, Azərbaycan türkləri üçün bu funksiyanı yerinə yetirən kitab "Dədə Qorqud"dur. Axı, "Kitabi-Dədə Qorqud" yeganə əsərdir ki, millətin əlindən zorla alınıb, "həbs edilib". Onu dilinə alanlar da türmələrdə çürüdülüb.

Ədəbiyyatda Mirzə Cəlilin gətirdiyi Zəhrəbəyim ananın üç oğlu, bir qızı, qardaşlarınsa hərəsinin özlərinə oxşar bir dostu var. Böyük oğlu Rüstəm bəy Peterburqda təhsil alıb, dilinə kəlməbaşı rus sözləri qatır. Sənəti lüğət tərtib etməkdir. Rusiyapərəstdir. Diqqət yetirin, onun curu mal həkimi Aslan bəydir. Və ana dilini rus dili ilə qarışıq salan adamın düzəltdiyi sözlüyün millətə xeyri olarmı? Ortancıl oğul Mirzə Məhəmmədəli Nəcəfül-Əşrəfdə oxuyub, qatı islamçıdı, fars ibarələri ilə danışmağı sevir. İran tərbiyə tərəfdarıdır. Elmi-ilahiyyatdan dərs deyir, Mirzə Baxşəliylə həmkardır. Onun nəzərində mənəviyyatın aynası sayılan din də farsın və İranın qanadının altındadır. Kiçik oğul Səməd Vahid biliklərə İstanbulda yiyələnib. Filoloqdur. Osmanlı ləhcəsini yetkinləşmənin əsas amili sayır. Türk dili müəllimi (osmanlı türkcəsi nəzərdə tutulur) Hüseyn Şahidlə otrub-durur. Qardaşların hər biri ayrılıqda digərinin bəyəndiyi ölkəyə və dilə nəinki maraq göstərmir, heç hörmət bəsləmir, millətinin, daha-doğrusu, öz həmfikirlərinin düşməni sayır. Onların məsləyi bilik aldıqları dövlətilərin siyasi məqsədləri ilə üst-üstə düşür. Vətənə doğru uzanan yolların da ancaq həmin yad diyarlardan keçib gəldiyini qəbul edirlər.

Bəxtiyar Vahabzadə ana obrazı ilə bir sırada atanı və onun "Kitabi-Dədə Qorqud" dastanı haqqında yazdığı kitabını səhnəyə çıxardır. İxtiyarla qardaşları dördləşdirir. Oğulların anaya yadlığına qarşı isə özgə övladını—Gülbaharın nişanlısı Azəri "doğma"laşdırır. Bunlar ilk baxışda nəzərə çarpan zahiri oxşarlıq və fərqlərdir. O da bir həqiqətdir ki, Mirzə Cəlildə qardaşlar dördləşə bilməzdi. Çünki əsrin əvvəllərində Amerikanın Azərbaycanla əlaqəsi nəinki yox idi, belə bir diyarın mövcudluğundan xəbərsizdi. Bəlkə də Rusiyanın mədəniyyətdən uzaq uçqar bir nöqtəsi kimi neft Bakısı haqqında nağılvari məlumatlar ora da çatırdı. Onda Amerikanın siyasi mənafelərinin dairəsi daha çox öz qitəsini və Afrikanın cənub ətəklərini əhatə edirdi. ABŞ hələ imperialist dövlət kimi inkişafının startını götürürdü.

İlk baxışda sual meydana çıxır. Mirzə Cəlilin səksən il əvvəl ürə yanğısı ilə qələmə aldığı mövzuya qayıtmağa ehtiyac vardırmı? Əgə zamanın olayları bizim çağlarda daha kəskin təkrarlanırsa, bəli. Yetm ildə şablon "xalqlar dostluğu" ideyası ilə beynimizi doldurub Mirz Cəlilin həyəcan siqnalını qulaqardına vurmuşduqsa, bəli. İndi onu əsərinin təbliği ilə az adamı tənatümə gətirmək, ruhunu oynadıb başqa laşdırmaq mümkündür. Ona görə ki, bugünkü rüstəmbəylər, Mirz məhəmmədlər, Səməd vahidlər elə maskalanıblar ki, "Anamın kitabı ancaq ötəri təəssüf hissi yarada bilər. Güzgüdə öz eyiblərinin daha acı nacaqlı halda olduğunu görmədikləri halda əsrin əvvəllərindəki faci ələri yalnız tamaşa zamanı "acıyanlar tapılar. Bu səbəbdən də yeni kita bı—"Atamın kitabı"nı meydana gətirmək hava, su kimi gərəkli idi Ədəbiyyatımızın ötən yüzillikdə qalan iki əsərinin zahiri oxşarlığı çox dur. Lakin bu o demək deyil ki, "Atamın kitabı" əsrin sonunda "Anamın kitabı"nın Bəxtiyar Vahabzadə qələmi ilə işlənmiş yeni variantıdır. Əksinə, "Atamın kitabı" öz dövrünün hadisələrindən mayalanaraq Mirzə Cəlil ideyalarının işığını millətin üstünə daha gür salan spesifik poetik strukturlu orijinal səhnə əsəridir.

Bədii yaradıcılıqda bir sənətkarın qələmindən çıxan mövzunun başqa qüdrətli yazarlar tərəfindən təkrar-təkrar işlənməsi ənənəsinin tarixi daha qədimdir. Böyük Nizaminin "Xəmsə"sindəki bütün mövzulara ayrı-ayrı çağlarda təzədən çıraq tutan yüzdən çox şairin yaşayıb-yaratdığını yada salaq. Kim deyə bilər ki, Füzulinin "Leyli və Məcnun"u Nizaminin əsərinin variantıdır, yaxud ədəbiyyatşünaslıq terminləri ilə desək, ona nəzirədir. Hamı təsdiqləyər ki, Füzuli öz yaşadığı dövrün sufi Məcnunu yaratmışdır. Lakin B.Vahabzadənin "Atamın kitabı" pyesinin "Anamın kitabı"yla əlaqəsini "Xəmsə" silsilələrinin bir-biri arasındakı ənənəvi bağlılığı kimi də müqayisə etmək yerinə düşmür. Və yaxud "Romeo və Culyetta" Şekspirdən, "Don Kixot" Servantesdən, "Faust" Götedən qabaq da yazıçıların qələmində işlənmişdir. Lakin yalnız Şekspirin, Servantesin və Götenin ruhundan keçəndən sonra əbədiyyət qazanmışdır. Ədəbiyyatda "doğmalar arasında yadlaşma" motivinin müasir mərhələdə aktuallığını duyan Bəxtiyar Vahabzadə "insanın ölümündən qabaq öldüyünü" görən mənəvi müəlliminə—dahi Mirzə Cəlilə üz tutması heç də nə "Anamın kitabı"nın, nə də "Atamın kitabı"nın dəyərinə, əhəmiyyətinə xələl gətirir. Əksinə, biri digərini tamamlayır.

Pyesdə dramatik qarşılaşma proloqda baş verir. Saf, millətini ürəkdən sevən insanların məngənəyə salınıb sıxıldığı aydınlaşır. Zamanın təzadlarından doğan ziddiyyətlər ərlə arvadın münasibətində, söhbətin-

də özünü biruzə versə də, bu, ailə-məişət münaqişəsi deyil, cəmiyyətin, insanlığın bəlalarıdı, "mənfur rejim"də haqqın, ədalətin tapdanmasıdı. Konfliktin düyünlənməsinə doğru uzanan yolların da kökü, başlanğıcı məhz Ata ilə Ananın proloqdakı söhbətində qoyulur. Məlum olur ki, ər körpə uşaqlarını boya-başa çatdırmaq, yurdunda gərəkli adamlar kimi yetişdirmək imkanından məhrum edilib. Gələcəyə şübhə ilə yanaşır, qorxur ki, onun ömür yolunu hər an qıra bilərlər. Bir şeyə narahatdır, mənfur rejim çox uzanar, uşaqları da haqqdan dönərlər. Dövrün şərlərini görən Ata vəsiyyətini qabaqcadan söyləyir: "...Övladlarım harda olur olsun, hansı sənəti seçir seçsin, onların ruhu, inamı, əqidələri Vətən timsalı olan bu ana kitabın ətrafında dolansın". 37-ci illərin ab-havasında zəhərlənib boğulan Ata övladlarını mövcud rejimdən qorumaq istəyir. Pyesdəki əsas hadisələr isə məhz həmin mənfur rejiminin süqutundan sonrakı illərdə—bizim günlərimizdə baş verir. Və ananın bütün söylərinə baxmayaraq köhnə quruluş öz tərbiyəsini qardaşların qanına yeridir. Atanın ən böyük arzusunun həyata keçməsinə—Azərbaycanın müstəqillik qazanmasına baxmayaraq yadların, özgələrin barmaqları millətin üstündən götürülmür. Bəs onun övladları 200 ilə yaxın imperiya boyunduruğunda yaşayan Vətənin azadlığından sonra hansı hala düşüblər? Köhnə rejimdə yuxarıdan aşağıya hər şey şablon şüarlarla idarə olunurdu. Kütlələrin yerinə başda oturanlar düşünüb qərarlar çıxarırdılar. Onlar deyirdi, dost kimdir, düşmən kim, camaat tanısa da, tanımasa da ya nifrətini, ya da məhəbbətini nümayiş etdirirdi. Ataların ancaq "ura" qışqırmaq vəzifəsi vardı. Bəs azadlığın dadını görməyə başlayan oğulların buxovlarsız davranışları necədir. İndi onlar hərəsi əlinə bir yad xalta alıb tərəf-müqabillərinin, özü də doğmalarının boynuna keçirmək üçün dəridən-qabıqdan çıxırlar. Adamı yandıran odur ki, əvvəllər qolumuzu qandallayan, dilimizə dağ vuran özgələr idi, indi özümüzdən olan yaxınlarımız bir tərəfdə durub üstümüzə boyunduruq atır. Həm də yadların boyunduruğunu.

Əsərin əsas səhnəsi maraqlı epizodla başlayır. Dünyanın əksər ölkəsində keçirilən bir oyun var. Bizdə "Kürsü oyunu" adlanır. Boş kürsülər dairəvi şəkildə düzülür. Ətrafında dolanırlar. Aparıcının işarəsi ilə kürsülərdən birində otururlar. Kimə yer çatmayıb ayaq üstə qalsa, uduzur və kürsüdə oturanların əmrlərini yerinə yetirir. Desələr ki, it kimi hür, hürməlidi; eşşək kimi anqır, anqırmalıdı. Oyunun şərtinə görə, kürsü qazananların tapşırıqları "məğlub"lar tərəfindən sözsüz yerinə yetirilməlidir. Əks halda onları yerə uzadıb qayışla döyürdülər də... Tamaşanın bu oyunu xatırladan səhnə ilə başlaması həyatın özünün oyuna,

əyləncəyə çevrildiyini göstərir. Ortada bir kreslo qoyulub. Qardaşlar bir-bir səhnəyə daxil olub kresloya yayılır, bir an da olsa, dünyanı cibində zənn edib qalxır. Sonra oyundakı kimi kreslonun ətrafında dolanırlar. İxtiyar daha cəld tərpənib kreslonu zəbt edir. Bu səhnədə tamaşanın bütün qayəsi əks olunub. Nəzərə çarpan dörd qapı və qapıüstü simvollar da bir ailə timsalında cəmiyyətin parçalanmasını nəzərə çatdırır.

Doğrudur, tamaşadan fərqli olaraq pyesdə salonun təsviri verilir. Hər küncdə bir masa var, ortada isə bir vəzifə kreslosu. Hər masadan həmin kresloya bior darojka gəlir. Bu, hakimiyyətə, iqtidarlığa doğru uzanan yoldur. Maraqlıdır, şair abstrak detallardan qaçır. Hamının asan başa düşəcəyi təsvirlərə üz tutur: birinci masanın üstündə "Yeni Azərbaycan" və "Xalq" qəzetləri, ikinci masanın üstündə "Azadlıq", "Yeni Müsavat", üçüncü masanın üstündə "Komsomolskaya pravda", dördüncü masanın üstündə isə ərəb hərfləri ilə qəzetlər düzülüb. Şairin sivil mübarizə forması kimi mətbuatı göstərməsi ilk baxışda əsil əqidə savaşından xəbər verir. Lakin tamaşa boyu ölkədə qəzetlərin dedi-qodu yuvası kimi iqtidarın və müxalifətin əllərində silaha çevrildiyinin şahidi oluruq. Sovet imperiyasından miras qalan təfəkkür tərzini isə qara köynəkdə tar və atanın şəkli asılmış əsas divardan aralı dörd divardakı şəkillərlə təqdim edir. Bu da onu göstərir ki, şair bugünümüzün eybəcərliklərini hamının üzünə deməkdən çəkinmir. Dörd qardaşın timsalında dörd siyasi partiya kəllə-kəlləyə durub. Onlardan üçü müxtəlif zamanlarda hakimiyyət kreslosunun dadını alıb, yalnız biri hər üçünün ətəyində gəzib. Böyük qardaş Rüstəm kommunistdir, "bəlkə də qaytardılar" xülyasıyla yaşayır və xilas yolunu Rusiyada axtarır. İxtiyar hakim partiyadandır. Xəyalı Amerikada gəzib-dolaşır. Səməd Vahid xalq hərəkatı dalğasıyla hakimiyyətə gətirilib bir ildən sonra fəaliyyətini dondurmaq məcburiyyətində qalan müxalifət partiyasındandır. Hələ də vəzifə kreslosunun ləzzəti damağından silinməyib.

Millətin sinəsinə çəkilən dağlar unudulmamış, vurulan yaralar sağalmamış, 60-dan çox partiya yaradılıb. Yağışdan sonrakı göbələklər kimi. Axı, göbələklərin çoxunun zəhərli olması ehtimalı da var. Partiya xəstəliyinə tutulanlar söz güləşdirməklə, yadların siyasətini, əqidəsini, adət-ənənələrini yaymaqla kökdən uzaqlaşır, ancaq qarşısındakını qara rəngdə göstərməklə gözdən salıb sıradan çıxarmaq və yerini tutmaq istəyirlər. Onlar yaxşı anlayırlar ki, xalq arasında dəstəklənmirlər, ona görə də biri Azərbaycanı təzədən Rusiyanın, o biri İranın, üçüncüsü Türkiyənin qoltuğuna soxmağa çalışır. Kreslonun sahibləri isə hakimiyyətlərini saxlamaq üçün xalqın etimadını qazanmaq əvəzinə okeanın o

tayından yardım diləyir. Aralarında Məmmədəli kimi bütün iqtidarlara quyruq bulayanlar da var. Keflərindən də qalmırlar, "mersedes"ləri sağdan sola sürüb, imarətlər ucaldıb "nata"larla təzə millət yaradırlar.

Onlara nə ad vermək olar. Şair əsərdə bir neçə yerdə elə özlərinin diliylə bu adları göstərir: "izinli qəhrəmanlar", "evin sirrini çölə tökənlər", "ağac başındakı ac qarğalar". Və müxalifət-iqtidar qarşıdurmasının mənzərəsi elə gerçək təsvir edilir ki, adam özünü tamaşada deyil, real həyatda hiss edir.

İXTİYAR:—Ey müxaliflər, iqtidara gəldiniz, gücünüzü gördük. Sizin vaxtınızda it yiyəsini tanımırdı.

MƏMMƏDƏLİ:—Bunu düz deyir. Amma indi də yiyəsi iti tanımır...

Bu deyişmə yerinə düşən söz oyunu deyil. Siyasət aləminin iki qütbünün—ixtiyar sahiblərinin və müxalifətin camaata verdiyi qiymətdir. Yaxud onların söhbətlərinin başqa yerində atılan hər təpiyin ancaq özümüzə dəydiyi də elə ustalıqla verilir ki, insanın siyasətbazlara nifrəti birə on qat artır.

İXTİYAR:—İndi bizə bu milləti birləşdirməyə qadir dəmir yumruq lazımdır.

MƏMMƏDƏLİ:—Siz də o yumruğu endirirsiniz bizim təpəmizə.

İXTİYAR:—İnsafla danış. Axı, siz 10 il əvvəl, yəni sovet dövründə hökumətin əleyhinə belə danışsaydınız, dilinizi ənsənizdən çıxarardılar.

RÜSTƏM:—Elə indi də polojeniya ondan çox da fərqli deyil...

Qardaşlar özləri bir-birinin paxırını açıb ortaya qoyurlar.

Ac-yalavac xalqın olan-qalan malını da talayıb sərvət üstə sərvət gətirənlərin alqı-satqı zamanında xəstə analarına lazımlı dərmanı tapmağa qarınları ağrıyır. Qaçqınların dilənçi payına göz dikib əlindən qapan mənsəb sahibləri isə itirilmiş torpaqların qaytarılması barədə düşünmürlər də. Aralarında gözdən pərdə asmaq üçün rüşvətlə toplanan pulla məscid tikdirənlər də mövcuddur. Lakin haqqı bərpa etməklə göyün də, yerin də alqışını qazanmaq istəyənlər yoxdur.

Yeni cəmiyyətin simvolu kimi verilən ailədə Ana vətəndir. Ana —Vətən xəstədir, ürəyi ağrıyır: Azərbaycan içindən də, çölündən də yeyildiyinə görə can üstədir. Ana vətənin əsas sərvətindən qidalanıb ərsəyə gələnlər onun yaralarına məlhəm qoymurlar. Lakin bu hələ son deyil. Şərin meydan sulamasına baxmayaraq ailənin qeyrət damarında—Gülbaharda kökə bağlılıq qalır. Çünki o, tərbiyəni öz yurdunda alıb, özgələrin opiumunu ruhuna yeritməyib. Və Gülbaharın saflığı olmasaydı, Azərin göydə tapdığı yeni ulduz qorqudlaşmazdı. Anaya qan verən tapılmazdı.

Ataların tövsiyyələrini qulaqlarında sırğa etməyənlər qırxında dinə-imana gələ bilərmi? Əlbəttə, şair möcüzə baş verməsini istəyir və əsərin finalında hamının ulduzlarını barışdırır. Doğrudur, Ana kitabının saralmış varaqlarından oxunan cümlələrlə həqiqətlərin açılması özgə dilli qardaşları sarsıdır. Çünki fələyin məngənəsi Dədə qorqudları rüstəmləşdirmişdi, Bamsı beyrəkləri Səməd vahidlərə çevirmişdi, bayandırları ixtiyarlaşdırmışdı, Salur qazanları məmmədliləşdirmişdi. Təkcə Banu çiçəklər gülləşib—baha gülü tək ətirli, təravətli qalmışdı. Və bu halda ondan başqa qardaşların heç birinin iqtidar kürsüsündə əyləşməyə haqqı yoxdur. Ana—Vətənin gəldiyi bu son qərar bəlkə XXI yüzillikdə reallığa çevrildi...

Ata bir vaxtlar təbiətin qanunlarına əsasən inanırdı ki, kökdən ayrılanlar gec-tez geri dönəcəklər. Ona görə ki, "Yer, göy, ay və ulduzlar göylərdə seyr edib gəzə-gəzə əvvəl-axır günəşin başına dolanırlar. Çünki ay və ulduzlar hamısı çox-çox əvvəllər Günəşdən qopub ayrılan parçalardır". Ata etiqad edir ki, balaları dünyada hər yeri gəzib-dolansalar da, yenə əvvəl-axır anaları Zəhrabəyimin ətrafında dolanmalıdırlar. Axı, "ay və ulduzlar günəşin parçaları olduqları kimi, onun balaları da analarının ay və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin bu əzəli qanununu pozmaq istəyə!"

Lakin təbiətin əzəli qanunu çoxdan pozulmuşdur. İndi onu yenidən bərpa edib öz axarına qaytarmaq müşkül işdir.

Son səhnə Bəxtiyar sənətinin uğurlu tapıntısıdır. Ancaq gerçəkləşməsi mümkündürmü? Vətən övladlarının hamısını bu vasitəylə qəflət yuxusundan oyadıb ana qoynuna qaytarmaq, dillərinin altında gizlətdikləri bizlərdən, əllərində hazır tutduqları baltalardan, öz doğmasına tuşladıqları oxlardan xilas etmək elə Azərbaycanı fəlakətdən qurtarmaq deməkdir, doğmaların yadlığını, içimizdən yeyilmənin qarşısının alınmasıdır. Və B.Vahabzadə pyesinin mayasında duran əsas qayə ondan ibarətdir ki, hakimiyyət öz xalqına qarşı yadlaşanların, kənarlardan, yad pəncərələrdən boylananların əllərində olduqca, irəliləyiş mümkün deyil, torpaqlar da geri qaytarılmayacaq, millət dilənçiliyin daşını atmayacaq, ancaq dünyada çadır şəhərciyi sahəsində birinciliyimizlə, qaçqın-köçkün payına göz dikməyimizlə "öyünəcəyik". Şair onu narahat edən bir çox taleyüklü problemin həlli yollarını arayır: müstəqil respublikanın gələcəyini təhlükə altına alan amillər hansılardır? Ayağı Azərbaycanda, ürəyi yad ölkələrdə olanlar ölkəni idarə etməyə qadirdilərmi? Zülmətdən qurtulmaq üçün bir şam da olsa, yandırıb işığını yola salanlar tapılacaqmı?.. Bu suallara cavab axtararkən B.Vahabzadə ilk

növbədə kökə qayıdışı, xalqın tarixini öyrənməyi, özünü tanımağı əsas götürür və bunsuz yerində saymaqdan yaxa qurtarmayacaq, ağzı "soskalı" halda iməkləyə-iməkləyə qalacağıq—qənaətini irəli sürür. "Dədə Qorqud" qəhrəmanlarının adları ilə dünyaya gəlib mənfur sovet quruluşunun emalatxanasında rüstəmləşən, məmmədliləşən, ixtiyarlaşan, vahidləşən "alik"ləşən və "oviçləşənlər" atalarının verdiyi adlara layiq olub onu təzədən öz üzərlərinə götürə bilərlərmi? Daha doğrusu, özlərini bilə-bilə yadlaşdıranların təzədən doğmalaşması mümkündürmü? B.Vahabzadə başqa əsərində bu sorğuya daha dolğun cavab verir. Milli Dram Teatrında tamaşaya qoyulan "Dar ağacı" faciəsinin süjetində "yadlaşanların doğmalaşmaq cəhdləri"—özünə qayıdışının nəticələri durur. Bu barədə ayrıca söhbət açacağıq.

"Atamın kitabı"nda insanları ayıq-sayıqlığa çağırış çox güclüdür. Xalq elə etməlidir ki, dövlət—iqtidar kürsülərində ancaq damarlarından saf qan axanlar, milli ruhda tərbiyələlənlər otursunlar. Qanında qarışıqlıq olmayanlarda hansı səbəbdənsə yolazma, yadlaşma baş veribsə, kökə qayıdışa ümid var. Anaların işə qarışması lazım gəlir, gec-tez onlar kimliklərini dərk edib cızığından çıxdıqlarını anlayacaq. Və qurtuluş özünə qayıdışdadır. Millət o zaman bir yumruq kimi birləşəcək ki, onun iqtidarı da, müxalifəti də eyni ruhda tərbiyələnəcək, tərbiyəni pul gücünə anlamayacaqlar, beynini zəhərləyən amillərdən uzaq qalacaq, bir dildə—ana dilində düşünüb-danışacaq, sözü ilə əməli üst-üstə düşəcək. Onda ayrı-seçkilik də aradan qalxacaq, qardaşın qardaşa dirsək göstərməyinə də son qoyulacaq.

"Ədəbiyyat qəzeti", dekabr, 2000-ci il.

Ramazan QAFARLI

ÖZLƏRİNİ YADLAŞDIRANLARIN DOĞMALAŞMASI MÜMKÜNDÜRMÜ?

Doğmaca qardaşı yüz il danmışıq,
Amma özgəsini qardaş sanmışıq.
Özgə qoltuğuna sığınmaq yetər!
Ağasız yaşaya bilmərik məgər?

B.Vahabzadə

Haqqa doğru gedən yolda dar ağacları lazımdırmı? Zülmlə insanı sındırıb xristian, müsəlman, bütpərəst etmək mümkündür. Bəs haqsızlıqla haqqa çatan varmı? Allah zor vasitəsiylə deyil, könül xoşluğuyla dərk edilir. Başı qapazlı saxlamaqla böyük kütləni qul kimi işlətmək də olar. Zindanların qapısını açıq qoyub bir xalqı istədiyi havaya oynadan iqtidarlarla da tarixdə çox rastlaşırıq. Lakin qorxu ilə ürəklərə yol tapan yoxdur. Və dəmiri döyməklə qılınca, oxa, nizəyə çevirirlər. Turşu çox tünləşəndə öz qabını sındırır. Sitəm həddini aşanda isə qələm tutan əllər də düyünlənib yumruqlaşır. İnsan əyilə-əyilə, döyülə-döyülə, əzilə -əzilə qullaşmaqla yanaşı öz içində dağıdıcı qüvvə bəsləyir və qəfil zəlzələ kimi birdən meydana çıxardıb hər şeyi alt-üst edir.

Doğmalarına arxa çevirib yadların dəyirmanına su tökənlər, millətini özgə dəyənəyinə döydürənlər unudurlar ki, bir gün sığındıqları yağının qoltuğu bədənlərinə dar gələcək. Çünki o qoltuğun altına girənlərin sayı-hesabı tükənəcək. Başqalarının xəyanəti, yaltaqlığı onlarınkını üstələyəcək. Ancaq onda anlayacaqlar ki, bir vaxtlar doğmalarını göndərdikləri dar ağacının ipini çoxdan—elə özününkülərə qarşı yadlaşdıqları andan boğazlarına keçiriblər. B.Vahabzadənin "Dar ağacı" faciəsinin əsas qayəsi nədən ibarətdir?—sualına cavab axtararkən məhz "el keçən körpüləri" qırıb-sökən öz baltalarımızın aqibətini yada salıb bu nəticəyə gəlmək olar. Lakin şairi ikinci minilliyin sonunda "dar ağacı qurmağa" vadar edən təkcə həmin məsələlər deyildir.

Pulla hər şey satın alınır. İnsanlıqdan başqa. Əgər dünyada kişiliyin, ərliyin, mərdliyin nə zaman bitdiyi ilə maraqlansalar, görərlər ki, iqtidar taxt-tacları adamların başının üstündə yüksəkdə yerləşdiriləndən, düzlüyün mizan-tərəzisi pozulandan, yalanın kisəsinin ağzı açılandan, şərə meydan sulamağa imkan veriləndən, and içmək dağ saqqızına dönəndən, alqı-satqı yaranandan itməyə başlayıb, başa özgə papaqları qoyulanda isə sona çatıb. Doğmaların yadlaşması məhz bundan sonrakı çağların yetirdiyi şərxislətdir. Və əqidə mübarizəsi sərvət toplamağa yönələndən haqqın, ədalətin də yolunu kol-kos basmağa başlamış, hər şey yalanlar üzərində bərqərar olmuşdur. Düzlüyün mənzili verilən sözdən uzaqda itəndə Babəkin zamanı bitir, Aqşinin zamanı başlanır. Yaşıl bayrağını al-qırmızı qana boyamaqla, ocaqların odunu söndürməklə, qardaşı qardaşa qırdırmaqla İslamı yayanlar Allahı sevdikləri üçün deyil, Allah adına sığınıb gen dünyanı daraltmaq, cəhənnəmi gerçək aləmin içində icad edib, yaradıcının ilk kəşfi kimi o dünyanın ən dərin qatlarında yerləşdirmək niyyətinə düşdükləri üçün çaldışırlar. Əslində bu, insanları haqqa çatdırmaq deyil, haqqı danmaqdır.

Bəşər övladı daim azadlıq uğrunda vuruşur. Lakin hələ ona çatıb nə olduğunu bilən yoxdur. Zaman Babəki azadlığın simvolu kimi meydana gətirmişdi. Babək mütləq müstəqilliyin dadını, ləzzətini Azərbaycana daddırdı. Boyunduruqsuz, ağalarsız, ancaq eşqlə, xeyir işlər görməklə, ürəkləri isitməklə yaşamağın nə olduğunu göstərdi. Və Babək iyirminci yüzilliyin əvvəllərində C.Cabbarlının qələmiylə Elxanlaşıb ömür payı müddətində yadların qılıncını qınında paslatdı. Onun qaladığı azadlıq ocağını öz soyundan olanlar söndürdülər. Və özgə papaqlarını xalqın başına taxdılar. B.Vahabzadənin "Dar ağacı"ndakı hadisələr elə o andan—"Od gəlini"ndə Elxanın edamı tamamlanıb nöqtə qoyulduğu yerdən başlanır.

Şair Babəksiz (Elxansız) qalan dünyanı məşhər ayağına çəkir. Babəkin "ata ocağının istisinə qızına-qızına ac-yalavac qalsan da, azad yaşa" ideyasını özgələrin gözü götürmür. Çünki dünyanın haqqa qayıtmaq yolunu Babək ocaq başında, atəşdə görmüşdü. Ona görə də ərəbin qılıncla gətirdiyi əqidəyə qılıncla da cavab verməyi bacarmışdı. Babəkin qılıncının qabağında düşmən orduları pərən-pərən düşmüşdü. O çağa kimi ki, doğması, onunla eyni ananın döşlərindən süd əmən namus qaçağı Aqşin düşmən cəbhəsinə keçib üstünə yeriməmişdi. Elində, obasında öyrəndiyi döyüş fəndlərini yad əsgərlərinə ötürüb ata-babasının qızındığı ocaqları söndürməmişdi.

Babəkin tikdiyi azad qalanı öz içindən yeyib dağıtmışdılar. Babəkin qəzəbi nə qədər artıq olsa da, doğmasının qanını tökməyə əlləri gəlməmişdi. Babək ürəklərin soyuqluğu qarşısında, doğmalarının xəyanəti nəticəsində əsir alınmışdı. Elin vuran əlinin biri zatı qırıq çıxdığından hər yerdə dar ağacları qurulmuşdu.

Qardaş qardaşa, oğul ataya Allah yolunda qənim kəsilmişdi. Bəlkə də "tanrısına təpik atılmanın" da bünövrəsi o çağlarda qoyulub. Aqşin elə bilirdi ki, İslam bayrağının Azərbaycana gətirməklə, yurdunun ocaqlarını söndürməklə haqqı, ədaləti bərpa edir. Xəlifədən quru padşahlıq titulunu alanda da o, din pərdəsi altında ərəbin boyunduruğunu xalqının boynuna keçirdiyini ağlına yerləşdirmirdi.

Dünyanın qılıncla idarə olunduğunu zənn edib ağlın meydanını daraltmışdılar. Namusu, arı tapdalayanların obada daşqalaq edilməsi hələ ədalət məhkəməsində "müqəddəs şeylərə toxunmaq ölümə bərabərdi" qərarının hökm sürdüyündən xəbər verirdi. Gənclik xətalarını ona bağışlamayan xalqının qəzəbindən salamat qurtara bilməyəcəyini başa düşüb Aqşin doğmalarından uzaq qaçmışdı. Səhvlərini etiraf etsəydi də, el namusunu murdarladığı üçün odda yanmalıydı. Atəşin rəmzi sayılan qızı al-

datdığına görə artıq onun doğmaları arasında yeri yox idi. Müqəddəs ocaq yalançılığı bağışlamağa qadir deyildi. Yalançılıq etmiş insanın etirafı da yalan, xəyanət sayılırdı. Vəd və andı pozanlar Əhrimanın şərindən törəyənlər idi. Bəlkə də Babək Aqşinin günahından keçsəydi, qardaş qardaşın qanını tökməzdi. Ancaq ilk baxışda belə təsəvvür yaranır. Əslində isə ocaqların söndürülüb yerində məscidlərin tikilməsi labüd idi. Çünki ədalət, haqq Allahın bəşər övladına verdiyi sifətlərdən biridir. Haqqı ocağın ixtiyarına buraxmaq insanın düz yola qayıtmaq imkanını əlindən alırdı. İslamın qarşısında tövbə edib alqı-satqı dünyasında əvvəlki əməllərinə görə vicdan əzabı çəkmədən yaşaya bilərsən. Ərəbin din pərdəsi altında Azərbaycana gətirdiyi yeni qanun—"keçmiş əməllərdən yaxa qurtarma, tövbəetmə" Aqşin kimilərini tam təmin edirdi.

Zaman Babəkin cismini dar ağacında cansızlaşdırsa da, ruhunu öldürə bilməmiş, azadlıq ocağının istisinə qızınanların ümid çıraqlarını söndürməyə gücü çatmamışdı. Babəkin ruhu boğazı kəndirli, qolları zəncirli halda daim öz elinə satqın çıxanları təqib edir.

Faciənin ekspozisiyasında qalib ərəb ordusunun qoltuğunda Azərbaycana girən Aqşin İbn Süheylin və İbn Zeydin çaldığı havalara hamını oynatmağa hazırdır. Başsız qalmış xalq qarşısında çıxış edən ərəblərin sərkərdəsi və xəlifənin səlahiyyətli nümayəndəsi namus qaçağını padşah elan edirlər. Eləcə də əsirlikdə atasının azadlıq ocağından uz göndərib haqqı İslamda tapan Sabutaya və ağlı, hiyləni gücdən, tülkülüyü mərdlikdən üstün tutan yerli İbn Tahirə xəlifənin şəxsi hədiyyəsini—qılınclar bağışlayırlar. Ərəb məmurları anlayırlar ki, silahla ancaq insanları var-yoxdan çıxarmaq, hər şeyini—torpağını əlindən almaq mümkündür. Lakin qılıncla əqidə birliyini təmin etmək və yeni dini beyinlərə yeritmək olmaz. Xalqın inamını qazanmaq üçün İbn Tahirlərin şirin dili işə salınmalıdır. Bağışlanan qılınclar isə burada rəmzi məna daşıyır. Hər an başlarının üstündə hiss edib insanlar geriyə yolun olmadığını anlasınlar.

Sabutayın tərəddüdləri. Aqşin və Babəkin oğlu Sabutay (əməkdar artist Nurəddin Mehdixanlı) ilk baxışda doğru yolda olan təsiri bağışlayırlar. Təfəkkürdə oyanış yaradan, yaradıcının Vahidliyini təsdiqləyən yeni, daha mütərəqqi dünyagörüşünün sürətlə bütün Şərqi özünə ram etməsi onlarda da belə qənaət oyatmışdı ki, gec-tez dünyanın bütün sakinləri həmin əqidənin ardınca düşəcək. Köhnə adətlərdən, oda sitayişdən əl çəkib haqqın yolunu düzgün göstərən müsəlmanlığı qəbul etməyi ilk-əvvəl Aqşin, sonra da Sabutay anlamışdı. Əsirlikdən atası Babəkə məktub yazıb İslama çağıran oğul bu işin qurbansız keçməyəcəyini də başa düşürdü. Lakin onlar ərəb xilafətinin qəsbkarlıq niyyətinin insanları Allah sevgisi ilə birliyə çağırmaqdan güclü olduğunu, haqqa dönüşün də "siyasət bazarında" satışa qoyulduğunu görüb uduzduqlarını çox gec dərk edirlər. İlk olaraq Sabutayda tərəddüdlər baş qaldırır, əmisinin və xilafət nümayəndələrinin sözü ilə əməlləri üst-üstə düşmür, şübhələr onu içəridən didib-parçalamağa başlayır. Damarlarından axan Babək qanı coşub Sabutayı özünə, kökünə döndərmək istəyir. O, elə zənn edirdi ki, atasının irəli sürdüyü azadlıq da, müstəqillik də haqqdan keçir və Babəkə qarşı qurulan dar ağacı, tökülən qanlar belə haqq üçün edilir. Qurbanların çəkisi dünyadan ağır olsa da, labüdlüyünə inanırdı. İnanırdı ki, xalq ancaq Allahı dərk etməklə xoşbəxtliyə çatacaq. Ona görə də atasının qılıncından imtina edib əmisi Aqşinin silahından yapışmışdı. Tərəddüdləri onda biruzə verir ki, xilafətin siyasətində milli ayrı-seçkiliyi görür. Öz tayfasının qız-gəlinlərinin barmaqlarından nişan üzükləri zorla çıxarıldığı halda, Azərbaycanda yerləşdirilən ərəblərdən vergi alınmasına fərman verilməsi Sabutayı çaşdırır. Bu, haqqa çatmaq deyil, milləti millətə qarşı qoymaq idi. İslam ideyalarında hamının bərabərliyindən, Allahı tanıyan hər kəsin soy kökündən, milli mənsubiyyətindən asılı olmayaraq qardaşlığından söhbət açırdı. Ərəb xəlifəsinin əməllərində isə Məhəmməd Peyğəmbərin qoyduğu Allahdan hasil olan əksər prinsiplər pozulur, imtiyaz sahiblərinə qulluq göstərənlər mükafatlandırılır və islam bayrağı yalnız ərəbin haqqını qoruyanların əlindəki silaha çevrilir. Sabutay atası kimi üsyankar olmasa da, yenidən öz eli ilə doğmalaşmağa can atır. Ancaq o, tanrıdan üz döndərmir, odun müqəddəsliyinə qayıtmır. Bircə Babək nəslinin sağlam qanadını—Çılğını azad edib o yerlərdən uzaq düşmək istəyir. Sufilər kimi tərki-dünyalığa üstünlük verir. Haqqın cəmiyyət içində tapdalandığını görüb dərvişlər tək axtarışa çıxmaq istəyir. Sabutay Babəkləşə bilmir. Doğrudur, o, atasına layiq övlad kimi dünyadan köçür. Əlində qılınc təkbaşına yadlarla və yadlaşanlarla vuruşur. Onun doğmaları arasına qayıdışı baş tutmur. Və Sabutay "üsyankarlığı" Babəkliyin davamı deyil, öz nəsli qarşısında günahlarını yumaq idi.

Haqqa yalanlarla çatmaq olarmı? Aqşinin (xalq artisti Kamal Xudaverdiyev) faciəsi daha dəhşətli və acınacaqlıdır. O, bir tərəfdən elini haqq yoluna çağırmaqla, tamam qılıncdan keçirilməsinin qarşısın almaqla fədakar sərkərdə, uzaqgörən siyasətçi təsiri bağışlayır.

Digər tərəfdən gəncliyində buraxdığı səhvlərə görə məzəmmət edilməsini təkəbbüründən unutmur. İslamı qəbul etmiş el ağsaqqalının hüzuruna gəlişi ilə hər şey öz yerinə qoyula, yadlara qarşı xalqın birliyi yarana bilərdi. Lakin Aqşinin ağsaqqala arxa çevirməsi göstərir ki, qəlbindəki şeytanı qovmaq əvəzinə, yadların əqidəsiylə daim bəslənmiş və öz boğazını da onların caynaqlarına keçirmişdi. Deməli, Aqşin yaxşılıq üçün doğulmamışdı, ona görə də doğma yurduna yad qılıncıyla dönüb bəlaya çevrilmişdi. Dilində Allahın adını tutsa da, ağaları kimi haqsızlığından əl götürmür, həqiqətdən qaçır, düzlüklə deyil, yalanla özününkülərə yardım əli uzadır. O, əvvəl qılıncla müsəlmanlığı beyinlərə yeridəcəyinə əmin idi. Ancaq bunda da şəxsi mənfəət güdür, xəlifədən daha yüksək mənsəb və səlahiyyətlər almaq istəyirdi. Anlamırdı ki, köpəyin vəzifəsi gəlib-gedənin üstünə hürməklə qorxutmaqdır. Köpək sahibinə quyruq buladıqca yaxşı yemlənir. Elə ki, qudurub sür-sümük verəninə diş qıcırdır, olan-qalanını itirir. Lakin Aqşin tamamilə şərləşmiş insan deyil. O, anası ilə qarşılaşanda gücsüzləşir, şahlıq qürurunun sındırılmasına belə dözüb qadının üzünə qayıtmır. Doğrudur, Aqşinin tərəddüdləri çox-çox sonralar baş qaldırır. Qardaşını "uf" demədən edam edən şəxs ancaq qızı Çılğının qarşısında təslim bayrağının qaldırır. Onda başa düşür ki, padşahlığı tükdən asılıdır. Əslində heç bir hökmü yoxdur. Bir məhbusu belə azadlığa buraxmaqda acizdi. Döyuş meydanlarında şir kimi vuruşan sərkərdə başına tac qoyulduğu andan cəsarətsizləşib. Yalan üzərində qurulan taxtına güvənmədiyi üçün o, doğmasını xilas etmək yolunu hiyləyə əl atmaqda tapır.

Ana haqqı, tanrı haqqıdırmı? Dünyanın bütün dərdlərini çiyinlərinə götürən, döşlərindən süd verdiyinə görə doğmalarının da, yadlaşanların da əməllərinə cavabdehliyini anlayan ana(xalq artisti Zərnigar Ağakişiyeva) bər-bəzəkli saraya gətirilsə də, kimsəsiz divarlar arasında sıxılır, daim el içinə can atır. Ocaqsız evlər ona soyuq məzar kimi gəlir. Novruz sevinclərindən, ilaxır tonqallarından uzaqda, yurdun hər tinində dar ağacı quranların dəvətsiz-filansız başa keçdiyi yerdə nə ürək qızdırmaq mümkündür, nə haqqa sığınmaq, nə də ədalətə, ixtiyar sahiblərinin ədalətinə inanmaq. Dönük övladın içərisindən gələn səsin təsiriylə "ana haqqını tanrı haqqı kimi" qəbul etməsi yadelliləri bərk qorxudur və atəşlərin təzədən alovlanıb topladıqları sərvətləri mənzil başına aparması üçün təhlükə yaratması onları bərk təşvişə salır. Əski inamın da, İslam əqidəsinin də ali prinsipini ən alçaq vasitələrə əl atmaqla belə—ataya öz doğma qızını öldürtməklə aradan qaldırmaq zərurəti ortaya çıxır. Qardaşının Babəki dar ağacına aparmasını öz qələbələri sanıb başı gicəllənən, harınlaşmış ərəb məmurlarından ötrü dünyada müqəddəs heç nə yox idi. Onlar üçün hər şeyin—insanın da, ananın da, atanın da, dinin də dəyəri yüklü dəvələrlə, qızıl kisələriylə ölçülürdü. Və Babək anasını ev dustağına çevirib xalqın son ümid çırağını söndürmək istəyirlər. Ana qucağını haqqa doğru uzanan yolun başlanğıcı, səxavətliliyi, xeyirxahlığı, ehtiyaclılara əl tutmağı müsəlmanlığın əsas şərti sayan Məhəmməd Peyğəmbərin tövsiyyələrini də unudub ancaq öz sandıqlarını dolduranlar, talançılıqla var-dövlətini artıranlar oğlun əllərini ananın və balanın al qanına boyamağa hazırdırlar. Təki ərəbin sözü işləyən yerələrə burun soxan olmasın.

Ana Aqşinin şahlığına güvənib qalan ömrünü ehtiyacsız, dünyanın naz-nemətini dada-dada keçirməyi Babəkin azadlıq ideyalarının ölməməsinə qurban verir, ocaqların söndürülməsini elin müsibəti kimi qəbul edib ataşpərəst oğlunun qaldırdığı bayrağın endirilməməsinə çalışır. Nəvəsinin həbsi ilə anlayır ki, Babəksizlik böyük bir eli kölə, dilsiz-ağızsız qul halına salıb. O, özünü məşələ döndərib həyətlərdə qurulan tonqalları yandırmaq eşqiylə yaşasa da, "əsirlik"dən çıxa, xalqı birləşdirə bilmir. Lakin əsil Ana həmişə anadır. Onun üçün övladın "acısı da bal dadır". Təsadüfi deyil ki, Babək anası son anda dönük övladının faciəsi qarşısında sarsılır. Boğazına ərəbin kəndiri keçiriləndə oğlunun halına yanır, körpəliyində olduğu kimi boynunu qucaqlayıb əzizləmək, oxşamaq, layla çalmaq istəyir.

Məhəbbətdən doğulan oğulun dönüklüyünə qarşı məkrdən dünyaya göz açan qızın dəyanəti və faciəsi. Aqşinin gəncliyində aldatdığı qız xəyanətə dözməyib özünü qayadan atır. Bəxtiyar Vahabzadənin şer və poemalarında da həyatdan üz döndərən qız və gəlinlərimizin müsibətlərinə rast gəlirik. "Dar ağacı"nda isə nakam qızdan geniş bəhs olunsa da, özü səhnədə görünmür. Ömrünün cavanlıq çağında atdığı yanlış addım Aqşini bütün həyatı boyu izləməsə də, onun hökmdarlıq həyatında dönüş yaradıb edamına səbəb olan əsas vasitəyə çevrilir. Gül kimi qoxlanıb tullanmış qadının dünyaya gətirdiyi övlad—Çılğın (xalq artisti Məleykə Əsədova) göz açandan doğmalarını itirib kimsəsizləşir, ancaq el arasında ehtiyacın nə olduğunu bilmədən boya-başa çatır, Babək ocağının istisində qızına-qızına mətinləşir.

Çılğın obrazı əsərin ana xəttinin daşıyıcısıdır. Onsuz faciə yoxdur. Doğrudur, öz xalqına dar ağacı qurduran Aqşin və Sabutay da böyük

fəlakətlə üzləşirlər. Lakin onların törətdikləri, eləcə də öz başlarına gələnlər zamanın içindən süzülüb qəflətən doğan bəla kimi göstərilir. Əslində bu faciə deyil, faciəvilikdir. Çünki Aqşinin əməlləri təbiətin zəlzələsini xatırladır. İnsanlar zəlzələlərdə nə qədər böyük tələfat versələr də, doğmalarını, yaxınlarını itirsələr də Allahın onların özlərinin ömür paylarına qıymadığı ilə təsəlli tapır, dağıntılarla, uçqunlarla, ölümlərlə, itirdikləriylə asanlıqla "barışırlar". Çılğının faciəsi isə elə bir xroniki yaraya çevrilir ki, onu illərlə sağaltmaq mümkün olmur.

Çılğın ölkədə dar ağacları qurulanda arxasız—Babəksiz qalır, məhz onda yetimliyini hiss edir və gələcəyi təhlükə altına alınır. O, yadların qılıncından çox öz doğmalarının xəyanətinə sarsılır. Ömür-gününü atasız, anasız keçirən qız Babəkin azadlıq ocağının ətrafında soyuqluğun, kədərin nə olduğunu bilmir və el şənliklərinin nəğməkarı kimi şöhrət tapır. Uşaqlıq dəcəlliyinə görə Çılğın adını alsa da, onun çılğınlığı Babəkin qurban getdiyi gündən başlanır. Ürəyini isidən tonqalları söndürənlərə qarşı amansız mübarizəyə qoşulur. Əlinə imkan düşəndə ərəb elçisinin çadırını yandırır. O, Babəkin yolunu davam etdirmək imkanına malik yeganə qüvvə tək meydana atılır. Və tale uşaqlıqda itirdiklərini təzədən qaytarmaqla Çılğını iki dəfə bərk sevindirir. Bu sevinclər ani olmaqla yanaşı onun faciəsinin bünövrəsini qoyur. Əmisi oğlu Sabutayla—pərəstişkarı Babəkin yadigarıyla və doğma atası Aqşinlə üz-üzə durur. Əslində insan üçün bundan böyük xoşbəxtlik yoxdur. Lakin Çılğının faciəsi onda idi ki, Sabutay doğma elinə yadların elçisi sifəti ilə gəlsə də, arxasında əli qınıclı, nizəli baş kəsənlər gətirmişdi. Aqşin isə özgələrin boyunduruğunu xalqının boynuna keçirmişdi.

Babək nəslində dünyanın bütün təzadları özünü əks etdirir. Bir qardaş od olanda, o biri soyuq dağ selinə dönüb onu söndürür. Babəkin məhəbbətdən—iki atəşdən doğulan oğlu Sabutay babalırının ruhunu incidib özgə əqidənin quluna dönür, Aqşinin məkrdən—buzdan və oddan yaranıb dünyaya göz açan qızı Çılğın isə əksinə, atalarının yoluna çıraq tutur. Ailəni ayıran yollar axırda bir mənzildə hamını qarşılaşdırıb üz-üzə qoyur. Lakin hər biri əks sahillərdə dayanıb boylanır, ilk-əvvəl bir-birinin qanını töküb parçalamağa hazır olurlar. Onların yenidən bağlanmaq təşəbbüsləri o qədər çox və ağır təzadlardan keçir ki, qovuşacaqlarına, arzulanan birliyin baş tutacağına ümid qalmır.

Çılğının həmişə yuxusunda gördüyü atası ən azı Babək xislətli olmalıydı. Amma əksinə çıxmışdı. Bu məsum qız fələyin başına açdığı həmin oyunla da barışmağa hazır idi. Əgər atası və əmisi oğlu xilası üçün düzlüyü danıb yalan danışmağı ondan tələb etməsəydilər. Həyat

Babək nəslini elə böyük imtahana çəkir ki, döyüş meydanlarında ölümlə dəfələrlə üz-üzə gəlib qorxusuz, alnı açıq çıxan Aqşin belə aciz, çıxılmaz hala düşür. O, üzdə qızını danmağa da, topladığı bütün sərvətləri yadların ayaqları altına səpməyə də, taxt-tacından əl çəkməyə də hazır idi, təki onun doğmasının—yeganə qızının canına qıymasınlar, həyatda qazandığı son istiliyi şaxta, don vurmasın. Çılğını ölümün pəncəsindən ala bilsin. Atəşdən, oddan törədiyini zənn edən qız isə atasının qayıdışına o halda sevinərdi ki, Aqşin hamının önündə təzədən ocağa sığınıb ona "qızım" desin. Yalnız bundan sonra dar ağacından asılmaq da Çılğına qorxulu gəlməzdi. Ancaq Aqşin son ana kimi qızını yalanla, pulla, alqı-satqı ilə xilas etməyə ümid bəsləyir. Ata ürəyini başa düşmək mümkündür. Hər bir kəs həmin vəziyyətdə bütün vasitələrə əl atardı ki, balasının dar ağacına gedən yolunun qarşısını kəssin. Axı, Aqşin başında padşahlıq tacı gəzdirirdi, fərman sahibiydi, əlində möhürü vardı. O, hər kəs deyildi. Xilafət qarşısında göstərdiyi xidmətlərə görə bir qızın günahlarını bağışlamaq böyük itki sayılmamalıdı. Ağaların ən ülvi hisslərini də əlindən almaqla Aqşini paslı silah sayıb zir-zibil içinə tullamağa hazırlaşırdı. Və yadların onu dəhşətli üsulla sınağa çəkməsi (ərəblər şərt qoyurlar ki, ya elçinin çadırını yandıranın doğma qızı olduğunu boynuna alıb xəlifəyə düşmən kəsildiyini etiraf etsin, ya da günahkar qızın edam fərmanını imzalasın) göstərir ki, haqqa haqqı tapdalamaqla çatmaq olmaz.

Həyatda düzlüklə yaşamağı Babəkdən öyrənən Çılğın isə mənəvi ucalığın zirvəsinə qaldırılır. O, görür ki, atasının başının üstünü qara buludlar alıb. Aqşin həqiqət yolunu tutsa da, yalana əl atsa da ərəbin qarşısında alçalmalıdı. Onu diz çökdürmək niyyətindədirlər. Çılğın atasının düşmən qarşısında etirafının, sınmasının qabağını almaq üçün zindanda özünü öldürür. Özü də doğmasının silahıyla. Qız Aqşinin düşmənə tuşlanan xəncərini yerdən götürüb gizlətmişdi və məhkəmə zamanı həmin əyri xəncəri öz əlləri ilə ürəyinə sancmaqla elə zənn etmişdi ki, ata qolları boynuna dolanır. Çılğın təkcə yadlara deyil, öz soyundan olan yadlaşanlara da ibrət dərsi verir. Haqqa dönüş yolunun ancaq doğruluqdan keçdiyini göstərir. "Dar ağacı"nı dram janrının bir forması kimi faciəyə çevirən hadisələr məhz Çılğının ölümüylə təzahür edib Aqşinin edamıyla tamamlanır.

Anadan yad doğulanlar. Bəzilərini mühit, düşdüyü şərait, özgələrin əqidəsinin gur işığı kor edib yadlaşdırır. Onların təzədən doğmalaşmasına, həqiqətə dönüşünə, kökə qayıdışına az da olsa ümid var. Ancaq elələri də var ki, anadan yad doğulur. Ana südü yerinə kimlərin-

sə şirin çayda isladılan çörəyini yeyir və özgələrin qoltuğunda bəslənir. Onların dini, məhzəbi bilinmir. Belələrinin təsəvvüründə "özününkü" məfhumu yoxdur. Dünyada hər şey bir boyda və eyni rəngdədir. Və hər şey şəxsi mənfəətdən keçir. "Dar ağacı"na doğru uzanan yolları təmizləyən İbn Tahir (xalq artisti Rafiq Əzimov) körpəliyindən ana laylasını deyil, hiyləni, alıb-aldatmağı, şeytana papış tikməyi qulaqlarında sırğa eləmişdi. Yeri gələndə ərəbləri xürrəmilərə, xürrəmiləri isə ərəblərə çox ucuz satan bu cılız məxluq qılıncın işi tamamlanan andan bicliyi ilə siyasət səhnəsinə atılır. Aqşinin qanadının altında hörmət-izzət sahibi olmasına baxmayaraq, öz zamanının yetişdiyini görüb fürsəti əldən vermir. Ağlın köməyinə arxalanıb bütün maneələri adlayır. İlk olaraq sarayda qarşısını kəsən Sabutayı və Aqşini ləkələyib sıradan çıxardır. Sonra ərəblərin özü arasında nifaq toxumu səpməklə mövqeyini daha da möhkəmlədir. Çünki zaman İbn tahirlərin meydan sulaması ilə yerində sayırdı. Gah müsəlman cildinə girən, gah da xürrəmi kimi ocağın oduna qızınan İbn Tahir xəlifənin bağışladığı qılıncın əldən çıxmasını belə o qədər də böyük itki saymır. Çünki o, qılıncın görə bilmədiyi işləri fırıldaqla, aldatmaqla, satqınlıqla, məkrlə çox asan yerinə yetirirdi. Ona görə ki, artıq qılıncın dövranı bitmişdi.

İbn Tahir elin ən gözəl qızlarını lüt-üryan İbn süheyllərin ağuşuna atmaqla mənsəb mərtəbələrini ələ keçirib iki əqidənin— atəşpərəstliyin və islamın ölüm-dirim savaşından faydalanır, Azərbaycanın hökmdarlıq taxtında əyləşdirilir. Millətin əsil faciəli günləri bundan sonra başlanır. İbn Tahir hiylələrinin üstü açılanda da tülkülüyündən əl çəkmir. Çünki yaltaqlana-yaltaqlana imtiyaz sahiblərinin bütün nöqsanlarını öyrənmiş, gizli sirlərini açmışdı. Quyruğu basılan andaca bildiklərini ortaya atıb güzəşt tələb edirdi. Ən böyük məqsədi isə birbaşa xəlifəyə yarınmaq idi. Siyasətdə ikiüzlülük bəlkə də İbn tahirlərlə özünü təsdiqləyib və bu gün də dünya ölkələrinin yaxasını buraxmır. Şair bildirmək istəyir ki, anadan yad doğulanları cəmiyyətdən vaxtında kənarlaşdırmasalar, elə bəlaya çevrilərlər ki, haqqla nahaqqın yeri səhv düşər. Ədalətin mizan tərəzisi itər. İbn Tahirin mənəvi boşluğu qarşısından Aqşinin, Sabutayın dar ağacları belə əhəmiyyətini itirir.

Doğmaların yad qılıncına ehtiyacı varmı? İnsanları öz arxasınca aparan sərkərdəni aradan götürməklə bir milləti o vaxt sındırmaq, diz çökdürmək olar ki, el-obada əqidə birliyi, inam yeri yoxdur, hər tayfanın bir istinad nöqtəsi var. Babəksiz Azərbaycanın tarix səhnəsindən silinmək təhlükəsi dar ağaclarının çoxluğunda deyildi, eləcə də söndürülən ocaqların acı tüstüsünü üfürməklə təzədən alovlandırmaq mümkün

idi. O vaxt hər şeyin sonu yetişərdi ki, yerə düşən bayrağı başqası qaldırıb dalğalandırmayaydı. Bəxtiyar Vahabzadə tamaşaçıda böyük ümidlər oyadır. Babəkin yoxluğunu xalq ürək ağrısı ilə qarşılasa da, mübarizə əzmini itirmir. Altay (Kazım Həsənəliyev), Ağsaqqal (əməkdar artist Məcnun Hacıbəyov) obrazları göstərir ki, hələ savaş davam edir, yadlaşanların qılınclarını qınlarında pasladan başqa babəklər yetişəcək. Çünki el İbn tahirlərin tülkülüyünə yaxşı bələddi. Hiylə ilə camaatı yolundan döndərmək o qədər də asan olmayacaq.

Yadların çaldığı havalar. Azərbaycanı ərəblərə təslim edən Aqşin bilmirdi ki, hətta tapınan inancın, əqidənin deyil, xalqının üzərinə qaldırdığı qılıncıyla bir ovuc ərəb qəsbkarlarının xidmətində durur. Və o vaxt ayılır ki, meydanın ortasında tək-tənha qalır. Doğmalarına arxa çevirdiyindən onlar ondan əllərini üzüb həmişəlik üz döndərmişdilər. Xidmətində duran yaltaqlar isə onu üstələmək niyyətinə düşmüşdülər. Aqşinin məğlubiyyətinin səbəbi onda idi ki, xəlifənin adamlarının dövlətə xəyanətinə göz yummuşdu. Taxt-tacını aldatmaqla və satın almaqla qorumaq istəmişdi. Yeni dinin əsiri olub millətinə qənim kəsilmişdi. Əslində özünü sərkərdəlikdən vergi toplayana, soyğunçuya çevirmişdi. Hər şeyi dərk edəndən sonra geriyə yol tapmadıqda onun yadların çaldığı havalara oynamaqdan başqa əlacı qalmır.

İbn Zeyd (xalq artisti Valeh Kərimov) xəlifənin göndərdiyi fərman və bəxşişlərlə ərəb dövlətinin ucqarlarda mövqeyini möhkəmlətmək əvəzinə eldən toplanan malların bir hissəsini ələ keçirir. Cinayətin üstü açılmasın deyə yerli yadlar arasında nifaq toxumu səpir. Lakin Aqşini qurduğu tələyə salmaqla yanaşı, özü də dərin bir quyuya düşür. Apardığı ikibaşlı oyunlarda acgözlüyünün qurbanı olub əsir alınır.

İbn Süheyl (əməkdar artist Elxan Ağahüseynoğlu) ondan da miskin, qəddar və sərvət düşgünüdür. Başçılıq etdiyi əyalətlərdə casuslar saxlayıb topladığı məlumatlardan öz xeyrinə faydalanır, böyük bir xalqın taleyini sifəti hər dəqiqə dəyişən vicdansız adamlara tapşırır. Qarətlərdən, insan qətllərindən xüsusi ləzzət alaraq Azərbaycanda daşı daş üstə qalayır. İnsanların fəlakətinə, axıdılan qanlara qəhqəhəylə yanaşan əyyaş İbn Süheylin bir amalı var. O da qardaşı qardaşa, atanı balaya qarşı qoymaqdır. Onun məqsədi odur ki, yer üzündə haqqın, ədalətin izi-tozu qalmasın, təki ərəbin istədiyi yerinə yetsin, yerdə qalanlar Allahın dilsiz-ağızsız qullarıdı. Azərbaycan əhalisi də xilafətə boyun əymədiyi üçün tamam qırılmalıdı. Çünki iyirmi beş il ərəbin şimala və qərbə uzanan əllərini kəsib. Öz millətinə yadlaşanlar cızığından çıxanda İbn Süheyl daha qəddar görünür, heç bir güzəştə getmir. Bilir ki, doğmalarının

başının üzərinə qaldırılan qılınc yerə düşən kimi onu cəld başqası qapacaq. Necə ki, Sabutayın ayaqlar altına atdığı xəlifə hədiyyəsini Yarqıtay yerdən qaldırıb öpür və öz doğmalarının başını kəsməyə hazır olduğunu nümayiş etdirir.

Tarixilik və müasirlik. Tarixi mövzuya müraciət edən hər bir sənətkar, məlum məsələdir ki, keçmişin hadisələrinə bu günün pəncərəsindən boylanır, üz tutduğu dövrlə bağlı nə qədər dərin və tutarlı məlumata malik olsa da, istər-istəməz canlandırdığı obrazları müasirlərinin timsalında yaradır, başqa sözlə, uzaq keçmişi təsəvvürə gətirmək imkanı olmadığından o dövrdəki insanların bir-birinə münasibətini, davranışını, əxlaqını, həyata baxışını, ilk növbədə, tanıdığı, bildiyi, gözüylə gördüyü adamlarla müqayisədə meydana gətirir. Bu mənada bizim günlərdə yazılan hər bir tarixi mövzulu əsərdə keçmiş, daha doğrusu, tarix görünən tərəfdir, geyimlərin, məkan və zaman ardıcıllığının, hadisələrin xronoloji davamının, yer və şəxs adlarının qədim dövrlə səsləşməsi, görüş və ayrılıqların, edam və xilasolmaların, döyüş və məğlubiyyətlərin üst-üstə düşməsi hələ həmin çağların tam mənzərəsinin yaradılması deyil. Əsas odur ki, o çağların modelini—insanların düşüncə tərzini, dünyanı dərketmə səviyyəsini, baş verənlərə reaksiyasını, əxlaq və etik normaları (bu, mifologiyada "mifik dünya modeli" adlanır) düzgün verəsən. Əlbəttə, bunları tam dəqiqliyi ilə müəyyənləşdirib canlandırmaq, açmaq mümkünsüzdür. Çünki beyinlə, təfəkkürlə, şüurla bağlanan əlamətlər öz cüzi izlərini təkcə yazı və rəsm vasitəsilə bizə çatdırmışdılar. Elə düşən məlumatlar bəsit və çox hallarda birtərəfli olduğundan (məsələn, ərəb yazılı mənbələrində Babəklə bağlı qeydlər ancaq İslam tərəfdarlarının, yaxud xilafətin mövqeyini ifadə edir) dövrün fikir axarını bütövlükdə əks etdirmir. Deməli, deiylənlər barədə yalnız həmin zamanların yazılı abidələrinə istinadən müəyyən təsəvvür yaratmaq olar. Yazıçılar keçmişə üz tutanda əslində tarix pərdəsi altında öz yaşadıqları dövrün modelini verirlər. Tarix əksər hallarda qələm ustalarına ibrət üçün lazım gəlir. Bəxtiyar Vahabzadənin də son dövrlər Azərbaycan və türk tarixinin müxtəlif çağlarına üz tutmasının səbəbi məhz bu günümüzü keçmişin aynasında göstərməkdir.

Cəmiyyət yaranandan hökmdarlar da olub, yaltaqlar, yadlar, yadlaşanlar da. Öz "çanağını bəyənməyən"lər bü gün də özgələşməkdə davam edirlər. Və mənsəbdən ötrü hakimiyyətin baş kürsüsündə oturan iqtidarlara yarınanlar Aqşinin aqibətinə baxanda, sözsüz, sabahları barədə düşünməlidirlər. Çünki onlar da əl-ayağa dolaşanda yerlərini başqa yaltaqlar tutacaq və onda gərəksiz adam kimi cəzalanacaqlar. Lakin

şairin məqsədi müasirliklə tarixi hadisələri əlaqələndirməkdə təkcə iqtidarlara yaltaqlananları sabahını düşünməyə çağırmaqla məhdudlaşmır. O, xalqa başa salmaq istəyir ki, yadlaşanların günü-gündən çoxalması gələcəyimizi uçuruma aparır. Elə dəhşətli hadisələr baş verə bilər ki, dünənə şükür deyərik. Qardaş qardaşa, oğul ataya, arvad ərə qarşı çıxarsa, ürəklər buz bağlayar, düşməni kənarda yox, sıralarımızda görərik.

Dar ağaclarının iş görə bilmədiyi, tükəndiyi yerdə tülkülük başlanır. Aqşinin gücü qılıncdadır, İbn Tahirinki isə hiylə və ağlında. Maraqlıdır ki, xitlafət millətin vurub-kəsən qolunu və hiyləylə-məkrlə köklənən beynini əlindən alıb öz xeyrinə birləşdirməyə can atır. Nəticədə ağıl gücə üstün gəlir. Doğrudur, xəlifənin bağışladığı qılıncı Aqşini əvəz edən İbn Tahirin əlindən alırlar. O, hakimiyyəti qılıncsız elə keçirir. Onun hiyləsi, məkri nə qədər çox və güclü olsa da, əli silahsızdır. Ona görə də ancaq sözlə baş kəsmək məcburiyyətində qalır.

Faciə belə bir sorğuya cavab axtarışıyla tamamlanır: görəsən yadlaşanların əlindən aldıqları düşmən qılıncıyla altaylar, domrullar tülkülüyün kökünü kəsə biləcəklərmi?

6-10 yanvar 2001-ci il

İnqilab KƏRİMOV,
sənətşünaslıq doktoru, professor

GÖYTÜRK XAQANLIĞININ İSTİQLAL MÜBARİZƏSİ

Azərbaycan Akademik Milli Dram Teatrının "Özümüzü kəsən qılınc" tamaşası barədə

Xalq şairi, Dövlət mükafatı laureatı Bəxtiyar Vahabzadənin "Özümüzü kəsən qılınc" adlı tarixi dramı xalqımızın gələcəyi üçün narahat vətəndaş-dramaturq qəlbinin döyüntülərindən xəbər verir. Pyesdəki hadisələr 1368 il bundan əvvəl türk elində cərəyan edir.

Əsər əsarətə qarşı çıxan, yadelli işğalçılara qarşı mübarizəyə qalxan xalqın istək və arzularının, idealının təcəssümü kimi səslənir. Əqidə sarsılmazlığı, dönməzlik, vətənpərvərlik, cəsarət və mənəvi yenilməz-

lik bu əsərdə və tamaşada olduqca aktual və müasir səslənir. Bir-biri ilə bağlanan hadisələr, söylənilən fikir və ifadələr, obrazların rəftar və niyyətləri o qədər təbii və təsirlidir ki, tamaşaçı səhnədə gördüyü Çin-Göytürk münasibətləri, çəkişmələri, vuruşları fonunda gözləri önünə 1988-ci ildən bəri neçə-neçə fəlakət və faciələrlə üzləşən xalqımızı, torpağımıza edilən erməni təcavüzünü gətirir.

Tamaşanın quruluşçu rejissoru, əməkdar incəsənət xadimi Ağakişi Kazımovun da işi yalnız rejissorluq qabiliyyətinə, nikbin əhval-ruhiyyəli, monumental, tarixi qəhrəmanlıq tamaşası yaratmaq bacarığına görə deyil, həm də məhz xeyrin şərə nisbətən çox güclü olduğunu göstərmək iqtidarına görə müsbət qiymətləndirilməlidir. O, tamaşa yaradıcıları ilə əlbir yaradıcılıq səyi nəticəsində müəllif fikrinin tamaşaçıya dəqiq və aydın çatdırılmasına çalışmışdır.

Respublika prezidenti Heydər Əliyev "Özümüzü kəsən qılınc" tamaşasına baxdıqdan sonra əsərdən və tamaşadan məmnun qaldığını bildirərək demişdi: "... Bu əsərin xüsusiyyəti ondan ibarətdir ki, burada hansı rolun baş rol olduğunu demək çətindir". Ustad bir teatrşünas kimi söylənilmiş bu fikrin məna və mahiyyəti olduqca dərindir. Mənə elə gəlir ki, burada söhbət həm əsərin, həm də tamaşanın bitkin dramaturji quruluşundan, ansambl bütövlüyündən gedir. Obrazlar bədii materialla həm taraz yüklənmiş, həm də tamaşada mükəmməl ansambl vasitəsilə əsas məqsədin, **"Türkün gücü onun birliyindədir"**—fikrinin həyata keçirilməsinə xidmət edir. Rejissor tamaşanı klassik üslubda qurub. Ağac öz kötüyü üstə dayanıb, qol-budağı isə ətrafa şaxələnib, yəni əsərdəki hadisələr tarixi qatda saxlanılıb, onlar VI—VII əsrlərdəki Göytürk özülü üzərində qurulsa da, onda müasirlik ruhu da var. Rejissor müəllif fikrini nəinki şərh edib, həm də onun inkişafına çalışıb. Rejissor tamaşanın bu günlə daha yaxşı səslənməsi üçün əsərin konfliktini, kompozisiyasını və ana xəttini əsas hadisələr xətti ilə bağlı şəkildə açmaqla, obrazların bir-birinə olan münasibətlərini, rəğbət və nifrətlərini müəyyən edən məqamları aydın göstərməyə çalışmışdır. Quruluşçu rejissor bədii tərtibatdan da, musiqidən də yerli-yerində istifadə etmişdir.

Tamaşa uğurlu aktyor ifası ilə də nəzəri cəlb edir. Xalq artisti Ə.Qədirovun yaratdığı Qara Xaqan obrazı bütün hadisələrin, vəziyyətlərin keçid nöqtəsində dayanır, bütün obrazların arasında gedən konfliktdə, bu və ya başqa formada iştirak edir. Qara Xaqan canidir, qardaş qatilidir, taxt-tac əsiridir, şöhrət düşkünüdür. Elə buna görə də Göytürk xaqanlığını dağıtmaq niyyətində olan Çin imperiyası Çuluq Xaqanın öldürülməsi üçün ondan bir vasitə kimi istifadə edir. Xaqan ol-

duqdan sonra o, nəinki ölkənin vəziyyəti, xalqın güzəranı ilə maraqlanmır, əksinə, xaqanlığa vəliəhd olan iki qardaş arasında intriqa yaratmağa və bu yolla onları aradan götürməyə, öz hökmdarlığını möhkəmlətməyə çalışır. Qardaşı Çuluq Xaqanın vaxtilə əliəyrilik, dələduzluq üstündə işdən qovduğu Salur xanı yenidən ölkənin xəzinədarı təyin edir. Qaynı Yan Çunqu əzizləyir. Hətta onu orduda yüksək rütbəyə çatdırmağa çalışır. Ə.Qədirov obrazı müstəqim yolla aparır, bədii materiala əsaslanaraq təsvirə üstünlük verir. Hətta daxilində xeyirlə şərin timsalı kimi göstərilən Mələk və Şeytanla görüşdüyü anlarda da Ə.Qədirov obrazın müstəqilliyini saxlayır. Qardaşı oğlu, həm də kürəkəni Gurşadla ilk söhbətlərində, qızı Selcanın onu ittiham etdiyi anlarda, Muvi Tərxanın onunla razılaşmadığı məqamlarda belə Ə.Qədirov Qara Xaqana elə bil ki, hər vəchlə haqq qazandırmağa çalışır.

Tamaşada Mələk və Şeytan yalnız Şərə daha çox üstünlük verən obrazların əhatəsində dolaşır, onları müşayiət edirlər. Aslan Şirinov (Şeytan) və Mətanət Atakişiyeva (Mələk) öz rollarının öhdəsindən bacarıqla gəlirlər.

Xalq artisti R.Mələk Tulu xanı bütün əqli və mənəvi ziddiyyətləri ilə tamaşaçıya təqdim edir. Tulu xan ilk səhnədə atasının intiqamını almaq istədiyini söyləsə də, qardaşı Gurşadı da bu işə təhrik etməyə çalışsa da, əslində bu intiqam, hər şeydən əvvəl, vəliəhdlik haqqına çatmaq, taxt-taca yiyələnmək üçün bir vasitədir. Aktyor obrazı daxilən təşəkkül prosesi keçirən, dəyişən, dinamik bir obraz kimi yaradır. "Özümüzü kəsən qılınc" tamaşasında Göytürk dövlətinin istiqlalı uğrundakı mübarizədə əsl qəhrəmanlıq nümunəsi göstərən obraz Gurşaddır. N.Məhdixanlının yaratdığı Gurşad obrazı sinəsində xalqına məhəbbət dolu bir ürək gəzdirən, vətənin xoş sabahı, azadlığı üçün canını belə əsirgəməyən, təmizürəkli, mərd, cəsarətli, mənəvi-əxlaqi keyfiyyətlərə malik bir gəncdir. Bütün bu cəhətlər aktyorun ifasına epik qüvvə və estetik bir keyfiyyət verir.

Gurşadın daxili bütövlüyünü, əxlaqi təmizliyini, qəhrəmanlığını sevən bir qadın qəlbinin hərarəti ilə qiymətləndirən Selcan rolunda aktrisa Məleykə Əsədova duya-duya çıxış edir. Əri Gurşadın qəhrəmanlığını, şücaət və cəsurluğunu, Vətənin istiqlalı yolunda döyüşlərdə fədakarlıq nümunəsi göstərdiyini görən və bunu yüksək qiymətləndirən Selcan — M.Əsədova gözəl, ismətli, həm də şər qüvvələrə qarşı cəsarətlə çıxış edən gənc bir qadın obrazını tamaşaçılara sevdirir. Selcanın atası ilə ilk görüşü, Divan məclisi səhnəsində onunla ikinci və son görüşünü aktrisa daxili bir qüvvətlə ifa edir.

Əməkdar artist Zemfira Nərimanovanın Banuçiçək obrazı da yaddaqalan ştrixlərlə yaradılmışdır. Aktrisa Banuçiçəyin xislətindəki ən gözəl cəhətləri açıb göstərir. O, yaxşı ana, ləyaqətli qadın, qeyrətli vətəndaş, həm də cəsur döyüşçü kimi nəzəri cəlb edir.

Mubi Tərxan rolunu əməkdar artist Rafiq Əzimov ifa edir. Onun dediyi sözlərlə yanaşı, hərəkətləri, baxışı, mimikası da hadisələrə və obrazlara münasibətini aydın göstərir. Qara Xaqanın səhvlərini söyləyən bu müdrik, elsevər qocanın ürək döyüntülərini aktyor yaxşı duyur.

Əməkdar artist Laləzar Mustafabəylinin də ifası nəzəri cəlb edir. Aktrisa düşünülmüş oyunu ilə Selcanın ona dediyi "Casusluqla Xatunluğu məharətlə birləşdirirsən" sözlərini tam təsdiqə yetirir, obrazın iç üzünü açır. L.Mustafabəylinin İçgen Xatun obrazının yerişində isə bir böyüklük, hökmdarlıq iddiası, özünün gözəlliyini nümayiş etdirmək, həm də casuslara məxsus bir astagəllik vardır. Bütün bunlar obrazın məkrli aləmini, hiyləgər xislətini yaxşı açıqlayır.

Əməkdar artistlər Məcnun Hacıbəyovla (Salur xan) Elxan Ağahüseynoğlu da (Çin zibiti) tamaşanın ümumi ansamblında öz layiqli yerlərini tuturlar. Ancaq hər iki aktyorun ifasında komizmə meyl hiss olunur. Yon Çünk rolunda Aydın Əliyev, Arslan — Kazım Həsənquliyev, Erkin — Elxan Quliyev və başqa ifaçılar da öz ifalarında səliqəyə, bədii materialın təsvirinə fikir verirlər.

Əlbəttə, bu dəyərli tamaşa nöqsanlardan da xali deyildir. Əvvəla tamaşanın ümumi səhnə mədəniyyətinə irad tutmaq olar (hətta bir də görürsən ki, Qara Xaqanın hüzurunda duran sərkərdə əlini belinə vurub). İfaçıların danışıq və tələffüzündə tamaşaçını razı salmayan hallar nəzərə çarpır. Ədəbi materialın təsvir yolu ilə söylənilməsinə meyl güclüdür. Sözlərin deyilişi, tələffüzü, ahəngi, eləcə də mimika və jestlərlə obrazın mövcud psixoloji vəziyyətinin, fikir və düşüncəsinin, daxili niyyətinin açıqlanması lazımi səviyyədə deyildir. Bəzi aktyorlar öz xarici görkəminə, müəyyən səhnə təcrübəsinə arxayın olub yersiz ədalara, məşrut hərəkətlərə, patetikaya uyur. Belə hallarda da o, ifa etdiyi obrazın xarakterini, dramaturji mövqeyini, düşdüyü vəziyyəti ağlı ilə düzgün duysa da, bu duyğuda dərin emosional təsir deyil, yalnız xarici səliqə və görkəm görünür.

"Özümüzü kəsən qılınc" əsəri və tamaşası respublikamızın ədəbi və mədəni həyatında gözəl, əlamətdar bir hadisə, Akademik Milli Dram Teatrının yaradıcılıq işindəki böyük uğurlardandır.

"Panorama" qəzeti, 9 iyun 1998-ci il.

Bəkir NƏBİYEV,
akademik

"ÖZÜMÜZÜ KƏSƏN QILINC"

Akademik Milli Dram Teatrı ecdadlarımızın ilk möhtəşəm inzibati qurumlarından biri olan Göy Türk dövlətinin 1450, Azərbaycan Demokratik Cümhuriyyətinin 80 illiyini əlamətdar yaradıcılıq uğuru ilə qeyd etmiş, xalq şairi "İstiqlal" ordenli Bəxtiyar Vahabzadənin "Özümüzü kəsən qılınc" faciəsini müvəffəqiyyətlə tamaşaya qoymuşdur.

Qədim tariximizin, o cümlədən də dövlətçilik təcrübəmizin son dərəcədə maraqlı məqamlarından birinin üzərindən pərdəni qaldırıb çağdaş cəmiyyət üzvlərinə göstərmək özü-özlüyündə böyük yaradıcılıq və vətəndaşlıq hünəridir. Lakin Bəxtiyar Vahabzadə tarixi yaxşı bilsə də indiki halda tarixşünaslıq sahəsində elmi əsər yazmamışdır. Dramaturqun bir yaradıcı şəxsiyyət kimi daha böyük hünəri ondadır ki, xalq taleyinin çox mühüm bir problemi haqqında tarixin konkret bir mərhələsində baş vermiş ibrətamiz hadisələr və fəaliyyət göstərmiş görkəmli şəxsiyyətlər haqqında məhz ədəbi əsər yazmış,sanballı mətləbləri canlı surətlər, həyati konfliktlər əsasında bədii, obrazlı sözün qanadlarında səhnəmizə gətirmişdir.

Bu mövzuya muraciət, bir qədər geniş mənada götürdükdə, Bəxtiyar Vahabzadənin yaradıcılığı üçün heç də yeni hadisə deyil. Millilik, türkçülük, azərbaycanlılıq yaradıcılığının, demək olar ki, bütün mərhələlərində, o cümlədən də düşmənlərimizin uydurduğu pantürkizm ideologiyası Domokl qılıncı kimi başımızın üstünü kəsdirdiyi, sosializmin siyasi qadağalarının tüğyan etdiyi illərdə B.Vahabzadənin aparıcı mövzularından biri olmuşdur. O, bəzən açıqdan-açığa, çox vaxt da sətiraltı mənalar və eyhamlarla tariximizin şanlı səhifələrini, türk varlığımızı, milli Azərbaycan xarakterinin gözəlliklərini, ana dilimizin sehrini, muğamlarımızın ecazkarlığını yorulmaq bilmədən tərənnüm etmiş, böyük dövlətlərin, imperiyaların ölkəmizə qarşı apardığı qəsbkarlıq siyasətinin mahiyyətini ifşa etmiş, bədii sözün imkanları dairəsində onların dayaqlarını sarsıtmışdır.

... Göy Türk xaqanlığının yerləşdiyi Ötükəndə böyük el şənliyidir. Xalq özünün xarici təcavüz üzərində qələbəsini bayram edir. Bu qələbənin əldə olunmasında xüsusi xidmətlər göstərmiş Gur Şadı hami

hərarətlə təbrik edir. Minbulaq ellərinin hökmranlığı fərmanla bu qəhrəman sərkərdəyə verilir. Lakin aşıb-daşan qələbə sevinci konfliktin ilk düyünlərini ört-basdır edə bilmir. Məlum olur ki, Qara Xaqan Çin şahzadəsi İçken Xatunun təhrikilə öz doğma qardaşını — ölkənin qanuni hökmdarını (Gur Şadın atasını) öldürüb onun arvadı ilə evlənmiş, bununla da qonşu ölkənin imperatorunun iradəsini yerinə yetirmiş, taxta özü çıxsın deyə türk ellərini yadların qapazaltısına çevirmək kimi şərəfsiz bir yola qədəm qoymuşdur. Qanuni hökmdarın öz arvadı və doğma qardaşı tərəfindən öldürülməsi, sonuncuların taxta sahib olub izdivac etməsi və mərhumun oğlunun həqiqət axtarışları konfliktin başlanğıc nöqtəsi kimi ilk dəfə deyil ki, ədəbiyyata gətirilir və bunun klassik nümunəsinə biz hələ "Hamlet"də rast gəlmişdik. Lakin V.Şekspirlə B.Vahabzadənin əsərləri arasında tipoloji səsləşmə bununla da bitir. Çoxşaxəli süjet tamam təzə motivlər əsasında, yeni zəmində, dünyanın əks bir qütbündə, tam başqa bir milli-psixoloji iqlim şəraitində inkişaf edib dərinləşir, yeni həyata cizgilər kəsb edib gərginləşir. Vaxtilə mərhum xaqanın əlilliyi üstündə işdən qovduğu xəzinədar Salur xan xəyanətin nəticələrini ört-basdır etmək və xainlərin sonrakı əməllərində onlara kömək məqsədilə vəzifəsinə bərpa edilmişdir. O da öz növbəsində heç bir təqsiri olmayan qalib sərkərdənin guya dövlət pulunu mənimsəməsi kimi ağlasığmaz böhtan uydurur və öz əlaltılarını da başına toplayıb məhkəmədə Gur Şadın əleyhinə ifadə verir... Qara Xaqan taxt-taca qanuni namizəd olan iki gənc, bir qədər də dəli-dolu şahzadə arasında İçken Xatun və digər Çin misyoneri Yanq Çunun əlilə nifaq salıb öz mövqeyini möhkəmləndirmək üçün qabıqdan çıxır...

"Kölgədə yatanın kölgəsi olmaz" deyiblər. Yalnız öz rəyasət qayğıları ilə yaşayan, başqa dövlətin əli ilə taxta oturdulan, buna görə də yad imperatorun qoltuğuna sığınan Qara Xaqandan dişində şirə qalmış Çin hökmdarı indi də Göy Türk dövlətinin Ana yasasını ləğv etmək, onun siyasi müstəqilliyinə son qoymaq, yad dili bu ölkəyə rəsmi dövlət dili kimi qəbul etdirmək, türkləri assimilyasiya etmək məqsədilə özünün yüz minə yaxın təbəəsini Göy Türk ölkəsində yerləşdirmək niyyətinə düşür. Lakin daş qayaya rast gəlir. Dulu xan və Gur Şad, kişili-qadınlı bütün el-oba ayağa qalxır, qəsbkarların ruhumuzu, mənəviyyatımızı işğal etməsinə yol vermirlər.

"Özümüzü kəsən qılınc" tamaşasında qaldırılan əsas problemlərin xalq üçün, cəmiyyət üçün çox gərəkli və aktual olması barədə düşünərkən hörmətli prezidentimiz cənab Heydər Əliyevin bu əsərin ilk tamaşası axşamı dediyi bəzi mülahizələr xəyalımda canlandı. O, haqlı olaraq

hesab edir ki, 1450 il bunlan əvvəl baş vermiş bu hadisələrdən təssüf ki, indiyə qədər nəticə çıxarılmamışdır. Hakimiyyətdən ötrü nələr etmirlər! Həyatımızın son ilini, Ermənistanın Azərbaycana təcavüzünün başlanmasından indiyə qədər olan dövrünü götürsək, bizim məğlubiyyətimizin və torpaqlarımızın bir qisminin işğal olunmasının səbəbi yalnız daxilimizdəki çəkişmələr, toqquşmalar, hakimiyyət davası və bütün bunlardan erməni işğalçılarının istifadə etməsidir. 1450 il əvvəl də belə olmuşdur. Bu, bəladır. Biz heç olmasa indi ayılmalıyıq, nəticə çıxarmalıyıq. "Özümüzü kəsən qılınc"ın konflikti barədə fikirləşərkən 40—50-ci illərin Azərbaycan dramaturgiyası da içində olmaqla bütün sovet səhnə sənətini bürümüş bədnam konfliktsizlik xəstəliyi yadıma düşdü. O zaman konflikti dramaturgiyadan elə qovmuşdular ki, gündüz çıraqla tapmaq olmurdu... Mətləbə keçək. B.Vahabzadənin "Fəryad", "Yağışdan sonra", "İkinci səs", "Hara gedir bu dünya?" əsərlərində olduğu kimi "Özümüzü kəsən qılınc" tarixi-ictimai faciəsində də konflikt çox güclüdür, əslində bu əsərin hər şəklində ayrıca bir pyesə material verəcək qədər dramatik kolliziya mövcuddur. Müəllif və rejissor bunların hamısını ümumiləşdirib xalqın istiqlalı ilə bəzi nadanların hakimiyyət ehtirası, rəyasət çılğınlığı arasındakı konflikti əsas götürmüş, bütün hadisələri onun ətrafında qütbləşdirmişlər.

Əsərin faciə janrında yazıldığına, Göy Türk xanədanının dağılmasını əks etdirdiyinə baxmayaraq, tamaşa onu görənlərə nikbin notlar aşılayır. Çünki daxili çəkişmələr, xəyanətlər, təxribatlar, xarici təhdidlər nəticəsində dağılan ilk türk səltənətinin xərabələri üzərində biz yeni türk xaqanlığının əsasının qorunmasının da şahidi oluruq.

"Özümüzü kəsən qılınc"ı həyatının müdrik çağını yaşayan el ağsaqqalı Bəxtiyar Vahabzadənin öz oxucu və tamaşaçıları ilə, bütün həmvətənlərilə ərkyana dialoqu adlandırmaq olar. Bu böyük istedadın bundan sonra da hələ uzun illər yeni əsərlərilə bizi sevindirəcəyinə ürəkdən inanıram. Lakin xalqla belə gərgin dramatik dialoq onun məhz bu əsərində artıq baş tutmuşdur. Müəllif heç kəsə əxlaq dərsi demək fikrində deyil. O, tariximizi, taleyimizi, psixologiyamızı, iç dünyamızı sənətin möcüzəsi ilə bizə göstərir, nəticə çıxarmağı da özümüzə həvalə edir. Bu dialoqun mahiyyətini alıb, onu müvəffəqiyyətlə səhnə dilinə çevirən rejissor Ağakişi Kazımov uğurla seçilmiş aktyorların cazibədar oyunu ilə bu dialoqun təsir dairəsini daha da vüsətləndirməyə nail olmuşdur. Tamaşa bizi sözün yüksək mənasında bu böyük həqiqətə dönə-dönə tapındırır ki, səltənətin, dövlət müstəqilliyinin iki atributuna həmişə ciddi surətdə əməl edilməlidir. Onlardan birincisi xalqın vəh-

dətidir. Heç vaxt yol vermək olmaz ki, ölkənin dövlət müstəqilliyi daxili çəkişmələr nəticəsində sarsılsın və buna haqlı olmayan uzurpatorlar qeyri-qanuni, şərəfsiz yollarla hakimiyyətə çatıb xalqın, vətənin taleyini öz xudbin ambisiyalarına qurban versinlər (Bunu hüquqi demokratik dövlət quran ölkəmizdə parlament vasitəsilə aparılan mübarizə ilə qarışdırmamalı). İkincisi isə xalqın hakimiyyət olimpinə xalqa yad ünsürlərin canfəşanlıqla çıxmaq təşəbbüslərinin qarşısını dərhal almağın zərurətidir. Bu çox mühüm tarixi-ictimai inamlar, həqiqətlər əsərdə və tamaşada həyati bədii obrazların əməllərində öz təsdiqini tapmışdır.

Əməkdar incəsənət xadimi, təcrübəli rejissor Ağakişi Kazımovun səhnə şərhi və onu tamamlayan quruluşçu rəssam İsmayıl Məmmədovun yığcam, lakin seçmə səciyyəvi əlamətlərilə hazırladığı dekorlar əlvan mənalı Çin və Göy Türk dövlət atributları, o dövrün zövqünü və hərbi qarşıdurmanın tələblərini əks etdirən paltar və silahlar, əməkdar incəsənət xadimi Cavanşir Quliyevin musiqi tərtibatı, Nicat Kazımovun rəqqaslar dəstəsinin kaloritli rəqsləri bu başlıca qayənin açılmasına xidmət edir. Rejissorun hər bir ifaçının sənət ampluasını, şəkərini əsas götürməklə tərtib etdiyi aktyor ansamblının bir böyük məqsədə tabe tutulan işi öz səmərəli nəticəsini vermişdir.

Gur Şad (əməkdar artist Nurəddin Mehdixanlı) qüvvətli olduğu qədər də ağıllı və təmkinlidir. Dulu xandan fərqli olaraq o, ətrafında cərəyan edən hadisələri, xüsusən də atasını öldürənin kimliyi məsələsini yerli-yataqlı öyrənməyincə çılğın cavab hərəkətlərinə yol vermir. Bu cəsur, qeyrətli vətən oğlunun daxili aləmini açmaqda aktyorun göstərdiyi sənətkar səyləri yaxşı nəticə verir. Nurəddinin zahiri görkəmi, qəddi-qaməti, nəciblik yağan siması, aktyor səmimiyyəti obrazın mahiyyətinin açılmasında qəribə bir ahəngdarlıqla təzahür edərək bir-birini tamamlayır. İftira və böhtana məruz qalıb, zindana atıldığı məqamda aktyor bütün istedadını səfərbərliyə alaraq öz şəxsində ağılla qəzəbin, kamalla ehtirasın mübarizəsini əla oynayır. Onun qapısı açıq qalmış zindandan qaçmaması epizodu da əlamətdardır. Gur Şadın sadə göründüyü qədər də daşdan keçən dərəcədə qüvvətli məntiqi var: "özünü günahkar sayan adam məhbəsdən qaçar". Çulo Xaqan Gur Şad—İltəriş xəttilə əsərdə təmsil edilən Göy Türk xaqanlığı şəcərəsində orta vəsilə olan Gur Şadın timsalında dramaturq belə bir qənaəti bariz şəkildə təqdim edə bilir ki, daxili çəkişmələrdən vaxtaşırı zəiflədiyinə, həlli müşkül problemlərlə üz-üzə qoyulduğuna baxmayaraq, türklərin səltənəti məhz Gur Şad kimi qüvvət, ağıl və təmiz ürək sahiblərinin şəxsində davamlı olmuş, onlar böyük mədəniyyət yarada bilmişlər.

İçken xatun bu çoxhadisəli tamaşanın demək olar ki, bütün əhvalat və gəlişlərilə bağlı olan mərkəzi surətlərindən biridir. Səhnəmizin ən məhsuldar və istedadlı xadimlərindən biri kimi tanıdığımız Laləzar Mustafabəylini bu rolda görərkən düşündüm ki, əsil səhnə xadimi-sənətkar üçün "müsbət", yaxud "mənfi" rol yoxdur. "Fərhad və Şirin"də Məhinbanu, "Pompeyin yürüşündə" Məlikə Aydan, "Ana intiqamı"nda şəhid anası surətlərini canlandırıb onların böyük ideallarını bizə sevdirən Laləzar xanım bəhs etdiyim son quruluşda Çin xaqanının qızı, Göy Türk sarayında xarici ölkənin agenti olan İçkenin qanlı əməllərinə tamaşaçılarda nifrət oyada bildiyi üçün hüsn-rəğbətimizi qazanır. O, Dulu xan, Salur xan kimi bəzi səbatsız türkləri ələ alıb ağır cinayətlər törədəndə də, soyumuza, dilimizə həqarətlə baxanda da Çin keyşələri üçün səviyyəvi olan "kəsmə yerişlə" səhnənin bu başına sürətlə hərəkət edəndə də, bəzən lal bir sükuta dalıb tam hərəkətsiz dayananda da bir ifaçı kimi təbii və inandırıcı təsir bağışlayır.

Xalq artisti Əliabbas Qədirov Qara Xaqanın faciəsini təmkinlə oynayır. Yadların təhriki və rəyasət illüziyaları ilə qardaşını qətlə yetirdikdən sonra obrazın ağır peşmançılıq duyğuları yaşayıb özünə əl qatdığı—intihar etdiyi səhnədə təcrübəli sənətkarın oyun tərzi xüsusilə təsirlidir.

Pak adının, ailə namusunun ləkələnməsinə heç cür dönə bilməyən saflıq, təmizlik, əxlaqi-mənəvi paklıq mücəssəməsi Selcan Xatun (Məleykə Əsədova) öz oyununda bu obraza xas olan məlahət və qeyrəti uğurla birləşdirə bilir. Özümüzü kəsən qılıncın ilk qurbanı da o olur. Rəyasət ehtiraslarını cilovlaya bilməyən atası Qara Xaqana, böhtan torunda çırpındığı İçkenə, aralıq arvadı Siyan Şiyə şiddətli protestin əlaməti olaraq intihar edəndə o, məhz bu qılıncla "özünü kəsir".

Mələk (Mətanət Atakişiyeva) və Şeytan (Aslan Şirinov) əsərdə cərəyan edən hadisələrlə tamaşaçılar arasında maraqlı bir əlaqə vasitəsinə çevrilir və bəşəriyyətin zehnində milyon illər boyu xeyir-şər qarşıdurmasının rəmzi kimi canlanır. Mələk günahları ittiham edib onları bəd əməllərdən uzaqlaşdırmağa çalışır. Şeytan isə həmişə olduğu kimi bədxahlığa rəvac verir, öz təsiri altına saldıqlarını neçə-neçə bədxahlıqlara təhrik edir, pisliklərə şirnikləndirir. Lakin əsərdə mifik şeytana papış tikən real bir obraz da var: İçken! Şeytan özü etiraf edir ki, "o, mənim kimilərin yüzünü sulu aparıb susuz gətirər".

Mubi Tərxan (əməkdar artist Rafiq Əzimov), Salur xan (əməkdar artist Məcnun Hacıbəyov), Banu Çiçək (Zemfira Nərimanbəyli), Erkin (Elxan Quliyev), Yan Çunq (Aydın Əliyev) rollarının ifaçılarından hər

biri öz təravətli oyun tərzilə tamaşaya əlvanlıq aşılayır, əsərdəki başlıca fikrə—bədii məqsədin açılmasına müvəffəqiyyətlə xidmət edir.

İzləri yaşadığımız günlərə qədər gəlib çıxan bəzi qədim və çox nəcib türk adətləri tamaşada yerli-yerində, ölçü hissilə canlandırılır, gözəl səmərə verir. Bədxahların böhtan və intriqa toruna düşdüyü üçün gözlərini qan örtmüş Dulu xan üçüncü şəkildə doğma qardaşı günahsız Gur Şadın üstünə əl qaldıranda əsl həqiqətdən xəbərdar olan Banu Çiçəyin öz ləçəyini onların ayaqları altına atması ilə dərhal hər iki tərəf öz qılınclarını qınına qoyur.

Göy Türk törəsinə (əxlaq məcəlləsinə) görə evli qadına ilişmək böyük cinayət hesab olunur və əsərdəki obrazlardan biri belə bir qəbahətə yol verdiyi üçün hamının nifrətini qazanır və ciddi surətdə tənbeh edilir.

* * *

Bəxtiyar müəllimin bəzi digər səhnə əsərlərindən fərqli olaraq "Özümüzü kəsən qılınc" mənzum dram deyil. Bununla belə, əsərin dilində bir ahəngdarlıq, axıcılıq, rəvanlıq hakimdir. Obrazların hər biri öz yaşına, təcrübəsinə, cəmiyyətdəki mövqeyinə, psixikasına uyğun bir əda ilə, lakin onların hamısı ana dilimizin axar-baxarı müstəvisində bir-biri ilə ünsiyyətdə olurlar. Obrazların bir çoxunun, o cümlədən də Mubi Tərxanın dilində tez-tez səslənən müdrik mülahizələr aforizm təsiri bağışlayır. Bir obrazın dilindən eşitdiyimiz "yalan deyirəmsə bu qılınc sinəmə göy girib qırmızı çıxsın!" sözlərinə diqqət edək. Bu cümlə hikmətli olduğu qədər də obrazlı, obrazlı olduğu qədər də təbii və həyati bir and kimi çox ciddi fikri-estetik təsir qüvvəsi kəsb edir. Anası qeyrət üstündə intihar etmiş, atası xəyanət qurbanı kimi zindana atılmış körpə İltərişə sahib çıxıb ona analıq edən Banu Çiçəyi sancmaq üçün yadelli İçken xatun zəhər kimi acı dilini işə salanda bu gənc, igid və ağıllı türk anasının verdiyi cavab çox tutarlı olub hədəfinin üzünə qəfil şillə kimi dəyir və bütün tamaşaçıları təxərrüşə gətirir: "Bizlərdə qayın—qardaş, sizlərdə isə oynaşdır! Örnəyini isə siz öz ərinizi öldürüb qaynınıza ərə getməklə göstərdiniz!" Banu Çiçəyin xəyanət yolu tutmuş hökmdara müraciətlə dedyi "özgə bayrağının kölgəsində xaqanlıq etmək əl tulası olmaq kimi bir şeydir" — sancması da dramatik kollizi-yadan doğduğu və yerində deyildiyi üçün sərt və sərrast təsir bağışlayır.

Beləliklə də əsərin dili ana dilimizin potensial imkanlarının yeni qatlarını əks etdirir. Onun bütün gedişində məni qane etməyən yeganə qüsurlu cümlə isə bu oldu: "mən də öz qaynımı aldığı yeni adla, Gur Şad rütbəsi ilə kutlayır və onu ulu tanrının bəxş etdiyi övlad payı ilə təbrik edirəm". Bu cümlənin quruluşu ruscadan dilimizə kalka yolu ilə keçdiyi

üçün məqbul sayıla bilməz. Axı, Azərbaycan dilində adamı heç vaxt "rütbəsi ilə", "sayı ilə", "ad günü ilə" təbrik etməzlər; adamlar bir-birini ya hər hansı bir münasibətlə təbrik edər, yaxud da sadəcə olaraq "mübarək olsun!", "mübarək!" ("ad günün mübarək!") deyərlər...

* * *

Bu müdrik tamaşa da göstərir ki, Göy Türkün başına gələn faciənin səbəbləri gün kimi aydındır. Daxili çəkişmələr, haqqı və ləyaqəti olub-olmamasının fərqinə varmadan hakimiyyətə can atan dərəbəylərin taxt-tac hərisliyi, bundan istifadə edən qonşunun öz casus şəbəkəsi vasitəsilə ölkənin bağrında, paytaxtında törətdiyi təxribatlar, əcnəbi əsilli məmurların türk dövlətində, ən dəhşətlisi isə — türk ordusunda böyük vəzifələr tutması bu səbəblərin ən başlıcalarıdır. Bu deyilənlər tariximizin dünənə qədər zərərini çəkdiyimiz ibrət dərsləridir və onlardan düzgün nəticə çıxarmaq tutduğu vəzifədən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur.

Əsərin adındakı **özümüzü kəsən qılınc** ifadəsi tamaşanın bəzi epizodlarında müstəqim əksini tapır, yəni türkün öz qılıncı onun özünü doğrayır. Lakin bu üç kəlmə sözün əsərdəki funksiyası, həm də geniş və ümumiləşdirici səciyyə daşıyır. Xalqın, qövmün, cəmiyyətin öz içindən çıxan, onun, çörəyi, suyu ilə ərsəyə yetən bəzi fərdlərin xalqın qatı düşmənlərinə qoşulub öz doğmalarına qarşı xəyanət yolunu tutması bu üç kəlmə söz vasitəsilə faş edilib damğalanır. Bu, bağışlanması heç vəchlə mümkün olmayan, əcdadımızın qəbrinə xəyanətdir, övladımızın sabahına xəyanətdir, şair demiş, "anamızın anasına"—müqəddəs vətənimizə xəyanətdir. Bəxtiyar Vahabzadənin nasir qardaşı, unudulmaz xalq yazıçımız İsmayıl Şıxlı belə nakəsləri kökü xalq ədəbiyyatı qaynaqlarına gedib çıxan "sapı özümüzdən olan baltalar" ifadəsi ilə biabırçılıq sütununa mıxlamışdı.

Tamaşa səhnənin dərinliklərindən amiranə bir ahənglə deyilən və dönə-dönə əks-səda verən bu çağırışla bitir: "Ey Türk! Silkələn, özünə qayıt! Sən özünə qayıdanda böyüksən!" Əsərdə əvvəldən axıradək ardıcıl surətdə boy göstərən əsas qayənin ifadəsi olan bu kəlam zərərli yad təsirlərə qapılanları, ötəri həvəslərə, göz qamaşdıran dəblərə uyanları, dilinə, mədəniyyətinə, mənəviyyatına laqeyd olanları, əslinə-kökünə biganə qalanları silkələyib-sarsıdan, ayıldan bir bomba partlayışı kimi səslənir və bütün varlığımla inanıram ki, öz məqsədinə əhəmiyyətli dərəcədə nail olur. Ulu babamız Bilgə Xaqanın bu sözləri təkcə "Özümüzü kəsən qılınc"ın bədii surətləri, yaxud ancaq bu əsərin əks etdirdiyi dövrdə yaşamış soydaşlarımız üçün yox, dünyanın harasında

məskun olduğundan asılı olmayaraq bütün türklər üçün yadda saxlamalı, ardıcıl surətdə əməl edilməli, "sırğa edilib qulaqlardan asılmalı" kəlamlardan biridir.

"Açıq söz" qəzeti, 28 may 1998-ci il.

İ.HACIYEVA

HƏYATIMIZIN REALLIQLARI SƏHNƏMİZDƏ

"ATAMIN KİTABI"

Cəmiyyət siyasiləşib, bunu hamı deyir. Və bu siyasiləşmiş zəmanəmizdə ziyalı sözünün təsiri müəyyən qədər azalıb. Bəlkə ona görə ki, ziyalılar da öz sözlərini siyasi dildə deyirlər? Bəlkə sadiq qalmalı olduqları obyektivliyi gözləmirlər? Bu haqda vaxtaşırı mətbuatda fikir söyləyənlər bəzən konkret ziyalıların da adlarını çəkirlər. Və təbiidir ki, adamlar kimə inanırsa, kimdən daha çox umursa, onun da susmasına narazılıqlarını bildirirlər. Parlamentdə, müxtəlif tədbirlərdə, ən əsası isə öz yazılarında ardıcıl olaraq fikirlərini bildirən xalq şairi Bəxtiyar Vahabzadə ona "susur" deyilməsindən, sanki, cana doyduğunu gizlətmədən, bütün mətbuat işçilərinə ünvanladığı sözlərini bizə dedi: "Gənclər Teatrına gəlin, "Atamın kitabı"na baxın. Bütün sualların cavabını orda tapacaqsız". Mən sözümü orda demişəm.

Oktyabrın 9-da Gənclər Teatrında "Atamın kitabı" pyesinin tamaşasına baxdıq. İlk əvvəl zalda tamaşaçıları görəndə sevindim. Çünki son vaxtlar teatrlarda tamaşaçı problemi var və bu, narahat olmalı bir məsələdi. Zalda incəsənət, elm, mədəniyyət adamlarının az olması isə ziyalı biganəliyinin təzahürü kimi hiss olunmaya bilməzdi. Amma tezliklə bütün diqqətimiz səhnəyə cəmləndi.

Cəmiyyətimizdə parçalanma, qarşıdurma təhlükəsi var. Bütün faciələrin başlanğıc nöqtəsi olan və müxtəlif formalarda gedən bu bəlanın qarşısını almaq üçün nə etmək lazımdır? Bunun ən yaxşı çıxış yolu kimi müəllif parçalanmanın səbəblərini göstərir və bir növ tamaşaçının önündə "güzgü tutmaqla" onu həqiqətləri görməyə və onlar haqqında düşünməyə vadar edir.

Problemi bir ailənin timsalında açıqlayan müəllif olduqca uğurlu və yeni bir variant seçib. O, əsərini Cəlil Məmmədquluzadənin "Anamın kitabı" pyesinin süjet xətti üzərində qurub. Dörd qardaşın hərəsi bir partiyaya qulluq edir. Onların hər sözü bir-birinə qarşı ittihamla doludur. Başları öz partiya iclaslarına, siyasi çək-çevirə qarışan bu cavanlar öz analarının xəstələnməsinə də biganə qalırlar. Ana (Nəsibə Eldarova) üçün narahatçılıq keçirən yeganə bacıları Gülbahar (Lalə Kazımova) onları mehribançılığa çağırır, "sizin davalarınız anamızı xəstə salıb" — deyir. Amma bunun faydası yoxdu. Qızın istəklisi həkim çağırır, ananı xəstəxanaya aparırlar. Onu "operasiya" etmək lazımdı. Qardaşlar yenə mübahisə edirlər, biri onu Moskvaya aparmağı təklif edir, o biri buna etiraz edir. Tez-tez partiyanın iclasına gecikdiyini vurğulayan qardaşlar yenə analarını Gülbaharın və onun istəklisinin ümidinə qoyub gedirlər. Operasiya olunmuş anaya qan vurmaq lazım gələndə də onlardan heç kəs tapılmır, yenə Gülbaharın istəklisi köməyə çatır. Qardaşların acı gülüş doğuran davalarının müşayiəti ilə cəmiyyətimizin, demək olar ki, bütün nöqsanlarına — əxlaq, dil problemləri, saxtakarlıqlara toxunulur.

Analarının xəstəxanadan çıxmasını gözləyən qardaşlar o evə dönəndən sonra ayrılmaq üçün yır-yığış edirlər. Bacı bunun qarşısını almağa çalışır, anamız buna dözməz — deyir. Amma yox, deyəsən, heç nə — hətta ananın həyatı da onların ideya mübarizəsindəki barışmazlığın yaratdığı nifrəti əridə bilmir. Ana onların evdən getmək istədiklərini biləndə sarsılır, onları birliyə çağırır. Sözlərinin əhəmiyyətsizliyini görəndə oğlanlarına atalarını xatırladır, onun yadigar qoyub getdiyi kitabı, vəsiyyətini yada salır. Bu sözlərdən qəzəblənən oğul — "bizim mübarizəmiz ideya mübarizəsidi, biz heç vaxt bir yerdə yaşaya bilmərik" — deyib qəzəblə kitabı vurub yerə salır.

Bütün bu təsirli məqamların ən maraqlısı tamaşanın son səhnələrində açıqlanır. Məlum olur ki, övladları dünyaya gəldikcə ata onlara "Dədə Qorqud" qəhrəmanlarının adlarını verib, keçdiyi həyat yolunu qələmə aldığı və övladlarına vəsiyyət qoyub getdiyi kitabda bu adları qeyd edib. Bu, rəmzi xarakter daşıyır və tarixi unutmamağa, onun səhvlərindən ibrət götürməyə çağırır.

Tamaşaya gələn ziyalılar Bəxtiyar Vahabzadəni təbrik etdilər. Şair Famil Mehdi, Qafqaz Universitetinin rektoru Ömər Okumuş tamaşa haqqında müsbət fikir söylədilər.

Tamaşanın quruluşçu rejissoru əməkdar incəsənət xadimi, xalq artisti Ağakişi Kazımov, musiqi tərtibatçısı respublika dövlət mükafatı laureatı Xəyyam Mirzəzadə, rəssamı Nazim Bəykişiyevdir.

Gənclər Teatrından ayrılanda bu qənaətdə idik ki, yazıçının cəmiyyətlə ən kamil ünsiyyət vasitəsi olan kitablardan oxucunun bir növ ayrı düşdüyü indiki dövrümüzdə bu ünsiyyətin ən canlı və uğurlu vasitəsi

olan teatra maraq yaratmaq çox vacibdir və biz mətbuat işçiləri həm də buna çalışmalıyıq. O cümlədən dövlətə xatırlatmalıyıq ki, tamaşaçıların teatrlardan uzaq düşməsinə səbəb olan maddi çətinlik həm də teatrların problemidi. Vətəndaş tərbiyəsinə nail olmaq istəyən və buna borclu olan dövlət teatrların bu problemini həll etmək üçün onlara müəyyən güzəştlər etməlidir.

"Hürriyyət", 12—13 oktyabr 2000

İmran AXUNDOV

MİLLİ TEATRIMIZIN SON 25 İLDƏKİ ƏN BÖYÜK QƏLƏBƏSİ...

Bu günlərdə akademik Milli Dram Teatrında görkəmli Azərbaycan şairi, Türk dünyasının böyük oğlu, ustad Bəxtiyar Vahabzadənin "Özümüzü kəsən qılınc" ("Göytürklər") tarixi-ictimai faciəsi böyük müvəffəqiyyətlə tamaşaya qoyuldu.

Əsər eramızın 630-cu illərində Çinin dağıtdığı birinci Göy Türk dövlətinin istiqlal uğrunda apardığı mübarizə tarixinə həsr olunmuşdur.

Bəxtiyar müəllimin qələmindən süzülən yeni obrazların hər biri bizi bizə tanıtdırmaq üçün canlı vasitədir.

Əməkdar incəsənət xadimi Ağakişi Kazımovun quruluşunda göstərilən bu tamaşada xalq artisti Əliabbas Qədirovun yaratdığı taxt-tac sahibi olmaq üçün qardaş qatili səviyyəsinə yüksələn Qara Xaqan obrazı aktyorun istedadını yeni aspektdən açan surətdir.

Əməkdar artist Ramiz Məlik Dulu Xaqan rolunu "yaxşı oynayır" desəm, bu çox az olar. O, ürəyinin çırpıntısını tamaşaçıya eşitdirməyi bacaran sənətkardır. Konkret Dulu Xaqan obrazına gəldikdə bu obraz nəinki Ramizin, ümumiyyətlə, Azərbaycan teatrının qələbəsidir. Tamaşanın əvvəlində qəddar, qardaşına qılınc çəkən, öz yurdunu düşmənin ayağı altına atan Dulu Xaqan (Ramiz), finalda igiddir, mübarizdir, səhvini başa düşən türk oğludur...

Əsərin qəhrəmanlarından biri də Gur Şaddır ki, bunu da gözəl sənətkarımız Nurəddin Mehdixanlı böyük sənətkarlıqla yaradır. Gur Şadın Çinin dağıtdığı birinci Göy Türk dövlətinin istiqlaliyyəti uğrunda göstərdiyi qəhrəmanlıq pyesin əsas xətlərindən biridir. Aktyorun yaratdığı Gur Şad həm də gözəl ailə başçısıdır. O, həyat yoldaşı Selcanı və oğlunu dünyalar qədər istəyir. Arvadının ölümündən sonra Gur Şadın öz ocağını (çadırını) yandırıb, qundaqdakı uşağını bağrına basıb fəryad etməsi, aktyorun aktyorluğunu əks etdirən sənətkarın böyüklüyüdür. Mən Nurəddini sonuncu dəfə təxminən 80-ci illərin sonlarında "Medeya" tamaşasında Yazon rolunda görmüşəm. Həmişə mən Nurəddinin ifasına tamaşa edəndə mərhum Ələsgər Ələkbərovu xatırlamışam...

İçgen Xatun obrazını yaradan Laləzar Mustafabəyli səhnədə uğurlu illərini yaşayır. Aktrisa bu obrazı bacarıqla oynayır. Laləzar xanım sənətkarlığını bu obrazda daha qabarıq göstərir. Çünki aktrisa obrazın daxilinə düzgün nüfuz edə bilir. O yaratdığı İçgen Xatun obrazı ilə teatrımızın səhnəsində Ledi Maqbet, Mariye Teodor, Kleopatra, İnanc Xatun yaradan sənətkarlarla eyni səviyyədə durur.

Elxan Quliyevin ifasında Erkin dosta son ana qədər sadiq qalan namuslu, böyük hərflərlə yazılan vətəndaşdır.

Məleykə xanım Əsədovanın Selcanı riyakarlığa dözməyən incə bir türk qızıdır. Məleykə xanım Selcanı lirik planda oynayır və ifası ilə tamaşaçını düşündürür. Atasının bütün mənfi cəhətlərini üzünə deyən Selcan — Məleykənin oyununda şablon qətiyyən yoxdur. Oyuna baxan tamaşaçı elə bil real həyata baxır.

Tamaşada mərd türk qızı obrazlarından biri də Banu Çiçəkdir ki, bunu da əməkdar artist Zemfira Nərimanova gözəl oynayır.

Əməkdar artist Rafiq Əzimovun yaratdığı Mubi Tərxan — xaqanlara ağıllı məsləhətlər verən nurani bir qocadır. Aktyor bu obrazı elə məharətlə oynayır ki, tamaşaçı sanki valeh olur.

Bundan başqa tamaşada Aydın Əliyev—Yan Çunq, Kazım Həsənəliyev — Arslan, Sənubər İsgəndərova — Siyan Şi, Məcnun Hacıbəyov — Salur xan, Elxan Ağahüseynoğlu — Çin zabiti və digər personajlarda çıxış edən aktyorlar öz rollarını layiqincə və müvəffəqiyyətlə oynayırlar.

Rəssam İsmayıl Məmmədovun tərtibatı teatrın divarına vurulmuş afişadan tutmuş finala kimi tamaşaçıya böyük zövq verir.

Bəstəkar Cavanşir Quliyevin tamaşaya yazdığı gözəl musiqi sədaları tamaşaçıda yaranan gözəl təəssüratı daha da gücləndirir.

Beləliklə, tam cəsarətlə demək olar ki, qüdrətli Azərbaycan şairi Bəxtiyar Vahabzadənin "Özümüzü kəsən qılınc" ("Göytürklər") tamaşası son 25 ildəki teatrın ən böyük qələbəsidir...

"Təzadlar" qəzeti, 2—9 iyun 1998

Fəridə SƏFİYEVA,
M.Ə.Rəsulzadə adına BDU-nun dissertantı

"HARA GEDİR BU DÜNYA?"

Bu, Bəxtiyar Vahabzadənin yeni dram əsərinin adıdır. Və həm də xalq şairini daim düşündürən, narahat edən, özünü dərk etdiyi gündən cavabını axtardığı ağrılı-acılı əbədi bir sualdır. Hara gedir bu dünya? Soyumuzdan, kökümüzdən uzaqlaşıb, mənəviyyatımızdan, əxlaqi dəyərlərimizdən ayrımı salır? Yoxsa, əksinə, idrakın, zəkanın qələbəsinə, insan təkamülünün zirvəsinə yüksəldir? Görəsən elə adında da narahat bir sual olan pyes şairin hansı nigarançılığından, ağrısından doğub? Elə bu sualla da Bəxtiyar müəllimə müraciət edirik:

— Mənim dram əsərlərimin qəhrəmanları bir qayda olaraq xarici mühitdən çox özləri öz daxili "mən"ləri ilə mübarizə aparırlar. Çünki mənim fikrimcə, insan çox mürəkkəb məxluqdur. Otello da, Yaqo da, mütləq mənada Yaxşı da, Pis də, Mələk də, Şeytan da bizim öz içərimizdədir. Özümüzə kənardan baxa bilsək, biz bunu aydın görərik. Bir şerimdə yazdığım kimi:

Başqasının gözünü taxaydım öz gözümə,
Başqasının gözüylə baxaydım öz-özümə.
Onda ayıblarıma özüm düşmən olardım,
Onda mən mən olardım.

"Hara gedir bu dünya?" pyesinin baş qəhrəmanı da beləcə özünə kənardan baxıb qiymət verir, öz-özü ilə mübarizə aparır. Onu da deyim ki, bu pyesdə qoyduğum məsələyə mən hələ çox əvvəllər "Baş" şerimdə toxunmuşdum. Ümumiyyətlə, bir qayda olaraq dramaturgiyaya mən şerdən gəlirəm. Yəni şerdə ötəri toxunduğum bir məsələ məni narahat qoymur və mən həmin mövzunu pyeslərimdə davam etdirirəm, genişləndirirəm. Şerdə məşhur Amerika alimi Uaytın kəşfindən söhbət gedirdi. Uayt irsi xəstəlikləri aradan götürmək üçün irsiyyətin dəyişdirilməsi üzərində işləyirdi. Lakin sonra, əslində xeyirxah bir kəşfin necə dəhşətli nəticələri olacağını anlayıb bu kəşfdən imtina etmişdi. Mən "Baş" şerimdə ona müraciətlə belə yazmışdım:

Ey həkim, gücümə inansan da sən,
Bu yükü boynuna heç götürmə gəl.
Ayırıb insanı öz aləmindən,
Ana təbiətlə bəhsə girmə gəl.

Həkim, təbiəti gəl hakim sayaq,
Hifz edək bir səsin yüz ahəngini.
Gücümüz çatsa da gərək pozmayaq
Bəzən təbiətin öz ahəngini.

Sonralar, 1990-cı ildə BMT xüsusi qərar da qəbul etdi. Bu qərara görə bioloji sahədə bu tipli — yəni irsiyyəti dəyişmək üzrə təcrübələr qadağan olundu. Mən bu hadisələri Azərbaycana köçürmüşəm. İstedadlı alim Laçın irsiyyətin dəyişdirilməsi üzrə böyük kəşflər edib dünya şöhrəti qazanır. Lakin sonra bu ixtiranın necə böyük təhlükə yaratdığını anlayaraq ondan imtina etmək istəyir. Və daxilində bir tərəfdən şəxsi mənafe, şöhrət hissi, o biri tərəfdən isə bəşəriyyətin gələcəyi üçün narahatlıq hissi bir-biri ilə mübarizə aparır. Bu tərəddüdlü, təbəddülatlı anında qan yaddaşı — Ulu Əcdad köməyinə gəlir. Və qəhrəmanı ilkin dəyərlərə, mənəviyyata, qan yaddaşına qayıtmağa dəvət edir. Pyesin sonunda alim öz kəşfindən imtina edir, özü də məhv olur...

— *Bəxtiyar müəllim, pyesinizin tamaşasında iştirak edən möhtərəm Prezidentimiz onu çox yüksək qiymətləndirdi. Dramı fəlsəfi, psixoloji, həm də elmi əsər adlandırdı. Eyni zamanda Prezident belə sözlər də işlətdi ki, "... bu əsərdə bəzən bir az ümidsizlik hiss olunur. Ümidsizlik olmamalıdır. Cəmiyyət, insan ümidlə yaşamalıdır. İnsan ümidlə yaşamalıdır ki, cəmiyyət mənfi hallardan xilas olsun. Biz bəlkə də buna nail ola bilməyəcəyik. Amma gələcək nəsillər buna mütləq nail olacaqlar". Tamaşadan aldığım təəssürata əsaslanıb deyə bilərəm ki, doğrudan da pyesdə belə nyüans var. Necə bilirsiniz, bu ümidsizlik nədən irəli gəlir?*

— Həyatın, cəmiyyətin inkişaf qanunlarının özündən. Bəşəriyyət mövcud olduğu gündən Xeyirlə Şər, Yaxşılıqla Pislik arasında mübarizə gedir. Düzdür, Pisliyin, Şər qüvvələrin yaxşılığı, düzlüyü, həqiqəti yer üzündən silib atmağa qüvvəsi çatmır. Ancaq o da var ki, düzlük, yaxşılıq da pisi, əyrini yer üzündən birdəfəlik silə bilməyib. Deməli, bu iki əks qüvvə üz-üzə, qarşı-qarşıya dayansalar da həmişə birlikdə mövcud olublar. Bax, elə ümidsizliyimiz də, nikbinliyimiz də bundan gəlir.

— *Bəxtiyar müəllim, pyeslərinizin əksəriyyətində müraciət etdi-*

yiniz priyom — şəxsiyyətlərin ikiləşərək mübarizə aparması təkcə yuxarıda dediyiniz kimi Otellonun da, Yaqonun da, Yaxşının da, Pisin də bir şəxsin daxilində yerləşməsindən irəli gəlirmi? Yoxsa bu daha çox "Bircə ondan razıyam ki, Özümdən narazıyam" deyən şairin öz keyfiyyətlərindən, daxili "mübarizə"lərindən xəbər verir?

— Mən özüm də təsvir etdiyim insanlardan biriyəm və təbii ki, öz daxilimdəki həmin ikiləşməni, mübarizəni mən də yaşayıram. Özü də yaradıcı adamlarda, düşünən şəxsiyyətlərdə bu mübarizə daha güclü olur. İnsan kamilliyə can atsa da nöqsansız deyil. Odur ki, yalnız özünü dərk etməyən adam özündən tam razı ola bilər. Səmimi sözümdür, mən nə ata kimi, nə həyat yoldaşı kimi, nə müəllim, nə publisist, nə dramaturq, nə də şair kimi özümdən razı deyiləm. Bu yaşımda mikrofondan qorxuram. Qorxuram ki, səhv edərəm, nəyisə düz demərəm. Bu hiss böyük məsuliyyətdən doğur. Biz hər birimiz hər gün səhv edirik. Sadəcə olaraq bəziləri bunu duya bilmir, bayaq dediyim kimi özlərinə kənardan baxmağı bacarmırlar. Fikrimcə, hər düşünən insan öz hərəkətlərinə düzgün qiymət versə, yanlışından, səhvindən nəticə çıxarsa, yer üzündə bu qədər prokurora, məhkəməyə ehtiyac qalmaz. Mənim atam savadsız, həm də dindar kişi idi. Bir az da qaraqabaq adamdı. Çox danışmağı sevməzdi. Ancaq elə ki, yatağına girdi, yorğanı başına çəkib öz-özü ilə danışardı. Bir dəfə soruşdum ki, ay ata, nə danışırsan? Dedi özüm-özümlə iclas edirəm. Görüm bu gün hansı işi görmüşəm, hansı savabı eləmişəm. Yuxum ərşə çəkilib, yata bilmirəm. Süpürgəçimizin könlünə dəymişəm, sabah gərək ondan üzr istəyəm, könlünü alam. Onda mənim 14—15 yaşım olardı. Bax, elə o vaxtdan mən də necə deyərlər "özüm özümlə iclas edirəm".

— Bəxtiyar müəllim, şeri planlaşdırmaq çətindir. Yəqin ki, o, şair qəlbinə təsir edən hansı bir hissdən, kövrək bir duyğudan, ya da nə isə bir hadisədən doğur. Dram əsəri isə əvvəldən planlaşdırılır, müəyyən hazırlıq mərhələsi keçir. Planınızda yeni bir səhnə əsəri yazmaq varmı?

— İndi belə bir pyesim hazırlanır. "Göytürklər" adlanır. Bu da tarixi pyesdir. 1450 il bundan əvvəl əcdadlarımız — göytürklər Çin sərhədində məskunlaşıblar. Onların həyatını öyrənmişəm. On il bu işlə məşğul olmuşam. Məqsəd nədir? Bilirsiniz, şerə bütün mətləbləri gətirmək mümkün deyil. Odur ki, keçmişimizi, soy-kökümüzü araşdırmaq, haradan gəlib haraya getdiyimizi aydınlaşdırmaq üçün yenidən dramaturgiyaya müraciət etdim. Babalarımızın "Ana yasası"nda, daşlara yazılmış Orxon-Yenisey abidələrində milləti yad təsirlərdən qorumaq üçün necə müdrik qanunlar qəbul ediblər! Hər bir şəxs üçün ən böyük məhəbbət Vətən məhəbbətidir, Vətənin mənafeyidir. O vaxtın Ana yasasına görə orduda müxtəlif millətlər qulluq edə bilərdilər. Ancaq onbaşı, yüzbaşı, minbaşı, tümənbaşı (tümən diviziya deməkdi) ancaq türk olmalı idi. Xaqanın yanında yeddi nəfər divan üzvü və 93 nəfərdən ibarət qurultay olarmış. Qurultay üzvlərinin yaşı 60—80 arasında olmalı imiş. Özü də bu adamların heç birinin Xaqanla qohumluq əlaqəsi olmazmış. Yalnız Xaqana, özü də qurultayın qərarı ilə yad millətdən qız almağa icazə verilərmiş. Özü də o zaman ki, ölkədə vəziyyət ağır olanda, hücum gözlənildikdə. Bu izdivac siyasi məqsəd güdərmiş. Həm də Xaqanın ancaq türk qızından olan övladı vəliəhdlik hüququna malik imiş. Yad qızdan olan övlad yalnız şahzadə sayılar, taxt-tac iddiasında ola bilməzdi. Görürsünüz, milləti saxlamaq, qorumaq əcdadlarımız üçün necə mühüm əhəmiyyət kəsb edib. Uşaq hansı dildə dil açırsa, o millətə qulluq edir. Bunu mən demirəm, L.Tolstoy deyir, Uşinski deyir, ingilis dilçisi Karlson deyir. Çünki dil ruhdur, psixologiyadır. Həyatda hər şey mənəviyyatdan başlanır. Millətin tənəzzülü də, tərəqqisi də mənəviyyata bağlıdır.

Bax, yeni pyesim bu mətləblərdən söhbət açacaq. Ulu babalarımızın mənəviyyatı, əxlaq normaları ən yüksək tələblərə uyğun gəlir. Özü də Göy Tenqriyə—Dan yerinə sitayiş edən ulu babalarımızın müqəddəs kitabları yox idi. Ancaq əxlaq, qayda-qanun çox müqəddəs tutulur, sözsüz əməl olunurdu. Deyilənə görə eramızın IV əsrində Vizantiyadan gəlmiş xristianlar göy türkləri öz etiqadlarına keçirmək istəyiblər. Kardu Xaqan bu dinin mahiyyətini öyrənmək istəyib. Müqəddəs Üçlük haqqındakı söhbətlər onu inandırmayıb və o, xristianlığı qəbul etməkdən imtina edib. VII əsrdə Kardu Xaqanın nəslindən olan başqa bir Xaqana müraciət edərək islamı qəbul etməyi təklif ediblər. Xaqan islamın mahiyyətini — tək Allahlığı məqbul sayıb. Bundan başqa islamın əxlaq anlayışının, şəriət qanunlarının onların qanunlarına uyğun gəldiyini gördüyündən bu dini qəbul etməyə razı olub.

— Xalq şairi Bəxtiyar Vahabzadə ömrünün və yaradıcılığının zirvəsini yaşayır. Bu zirvədən həm ötülən, həm də qarşıdan açılan yol daha aydın görünür. Necə bilirsiniz, "hara gedir bu dünya?" Ümumiyyətlə, dünyanın getdiyi bu yol Sizi qane edirmi?

— Çox qlobal sual qoyursunuz. Təəssüf ki, dünya bizimlə hesablaşmır. O öz qanunlarına uyğun olaraq öz yolu ilə inkişaf edir. "Hara gedir bu dünya?" tamaşasından sonra möhtərəm Prezidentimiz çox gözəl dedi. O dedi ki, yer üzündə neçə yüz min illərdir ki, insan yaşayır və insan

cəmiyyəti mövcuddur. Həyatın prosesləri çox mürəkkəbdir. Ancaq o da təbiidir ki, insan cəmiyyətində eybəcərliklər əsrlərdən-əsrlərə keçərək daha da çox artır. Vəzifə ondan ibarətdir ki, bunu qəbul etmək, onunla razı olmaq, yaxud da ki, mübarizə aparmaq lazımdır?

Biz yazıçılar da bu eybəcərliklərlə özümüz bacardığımız kimi — qələmimizlə mübarizə aparırıq. O ki, qaldı dünyanın hara "getməyinə", hər halda bu qədər illərdən sonra müstəqillik əldə etməyimiz çox böyük nailiyyətdir. Və elə təkcə buna görə dünyanın "gərdişindən" razı qalmaq olar.

— *Maraqlı müsahibə üçüq sağ olun.*

"Respublika" qəzeti, 14 dekabr 1997-ci il

Nizami Cəfərov

BİR TAMAŞA HAQQINDA BİR NEÇƏ SÖZ

Mən bir neçə dəfə məmnuniyyətlə baxdığım "Özümüzü kəsən qılınc, yaxud Göytürklər" tamaşasını, hər şeydən əvvəl, mövzusuna görə Azərbaycan, ümumən türk ədəbi-mədəni mühitində uğurlu hadisə hesab edirəm. Qədim türk dövrünə müraciət, etiraf edək ki, xüsusilə Azərbaycan ictimai təfəkkürü üçün sıradan bir hal deyil — həmin dövr artıq bir neçə əsrdir ki, bizim yaddaşımızdan silinmişdir. Bu isə o deməkdir ki, mənsub olduğumuz etnik-mədəni sistemdən bəzən zorla, bəzən xoşla qoparılmış, müxtəlif dövrlərin, mərhələlərin bizə təklif etdiyi çox zaman eklektik, qarışıq mədəniyyət sistemlərinə düşə-düşə yaşamışıq. Və nə qədər təəssüf olunmalıdır ki, bugünkü azərbaycanlı XI—XII əsrlərə qədərki türk babaları, onların tarixi, başlarına gələn hadisələr, qələbələri, məğlubiyyətləri və s. barədə, demək olar ki, heç nə bilmir... Həmin məsələni ədəbiyyatda hamıdan əvvəl böyük Çingiz Aytmatov hiss etdi — məşhur manqurt obrazını yaratmaqla köksündən qopmuş türkün faciəsini yalnız tarixi deyil, həm də (və bəlkə də, daha çox!) müasir problem kimi dünyanın mühakiməsinə verdi. Niyə bütövlükdə dünyanın? Ona görə ki, vaxtilə ümumən dünyanın tarixində möhtəşəm rol oynamış türk bu gün qədim tarixindən, onu mənən qidalandıran köklərindən məhrum olunsa, bu, bütövlükdə dünyanın faciəsidir... Mənim yadımdadır ki, Bəxtiyar Vahabzadə dostu Çingiz Aytmatovun yaratdığı manqurt obrazı barədə 80-ci illərin əvvəllərində Universitet auditoriyasında biz tələbələrinə necə böyük ehtiramla danışır, yazıçının kəşfindən necə vəcdə gəlir, hərdən bir

sovet "beynəlmiləlçiliyi"nin sərhədlərini dağıdaraq türk millətçiliyinin əsaslarından söhbət açırdı.

B.Vahabzadənin müstəqil Azərbaycan dövlətinin qurulduğu illərdə diqqətinizi qədim türk dövründə Göy türklərin tarixinə cəlb etməsi, bu gün bizi narahat edən problemlərin həlli üçün məhz öz keçmişimizdən nümunə götürməsi tamamilə təbiidir. Çünki biz haqqında söhbət gedən tarixi unudub unutmamağımızdan asılı olmayaraq onun varisiyik, həmin tarixi yaşamışıq, babalarımızın yalnız qazandıqları böyük qələbələrin deyil, buraxdıqları o qədər kiçik olmayan səhvlərin də məsuliyyətini daşımalıyıq.

Məsələ tarixə müraciət etməklə bitmir. Tamaşanın uğurlu alınmasının bir səbəbi də müəllifin tarixə necə müraciət etməsi, ümumən Tarixə münasibətin metodologiyası ilə bağlıdır... Əvvəla, B.Vahabzadə Azərbaycan tarixşünaslığı (bütövlükdə milli ictimai təfəkkür) üçün yeni mövzu olan qədim türk dövrünü (xüsusilə Göy türklərin) hərtərəfli öyrənmiş, müxtəlif hadisələrin çox zaman güclə sezilən əlaqələrini, siyasi-ideoloji münaqişələrin səbəblərini, dövrün sosial fəlsəfəsini dərk etmişdir. İkincisi, həmin tarixi öz əsərində dəyişmədən, onun harmoniyasını pozmadan, öz məqsədinə tabe etmədən canlandırmışdır. Müəllifin bu cür hərəkət etməsi, fikrimcə, onun ideya-estetik prinsiplərindən irəli gəlir və tarixə münasibətinin məhz metodologiyasını müəyyən edir: o müəllif ki, Tarixə həqiqətən nümunə kimi yanaşır, Tarixi xaos kimi yox, kosmos kimi qəbul edir, Tarixdə məntiq görür, həmin müəllif tarixi heç zaman zədələməz... "Göytürklər" tamaşasında bizə təqdim olunan Tarix faciəlidir, ağrılıdır, dözülməzdir (türk böyükləri öz hakimiyyətlərini saxlamaq naminə xalqı düşmənin ayağına verirlər, millət mənliyini itirir, azadlıqdan məhrum olur), ancaq ibrətlidir. Və tamaşanın müəllifləri tarixin (xüsusilə öz tariximizin özümüz üçün!) ibrətli olması ideyasına inanır, tamaşaçını da, elə bilirəm ki, inandırırlar.

Göy türklərin tarixi yalnız şifahi olaraq deyil, həm də yazılı olaraq mövcuddur — şifahi tarix bir sıra ümumi motivlər qoruyub saxladığı halda yazılı tarix kifayət qədər təfərrüatlıdır. Həm də, necə deyərlər, isti-isti yazılmışdır. VIII əsrin böyük türk tarixçisi dövrün epos təfəkküründə dayanaraq VI əsrin ortalarından başlayan hadisələri sistemli bir şəkildə əbədi daşlara həkk etdirmişdir. Bəlkə xalqının dilindən (və onun bilavasitə nəzarəti altında) yazılan həmin kitabələr rəsmi statusa malikdir, yəni burada tarixçinin subyektiv mövqeyi əks olunmamışdır. Və eyni zamanda bu tarix xüsusi adamlar üçün deyil, bütün türk xalqının oxuyub bilməsi məqsədilə yazılmışdır.

B.Vahabzadə əsərdə belə bir yazılı (və möhtəşəm!) tarixə əsaslanmışdır...

Mənim diqqətimi çəkən cəhətlərdən biri də qədim türk sarayının obrazının səhnədə kifayət qədər dəqiqliklə canlandırılması oldu. Aktyorların hərəkətləri, danışıq ədaları, sarayın ümumi mənzərəsi tarixə xeyli dərəcədə uyğun idi. Bu isə onu göstərirdi ki, rejissor, səhnə tərtibatları, qədim türklər mövzusunda əsərlər oynamağa adət etməmiş aktyorlar böyük tədqiqat işi apararaq məqsədlərinə nail olmuşlar. Xüsusilə türk sarayının mələikəsi Çin qızının rolunu oynayan Laləzar xanımın yüksək istedadla yaratdığı obraz, əminəm ki, tamaşaya baxanların yaddaşından heç vaxt silinməyəcəkdir. Onun geyimi, davranışı, nitqi bütöv bir harmoniya təşkil edir, qədim türk sarayında özünə möhkəm yer salmış düşmən siyasətinin miqyası barədə aydın təsəvvür yaradır. Qədim türk böyüklərinin obrazı səhnədə Laləzar xanımın oynadığı obraz qədər mükəmməl alınmasa da, uğursuz deyil — mən nə rejissoru, nə də həmin rolların ifaçılarını qınamıram, ona görə ki, qədim türk böyüklərinin obrazı bizim ideya-estetik təfəkkürümüzə hələ yeni-yeni daxil olur, hələ ancaq ən ümumi konturları, cizgiləri ilə seçilir... Biz istər statik, istərsə də dinamik planda olsun, min il bundan öncə unutduqlarımızı bir ilin, beş ilin içərisində qaytara, bütün tərəfləri ilə elmi, bədii, ictimai təfəkkürümüzdə bərpa edə bilmərik, dərhal ibrət götürə bilmərik. Biz bu işi tədricən, lakin ardıcıl olaraq, dönmədən görəcəyik.

"Göytürklər"in premyerasından sonrakı geniş müzakirəsində mən belə bir arzumu bildirdim ki, bu tamaşa mümkün qədər bütün türk dünyasına çatdırılmalıdır, çünki müstəqil dövlət quruculuğu yolunda olan müasir türk xalqlarının, demək olar ki, hamısı, haqqında söhbət gedən problemlərlə qarşılaşırlar. Yəni yalnız biz deyil, iş elə gətirib ki, türkmənlər də, özbəklər də, qazaxlar da, tatarlar da, altaylar da... qədim tarixlərindən ayrı düşmüş, ortaq etnokulturoloji maraqlarını çox hallarda qeyb etmişlər... Mətbuatdan məlum olduğu kimi "Göytürklər" Türkiyədə böyük uğurla oynandı, mən əminəm ki, digər türk respublikalarında oynansa, daha böyük uğur qazanacaqdır.

Nəticə etibarilə deyə bilərəm ki, Bəxtiyar Vahabzadə ümumən türk xalqları səhnəsinə möhtəşəm bir əsər vermişdir — həmin əsər öz böyük missiyasını gərəyincə yerinə yetirir, bundan sonra da yetirəcəkdir. Və mən böyük sənətkara onun növbəti gözəl əsərindən aldığım ideya-estetik ləzzətə görə təşəkkür eləməyə, etiraf edim ki, ona layiq bir söz tapa bilmirəm...

"Yeni Azərbaycan" qəzeti, 26 yanvar 1999.

Taleh HƏMİD

NƏ QƏDƏR Kİ, BİZ İÇİMİZDƏKİ HAKİMİYYƏT YANĞISINI ÖLDÜRƏ BİLMƏMİŞİK, ÖZ QILINCIMIZ ÖZÜMÜZÜ KƏSƏCƏK

BU DÜNƏN DƏ BELƏ OLUB, BU GÜN DƏ BELƏDİR, SABAH DA BELƏ OLACAQ

Eramızın 630-cu ili. Yenə hakimiyyət yanğısı, yenə qan-qada, yenə satqınlıq və alçaqlıq, yenə taxt-tac üstündə qana hərislik.

Bəxtiyar Vahabzadənin "Özümüzü kəsən qılınc" pyesi ilk baxışdaca bu həqiqəti pıçıldayır. Amma əsərin açıqlayacağı daha böyük həqiqətlər var. Nədir onlar?

Satqınlıq, hiylə, daxildən iyrənc iddialar, xaricdən təxribatlar

Pərdə çəkiləntək taxt-tacda əyləşmiş Qara Xaqan (Xalq artisti Əliabbas Qədirov) ədalı bir səslə "Zəfərdən gələnləri qarşılayın" — deyir. Öz qardaşı oğlanları Dulu Xaqana və Gur Şada dövlətin yüksək ordenlərini təqdim edir. Min illərdir bu cür ordenlər ancaq təmənnalara — yuxarının marağına, aşağının mütiyə çevrilməsinə xidmət edir. Lakin, bu qardaşlar döyüşə gedəndə hakimiyyətdə onların əmiləri yox, ataları əyləşmişdi. Bəs hanı hakimiyyətin qanuni yiyəsi? Oğullar da elə bunu sual edirlər. Bu zaman Qara Xaqanın sifətinə yalançı və hiyləgər bir hüzn çökür. Bir hakimiyyət hərisi kimi nə qədər müdrik görünməyə çalışsa da, içinin taxt-tac hərisliyi gözündən oxunur. Mənim əziz qardaşım oğlanları, sizin atanız, mənim qardaşım dünyasını dəyişdi...

— Atamız döyüşdəmi öldü?

Qara Xaqan Gur Şadı (həm də kürəkənini) özünün çadırına dəvət edir ki, qardaşının necə öldüyünü ona desin. Mənim qardaşım bir andaca dünyasını dəyişdi. Görünür, onun ürəyi xəstə imiş? Qara Xaqan təkcə hakimiyyətə yiyələnməyib. Həm də hakimiyyətdən uzaqlaşdırdığı doğma qardaşının arvadına yiyələnibdir. Bu zaman İçgen Xatun (Laləzar Mustafabəyli) hə, hə deyir. Atanız son günlər ürəyindən gileylənirdi. Bəs, taxt-tac kimə vəsiyyət edilibdir? Vəsiyyətsə hələlik yoxdur. Hər şey bax buradan gərginləşməyə başlayır. Saray ziddiyyətləri, hakimiyyət çarpışmaları vətəni təhlükə altında qoyur. Torpaq, Vətən, Xalq yaddan çıxır, maraqlar qalır. Göy Türk dövlətinin başı üzərini qara

buludlar alır. Qara Xaqanın qaynı, Çin imperatorunun oğlu Yan Çunq demək olur ki, bu sarayda bütün məsələləri idarə etməyə başlayır. Tarix boyu bizim faciələrimizin kökündə "qayınlar", "yeznələr" durubdurlar. Gəncənin işğal edilməsində, Cavad xanın qətlə yetirilməsində onun erməni arvadı Astğikin (bu günümüzdə olduğu kimi, onda da Astğik dönüb olmuşdu Astagül — T.H.) qardaşının xəyanətini xatırlayaq. Bütün qalalarda olan əsgərlərin, topların, silahların dəqiq saylarını rus ordusuna məhz unudulmaz Cavad xanın "sevimli" erməni qaynı xəbər vermişdi. Yan Çunq obrazı həm də mənə dünənə qədər Mərkəzi Komitədə işləyən yüksək vəzifə sahiblərinin erməni, rus qayınlarını xatırlatdı. Həmsöhbətlərimdən biri mənə demişdi ki, o zaman Qarabağ hadisələri başlayanda MK-da nə qərar çıxardırdıqsa, bizdə yerlərə çatmamış ermənilər bundan xəbər tuturdular. Sən demə, ümumi şöbədə işləyənlərdən bir ikisinin "qayınlar"ı erməni imiş. İndi də mən tamaşaya baxdıqca ümumi bəlamız olan, həm də tarixi bəlamız olan, erməni, rus "qayınları" xatırlayırdım.

Dulu Xaqanın hakimiyyət hərisliyi, Gur Şadın vətəndaş yanğısı üz-üzə gəlir. Biri hakimiyyət, biri vətən yanğısındadır. Hiylələr, məkrlər öz işini görür. Qara Xaqan hakimiyyətə gəlmək üçün doğma qardaşını zəhərləyib. Dulu Xaqan hakimiyyət üstündə doğma qardaşı Gur Şadın qanına yerikliyir. Qara Xaqan ayağını çəkə-çəkə səhnədə var-gəl edir. Bu heç də Teymurləngin ayaq çəkməsinə bənzəmir. Bu, bir ayağı hakimiyyətdə, bir ayağı gorda olan qocanın hakimiyyət hərisliyinin təsviridir. İnsan ölür, onun şöhrət, var-dövlət hərisliyi isə çox-çox sonra ölür. Bu iyrənc mühit Qara Xaqanın qızı Selcanın, (Məleykə Əsədova) Gur Şadın xanımının nifrətinə səbəb olur. Ata, hələ ki, gec deyil, yalvarıram, bu yoldan çəkil. Ata isə, hansı yoldan? — qızım deyir. Bəli, bu yol məbədə aparmır, bu yol fəlakətə aparır.

Əsərdə qoyulan başlıca məqsədlərdən biri də fikrimcə budur. Saray ziddiyyətləri kulminasiya nöqtəsinə yönəlir. Çinli İçgen Xatunun və onun qardaşı Yan Çunqun hiylələri hər şeyi alt-üst edir. Qara Xaqan başının hayına qalır. Ərinin nahaqdan təhqirlərə və təzyiqlərə məruz qalmasına dözməyən Selcan özünü atasının taxtı üzərində asılmış qılıncla qətlə yetirir. Balaca İltəriş anasız qalır. Gur Şad (Nurəddin Mehdixanlı) fəryad çəkir.

Qondarma cinayətlər uydurulur. Dulu Xaqan və Gur Şad zindana salınırlar. Mubi Tərxan (Rafiq Əzimov) özünün ədəb-ərkanı, ədalətliliyi ilə od üstünə su tökməyə çalışsa da, indi onu eşidənlər tapılmır. Mələk (Mətanət Atakişiyeva) və Şeytan (Aslan Şirinov) biri haqqa, biri nahaqqa çağırır. Biri ayrılmağa, biri dağıtmağa çağırır. Gecənin birində Dulu Xaqan zindandan qaçırılır. Zindan açıq qalır, Gur Şad heç yerə getmir. Çünki, günahsız olduğunu bilir. Amma kimdir bu günahların fərqinə varan. Məqsəd başqadır. Elə bu ziddiyyətlər zamanı Çin ordusu sərhədləri keçir, vətənin başı üzərini qara buludlar alır. Qara Xaqan gec də olsa hiylənin qurbanı olduğunu dərk edir. Xəyanətlə ələ keçirdiyi qılıncla xəyanətin kökünü kəsməkdən ötrü özünü qətlə yetirir. Lakin bu özümüzü kəsən qılıncın son dəfə qana batdığı məqam deyil. İnsanın içindəki hakimiyyət yanğısı min illərdir təəssüf ki, ölmür. Belə olduqca da öz qılıncımız özümüzü kəsmiş, kəsir və bundan sonra da kəsəcəkdir. Çünki içimizdəki hakimiyyət yanğısına, şöhrət hərisliyinə, təkrarladığımız səhvlərimizə min illərdir TÖVBƏ demirik. Çin orduları Göy Türk elini işğal edirlər. Qara Xaqanın qaynı Yan Çunq tonqal yandırıb, çinlilərə işarə verir. Bu ordunun bir tərəfində Gur Şad, o biri tərəfində çinlilərə satılmış Dulu Xaqan vuruşur. Dulu Xaqan hakimiyyətə gətirilir. Gur Şad və onun yaxınları əsir alınıb, Çinə aparılırlar. Beş ildən sonra əsirlikdən qaçan Gur Şad vətənə qayıdır. Bu o zamandır ki, çinlilər artıq Dulu Xaqana fərman göndəriblər. Fərmanda deyilir: "Ölkənin dili Çin dili olmalıdır, o yaşamalı, amma çinsayağı yaşamalıdır!" Dulu Xaqan axır ki, səhvini başa düşür. İçgen Xatun birinci ərinin vəsiyyətnaməsini gətirir. Bu vəsiyyətnaməyə görə hakimiyyət Gur Şada çatmalı idi. O isə hakimiyyətdən çoxdan imtina etmişdi.

Bəli. Bütün bu oyunlarda hamı zəhərlənib və mundarlanıbdır. Hakimiyyət yanğısı ayağı gora titrəyən qocanı da, eyş-işrətlə məşğul olan vəliəhdi də zəhərləyibdir. Belə bir məqamda hakimiyyət üçüncü bir qüvvəyə — hələ mundarlanmamış balaca İltərişə ötürülür. Müdrik Mubi Tərxan ona hami təyin edilir.

Bəxtiyar Vahabzadənin bu pyesi min illər bundan əvvəl baş vermiş tarixi həqiqətlər üzərində qurulsa da, insan psixologiyası üçün müasir səslənir. Son illər Ali məhkəmədə qurulan prosesləri izlədikcə məhz bu cür satqınlıqların, hiylənin, tamahın qurbanına çevrilən doğma Qarabağımızı, işğal olunmuş torpaqlarımızı təəssüflə xatırlayıram. Ax, yazıq Vətən, yazıq Vətən! — deyirəm.

"Müstəqil qəzet", 14—20 yanvar 1999-cu il.

Cəmil ƏLİBƏYOV

BƏXTİYAR VAHABZADƏNİN "DAR AĞACI"

Akademik Milli Dram Teatrının yeni tamaşası haqqında

Qədim ədəbiyyatımızın çağdaş klassiki Bəxtiyar Vahabzadənin son on ilədək həyatı zəmanə ab-havası baxımından kontinental iqlim qurşağından keçirdi. Bahar təravətli: ilıq, xumarlı və qış siqlətli: şaxtalı, boranlı. Daha dəqiq desək — poetik və dissident həyatını yaşayırdı şair.

Səksəninci illərin sonlarından tüğyan edən güclü xalq hərəkatı dalğası bu iki qütblü həyat tərzinə alınmış şairi yeni simada səhnə önünə çıxartdı. İndi o, siyasi-ictimai lirikasını eyhamlar, atmacalar, hadisələrin zaman və məkan dəyişiklikləri ilə, təmsilvari və sətiraltı fəndlərlə oxucuya çatdırmırdı. Xalq tribunu idi. Dahi Üzeyir bəyin ibarəsi ilə desək: "Hürriyyəti-kəlam, hürriyyəti-şəxsiyyət, hürriyyəti-ictimai, hürriyyəti-mətbuat, hürriyyəti-vicdan" diapozonlu üsyançı şair olmuşdu.

Bu onun yeni həyatı idi: gecələr poeziya yaradıcılığını davam etdirir, gündüzlər siyasi meydanda döyüşçülük — sərkərdəlik edirdi. Bu, millətin azadlıq haqqının təntənəsi naminə, ümumxalq diləyinə qovuşmaq naminə fədakarlıq tələb edən bir şərəf və risq idi. Həyatını siyasətlə bağlayan mübarizlərin aqibəti filosof şairə yaxşı məlum idi. Bir vaxtlar "dövləti filosoflar idarə etməlidir" deyən böyük Platon Sirakuzada kiçik bir dövlətə başçı olduqdan sonra demokratiyaya lənətlər yağdırmağa başladı; Böyük Fransa inqilabının iştirakçısı, bir vaxt sevimli sənətkar olan Jan Pol Maratın ömrü üsyançı sui-qəsdi ilə bitdi; bədii əsərləri ilə xalqı avamlıqdan maarif işığına çıxarmış Nəriman Nərimanovun adı on illərlə "xalq düşməni" damğası ilə ləkələndi... Çoxlarının, lap çoxlarının el üçün ağlamaqdan gözləri kor oldu...

Ancaq ibrət hədələri onu qorxuzub, güclü imperiyaya qarşı döyüşlərdən çəkindirmədi. O, bütün varlığı — çəlimsiz vücudu, böyük ürəyi, iti zəkası ilə səngərdən-səngərə keçdi. Gah meydan tribunasına qalxdı, gah Mərkəzi Komitənin zəhmli, qaranlıq otaqlarında şimşək kimi çaxdı, gah da ali məclisin debatlarında söz döyüşünə girişdi. Bunlar hamısı xalqın gözü qarşısında olurdu. Və xalq onu sürəkli alqışlarla müşayiət edirdi. Xalq qəhrəmanı indi, budur başqa bir ovqatla rastlaşır. Avtobuslarda, xeyirdə-şərdə, qaçqın yığınaqlarında Bəxtiyar müəllimdən inciklik nidaları eşidilir. "Görmür nə gündəyik, niyə susur", "özü, özününkülər haqqında düşünür", "bir atım barıtı varımış" və s. və i.a. Şairdən əməli umacaqlar isə bugünkü Azərbaycanın həyat tərzinin bütün zümrələrini əhatə edir — "JEK" qayğılarından tutmuş, hökmran səlahiyyətlərinə qədər. Yetmiş beş yaşlı şairi ələ də buyurmaq istəyirlər, vələ də.

Öz umacağımızı qabağa salaq. Filosof şairdən biz başa vurmaqda olduğumuz XX əsrin mötəbər sözünü gözləyirdik. Çar imperiyası uçuruldu. Sovet imperiyası taxt-taca sahib oldu, o da süqut etdi — görəsən, indi bizim milli simamız əsrin zirvə gədiyindən necə görünür? Biz kim idik, kim olduq? Biz haradan gəlib hayana gedirik? Xalqı rəzil, miskin, səfil vəziyyətinə salanlar nə vaxt öz layiq olduqları cəzanı alacaqlar? Və alacaqlarmı?!

Görünür, xalq şairi Bəxtiyar Vahabzadə bütün bunları içində mühakimə etdikdən sonra "Dar ağacı" qurmaq qənaətinə gəlib.

Tarix — xalqın yaşanmış taleyidir. Ancaq bədii həqiqət üçün bu kifayət deyildir. Yazıçı xalqın yaşanmış ömrünə güzgü tutmaqla kifayətlənə bilməz. O, tarixi keçmişdən yazanda da xalqın bugünkü həyatı üzərinə işıq salmalıdır. Bu məqamda böyük Cavidin tanrının özünə belə etiraz nərəsi qulaqları cingildədir:

Nə nur olaydı, nə zülmət,
nə böylə xilqət olaydı!

Dramaturqun seçdiyi mövzu məhz indinin, xalqın kirpikləri ilə od götürdüyü bu günlərin həqiqətlərinə məşəl tutmağa imkan vermişdir. İçində olduğumuz zəmanənin dəhşətləri xalqın şir oğlu Babəkin ruhunu diksindirib oyatmışdır. Özünə və xalqına qarşı Afşin xəyanətini o özü mühakimə edir. Bəxtiyar Vahabzadə isə bu məqsədlə ümumən satqınlar üçün dar ağacı qurub.

Tamaşanın birinci aktı gərgin, nigaran bir ovqatla bitir. Antraktda şairi təbrik etmək üçün bir qrup elita müdir otağına toplaşıb. Kaş heç getməyəydim, ancaq bu da var ki, yalançının şahidi yanında olsa, yaxşıdır.

Hə, belə bir insident oldu. Bir nəfər şairə yan alıb qulağına xəfifcə dedi: "Günə, Aya əl atırsan, ha bir Şəkiyə gəlsənə..." Bəxtiyar müəllimin alın qırışları ani olaraq dərinləşdi, qatı duman doldu bütün sifətinə, qaşları çatıldı, udqundu, söz ustadı iki kəlmə söz tapıb deyə bilmədi. Hövsələdən çıxdım. Otağı etika gözləmədən tərk etdim.

Lal harayımı özüm eşitdim, nə istəyirsiniz ondan?!

Səhnədə hadisələr öz axarı ilə cərəyan etməkdə oldu, mən isə fikirləşirdim. O məqamda Bəxtiyar müəllim çarəsiz insana nə deməliydi? Aşağı tüpürürsən saqqal, yuxarı tüpürürsən bığ. Desə ki, axı, mən föv-

qəladə vəziyyət bakanı deyiləm, necə desin?! O, Milli Məclisin üzvü olmasaydı belə, xalq şairiydi, bu miskin həmyerlisinin ürəyini necə sındıra bilərdi?

Tamaşaya baxandan sonra Bəxtiyar müəllimin nə deməli olduğunu yəqinləşdirdim. Dramaturji quruluşa, əsərin kompozisiyasına zidd olmuş olsa da, Bəxtiyar müəllim gərək tamaşanın son aktı ilə başlayaydı pyesi. Bax, belə:

"Afşin — Mən öz vətənimə qarşı vuruşanda — ölü oldum... Hökmdar oldum — yenə ölü idim. Ölüm qarşısında dirildim. İndi mən ruhən dirilib, cismən ölümə gedirəm!..

İbn Süheyl — Son sözünü de.

Afşin — Rica edirəm, bu cəlladı dəyişdirəsiniz.

İbn Süheyl — Niyə?

Afşin — Çünki o ərəbdir.

Ana — Haqlısan, oğul. Onların səni öldürməyə haqqı yoxdur.

İbn Süheyl — Ölüm ölümdür. Nə fərqi var səni kim öldürür?!

Afşin — Var! Anam düz dedi. Sizin məni öldürməyə haqqınız yoxdur. Çünki mən ömrüm boyu sizə qulluq göstərmişəm. Özümünkülərə isə qənim kəsilmişəm. Qoy məni qulluq göstərdiklərim yox, düşmən kəsildiklərim öldürsün!

İbn Süheyl— Səni ərəb asmalıdır!

(Afşin dar ağacına yaxınlaşır, kəndiri boğazına keçirərkən Babəkin fəryadı eşidilir).

Afşin — Bəs indi niyə gülmürsən, qardaşım? (Babəkin ruhu zaman-zaman Afşinin xəyanət işdəklərini acı qəh-qəhələrlə müşayiət edirdi. — **C.Ə.**)

Babək — İndi ağlayıram. Bu boyda milləti "uf" demədən zəlil qoyub gedənin halına ağlamamaqmı olar?!"

Mətləb üstünə gələk. Filosof şairdən bax, bunları ummaq lazım imiş: xalqın xronik azarının Sözlə müalicəsini! Bir-biri ilə nifaq törədib yağı basqınına yol açanları, atlanıb elini talayan, şan-şöhrət naminə boğazına əcnəbi həlqəsi keçirən qorxunc divanələri, milləti soyub var-yoxunu mücrülərə, banklara yığanları, öz əqrəbasından savayı başqalarının bəşər övladı olmadığını min bir vasitələrlə gözə soxmaq istəyənləri — bu zəlil xilqəti ittiham hədəfi etməsini.

Zəngin təcrübəli dramaturq saydıqlarımız və saymadıqlarımız qəbahətləri çox ustalıqla bir neçə saat ərzində tamaşaçıya çatdırır, insanları keçmiş və indiki həyat haqqında dərin düşüncələrə və ağıllı hərəkətlərə dəvət edir. Dramaturq bir də ona görə çoxşaxəli fəlsəfi düşüncələrini bir əsərdə reallaşdıra bilmişdir ki, bunun üçün çox yaxşı zaman və məkan seçmişdir.

Babək hərəkatı Azərbaycan xalqının yadelliləra qarşı döyüş tarixinin qızıl suyu ilə yazılmış səhifəsidir. Döyüş ruhumuz, qeyrət əzmimiz, ululuq siqlətimiz Babək timsalında, məkr, dönüklük, satqınlıq Afşin simasında təkrarolunmaz təcəssümünü tapıb. Tarix ədəbiyyatında hadisələr qısaca təsbit olunmuşdur:

Babək iyirmi ildən artıq bir müddətdə Xürrəmi — Zərdüşt məsləkini, ana yurdunu ərəb tapdağından qorumaq üçün bənzərsiz sərkərdə məharəti göstərmiş, onun qan qardaşı, böyük türk sərkərdəsi Afşin erməni Səhl ibn Sumbatın xəyanətkarlığı ilə Babəki tutdurub ölüm kürsüsünə gətirmişdir.

Bəxtiyar müəllim bu tarixi hadisənin məlum gedişlərini deyil, ədəbiyyatda müstəqil işlənməmiş, baş obraz kimi həllini tapmamış Afşinin satqınlığını əsas mövzu götürmüşdür. Babək qətlə yetirilmiş, Afşin Azərbaycanın padşahlıq taxt-tacına sahib olmuşdur. Və xəyanət ömrünün şahlıq dövrünü keçirir.

Afşin orta əsr ədəbiyyatında ziddiyyətli bir şəxs kimi təqdim olunmuşdur. Kimisi göstərir ki, Babəkin məhvi Afşinlə bağlıdır, başqaları yazır ki, Afşin əksəriyyəti türklərdən yığılmış qoşuna xəlifə tərəfindən sərkərdə təyin olunduqdan sonra da döyüş məqamlarında Babəkə xidmət göstərmiş, ərəblərin zəif yerlərini ona çatdırmışdır. Görünür, dahi Cəfər Cabbarlı da (əsər C.Cabbarlıya ithaf olunmuşdur) buna görə "Od gəlini"ndə Aqşini (Afşin) nikbin faciə qəhrəmanı kimi göstərməyə üstünlük vermişdir. Elxanla (Babəklə) islam dininə və zərdüştçiliyə münasibətdə zidd mövqedə duran Aqşin tərəddüdlərdən sonra Babəkin əqidəsinə gəlir. Hansı yolla olursa-olsun "insan qanı içən hökumətlərə" nifrət edən Babək əqidəsinə tapınır.

Bəxtiyar müəllim də bu iki Turan sərkərdəsini qardaş kimi təqdim etmiş və zidd qütblərə çəkmişdir. Bununla da Şekspiranə xəyanət timsalı yaratmışdır.

Bir haşiyə çıxmalı olacağıq. Azərbaycanfilm "Babək" epopeyasını çəkərkən Afşin obrazını bütünlükdə açmağa lüzum görmədi. Doğrudur, Həsənağa Turabov öz məharətli oyunu (lap elə oğrun baxışları ilə) Afşin xislətini qabarda bilmişdir. Bizi Babək maraqlandırdı. Çətinlik bir də onda idi ki, artıq Babək bizim günlərdə böyük xalq sərkərdəsi kimi qəbul olunmuşdu, hər kəsin ürəyində öz iç aləminə uyar bir Babək var idi. İndi biz Babəki elə bir şəxsiyyət kimi təqdim etməliydik ki, bütünlükdə xalq onu qəbul etsin. Orta əsr tariximizin atası Ziya Bünyadovun,

bənzərsiz tədqiqatçı-yazıçı Ənvər Məmmədxanlının, ali rejissorumuz Eldar Quliyevin, məşhur kino aktyoru Rasim Balayevin... vəhdətli işi xoş bəhrə verdi. Planetdə yığdığı tamaşaçıların sayına görə, deyə bilərik ki, Babək, nəinki azərbaycanlıların nəzərində, bəşər gözündə əbədiləşdi.

Və əminliklə demək istərdik ki, Bəxtiyar müəllimin yaratdığı Afşin də belə bir obraz olaraq əbədiləşəcək. Bir də ona görə ki, bax, elə yaşadığımız əsrdə min bir xəyanət görmüş xalqımız son on ildə satqınlığın qurbanı olub, öz ərazisinin bir qismini itirmişdir. Bizlər bunun canlı şahidləriyik.

Tamaşada Babək də kölgədə qalmamışdır. Azərbaycanın azadlığı naminə rəşadət və şücaətlə çarpışmış oğlu indi dünyasını dəyişmişdir. Ancaq qeyb olmamışdır, onun ruhu ölkə üzərində gəzir, xüsusən xəyanətkar padşahın — Afşinin azğınlıqlarını acı qəhqəhələrlə, nifrətlə müşayiət edir. Bu, dramaturgiyanın mayasını daha da tündləşdirir. Ancaq Xəyanət öz yollarında bundan da qatı bir gedişlə rastlaşır. Afşin təkcə böyük el sərkərdəsinə, ümumilikdə xalqına deyil, öz ailəsinə, doğma övladına da xəyanət edib. İndi o, öz qızı Çılğının ölümünə fərman verməli olmuşdur.

Soruşula bilər, nəyə görə faciə üçün Babəkə qarşı edilən rəzalət dövrü deyil, Afşinin hökmranlığı dövrünün zaman və məkan amili seçilib. Cavab: əsərin super aktuallığı da məhz bundadır. Dramaturq xəyanətlərin ayaq açıb iri addımlarla cəmiyyətin bütün maddi və mənəvi sahələrinə soxulduğu bir dövrdə uzaq keçmişdən seçdiyi mövzunu bu günün gözü ilə həll etmək istəmişdir. Və deməliyik ki, dramaturq öz yaradıcı amalına, bu çətin mövzunun sənətkarcasına həllinə tam müvəffəq olmuşdur.

Sevindirici haldır ki, tamaşanın quruluşu, aktyor ifaçılığı və dekor həlli də bu səviyyədə — yüksək sənət tələbkarlığı ilə həll edilib. Tamaşa bizə belə təsir buraxdı ki, aktyor üçün "özünü oynamaq" qəbahət hesab olunsa da, çox yaxşı ki, bu əsərdə aktyorlar məhz öz talelərini, müasirlərinin taleyini oynayırlar. Baş rəssam Elçin Məmmədov məkanı təzadla, məharətlə həll etmişdir: uçurulub dağılmış Xürrəmi qalası və dəbdəbəli Afşin sarayı isti və soyuq rənglərlə qarşı-qarşıya qoyulmuşdur. Hökmran dairələrinin dəbdəbəli saray geyimi ilə xürrəmilərin nimdaş geyimi dövrün acınacaqlı halından xəbər verir.

Afşin — Kamal Xudaverdiyev, Ana — Zərnigar Ağakişiyeva, Çılğın — Məleykə Əsədova, insafən bütün aktyorlar öz rollarında elə sərrast, coşğun, xəyanət və sədaqət müstəvisində gerçəklik nümayiş etdirirlər

ki, zaldakıları da bu ovqat çulğayır. Sayqılı Kamalı bu rolda görəndən sonra bir daha təəssüfləndim ki, niyə biz dərin psixoloji durumlu belə bir aktyoru filmlərdə baş rola çəkməmişik... O hiss edib ki, Afşini yalnız bir rəngdə — xəyanətkar, qaniçən zalım rolunda oynamaq olmaz və sözsüz, bunları həll edib. Axı, o bir vaxtlar türkün məşhur sərkərdəsi olub. Kamal qılınc vurmadan — öz məğrur qədd-qaməti, sərkərdə təmkini, soyuqqanlığı ilə bunu necə də reallaşdıra bilib! Belə bir istəyimizi də deməyə lüzum görürük ki, Afşinin ailə faciəsi ilə bağlı dramatik düyün bir qədər əvvələ çəkilsə, başlanğıcdakı süstlük aradan qalxar. Afşin səltənətini möhkəmləndirmək üçün Babəkin oğlu Sabutayı bilavasitə zülm əməlinə cəlb etməsi bir yana, onu xəlifənin şikəst qohumu ilə evləndirmək də istəyir. Yaxşı olardı ki, bu anda daxili monoloqla öz ailə faciəsini xatırlasın... O zaman tamaşaçı fikirləşər ki, onun belə bir xəyanəti də olub və bunun da əvəzini almalıdır.

Çılğın roluna ikili münasibətlə bağlı biz də bu fikirlə razılaşırıq ki, onu döyüş libasında görmürük. Ancaq bu da var ki... O gözəldir, məsum bir qızdır (gəlinciyi ilə oylənəndə xüsusən) və bu gözəllik itkisi tamaşaçını ehtizaza gətirməyə bilməz.

Cavanşir Quliyevin musiqisi hadisələri gah bayatı bəmində, gah da Heyratı ucalığına uyar dalğalarda gəzdirir.

Ən nəhayət — əsərin səhnə müəllifi — rejissorun işi barədə. Görkəmli sənətçimiz, xalq artisti Ağakişi Kazımov vətənpərvərliklə satqınlıq macərasını çoxsəsli orkestr dirijorluğu ilə elə möhkəm vəhdətdə birləşdirə bilmişdir ki, tamaşaçı ağır həyəcan yükü daşıdıqdan sonra zalı nikbinliklə tərk edir və onda belə inam yaranır ki, hər bir xəyanətin, xalqa hər bir pisliyin sonu vardır. Cümlə xəyanətlərə bais iblislər məhv məhkumdur.

Hakimiyyət iki şeylə qazanılır, mühafizə olunur və möhkəmləndirilir. Biri qoşun, digəri puldur. "Dar ağacı"ndan çıxardığımız nəticədə üçüncü, təkzib olunmaz və mütləq bir həqiqət də var. O da xalqın birliyi, yekdilliyi, millətdaxili etimad və sədaqətidir. XXI əsrə biz məhz bunlarla getməliyik. Başımızın üstünü almış qara buludlar yalnız xalq nəfəsi ilə, xalqla dövlətin birliyi ilə dağıla bilər. Əbəs deyildir ki, dahi Bertlot Brext yaşadığımız yüzilliyə alman xalqının xırda dərd-səri ilə bağlı deyil, bəşəri bir nida ilə müraciət edib, bütün fəlakətlərin baisini Qalileyin ("Qaliley" pyesində) monoloqu ilə belə deməyə lüzum görüb: "Knyazlar, mülkədarlar, ruhanilər əhalinin əksəriyyətini qalın duman-xürafata və çeynənmiş sözlər dumanına qərq edib, var-mülk sahiblərinin pis işlədiklərini gizlətmək istəyirlər, buna qarşı döyüşmək

gərəkdir."

Bəxtiyar Vahabzadənin istedadlı əsəri, əməlləri — xalqa qarşı çevrilənlərin son məqamda dar ağacı altına çağırılacağına tam əminlik yaradır.

Bizcə, xalqın qələm əhlindən haqlı umacağı bunlar sayıla bilər: Xeyir və Şərin üstünü almış qatı dumanları dağıtmaq!

"Ədəbiyyat qəzeti", 5 yanvar 2001-ci il.

Əyyub KƏRİMOV

BƏXTİYAR VAHABZADƏNİN "DAR AĞACI"

"...Həqiqəti danışanın ağzından atan cəmiyyətdə ədalət ola bilməz..."

B.Vahabzadə

Cəmiyyətin şair və hökmdar problemi demək olar bütün ZAMANLARDA olub. Niyə şairi öndə, hökmdarı sonra yazdıq? Ona görə ki, cəmiyyətdə baş verənlərə dözməyən şairlər, yazıçılar zaman-zaman haqq səslərini qaldırıb, bu SƏSDƏN qorxan hökmdarlar isə nə yolla olur-olsun problemi həll etməyə çalışıblar, həmişə həmin SƏSİN sahibini nəzarətdə saxlayıblar. Problemin yumşaq həlli tapılmadıqda isə ya üsyankar səsin sahibi məhv edilib, ya da onun yazdıqlarına qadağa qoyulub. Hətta qələm sahibləri, söz sahibləri olan şairlər, yazıçılar öz zamanlarını sürüb ölüb gedib, lakin onların yazdıqları sonrakı hökmdarları, diktatorları da narahat edib, gözə görünən və görünməz bir nigarançılıqda saxlayıb. Məsələn, Stalin "Hamlet"i Sovet İttifaqında qadağan etmişdi. 1967-ci ildə Lubyankada hakimiyyətə gələn Y.V.Andropov isə ilk olaraq Taqanka teatrında yenicə tamaşaya qoyulmuş "Boris Qodunov"a qadağa qoydu. Andropovun nədən qorxması və ehtiyatlanması bu günə qədər də məlum deyil.

Bakı Dövlət Universitetinin professoru Şirməmməd Hüseynov yaxın keçmişimizi "7 gün" qəzetinə verdiyi müsahibədə belə xatırlayır: "... Xruşov "KQB"-nin əl-ayağını yığmışdı. Ondan sonra hakimiyyətə gələn Brejnevin vaxtında isə başladılar fanatikcəsinə kommunist olmayanları izləməyə. Ən çox da milli təfəkkür tərzi olanları izləyirdilər. Onda sanki bir intibah dövrü idi. Bu nəslin nümayəndələri (indi onlara

60-cı illərin nümayəndələri deyirlər) 37-ci ili görməmişdilər. Odur ki, onlarda ölüm xofu yox idi, təqib xofu var idi. Bəxtiyar Vahabzadə də 50-ci illərdən başlayaraq milli düşüncə tərzinin təbliğatçısına çevrilirdi. Onun bir çox əsərləri milli özünüdərkə təkan verirdi. ... Mən filologiya fakültəsinin partiya təşkilat katibi olanda SSRİ-nin müxtəlif yerlərindəki hərbi hissələrdən universitetə məlumatlar gəlirdi ki, azərbaycanlı əsgərlərin çantalarından bir poema tapırıq — Bəxtiyar Vahabzadənin "Gülüstan" poeması. Sorğu göndərdilər ki, kimdir bu Bəxtiyar Vahabzadə?

Həmin illərdə, yəni 60-cı illərin ortalarında Azərbaycan "KQB"-sindən SSRİ "KQB"-sinə məktub yazılmışdı ki, icazə verin SSRİ Yazıçılar İttifaqının üzvü Bəxtiyar Vahabzadəni cəmiyyətdən təcrid edək.

... SSRİ "KQB"-si də Mərkəzi Komitəyə müraciət etmişdi ki, bu işə necə baxırsınız. Suslov cavabında bildirmişdi ki, profilaktika aparmaq lazımdır. Yəni başını sığallayın, orden verin, medal verin, deputat eləyin, vəzifə verin olsun bizim adam. Bundan sonra Bəxtiyarı çağırırlar "KQB"-yə, Heydər Əliyev ona deyir ki, Lenin haqqında bir poema yaz."

Tezliklə belə bir poema yazılır və bu poema "Muğam" poeması ilə birlikdə Azərbaycan Dövlət Mükafatına layiq görülür. Bir sözlə təhlükə sovuşur.

Bəxtiyar Vahabzadə də öz növbəsində 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıtmasına köməklik göstərir (Milli Məclisdə Tamerlan Qarayevlə məşhur çəkişmə hamının yadındadır). Sonra H.Əliyev də borclu qalmır. B.Vahabzadə "İstiqlal" ordeninə layiq görülür, 1995-ci ildə, o cümlədən 2000-ci ildən əvvəlki illərdə olduğu kimi millət vəkili də seçilir.

Lakin bir müddət sonra H.Əliyev dövrü də şairi razı salmır, "içində qalaq-qalaq dərdlər göyərir". Necə də göyərməsin? Görəndə ki, ölkə başdan-başa "qul bazarıdır". Görəndə ki, "milləti qaratikan kimi qırırlar". Görəndə ki, "zor haqqın belinə minib çapır". Görəndə ki, "haqq dilənçi kimi qapılar gəzir". Görəndə ki, "azadlıq xalqa qənim kəsilib". Görəndə ki, "millətin mənliyi qul bazarında satılır". Bu vaxt şair Bəxtiyar Vahabzadə "Amandır, qoymayın" deyə haray çəkir. Bəs kim qoymamalıdır? Bunu şair bilir, ancaq...

Mənə elə gəlir ki, Bəxtiyar Vahabzadə hazırda vaxtı ilə böyük proletar yazıçısı Maksim Qorkinin yaşadığı bir taleni yaşayır (Ona görə də "Uman yerdən küsərlər. Hamı məni öndə görmək istəyir. Ancaq taqətim qalmayıb. Gərək bu qədər yaşamayaydım" deyir). Belə ki, vaxtı

ilə Stalin Maksim Qorkidən çox bərk qorxduğuna görə onun bir dəqiqə də olsun gözdən qaçırılmasına imkan vermirdi ki, zəhmətkeşlərin ölkədə baş verənlərdən ona yazdıqları ilə əlaqədar yazıçının ürəyində rəhbərə qarşı bir şübhə toxumu göyərə bilərdi. Daha doğrusu belə şübhə artıq göyərmişdi və Stalin bunu bilirdi. B.Vahabzadənin hər gün, hər həftə ona gələn şikayət məktubları, ölkədə baş verən özbaşınalıqlar barədə prezidentə nə isə deməsi, ölkədəki vəziyyət barədə narahatlıq ifadə etməsi barədə əlimizdə dəqiq məlumat yoxdur. Ancaq hesab edirik ki, əgər B.Vahabzadə meşok-meşok ona gələn şikayət məktublarından heç olmasa 5—6-sını prezidentin otağına aparsa və ölkədə vəziyyətin dözülməz olduğunu bildirsə, H.Əliyev professional siyasətçi kimi onu pəncərə önünə gətirərək prezident aparatı qarşısından şütüyən xarici avtomobilləri göstərərək deyəcək ki, şair, de görüm hansı ölkədə bu qədər xarici avtomobil var və küçələrində bu qədər xarici avtomobil şütüyən şəhərə və ya ölkəyə dilənçi demək olarmı? (Daha aydınlaşdırılmayacaq ki, bu maşınlar kimindir?)

Yəni yazılanlara o qədər əhəmiyyət vermə. Bunu da müxalifət təşkil etdirir. Get otur, şerini yaz.

Özünün şəxsi mobil telefonu olmayan, ancaq ölkədəki mobil telefonların sayından bu yaxınlarda heyrətlənmiş H.Əliyev belə deyə bilər. Bəxtiyar Vahabzadə də gəlib oturub başlayar şerini yazmağa:

Günbatar ölkələr insanlıq üçün
Təzədən kəşf edir göylərdən yeri.
Bizim ölkədəsə kəşf olur hər gün
Köhnə yaltaqlığın təzə növləri...

Şerin yazılmasına səbəb isə "televiziya ilə çıxış edən bir nəfərin torpağının 20 faizi işğal olunmuş, bir milyon qaçqını olan millətimizin bu gününü"ən işıqlı günlər" adlandırıb prezidentimizi Allaha qiyaslandırması" olacaqdır.

Əgər Stalin M.Qorkiyə böyük bir saraya bənzər yaşayış evi vermişdisə, H.Əliyev B.Vahabzadəyə DTK-nın sabiq sədri Vaqif Hüseynovun boş qalmış mənzilini verdi.

Ancaq M.Qorkidən fərqli olaraq B.Vahabzadə zaman-zaman səsini qaldırır. Əgər M.Qorki rəhbər barədə səhv etdiyini içində, daxilində anlayırdısa, B.Vahabzadə şerlərində bunu anlayır və anladır:

Biri dedi: "Səbr versin Allah bizə
Əlac etsin dərdimizə"
Mən deyirəm: "Qul eylədi səbr bizi

Allah alsın əlimizdən səbrimizi".

Məhz daha səbrdən doymuş şair Bəxtiyar Vahabzadə də Azərbaycan Akademik Milli Dram Teatrında öz "Dar ağacı"nı qurdu və oradan bir hökmdar asdı.

Prezidentimizin bu tamaşaya baxıb baxmadığını deyə bilmərik. Bu tamaşanın nə vaxtsa qadağan olunacağını da o cümlədən. (Yada Seyran Səxavətin 80-ci illərin sonunda tamaşaya qoyulmuş "Qızıl teşt"i düşür). Ancaq birdən

"Ancaq demədilər, səbri din kimi,
Qəbul eyləyənlər ölər acından"

hayqıran şair Bəxtiyar Vahabzadə hər şeyini itirmiş XALQININ əzablarına dözməyərək öz "Dar ağacı"nı AZADLIQ MEYDANINDA qurmaq fikrinə düşsə, qadağa, şallaq mexanizmləri hökmən işə düşəcək. Çünki onda bu "Dar ağacı"nda hansısa tarixi bir diktator yox, Azərbaycanı bu kökə salan TAYFA asılmalı olacaq.

İndi özünüz düşünün TAYFA buna razı ola bilərmi?

"Femida" qəzeti, 20 yanvar 2001-ci il.

Şahnaz MƏTLƏBQIZI

DAR AĞACI

Bir gün o, xalqın qanını soranlara qurulacaq.

Necə ki, Bəxtiyar Vahabzadənin əsərində baş verir

Ay Allah! Bu məmləkəti nə qədər sınağa çəkmək olar. Tarix boyu sınana-sınana gəlirik. Hələ də varıq, yaşayırıq. Ulularımız çox sınaqlardan alnıaçıq, üzüağ çıxdıqları kimi, biz də onların bizə miras qoyub getdikləri məmləkəti göz bəbəyimiz kimi qoruyub, azad, bütöv, haqq-ədalətin bərqərar olduğu bir ölkə kimi gələcək nəsillərə hədiyyə verməyə çalışmalıyıq. Bu gün xalqımız özünün ən ağır, işgəncələrlə dolu günlərini yaşayır. Canımız candan ayrılıb. Qarabağımız neçə ildi ki, bizdən ötrü zarıyır, əlləri uzalı qalıb. Ölkə əhli problemlər, üzüntülər, qayğılar məngənəsində sıxılır. Hamı bu gündən sabaha çıxmanın yollarını aramaqla məşğuldur.

Amma bütün bu ağrı və acılara, dərdə, fəlakətə baxmayaraq, həyat davam edir. Bunu xalq şairi Bəxtiyar Vahabzadənin "Dar ağacı" əsərini

tamaşaya qoyan Akademik Milli Dram Teatrı da sübut etdi.

Bəxtiyar müəllimin şəxsi dəvəti baş redaktorumuz Rauf Arifoğlu başda olmaqla, bir qrup "Yeni Müsavat"çını da tamaşaya baxmağa sövq etdi. Amma biz orada heç də tək deyildik. Seyrçilər arasında yazıçı-jurnalist Mehriban Vəzir, filologiya elmləri doktoru, professor Kamil Vəli Nərimanoğlu, Xalq Partiyasının sədri Pənah Hüseynov, baş nazirin sabiq müavini Əsgər Məmmədov də vardı.

Cəfər Cabbarlının xatirəsinə həsr olunan bu əsər "Od gəlini"nin bir növ davamıdır. Əsərdə Babəkin edamından sonrakı dövr əks olunub. Hakimiyyətin Babəkin qardaşı Aqşinin əlinə düşməsi və onun satılaraq öz xalqına qan uddurması çox ağrılıdır. "Dar ağacı" Azərbaycanın bu günü ilə necə də gözəl uzlaşır. Dövlətimiz xalqın qarşısında aciz qalıb. Gücünü yalnız yalan vədlərlə, zorakılıqla, haqq-ədaləti boğmaqla göstərir.

"Dövləti siyasətlə idarə etmək lazımdır. Dövlət başçısı siyasətlə suya da düyün vurmağı bacarmalıdır. O da bizdə yoxdur." Gözəl deyilib. Amma gəlin "yox" sözünü yaxına buraxmayaq. Azərbaycan torpağı heç vaxt "yox"la barışmayıb. Ən çətin dövrlərdə belə "yox"u "VAR"a çevirməyi bacarıb. Elə böyüklüyümüz də ondadır. Amma indi elə bir zaman gəlib ki, o "VAR"ların qarşısına yalan-böhtanlarla, haqsızlıqlarla sədd çəkirlər. Onların fəaliyyət göstərməsinə imkan vermirlər.

Gəlin ümidimizi də üzməyək. "Babək "Novruz"a kimi gəlib çıxacaq". Az qala canından da bezən xalqımız belə "Novruz"un elə günü sabah gəlməsini arzulamırmı? Hamı arzulayır ki, xalqın ümid yeri bildiyi OĞUL gəlib çıxsın və milləti bəladan qurtarsın. Onda Aqşinlərə bu məmləkətdə yer olmayacaq. Dövran Babəkin dövranı olacaq ki, "gəlin haqq yoluna" deyərək xalqı öz ətrafına toplamağı bacarsın. Çünki buna millətimizin ehtiyacı var.

Tanrı bizi yaradanda, görəsən, niyə bu qədər fərqli yaradıb? Birimizi ədalətli, haqq-ədalət carçısı, xalqını sevən, o birini zalım, qəsbkar, satqın. Tam bir-birimizin əksi. **"Biz nə bədbəxt nəslin övladlarıyıq. İki qardaş bir-birinə düşməndir. Biri satqın, biri sadiq."** Amma nə olsun. Satqınlığı hətta öz atasına bağışlamayan Çılğınlarımız da var. **"Mənim atam bizə azadlıq yox, əsarət gətirənin özü imiş"** deyən Çılğın belə Aqşindən — hökmdardan qorxur: **"Qorxuram səndən. Çünki əllərin millətin qanına bulaşıb."**

Millətinin halına yanmayan, ona olmazın zülmlər verən hökmdarın sonu dar ağacından asılmaqdan başqa nə ilə nəticələnə bilər? Özü də illərdən bəri xidmət elədiyi adamların əli ilə asılmaq. Aqşin kimi...

Tamaşaçılar arasında olan Mehriban Vəzirlə görüşüb onun əsərlə bağlı düşüncələrini öyrəndik. Mövzuya müəllifin özünün xüsusi yanaşmasının olduğunu qeyd edən Mehriban Vəzir bu əsərdə Azərbaycanın çağdaş problemlərinin həlli üçün nəticə çıxarmalı məqamların çox olduğunu söylədi: **"Elə məqamlar var ki, həqiqətən də tariximizdə olub və təəssüf ki, biz bu səhvləri etmişik. Və yenə də təəssüf ki, bu gün də bu səhvləri təkrarlayırıq. Ona görə də hesab edirəm ki, ölkəmizin ictimai-siyasi həyatında rolu olan simaların əksəriyyəti bu tamaşaya baxsalar, yaxşıdır."**

Azərbaycanın ictimai fikir tarixində mühüm rol oynayan "Gülüstan" kimi bir əsərin müəllifi olan B.Vahabzadənin ictimaiyyətə özünün müəyyən diqtə etməyə haqqı çatdığını deyən Mehriban xanım "hesab edirəm ki, həmin diqtələr "Dar ağacı" əsərində var" söylədi: **"Qardaşın qardaşla həmrəy olmamağı ölkəni hansı vəziyyətə gətirə bilər, atanın oğulla, övladın ata ilə eyni yolun yolçusu olmamağı Vətəni, milləti hansı bəlalara, faciələrə düçar edə bilər? Mən hesab edirəm ki, hamımızla bərabər, bu ağrıları, acıları yaşayan Bəxtiyar Vahabzadə onu bu şəkildə öz tamaşaçısına, oxucusuna çatdırmaq istəyir."**

Başqa bir ciddi problemə toxunan Mehriban xanım bu gün incəsənətin durumunun çox acınacaqlı olmasından narahatlıq keçirdiyini bildirdi: **"Teatrların, aktyorların sosial həyatı son dərəcə ağırdır. Bilirsiniz, heç vaxt mümkün deyil ki, cəmiyyət kasıb yaşasın və onun hansısa sahəsi, tutaq ki, incəsənəti, ədəbiyyatı və s. rifah içində olsun. Bu, mümkün deyil. Çünki incəsənət adamları da xalq deməkdir, teatr da. Teatr bütün sosial göstərilərin ifadəsidir. Təsəvvür edin ki, şah, sultan obrazında oynayan bir aktyorun sosial həyatı lap aşağı həddə olanda o, həmin obrazı ömründə yarada bilməz. Gərək heç olmasa, həmin aktyor normal bir həyat yaşasın, güzəran problemi olmasın. Bütün bu şeylər əgər aktyorda yoxdusa, o, şah obrazını yarada bilməz. Və o, həmin tamaşada hiss olunurdu. Aktyorların özlərinin bir kasıbçılıq sifəti vardı. Hiss olunur ki, bu adamların güzəran problemi var və onlar güzəran problemlərini səhnəyə gətiriblər. Səhnədə zəngin ola bilmirlər. Bu, çox ciddi problemdir."**

M.Vəzir əsərdə bir az tələsik işlənmiş məqamların mövcudluğunu

da qeyd etdi: **"Bir az tələsdiyi hiss olunsa da, hər halda, Bəxtiyar müəllim işləyib. O, bir daha öz tamaşaçılarının diqqətini cəmiyyətin mənəvi problemlərinə yönəltmək istəyir. Mənə elə gəlir ki, Bəxtiyar müəllim diqqəti tarixdən çox mənəvi məsələlərə yönəltmək istəyir. Vətənin azadlığı, müstəqilliyi yolunda xalq bir olsa, daha yaxşı nəticə əldə etmək olar. Biri xilafətin, digəri Rus imperiyasının, biri İranın tərəfində, başqa birisi Qərbyönlü olanda bu, ölkəni katastrofa gətirib çıxarır. Mənə elə gəlir ki, Bəxtiyar müəllim insanların diqqətinə bunu çatdırmaq istəyirdi".**

Professor Kamil Vəli Nərimanoğlu Bəxtiyar Vahabzadənin "Dar ağacı" pyesində müəllifi narahat edən tarixə çağdaş baxımdan tarixi yorumun diqqəti daha çox cəlb etdiyini bildirdi: **"Xüsusilə mənim üçün son səhnə çox qiymətli idi. Öz xalqını əzab-əziyyətə salan diktatoru ağlamaqdan və yaxud da ki, söyməkdən başqa millətin əlindən nə gəlir? Bu sonluq mənimçün çox ibrətli idi və məncə, hər hansı xalqına zülm edən diktator üçün də ibrətlidir."**

Siyasi proseslərə daha çox şərh verməyi xoşlasa da, AXP sədri Pənah Hüseynovdan da əsərin ona necə təsir bağışladığını öyrəndik. Pənah bəy əsərdə bugünkü siyasi həyatımızla bağlı xeyli paralellər olduğunu dedi: **"Yəni əsər tarixi mövzuda yazılmış olsa da, mənə elə gəlir ki, Bəxtiyar Vahabzadə tarixi obrazlar vasitəsilə müasir siyasi Azərbaycan gerçəkliyinə özünün münasibətini ifadə edib."**

Sonra onu da qeyd edək ki, "Dar ağacı"nda əsas baş rolları xalq artistləri Kamal Xudaverdiyev, Ramiz Məlikov, Zərnigar Ağakişiyeva, Məleykə Əsədova, Hacı İsmayılov, İlham Əsgərov və bir çox tanınmış aktyor və aktrisalarımız ifa edirdilər.

"Yeni Müsavat" qəzeti, 10 yanvar 2001.

Kamil Vəli NƏRİMANOĞLU

MİLLƏTİ ZƏLİL QOYUB GEDƏNLƏRİN SƏHNƏ AĞISI

Bəxtiyar müəllimin türk tarixinə, türk-islam tarixinə, dövlətçiliyimizin tarixinə üz tutması təbiidir. Bu günün suallarına tarixin fonunda cavab aramaq, layiqli cavab vermək ədəbiyyatın çox qədim üsullarından biridir. 20-ci illərdə ateizm tufanının gücləndiyi, tüğyana başladığı bir zamanda C.Cabbarlı "Od gəlini"ni qələmə aldı. Ehtirasların toqquşması, sözlərin diriliyi, hərəkətin bolluğu baxımından əsər uğurlu idi. Fəqət sovet ideolojisi hopmuş bu əsərdə tarixi tale yanlış yozulmuş, keçmişi təhrif edilmişdir. Türk-islam mədəniyyəti yaradan xalqın islam gerçəkliyinə kölgə salınmışdır. C.Cabbarlının qurtardığı yerdən başlayan şair-dramaturq eyni tarixi fona yeni anlam vermişdir. Yalnız qəhrəmanlar tarixin ibrət dərsi deyil. Aldanmışların, yanlış yol tutmuşların, xəyanətkarların da həyatı ibrət dərsidir.

Qədim yunanlarda belə olub, müasir çeçenlərdə də. XIX yüzilin birinci qərinəsində rusları qılıncla qarşılayanlar da olub, duz-çörəklə qarşılayanlar da.

Bəxtiyar müəllim yeni səhnə əsərinə "Dar ağacı" adı verib. Bu ifadə artıq Azərbaycan şerində (R.Behrudi), milli-azadlıq hərəkatının mitinqlərində simvol kimi səslənib. Türk dünyası poeziyasında artıq dar ağacı mövzusu var.

Dar ağacı əzabın, ağrının, ölümün deyil, iradənin, ölümsüzlüyün rəmzidir.

Bəxtiyar müəllim dar ağacının qurbanı iki qardaşı üz-üzə qoymaqla dünyanın ziddiyyətlərini, zamanın paradoksunu canlandırmışdır. "Gülüstan" poemasındakı ağrı azalmamış, ömür qüruba doğru getdikcə artmışdır. "Latın dili" şerində ana dilini susduran rus dili mətnaltı olduğu kimi, "Dar ağacı"nda ərəb istilası (İslam dini deyil!) rus, fars istilasının rəmzidir. Mahiyyətində əsaslı fərq olmayan bu işğalçının qarşısında dayanan sədd milli kimlik, milli dövlət, milli dirçəlişdir. Güclü millət məğlub olsa da təslim olmur, köləliyi qəbul etmir. Ya qalib gəlir, ya da qalibiyyət yolunu tutur, həmin yolda illər boyu mücadilə edir.

Əslində Babək hərəkatı da, Cavad xan hərəkatı da, Demokratik Cümhuriyyətin Vətən davası da, Rusiya—Ermənistan qüvvələrinə qar-

şı aparılan Qarabağ savaşı da din uğrunda, inanış yolunda aparılan mücadilə deyil, Vətən, Dövlət, Millət uğrunda aparılan müharibədir.

Bu anlamda "Dar ağacı" çox geniş tarixi kontekstlə bərabər, çağdaş dövrü də əhatə edən sənət əsəridir.

Fikir çoxluğu bəzən səhnə üçün zəruri olan hərəkəti, dinamizmi qısaltsa da, şair sözü dramaturq sözündən daha uca səslənir.

Və insaflı rejissor Ağakişi Kazımovun haqqını da unutmayaq. Ağakişi müəllim şair ağrısını, söz fəlsəfəsini, kalam dinamikasını səhnə fəaliyyətinə, görünən dinamikaya çevirmək üçün hər cür imkandan istifadə edən təcrübəli rejissorun qurduğu mizanlar, dialoq cazibəsi diqqətə və təqdirəlayiqdir. Elə C.Cabbarlıdan gələn sözün yaxşı mənasında səhnə pafosu tamaşaya çeviklik, sərrastlıq qazandırmışdır.

Teatr elə bir sənət növüdür ki, həyatın özü ilə səsləşir və dəyərləndirir. Tamaşaçının öz dövrü, öz havadarı, öz hökmdarı, öz ailəsi, öz həyatı haqqında eşitmək və görmək istədiyi çox şey teatrdadır. Bu mənada əsərin müasirlik kodu ürəklərə su səpəcək qədər güclü olmasa da, yetərlidir.

Tamaşanın son səhnəsindəki dialoq əsərin (və eyni zamanda aktyorların və rejissorun) müasir mətnaltı anlamını başa düşmək üçün açardır:

"Afşin: — Mən öz Vətənimə qarşı vuruşanda—ölü oldum. Hökmdar oldum — yenə ölü idim. Ölüm qarşısında dirildim. İndi mən ruhən dirilib, cismən ölümə gedirəm!

İbn Süheyl: — Son sözünü de!

Afşin: — Rica edirəm, bu cəlladı dəyişdirəsiz.

İbn Süheyl: — Niyə?

Afşin: — Çünki o ərəbdir.

Ana: — Haqlısan, oğul. Onların səni öldürməyə haqqı yoxdur.

İbn Süheyl: — Ölüm ölümdür. Nə fərqi var səni kim öldürür?

Afşin: — Var! Anam düz dedi. Sizin məni öldürməyə haqqınız yoxdur. Çünki mən ömrüm boyu sizə qulluq göstərmişəm. Özümünkülərə qənim kəsilmişəm. Qoy məni qulluq göstərdiklərim yox, düşmən kəsildiklərim öldürsün!

İbn Süheyl: — Səni ərəb asmalıdır! (Afşin dar ağacına yaxınlaşır, kəndiri boğazına keçirərkən Babəkin fəryadı eşidilir).

Afşin: — Bəs indi niyə gülmürsən, qardaşım?

Babək: — İndi ağlayıram. Bu boyda milləti "uf" demədən zəlil qoyub gedənin halına ağlamamaqmı olar?"

İbrətlidir. Hər zaman üçün. Bütün diktatorlar üçün. Minlərlə dilənçinin, yurdsuz-yuvasızın, vətənsizin qabağına şaqraq KVN (Bu Kamil

Vəli Nərimanoğlu deyil) gülüşləri ilə çıxan dünyanın ən zəngin padşahına həm gülən, həm ağlayan bu millət üçün canından keçən əsgər-mücahid olacaq. Əminəm. Gedən bu dünyadan nə aparır ki — uzaqbaşı 5—6 metr ağ bez. Vay qalanların halına.

Nə isə...

Tamaşaçını da oyunçuya, iştirakçıya çevirən dramaturq tarix qarşısında düşüncələrə dalır. İstismarın və işğalın da yəqin ki, fəlsəfəsi var. Diktatorluğun da öz fəlsəfəsi var. Amma bu fəlsəfələrə qapılmalardansa, fəlsəfəsi ilə birlikdə məhv etmək, yerə gömmək (yer götürsə) daha əfzəldir.

Babəkin Hamletin atasını xatırladan ruhu tez-tez "İntixab et! İntixab et!" deyə hayqırır. İntixab sözü, ərəbcədir, anlamı seçmək, ayırmaqdır. Bəxtiyar müəllim doğma sözlərimizlə yazmağı sevən söz ustasıdır. Amma bu sözün ərəbcə səslənməsinin öz xofu, öz hüquqi çaları və rəsmiyyəti var. İntixab et — yəni çevril, diril, varlığını tap, kökünə, özünə qayıt...

Babək islam düşməni olmaqdan çox Vətən mücahidi kimi yaddaşda, tarixdə qaldı. Rəmz, örnək oldu. İslamı qəbul etmiş, bayrağında islam rəngini də daşıyan Azərbaycan türkləri (və eləcə də Azərbaycanın türk olmayan vətəndaşları) Babəki Vətən, toxunulmazlıq, qəhrəmanlıq rəmzinə çevirdi.

Afşin (əslində Aqşin, müqayisə et — ağşın, qaraşın, sarışın...) tarixdə dönüklük (əslində dönəklik), faciə, xəyanət rəmzi kimi qaldı. Halbuki yaddaş, qan onların hər ikisini qəhrəman yaratmışdı. Babək taleyinin ardınca getdi. Afşin taleyinə və tanrısına təpik atdı. İslamı qəbul edə-edə islamın ana gerçəyini pozdu.

Azərbaycan Akademik Milli Dram Teatrının soyuq (sözün həqiqi mənasında) divarlarını aktyorların isti oyunu hərarətləndirdi.

Kamal Xudaverdiyevin yorğun, əsəbi varlığı ilə Afşinin ruh halı o qədər üst-üstə düşür ki, aktyor içindəki ağrını oynayır — inamla, dərd-ələmlə, səmimiyyətlə. Qədri bilinməyən böyük aktyora təsəlli üçün, ümid üçün deməyə söz tapmıram...

Ana — Zərnigar Ağakişiyeva, Çılğın — Məleykə Əsədova, Babək — Əli Nur, Sabutay — İlham Əsgərov öz rollarını gözəl oynayırlar. Məleykə Əsədovanın zəhmətini, axtarışlarını, sərbəstliyini, yetkinliyini qeyd etməyi özümə borc bilirəm. Məsələnin bu tərəfini teatrşünaslar yaxşı bilir.

... Yazımı nida işarəsi ilə bitən cümlə ilə bitirmək istəmirəm. Əziz Bəxtiyar müəllimə bu ağır, çalxantılı zamanda can sağlığı diləyirəm.

75 yaşlı qocaman sənətkar doğma Şəkinin ağır günlərini evində, qələmində, ürəyində yaşamağa məcburdur. Bəxtiyar müəllim Babək deyil, Babəkləri, o ruhları Vətənə çağırandır.

Gələcəklərmi?

P.S. *Allah bu məmləkətin neft, gömrük, əmlak, səhiyyə, rabitə, polis, universitet maqnatlarının ürəyinə bir az rəhm salaydı, heç olmasa qışda Azdramanın, operanın soyuq salonlarını isidəydilər, millətin çənəsi-çənəsinə dəyməyəydi. Rəhmətlik Hacı Zeynalabdin Tağıyev millətə olmazın yaxşılığını etdi — təmənnasız. Oğlanları o gündə öldü, qızları dilənçi oldu.*

Görəsən...

"Yeni Müsavat" qəzeti, 12 yanvar 2001.

Firuz MUSTAFA

"DAR AĞACI" İLƏ ÜZ-ÜZƏ

Bəxtiyar Vahabzadənin bütün yaradıcılığını xarakterizə edən hər hansı bir söz və ifadə axtarsaq, yəqin ki, ilk öncə **etiraf** kəlməsini seçməli olardıq. (Yeri gəlmişkən qeyd edək ki, sənətkarın eyni adlı poeması—"Etiraf" bu gün də sevilə-sevilə oxunur).

Şair üçün etiraf həm poetik mənin, həm də onun obrazlarının tövbəsi deməkdir. Bu mənada dramaturq Bəxtiyar Vahabzadənin "Dar ağacı" pyesi də istisna təşkil etmir. Bir növ "Özümüzü kəsən qılınc" ("Göytürklər") əsərinin bədii-məntiqi davamı kimi səslənən yeni tamaşa şair-dramaturqun illərdən, onillərdən bəri formalaşan ədəbi manifesti və kredosu kimi qəbul edilməlidir.

Hökmdar və xalq... Hakimiyyət və iradə... Kütlə və fərd... Bu fenomenlərin qarşılıqlı əlaqə, nüfuz və təsiri yeni əsərin leytmotivini təşkil edir. Tarixi romanlar müəllifi Çarlz Dikkensin belə bir kəlamı var: "Tarix mənə öz ideyalarımı asmaq üçün bir mismardır". Bu mənada müraciət etdiyi tarix, dövr, mərhələ B.Vahabzadəyə bir vasitə, bəhanədir. Əslində isə müəllifin müraciət etdiyi tarix heç də keçmiş deyil, bu gün, lap elə bəlkə də hələ fərqinə, mahiyyətinə varmadığımız sabahdır.

Tamaşa Bəxtiyar Vahabzadənin lentə alınmış səsi ilə açılır. Pyes böyük Cəfər Cabbarlının xatirəsinə həsr olunub. Yox, bu yubiley tamaşası deyil. Bəs yeni əsərdə Cabbarlının xatirəsi nə üçün yad edilir? Oxucu

(tamaşaçı) "Od gəlini" əsərini, onun iki əsas qəhrəmanını — Babəki (Elxanı) və Afşini (Aqşini) yaxşı xatırlayır.

Öz məsləki, idealı uğrunda mübarizə edən Aqşin (C.Cabbarlıda — Afşin) sonucda, dar ağacını qəbul edir, Aqşin isə bir növ yeni hakimiyyətin girovuna çevrilir.

Doğrusu, hələ uşaq vaxtlarımda, Cabbarlının həmin əsərini oxuyarkən özüm-özümə sual vermişdim ki, görəsən sərkərdə Babəkin sərkərdə qardaşı Afşinin sonrakı taleyi necə olub? Amma bu sualın cavabını çox-çox illərdən sonra tarix kitablarında deyil, bədii əsərdə tapmağım heç də təəccüblü deyil: Bəlkə də yəqin ki, tarixçi cavabı (şərhi) sorğu və statik xarakter daşıya bilərdi.

"Dar ağacı" əsərində iki fərd, iki cəbhə, iki qütb arasındakı mübarizə ictimai kolliziya səviyyəsində təqdim olunur. Doğrudur, əsərdə Babəkin özü yox, onun teyfi (xəyalı) görünür. Lakin elə bu xəyalın ittihamları belə real tarixi mənzərəni duymaq üçün kifayətdir. Aqşin (xalq artisti Kamal Xudaverdiyev) öz qardaşı Babəklə (Əli Nur) üz-üzə gəlir. Babək onu haqq yoluna dəvət edir. Aqşini ittiham edənlər az deyil; belə ki, öz doğma anası (xalq artisti Zərnigar Ağakişiyeva), qızı Çılğın (xalq artisti Məleykə Əsədova), qardaşı oğlu Sabutay (əməkdar artistlər Nurəddin Mehdixanlı və İlham Əsgərov), Ağsaqqal (əməkdar artist Məcnun Hacıbəyov), Çılğının xalası (əməkdar artist Hicran Nəsirova) və başqaları onu haqq yoluna — xalq yoluna çağırırlar. Heyhat, hakimiyyət ehtirası çox nəsnələri kölgədə qoyur.

Və paradoks! Bəlkə də adi, məntiqi bir həyat, bir aqibət Aqşini öz ağuşuna alır — onu da qardaşı Babək kimi dar ağacı gözləyir. Bir zaman Babəki islamı qəbul etmədiyinə görə dara çəkmişdilərsə, illər keçəndən sonra Aqşini də həmin dar ağacının qənşərinə gətirirlər. Artıq onun da üzünə ölüm kölgəsi qonur. Və onu xalqına xəyanət etdiyi üçün yox, xalqa üz tutduğu üçün edam edirlər. İllərdən bəri yadellilərə qulluq göstərən, buyruq quluna çevrilən Aqşinin xalq qarşısında etirafdan başqa əlacı yoxdur. Dar ağacının kəndiri yellənir...

Dramaturqun qənaəti həm adi, həm də bəşəridir: öz xalqını sevməyəni heç bir xalq qəbul edə bilməz, hər bir din nə qədər humanist, bəşəri olsa da, insanları alətə çevirməməlidir; hətta bir çox hallarda fərdin əxlaqı hakimiyyət əxlaqına (əgər bu varsa) örnək ola bilər.

"Dar ağacı" faciəvi əsərdir və bu tamaşada istedadlı aktyor ansamblı iştirak edir: İbn Zeyt (əməkdar artist Hacı İsmayılov, xalq artisti Valeh Kərimov), İbn Süheyl (Elxan Ağahüseynoğlu), İbn Tahir (xalq artisti Rafiq Əzimov), Altay (Kazım Həsənquluyev), Gözətçi (Samir Qula-

mov) rolları hadisələrin dramatik həllində az əhəmiyyət kəsb etmir. Yeri gəlmişkən qeyd edək ki, pyesdə Elxan Quliyev, Rövşən Kərimdust, Elnur Məmmədov, Elxan İsmayılov, Aslan Şirinov, Fidan Axundova, Vəfa Zamanova və Nəcəf Həsənzadənin yaratdığı obrazlar da diqqətəlayiqdir.

Yaradıcılığında monumentallığa daha çox üstünlük verən rejissor, xalq artisti Ağakişi Kazımovun Bəxtiyar Vahabzadə ilə bu növbəti əməkdaşlığı həm müəllif, həm də quruluşçu rejissor üçün uğurlu olmuşdur. Rəssam (İsmayıl Məmmədov) və bəstəkar (Cavanşir Quliyev) işi əsərin ümumi ruhunu düzgün interpretasiya edir.

Təbii ki, tamaşada hələ cilalanmış bəzi ştrixlər də yox deyildir. Mənə elə gəlir ki, ayrı-ayrı personajların dialoqları arasında (məsələn, Aqşin — K.Xudaverdiyev və İbn Tahir — Rafiq Əzimov) pauza uzundur. Aqşinin son monoloqunda **millət** istilahına isnad edilir, halbuki, millət anlayışı daha sonrakı dövrün — kapitalizmin məhsuludur.

Bütün bunların hamısı təbii qəbul olunmalıdır. Belə monumental tamaşada xırda-para çatışmazlıqlar adi qarşılanmalıdır.

Sürəkli tamaşaçı alqışları, iştirakçılara təqdim olunan gül-çiçək dəstələri çox söz deyirdi. Bu, tamaşaya verilən ən yüksək qiymət idi. "Dar ağacı" bir növ etiraf simvoluna çevrilmişdi. Hər kəs öz əməli, öz vicdanı qarşısında hesabat verməlidir.

Biz hörmətli sənətkarımız Bəxtiyar Vahabzadəyə və yaradıcı kollektivə yeni uğurlar diləyirik.

"Mədəniyyət" qəzeti, dekabr 2000-ci il.

Hüseyn ABBASZADƏ

TÜRK ÖZÜNƏ QAYIDANDA

Dostları Bəxtiyar Vahabzadənin qədim türklər — Göytürklər haqqında əsər yazmasını çoxdan bilirdilər. Təxminən altı-yeddi ay əvvəl bu tarixi faciənin Akademik Milli Dram Teatrında tamaşaya hazırlanmasını eşidəndə sevindilər.

Hələ səhnəyə qoyulmamışdan "Özümüzü kəsən qılınc" ("Göytürklər") əsərinə olan bu böyük marağın məncə, iki səbəbi vardır.

Birinci səbəb: yetmiş illik Sovet imperiyası dövründə dövlət səviyyəsində SSRİ adlanan məkanda yaşayan türk mənşəli xalqlara öz soyköklərini unutdurmağa, tarixlərinin qədimliyinə, mədəniyyətlərinin

zənginliyinə, türk dühalarının bəşər sivilizasiyasının çiçəklənməsində xidmətlərinə kölgə salmağa çalışırdılar və buna müəyyən qədər də nail olmuşdular. Bununla yanaşı xalqın qulaqlarını doldururdular ki, sizin indiyəcən öz müstəqil dövlətiniz olmayıb. Müxtəlif yüzilliklərdə yaranan Atabəylər, Səfəvilər, Şirvanşahlar kimi qüdrətli Azərbaycan dövlətləri haqqında alimlərimizin tarixi sənədlər əsasında yazılmış əsərlərinin ümumittifaq miqyasında yayılmasına hər vasitə ilə mane olurdular. Həyasızcasına deyirdilər ki, guya bizim dövlətçiliyimiz elm və mədəniyyət sayəsindəki nailiyyətlərimiz yalnız Oktyabr və Aprel inqilablarından sonra inkişaf edib.

İkinci səbəb: Azərbaycan müstəqillik qazanandan sonra xalq uzun zaman ondan gizlədilən öz soykökünü, vətəninin əsl tarixini öyrənmək təşnəsindədir və indi belə bir mühüm mövzuda ilk dəfə ayrısı yox, məhz Bəxtiyar Vahabzadə kimi vətənpərvər şairin səhnə əsəri yazması müsbət hadisə idi, çünki Bəxtiyar əlinə qələm alandan bəri qadağalardan, təqiblərdən çəkinməyərək millətimizin əsl adı, öz yurdumuzda doğma dilimizin qəribliyə salınması, Azərbaycanı iki yerə parçalaması haqqında yana-yana, həm də dönə-dönə haray salan, yazan böyük sənətkardır.

"Özümüzü kəsən qılınc" mükəmməl öyrənilən tarixi sənədlər əsasında yazılıb. Göytürklərin həqiqi tarixinin keşməkeşli dövrünü əhatə edir. Çox acınacaqlı haldır ki, bu çağacan böyük əksəriyyətimiz bu dövrdə baş verən qanlı hadisələrdən əcdadlarımızın müstəqil dövlət qurmaq uğrunda necə inadla mübarizə aparmalarından xəbərimiz yoxdur.

Tarixdən məlumdur ki, ilk Türk dövlətini Bumin bəy yaradıb. O, ətrafdakı türk qəbilələrini birləşdirib güclü Göytürk xaqanlığına çevirdi. Qonşuları çinlilər bu faktla hesablaşmağa məcbur oldular. Ancaq eyni zamanda onlar türk xaqanlığını devirməkdən ötrü müxtəlif dövrlərdə türk xaqanlığı ilə ardı-arası kəsilməyən müharibələr aparırdılar.

Faciənin mötərizədə yazılan ikinci adı "Göytürklər"dir. Çoxları bilmir ki, nə üçün əcdadlarımıza Göytürklər deyirdilər. Mən bunu dəqiqləşdirməkdən ötrü bir mötəbər tarixçi alim dostumla söhbət elədim. O dedi ki, qədim türklər İslam dinini qəbul etməmişdən öncə Günəşə sitayiş eləyirdilər. Onlar hər gün dan sökülməndən yığışıb əllərini göyə qaldırıb, Günəşin doğmasını ibadət eləyə-eləyə qarşılayır, axşamüstü Günəş batanda onu eyni mərasimlə yola salırdılar. Buna görə də onlara Göytürklər deyirdilər.

"Özümüzü kəsən qılınc" faciəsində Bumin xaqanla onun qardaşı İs-

temi xaqanın hakimiyyətlərindən sonrakı dövrdə Göytürklər dövlətinin vəziyyətindən bəhs olunur.

Göytürk dövləti təhlükə qarşısındadır. Köhnə düşmənləri çinlilər qohumluq vasitəsilə Göytürk dövlətinin hakimiyyətinə yol tapır, onu içəridən parçalayıb dağıtmaq üçün min hiyləyə əl atırlar. Əfsus ki, bu ağır, dövlətin müqəddəratı həll olunan illərdə hamı yumruq kimi birləşib vətəni, dövləti müdafiə etmək əvəzinə yüksək rütbəli adamlar arasında parçalanma başlanır, hərə öz mənafeyini düşünür, yurdun müstəqilliyi, ulu türkün şərəfi, ləyaqəti yaddan çıxır. Təbiətən böyük yaranan türk özündən uzaqlaşıb cılızlaşır, xırdalanır və düşmən onun üzərində qələbə çalır. Nəhayət, sonradan o özünə qayıdıb əvvəlki kimi böyük və qüdrətli türk olub dövlət müstəqilliyini bərpa eləyir.

"Özümüzü kəsən qılınc" tarixi faciə olsa da, onda qoyulan problemlər, təsvir olunan hadisələr çağdaş durumla həmahəng səslənir. Səhnədə cərəyan edən hadisələrə baxanda son illərdə xalqımızın başına gətirilən müsibətlər, xəyanətlər nəticəsində torpaqlarımızın düşmənlərə verilməsi, el malının talan olunması, verdiyimiz saysız-hesabsız qurbanlar tamaşaçıların yadına düşür.

Bəxtiyar Vahabzadə poeziyasında olduğu kimi bu faciədə də tamaşaçıları xalqın taleyini, dilimiz, birliyimiz, bu günümüz-sabahımız, ümumiyyətlə, həyatımız haqqında düşünməyə sövq edir. Həlli vacib olan məsələləri xatırladır. İndiyəcən buraxılan və millətimiz üçün fəlakətə dönən səhvləri təkrar etməməyə çağırır. Tamaşada aforizm kimi səslənən kəsərli sözlər çoxdur. Şairin sehrli sözü burada da öz faydalı işini görür və salonda dərhal əks-səda verir.

"Özümüzü kəsən qılınc" ("Göytürklər") faciəsinin ilk tamaşalarının hərarətlə qarşılanması bir daha sübut edir ki, səhnəmizdə belə bir vacib mövzuda yüksək sənətkarlıqla yazılmış əsərlərə böyük ehtiyac vardır. Bu da qanunidir ki, bu yolda ilk uğurlu addımı atmaq səadəti Bəxtiyar Vahabzadəyə nəsib oldu.

"Özümüzü kəsən qılınc"ın ("Göytürklər"in) əhatəli, parlaq səhnə təcəssümündə quruluşçu rejissor Ağakişi Kazımovun, quruluşçu rəssam İsmayıl Məmmədovun və bəstəkar Cavanşir Quliyevin vahid mövqedə birləşən yaradıcılıq səylərinin fərəhli nəticəsini görmək mümkün deyil.

Aktyor oyununun səviyyəsi tamaşanın uğurunu təmin edən əsas amillərdəndir. Bu baxımdan "Özümüzü kəsən qılınc" ("Göytürklər") faciəsininki gətirib. Kiçik rollardan tutmuş böyük rolların ifaçısınacan bütün aktyorların oyunu təsirlidir. Ancaq mən onlardan bir neçəsi barəsində fikrimi demək istəyirəm.

Nurəddin Mehdixanlı sözsüz hazırda Akademik Milli Dram Teatrımızın aparıcı artistlərindəndir. O, "Özümüzü kəsən qılınc" ("Göytürklər") tamaşasında Gurşad obrazını oynayır. Gurşad tarixi şəxsiyyətdir. Faciədə cərəyan edən hadisələrin mərkəzindədir. Bu qeyrətli türk oğlu, pak insan qəsdən böhtana salınır, təmiz adı ləkələnir, sevimli arvadı intihar edir, özü nahaqdan zindana düşür. Milliyyətcə çin olan ögey anasının və qardaşının xəyanəti nəticəsində məğlub olan Göytürk xaqanlığı qonşu Çin xaqanlığına qatılır, Gurşadı əsir götürürlər. Əsarətə dözməyən bu igid sərkərdə üsyan qaldırıb soydaşlarını düşmən əsarətindən azad edərək ana yurduna qayıdır və işğalçılarla ölüm-dirim mübarizəsinə başlayır.

Nurəddin Mehdixanlı Gurşadın taleyini, həyatın çətin imtahanları zamanı keçirdiyi sarsıntıları, dözümü, mərdanəliyi özününkü kimi duyur və canlandırır.

Sevimli arvadı Selcanın ölümündən sonra Gurşadın baxımsız qalan südəmər oğlunu öldürmək istəməsi epizodunda Nurəddin Mehdixanlı çıxılmaz vəziyyətdə qalan bədbəxt atanın iztirablarını inandırıcı göstərir.

Ramiz Məlikin oynadığı Dulu Xaqan mürəkkəb və ziddiyyətli obrazdır. Dulu Xaqan Gurşadın müəmmalı ölümündən sonra onun yerinə Göytürk xaqanlığının başında durmağa can atır. Ögey anası və ögey dayısının təhrikinə uyub çinlilərin tərəfinə keçərək öz soydaşlarına qarşı vuruşur. Düşmənlər vətənini işğal edirlər və bu satqınlığın əvəzində çinlilər onu Göytürk xaqanlığının taxtında əyləşdirirlər. Şəxsi mənafeyi, hakimiyyətə yiyələnmək naminə dədə-baba torpaqlarını, millətini düşmənin tapdağına atan Dulu Xaqanın gec də olsa vicdanı oyanır. Necə bağışlanmaz cinayət etdiyini başa düşür, özünü öldürmək qərarına gəlir. Bu anda Gurşad qardaşına mane olur, deyir ki, sən bu böyük günahlarını öz gələcək namuslu işlərinlə, vətənə, millətə sədaqətlə xidmət etməklə yumalısan. Ramiz Məlik Dulu Xaqanın xarakterindəki dönüş anlarını, məqsədinə nail olmaq üçün inadlı hərəkətlərini və bu hərəkətlərində haqlı olmasında daxili inamını ölçüsündə göstərir. Mənim fikrimcə, Dulu Xaqan onun yaradıcılıq imkanlarının genişliyini və səhnə mədəniyyətini daha bariz şəkildə büruzə verən roludur.

Göytürk xaqanlığının taxtı-tacına sahib olmaq hərisliyi ilə qardaşını namərdliklə aradan götürən, onun arvadını alıb qeyri-qanuni yolla hakimiyyətə gələn Qara Xaqan taxtı əlində saxlamaqdan ötrü, hətta doğma qızının ölümünə, onun ailəsinin dağılmasına, öz körpə nəvəsinin yetim qalmasına bais olur. İş o həddə çatır ki, cinayəti başından aşan bu qatil axırda öz-özünü tənbeh edir.

Qara Xaqan rolunun ifaçısı görkəmli artist Əliabbas Qədirovun oyununa tamaşada maraqla baxılır.

Rejissor "Özümüzü kəsən qılınc" ("Göytürklər") tamaşasının əsas qadın rollarının əksəriyyətini son illərdə bu teatra gələn cavan artistlərə tapşırıb. Laləzar Mustafayeva İçgen Xatun, Məleykə Əsədova Selcan, Sənubər İsgəndərova Siyan Şi obrazlarında uğurla çıxış edirlər.

İçgen Xatun faciədəki ən mürəkkəb, ən çətin qadın obrazıdır və tamaşada mühüm yer tutur. Qara Xaqan Göytürk xaqanlığının başında dursa da, əslində İçgen Xatun hər işi əlinə alıb dövləti istədiyi kimi idarə eləyir. Onun fitnəkar əməlləri, məharətlə qurduğu tələlər nəticəsində Göytürk xaqanlığının müsibətli günləri başlayır.

Laləzar xanım İçgen Xatun rolunun təbii çıxması üçün onun xarakterinə uyğun cizgilər tapıb. İçgen Xatunun qədim çin zadəgan qadınlarına məxsus narın-narın yerişi, naz-qəmzəli, həm də bir az təkəbbürlü baxışları, özünə arxayın danışıq tərzi bu qəbildəndir.

Son dərəcə gərgin hadisələrlə dolu bu qanlı faciənin axırında nikbin bir epizod vardır. Çinlilərlə müharibədə neçə-neçə qurban verib öz dövlət müstəqilliyini bərpa edən Göytürklər bir dilemma qarşısında qalırlar. Xaqanlıqlarına kimin başçılıq etməsi məsələsi ortaya çıxır, buna hüququ çatan iki qardaşın — Gurşad və Dulu Xaqan ikisi də hakimiyyətdən imtina edir. Bundan sonra hamının istəyi və qərarı ilə Gurşadın beş yaşlı oğlu İltəriş vəliəhd elan olunur. Göytürk xaqanlığının rəmzi olan qılıncı vəliəhdə təqdim etmək Dulu Xaqana həvalə olunur.

İki hissə, on iki şəkildən ibarət faciədəki əsəbləri tarıma çəkən hadisələrin fonunda ilk baxışda adi görünən bu epizod böyük məna daşıyır. Rejissor İltəriş rolunun ifaçısı üçün zirək, yapışıqlı bir oğlan tapıb və necə deyərlər, bu tapıntı öz yerinə düşüb. Səhnədə özünü sərbəst aparan balaca Rəsul Həsənzadənin oyunu xoş əhval doğurur. Əmisi Dulu Xaqan qılıncı İltərişə təqdim edəndə Rəsul döyüşlərdə bərkimiş əsgər kimi qamətini şax tutub əllərini irəli uzadaraq qılıncı alanda inanırsan ki, Göytürk xaqanlığının qılıncı etibarlı əllərə tapşırılır və türk qızının bətnindən doğulan, türk qızının südünü əmən oğlunu qarı düşmən diz çökdürə bilməz.

Proqramda yazılıb ki, bu tamaşa Göytürk dövlətinin 1450, Azərbaycan Demokratik Cümhuriyyətinin 80 illiyinə həsr olunur. Bu sözlərin dalınca razılıq hissilə qeyd etmək lazımdır ki, bu monumental əsər dramaturqun və Akademik Milli Dram Teatrının iki əlamətdar bayrama əla töhfəsidir.

"Ədəbiyyat qəzeti", 24 aprel 1998-ci il.

Aydın DADAŞOV

GÖYTÜRKLƏRİN DRAMASI

Azərbaycan istiqlaliyyətini yenidən qazandıqdan sonra, istər-istəməz klassizm cərəyanı istiqamətində müxtəlif əsərlərlə yanaşı dramaturgiya nümunələri də yaranmağa başladı. Bu əsərlərin bir çoxunda tarixi keçmişin fundamentallığı, millətin qəhrəmanlığı, ayrı-ayrı tarixi şəxsiyyətlərin böyüklüyü ön plana gətirildi. "Özümüzü kəsən qılınc" pyesində B.Vahabzadə tarixi keçmişə üz tutsa da, hadisələri faciəvilik məqamında araşdırmağı və təqdim etməyi vacib saymışdır. Ağır sınaq illərini yaşayan bir millətin dərdlərini-bəlalarını sənət ekvivalenti ilə onun özünə çatdırmaq həmin sənəti əbədilik çevrəsinə qoşa bilir.

Bir vətənpərvər kimi dövrün-zamanın sınağından çıxaraq, bir çox mənəvi çətinliklərə sinə gərmiş, professional dramaturq kimi onuncu pyesini təqdim edən B.Vahabzadə, milli səhnəmizdə özünü çoxdan təsdiq etmişdir. "Özümüzü kəsən qılınc" pyesi "Fəryad" və "Dar ağacı" pyeslərindən sonra müəllifin tarixi mövzuda işlədiyi üçüncü dram əsəridir və əvvəlki pyeslərdə klassizm çalarları olsa da, təqdim olunan bu pyes həmin istiqamətdə daha mükəmməl şəkildə işlənmişdir. Bir vaxtlar Azərbaycan dramaturgiya tarixinin yorulmaz tədqiqatçısı Əli Sultanlı təəssüflə yazırdı: "Azərbaycan dramaturgiyasında tam bir üslubi cərəyan kimi, klassizm üslubu mövcud olmamışdır".[1] İctimai dəyərlərə söykənən klassizm cərəyanı müəllifdən ilk növbədə, ictimai əqidə sahibi olmağı tələb edir. Əks halda, müəllif özünə az maraqlı olan mövzunu başqası üçün maraqlı edə bilməz.

Artıq sağlığında tanınmış şəxsiyyət olduğu sübut olunmuş görkəmli şair və ictimai xadim Bəxtiyar Vahabzadənin "Özümüzü kəsən qılınc" pyesinin yaranması dövrün bir çox ictimai-siyasi və sənət ziddiyyətlərinə güzgü tutur.

Pyesin əhatə etdiyi tarixi dövr türk xalqlarının daş salnaməsi sayılan Orxon Gültəkin abidələrində öz əksini tapmışdı. İgid sərkərdə Çulo Xanın ölümü haqqında L.N.Qumilev belə yazır: "Çulo Xan ümidlərinin iflasına qədər yaşamadı. O, 620-ci ildə müəmmalı şəkildə öldü".[2] Pyesdə təsvir olunan hadisələr və şəxsiyyətlər tam dəqiq olmasa da, konkret za-

1 Ə.Sultanlı. "Azərbaycan dramaturgiyasının inkişaf tarixindən". Bakı, 1964, səh. 18.
2 L.N.Qumilev. Drevnie turki. M., 1967, str. 179.

man, məkan şəraiti əsas götürülməsə də, keçmişin problemlərini bu günün prizmasından təhlil etməklə, əbədi problemlərin, mənəvi-əxlaqi dəyərlərin müasir dövrdə mövcudluğu əsas götürülür. Şübhəsiz ki, qəhrəmanların adları, libasları və təqdim olunan aparıcı vəziyyətlər — münasibətlər tamaşaçıya arxaik görünsə də, insan münasibətlərinin formasına müəllif baxışı moralist əxlaqi funksiya daşıyır. Dövlətçilik ənənələrimizin yeni mərhələdə yarandığı və inkişaf etdiyi, eyni zamanda deformasiyaya məruz qaldığı bir dövrdə müəllif klassizm cərəyanı ruhunda — daha çox ictimai, daha az şəxsi mövqe prizmasından hadisələri moralizm baxımından şərh edərək insanları cəmiyyətlə münasibətdə ictimai mövqedə dayanmağa çağırır və eyni zamanda dövlətçilik təəssübkeşliyi sayılan maarifçi klassizm ruhunda xırda məişət qayğılarından azad olub, dövlət mənafeyində dayanmağa çağırır. Şübhəsiz ki, klassizmin diqtə elədiyi standart davranış stereotipi obrazları ziddiyyətlərdən, səhvlərdən qaçmağa vadar edir. Çünki klassizmin dramaturji modelində ziddiyyət onun tam şəkildə həll olunacağı təqdirdə mövcud olur.

İndi isə pyesə müraciət edək. Qara Xaqan arvadı İçgen Xatunla, Gur-Şadı atasının xəstəlikdən öldüyünə inandırmağa çalışır və qəflətən ölən Xaqanın vəsiyyətnamə yazmadığını bildirirlər. Vəsiyyətnamənin olmaması yeni ziddiyyət yaradır. Hakimiyyət vərəsəlik üzrə böyük qardaşa — Dulu xana düşsə də, Gur-Şadın əmisi və qaynatası Qara Xaqan guya Dulu xanı bu vəzifəyə məsləhət bilmir. Gur-Şadın cəbhədə olması səbəbindən qurultayın təxirə salındığını və divanın qərarı ilə hakimiyyəti müvəqqəti qəbul etdiyini bildirir. Buradakı informasiya xarakterli söhbətdən məlum olur ki, Çulo Xaqanın ölümündən sonra, Qara Xaqan qardaşının milliyyətcə çinli olan cavan arvadı — Gur-Şadın ögey anası İçgen Xatunla evlənmişdir. Göz önündə baş verən epizodlardan əvvəl baş vermiş hadisələrin dialoqlarda açılması, xarakterizə olunması dialoqları analitik informasiya istiqamətinə yönəldərək, hadisələrin inkişafını ləngitməsi təbii olduğundan, ziddiyyətlər müxtəlifliyi tamaşaçını əlavə qavrayış yükündə əzir.

Drama sözünün yunan dilində hərfi tərcüməsi fəaliyyət deməkdir. Aristotelin qeyd elədiyi kimi: "Hekayənin müəllifin özü tərəfindən nəql elədiyi eposdan fərqli olaraq, dramada fəaliyyət nəql yolu ilə deyil, canlandırma yolu ilə təqdim olunur".[1] V.Q.Belinski bu fikri daha da inkişaf etdirərək yazır: "Drama baş verən hadisəni, baş verdiyi indiki zamanda tamaşaçının və oxucunun gözü önündə canlandırır".[2] Təəssüf

1 Aristotel. "Poetika", Bakı, 1974, səh. 47.
2 V.Q.Belinski. "Seçilmiş əsərləri", tom 5, səh. 52.

ki, dramaturji əsərlərin bir çox nümunələrində obrazların hərəkət və fəaliyyətdə canlandırılması, yəni dramaturji xatirələrdən, qeybətdən ibarət olur.

Qara Xaqan Gur-Şada hakimiyyəti təklif etdikdə o, etiraz edir.

Qara Xaqan: — (...) Sən özün də çox yaxşı bilirsən ki, Dulu xan kimi dəmdəməki adamdan Xaqan olmaz. O ki, qaldı İçgen Xatundan olan sənin ögey qardaşın Yağmura, anası Türk əsilli olmadığına görə o da xaqanlığa yaramaz. Demək, meydanda təkcə sən qalırsan.

Gur-Şad: — Mənim üçün Dövlətin başında kimin durması vacib deyil. Dövlətin özü vacibdir.

Klassizmin birbaşa elan olunması qəhrəmanın platformasını protokollaşdırır. Bundan sonra Qara Xaqan Juan-Juanlardan götürülən qənimətin bu il ölkəni quraqlıqdan çıxara biləcəyi ilə maraqlanır və əli təmiz olmayan Salur xanı yenidən xəzinədar təyin olunduğu məlum olur. Salur Xanın əli təmiz olmadığı faktı əyani şəkildə sübut olunmayaraq əsas dramaturji xəttə işləmir. Əsərdə birbaşa iştirak etməyən, yalnız haqqında söhbət gedən xəzinədar Ayxanın qənimətləri qeydiyyatdan gizlətdiyi məlum olur və bununla gələcəkdə həllini tapa bilməyən yeni bir ziddiyyətin əsası qoyulur.

Gur-Şad çıxdıqdan sonra İçgen-Xatun qardaşı — Çin şahzadəsi Yan Çunqla daxil olaraq Çulo Xaqanın İçgen-Xatundan olan oğlu Yağmurdan məktub təqdim edirlər:

Qara Xaqan:— Bu ki, Çin dilindədir. Bəs ana dilini bilmir?

İçgen Xatun: — (Gülür). Çin dili elə onun ana dilidir də...

Qara Xaqan: — Hə... doğru deyirsən, mən çaşdım. Yəqin Yağmur Şan-Yan, Konfusiya kimi Çin filosoflarını, Şi-Xuandi, Lyu-Ban, Ban-Çay kimi Çin xaqanlarını tanıyır, amma Atilla, Mete, Cici, Bumin və İstəmin kimi türk böyüklərindən xəbəri yoxdur.

Qara Xaqanla arvadı İçgen Xatunun söhbətindən Çulo Xaqanın ölümündə və Qara Xaqanın hakimiyyətə gətirilməsində İçgen Xatunun əli olduğu anlaşılsa da, o, Yağmurun hakimiyyətə gətirilməsini tələb etdikdə Qara Xaqan: — ... nə divan, nə də qurultay Çin qızından olan övladı Göytürk səltənətinə yaxın buraxmaz—deyərək qardaş qatili olsa da, ümummilli və dövlətçilik mənafeyində dayandığını büruzə verir. İçgen Xatun məkrlə Yağmurun hakimiyyətə gəlməsinə mane ola biləcək, Gur-Şad və Dulu xana qarşı fəsad hazırlayır. İçgen-Xatun obrazı şər qüvvələrin daşıyıcısı kimi dramaturji qarşıdurmanı kəskinləşdirir və hadisələrin irəliləməsində aparıcı rol oynayır. Bu prosesdə o, Qara Xaqan obrazını üstələyir.

Gur-Şad Çinin hücuma hazırlaşdığını xatırladaraq, Dulu xanı atasının intiqamından yayındırmaq istəyir: "Ölkənin belə bir vəziyyətində Göytürk elinin Xaqanından şəxsi qisasımızı alıb xalqı başsız qoymağa bizim haqqımız yoxdur.

Dulu Xan: — Başsız niyə? Bəs mən bu səltənətin varisi deyiləm?

Gur-Şad: — Səni qurultay seçməlidir.

Dulu Xan: — Düz demirsən, varis mübahisəli olanda qurultay çağırılır.

Gur-Şad: — Əgər əlimizdə atamızın vəsiyyəti olsaydı, qurultayın çağırılmasına ehtiyac qalmazdı. İkinci tərəfdən, Qara Xaqanın qətli bizə hücum etmək üçün Çinin əlində dəstəvuz ola bilər. Biz bu imkanı Çinə verməməliyik.

Dulu Xan: — Atamızın qətli Çinin hücumuna səbəb olmadığı halda, niyə Qara Xaqanın qətli səbəb olmalı imiş?

Gur-Şad: — Bu qətl təbii ölüm kimi qələmə verilib, qətldən sonra Qara Xaqanla İçgen Xatun dərhal evlənib. Demək, Çin heç nə itirməyib. Çünki Göytürk Dövlətinin başında Çulo Xaqan kimi qüdrətli bir adamın durması Çinə sərfəli deyilmiş və bu qətldirsə, heç şübhəsiz, Çinin əli ilə törədilmişdir. Çin Juan-Juanlarla savaşda bizim uduzacağımızı gözləyirdi. Yəqin, cəbhədəki üstünlüyümüzü eşidən kimi, bu işi görüb. İndi bizim yeni savaşa gücümüz yoxdur. Xaqanlığı da içəridən parçalasaq, fəal xarici siyasət apara bilməyəcəyik.

Gur-Şadın ağıllı və tədbirli olduğunu nümayiş etdirən, vəsiyyətnaməni hüquqi sənəddən dramaturji elementə çevirə bilən bu söhbət vizual hadisəli sonluqla bitir. Dulu Xan Gur-Şadı haqsız yerə hakimiyyət xatirinə ata intiqamından vaz keçməkdə günahlandırır və qardaşının üzərinə qılınc qaldırır. Bununla da Dulu Xan özünün çılğınlığını, səbirsizliyini əyani şəkildə sübut edir. Dulu xanın arvadı Banu Çiçək ləçəyini araya atıb onu sakitləşdirir. Sonrakı səhnədə Qara Xaqanın qızı — Gur-Şadın arvadı Selcan Xatun passiv şəkildə iştirak edərək, öz vəziyyətini belə xarakterizə edir: "Mən atamla ərimin, yəni yaradanımla yaşadanımın arasında qalmışam". Özünün məhkumluğunu nümayiş etdirən Selcan Xatun yalvararaq atasından qardaşlar arasında nifaq salmamağı xahiş edir. Qara Xaqan ova hazırlaşdığından onların söhbəti yarımçıq qalır. Qara Xaqanın xəzinədarı Salur xan İçgen Xatuna bahalı boyunbağı və qolbağı göstərərək, minbaşı Ayxanın bunları qənimət kimi ləl-cəvahirat siyahısına salmadığını bildirir. Adı çəkilsə də özü heç zaman görünməyən Ayxanın hansı məqsədlə qənimətin içində olan boyunbağı və qolbağı cəvahirat siyahısına salmadığı məlum olmur.

İçgen Xatun Dulu Xanla dostluq edən çinli rəqqasə qadın Siyan Şini qəbul edərək ona pul verir, boyunbağını möhkəm saxlamağı, qolbağı isə çinli tacir Su vasitəsi ilə ucuz qiymətə Gur-Şadın arvadına satmağı tapşırır. Sonrakı səhnədə İçgen Xatun Çulo Xaqanın vəsiyyətnaməsini Dulu hiddətləndirərək, onun intiqam hissini soyudur, qardaşına paxıllıq və nifrət hissi güclənir. Çin şahzadəsi İçgen Xatunun qardaşı hiyləgər Yan Çunq, Çin Xaqanının gizlincə göndərdiyi, üzərinə "Dulu Xana" yazılmış qızıl qurd başlı bayrağı Dulu Xana verməklə Çinin onun tərəfini saxladığını bəyan edir.

Pyesdə vəsiyyətnamə, qolbağ, boyunbağı kimi cansız rekvizitlər bacarıqla dramaturji inkişaf xəttinə daxil olur. Göytürk bayrağının Dulu Xana göndərilərək, Çin tərəfindən guya onun səltənətə varis hesab edilməsi, məntiqi cəhətdən əsaslandırılmadığından, bayraq sonradan yeni bir kontekstdə hadisələrin gedişində iştirak etmir.

Hər halda Dulu Xanın, Çin tərəfindən səltənətə varis hesab edilməsi, dramaturji ziddiyyəti gücləndirir. Hadisələrin sonrakı gedişindən göründüyü kimi, Çin dövlətinin əsas məqsədi Gur-Şadla Dulu Xanı üz-üzə öz dövlətini iflic vəziyyətinə sala biləcək Dulu Xanı hakimiyyətə gətirmək, Çulo Xaqanın Çində böyüyüb, tərbiyə alan oğlu Yağmurun hakimiyyətə hazırlanması üçün münbit şərait yaratmaqdır. Son məqsəd isə Çin əhalisini Göytürklərin torpaqlarında yerləşdirməklə bu dövləti süquta doğru sürükləməkdir. Bu dəlillərin çoxluğu Çinin dövlət siyasətinin paxırını açsa da, dramaturji hadisələrin zəncirini ağırlaşdırır. Əskiklərin mürəkkəbliyi, oxucu — tamaşaçı qavrayışına manc olaraq hadisələrin dinamik inkişafını izləməyə imkan vermir. Dulu Xanın keçirdiyi hiss və həyəcanlar, Şeytanın və Mələyin söhbəti üzərində qurulmuşdur. Vaxtaşırı peyda olan Şeytan və Mələk istər-istəməz yeni fantasmaqorik epizodlar yaradır. Bu epizodlardan məqsəd Dulu Xanın daxili aləmini çuğlamış olan xeyirlə şərin mübarizəsini vermək olsa da, Şeytan və Mələk dramaturji obraza çevrilə bilmədiyindən və hadisə baş vermədiyindən, epizod pyesin ümumi mühitindən kəskin şəkildə ayrılaraq, əsəri fantasmoqorik simvolçuluğa çəkir. Keçid səhnələrinin plastika, mahnı və rəqslə estetik bəzənməsi dramaturji məna daşımayaraq temporitmi soyudur.

Adətən dramaturji hadisələrin süjet xətti obrazlara bəlli olsa da, tamaşaçıdan və yaxud tamaşaçıya bəlli olduğundan obrazlardan gizlədilir. Dedektiv janrının metodu kimi özünü doğruldan, hadisələrin əvvəlcədən tamaşaçıya və iştirakçı obrazların bir hissəsinə bəlli olması, digər hissəsindən gizlədilməsi dolaşıqlıq yaratsa da, təqdim olunan

vəziyyətdə bu metoddan bacarıqla istifadə olunması özünü doğruldur.

Qara Xaqan Gur-Şadın ölümünə qərar verdikdə Selcan Xaqanı nümayişkaranə şəkildə təhqir etdiyinə görə ölümə layiq olduğunu tələb edərək, qılıncı alıb atasına uzadır (bu hərəkət mizan çətinliyi yaradır), yaratdığını öldürməyi tələb edir.

Qara Xaqan: — Çıxarın onu çölə!

Selcan: — Övlad qatili olmaq istəmirsən? Gülməlidir (Qəhqəhə çəkir). Qardaş qatili üçün övlad qatili olmaq nə çətin şeydir?

Qara Xaqan: — Necə? Mən... qardaşımın qatili?

İçgen Xatun: — Sən nə danışdığını bilirsən?

Selcan: — Mənim bildiyimi hamı bilir. Ata, övlad-ata pərdəsi aradan götürüldü. Bundan sonra artıq mənim ölməkdən başqa yolum qalmadı. Vur məni! Bacarmırsan?.. Onda mən özüm öz cəzamı verərəm. (Xaqan qılıncı ilə özünü vurub, yıxılır). Arvadının—Selcanın ölümündən sonra Gur-Şad öz yurdunu yandırır, hətta ruh düşgünlüyü vəziyyətində körpəsini — İltərişi belə məhv etmək istəyir. Vaxtında özünü yetirən Dulu Xanın arvadı Banu Çiçək uşağı onun əlindən alır. Gur-Şad uşağı ona əmanət edib gedir. Banu Çiçək İçgen Xatunu bu əməlləri törətməkdə ittiham edir. "Bizlərdə qayın qardaşdır, sizlərdə oynaş" deməklə çılğınlıqla onu qaynına ərə getməkdə günahlandırır. İçgen Xatunun törənin buna yol verdiyini xatırlaması dialoqu həqiqətin aşkarlanmasından ayırıb, dedi-qoduya çevirir.

Dramaturji montaj prinsipi, hadisələrin səhnə arxası davamı hesabına dəfn epizodunun üzərində dayanmamağa imkan verir. Ancaq həbsxanada olan Gur-Şadın yurdunu yandırması inandırıcı görünmür. Zindan gözətçisinin gəlişi ilə gözönü hadisələr fəaliyyətə başlayır. Gözətçinin informasiyası canlıdır:

Zindan gözətçisi: — Dünən gecə yarısı üzləri yaşmaqlı 5—6 adam zindanın qapısını açıb girdi içəri.

Qara Xaqan: — Bəs çöldə gözətçi yox idi?

Zindan gözətçisi — Onları öldürüblərmiş. İçəri girən kimi Dulu Xanın yatdığı zindanı axtardılar. Mən onlardan birini yaraladım. Üçü birdən üstümə atıldı. Başıma toppuzu elə vurdular ki, yerimdəcə qaldım... Bir vaxt ayılıb baxdım ki, Dulu Xan yoxdur.

Qara Xaqan: — Bəs Gur-Şad?

Zindan gözətçisi — Onlar da yatdığı zindanın qapısını açıblar.

Qara Xaqan: — Onu da aparıblar? Zindan gözətçisi: — yox... O öz yerindəydi. Burada informasiyanın özü o qədər hadisəli-aktivdir ki, informasiyanın təqdimatçısı olan gözətçinin özü sanki görünməz olur, tamaşaçı onun hadisə yerindən reportajını bütün çalarları ilə təsəvvür edir. Məlum olur ki, öz dövlət qanunlarına hörmət edən və özünün günahsızlığına inanan Gur-Şad imkan olduğu halda dustaqxanadan qaçmamışdır. Xaqanın əmri ilə gözətçi Gur-Şadı gətirməyə gedəndən sonra Xaqan hamıdan, o cümlədən Mubi Tərxanın özündən belə şübhələndiyini bildirir. Bu münasibətə Mubi Tərxanın reaksiyası və dəlilləri əsaslandırılmır.

Mubi Tərxan: — Yoxsa, məndən şübhələnirsən?

Qara Xaqan: — Təkcə səndən yox, hamıdan! Nə baxırsan? Mubi Tərxan, o günkü Divanda onları qanadın altına alan sən deyildin? Mubi Tərxan: — Əvvəla, qaçan bir nəfərdir. İkincisi, Divana qanunu xatırlatmaq nə vaxtdan müqəssiri müdafiə hesab olunub?

Gur-Şadın gəlişi ilə hadisələr canlanır. Dulu Xanı qaçırılanların Çinli olduqları, onların Gur-Şadı öldürmək istəyi, Dulu Xanın mane olduğu məlum olur. Qara Xaqan varislik haqqını əlindən almaqla onu bağışlamaq istəyir. Gur-Şad günahı olduğunu israr edərək yenidən dustaqxanaya qayıtmağı üstün tutur.

Çin ordusunun ölkəyə hücum xəbəri Qara Xaqanı sarsıdır. O, lazımi tədbirə görə orduya üç tümənbaşı təyin edir, ancaq üç tüməni döyüşə aparacaq təcrübəli Başbuğ tapmaqda çətinlik çəkir. Tümənbaşılar Arslan və Erkinin tələbi ilə Gur-Şad Başbuğ təyin olunur. Kütləvi səhnələri əks etdirən onuncu şəkil olduqca dinamikdir. Çaparlar döyüşün gedişindən Qara Xaqana xəbərlər çatdırır, o isə döyüşü uzaqdan idarə edərək eyni zamanda hadisələrə münasibətini bildirir. Çinlilərin dağ keçidlərini ustalıqla keçmələri onu heyrətləndirir, Çin ordusunun başında Dulu Xanın durması xəbərindən isə sarsılır. Yaralı olduğu halda düşmənlə vuruşan Banu Çiçək bu xəbərdən sonra ərindən imtina edir. Qara Xaqan Urkunun düşmənlə vuruşması xəbərindən riqqətə gəlir: "Afərin! Çulo Xaqanın nəvəsi elə belə olmalı idi". Qara Xaqanın ölümündə iştirak etdiyi qardaşı Çulo Xaqan haqqında belə fəxrlə danışması inandırıcı görünmür. Sonrakı epizodda Yan Çunqun Çin ordusu tərəfə işıq işarəsi ilə Çin heroqlifləri — dairə yanında uzun xətt göndərdiyi aşkarlanır. Gur-Şadın ordusu geri çəkilir. Yan Çunqla söhbətində Qara Xaqan Gur-Şada münasibətini belə bildirir:

Qara Xaqan: — Hər halda Gur-Şad vətən torpağını satmaz.

Yan Çunq: — Amma səni satar. Sən onu zindana salmısan, zövcəsini öldürmüsən. O, səndən atasının qisasını almaq üçün fürsət axtarırdı. İndi əlinə düşüb... Bir də unutma ki, bütün türk eli ona vəliəhd kimi baxır. Dulu xan vətəni satıb, o tərəfə keçib.

Mubi Tərxan: — Əgər düşmən tərəfə keçib öz millətinə qarşı vuruşmağı sən də xəyanət sayırsansa, bəs sənin bu tərəfə keçib öz millətinə qarşı vuruşmağına nə ad verək?

Moralite xarakterli suçlama və tövsiyələr özlüyündə qiymətli olsa da, dramaturgiyada fəaliyyət və ziddiyyət anlayışları qarşılıqlı surətdə bir-birini tamamlamalıdır. Dramaturji hadisənin hər anı fasiləsiz qarşıdurmanın gərginliyinə xidmət etməlidir. Q.Tovstonoqovun qeyd etdiyi kimi "yadda saxlamaq lazımdır ki, ziddiyyətsiz səhnə həyatı yoxdur. Hadisələrin zəncirlərini qurub orada fəaliyyət törədən ziddiyyətlərin bir-birinə bağlılıq ardıcıllığını meydana çıxartmaq lazımdır".[1]

Çin ordusunun işğalından sonra, həmin ordunun başında duran Dulu xan hakimiyyətə keçir. Gur-Şad onu namərdlikdə günahlandırdıqda:

Dulu xan: — Gur-Şad, axı mərdlikdən danışmağa sənin haqqın yoxdur. Sən mənimlə mərd-mərdanə savaşmaqdan çəkinib atamızın qatili ilə mənim əleyhimə sazişə girdin. Mən də səndən öyrənib sənin xəyanət silahına əl atdım və səni xəyanətlə yıxdım. İndi sənə qalib kimi əmr edirəm: Diz çök mənim qarşımda! "Vur-vurum" xarakterli dialoqda Gur-Şad Dulu xanla vuruşmaq üçün qılınc tələb edir. Dulu xan isə zindanda onu gələcəkdə haqq-hesab çürütmək üçün ölümdən xilas etdiyini xatırladır.

Dulu Xan qılıncı qaldırarkən Erkin onu saxlayır.

Dulu Xan: — Qurban olasan Erkinə. İndi get, əsirliyini çək!..

Gur-Şadın məsləhəti ilə Erkin Dulu xanın yanında qalır və sonrakı səhnələrdə Dulu Xaqanın vəziri kimi hadisələrin gedişində əhəmiyyətli rol oynayır. Mubi Tərxan Yan Çunqla söhbətində şüarçı cümlələrlə Çinlilərin hiyləgərliyini, namərdliyini, türklərin isə mərdlik və kişiliklərini bəyan edir. Bu epizodda Dulu xanla arvadı Banu Çiçəyin dialoqu əslində ideyaların qarşıdurmasıdır. Dulu xan xarakteri rəngarəng ziddiyyətlərlə təqdim olunsa da, Banu Çiçək obrazı sxematik şəkildə, ideya daşıyıcısı kimi təqdim olunur. Qara Xaqan Dulu xanı satqınlıqda, Dulu xan isə onu qardaş qatilliyində günahlandırır və indi xəyanətlə olsa da, Xaqanlığın əldə olunmasını qisas hesab edir. Qara Xaqan torpağa xəyanətin, qardaşa xəyanətdən qat-qat ağır olduğunu bildirir. Hadisələrin düyününün açılış prosesini əks etdirən bu səhnələr maraqlı bir epizodla bitir. Qara Xaqan Yan Çunqun əmri ilə Xaqanlıq qılıncını Dulu xana təslim etmədən əvvəl həmin qılıncla özünü kəsir. Dulu Xaqanın hakimiyyətdə olmasının beşilliyi bayramında Qırğız Xaqanının bağışladığı qiymətli ox qabının üstünə yazılmışdı: "Ey Türk, sənin gücün birliyindədir" sözləri, Göytürk dövlətinin və pyesin ideyasını ifadə edir. Dövlət ideyası kimi bu ideyanın Erkin tərəfindən Dulu Xaqana təlqin olunması dramaturji prosesə çevrilir. Dulu Xaqanın qəbuluna gəlmiş Siyan Şi günahlarını yumaq üçün məbədə getdiyini, Buddanın səsinin qulağına gəldiyini və onun əmri ilə xəyanət elədiyi Türk elindən əfv diləməyə gəldiyini bildirir.

Siyan Şi: — O ləçər İçgen Xatun mənim əlimlə səni Gur-Şada düşmən elədi. O gündən bəri Gur-Şadın məni vicdana çağıran o yanıqlı sözləri qulağımda səslənir. Məni yaşamağa qoymur. Melodramatik başlanğıclı görüşdə Siyan Şinin gəlişinin motivi süni görünsə də Çində — Siqanfuda Gur-Şadın qırx məsləkdaşı ilə birlikdə üsyan qaldırdığı barədə onun gətirdiyi informasiya hadisələrin gedişinə təkan verir.

Siyan Şi: — Çin Xaqanının həftənin salı günü paltarını dəyişib təkbaşına gəzməyə çıxdığını bilən Gur-Şad dostları ilə bərabər Xaqanı əsir götürmək qərarına gəlir. O, Ötükənə tam müstəqillik vermək şərti ilə Xaqanı azad edəcəyini bildirəcəymiş. Amma həmin salı günü Siqanfudda bərk tufan qopduğundan Xaqan gəzməyə çıxa bilmir. Onda Gur-Şad İçgen Xatunun evinə hücum çəkir, oğlu Yağmuru əsir götürüb Qırğızıstana, dayısının yanına gəlir. Bir neçə gündən sonra Gur-Şad İçgen Xatuna çapar göndərib oğlunu girov götürdüyünü bildirir.

Baş tutmayan üsyanın məram və məqsədinin Siyan Şi tərəfindən şərhi inandırıcı görünməsə də, Yağmurun əsir götürülməsi dramaturji faktdır. Bu faktın hadisəyə çevrilməsi prosesi isə dolaşıq şəkildə həll olunur.

Yan Çunq seçilmiş Çin Xaqanı Van-Xodana getdiyi məktubda yeni Xaqanın bacısı oğlu Yağmurun Göytürk səltənətinə varis elan olunması tələb olunur. Dulu Xaqan Ana yasaya görə Çin qızından olan şahzadənin varis ola bilməyəcəyi cavabını verir. Erkinlə söhbətində Dulu Xaqan Çindəki ailəsinin oğlunun taleyindən nigarançılığını bildirir. Erkin üsyandan qabaq Gur-Şadın hər şeyi ölçüb-biçdiyini... Üsyan baş tutmasa, onun yaxın adamlarının məhv ediləcəyini düşünüb, Banu-Çiçəyi, Urku Tekini və öz oğlu İltərişi Çindən çıxardığını, indi onların Ötükəndə Mubi Tərxanın evində olduğunu bildirir.

Erkin Dulu Xaqanın razılığı ilə Qırğız Xaqanı Doqquz oğuzlarla Çinə qarşı saziş imzalamağa yollanır. Erkin xoş xəbərlə qayıdır və əhdnaməni Dulu Xaqana təqdim edir. Bu şəkildə İçgen Xatunla Dulu Xaqanın görüşü əsas dramaturji hadisədir. İçgen Xatun beş il əvvəlki şərti xatırladır:

— Mən dediklərimin ən vacibini elədim. Tanrıya şükür, sən artıq

1 Г.Товстоногов "О профессии режиссера", М., 1967., стр. 263.

beş ildir Xaqansan. İkincisi, yəni atanın vəsiyyətnaməsini isə buyur sənə təhvil verirəm, o şərtə ki, Yağmurun vəliəhdliyini elan edəsən.

Dulu Xaqan: — Mən bu təklifin cavabını qardaşınla göndərmişəm, yəqin ki, xəbərin var. Mən Ana yasamıza zidd gedə bilmirəm.

İçgen Xatun: — Ana Yasanıza görə sən bu taxtda oturmamalı idin. Çünki Xaqan atanın vəsiyyətini pozmaq yasaya ziddir. Mən bunu bildiyimdən səni hakimiyyətə gətirmək üçün atanın vəsiyyətnaməsini gizlətdim. Mən qadınlığımla dediyimi elədim. Bəs sən niyə əhdə vəfa qılmırsan?

Dulu Xaqan: — (Xeyli sükutdan sonra). Mən dəfələrlə sənə xəbər göndərdim ki, vəsiyyətnaməni gətir. Sən... Daha gecdir. Sən oğlunun vəliəhdlik iddiasını get indi onu girov götürəndən tələb elə! İçgen Xatun Qara Xaqanın Gur-Şadın varisliyini qanunlaşdıran vəsiyyətnaməsini Dulu Xaqana gətirdiyini bildirəndə, Dulu Xaqan ona verilən bu taxtda xalqın nifrətini qazandığını deyir və vəsiyyətnaməni sahibinə çatdırmağı məsləhət görür. Onda İçgen Xatunun işarəsi ilə Çin zabiti Çin Xaqanının fərmanını təqdim edir və bu fərmanın diz üstə Dulu Xaqan tərəfindən qəbul edilməsini tələb edir. Dulu Xaqanın fərmanı diz üstə qəbul etmədiyi təqdirdə, Çində əsir olan ailəsinin edam olunacağı bildirilir. Dulu xan diz çöküb fərmanı alır. Fərmanda Yağmurun Göytürk səltənətinə varis elan olunmadığından hiddətlənən Çin Xaqanı beş il əvvəl bağlanmış əhdnamənin ləğv olunduğunu bildirir, rəsmən Çin Ana Yasasının törəsini və dilini qəbul etməyi, onunla yalnız Çin dilində yazışmağı və yenidən 60 min Çin ailəsini Ötükəndə yerləşdirməyi əmr edir. Dulu Xaqan Mubi Tərxana etiraz ruhlu cavab yazdırıb Çin zabitini diz üstə çökdürüb məktubu almağa vadar edir. Gur-Şadın və Dulu xanın ailəsinin gəlişi hadisələri finala çatdırır. Burada hadisələr mexaniki şəkildə idarə olunur. Banu Çiçəyin, Dulu xan, sənin mənə olan xəyanətini bağışlaya bilərəm, amma vətənə olan xəyanətini yox...—fikrinə Dulu xanın heç bir reaksiya vermədiyi təbii görünür. Çünki Banu Çiçəyə xəyanət dedikdə Dulu xanın Siyan Şi ilə münasibətinin divanda müzakirəsi olsa da, Dulu xan—Banu Çiçək—Siyan Şi üçbucağı əsərdə özünün psixoloji və dramaturji əksini tapmadığından bu münasibətin finalda qaldırılması təsadüfü görünür. Banu Çiçəyin qayını oğluna sahib durması gözönü hadisə kimi onu bir ana kimi sevdirsə də, düşmənə qarşı silah götürüb vuruşması qəhrəman bir qadın obrazı yarada bilsə də, finalda onun Dulu xanla ziddiyyətlərinin sözdə elan olunması dramaturji cəhətdən həll olunmayıb. Dulu Xaqan İçgen Xatunu oğlu Yağmurun vəliəhdliyini təsdiq etdirmək üçün gəldiyini açıqlayır. Vəsiyyətnaməni olması Gur-Şadı heyrətləndirən anda İçgen Xatun vəsiyyətnaməni ona təqdim edir. Vəsiyyətnamə sənədi—kağızı yeni dramaturji keyfiyyətdə, hadisələrin gedişində iştirak edir.

Gur-Şad: — (vəsiyyətnaməni alıb, oxuyur). Mən həmişə demişəm, yenə deyirəm, bu taxtda kimin oturmasının mənim üçün heç bir fərqi yoxdur. Mənim üçün vacib olan vətənimin müstəqilliyidir. (Musiqidə olduğu kimi, dramaturgiyada da, təkrarın hesabına plafonik inkişafa nail olmaq mümkündür). O ki, qaldı Yağmura, əvvəla, o, bizim qardaşımızdır. İkincisi, onun harda hansı xalqa xidmət edəcəyini özü bilər. Gedib soruşa bilərsiniz. Bu vəsiyyətnaməyə gəlincə... (öpür) mənim üçün müqəddəsdir. Amma elədiklərimə kölgə salmamaq üçün mən bu varislikdən imtina edirəm.

Gur-Şadın mətni hadisələrin finala çatdırılmasının məntiqi həllini əks etdirdiyi üçün təbii alınır. Burada vəsiyyətnaməyə münasibətin dəyişkənliyi maraqlı olduğu qədər, Gur-Şadın hakimiyyət məfhumuna təkrar münasibəti yeni kontekstdə xarakterin bütövlüyünə dramaturji heykəl qoyur.

Şekspirin "İngiltərə tarixindən süjetləri əks etdirən "Riçard III", "Henrix IV", "Henrix V" kimi xronikal pyeslərində qaranlıq və amansız səhnələr təsvir olunsa da, bu əsərlərdə həyata inam və xeyirin qələbəsinə üstünlük verilir".[1] Yunan teatrında xor dramaturji funksiya daşıyaraq, səhnədə kütlənin-xalqın ifadəsi kimi təqdim olunurdu və əsl faciə xorun—xalqın məhvi ilə başa çatırdı. Məlum olduğu kimi dramaturgiyanın başqa janrlarından fərqli olaraq, faciə janrının qanunları tarixi dövr ərzində elə bir dəyişkənliyə məruz qalmamışdır. Əslində, baş vermiş bədbəxtlik və ya fəlakət özlüyündə faciə sayıla bilməz, ələlxüsus qəhrəman ağlının, gücünün, müdrikliyinin hesabına bu bədbəxtliyin, fəlakətin aradan qaldırılması mümkün olduğu halda. Əsərdə təsvir olunan xalq qəhrəmansızlıq—lidersizlik ucbatından məhv olub getsəydi belə, bu, yenə təkamül qanunu çərçivəsindədir, taleyin işidir. Bəzən xalq da, fərd kimi öz taleyini seçə bilmir. Azadlıqla zəruriyyət arasındakı ziddiyyətin ifadəsi faciəviliyin əsasında durur. Gur-Şadın azadlıq yolunda ölməməsi faciəvilik strukturunu dağıdır və bugünkü klassizmin qəhrəman ölməzliyini tələb edir. Şübhəsiz ki, faciəvilik qəhrəmanın daxili aləmində də tüğyan edə bilər, yəni daxildə çarpışan iki həqiqətin əsaslı sübutlarla üz-üzə durması nəticəsində qəhrəmanın mərdliyin əsas göstəricisi kimi özünü günahkar sayması, səhvlərini boynuna alması, sonra özünü cəzalandıraraq, azadlıq ideyalarının carçısı kimi məhv olması, cismani yoxluğu ide-

1 "История зарубежной литературы". М., 1973, стр. 436.

yaların zəfərinə çevirib, faciəvi vəziyyət yarada bilər. Əsərin əvvəlində Gur-Şadın qəhrəmanlığı — Juan-juanlar üzərində qələbəsi, başqa bir xalqı məhv etməklə öz xalqını xilas etməsi məntiqi cəhətdən kifayət qədər sübuta yetirilmədiyindən qəhrəmanlığın motivi inandırıcı görünmür və xarici effektlərlə təqdim olunur. Qəhrəmanın əsrlərin sınağından çıxmış dövlət qanunları qarşısında mütiliyi, ata-baba ruhuna, ağsaqqal məsləhətinə tabe olması təqdirə layiq olsa da, qəhrəmaniliyə xidmət edə bilmir. Çində əsirlikdən qaçmaq, qardaşının ailəsini xilas etmək, İltərişi girov götürmək isə yeni bir ziddiyyət açmaqla yanaşı, qəhrəmanilik motivini yerində fırladır. Şər qüvvələrin — Qara Xaqanın, Dulu Xanın qəhrəman tərəfindən deyil, özləri tərəfindən öldürülməsi, dramaturji ziddiyyəti yumşaltmaqla bərabər, hadisəli fəaliyyət sistemini daxili psixoloji aləmə yönəldərək, faciə janrının onurğa sütununu əyir. Şər qüvvə özünü öldürməklə bəraət qazanır, mənəvi cəhətdən təmizlənir və bununla da tamaşaçı rəğbəti qazanaraq, əsəri faciəvilikdən uzaqlaşdırmaqla xeyir daşıyıcısı olan müsbət qəhrəmanı həlledici anlarda neytrallaşdırır. Pyesin janr təyinatı dəqiq olmasa da, ümumilikdə əsəri milli səhnəmizə klassizm ruhu gətirmiş maarifçi bir əsər hesab etmək olar. Bu isə milli dramaturgiyamızın uğurudur.

"Azərbaycan" jurnalı N 5 — 1999

Fəridə SƏFİYEVA

BƏXTİYAR VAhABZADƏNİN PYESLƏRİ TÜRKİYƏ SƏHNƏSİNDƏ

Xalq şairi Bəxtiyar Vahabzadə Türkiyədə çox sevilən və oxunan yazarlardandır. Son zamanlar dost ölkədə şairin dramaturgiyasına da böyük maraq göstərilir. Ötən ilin noyabr ayında İstanbul Bələdiyyə Teatrı onun "İkinci səs" pyesini tamaşaya qoymuşdu. 1968-ci ildə Azərbaycan Akademik Teatrında tamaşaya qoyulmuş və 300 dəfədən artıq oynanmış pyesin Türkiyədə yenidən tamaşaya qoyulmasına səbəb nə idi? Tamaşa necə keçdi? Bir müəllif kimi Bəxtiyar Vahabzadəni təmin etdimi?

Şairlə görüşümüz bu suallara cavab almaq məqsədi daşıyırdı.

— Bəxtiyar müəllim, "İkinci səs" pyesinin sizin yaradıcılığınızda çox önəmli yer tutduğunu bilirik. Pyeslərinizdə xalqımızın qəh-

rəmanlıq və faciə dolu tarixinə tez-tez müraciət etsəniz də, yaradıcılığınız üçün bir şəxsin daxili dünyasının öyrənilməsi bir xalqın tarixinin öyrənilməsi qədər mühüm yer tutur.

Vicdanla mükalimə, yaxşı ilə pisin, xeyirlə şərin əbədi mübarizəsi bütün dövrlər üçün aktualdır. Necə bilirsiniz, pyesin İstanbulda tamaşaya qoyulması bundan irəli gəlirmi?

— Yəqin ki, elədir. İnsan çox mürəkkəb məxluqdur. İstər Otello olsun, istərsə də Yaqo — mütləq mənada Yaxşı da, Pis də, Mələk də, Şeytan da onun öz içərisindədir. Odur ki, ən güclü mübarizə də insanın öz içərisində gedir. Bax, elə dünyanın hara gedəcəyi, bizi hara aparıb çıxaracağı da bir çox cəhətdən bu mübarizənin nəticəsindən asılıdır. Yəqin elə buna görə də İstanbulda ilk nəzərdə ailə-məişət məsələsinə həsr olunmuş kimi görünən, əslində isə vacib mənəvi məsələlər, fəlsəfi mətləblər qaldıran "İkinci səs" pyesinə müraciət ediblər.

— Tamaşanın müvəffəqiyyətlə keçdiyini eşitdik. Təəssüf ki, bu haqda ölkəmizin mətbuatında çox az məlumat gedib. Bir müəllif kimi tamaşadan razı qaldınızmı?

— Olduqca. Ümumiyyətlə, "İkinci səs"in səhnə həyatı uğurlu olub. Respublikamızdan başqa Türkmənistanda, Ermənistanda da oynanılıb. Rollarda teatrımızın ən qüdrətli sənətkarları — Hökumə Qurbanova, Leyla Bədirbəyli, Məhluqə Sadıqova, Həsənağa Salayev, Səməndər Rzayev çıxış ediblər.

Türkiyədə bəzi səhnələr bir qədər fərqli, orijinal həll olunub. Pyesdə əsas yer tutan — şəxsiyyətin ikiləşməsi məsələsi İstanbulda çox maraqlı tapılıb. Bizdə Hökumə Qurbanovanın ifasında Arzu obrazının "ikinci mən"i rolunda Məhluqə Sadıqova, Həsənağa Salayevin ifasında Rəşad obrazının ikinci məni rolunda Səməndər Rzayev çıxış edirdi. İstanbulda isə bu məsələni güzgü vasitəsilə həll ediblər. Belə ki, obrazın ikiləşməsi çox təbii alınıb. Məncə, bu, tamaşanın rejissoru Həşmət Zeybəkin tapıntısıdır.

Əsli Seçkin (Arzu), Mehmet Kurxan (Rəşad), Ayşin Atas (Həyat) rollarının öhdəsindən müvəffəqiyyətlə gəlirdilər. On iki yaşlı Yelis Tozanın ifa etdiyi İradə hamını heyran etmişdi.

Tamaşa sensasiyaya səbəb oldu. Mətbuatda, televiziyada geniş işıqlandırıldı. Hər dəfə tamaşa salonu ağzınacan dolu olurdu. Noyabrın 9-da pyesə ictimai baxış olmalı idi. Türklər bunu "Qala-tamaşa" adlandırırlar. Bu tamaşaya sənət adamları, ziyalılar və rəsmi vəzifə daşıyan şəxslər dəvət olunurlar. Bizdə buna "premyera" deyirlər. Bir fərq ondadır ki, bizdə ilk tamaşa "premyera" sayılır, türklərdə isə əsər bir neçə

dəfə oynanıb cilalandıqdan sonra "Qala-tamaşa" göstərilir. İlk tamaşalarda iştirak etsəm də, "Qala-tamaşa"ya gedə bilmədim.

— Bununla yanaşı noyabrın sonlarında yenə də Türkiyədə idiniz. Bir ayın içində dost ölkəyə ikinci səfəriniz nəylə bağlı idi?

— Elə İstanbulda olanda öyrəndim ki, bizim Milli Teatrımız Türkiyə Kültür Bakanlığının dəvəti ilə tezliklə Türkiyəyə gələcək. Teatr qardaş ölkədə göstərəcəyi üç tamaşadan biri kimi mənim "Özümüzü kəsən qılınc" ("Göytürklər") pyesimi də gətirməli idi. Bu mövzu türk tarixinin ən yaralı yerinə toxunur. Onun türk dünyası üçün, o cümlədən Türkiyə üçün doğma olduğunu bildiyimdən bir qədər həyəcan keçirirdim. Dilimiz nə qədər yaxın olsa da, əsərin Azərbaycan dilində ifa olunarkən bəzi mətləblərin çatmamasından ehtiyat edirdim. Məsələn, əsərdə Xaqan kürəkəninə müraciətlə təxminən belə sözlər işlədir: Axı sən mənim kürəkənimsən, odur ki, şahlığı sənə verəcəyəm. "Kürəkən" sözünü Türkiyədə anlamaya bilərlər. Çünki orada kürəkənə "damad" deyirlər. Belə olan halda tamaşanın əsas məğzi anlaşılmaz. Özü də informasiya xarakterli məqamlar əsərdə bir deyil, beş deyil...

Bütün bu nigarançılıqlara görə Mədəniyyət nazirimiz Polad Bülbüloğlu Türkiyədən telefon açıb məni təkidlə "Göytürklər"in Ankaradakı tamaşasına dəvət edəndə, mən səhhətimə baxmayaraq bu dəvəti qəbul etdim.

— Getməyinizə dəyərdimi?

— Şübhəsiz. Əvvəla, bu səfər mənim nigarançılıqlarıma son qoydu. Azərbaycan Dövlət Milli Dram Teatrının bütün tamaşaları, o cümlədən mənim pyesim də böyük hərarətlə qarşılandı. Ən əsası da odur ki, türklərin müştərək tarixi tamaşaçıları riqqətə gətirdi. Pyesin ən incə nüansları belə dərhal başa düşülür, düzgün reaksiya oyadırdı. Pyesin türk dilinə tərcümə olunub yerli teatrlar tərəfindən tamaşaya hazırlanacağı xəbəri məni məmnun etdi. Türkiyənin Kültür bakanı İstemihan Talay elə oradaca rejissor Ensarəyə əsəri hazırlamağı tapşırdı. "Özümüzü kəsən qılınc"ın qazax dilinə tərcümə olunub Qazaxıstanda tamaşaya qoyulacağı xəbərinə də sevindim. Türkiyənin bütün məşhur adamları tamaşaya baxmağa gəlmişdilər. Hamını tanımasam da, çoxları mənə yaxınlaşıb təbrik edir, ürək sözlərini deyirdilər. İstemihan Talay, Namik Kamal Zeybək, prof.dr. İhsan Doğramacı pyesi yüksək qiymətləndirib, onun bütün türk dünyası ölkələrində oynanmasını lazım bildiklərini dedilər. Sonra mənə dedilər ki, onlar Türkiyə mətbuatında da çıxış edib tamaşa haqqında xoş sözlər deyiblər...

"Ədəbiyyat qəzeti", 22 yanvar 1999-cu il.

Yaşar QARAYEV

BABƏKSİZ DAR AĞACI, YOXSA... HEYKƏLSİZ PYEDESTAL?

YAXUD:
BƏXTİYAR VAHABZADƏ SƏHNƏDƏ DAR AĞACINI KİMƏ QURUR?

Bəxtiyar Vahabzadənin hələ 1978-ci ildə qələmə aldığı və düz iyirmi iki il sonra, əsrin və minilliyin son ilində (keçmişə vurulan mənəvi yekun və sabaha verilən əxlaqi, vicdani imtahan, hesabat məqamında!) ədəbi-bədii mehvərinə yenidən qayıtdığı cinayət və cəza, Afşin və dar ağacı mövzusuna teatrda, səhnədə tamaşa edərkən ruhumda cilvələnən və gözümdə sərgilənən, hər şeydən əvvəl, tarixin ən amansız dərsləri, taleyin milli qismət və nəsib kimi bəxtimizə yazdığı ağrılı və fəryadlı, ibrətli və tragik təzadlar, paradokslar oldu.

Hakimiyyət və mənəviyyat, kamil hökmdar, dövlətçilikdə ədalət problemi bizim böyük klassikləri tarix boyu həmişə narahat etmişdir. Məhz kamil şəxsiyyət və hakim kimi hökmdarın "mən"i cəmiyyətdə harmoniyanın, məişətdə əxlaqi səhmanın stimulu, şərti, qarantiyası statusunda təsbit olunmuşdur.

Belə kamilliyin heç də həmişə ucada tutulmadığı, əbədi qorunub-saxlanmadığı hallar da həm həyatda, həm də sənətdə ziyalı-sənətkar narahatlığının ikinci daimi hədəfinə çevrilmişdir. Günahlı, suçlu dövlət ərlərinin məhz Akşin tipi tarixdə hökmfərma olanda Azərbaycan xəritədə dəfələrlə öz bütövlüyünü itirmiş, xəritədə bütöv qalanda isə əxlaqda, mənəviyyatda, doğruya və halala sədaqətdə parçalanmışdır. Hətta torpağı yadellidən xilas edəndə də çox-çox ərlər, öndərlər mənəviyyatı, halallığı daxili nəfsin, yerli, "milli" tamahın işğalından azad edə bilməmişlər. Ya mənəvi dəyərlərin buxovda, qandalda olduğu kölelik, ya da mənəvi dəyərlərsiz azadlıq — ayrı-ayrılıqda hər ikisi millətin acı taleyi və tragik qismәti kimi yaşanmış, ikisi də eyni vaxtda mövcud olanda isə iki qat qüvvətə qalxmışdır. Və paradoks odur ki, ən çeşidli tarixi epoxalarda da eyni hal eynilə yenidən təkrar ola, dəfələrlə geriyə qayıda bilmişdir...

Dövranla Azərbaycan arasında birtərəfli rəftarın bu qədər neqativ, təkrarlı, sürəkli stereotipi qəzadan gəlir, yoxsa bunun qlobal-geosiyasi,

obyektiv-tarixi, şəxsi-fərdi, subyektiv-milli səbəbləri var? Millətə nəsib olmuş bu tale, bu qismət payı üçün günahda hər kəsin, hər vətən oğlunun ayrılıqda suçu, rolu, təqsiri nə olub və cəzası nədir? Kimdir müqəssir? Və Bəxtiyar Vahabzadə səhnədə dar ağacını kimin üçün qurur? Dramaturq və rejissor, aktyor kollektivi bu suallara tamaşa boyu vəhdətdə (bir yerdə) cavab verir.

Məhz millətin, milli tarixin fırlandığı mehvərdən çıxan dünya, ümummilli ahəngdə, harmoniyada paradokslu məqamlar, onların bütöv bir silsiləsi burada yalnız bədii, fəlsəfi pafos, ideya detalları deyil, yalnız milli taledə, milli tarixdə həyati, tarixi təfsilat deyil: süjetin bütünlükdə davamı, faciənin və tamaşanın obrazı bu model, bu metafora üzərində qurulur. Daha doğrusu, səhnədən bizə aşılanan — dərslikdəki təfsirlər, qəzet səhifələrindən xronikalar deyil, həyatda ikən alt qatda gizlənən, lakin tamaşa boyu həm sözdə, həm hərəkətdə, həm də musiqidə, dekorda əyaniləşən ikinci planlar, mətnaltı mənalar, heyrətamiz, inanılmaz, sürprizli informasiyalardır.

Tarixdə və taledə paradokslar, adətən, "yeri səhv düşən" haqqın və saxtanın, əyrinin və düzün, yaddaşın və yad, ögey mentalın, halalın və haramın müstəvisində özünü göstərir. O yerdə ki, vicdan libasında riya, həqiqət donunda xəyanət hökm sürür və ilahi hakimlik, münsiflik missiyasına da öz iddiasını iblis irəli sürür. Tamaşada belə bir yer var: ata həsrətli Çılğın atasını tapandan sonra atalı olmaq istəmir, həyatda zəncirsiz, şəffaf divarlı zindanı tanıyandan sonra həqiqi zindandan xilas olmaq istəmir! Məhz məhbəsdə şahı da, qəsbkarı da, qatili də olduğu kimi (necə var, elə) görəndən sonra, onların hər üçünü zindandan qovur: "Bu zindan xainlər və natəmizlər üçün deyil, sadiqlər və təmizlər üçündür. Siz bura yaraşmırsınız, çıxın burdan!".

Adətən divan (məhkəmə) zindandan əvvəl baş verir və dar ağacı öz missiyasını zindandan sonra yerinə yetirir. Faciədə paradoks bu mərhələlərin nizamında, düzümündə də var: burada dar divandan əvvəl (tamaşa xürrəmilərin asıldığı edam direyinin təsviri ilə başlayır), divan zindandan sonra qurulur. Etiraf, katarzis, eşq məbədinə — məhbəs çevrilir. Və ən ali ittihamçı, münsif rolunu Çılğın öhdəyə götürür: "... Sən yurduna yurddaş, qardaşına qardaş, anana oğul olmadın, barı balana ata ol! Mən səni təmizliyə çağırıram, ata, mən burdan xilas etmək üçün yalan axtarma, düz yolla get!... Yalvarıram sənə, aç həqiqəti, de bu mənim balamdır. Bax, onda mən sənin atalığını qəbul edərəm".

Paradokslar silsiləsi davam edir. Məşhər ayağının, mülki məhkəmənin, mənəvi divanın münsiflik missiyasını burada zindan və dar

ağacı icra etdiyi kimi, xainin qətlinə verilən fərmanın icrası üçün haqqın, səlahiyyətin kimə məxsus olmasını təyin edən prinsip də burada hakimin hansı peşəkarlığa, münsifin hansı əxlaq və əqidəyə mənsub olması meyarı ilə yox..., öldürən cəlladın hansı vətənə, kəsən qılıncın hansı millətə məxsus olması şərti və amili ilə intixab edilir:

"Ana (ərəb valisinə) — ... Necə? Onu siz öldürmək istəyirsiniz? Yox! Buna sizin haqqınız yoxdur!!.

Afşin — ... Anam düz dedi. Sizin məni öldürməyə haqqınız yoxdur. Çünki mən ömrüm boyu sizə qulluq göstərmişəm. Özümünkülərə isə qənim kəsilmişəm. Qoyun məni qulluq göstərdiklərim yox, düşmən kəsildiklərim öldürsün!".

Nəhayət, növbəti tragik təzadın — Afşin üçün qurulan dar ağacı ilə Babəkin asıldığı dar ağacının (iki çarmıxın!) arasında qalan Ana bu iki dar direyi arasında paradoksun absurdluğuna heç cür agah ola bilmir: "Ərəblər Babək balamı onlara düşmən olduğu üçün asdılar. Afşin balamı isə yenə ərəblər, onlara qulluq göstərdiyinə görə asmaq istəyirlər. Ey gəlmələr, bu dostluqla düşmənliyin fərqi yox imiş?!. Məni başa salın, fərqi yox imiş?.."

Məğrur dar direyi Babəklə birləşib, onunla bir bütün (bir heykəl!) olur. Afşinlə isə dar ağacı arasında vəhdət yox, təzad görünür. Əgər danışsa idi, eşafotda dar ağacının da dilindən zindanda Çılğının dilindəki sözlər eşidilərdi: "Burada asılmağa sən layiq deyilsən, çıx, get!".

Mahiyyətcə mənfi qəhrəman heç də xırda, cılız xəyanətkar deyildir. Afşin özünə, öz xalqına xəyanətində, özgəyə sədaqətində "böyükdür". Özgəni böyük, özünü kiiçk, özgənin yalına halva, öz halvasına yal deyən "böyük" və tanış xəyanətkardır. Zirvədə — tacü-təxtdə olanda ölüdür, eşafotda, dar ağacında diridir:

"Mən öz vətənimə qarşı vuruşanda ölü olmuşam. Hökmdar oldum, yenə ölü idim. Ölüm qarşısında dirildim. İndi mən ruhən dirilib, cismən ölümə gedirəm".

Bu tale və bu sözlər də yaxın tarixi — "Məni şaqqalamaq da azdır" — deyən, məhz eşafot və ölüm məqamında "dirilən" Mir Cəfər Bağırovu yada salır.

Nəhayət, paradoks Babəkin ("teyfin") qəhqəhəsi ilə hönkürtüsünün süjetdə yerləri, məqamları arasında var: faciə Babəkin qəhqəhəsi ilə başlayır, hönkürtüsü ilə bitir. Qəhqəhə ilə hönkürtü arasına sığan süjetdə mənəvi konflikt, əslində millətə xidmət faciəsi ilə millətə xəyanət dramı arasında davam edir.

Millət və din dəllalları faciədə qəsbkarın — xilafətin öz düşərgəsində

də var: İbn Zeyd! Onun simasında məhz xilafətin səlahiyyət sahibi xilafətin cibinə girir, islam mücahidi islamla al-ver edir. Bu "suveren", "hakim" xainin xəyanətinin miqyasına hətta "kölə xəyanətkar" — Afşin də heyrət edir: sən demə, xəyanətkar həmişə, hər şəraitdə xəyanətkardır.

Məlumdur ki, islamın və onun Şərqə yayılmasının tarixinə aid iki klassik dram əsəri mövcuddur: "Od gəlini" və "Peyğəmbər". Əxlaqi axtarışlar mövzusunda yazdığı müasir pyeslərindəki bəzi motivlərlə Hüseyn Cavidə daha yaxın görünən Bəxtiyar Vahabzadənin bu ilk tarixi faciəsində isə Cəfər Cabbarlının vətəndaşlıq idealları ilə bilavasitə səsləşən məqamlar daha çoxdur. Lakin bu səsləşmə yalnız müasir sənətkarla milli ədəbi irs, ənənə arasında daxili əlaqə səviyyəsindədir: bu iki pyes arasında bilavasitə mövzu, konflikt, janr-üslub paralelləri və analoqları yoxdur. Əksinə, "Od gəlini"nin epiloqunun bitdiyi yerdə "Dar ağacı"nın proloqu başlayır. Əsas bədii konflikt zahirən yenə də Azərbaycanla xilafət, Vətənlə yadellilər və yaddillilər arasında konflikt kimi qorunub saxlansa da, əslində o da xalis əxlaqi-psixoloji mahiyyət daşıyır, ehtirasla ağıl, borcla hiss, yarıya bölünən, parçalanan "mən"lə "ikinci səs" arasında cərəyan edir. Lirik-psixoloji dramın Bəxtiyar Vahabzadəyə xas olan fərdi, məxsusi modelinin prinsipi, əsas problem və komponent tərkibi, adətən, dəyişməsə də, onların ifadə etdiyi konkret əda və çalar fərqi tez-tez hiss olunur. Ənənəvi "ikinci səs" rolunda bu pyesdə artıq Afşinin özünün kölgəsi yox, Babəkin teyfi çıxış edir. Daha doğrusu, "Dar ağacı"nın ideya-əxlaqi konflikti Afşinin "mən"i ilə Babəkin teyfi arasında qurulur. Eyni bir Vətənin azadlığına və müqəddəratına münasibətdə iki müxtəlif yol tutan iki qan qardaşının ikisinin də taleyi eyni bir finala — dar ağacına gətirib çıxarır. Və qoşa dirəkli, "qırıq bayraqlı" bu dar ağacı ömür adlı çərçivədən həm qəhrəmanlığa və əbədiyyətə aparan sonsuzluğun, həm də xəyanətə və sükuta açılan uçurumun qapısı ola bilir. "Dar ağacı"nın qəhrəmanını lap əvvəldən son ana qədər biz uçuruma—xəyanətə açılan körpüdə görürük.

Biləgənli Elxan qeyri-adi iradəsi ilə hətta doğma qardaşının — Afşinin də dəmir inamını qırır. Onun son ittihamına əməli və taleyi ilə cavab verən Afşini isə biz artıq "Dar ağacı"nın qəhrəmanı şəklində görürük.

Müqəddəs od əxlaqından, alov və işıq rəngli həqiqətdən və fəlsəfədən islamın "yaşıl tanrısı"na doğru aparan körpüdən səmimiyyətlə keçən Afşinin gözündəki dumanlıqlar çox tez — hələ Babəkin ölümqabağı qəhqəhəsindən yayılan sehrdə, şimşəkdə və işıqlıqda durulmağa başlamışdı. Yadelli və yaddilli qəsbkarın adi bir etimadı və "sağ ol"u üçün doğma xalqın, torpağın və ananın üzünə ağ olmaq məhkumluğunu

dərk edəndə isə Afşinin əsl müsibəti başlayır. O, olduqca tez, xilafətlə ilk çılpaq təmasdan, ilk işgüzar ünsiyyətdən anlayır ki, Babəkə və torpağa, ocağa xəyanətin haqqı kimi ona verilən valilik hökmü və titulu onu səlahiyyətli, qanuni bir hakimə yox, kölə bir hökmdara çevirib, elə bu andan da "yaşıl işıq"la "qara zülmət" (fəlsəfə ilə əməl, ölkəyə din gətirənlərlə istila gətirənlər, əsil islamla İbn Zeyd...) arasında tragik təzadın Afşinin daxilində oyanan tərəddüd və əzabları başlayır.

Afşinin müsibəti adi aldanışın, yaxud, nəfsin insanı (sərkərdəni, hökmdarı) qəflətən düçar etdiyi şəxsi müsibət deyildir. Afşinin müsibətinin ictimai kökü, sosial əsəbi xalqın taleyindən gəlib keçir. Vətənin, torpağın taleyində əks olunur. Yurdun təkcə torpağı, sərvəti yox, namusu da talanır: karvan-karvan el malı, dəstə-dəstə qız-gəlin Bağdada, xilafət səltənətinə, ruhani ataya kəniz göndərilir.

Şəxsi-əxlaqi dram isə odur ki, saxtalıq bu saxta hökmdarın ikinci təbiətinə çevrilir. İstisnasız, bütün sahələrdə, haqla və həqiqətlə yox, yalan ilə iş görür. Şahlığı saxta yolla aldığı kimi, o xalqın qəlbini də saxta yolla ələ almağa çalışır. Ərəb nümayəndəsi ibn Zeydin çadırını yandıran doğma qızını da ərəb divanından həqiqətin yox, yalanın gücünə xilas etmək istəyir:

Çılğın — Bəs niyə gizlədirsən? Niyə həqiqətdən qorxursan, yalandan yox, ey müsəlman? Bəs axı siz bizə həqiqət, ədalət gətirməyinizdən dəm vurursunuz?.. Sən yurduna yurddaş, qardaşına qardaş, anana oğul olmadın, barı balana ata ol! Mən səni təmizliyə çağırıram, ata, məni buradan xilas etmək üçün yalançı yollar axtarma, düz yolla get!... Yalvarıram sənə, ata!...

Afşin taxtı üçün hər şeydən keçir, fəqət heç nə üçün, hətta qızının həyatı üçün — yeganə sərvətindən — taxtından keçmək istəmir. İslam dəyərlərinə ən səmimi inamı qəlbində sona qədər qoruyan, ölüm məqamında "kəlmeyi-şəhadət" söyləyən, əməldə, işdə isə xalqına səadət adına paslı zəncir, qandal və qıfıl gətirən Afşin bütün pyes boyu, əvvəldən-axıra qədər ifşa olunur: onu el ağsaqqalı, qızı Çılğın, Sabutay, Altay, Dəli Domrul, Babəkin teyfi ittiham edirlər. Lakin bütün bu ittihamlarda zirvə məqamı, ən müdhiş və sarsıntılı tragik an — Ananın ittihamıdır. Anaya qədər hərə onu bir şeydə təqsirləndirir. Ananın ittihamına isə ana torpağın, odun, ocağın, suyun və südün özünün ittihamı qarışır. Tragik təzadı artıran bir də odur ki, eyni ürəkdə, eyni bir parçalanan "mən"də qatilin, həm də qurbanın anası baş-başa gəlir, öz ölən oğlunun intiqamını öz öldürən oğlundan almağı Tanrıdan eyni bir Ana istəyir. Şah anası ilə Babək anası, müsəlman oğulla atəşpərəst ana, nankor övladla müqəddəs od anası üz-üzə dururlar. Özü də hadisə od yurdunun od bayramı günün-

də — axır çərşənbədə baş verir.

Boyalar tündləşir, Afşin ifrat eybəcər rənglərdə görünməyə başlayır. Lakin doğurduğu dəhşətin dərəcəsi çoxaldıqca, onda mənfi işarəli tragizmin (demonizmin) də rəngləri tündləşir. Sonda, artıq özünü ("mən"ini) dərk etmiş tiranın və demonun faciəsini yaşayanda ölən Afşinə müqəddəs teyfin də xitabının ovqatı dəyişir: finalda Babək qəhqəhələrini ilk dəfə olaraq Babəkin hönkürtüsü əvəz edir.

Afşinin vəziri İbn Tahir — tülkü Taybuğa da simasız, əqidəsiz, buqələmun fərarinin biridir, gündə bir din və Vətən dəyişdirir, sonra atəşpərəst, sonra xaçpərəst, müsəvi, indi isə müsəlman olub.

Beləliklə, bu obrazların hər ikisində sərkərdə, vəzir və hökmdar cinayəti bəzən adi bir quldurun və pozğunun cinayəti ilə hazırlanmış və bərabərləşmiş kimi təsir bağışlaya bilir.

"Dar ağacı"nda "Fəryad"ın ilk rüşeymlərini ifadə edən və xəbər verən bir də xürrəmilərin azadlıq, haqq, həqiqət və Tanrı haqqında düşüncələridir. Bu düşüncələrlə İslamın həqiqi mənəvi-dini dəyərləri arasında uyğunluq və ahəng vardır. Təsadüfi deyil ki, məhz türk dünyasında islam belə kütləvi şəkildə və sürətlə yayıldı. El ağsaqqalının Tanrı haqqında anlayışı hürufinin ilahi anlayışı ilə yaxından səslənir: "Allah — vicdandır, insafdır". Yaxud, Dəli Domrul deyir: "Bizim dinimiz insafdır, vicdandır, insana qulluqdur".

Altayın oda sitayiş kultuna verdiyi məna, həmçinin, özündə ortodoks dindən daha geniş fəlsəfi çalar daşıyır: "Qaranlıq gecələrimizi işıqlandıran, bizi isidən, körəyimizi, çörəyimizi bişirən, ulusumuzun qoruqçusu, gözlərimizin işığı, könlümüzün odu, andımız, şərəfimiz od!... Bu məsləkbizim öz torpağımızdan, öz ruhumuzdan doğub".

Ən böyük həqiqət insan və ona xidmətdir! Ən böyük din insana, onun zəhmətinə, onun arzularına hörmətdir. Başqa sözlə, "Fəryad"da vüsət tapacaq "insanü-əkbər" fəlsəfəsinin əvvəlini biz burada ilkin islam mərhələsini qarşılayan xürrəmilərin, xüsusən, Ağsaqqalın görüşlərində hiss edirik. O, artıq oddan da yüksəyə — yəni, haqqa, həqiqətə və insana sitayiş edir!

Həm hiss, həm də ağılla dərk olunan əqidə və inam, onun tamlığı və bütövlüyü — şair-dramaturqun yaradıcılığında xoşbəxtlik haqqında anlayışın da tamlığını,bütövlüyünü təmin edən əsas şərtdir. Buradan da iman gətirdiyinə, inandığına münasibətdə səmimiyyətin və sədaqətin bütövlüyü problemi irəli gəlir.

Bəxtiyar Vahabzadənin belə bir məşhur misrası da var: "Yaradıbdır inam məni, mən inamın övladıyam!". Əlbəttə, şer, sənət həmişə məf-

kurədir və bu mənada bütün şairlər hamısı eyni ananın — inamın övladlarıdır. Lakin adı və həyatı poeziya ilə inam arasında doğmalığın daha dramatik taleyinə çevrilən şairlər də var: Nəsimi — həm inamdan doğulan, həm də inam üçün ölən şairdir!

Əsəri təkcə Nəsimi ilə yox, bütünlükdə klassik poeziya ilə bağlayan başqa simvolik bağlar da var: şəxsiyyət və zaman, insan, onun mənəvi mahiyyəti və azadlığı problemi bizim klassik poeziyanın ideya və əxlaq leytmotivi olub. Ölümə könüllü gedən "Haqq aşiqi!" — bir neçə əsrin dəyişməz tragik qəhrəmanı belədir! Azad fikir və ehkam, loğman və vaiz, zahid və filosof, Babək, Nəsimi və tiran əsrlər boyu gah poeziyada, gah da dar ağacının altında üzbəüz dayanmışlar. Bu gün, XXI əsrdə, müasir şair onları yenidən səhnədə görüşdürür. Ta suverenliyə çatana qədər xalqımızı gələcəyə aparan yollarda vahid mənzilin, müqəddəs ünvanların ümumiliyi səhnədə onların bugünkü görünüşünü məntiqi, qanunauyğun bir hadisəyə çevirir. Öz iri hərfli İnsan (!) idealı ilə Nəsimi, Babək orta əsrlərdən çıxıb humanizmin yenə də sınaqdan keçdiyi ideya döyüşlərində iştirak edir...

Dünyanın ən qiymətli mənəvi sərvəti olan İnsanın taleyi müasir planetdə bugün bir daha qorxu qarşısında qalır və bəşər tarixinin mənəvi-əxlaqi dərslərini, onun yaddaş və vicdan mənasını yenə də xatırlatmağı əməli bir ehtiyaca çevirir. Şərin xeyri, ehkamın həqiqəti, qrafomanın, maşının, robotun Nəsimini yenidən soymağa, Babəki yenidən asmağa hazırlaşdığı hər dövrdə, hər dəfə poeziyanın Nəsimi və Babək üsyanı da yenidən baş verir...

"Dünya öz oxundan çıxmış və onu mehvərə qaytarmaq mənə həvalə edilmişdir" — sən demə, bu missiya təkcə Hamletin yox, bütünlükdə böyük sənətin, böyük fəlsəfənin və bütün zamanların qarşısında həmişə duran ən əzəli, ən əbədi vəzifə imiş!

Sən demə, hər böyük sənətkardan sonra həmin ahəng — təzədən pozulurmuş! Eyni mənəvi mehvər, eyni ilahi dövriyyə, eyni əxlaqi missiya qalır, yalnız icraçıların (hamletlərin) etnik adı və milli ünvanı dəyişirmiş. Dünyanın ahəngini Hamletdən əvvəlki vəziyyətə (tarazlığa) qaytarmaq üçün bütünlükdə tarix və bəşəriyyət çalışırmış. Lakin "ahəngi pozanların" qabağa düşəni, birincisi, siftəsi Məcnun olub. O, apogeyə Füzulidə çatıb. Metaforaya ("Hamlet" epitetinə) Füzulinin müasirində — Şekspirdə çevrilib. "Dəliliyə" və "kefliliyə" aludəliyi Dostoyevskidə, Mirzə Cəlildə biruzə verib. Məcnun olmasaydı, Hamlet, Sənan, Çatski, Mışkin, Aydın... və daha sonralar Coysun, Prustun, Simonun, Yunqun, Kamyunun, Sartrın... qəhrəmanları bu dünyaya bu

qədər çətin ki, yayılaydı. Bu kitablar hamısı Nizami, Füzuli əlyazmasından sonrakı yayımlar və basımlardır. Hər dövrdə həmin dövrdəki dünyadan daha yaxşısını, daha kamilini, şərdə, sənətdə yaratmağın ayrı əbədisi, sonsuzu, ayrı intəhasızlığı, çətin ki, mümkün ola idi...

Sən demə dünyaların kamilini yaratmağı Tanrı heç əvvəldən öz qarşısına məqsəd qoymayıbmış: onu insanların (sənətkarların!) özünə etibar və həvalə edibmiş!...

Nə yaxşı ki, bu missiyanın sənətdə ifadəsində də icrasında dünya ilə birlikdə türklük də, Şərq—islam ədəbi-bədii-fəlsəfi fikri də, Azərbaycan mentaliteti də iştirak etmişdir və indi də edir. "Dar ağacı"nı oxuyarkən düşüncəmə işıq salan son müşahidəm həmin qlobal prosesdə bu bədii, fikri, fəlsəfi iştirakın klassik tarixinin coğrafi sərhədsizliyi və tarixi qədimliyi oldu...

* * *

İnsanın günahı və aldanışı üçün ağrının və iztirabın yükünü, bəşərin mənəvi-əxlaqi mükəmməlliyi üçün cavabdehliyin səlahiyyətini öhdəyə götürmək ideyası öz ifadəsini hələ erkən mifoloji təfəkkürdə, həmçinin, sonrakı dini-fəlsəfi-bədii simvolikada tapmışdır. Bizim era —cəhalət qarşısında günahsızlığın ilk qurbanı ilə — İsanın çarmıxa çəkilməsi aktı ilə başlamışdır. Günah, iztirab və etiraf təzadı və qarşıdurması sonralar da davam etmiş, Prometeyin insanlar üçün gətirdiyi odda insanlar Cordano Brunonu yandırmışlar. Prometey — odu, insanlar — bu oddan alovlanan tonqalları (ölüm peçlərini — Osvensimi, Daxaunu...) kəşf etmişlər. Tanrı—İblis, Xeyir—Şər təkbətək öz ritmini və sürətini günümüzə qədər də dəyişməmişdir: qaranlıq və cəhənnəm dahisi kilyotini, eşafotu, edam kötüyünü və dar ağacını kəşf edəndə Tanrı da eşafota, çarmıxa qalib gələn Həllac Mənsuru, Nəsimini, Babəki kəşf etmişdir!Məhz bizim etnik mentalın, yaddaşın və təfəkkürün bədii rəmzi və emblemi "pələng dərisi geymiş pəhlivan" yox... dərisi soyulmuş Nəsimi olmuşdur. "İsa tematikası" məhz Məcnun və Sənan tematikasında öz fəlsəfi davamını və təsdiqini tapmışdır.

İnsan—Tanrı taleləri və obrazları bir-birindən Adəm cənnətdən ayrılanda ayrılmayıb, yox: əksinə, bu dünyadan və onun aşıb-daşan səhrindən Tanrı insanda İnsana "inam krediti", insan kamalına əminlik, "arxayınlıq ehtiyatı" ayırdı. Və məhz bilik meyvəsi ilə xilqət xaliqə bənzəmək üçün tanrıdan yeni şans, yeni səlahiyyət almış oldu. Evolyusiyaya sıfırdan başlamaq, ilahiyə kamillikdə yaxınlaşmaq üçün biliyin və iztirabın, daxili-mənəvi təkamülün tarixdə və yaddaşda təqvimi belə başladı. "Vəhdəti-vücud", mükəmməlliyə qovuşmaq, "küll ilə küll olmaq" — yəni, mənəviyyatda, ruhda inteqrasiya həm bir eşq, həm də təlim kimi bu şansdan yarandı.

Lakin İsa ilə bağlı hikmətli ibrətin — məhvin modelinin daxildə, alt qatda ifadə etdiyi məna daha fəryadlı və faciəlidir — o, yalnız iki quldurun ortasından asılmamışdır: böyründəkilərlə bərabər önündəkilər də (İsanı çarmıxa çəkənlər də!) hamısı qatillər və quldurlardır!... Həm ayağı altında dalğalanan, həm də onunla yan-yana, qoşa çarmıxda — eyni ucalıqda yırğalanan canilərə İsanın "lənəti" (daha doğrusu, xeyir-duası) eyni məzmundadır: o, çarmıxdan cəhalətə qəhqəhə çəkib gülür və Tanrıdan cahillərə əfv diləyir (axı bu kor kütlə nə bilsin ki, İsa ilə birlikdə, əslində, o, öz diri şüurunu, fitri günahsızlığını çarmıxa çəkib öldürür!)

Tarix boyu kamilliyin çarmıxa çəkilməsi motivi məhz İsadan sonra fəlsəfədə və poeziyada (həm Şərqdə, həm də Qərbdə) daha fasiləsiz davam edir. İsa ilə yanaşı bu "çarmıx" mifinin indi də yaşayan qəhrəmanı — Məcnundur və Sənandır:

İbni Məryəm asıldı darə, fəqət,
Onu təkrarə varmıdır həcət?

(H.Cavid. "Şeyx Sənan")

Bu sualı hər yeni dövrdə hər yeni filosof-sənətkar yenidən irəli sürmüş və məhz özünün çarmıxdan, dardan asılan vücudu ilə özü öz sualına cavab vermişdir:

Bumu İsanın ərşə meracı?
Mən nəyəm şimdi? Canlı dar ağacı!

(H.Cavid. "Şeyx Sənan")

Lakin İsanın (deməli, insanın, Allah övladının) tragik həlakının öz dini-fəlsəfi davamı və mifik-rəmzi modeli də var: sondan, yoxluqdan sonra o, ilkinliyə, Ataya, Tanrıya qayıdır. "Şeyx Sənan"ın finalı da bu modellə bitir — o da mələklər libasında, Xumarla birlikdə "ərş-əəlaya" uçur!...

Buraya məhz qandallanan Prometey, asılan İsa motivi ilə bağlı üçüncü ilahi, rəmzi mənanı da əlavə etməyə bilmirəm: nə yaxşı ki, dünyada İsalar var imiş! İlahi əxlaqın və vicdanın tarixində İsanın hətta ölümü də işığın həmişə tragik obrazının — Prometeyin öz ciyərindən, Səməndər quşunun öz külündən qalxmasını xəbər verir və təsdiq edir: dünya axıra qədər nursuzluğa, varlıq mütləq qaranlığa onda qərq olardı ki, zülmətdə sönmək üçün son nur şüası, tonqalda yanmaq üçün sonuncu Cordano

Bruno, çarmıxda dalğalanmaq üçün bətndə cismləşən müqəddəslik — İsanın vücudu tapılmaya idi. Zəncirli, qandallı qayalar Prometeysiz, qartallı, pələngli səhralar Məcnunsuz, gilyotinli, edam kötüklü meydanlar Nəsimisiz qala idi. Dar ağacı həm də budağı ən ağır meyvədən — Babəkdən əyilən bir ağacı olmaya idi!...

"Çarmıx" və "Dar" adlı abidəni qurbana yox, ... cəllada qoya idilər. Ən ülvi, tragik zirvələr sakinsiz, ən uca, mənəvi pyedestallar heykəlsiz qala idi. Zirvələrdən asmağa İsalar axtaran Ponti Pilatlar o iki quldurdan, iki canidən başqa ayrı heç kəsi tapmaya idilər. İntəhasız, əzabkeş səmaya, sonsuza, dibsizə üz tutan əbədi ruhların karvanı ulduzlarsız, torpağın və tarixin kətanı şəhidin, qazinin öz qanı ilə saldığı izlərsiz, imzalarsız qala idi...

Kainat nə qədər qaranlıqlaşardı. Mütləq kamilliyə, ideal harmoniyaya, ilahiliyə yol, hərəkət dayanardı. Yalnız onda — çarmıxda İsa kimi dalğalanmağa hazır olanlar tapılmayanda, onsuz da yalan, fani, "bivəfa" dünya ikiqat zülmətə, ikiqat qara kabusa qərq olardı.

Xoşbəxtlikdən, "dar ağacı" bitən meşəlikdə, edam kötüyündən, çarmıxdan göyərən qoruqda və yaylaqda "quraqlıq dövrü" bizim milli etnik tarixdə heç zaman olmayıb. Şəhidliyə ilahidən, qəzadan təyinatlı rəmzi "almalar" və "xurmalar", sehirli, ilahi nuru idraka dərgahdan gətirən o İsa və Prometey vücudlu mənəvi ərlər və ərənlər o dünya kimi bu dünyada da torpağa həmişə "ağacdan sallanıb" baxıblar.

Axı Tanrı hətta cənnətdə də bilik meyvəsinə ağacda (alma, ya da xurma budağında) yer ayırıb. (Adəm bilik ağacından meyvə dərəndə, yalnız onda ilk dəfə özünü və bu dünyanı dərk etməyə başlayıb). Ənənə davam edib: Həllac Mənsur bəhərli, Nəimi, Nəsimi meyvəli palıd və çinar bu dünyada da qətl və qurban, Aşura və Kərbəla səhrasında bitib. Dar ağacını bar ağacı kimi tərənnüm edən ilk şair Şərqdə, Azərbaycanda doğulub — Bəxtiyar Vahabzadə "Dar ağacı"nı mehrabda — səhnədə qurub. Millət məhz əlində səbət eşafota qalxıb, "Salam, şəhidliyin sehirli dirəyi", "Salam, dar ağacı!" — deyə kötükdən çiçək dərib və çarmıxdan meyvə toplayıb.

Lakin qurbanlar, görünür, heç də kifayət qədər olmadı və çarmıxda parçalanan şəhidə bir gün Azərbaycan özü çevrildi. Əcnəbilər, yadlar, yabançılar axır ki, əlbir, dilbir clədilər və bu dəfə İsanı yox... Azərbaycanı çarmıxa çəkdilər. Vətən də İsa kimi çarmıxa çəkiləndə — dərdə, yeddiyə, ona (min-min qaçqına, didərginə, şəhidə...) bölünəndə isə millət də Nəsimi kimi məhbəsə, sürgünə, mehraba, edama hazır oldu. Lakin nə yazıq ki, cuma vaxtı keyf süfrəsi açanlar, Vətənə edam anında

xəyanət edənlər də çox oldu.

Məhz onlardakı etnik "qeyri-şüurluluq" bir yerə yığılıb "sosial nadanlıq", mənəvi, bəşəri, milli "cəhalət" adlanan cəmdə, hasildə bir bütöv oldu. Elə bu hasilin davamı olan qismət və fərq (böl və çıx!) isə Qarabağ oldu! Vağzal, bazar, küçə, yürüş, çevriliş hadisələrində klassik riyazi arsenalın — dörd əməliyyatın dördü də iştirak etdi...

Daxilən təmizlənmə, müqəddəs mənəvi təkamül idealı hələ Nizamidən, Nəsimidən, Füzulidən başlayaraq, bizim bədii-fəlsəfi fikrin ən yaşarı ənənəsi kimi davam edir. Üstəlik, B.Vahabzadə rübabının əsəb və telləri bu bədii miqyasdan da geniş, qlobal fəlsəfi məkana köklənir. Ç.Aytmatov və Ç.Hüseynov kimi (onlardan da əvvəl), dünya, xristianlıq, İsa (çarmıx) tematikasını da öz içinə alır. XXI yüzilin dünya sivilizasiyanın təşəkküründə planetar təfəkkür tam halda, vəhdətdə iştirak edir...

Nəriman Həsənəliyev

BİR OLSAQ ÖZÜMÜZÜ KƏSMƏZ BU QILINC! BELƏ OLAQ HƏMİŞƏ

İlahi, bu gecə "Özümüzü kəsən qılınc" tamaşasına baxan hansı türk oğlu türk yata bilər? Bu üç saat çəkən tamaşa eramızın 630-cu illərinə aid Çin işğalçılarının dağıtdığı Göy Türk Dövlətinin istiqlal uğrunda apardığı qanlı daxili və xarici çəkişmə-dartışmalarla dopdolu mübarizə tarixindən bəhs edir. Pyesin ana xəttini tarixi şəxsiyyət olan Gur Şadın bu mübarizədəki mərdanəliyi, fədakarlığı və qəhrəmanlığı təşkil edir. Adi bir tamaşaçı da tamaşada bu günümüzə tuşlanmış dərin məna və siqlət kəsb edən neştərləri çox gözəl duyur, əsərin müasir prototiplərini yuxarı eşelona dürtüşən ermənipərəst bəzi riyakarları çox asanlıqla müəyyənləşdirir. Bu pyes başdan-ayağadək milli, təpədən-dırnağadək müasir bir sənət incisidir; səhnəmizin, məmləkət və millətimizin balalarını, faciələrini çox sərrast, çox məharətli qələmlə bir ayna kimi əks etdirən dahi Şekspirin "Hamlet" faciəsi səpgisində işlənmiş bu sənəd əsərində Hamletin atası ilə dialoq və monoloqunu Azərbaycan poeziyası və dramaturgiyasının Bayronu və Şekspiri sayılan Bəxtiyar Vahabzadə Qara Xaqan və Dulu Xaqanın xeyir və şər mələikəsi və şeytanı ilə əvəzləmişdir.

İstiqlal uğrunda gedən bu çətin, çətin olduğu qədər də şərəfli mübarizədə, savaşda dövlət və milli mənafeyi ilə cılız şəxsi mənfəət hissləri qarşı-qarşıya qoyulmuşdur. Tamaşa boyu iki qütb arasında gedən

ölüm-dirim savaşının dramatizmi tamaşaçını bir an da rahat buraxmır. Tamaşa boyu çağdaş günlərimizdə baş verən eyni hadisələr, tarixin ibrət dərsləri ilə tutuşdurulur. Altun düşkünü olan dərəbəyləri Vətənin taleyini yaşayan millətin haykıran vətənpərvər övladı—duyğulu şairi Bəxtiyar Vahabzadə məşhər ayağına, öz qılıncımızı özümüzə arxadan sancan mələksima "fahişələri, millət dəllallarını" çarmıxa çəkir.

Kim bilir? Bəlkə elə Şekspirin özü bu mövzunu qədimdən, qədim Göy türklərin daşlara köçmüş, daşlaşmış və əbədiyyətdən uzun bir yolun yolçusuna çevrilmiş tarixin daşbasmalarından, yaxud əsatir, mif və əfsanələrdən bəhrələnərək yazmışdır. Azmı belə, məşhur avropalı şair və yazıçılar (F.Bodenşted, Homer və b.). Şekspirin Hamlet faciəsində yalnız bir nəfərin—oğul Hamaletin öz atasının qatilinin axtarışı ilə kölgə-ata ilə monoloqu və dialoqu təşkil edirsə, "Özümüzü kəsən qılınc"da isə bu dramatik süjet xətti ikiləşir, qoşalaşır, iki qardaşı ayrı-ayrı qütblərə çəkib aparır.

Əsər boyu mənfi obrazlar ikiləşir. Bu xüsusiyyət xalq şairi Bəxtiyar Vahabzadə dramlarında bir qızıl xətt kimi həmişə cərəyan edən və müəllif qayəsinin anlamında da öz işini görən sənətkar priyomu kimi çox təqdirəlayiqdir. Şair burada da öz qəhrəmanlarının iç aləminə bacarıqla müdaxilə edir (axı hamımızın içimizdə xeyir də var, şər də var).

Əsərdə hər şey gözlənilməz, bəzən də sıçrayışlı mizana düşüb öz həllini tapır: iki hissə və on iki şəkildən ibarət bu dramatik kolliziyalarla dopdolu dram əsərində şair-dramaturq ilk nəzərdən sanki hər mətləbi açıqlaya-açıqlaya istiqlal uğrunda gedən milli mücadilənin həllini bir uzun anlığa tamaşaçının öhdəsinə buraxır. Demədiyi, demək istəmədiyi mətləbləri tamaşaçı da həll etməkdə çətinlik çəkəndə, əsərin dramatizmlə, əsəbləri tarıma çəkilmiş insan taleləri ilə dopdolu süjet xətti sanki qırılır. Tamaşaçı riqqətə gəlir, şairə və aktrisaya öz dərin minnətdarlığını öz sürəkli alqışları ilə biruzə verir (Qara Xaqanın mərd millət qızı Selcanın oğul payı bəxş etdiyi ərinin qarşısında özünü qılıncla öldürdüyü səhnədə).

Burada Göytürklərin ölkədaxili işlərinə, hətta hərbi kəşfiyyatına da müdaxilə edən çinli casusları çağdaş dövrdə əvəzləyən ermənilərə silah göndərən bəzi rus, fars, eləcə də faşizm girdabına düşən ermənilərə nifrəti gücləndirən, milli birliyə, vətəndaş həmrəyliyinə səsləyən belə vətənpərvərlik duyğuları aşılayan tamaşalar bu gün millətimizə və məmləkətimizə hava kimi, su kimi gərəklidir, lazımdır.

Millət özünə qayıtmalıdır. Bu milli dönümümüzün də, milli birliyimizin də çətinliklə, yurdsevərlərimizin qanı bahasına başa gələn istiqlalımıza yamanca bənzəri varmış. Tamaşa boyu bir-birindən hakimiyyət hərisliyi üzündən ayrı düşən qanı bir, canı bir, iqbalı bir olan qardaşlar, nəhayət ki, millətin və məmləkətin mənafeyi naminə bir vücud kimi birləşməyə qərar verirlər. Burada bir-birindən xəbərsiz halda iki türk şairi də sanki bir nöqtəyə vuran taleyüklü bu məqamı vurğulayırlar, fikir-əqidə, məslək uğrunda haykıraraq (Ziya Gökalp və Bəxtiyar Vahabzadə):

Demə mənə oğul, Osmanlı, türkəm.
Bu ad hər ünvandan mənə üstündür.
Yoxdur özbək, noqay, qırğız, qazaxlı.
Türk milləti bölünməyən bütündür.

Məhəmməd Akif onlara qoşularaq:

Doğacaqdır sənə vəd etdiyi günlər haqqın.
Kim bilir bəlkə yarın (sabah), bəlkə yarından da yaxın!

Sanki Əhməd Ersoy da mənim bu dəqiqədəki hal-əhvalımı oxşayan, qəlbimi sarsıdan, dönümümüzün iztirabında yanıb-yaxılan ovqatıma təsəlli verərək, məni arxayınlaşdırır:

Biz gedirik eldən-elə,
Bir gün geri dönəcəyik.
Gələr vədə, bitər çillə
Bir gün geri dönəcəyik.

Elmi yaman, bəymi yaman?
Vaxtında göstərər zaman.
Eyni ölkə, eyni iman,
Bir gün geri dönəcəyik.

Nə yaxşı ki, içimizdəki yad döşlərdən süd əmmiş və hələlik yuxarı eşelonda özlərinə lövbər salmış, bəzi vicdanı sönük canlı dəyirman olan adamlarımızı möhkəmcə silkələyən, hətta prezidentimizin də gözlərini nəmləndirən belə sənət incilərimiz yaranır. Və nə yaxşı ki, xəyanətkar qardaşla, dövlət, millət və məmləkət dərdini çəkən və girov götürülərək, 5 il düşmən düşərgəsində əsirlikdə qalan, nəyahət, oradan qaçan və türk dövlətləri ilə birləşərək qatı düşmənlərin üzərində qələbə çalan və düşmənləri müqəddəs torpaqlardan qovub çıxaran Gur Şad bütün umu-küsünü bir kənara qoyaraq, onu həbsxana küncünə salan böyük qardaşını bağrına basaraq, məmləkətin və millətin

mənafeyi cılız şəxsi mənfəət üzərində qələbə çalır. Nəticədə İkinci Göy Türk Xaqanlığı yaranır.

Göy Türk Dövlətinin 1450 və Azərbaycan Demokratik Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş bu tamaşanı ərsəyə gətirən, rənglərin dili (şeytan-qara, mələk-ağ və s.) ecazkar xariqələr yaradan quruluşçu rejissor əməyi xüsusilə qeyd edilməlidir.

Ümumiyyətlə, rejissor, bəstəkar (əməkdar incəsənət xadimi Cavanşir Quliyev), rəssam (İsmayıl Məmmədov), rəqslərin quruluşçusu (Nicat Kazımov) işinin sıx vəhdəti belə bir monumental dram əsərinə şəksiz ki, uğurlu, uzunömürlü səhnə həyatı bəxş edəcəkdir. Tamaşada monolit aktyor ansamblı Qara Xaqan (xalq artisti, respublika Dövlət və "Qızıl Dərviş" mükafatı laureatı Əliabbas Qədirov), Dulu Xaqan (əməkdar artist, Respublika dövlət mükafatı laureatı Ramiz Məlik), Gur Şad (Naxçıvan MR əməkdar artisti), Erkin (Elxan Quliyev), Mubi Tərxan (Rafiq Əzimov), Selcan (M.Əsədova), Banu Çiçək (əməkdar aktrisa Zemfira Nərimanova) və başqa obrazları yaddaqalan, səmimi, inandırıcı etmişdir. Rəng seçimi, səmərəli, düzgün, işıq texnikası, paltarların tarixi və milli uyarlığı, hadisələrin inkişaf prosesini tamamlayan təsirli musiqi bu gözəl səhnə əsərinə bitkinlik, lakoniklik gətirmişdir. Geyimlərin, səhnə tərtibatının nələr bahasına əldə edilməsinin qayğısına qalan xalq artisti, iki dəfə Dövlət mükafatı laureatı, teatrın bədii rəhbəri H.Turabovun da zəhməti göz qabağındadır. Sponsorların (ələlxüsus R.Xələfovun) Bəxtiyar Vahabzadə sənətinə və şəxsiyyətinə bəslədikləri hədsiz məhəbbət və maddi sıxıntılar və iqtisadi çətinliklər məngənəsində olan teatr kollektivinə yar və yardımçı olmuşdur. Əlbəttə, dövlət məmurunun teatr sənətimizə göstərdiyi bu qayğı və diqqət təqdirəlayiqdir. Deməli, Hacı Zeynalabdin ənənələri bütün bu iqtisadi çətinlikləri, mancələri, sədləri dəf edərək, özümüzə, dönməkdəymiş... Ulu Tanrıya şükürlər, sənalar olsun! Belə olaq həmişə!

«Mədəniyyət» qəzeti, 1998.

Şahmar ƏKBƏRZADƏ

"ÖZÜMÜZÜ KƏSƏN QILINC" MİN İLDƏN ÇOXDUR Kİ, KORLAŞMIR. NİYƏ?

Yer üzündə qılıncı özünə qənim olan millətlər az olmayıb. Lakin onların arasında türkün faciəsinə bərabər faciə yoxdur. İmperiyalar bu milləti zaman-zaman "özünü məhvetmə" virusuna yoluxdurmuş, "xəstəliyin" anatomiyası, patologiyası və müalicəsi əsrlər boyunca gizli saxlanmışdır. İndi-indi anlayırıq ki, həmin bəladan xilas olmaq üçün dava-dərman, xəstəxana yox, qüdrətli qələm və milli qeyrət gərək imiş. Bunun gerçəkliyinə Milli Akademik Dram Teatrında xalq şairi Bəxtiyar Vahabzadənin "Özümüzü kəsən qılınc" ("Göy türklər") əsərinə baxandan sonra ürəkdən inandıq. İnandıq ki, tarixini yadlar yazan, yaddaşının qeyrətini çəkməyən millət manqurtlaşmağa məhkum olunur, yavaş-yavaş yer üzündən silinir. Bu mənada əsəri "tarixi-ictimai faciə" adlandırmaqda müəllif min dəfə haqlıdır.

Əlinə qələm alan gündən ilhamını millətinə qurban verən, yaradıcılığının ən təcrübəli, müdrik çağlarını yaşayan B.Vahabzadə diqqətimizi 1450 il bundan əvvələ — ulu əcdadlarımız Göytürklərin istiqlal uğrunda Çinə qarşı apardığı ölüm-dirim mübarizəsinə yönəldir. Qanımıza yeridilmiş yaltaqlıq, taxt-tac viruslarının haradan və necə gəldiyini böyük ustalıqla açır. Əsl bəla budur ki, doğma qardaşı Çulu Xaqanın meyidi üstündən hakimiyyətə gələn Qara Xaqanın faciəsi iyirminci əsrin sonunda yenə də təkrarlanır. Məğlubiyyətlərdən yaxa qurtarmaq rəmzi olan qəhrəman Gur Şad Bumin və İstemi Xaqanların qurduqları səltənətin yolunda sıravi olmağı xaqanlıqdan üstün tutur, halal haqqı olsa da taxt-taca sahib durmur. O, müqəddəs ideallarımızın əbədi rəmzi və qoruyucusudur. Əsərin qüdrəti özümüzü kəsən gözəgörünməz qılıncların kimlər tərəfindən itiləndiyinə gur işıq salmasındadır. Əslində Göy Türk dövlətini darmadağın etmək üçün Çin imperiyası adi qılınclardan daha təhlükəli, kəsərli yaraqlara əl atır. Bu yaraqların fitnəkarlıq, riyakarlıq, xəyanət və siyasətdən ibarət olduğunu Vahabzadə qələminin qüdrətilə aydın görə bilirik. Millətin qanını dəyişmək, dinini, dilini, əlifbasını əlindən almaq niyyətilə İçgen xatunların xaqanlığa casus göndərilməsi bu günümüzlə necə də səsləşir. Bəli, danılmaz həqiqətdir ki:

Zirvələrə qalxmaq üçün,
Təxt-taca çıxmaq üçün,
Başlıları yıxmaq üçün
Pusqularda dururuq biz!

Dramaturqun qayəsinə səhnə təcəssümü verən baş rejissor Ağakişi Kazımov, quruluşçu rəssam İsmayıl Əsədoğlu və bəstəkar Cavanşir Quliyev tarixi-ictimai faciəmizin sənət dililə açılması üçün bütün imkan və istedadlarından yetərincə istifadə etmiş, pyesin ideya baxımından açılmasına ürək qoymuşlar.

Tamaşanı bütövlükdə ürəyə bənzətsək, onun şah damarı truppadır. Xalq artisti Əliabbas Qədirov (Qara Xaqan), Ramiz Məlik (Dulu Xaqan), Nurəddin Mehdixanlı (Gur Şad), Rafiq Əzimov (Mubi Tərxan), Məcnun Hacıbəyov (Salur xan) bəzən öz rollarını təbii ələ-qana gətirsələr də, etiraf etməliyik ki, "Özümüzü kəsən qılınc"ın dəstəyi Laləzar Mustafabəylinin (İçgen xatun), Məleykə Əsədovanın (Selcan), Zemfira Nərimanovanın (Banu Çiçək), Sənubər İsgəndərovanın (Siyan Şi) əllərindədir. Onlarsız tamaşa tamaşa olmazdı.

Laləzarımız yeni ampulada istedadının intəhasızlığını nümayiş etdirir.Çin şahzadəsi və Göy Türk dövlətinin gəlini İçgenin fitnəkarlığını o qədər ustalıqla oynayır ki, tamaşaçı onun yerişinə, duruşuna, məkrinə bəzən əl çalır. Bu zaman əslində məkr yox, aktrisanın istedadı alqışlanır. Özümüzü kəsən qılıncı acgözlüklə itiləyən, şeytana papış tikən İçgenin çiyindaşı Siyan Şi obrazı ilə Sənubər İsgəndərovanın milli teatra yeni nəfəs gətirdiyi şübhəsizdir. Roldan rola özünü tapan Məleykənin Selcanına biz ağlamaya bilmirik. Zemfira Nərimanova ilə böyük səhnəyə qayıdan Nurəddin Mehdixanlı millətimizin ölməzliyini çox təbii, inandırıcı boyalarla göstərə bilirlər. Rejissor Ramiz Məlikə və Əliabbas Qədirova Qara Xaqan və Dulu Xaqan rollarını tapşırmaqda ağıllı və düzgün qərar verib. Bir sözlə, prezidentimizin təbirincə desək, "ədəbiyyatımızın tarixinə dəyərli əsər daxil olubdur".

Pyesin tarixi-ictimai dəyəri ondadır ki, səhnədə baş verən hadisələrlə həyatda başımıza gələn hadisələr arasında məsafə yoxdur.

Bəli, biz imperiyalara qul olanların, müstəqilliyimizə zəli kimi daraşıb Azərbaycanı içindən sarsıtmağa can atanların, özgə artığını yalamağı ləyaqət hesab edənlərin obrazlarını səhnədə görürük.

İçgenlərin törəmələri, başqa sözlə, ermənilərin içimizdə yaşayan bacısı oğullarının fitnə-fəsadları və onların qarşısını almaq yolları pyesdə aydan arı, sudan duru şəkildə öz əksini tapıb və biz dramaturgiyamızı zəngiləşdirən bu əsərin bölgə-bölgə, ölkə-ölkə bütün türk dünyasına

göstərilməsi və təcili dərsliklərə salınması zərurətini xüsusi vurğulayan Türkiyənin böyük elçisi Ecvet Tezcan cənablarının fikrini ürəkdən dəstəkləyirik. Müdrik sənətkarımız B.Vahabzadə yeni əsəriylə öz millətinin dərdinə yenə də için-için yanır. Çünki:

Vətəndən üzüb əlini,
Hərə güdür öz elini.
Əsir verib qız-gəlini
"Qızılxaç"dan soruruq biz.

Ümidverici burasıdır ki, "Özümüzü kəsən qılınc" tariximizə, ali məqsədimizə məşəl tutur. Bizi inandırır ki, yalnız Mete Xaqanın ölməz vəsiyyətinə əməl etməklə özümüzü kəsən qılıncları korşalda bilərik.

Əks halda, bizi nələr gözlədiyini dilə gətirməyi ürəyim şəhadət vermir. Müəllif bu əsəri yazmaqla millət vəkili kimi öz xalqı üçün tarixi bir iş gördüyünü sübuta yetirmişdir.

Bu gün Gur Şadımızın ruhu üçrəngli bayrağımızı dalğalandırsa da özümüzü kəsən qılıncın yaralarını heç vaxt unutmağa mənəvi haqqımız yoxdur.

"Azərbaycan" qəzeti, 16 aprel 1998.

"ÖZÜMÜZÜ KƏSƏN QILINC" PYESİ HAQQINDA Ə.ELÇİBƏYİN FİKİRLƏRİ

(Bəsti Əlibəyli ilə müsahibədən)

—...Əslində mən demişəm ki, milliyyətcə Türkəm, dincə İslamam — müsəlmanam, ruhca Şamanam. Yəni müxtəlif dövrlərdə nə qədər islamı, xristianlığı, buddizmi qəbul etsək də, Şaman ruhu bizdən getmir, çünki O içimizdə təbiətən, anadangəlmə var. Götürək bugünkü tamaşanı: Bəxtiyar müəllim böyük adamdı, alimdi, şairdi, amma onda da Şaman ruhu özünü göstərir. Çünki o ruh insanı tərk etmir, nə vaxtsa üstünü kül bassa da, qor qalıb közərir və sonra başlayır alovlanmağa. Özü də bu ruh təkcə Bəxtiyar müəllimdə yox, bütün xalqda, bu tamaşanı hazırlayanlarda, rolları oynayan aktyorlarda da var. Bilirsiniz, bu əsəri, deyək ki, ingilislərə, lap elə Amerikanın məşhur aktyorlarına versəniz, belə oynaya bilməz. Çünki onlarda şamançılıq, o ruh yoxdu və bu, peşəkarlıqla qazanılmır. Gərək adamın içində olsun. O eşqə qayıtmaqdı, kökə, qana qayıtmaqdı.

...Mən deyərdim ki, bu, Bəxtiyar müəllimin böyük zəhmətinin nəticəsidir və bir ilə, beş ilə yaranmayıb. Bu, bütöv bir azadlıq idealının içindən yarana-yarana gəlib və indi üzə çıxıb.

Tamaşada bir şey məni tutdu: bir aktyor şərdən dedi və camaat əl çaldı onun şərinə. Mən başa düşürəm, bizim xalq elə deyil ki, şərə əl çalsın. Əslində camaat o aktyorun şərinə yox, hökmdarı ələ salmağına əl çalırdı və burda iki hiss bir-birinə qarışırdı. Yəni o cür hökmdarın bu cür ələ salınmağı tamaşaçıların ürəyindən tikan çıxarırdı ki, sən elə buna layiqsən. Sonrakı bütün səhnələr də mənə güclü təsir göstərdi. Mən həmişə qədim Türk tarixini oxuduqca acımışam, bir sızıltı baş qaldırıb daxilimdə. Bu tamaşa isə həmin sızıltını bir daha üzə çıxardı, dəfələrlə gözlərim yaşardı. Zəiflik saysanız da bu, belə oldu.

Gürşad xan təfəkkürü Bəxtiyar müəllimin fəlsəfəsidir. O, tarixi, daxili və xarici xəyanətin nə olduğunu tutub və görür ki, bu gün Azərbaycanda, bütün Türk dünyasında belə xəyanətlər var. Kütləvi şəkildə Çindən başlamış Anadolunun içinə qədər yayılıb. Bəxtiyar bəy də bunu ədəbiyyata gətirib deyir ki, ay siyasətçilər, ay hökumətin başında oturanlar, buna baxıb nəticə çıxarın. Kənar düşmənlərə, yad himayələrə arxayınlaşmayın. Yəni bu, məsələnin Bəxtiyar qoyuluşudu, həm də dəfələrlə yaşadığımız faciədi. Bununla belə, sırf tarix deyil, bədii əsərdi.

"Müxalifət" qəzeti, 23 may 1998

MÜNDƏRİCAT

Ön söz (*Mail Dəmirli*) 3
Dövlət və siyasi xadimlərin təbrikləri, sitatları 9

Təhlil, tədqiq, təqdir və mülahizələr

MAİL DƏMİRLİ. Milli iftixarımız — şair Bəxtiyarımız 19
MAİL DƏMİRLİ. Bəxtiyar Vahabzadənin İstiqlal poeziyası 26
BƏKİR NƏBİYEV. Bəxtiyarşünaslığa hədiyyə 33
RAMAZAN QAFARLI. Bəxtiyar zirvəsi 38
AYAZ VƏFALI. Bir saat — bir ömürlük dərs 48
KAMAL TALIBZADƏ. Haqqımda yazılan kitab haqqında. "Şairin ədəbi görüşləri" 50
SƏMƏD MƏLİKZADƏ. Vətən sevgisi, millət dərdi, ana dili yanğısı 56
HİKMƏT ƏBDÜLHƏMİDOV, TELMAN MEHDİXANLI. Ömrün payız fəsli əlini sıxsa, küsmə, şair, çünki fəsillərdə payız — bərəkət, ömrün payızı — hikmətidir!... 58
ŞAHMAR ƏKBƏRZADƏ. İstiqlal poeziyamızın bayraqdarı 63
SULTAN LAÇIN. Qeyrət və hikmət 67
HACI İMAMVERDİ ƏBİLOV. Millətin, vətənin poeziyasının səməndər quşu 82
SULTAN İSMAYIL. Milli mədəniyyətini yaşatmayan millətlər yox olacaq 84
ELBƏYİ HƏSƏNOV. Bəxtiyar Vahabzadə Ankaradan ödüllə qayıtdı 85
ATABABA İSMAYILOĞLU. Azərbaycanın Bəxtiyarı 86
"ƏDALƏT". İş adamları Bəxtiyar müəllimə dəstək verəcəkmi? 90
LƏMAN. Azərbaycanlılar Bəxtiyar Vahabzadənin çağırışına qoşulurlar 91
YAVUZ AXUNDLU. Bəxtiyar Vahabzadə 92
ASƏF QULİYEV. Millətin vəkili 117
TƏRLAN NOVRUZOV. "Zaman və mən" publisistika mövqeyindən 119
HACI AZƏR ƏBİLOV. Qan udub dövran əlindən 121
"CÜMƏ AXŞAMI". Bəxtiyar Vahabzadə ensiklopediyası 128

MÜRŞÜD MƏMMƏDLİ. Bəxtiyar Vahabzadə haqqında söz 129
HACI İMAMVERDİ ƏBİLOV. Hürriyyət vəkili Bəxtiyar Vahabzadə 132
MİRZƏ YUSİF. Bəxtiyar Vahabzadə. Yeni şerlər 141
KAMİL VƏLİ NƏRİMANOĞLU. Yorulsaq da yolumuzdan dönməmişik 142
MÜRŞÜD MƏMMƏDLİ. Kimdir müqəssir? 147
SAMİR MEHDİZADƏ. "Bir ömür yuxu" 154
AKİF SALAM. O, ata evini uşaqlara bağışlayıb, qəlbini xalqa 158
ŞİRMƏMMƏD HÜSEYNOV. Şairin fəhmi, zamanın hökmü 160
MÜRŞÜD MƏMMƏDLİ. Ustad 162
ADİL ŞİRİN. Mənəvi nurun işığında 165
ADİL ƏSƏDOV. Fəlsəfi poeziya — Bəxtiyar Vahabzadə Azərbaycanın XX əsr fikir tarixində hadisə kimi 171
ƏHMƏD İSAYEV. Dəyərli ömrün dörd günü 174
CAVANŞİR MUSAOĞLU. Vətən quşa bənzər... Qanadlarının biri bu taydırsa, biri o taydır 185
VƏFA. Taleyin qismətindən zamanın hökmünə doğru 190
AKİF SALAM. Bəxtiyar ucalığı 197
ZÜLFİYYƏ ƏHMƏDLİ. "Daha 5—6 nəfəri xilas etmək olar" 204
TEYMUR XƏLİLOV. Diqqət və maraqla izləyirəm 205
XANIM MƏHYƏDDİN QIZI. Millətin ağrıyan canı — Bəxtiyar! ... 210
KƏRİMOV AĞAMİRZƏ. Şairin etiraz üsulları 211
RAHİD ULUSEL. Bəxtiyar Vahabzadə — Ümummilli vəhdət nidası 218
NOVRUZ İSAZADƏ. İstiqlal şairinin xəyal qıraqlığı 226
YAŞAR QARAYEV. Şairin və şerin milliliyi 234
NAHİD HACIZADƏ. Bəxtiyar sehri, Bəxtiyar heyrəti... 239

Bəxtiyar Vahabzadənin pyesləri haqqında

Milli birliyi, dövlətçiliyimizi qorumağa səsləyən əsər 257
TOFİQ HACIYEV. V.Bəxtiyar: "Özümüzü kəsən qılınc" və ya: Tarix bu günün xidmətində 258
RAMAZAN QAFARLI. Özlərini doğmalar arasında yadlaşdıranlar 260
RAMAZAN QAFARLI. Özlərini yadlaşdıranların doğmalaşması mümkündürmü? 269
İNQİLAB KƏRİMOV. Göytürk xaqanlığının istiqlal mübarizəsi 281
BƏKİR NƏBİYEV. "Özümüzü kəsən qılınc" 285
İ.HACIYEVA. Həyatımızın reallıqları səhnəmizdə 292
İMRAN AXUNDOV. Milli teatrımızın son 25 ildəki ən böyük qələbəsi 294
FƏRİDƏ SƏFİYEVA. "Hara gedir bu dünya?" 296
NİZAMİ CƏFƏROV. Bir tamaşa haqqında bir neçə söz 300
TALEH HƏMİD. Nə qədər ki, biz içimizdəki hakimiyyət yanğısını öldürə bilməmişik, öz qılıncımız özümüzü kəsəcək 303
CƏMİL ƏLİBƏYOV. Bəxtiyar Vahabzadənin "Dar ağacı" 306
ƏYYUB KƏRİMOV. Bəxtiyar Vahabzadənin "Dar ağacı" 312
ŞAHNAZ MƏTLƏBQIZI. "Dar ağacı" 315
KAMİL VƏLİ NƏRİMANOĞLU. Milləti zəlil qoyub gedənlərin səhnə ağısı 319
FİRUZ MUSTAFA. "Dar ağacı" ilə üz-üzə 322
HÜSEYN ABBASZADƏ. Türk özünə qayıdanda 324
AYDIN DADAŞOV. Göytürklərin draması 329
FƏRİDƏ SƏFİYEVA. Bəxtiyar Vahabzadənin pyesləri Türkiyə səhnəsində 340
YAŞAR QARAYEV. Babəksiz dar ağacı, yoxsa heykəlsiz pyedestal 343
NƏRİMAN HƏSƏNƏLİYEV. Bir olsaq özümüzü kəsməz bu qılınc? Belə olaq həmişə 353
ŞAHMAR ƏKBƏRZADƏ. "Özümüzü kəsən qılınc" min ildən çoxdur ki, korşalmır. Niyə? 357
"Özümüzü kəsən qılınc" pyesi haqqında Əbülfəz Elçibəyin fikirləri 359

TÜRK DÜNYASININ BƏXTİYARI
(Bəxtiyar Vahabzadənin həyatı, yaradıcılığı və
ictimai fəaliyyəti haqqında məqalələr toplusu)
Azərbaycan dilində
Bakı—Təfəkkür—2002

Nəşriyyatın direktoru **Məleykə Əsgərova**
Redaktoru **Xaliq Əliyev**
Korrektoru **Vüsalə Sabirqızı**
Operatoru **İradə Hüseynova**
Kompüter tərtibatçısı **Aleksandr Popov**

Çapa imzalanmış 12.06.2002.
Formatı 60x84 1/16.
Fiziki ç/v 22,75. Şərti ç/v 21,15.
Sifariş 33. Tiraj 500.

"Təfəkkür" Nəşriyyat-Poliqrafiya Mərkəzi
Ünvan: 370108. Bakı, Dərnəgül,
Ağasadıq Gəraybəyli 30/97.
Tel.: 62-65-44. Mob.: (850) 323-10-44

AR 2002
460